DÖVLƏT İMTAHAN MƏRKƏZİ
www.dim.gov.az | www.abiturient.az | www.mekteb.edu.az

ABİTURİYENT

№ 12
2025

2025/2026-cı

tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlili

REDAKSİYA ŞURASI

M.M.Abbaszadə, N.Ə.Babayev,
K.R.Aydazadə, Ş.V.Bayramov,
F.Ş.Bədəlbəyli, G.Ç.Gəraybəyli,
B.B.Xəlilov, A.M.Paşayev,
G.H.Məmmədova, V.R.Misirov.

REDAKSİYA HEYƏTİ

M.Ə.Bədəlov (baş redaktor),
İ.M.Allahverdiyev, A.H.Bağırov,
G.M.Balacanova, A.H.Batıyeva,
N.N.Bayramova, V.O.Əkbərov,
N.L.Əliyev, X.S.Əzimova,
K.X.Hacıyeva, A.E.Həbibov,
V.H.Həmidov, N.Z.Hüseynova,
Ç.C.Xəlilov, P.K.Kazımov,
A.Ə.Qasımov, S.S.Mərdanov,
O.Y.Şelaqinov, E.T.Şirinov,
H.R.Zeynalov.

Abituriyent az

"Abituriyent" jurnalının
onlayn satış sistemi

Jurnalın buraxılışlarına geniş ictimaiyyətin dərin maraq göstərməsi nəzərə alınaraq onun online satış sistemi də istifadəyə verilib. Bu sistem vasitəsilə jurnalın bütün sayları və xüsusi buraxılışlarını, test kitabçaları, metodiki vəsaitlər və statistik materialları əldə etmək mümkündür. Bunun üçün istifadəçi online rejimdə jurnalın almaq istədiyi buraxılışını seçib, Visa/VisaElectron və Master/Maestro plastik kartlarından istifadə etməklə ofis və evə göndərilməsini sifariş edə bilər. Sifarişlər poçtla ünvana çatdırılır.

MÜNDƏRİCAT

2025/2026-cı TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

GİRİŞ 2

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU 10

1.1. Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulu 232
1.2. Ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə tələbə qəbulu 266
1.3. Dövlət və özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun müqayisəli təhlili 275
1.4. Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu 281
1.5. Bölgələr üzrə 2025-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili 283
1.6. Ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan abituriyent və subbakalavrların təhsilə davamiyyəti 340

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL 350

3. REZİDENTURAYA QƏBUL 387

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU 423

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu 423
4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu 437

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ 446

6. ELMİ-STATİSTİK TƏHLİLƏ ƏLAVƏLƏR 493

ƏLAVƏLƏR 543

- Buraxılış imtahanlarında və ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsində iştirak edən nəzarətçilərin fəaliyyəti 543
- Dövlət qulluğu üzrə müsahibə sənədlərinin yoxlanılmasının və sertifikatların emalının rəqəmsallaşdırılması: 2025-ci ilin yekun göstəriciləri, analizi və inkişaf istiqamətləri 562
- Elektron informasiya sistemlərinin tətbiq edildiyi dövlət qulluğu fəaliyyətində yeniliklər, hesabatlar və təhlillər 566
- 2025-ci il üzrə ümumtəhsil müəssisələrində təhsilalanların yekun attestasiyası və incəsənət təhsili müəssisələri məzunlarının qeydiyyatı ilə bağlı informasiya sistemləri üzərindən hesabatlar və təhlillər 577
- "Tələbə-məzun" dövlət elektron məlumat sistemində yeniliklər, 2025-ci ilin yekunları və analitik təhlil 592
- İnsan resurslarının idarə edilməsi üzrə elektron sistemlərin tətbiqi 598
- Buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı metodik materialların hazırlanması, dərslik komplektlərinin elmi-metodik monitorinqi (qiymətləndirilməsi), hazırlıq kursları və "YAŞAT" fondu ilə iş haqqında 608
- DİM-in vətəndaşlara göstərdiyi elektron xidmətlər 613
- DİM-in 2025-ci ildə keçirdiyi imtahanlar 614
- Xüsusi qabiliyyət tələb edən ixtisaslara tələbə qəbulu 624
- Beynəlxalq əməkdaşlıq, innovasiyalar və strateji inkişaf layihələri üzrə fəaliyyət 631
- Beynəlxalq imtahanlar 636
- Hədəf əhali qruplarının psixoloji maarifləndirilməsi istiqamətində həyata keçirilən fəaliyyət 638
- "Yüksəliş" müsabiqəsi çərçivəsində təşkil olunan tədbirlər və koordinasiya olunan fəaliyyət 643
- DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər 645
- DİM 2025-ci ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası 654

THE SUMMARY of the "Abiturient" Journal: Issue 12 684

Biz elə etməliyik ki, gələcəkdə ölkəmizin
uğurlu və uzunmüddətli inkişafını elm, biliklər,
texnologiyalar müəyyən etsin. Elmi-texniki tərəqqi
hər bir ölkə üçün onun gələcəyini müəyyən
edən ən mühüm amildir. Xüsusilə XXI əsrdə ölkələrin
gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı
olacaqdır. Ona görə uşaqlarımız, gənclərimiz bilikli,
savadlı olmalıdırlar, dünyada gedən yenilikləri
bilməlidirlər. Əlbəttə ki, müəllim
heyəti də təhsilin yüksək səviyyəsini təmin etməlidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

2025/2026-cı TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARI NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

M.M.Abbaszadə, O.Y.Şelaginov, S.A.Quliyev

GİRİŞ

Bütün sahələrdə həyata keçirilən islahatların nəticəsində ölkəmiz davamlı olaraq inkişaf edir, onun beynəlxalq aləmdə nüfuzu güclənir. Hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Bu inkişafın əsasında Ulu Öndər Heydər Əliyevin ideyalarının işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır.

Dövlətçilik tariximizdə dərin, silinməz izlər qoyan Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyətlərdən biri kimi milli qürur mənbəyimizdir. Onun həyatı, fəaliyyəti, dövlətə, xalqa xidmətləri həmişə öyrənilməli, vətəndaşlıq mövqeyinin, milli özünüdərkin formalaşdırılmasında örnək göstərilməlidir. Ulu Öndərin görkəmli dövlət xadimi kimi fəaliyyəti Azərbaycan Respublikasının strateji yol xəritəsi kimi çox əhəmiyyətlidir. Ümummilli Lider Azərbaycana rəhbərliyinin birinci dövründə xalqın milli dirçəlişinə nail oldusa, hakimiyyətinin ikinci dövründə ölkəni parçalanmaq təhlükəsindən qurtardı.

Ulu Öndər Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün dövrlərdə ictimai, siyasi, sosial, iqtisadi, mədəni sahələrdə üzvi bağlılığı təmin etmiş, həlli vacib olan vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirməyə nail olmuşdur. O, Azərbaycanın müstəqilliyinin qorunmasında gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü bildirir, onları daha yaxşı təhsil almağa, vətənpərvər bir insan kimi yetişməyə səsləyirdi. Buna nail olmaq üçün isə Azərbaycanda elmin və təhsilin inkişafına xüsusi diqqət yetirirdi. Həmin diqqət və qayğının nəticəsidir ki, bilavasitə onun rəhbərliyi ilə elm və təhsil sahəsində məqsədyönlü islahatlar aparılmış, dünyada sınanmış qabaqcıl texnologiyaların tətbiqi dəstəklənmiş, bütün sahələrdə inkişafın əsası kimi elm və təhsilin üstün rolu əsaslandırılmışdır.

Ümummilli Lider cəmiyyətin inkişafında peşəkar kadrların rolunu yüksək qiymətləndirirdi. Belə kadrlar elmi biliklərə dərindən yiyələnməklə, müasir çağırışların tələblərinə cavab verməklə, mükəmməl təhsil almaqla, səriştəli mütəxəssislər kimi yetişməklə formalaşa bilər. Bunun təməli isə ali təhsil pilləsində qoyulur. Ona görə də ali təhsil müəssisələrinə tələbə qəbulu dövlətin mühüm əhəmiyyətli sahələrindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Ulu Öndər bu məsələni həmişə diqqət mərkəzində saxlamış, ali məktəblərə qəbulda şəffaflığın, obyektivliyin təmin olunması, eləcə də tələbə adını qazanan gənclərdə motivasiyanın yaradılması üçün əhəmiyyətli qərarlar qəbul etmişdir. Təhsil sahəsində yüksək nailiyyətlər əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şəraitin yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədi ilə 3 sentyabr 2001-ci ildə imzalanan müvafiq Fərmanla Prezident təqaüdünün təsis edilməsi bu xoş məramın məntiqi nəticəsi kimi çox əhəmiyyətlidir. Ulu Öndər həmin Fərmana uyğun olaraq, 2001/2002-ci tədris ilində qəbul imtahanlarında yüksək nəticə əldə etmiş 25 tələbəyə Prezident təqaüdünün verilməsi ilə bağlı Sərəncam imzalamışdır.

Ümummilli Lider Heydər Əliyev təhsilimizin böyük qayğıkeşi olaraq hər il ali məktəbə yüksək balla daxil olan gənclərlə Prezident sarayında görüş keçirir, onları təbrik edir, öz tövsiyələrini verirdi. Bu isə sonrakı illərdə ali təhsil pilləsinə qəbul olanlar arasında yüksək bal toplayanların sayının artmasında əhəmiyyətli rol oynamışdır. Həmin görüşlərdə Ulu Öndər Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK-nın) işini yüksək qiymətləndirmiş, qəbul prosesinin daha da təkmilləşdirilməsi məqsədi ilə öz tövsiyə və tapşırıqlarını vermişdir. TQDK bu tapşırıqları özünün fəaliyyət planı kimi müəyyənləşdirmiş və onların icrasına nail olmuşdur. Həmin tapşırıqları Dövlət İmtahan Mərkəzi (DİM) də fəaliyyətində rəhbər tutur.

Təqdirəlayiq haldır ki, Ulu Öndərin ideyaları əsasında Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları da təhsil sistemində keyfiyyətcə yeni inkişafa, yüksək nəticələrin əldə edilməsinə geniş imkan və şərait yaradır. Ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsinin əsas hədəfləri çoxşaxəli, səmərəli və innovasiyayönlü iqtisadiyyatın formalaşdırılması, elmin, təhsilin, mədəniyyətin və ictimai həyatın digər sahələrində yeni nailiyyətlərin əldə olunmasıdır. Respublikamızın rəhbərliyi bunları nəzərə alaraq təhsil sisteminin inkişafına böyük önəm verir, onu dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi ön plana çəkir və nəticə etibarı ilə bu sahədə kompleks proqramlar həyata keçirilir.

Prezident İlham Əliyev gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədi ilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrin reallaşdırılmasında iştirakına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədi ilə 2011-ci ildə Gənclər Fondu yaradılmışdır. Sevindirici haldır ki, ölkə rəhbəri tərəfindən bu sahəyə diqqət və qayğı ilbəil artır.

Bu gün də Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən hər islahat, baş verən hər bir hadisə, ilk növbədə, Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır. Ölkə rəhbəri cənab İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində respublikamızda müasirləşmə strateji hədəf olaraq müəyyənləşdirilmiş, təhsil yeni texnologiyalara çıxış imkanlarını genişləndirmək, azərbaycançılıq ideyalarına sadiq olan, yaradıcı düşünən şəxsiyyət yetişdirmək, müasir təfəkkürlü, rəqabət qabiliyyətli kadrlar hazırlamaq məqsədi ilə dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul edilmişdir. Buna nail olmaq üçün tələbə qəbuluna mütəxəssis hazırlığının çox mühüm strateji əhəmiyyətli tərkib hissəsi kimi yanaşılır. Gənclərin təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədi ilə bu sahəyə diqqət və qayğı ilbəil artır.

Təhsilin əlçatanlığının genişləndirilməsi istiqamətində görülən işlərlə bağlı qeyd etməliyik ki, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Prezident Sərəncamına əsasən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanında iştirak üçün ilk dəfə müraciət etmiş abituriyentlərin, həmçinin qeyd olunan Sərəncama 2021-ci il mayın 7-də edilmiş dəyişikliyə əsasən əlavə olaraq 5 kateqoriyaya (ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları; şəhid ailəsinin üzvləri; valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar; məcburi köçkün statusu olan şəxslər; I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar) aid şəxslərin imtahanlarda iştirakı üçün tələb edilən məbləğin ödənilməsinin dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi tələbə qəbulunun stimullaşdırılmasında mühüm rol oynamışdır.

2021-ci ildən tarix fənni üzrə imtahan proqramına "Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" mövzusu daxil edilib. Bu mövzunun qəbul imtahanı proqramına daxil edilməsini tarixi zərurət kimi qiymətləndirmək olar, çünki Vətən müharibəsindəki möhtəşəm zəfər hər birimizin qürur mənbəyidir. Vətən müharibəsi zamanı dövlətimizin düzgün siyasi strategiyasının nəticəsi olaraq məhz güclü, intellektual ordumuz, yüksəkixtisaslı kadr potensialımız və milli təhsil sisteminin yetirmələri olan gənclərimizin sayəsində ölkəmizin zəfər çalması reallaşdı. Bu bir daha müasir dünyada hər bir ölkənin gələcəyinin onun təhsilinin səviyyəsi ilə nə dərəcədə bağlı olduğunu göstərir.

2023-cü il sentyabrın 19-da Xocavənd rayonu ərazisində erməni silahlı birləşmələrinin törətdikləri terror aktından sonra Azərbaycan ordusu lokal xarakterli antiterror tədbirlərini həyata keçirməyə başladı. Bu əməliyyat həm də Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd davranması, eləcə də 2022-ci ilin oktyabrında Praqada və 2023-cü ilin mayında Brüsseldə Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə keçirilən görüşlərdə rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməsinə baxmayaraq, Qarabağda yerləşən silahlı qüvvələrini bölgədə saxlamaqda davam etməsinə son qoymaq, Qarabağda Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətində olan ərazilərə Ermənistanın qeyri-qanuni yollarla əsgər, silah, texnika göndərməsinin, habelə 2020-ci ildə azad edilmiş ərazilərin yaxınlığında qanunsuz silahlı birləşmələrin mühəndis-istehkam qurğuları qurmağa cəhd göstərməsinin, mina terroru həyata keçirməsinin, şəhər və məntəqələri davamlı olaraq müxtəlif silahlardan atəşə tutmasının qarşısını almaq məqsədi daşıyırdı. Lokal xarakterli antiterror tədbirləri nəticəsində qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi, Xankəndi, Xocavənd, Xocalı, Ağdərə şəhəri və Əsgəran qəsəbəsi də daxil olmaqla bütün yaşayış məntəqələri düşməndən təmizləndi. Beləliklə də, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti və ordumuzun rəşadəti sayəsində ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi.

Qətiyyətlə deyə bilərik ki, bu tarixi qələbənin qazanılmasında ümumtəhsil müəssisələrimizdə vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə qurulması da əhəmiyyətli rol oynamışdır. Zəfərimiz təsdiqlədi ki, təhsil, bilik və təcrübə hətta ən çətin məsələləri həll edə bilən böyük qüvvədir.

Respublikamızın mövcud potensialı ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməyə qadirdir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da ölkəmizdə insan kapitalının inkişaf etdirilməsi, onun ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə qoşulması prosesində rəqabətqabiliyyətli olması və hər bir təhsilalanın müasir bilik, bacarıq və vərdişlərə yiyələnməsinin təmin edilməsi təhsil sisteminin başlıca vəzifələri kimi irəli sürülür. Bu vəzifələrin həlli məqsədi ilə Azərbaycanda insan kapitalının inkişafında fasiləsizliyin (ömürboyu təhsilin) təmin edilməsi, məktəbəqədər və ümumi təhsil də daxil olmaqla, peşə təhsilli və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, eləcə də "elm-təhsil-istehsal" əlaqələrinin təkmilləşdirilməsi istiqamətində müvafiq proqramların hazırlanması və həyata keçirilməsi sahəsində işlər davam etdirilir. Doğrudan da, daha keyfiyyətli insan kapitalının formalaşdırılması maddi və mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verə bilər.

Ali təhsil müəssisələrində hazırlanan mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması prioritet istiqamətlərdən biri olmalıdır. Bu, müasir dünyada gedən qloballaşma, rəqabət və informasiya cəmiyyəti quruculuğu proseslərində yüksək peşəkarlıqla çalışa biləcək kadr potensialının hazırlanması üçün çox vacibdir.

Dövlətin təhsil siyasətini həyata keçirən qurumlardan biri kimi Dövlət İmtahan Mərkəzi Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi dövlət proqramlarını, verdiyi fərman və sərəncamlardan irəli gələn vəzifələri yerinə yetirmək üçün məqsədyönlü işləri davam etdirir. 2025-ci ildə tələbə qəbulu kampaniyasının və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının təşkili və keçirilməsi ilə əlaqədar görülmüş işlər də bu fəaliyyətin tərkib hissəsidir.

Dövlət İmtahan Mərkəzi 2025/2026-cı tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulunu "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na əsasən aparmışdır. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

2025/2026-cı tədris ili üçün respublikanın ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul proqramları, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları "Abituriyent" jurnalının 1-ci nömrəsində dərc edilərək ictimaiyyətə çatdırılmışdır. Jurnalda hər bir fənn üzrə test tapşırığı modellərinə uyğun nümunələr təqdim edilmişdi ki, qəbul imtahanlarında hansı model, tip və mürəkkəblik dərəcəsinə malik test tapşırıqlarında istifadə ediləcəyi barədə abituriyentlərin əvvəlcədən təsəvvürü olsun.

Qəbul imtahanlarına müstəqil şəkildə (repetitor xidmətindən istifadə etmədən) hazırlaşanlara kömək məqsədi ilə təcrübəli ekspertlərin internet vasitəsi ilə imtahan fənləri üzrə video-məsləhətləri təşkil edilmiş, abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırıqlarının izahı verilmiş, yol verdikləri səciyyəvi səhvlər araşdırılmışdır. "Videomühazirə" adlanan bu layihənin ikinci mərhələsində tanınmış mütəxəssis-ekspertlər tərəfindən bütün fənlər üzrə qəbul proqramlarının mövzularını əhatə edən mühazirələr təqdim olunmuşdur. Mühazirələrdə nəzəri materiallar test tapşırıqlarının həlli ilə müşayiət olunmuşdur. Layihədə bölgələrin qabaqcıl və təcrübəli müəllimləri də iştirak etmişdir.

İmtahanların məzmunu formalaşdırılarkən ənənəvi test tapşırıqları ilə yanaşı, yeni tip – yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar da tətbiq olunmuşdur. Şagird və abituriyentlərin yeni tip test tapşırığı modelləri haqqında təsəvvürlərini genişləndirmək və onlarla işləmək vərdişlərini inkişaf etdirmək üçün belə tapşırıqların fənlər üzrə nümunələri "Abituriyent" jurnalında dərc olunmuş, eyni zamanda sınaq imtahanlarında yoxlamadan keçirilmişdir. Belə tapşırıqlar abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli üzə çıxarılmasına, əldə olunmuş biliklərin praktikada tətbiqi mexanizmlərinin inkişaf etdirilməsinə, mənimsəmənin dörd səviyyəsinin (bilik, anlama, tətbiqetmə və bacarıq) yoxlanılmasına, xüsusilə də qiymətləndirmədə yüksək hazırlıqlı abituriyentlərin fərqləndirilməsinə imkan vermişdir.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq imtahanlar üçün sual kitabçalarının çapını həyata keçirmək üçün layihələndirilmişdir) fərdi qaydada çap olunmuş və imtahan zalları üzrə komplektləşdirilmişdir.

DİM-in regional bölmələrinin xətti ilə görülən işlərin həcmi xeyli artmışdır. Bölmələrin səmərəli fəaliyyəti sayəsində rayonlarda çalışan müəllimlər yalnız təşkilati tədbirlərə deyil, elmi-metodik işlərə də cəlb edilmişdir. Beləliklə, respublika üzrə bu sahəyə marağı olan müəllimlər üçün geniş imkanlar yaradılmışdır ki, bu da qəbul kampaniyasının keyfiyyətinə müsbət təsir göstərir.

Qəbul imtahanlarına hazırlıq ərəfəsində gənclərin öz bilik səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələdliyi və imtahana psixoloji cəhətdən hazır olmaları üçün respublikanın bütün bölgələrini əhatə etməklə, müvafiq texnologiyalara uyğun təşkil olunmuş sınaq imtahanları keçirilmişdir. Eyni zamanda, DİM abituriyentlərin istədikləri vaxt fərdi qaydada internet vasitəsi ilə sınaq imtahanında iştirakı üçün xüsusi proqram hazırlamışdır. Eləcə də buraxılış, qəbul, magistratura, rezidentura, doktorantura, dövlət qulluğu, musiqi istiqaməti üzrə imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun onlayn sınaq variantları hazırlanmış və otk.az portalında yerləşdirilmişdir. "Abituriyent" jurnalı ilə əməkdaşlıq çərçivəsində redaksiyanın nəşr etdiyi siniflər üzrə qiymətləndirmə tapşırıqları kitablarında və test toplularının ikinci səhifəsində hədiyyə kuponları yerləşdirilmişdir. Bu kuponlar vasitəsi ilə istifadəçilər kitabların orijinallığını yoxlaya, həmçinin otk.az portalında pulsuz sınaqlardan yararlana bilirlər.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara (XQTİ-lərə) tələbə seçimi ali təhsil müəssisələrinə qəbul işinin tərkib hissəsidir. Dövlət İmtahan Mərkəzi bu ixtisasları seçən abituriyentlərə səmərəli elmi-metodik kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Bu məqsədlə DİM "Abituriyent" jurnalının xüsusi qabiliyyət tələb edən ixtisaslar və qəbul prosesinə aid ən zəruri materialların dərc edildiyi "Xüsusi qabiliyyət imtahanları" xüsusi buraxılışlarını abituriyentlərin istifadəsinə təqdim etmişdir. Bu xüsusi buraxılışlarda XQTİ-nin yığcam xarakteristikası, bu ixtisaslar üzrə müsabiqə şərtləri, onların hansı ali təhsil müəssisələrində tədris edilməsi haqqında məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar dərc edilmişdir. Təqdim olunan materialların həcmi kifayət qədər geniş olduğundan, materiallar xüsusi qabiliyyət tələb edən ixtisasların xüsusiyyətlərinə uyğun olaraq 6 istiqamət üzrə 5 kitabçada qruplaşdırılmışdı. Həmin istiqamətlər bunlardır:

1. Təsviri sənət;
2. Musiqi sənəti;
3. Memarlıq;
4. Teatr, kino və xoreoqrafiya sənəti;
5. Bədən tərbiyəsi və idman;
6. Jurnalistika.

İmtahan rəhbərlərini və nəzarətçiləri imtahanlara hazırlaşdırmaq istiqamətində həm paytaxtda, həm də ayrı-ayrı bölgələrdə çoxsaylı tədbirlər həyata keçirilmişdir. İmtahan rəhbərləri bazasının zənginləşdirilməsi məqsədi ilə AMEA-nın və Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutları, eləcə də bir sıra dövlət qurumlarının nümayəndələri imtahanlarda rəhbər qismində iştirak etməyə cəlb olunmuşdur. Bazaya ilk dəfə daxil edilən imtahan rəhbərləri ilə xüsusi seminar-məşğələlər keçirilmiş, təlimata uyğun təcrübə və səriştə əldə etmələri üçün onlar öncə sınaq, sonra qəbul imtahanlarında iştirak etmişdir.

İşə vicdanla yanaşan, səriştəli və məsuliyyətli müəllimlər hesabına nəzarətçilər bazasının zənginləşdirilməsinə də xüsusi diqqət yetirilib. Yanvar ayından etibarən Bakı şəhəri ilə yanaşı, ölkənin digər bölgə mərkəzlərində də nəzarətçi-müəllimlərlə seminar-məşğələlər təşkil olunub. Seminar-məşğələlərdə müəllimlərə qəbul imtahanı prosesinin idarə olunması hərtərəfli izah edilib, imtahan texnologiyasına aid öyrədici film nümayiş etdirilib.

2024-cü ilin oktyabr ayından etibarən həm paytaxtda, həm də bölgələrdə imtahan keçiriləcək 850-dən çox binaya baxış keçirilmiş, onların imtahana yararlılıq səviyyəsi yoxlanılmış, texniki pasportları dəqiqləşdirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti qurumlarla birgə iş aparılmışdır. İmtahan binaları haqqında yenilənmiş məlumat "İmtahan yerləri bazası"na daxil edilmişdir. İmtahan keçirilən binaların təhlükəsizlik baxımından yoxlanılması üçün lazımi tədbirlər həyata keçirilmişdir.

Dövlət İmtahan Mərkəzinin göstərdiyi həm elektron, həm də ödənişli xidmətlərdən faydalanmaq istəyən hər bir istifadəçi (abituriyent, bakalavr, namizəd) şəxsi kabinet yaratmışdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilir. İstifadə edilmiş xidmətlər, imtahan nəticələri və digər məlumatlar istifadəçinin şəxsi kabinetində öz əksini tapır. Kabinet yaradılan zaman onun pul hesabı da açılır. Hesaba lazımi miqdarda vəsait əlavə etmək üçün müxtəlif ödəniş üsullarından yararlanmaq olar. Həmin vəsait DİM-in göstərdiyi xidmətlərə görə ödəniş üçün istifadə edilir.

Tam və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının nəticələri, əvvəlki illərin məzunları üçün isə buraxılış imtahanı qaydasında keçirilən qəbul imtahanının nəticələri əsasında aparılmışdır.

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında ixtisas seçimi ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələri açıqlandıqdan sonra ali təhsil müəssisələrinin boş qalan yerlərinə ərizə qəbulu ilə eyni vaxtda – avqustun 28-dən sentyabrın 2-dək aparılmışdır. Abituriyentlərə həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilmişdir. Onlar öz ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərmək imkanı qazanmışdır.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu fevralın 20-dən martın 5-dək, ixtisas seçimi isə iyulun 31-dən avqustun 7-dək internet vasitəsi ilə aparılıb. Qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat isə "Abituriyent" jurnalının 3-cü nömrəsində təqdim olunub.

Respublikanın ümumtəhsil müəssisələrində ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanlarını DİM tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün rus dili, riyaziyyat və xarici dil fənləri üzrə mərkəzləşdirilmiş qaydada keçirmişdir. Hər iki təhsil səviyyəsi üzrə keçirilən imtahanlarda şagirdlərə, ümumilikdə 85 test tapşırığı təqdim edilmişdir. "Abituriyent" jurnalının xüsusi buraxılışlarına müvafiq olaraq buraxılış imtahanı proqramları və test tapşırığı nümunələri daxil edilmişdir.

Buraxılış imtahanlarının mütəşəkkil qaydada keçirilməsi məqsədi ilə "Şagird–məzun" sistemi üzrə buraxılış imtahanlarında iştirak edəcək şagird kontingentinin seçilməsi, imtahan mərkəzlərinin müəyyənləşdirilməsi, imtahan rəhbərləri və zal nəzarətçilərinin imtahanlara hazırlığı, test bankının zənginləşdirilməsi, proqram təminatının hazırlanması, eləcə də təşkilati tədbirlər istiqamətində geniş hazırlıq işləri görülmüşdür. İmtahanlar regionlar üzrə qruplaşdırılaraq ayrı-ayrı günlərdə keçirilmiş, şagirdlərin rahatlığının təmin olunması üçün yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də təşkil edilmişdir.

Məlum olduğu kimi, buraxılış və qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar təhsil proqramları (kurikulumlar) əsasında hazırlanır. Bunu nəzərə alaraq, DİM-də kurikulumlar əsasında qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə vasitələrinin hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kursları təşkil edilmişdir. Kurslarda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji yönlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq ixtisas üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak etmişdir. Gələcəkdə həmin şəxslər tapşırıq müəllifi, ekspert və imtahan materiallarının yoxlanılmasında marker kimi Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edə biləcəklər.

Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu bu il də internet vasitəsi ilə aparılmışdır. Bu üsul ərizə təqdimetmə prosedurunu sadələşdirməklə bərabər, abituriyentlərin buraxa biləcəyi məntiqi səhvlərin qarşısını almağa da imkan yaradır. Abituriyentlər DİM-in müəyyən etdiyi müddət ərzində özləri barədə tələb olunan məlumatları göstərməklə "Elektron ərizə" doldurmuşdur.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, müsabiqə şərtləri, qəbul aparılan ixtisasların planı, o cümlədən dövlət sifarişi üzrə qəbul aparılan yerlərin proqnozu "Abituriyent" jurnalının 4-cü nömrəsində verilmişdir. Proqnozda qəbul aparılan ixtisasların siyahısı, yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin adları daxil edilmişdir.

2025-ci ildə abituriyentlərə eyni zamanda ali təhsil müəssisələrinin həm I-IV ixtisas qruplarına (hər hansı biri və yaxud ikisi üzrə) daxil olan ixtisaslar, həm V ixtisas qrupuna daxil olan ixtisaslar, həm də tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmək imkanı yaradılmışdır. I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi hər qrup üzrə iki dəfə (iki cəhd) keçirilmişdir. İxtisas seçmək hüququ olan abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda, eyni vaxtda I-IV ixtisas qruplarının hər hansı biri və ya ikisi, o cümlədən I ixtisas qrupunun Rİ və RK altqrupları, III ixtisas qrupunun DT və TC altqrupları və V ixtisas qrupu üzrə ixtisas seçimində iştirak etmişdir. Hər ixtisas qrupu üzrə imtahan vaxtından bir neçə gün əvvəl abituriyentlərə internet vasitəsi ilə "İmtahana buraxılış vərəqələri" əldə etmək imkanı yaradılmışdır.

Bütün abituriyentlər üçün ixtisas seçimi və müsabiqə eyni vaxtda – ali təhsil müəssisələrinə bütün qəbul imtahanları başa çatdıqdan sonra keçirilmişdir.

Müxtəlif təyinatlı imtahanların mütəşəkkil keçirilməsində Daxili İşlər Nazirliyi, "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Səhiyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşəkarlığı mühüm rol oynamışdır.

Hər ixtisas qrupu üzrə qəbul imtahanı keçirildikdən sonra abituriyentlərin imtahan balları internet vasitəsi ilə elan edilmiş, onların düzgün ixtisas seçiminə kömək məqsədi ilə hər bir ixtisas qrupunun abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsait çap edilmişdir. Vəsaitdə dövlət sifarişli və ödənişli əsalarla təhsil, Azərbaycan və rus bölmələri üzrə ayrılıqda və hər iki bölmənin birgə müsabiqəsinə aid qəbul planları verilmiş, müsabiqəyə buraxılma şərtləri, eyni zamanda müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasına dair məlumatlar təqdim olunmuşdur.

Abituriyentlərin ixtisas seçimi zamanı düzgün istiqamət götürmələrinə kömək məqsədi ilə ali və orta ixtisas təhsili müəssisələrinə ötənilki qəbul imtahanlarında formalaşmış keçid balları haqqında məlumatlar da ayrıca vəsaitlərdə təqdim edilmişdir. Abituriyentlərə ixtisas seçimi zamanı "Bakalavr ixtisasları" adlı vəsaitlərdən yararlanmaq da tövsiyə olunmuşdur. Bu vəsaitlərdə hər bir ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması, ixtisasın xarakteristikası, təyinatı, bu və ya digər ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları şərh olunmuş, onların gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər avqustun 11-dən 19-dək internet vasitəsi ilə ixtisas seçimi etmişdir. Abituriyentlər qəbul qaydalarına əsasən imtahan verdikləri ixtisas qrupuna (qruplarına) aid 15-dək ixtisas kodunu seçə bilərdilər.

Ali təhsil müəssisələrinə müsabiqə və yerləşdirilmənin nəticələri ictimaiyyətə həm "Abituriyent" jurnalı, həm internet, həm də mobil operatorlar – "Azercell", "Bakcell" və "Nar Mobile"-nin müvafiq xidmətlərindən istifadə yolu ilə elan edilmişdir. Jurnalda qəbul olanların siyahısı ilə yanaşı, təhsili həm ödənişli əsaslarla, həm də dövlət sifarişi əsasında olan yerlərə qəbul aparılan ixtisasların minimal keçid balları, dövlət sifarişi üzrə qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması, müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumatlar, ali təhsil müəssisələrinin müvafiq ixtisaslarına müsabiqədənkənar (test və qabiliyyət imtahanlarından azad olunmaqla) qəbul olmaq hüququna malik olan abituriyentlərin siyahısı təqdim olunmuşdur.

2025-ci ildə imtahanlarda I–IV qruplar üzrə 90911, V qrup üzrə 125619 (orta ixtisas təhsili müəssisələri üzrə birlikdə 129779 nəfər) abituriyent iştirak etmişdir. Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında 10429 abituriyent 500-dən, o cümlədən 3233 abituriyent 600-dən yuxarı bal toplamışdır. 600 və ondan yuxarı bal toplayanların ixtisas qrupları üzrə paylanmasına gəlincə, qeyd etmək lazımdır ki, onların 32.08%-i (1037 nəfəri) I qrupun, 6.74%-i (218 nəfəri) II qrupun, 31.30%-i (1012 nəfəri) III qrupun, 29.94%-i (968 nəfəri) IV qrupun abituriyentləridir. Onlardan 2 nəfər həm I, həm də IV ixtisas qrupları üzrə imtahanda iştirak edərək 600-dən yuxarı bal toplamışdır.

DİM magistraturaya qəbul imtahanının məzmununun və qiymətləndirmə mexanizminin təkmilləşdirilməsi işlərini 2025-ci ildə də davam etdirmişdir. Bakalavrlara kömək məqsədi ilə "Magistr" xüsusi buraxılışının müxtəlif saylarında qəbul proqramları, qəbul qaydaları və elanları, ixtisas seçiminə dair tövsiyə və cədvəllər, test tapşırığı nümunələri, aparılmış müsabiqənin nəticələri, keçid balları və digər zəruri məlumatlar çap olunmuşdur.

Magistraturaya ərizə qəbulu internet vasitəsi ilə aparılmışdır. Bakalavrlara magistraturaya qəbul imtahanında iki dəfə iştirak etmək hüququ verilmişdir. 2025-ci ildə 1-ci imtahan fevralın 16-da, 2-ci imtahan isə mayın 11-də keçirilmişdir. İmtahanda bakalavrların ümumi intellekt səviyyəsi (məntiqi təfəkkürü), xarici dil və informatikadan bilik səviyyələri test üsulu ilə yoxlanılmışdır. Cari ildə keçirilən imtahanda ilk dəfə olaraq xarici dil fənni üzrə yazı işi təqdim olunmuşdur. Bu tapşırıqda bakalavr verilmiş 2 sərbəst mövzudan birini seçərək imtahan verdiyi xarici dildə 150-200 sözdən ibarət yazı işi (esse) yazmışdır. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarına qəbul olmaq istəyən və müəyyən edilən müsabiqə şərtini ödəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra əlavə olaraq qabiliyyət imtahanı vermişdir. Müəyyən edilmiş müsabiqə şərtlərini ödəyənlər ixtisas seçiminə buraxılmışdır. Hər bir bakalavrın 20-dək ixtisaslaşma kodunu seçmək imkanı var idi. Qəbulun nəticələri iyulun 2-də DİM-in internet saytında elan olunub və "Magistr" jurnalının 5-ci sayında dərc edilib. Qəbulun nəticələrinə əsasən 13446 bakalavr magistraturaya qəbul olunub, onlardan 934-ü qeydiyyatdan keçməyib, 2468 yer isə boş qalıb. Bu səbəbdən avqustun 13-dən 18-dək boş qalan yerlərə ixtisaslaşma seçimi aparılıb. Bu mərhələdə 1418 nəfər (onlardan 87-si birinci ixtisaslaşma seçimində iştirak etməyib) iştirak edib və onların 617-si magistraturaya qəbul olub (onlardan 458-i qeydiyyatdan keçib). Beləliklə, ixtisaslaşma seçimində 15612 nəfər (qəbul imtahanında iştirak edənlərin 59.49%-i) iştirak edib və 12970 nəfər (ixtisaslaşma seçimində iştirak edənlərin 83.08%-i) magistraturaya qəbul olub.

Rezidenturaya qəbul 2025-ci ildə də mərkəzləşdirilmiş qaydada test üsulu ilə iki mərhələdə keçirilmişdir. Namizədlərə baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iki dəfə iştirak etmək üçün şərait yaradılır. Qəbul imtahanının I mərhələsinin 1-ci cəhdində iştirak etmək üçün ərizələrin qəbulu 2025-ci il aprelin 11-dən 18-dək, 2-ci cəhdində iştirak etmək üçün isə iyunun 4-dən 12-dək internet vasitəsi ilə aparılmışdır. I mərhələ üzrə imtahanın 1-ci cəhdi mayın 4-də, 2-ci cəhdi iyunun 29-da, II mərhələ üzrə imtahan isə avqustun 10-da keçirilmişdir.

Rezidenturaya qəbul qaydaları və qəbul elanı, baza və ixtisas fənləri üzrə qəbul proqramları, namizədlərin cavab verməkdə çətinlik çəkdikləri bəzi test tapşırıqlarının elmi-metodiki izahı və tövsiyələr, test tapşırığı nümunələri və digər zəruri məlumatlar "Rezidentura" jurnalının 2025-ci il tarixli 1-ci və 2-ci nömrələrində çap olunmuşdur. Qəbul imtahanının ikinci mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisaslar və plan yerləri haqqında məlumatlar, rezidenturaya qəbul imtahanının I mərhələsinin nəticələrinin ötən illə müqayisəli təhlili və tövsiyələr, 2024-cü ildə rezidenturaya qəbul müsabiqəsində formalaşmış keçid balları və digər elmi-metodiki materiallar jurnalın 3-cü nömrəsində dərc edilib ictimaiyyətə çatdırılmışdır.

Rezidenturada təhsil almaq üçün 1762 namizəd ərizə verib. Onların 40.41%-ni (712 nəfər) oğlanlar, 59.59%-ni (1050 nəfər) qızlar təşkil edib. Sənəd verənlərin 581 nəfəri (32.97%) əsas (baza ali) tibb təhsilini cari ildə başa vurub. Onlardan 215 nəfərini oğlanlar (37.01%), 366 nəfərini isə qızlar (62.99%) təşkil edib. Qəbul imtahanının I mərhələsində namizədlərin 25.62%-i (269 nəfər) "məqbul" almaq üçün qoyulan tələbi (40 və daha yüksək bal) ödəyib və bu namizədlər II mərhələdə iştirak etmək hüququ qazanıblar. Ötən il bu göstərici 32.47%-ə, 2023-cü ildə 37.43%-ə, 2022-ci ildə 30.96%-ə, 2021-ci ildə 41.91%-ə, 2020-ci ildə isə 53.46%-ə bərabər olub. I mərhələdə "məqbul" alanların nisbi sayını 2020-ci illə müqayisə etdikdə məlum

olur ki, sonrakı illərdə bu göstərici üzrə azalma müşahidə olunur. Məlum olduğu kimi, rezidenturaya qəbul imtahanının I mərhələsində "məqbul" alanların nəticələri 5 il qüvvədə qalır və bu qayda ilk dəfə olaraq 2020-ci ildə tətbiq edilib. III, IV və V kursda təhsil alan tələbələr də bu imkandan istifadə edirlər. Qəbul imtahanının II mərhələsində iştirak edən namizədlərin böyük hissəsi (610 nəfər, 67.70%-i) 50 baldan yuxarı nəticə göstərərək ixtisas seçiminə buraxılıb. Namizədlərin 32.30%-i isə 50 baldan aşağı nəticə göstərdiyi üçün ixtisas seçiminə buraxılmayıb.

DİM 2025-ci ildə də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işləri intensiv şəkildə davam etdirmiş, bu sahədə bir sıra yeni layihələr həyata keçirmişdir. İKT ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, rezidenturaya, orta ixtisas təhsili pilləsinə qəbul prosesində, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarında, dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmiş və yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Mərkəzin ictimaiyyətə göstərdiyi 13 elektron xidmət növündən hesabat ilində 13 milyon 500 min dəfədən çox istifadə olunmuşdur. Bunlar dövlət qurumlarının icraatında olan elektron xidmət layihələri arasında ən çox istifadə olunan layihələrdəndir.

"Açıq hökumətin təşviqinə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 2-ci bəndində göstərilir ki, dövlət orqanları öz fəaliyyətləri barədə müntəzəm olaraq ictimaiyyətə məlumat verməli, bu məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməli, illik məruzələr tərtib etməli və internet səhifələrində açıqlamalı, mətbuat konfransları keçirməli və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməlidirlər. Bu prinsipləri öz fəaliyyətində rəhbər tutan Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq qəbul kampaniyasının mərhələləri ilə bağlı ictimaiyyəti hərtərəfli məlumatlandırmaqla qəbul prosesinin şəffaflığının təmin edilməsinə böyük önəm vermişdir.

Müasir dövrdə önəmli məsələlərdən biri inkişafın ən başlıca əsaslarından olan informasiyanın açıqlanmasıdır. Bu, informasiya sahibinin mühüm vəzifəsidir. Həmin vəzifə ilə bağlı müddəalar "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu"nda təsbit olunmuşdur. Qanunun 29-cu maddəsinə əsasən informasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxsaylı informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış, yaxud əldə olunmuş informasiyanı ictimaiyyətə açıqlamalıdır. Qanunda belə informasiyalara "ümumiləşdirilmiş statistik məlumatlar" aid edilir.

DİM-in apardığı ənənəvi elmi-statistik təhlillərdə təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgələr və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəriciyə malik rayon və məktəblər, ali təhsil müəssisələrinin reytinqi, bakalavriat və magistratura səviyyələrinə, orta ixtisas təhsili pilləsinə və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlər öz əksini tapıb. Eyni zamanda, aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Qəbul və buraxılış imtahanlarının gender aspektləri", "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar, həmçinin hər bir rayonun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar hazırlanıb. Qəbulun nəticələrinin bu miqyasda və səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

DİM elmi-statistik təhlil nəticəsində əldə etdiyi informasiyanı – ümumiləşdirilmiş statistik məlumatları "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu"na və "Abituriyent" jurnalının nizamnaməsinə uyğun olaraq açıqlayır və əldə olunmuş nəticələri nəşr edərək ictimaiyyətin istifadəsinə verir.

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU

DİM 2025/2026-cı tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulunu "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələri) tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Abituriyentlər ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 2025-ci il fevralın 20-dən martın 5-dək internet vasitəsilə elektron ərizə veriblər. Bunun üçün onlar *ekabinet.dim.gov.az* internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet (*eservices.dim.gov.az/erizebak/erize*) səhifəsinə daxil olub "Abituriyentin elektron ərizəsi" formasını doldurараq təsdiq ediblər (etdiriblər).

Ərizənin təsdiqi DİM-in informasiya sistemlərində abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər *(1989-2006-ci il təvəllüdlü (01.05.2006-ci il tarixədək anadan olmuş) 35 yaşınadək olan kişi cinsli abituriyentlər onların ya müddətli həqiqi hərbi xidmət* keçməsi, ya çağırışdan möhlət hüququnun olması və ya çağırışdan azad edilməsi barədə məlumat Azərbaycan *Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin elektron-məlumat bazasında əks olunduğu halda)* elektron ərizələrini elektron ərizə səhifəsinə daxil olaraq özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini 2012-ci və sonrakı illərdə bitirən abituriyentlər;

1.3. Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2, 1.3 və 1.4-cü yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq **Sənəd Qəbulu Komissiyalarında (SQK)** təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni "Abituriyent" jurnalının 2025-ci il 2-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Ərizə qəbulu ilə bağlı bütün məlumatlar operativ şəkildə DİM-in internet saytında da yerləşdirilib. Bundan başqa, "Abituriyentin elektron ərizəsi" formasının doldurulması qaydası televiziya kanallarında abituriyentlərə dəfələrlə izah olunub. SQK-lar hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10-dan 17-dək fəaliyyət göstəriblər:

Bakı şəhərində:

Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusu (Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov küç., 50);

Memarlıq və İnşaat Universiteti (Bakı şəhəri, Yasamal rayonu,A.Soltanova küç., 11)

Azərbaycan Universiteti (Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küç., 71.);

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi;*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu	*DİM-in Regional Bölməsi.*

Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil almaq istəyən abituriyentlər də 1-ci və 2-ci bənddə göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq etməklə (etdirməklə) yanaşı, müvafiq ali təhsil müəssisələrinin müəyyən etdikləri xüsusi prosedurlardan keçiblər.

2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinə qəbul beş ixtisas qrupu üzrə aparılıb. I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı iki mərhələdən ibarət olub. Abituriyentlər qəbul imtahanının birinci *(maksimal toplanıla bilən bal – 300)* və ikinci *(maksimal toplanıla bilən bal – 400)* mərhələlərindən topladıqları ümumi balların cəminə *(maksimal toplanıla bilən bal – 700)* əsasən, ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak ediblər. Cari ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülüb.

Ali təhsil müəssisələrinə I – IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə qəbul imtahanının ikinci mərhələsi iki dəfə keçirilmiş və abituriyentlərə fərqli ixtisas qrupu və yaxud eyni ixtisas qrupu üzrə ikinci dəfə də imtahan vermək üçün şərait yaradılmışdır. I – IV ixtisas qrupları üzrə qəbul imtahanının II mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyənlər 2025-cü il aprelin 17-dən mayın 1-dək, 2-ci cəhdində iştirak etmək istəyənlər isə 2025-ci il mayın 26-dan iyunun 8-dək şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (*eservices.dim.gov.az/erizebak/erize*) daxil olmaqla imtahan vermək istədikləri ixtisas qrupunu seçərək qeydiyyatdan keçiblər. III ixtisas qrupunu seçən abituriyentlər öz istəklərinə əsasən, ixtisas və ya ixtisaslara uyğun olaraq, bu qruplardan birinin daxilində altqruplardan birini və yaxud hər ikisini seçiblər. Hər iki altqrupu seçən abituriyentlər III qrup üzrə əlavə "Coğrafiya" fənnindən ayrıca imtahanda iştirak ediblər. I ixtisas qrupunu seçən abituriyentlər öz istəklərinə əsasən, ixtisas və ya ixtisaslara uyğun olaraq bu qruplardan birinin daxilində altqruplardan birini seçiblər.

Müsabiqədə iştirak ödənişli olmuşdur. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) qəbul imtahanında iştirakı (imtahanın ikinci mərhələsinin yalnız bir cəhdində) dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur. Bu kateqoriyadan olan abituriyentlər III ixtisas qrupunun DT və TC altqruplarının hər ikisini seçdikləri halda isə "Coğrafiya" fənni üzrə imtahanda iştirak etmək üçün müvafiq qaydada əlavə ödəniş etmişdir. Eyni sərəncamın 1.3 – 1.7-ci bəndlərinə əsasən, aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) qəbul imtahanında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir:

- *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;*
- *şəhid ailəsinin üzvləri;*
- *valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *məcburi köçkün statusu olan şəxslər;*
- *I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*

2024-cü ildə buraxılış və ya qəbul imtahanının I mərhələsində iştirak edən abituriyentlər üçün imtahanın birinci mərhələsinin nəticəsi kimi keçən il topladıqları ballar nəzərə alınmışdır. Onlara cari ildə keçirilən qəbul imtahanının I mərhələsində də iştirak etmək üçün şərait yaradılmışdır. Abituriyentlərə müsabiqədə bu iki imtahandan istədikləri hər hansı birinin nəticəsi ilə iştirak etmək hüququ verilmişdir.

Qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə imtahan fənləri, tapşırıqların sayı və balların hesablanma qaydası 1.1 saylı cədvəldə təqdim olunur. Bu mərhələdə şagird və abituriyentlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə onlara ümumilikdə üç fənn üzrə 85 tapşırıq təqdim edilib. İmtahanın müddəti 3 saat olub.

Cədvəl 1.1

Fənnin adı	Tapşırıqların sayı	Nisbi balın hesablanması düsturu
Tədris dili (Azərbaycan, rus)	– Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; – Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 və qapalı tipli 5 tapşırıq (cəmi 20 tapşırıq); **Cəmi: 30 tapşırıq**	$\frac{5}{2}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Riyaziyyat	– Qapalı tipli 13 tapşırıq; – Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq; – Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq. **Cəmi: 25 tapşırıq**	$\frac{25}{8}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+\ +n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və fars dilləri)	– Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 və qapalı tipli 3 tapşırıq; – Qapalı tipli 16 tapşırıq; – Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 və qapalı tipli 4 tapşırıq. **Cəmi: 30 tapşırıq**	$\frac{100}{37}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$ **Maksimal bal: 100**

Qeyd: 1. $n_{d(açıq,\ kod)}$ – cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ – qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ – yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilib.
3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib.

Abituriyentin qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cəmlənib. Fənlər üzrə nisbi ballar yuxarıdakı cədvəldə göstərilən qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb. Tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərə hər fənn üzrə 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunub. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tipli olub. Açıq tipli tapşırıqlardan 5-i cavabların kodlaşdırılması tələb olunan hesablama, seçim və ya uyğunluq formalı tapşırıqlar, digər açıq tipli 3 tapşırıq isə yazılı şəkildə cavablandırılması tələb olunan, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn, mənbə əsasında və digər formalarda hazırlanan tapşırıqlar olub. Bu tapşırıqlar biologiya və coğrafiya fənləri üzrə situasiya, Azərbaycan (rus) dili və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə mənbə, II ixtisas qrupunda riyaziyyat, IV ixtisas qrupunda isə fizika və kimya fənləri üzrə situasiya əsasında hazırlanıb. İmtahanın müddəti 3 saat olub.

Abituriyentin qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar 1.2 saylı cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənib. Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb:

$$NB = NB_q + NB_a,$$

burada NB – fənn üzrə nisbi bal; NB_q – qapalı tipli tapşırıqlar üzrə nisbi bal; NB_a – açıq tipli tapşırıqlar üzrə nisbi baldır.

Qapalı və açıq tipli test tapşırıqları üzrə nisbi ballar isə aşağıdakı qaydada hesablanıb:

$$NB_q = \left(D_q - \frac{1}{4} Y_q \right) \cdot \frac{100}{33}$$ (hesablamanın nəticəsi mənfi alınarsa, $NB_q=0$ götürülür),

burada D_q *– qapalı tipli tapşırıqlar üzrə düzgün cavabların sayı;* Y_q *– qapalı tipli tapşırıqlar üzrə yanlış cavabların sayıdır.*

$$NB_a = (D_{kod} + 2D_{yazılı}) \cdot \frac{100}{33}$$

burada D_{kod} *– cavabların kodlaşdırılması tələb olunan açıq tipli (hesablama, seçim, uyğunluğu müəyyən etmək) tapşırıqlar üzrə düzgün cavabların sayı;* $D_{yazılı}$ *– yazılı şəkildə cavablandırılması tələb olunan, situasiya, mətn, mənbə əsasında və digər formalarda hazırlanan açıq tipli tapşırıqlar üzrə balların cəmidir. Bu tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında* $0, \frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ *və ya* 1 *balla qiymətləndirilib.*

Açıq tipli tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Cədvəl 1.2

QƏBUL İMTAHANININ İKİNCİ MƏRHƏLƏSİNİN İMTAHAN FƏNLƏRİNİN İXTİSAS QRUPLARI (ALTQRUPLARI) ÜZRƏ ÇƏKİ ƏMSALLARI

İxtisas qrupları	İmtahan fənləri	Çəki əmsalları
I qrup RK altqrupu	Riyaziyyat	1.5
	Fizika	1.5
	Kimya	1
I qrup Rİ altqrupu	Riyaziyyat	1.5
	Fizika	1.5
	İnformatika	1
II qrup	Riyaziyyat	1.5
	Coğrafiya	1.5
	Tarix	1
III qrup DT altqrupu	Azərbaycan (rus) dili	1.5
	Tarix	1.5
	Ədəbiyyat	1
III qrup TC altqrupu	Azərbaycan (rus) dili	1.5
	Tarix	1.5
	Coğrafiya	1
IV qrup	Biologiya	1.5
	Kimya	1.5
	Fizika	1

Abituriyentlər V ixtisas qrupu üzrə ali təhsil müəssisələri və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) və qabiliyyət imtahanının nəticələrinə (tələb olduğu halda) əsasən iştirak ediblər.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəyən abituriyentlər imtahanların nəticəsi elan olunduqdan sonra V ixtisas qrupu üzrə 2025-ci il mayın 20-dən 30-dək, I ixtisas qrupu üzrə iyulun 18-dən 22-dək, III ixtisas qrupu üzrə isə iyulun 18-dən 23-dək *eservices.dim.gov.az/erizebak/qabiliyyet* internet səhifəsinə daxil olub seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) cari ildə seçdikləri (qeydiyyatdan keçdikləri) ilk komissiya üzrə qabiliyyət

imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur. Eyni sərəncamın 1.3 – 1.7-ci bəndlərinə əsasən isə aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) cari ildə seçdikləri (qeydiyyatdan keçdikləri) **bütün komissiyalar** üzrə qabiliyyət imtahanlarında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir:

- *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;*
- *şəhid ailəsinin üzvləri;*
- *valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *məcburi köçkün statusu olan şəxslər;*
- *I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*

Qabiliyyət imtahanlarını DİM-in təşkil etdiyi xüsusi komissiyalar mərkəzləşdirilmiş qaydada aparıb. Cari ildə bakalavriat səviyyəsində xüsusi qabiliyyət imtahanlarında iştirak etmək üçün 29197 abituriyent qeydiyyatdan keçmişdir. İmtahanlar 20 iyun 2025-ci il tarixindən 11 avqust 2025-ci il tarixinədək DİM-in təşkil etdiyi xüsusi komissiyalar tərəfindən mərkəzləşdirilmiş qaydada aparılıb. Ali və orta ixtisas təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul imtahanları respublikanın müxtəlif bölgələrində keçirilmişdir. Təsviri sənət istiqaməti üzrə qabiliyyət imtahanları Bakı şəhərində Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Bakı şəhəri 167 və 286 saylı tam orta məktəblərdə, Gəncə şəhərində M.Füzuli adına 22 saylı tam orta məktəbdə, Lənkəran şəhərində 1 nömrəli tam orta məktəb-liseydə, Şəki şəhərində 7 nömrəli tam orta məktəbdə, Naxçıvan MR-da DİM-in Naxçıvan Regional bölməsində, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun inzibati binalarında təşkil edilmişdir. Musiqi sənəti istiqaməti üzrə imtahanlar Bakı şəhərində Bülbül adına orta ixtisas musiqi məktəbində keçirilmiş və həmin istiqamət üzrə Naxçıvan MR və Gəncədə onlayn formatda təşkil edilmişdir. Memarlıq ixtisası üzrə qabiliyyət imtahanı Azərbaycan Memarlıq və İnşaat Universitetində, teatr, kino və xoreoqrafiya sənəti istiqaməti üzrə qabiliyyət imtahanları Bakı şəhəri Bülbül adına orta ixtisas musiqi məktəbi, 189-190 nömrəli tam orta məktəbdə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində əyani şəkildə, Naxçıvan MR-da isə onlayn formatda təşkil edilərək keçirilmişdir. Bədən tərbiyəsi və idman istiqaməti üzrə imtahan mərkəzləri Bakı şəhərində, həmçinin Tovuz, İsmayıllı və Şərur rayonlarında yaradılmışdır. İmtahanı bu istiqamət üzrə qeydiyyatdan keçmiş cari ilin ümumi təhsil müəssisələrinin məzunları bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhərin (rayonun) aid olduğu imtahan mərkəzində, digər abituriyentlər isə ərizələrində göstərdikləri faktiki yaşadıqları şəhərin (rayonun) aid olduğu imtahan mərkəzində veriblər. Qeyd edilən istiqamət üzrə imtahanların təşkili Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə birgə həyata keçirilib.

Ümumilikdə 72 Qabiliyyət İmtahanı Komissiyası (QİK) təşkil edilib və onlardan 13-ü onlayn fəaliyyət göstərib.

III ixtisas qrupuna aid olan İlahiyyat istiqamətinin "İslamşünaslıq" ixtisası üzrə Azərbaycan İlahiyyat İnstitutunda yaradılmış dini-psixoloji komissiya tərəfindən müsahibə mərhələsi təşkil edilmişdir.

DİM ilin əvvəlində qabiliyyət imtahanlarının keçirilməsi qaydaları, qəbul proqramları, imtahanlara hazırlığa dair metodiki tövsiyələr, qiymətləndirmə meyarları və digər materialları "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edərək qabiliyyət imtahanlarına hazırlaşanların istifadəsinə verib.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının yekun nəticəsi ixtisasın xüsusiyyətindən asılı olaraq məqbul və ya balla qiymətləndirilib. Abituriyentin xüsusi qabiliyyət tələb edən ixtisasları seçmək və onların kodlarını ərizəsində qeyd etmək hüququ qazanması üçün onun qabiliyyət imtahanından yekun nəticəsi və test imtahanında topladığı ümumi balı DİM-in müəyyən etdiyi tələblərə uyğun olmalı idi. Abituriyentlərə öz ərizələrində xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilmişdi. Seçim imkanlarının bu şəkildə genişləndirilməsi, bir tərəfdən xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbulda müsabiqə vəziyyətinin artmasına, digər tərəfdən isə müsabiqə zamanı seçimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Qeyd edək ki, I–IV qruplardan hər hansı birinə və yaxud ikisinə (o cümlədən I ixtisas qrupunun RK və Rİ altqruplarına, III ixtisas qrupunun DT və TC altqruplarına) ərizə verən abituriyentə, eyni zamanda V qrupa da ərizə vermək və qoyulan tələbləri ödədiyi halda, bu qrup üzrə də müsabiqədə iştirak etmək imkanı yaradılmışdı.

Dövlət İmtahan Mərkəzi gənclərin xüsusi qabiliyyət tələb edən ixtisaslara meyil və marağını artırmaq, onların qəbula hazırlığına kömək məqsədi ilə əvvəlki illərdə olduğu kimi, bu il də xüsusi qabiliyyət tələb edən ixtisaslara dair metodiki materiallar hazırlayıb və müxtəlif maarifləndirici tədbirlər həyata keçirib. Qeyd olunanlarla yanaşı, 2015-ci ildən etibarən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə (I qrup "Memarlıq" və III qrup "İslamşünaslıq" və "Jurnalistika" ixtisasları istisna olmaqla) ayrıca bir qrup – V qrup yaradılmış, qəbul imtahanının struktur və məzmun tərkibi dəyişdirilmişdir. Nəticədə, ötən illərlə müqayisədə V qrup üzrə müsabiqə vəziyyəti dəfələrlə artmışdır. Qeyd edək ki, cari ilin məzunları V qrup üzrə

müsabiqədə əlavə qəbul imtahanı vermədən, bilavasitə buraxılış imtahanlarının nəticələri əsasında iştirak ediblər. Bununla yanaşı, 2024-cü ildəki imtahanın nəticəsi 2025-ci ildə öz qüvvəsini saxlamış və 2024-cü ildə V qrup üzrə qəbul imtahanında iştirak edən, həmçinin tam orta təhsili 2024-cü ildə bitirərək buraxılış imtahanında iştirak edən abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda, həmin imtahanların nəticələri əsasında 2025-ci ildə V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək imkanı əldə etmişdir.

Cari ildə V ixtisas qrupunda qabiliyyət imtahanının verilməsi tələb olunan ixtisaslar üzrə ayrılan 3916 plan yerinə 8146 abituriyent (subbakalavr) iddia etmişdi. Qeyd edək ki, 2015-ci ildə bu ixtisaslara ayrılan 2355 plan yerinə 4293, 2016-cı ildə 2854 plan yerinə 3993, 2017-ci ildə 3067 plan yerinə 3939, 2018-ci ildə 3307 plan yerinə 3593, 2019-cu ildə 3462 plan yerinə 4971, 2020-ci ildə 1034 plan yerinə 1406, 2021-ci ildə 3615 plan yerinə 5207, 2022-ci ildə 3650 plan yerinə 5517, 2023-cü ildə 3621 plan yerinə 5128, 2024-cü ildə 3938 plan yerinə 7370 nəfər iddia edirdi.

Bu il I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən "Memarlıq" ixtisası üzrə müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən az olmayan abituriyentlər buraxılmışdı. V qrupun xüsusi qabiliyyət tələb edən (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) "Rejissorluq" ixtisası üzrə müsabiqədə ümumi balı 120-dən, "Məşqçilik" ixtisasları üzrə 70, "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi", "Adaptiv bədən tərbiyəsi", "Ümumi fiziki hazırlıq", "Kütləvi- sağlamlaşdırıcı idman" ixtisasları üzrə 80, "Xoreoqrafiya sənəti (sahələr üzrə)" ixtisası üzrə ümumi balı 30-dan, digər ixtisaslar üzrə isə ümumi balı 60-dan az olmayan abituriyentlər iştirak etmişdir. Qeyd edək ki, bu ixtisaslara qəbul olan abituriyentlərin qəbul imtahanlarında topladıqları orta ballar (I qrupda "Memarlıq" istiqaməti üzrə 399.43, III qrupda "İlahiyyat" istiqaməti üzrə 239.50, "Jurnalistika" istiqaməti üzrə 428.40, V qrupda "Təsviri sənət" istiqaməti üzrə 159.07, "Musiqi sənəti" istiqaməti üzrə 119.30, "Teatr, kino və xoreoqrafiya" istiqaməti üzrə 99.19, "İdman" istiqaməti üzrə 140.01 bal) müsabiqə şərtlərindən xeyli yüksək olub.

2025/2026-cı tədris ili üçün V ixtisas qrup üzrə ümumilikdə 4559 plan yeri ayrılmışdı (bundan əlavə, 145 yerə müsabiqədənkənar qəbul aparılıb). 16474 nəfər (15996 abituriyent və 478 subbakalavr) V qrupun ixtisasları üzrə müsabiqədə iştirak edib. Onlardan 8146-sı qabiliyyət imtahanını müvəffəqiyyətlə verib. Bu il xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və bu ixtisaslar üzrə müsabiqədə iştirak etmiş abituriyentlərin və subbakalavrların sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 1.3

İSTİQAMƏTLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN VƏ SUBBAKALAVRLARIN SAYI

İstiqamət	İxtisas qrupu	Qəbul planı	Müsabiqədə iştirak edən abituriyentlərin və subbakalavrların sayı
Memarlıq	I	170	297
İlahiyyat	III	42	51
Jurnalistika	III	255	700
Təsviri sənət	V	992	1804
Musiqi sənəti	V	707	809
Teatr, kino və xoreoqrafiya sənəti	V	230	256
İdman	V	1987	5277
Xüsusi qabiliyyət imtahanı tələb olunmayan ixtisaslar üzrə			
Təsviri sənət	V	643	11557

Müsabiqə zamanı abituriyentlərin seçdikləri ixtisaslar "Abituriyentin elektron ixtisas seçimi ərizəsi" formasında göstərilən ardıcıllıqla nəzərə alınmış və abituriyent topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilmişdir. Seçdiyi ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün abituriyentin topladığı ümumi balı ilə yanaşı, imtahanın ikinci mərhələsi üzrə yığdığı bala da tələblər (müsabiqə şərtləri) müəyyənləşdirilmişdir. Bu tələblər, bir qayda olaraq, qəbul imtahanlarının nəticələrinin elmi-statistik təhlili əsasında formalaşır. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulmuş qəbul yerlərini həmin qruplarda nəticələri yüksək və orta bal diapazonunda yerləşən abituriyentlərin hesabına tam doldurmaq mümkün deyil. Odur ki, müsabiqə vəziyyətini yüksəltmək məqsədilə müsabiqədə iştirak etmək üçün fənlər üzrə nisbi bala heç bir məhdudiyyət tətbiq edilməmişdir.

Müsabiqəyə buraxılma şərtləri aşağıdakı şəkildə müəyyən olunmuşdur:

• **I qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb. I ixtisas qrupunun "Riyaziyyat", "Fizika" və "Kompüter elmləri" ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər iştirak edib.

Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Sumqayıt Dövlət Universiteti və Türkiyə-Azərbaycan Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak hüququ qazanıblar.

I ixtisas qrupunun "Meliorasiya mühəndisliyi", "Texnologiya müəllimliyi" və "Ekologiya mühəndisliyi" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

"Aqromühəndislik", "Aqronomluq", "Balıqçılıq", "Meşəçilik", "Şərabçılıq", "Torpaqşünaslıq və aqrokimya", "Yerquruluşu və daşınmaz əmlakın kadastrı" və "Zoomühəndislik" ixtisasları, həmçinin Azərbaycan Dövlət Aqrar Universitetinin "Meliorasiya mühəndisliyi" ixtisası üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak hüququ qazanıblar.

• **II qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıb.

II ixtisas qrupunun "Marketinq", "Biznesin idarə edilməsi", "Turizm bələdçiliyi" və "Turizm işinin təşkili" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

• **III qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak ediblər.

Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti istisna olmaqla) "Tərcümə (dillər üzrə)", "Filologiya (xarici dil və ədəbiyyatı üzrə)", "Xarici dil müəllimliyi (dillər üzrə)" və "Beynəlxalq münasibətlər" ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıb.

III ixtisas qrupunun "Muzey, arxiv işi və abidələrin qorunması", "Sosial iş" və "Regionşünaslıq (regionlar üzrə)" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

• **IV qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin (Sumqayıt Dövlət Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak ediblər.

IV ixtisas qrupunun "Ekologiya" ixtisası üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

"Bağçılıq və tərəvəzçilik", "Baytarlıq təbabəti", "Bitki mühafizəsi" və "Su bioehtiyatları və akvakultura" ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak ediblər.

• **V qrup** üzrə ixtisas seçimində qabiliyyət imtahanı üzrə yekun nəticəsi və qəbul imtahanında topladığı ümumi balı cədvəl 1.4-də göstərilən şərtləri ödəyən abituriyentlər iştirak ediblər.

I, III və V qrupların qəbul planında qarşısında ulduz "*" (qabiliyyət imtahanının nəticəsi məqbulla qiymətləndirilən) və ya iki ulduz "**" (qabiliyyət imtahanının nəticəsi balla qiymətləndirilən) işarəsi olan ixtisasların müsabiqəsində qabiliyyət imtahanından yekun nəticəsi və qəbul imtahanından topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olan abituriyentlər iştirak edib. Onlara həmin qruplar daxilində digər ixtisasları da seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri məqbulla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qəbul (müvafiq ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılıb. Qabiliyyət imtahanı komissiyaları üzrə müsabiqə şərtləri 1.4 saylı cədvəldə təqdim edilir:

Cədvəl 1.4

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

İxtisasın adı	Minimal bal	II mərhələ üzrə minimal bal	Qabiliyyət imtahanının yekun nəticəsi
I ixtisas qrupu *(RK altqrupu)*			
Memarlıq	200	-	məqbul (6 bal)
III ixtisas qrupu *(DT altqrupu)*			
İslamşünaslıq	150	50	məqbul
Jurnalistika	200	100	məqbul (5 bal)
V ixtisas qrupu			
Musiqi müəllimliyi Təsviri incəsənət müəllimliyi	60	-	məqbul (6 bal)
Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi Adaptiv bədən tərbiyəsi Kütləvi sağlamlaşdırıcı idman Ümumi fiziki hazırlıq	80	-	məqbul (6 bal)
Rejissorluq	120	-	6 (bal)
Dizayn (sahələr üzrə) Dekorativ-tətbiqi sənət (sahələr üzrə) İnstrumental ifaçılıq (sahələr üzrə) Vokal sənəti (sahələr üzrə) Dirijorluq (sahələr üzrə) Bəstəkarlıq Musiqişünaslıq Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) Aktyor sənəti Operator sənəti Rəngkarlıq Qrafika Heykəltəraşlıq	60	-	6 (bal)
Məşqçilik (sahələr üzrə)	70	-	6 (bal)
Xoreoqrafiya sənəti (sahələr üzrə)	30	-	6 (bal)

Qeyd: I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisaslarının müsabiqəsi zamanı test imtahanı üzrə ümumi balları eyni olan abituriyentlərin qabiliyyət imtahanı üzrə yekun balları da nəzərə alınıb.

Abituriyentlər qəbul qaydalarına əsasən, imtahan verdikləri ixtisas qrupuna (qruplarına) aid 15-dək ixtisas kodunu seçə bilərdilər. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər avqustun 11-dən 19-dək internet vasitəsilə ixtisas seçimi ediblər.

Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərə (subbakalavrlara) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququ verilmişdir. Tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu 2025-ci il fevralın 20-dən martın 5-dək internet vasitəsilə aparılmışdır. Ərizə qəbulu ilə bağlı ətraflı məlumat "Abituriyent" jurnalının 2025-ci il 3-cü sayında təqdim olunmuşdur.

Subbakalavrlar ixtisas seçimində iştirak etmək üçün qəbul olmaq istədikləri ixtisasların kodlarını avqustun 11-dən 19-dək "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etmişdir. Onlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçmək imkanına malik olmuşdur. Qəbul aparılan ixtisasların uyğunluğu Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuşdur. Dövlət hesabına ali təhsil almış şəxslərə yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçmək hüququ verilmişdir. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları, eləcə də ADA Universitetinin, Bakı Ali Neft Məktəbinin, Qarabağ Universitetinin və Türkiyə-Azərbaycan Universitetinin ixtisaslarını seçə bilməyiblər. Xüsusi qabiliyyət tələb edən ixtisasları isə yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müvafiq müsabiqə şərtlərini ödəyən subbakalavrlar seçə bilmişdir.

İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində (V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar istisna olmaqla) əvvəlcə abituriyentlərin, bundan sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılmışdır. V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar üzrə müsabiqə isə abituriyentlər və subbakalavrlar arasında eyni vaxtda keçirilmişdir. Eyni yerə iddia edən abituriyent və subbakalavrın qabiliyyət imtahanı üzrə yekun balı bərabər olan hallarda üstünlük abituriyentə verilmişdir. Cari ildə qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları ballarla ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi qəbul imtahanında iştirak etmədən orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsində bitirdikləri ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak ediblər.

Beynəlxalq səviyyədə akkreditasiya olunan "Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme)", "Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education)" və "Yüksək yerləşdirmə (Advanced Placement)" təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq imkanına malik olublar. Bu imkandan yalnız "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na əsasən, Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan verərək "məqbul" qiymət alan abituriyentlər istifadə edə biliblər. Bu kateqoriyadan olan abituriyentlərə yalnız yuxarıda qeyd olunan təhsil proqramları üzrə təhsil aldıqları dildə tədris olunan ixtisasları seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul üçün minimal bal (və ya qiymət) tələbləri təhsil proqramları üzrə aşağıdakı cədvəldə təqdim olunub:

Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu üçün minimal tələblər

	Proqramlar	Müsabiqədənkənar qəbul üçün minimal tələblər	
		Ödənişli əsaslarla qəbul üçün	Dövlət sifarişi əsasında qəbul üçün
1.	Beynəlxalq Bakalavriat Diplom Proqramı	**25** ("Hüquqşünaslıq" və "Tibb" ixtisasları üzrə – **30**)	**35**
2.	Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə)	**C**	**B**
3.	Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə)	**3**	**4**

Qeyd: "Müvafiq üç imtahan fənni" dedikdə **I ixtisas qrupu (RK altqrupu)** üzrə riyaziyyat, fizika və kimya fənləri, **I ixtisas qrupu (Rİ altqrupu)** üzrə riyaziyyat, fizika və informatika fənləri, **II ixtisas qrupu** üzrə riyaziyyat, coğrafiya və tarix fənləri, **III ixtisas qrupu (DT altqrupu)** üzrə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri, **III ixtisas qrupu (TC altqrupu)** üzrə Azərbaycan dili və ya rus dili, tarix və coğrafiya fənləri, **IV ixtisas qrupu** üzrə isə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aşağıdakı qaydada aparılıb:

1. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq hüququna malikdirlər.

2. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- Beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;
- IX – XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;
- Beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

3. Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibinin isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ vardır. "Müsabiqədənkənar qəbulun aparıldığı ixtisaslar", "Beynəlxalq fənn olimpiadalarının siyahısı", "Respublika fənn olimpiadalarının siyahısı" və "Beynəlxalq müsabiqələrin və yarışların siyahısı" Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarında əks olunmuşdur (**http://www.e-qanun.az/framework/42536**).

4. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müsabiqədənkənar qəbulu üçün sənədlərin qəbulu və ixtisas seçimi DİM-in müəyyən etdiyi müddətdə və qaydada aparılmışdır.

Ali təhsil müəssisələrinə 2025-ci ildə 60339 plan yeri ayrılıb.


Qəbul planı ötən illə müqayisədə 1.96% artırılıb.

2025/2026-cı tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə qəbul üçün 60339 yer ayrılıb. Bunlardan 884 yeri qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər (570 yer ADA Universitetinə SAT balına əsasən, 106 yer ADA Universitetinə ADA məktəbinin məzunu kimi qəbul olunanlar) tutub. Qalan yerlərdən 43200-ü Azərbaycan bölməsi, 3547-si rus bölməsi, 12708-i isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulub. Qəbul planındakı 49138 yer dövlət, 10317 yer isə özəl ali təhsil müəssisələrinin payına düşürdü.


Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında qəbul üçün 28120 yer nəzərdə tutulmuşdu. Bunlardan 165 yeri qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər tutmuşdur.

1.1 və 1.2 saylı diaqramlarda qəbul planında müsabiqə əsasında qəbul üçün ayrılmış yerlərin paylanması təsvir olunub:

QƏBUL PLANI



Şəkil 1.1



Şəkil 1.2

Müsabiqədənkənar qəbulu nəzərə almasaq, ötən illə müqayisədə bu il dövlət ali təhsil müəssisələrinin qəbul planında cüzi – 0.01% (6 yer) azalma, özəl ali təhsil müəssisələrinin qəbul planında isə 11.27% (1045 yer), ümumilikdə isə 1039 yer (1.78%) artım müşahidə edilmişdir. Müsabiqədənkənar qəbulla (120 yer artım) birlikdə ötən illə müqayisədə qəbul planı 1.96% (1159 yer) artmışdır.

Plan yerlərinin dövlət sifarişi və ödənişli əsaslarla təhsil üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2025-ci ildə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün ayrılan yerlər 7.21% azalmışdır. Qeyd etmək lazımdır ki, cari ildə hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlər ümumi plan yerlərinin cəmi 21.06%-ni təşkil etmişdir. Bu göstərici 2024-cü ildə 23.14%, 2023-cü ildə 20.01%, 2022-ci ildə 19.71%, 2021-ci ildə 20.56%, 2020-ci ildə 23.27%, 2019-cu ildə 21.25%, 2018-ci ildə 21.44%, 2017-ci ildə 14.80%, 2016-cı ildə 18.73%, 2015-ci ildə 13.95%, 2014-cü ildə 13.87% olduğu halda, 2013-cü ildə 56.18% olmuşdu. 2013-cü illə müqayisədə son on bir ildə həyata keçirilən bu cür dəyişiklik arzuolunmaz haldır. Çünki bəzən Azərbaycan və rus bölmələrinin abituriyentləri eyni test tapşırıqlarına cavab verdikləri halda, plan yerlərinin ciddi bölgüsü və müsabiqə vəziyyətinin fərqli olması nəticəsində bu bölmələrin eyni ixtisasları üzrə tam fərqli keçid balları yaranır. Plan yerləri birgə müsabiqə üçün ayrıldıqda isə həmin yerlərə bölməsindən asılı olmayaraq daha hazırlıqlı gənclər qəbul olunur.

2025-ci ildə 11-ci sinif məzunlarının sayı 111527 nəfər, hər 100 məzuna düşən plan yerlərinin sayı 54.1 olub. 2024-cü ildə bu göstərici 58.5, 2022 və 2023-cü illərdə 57.1, 2021-ci ildə 60.1, 2020-ci ildə 61.2, 2019-cu ildə 59.9, 2018-ci ildə isə 54.7 olub. Ötən illə müqayisədə hər 100 məzuna düşən plan yerlərinin azalması plan yerlərinin sayı (59180-dən 60339-a) artsa da, məzun sayının (101231-dən 111527-yə) daha çox artması ilə izah edilə bilər. Dövlət sifarişi üzrə bu göstəriciyə nəzər salsaq, görərik ki, 2025-ci ildə hər 100 məzuna düşən yerlərin sayı 25.2, 2024-cü ildə 27.0, 2023-cü ildə 26.6, 2022-ci ildə 25.6, 2021-ci ildə 27.1, 2020-ci ildə 26.9, 2019-cu ildə 24.8, 2018-ci ildə isə 14.4 olub. 2019-cu ildə 2018-ci illə müqayisədə bu dərəcədə kəskin artımın səbəbi dövlət sifarişi üzrə ayrılan yerlərin kəskin artması (birdən-birə 11871 yerdən 19842 yerə) ilə əlaqədardır.

Bu il ali təhsil müəssisələrinə müsabiqədə iştirak etmək hüququ qazananların 89.84%-i Azərbaycan, 10.16%-i isə rus bölməsinin abituriyentləri idi. Qeyd edək ki, hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin hesabına Azərbaycan bölməsinin abituriyentləri qəbul planının minimum 72.66%-ni, maksimum 94.03%-ni, rus bölməsinin abituriyentləri isə minimum 5.97%-ni, maksimum 27.34%-ni tuta bilərdilər.

İxtisas qrupları (o cümlədən I ixtisas qrupunun RK və Rİ altqrupları, III ixtisas qrupunun DT və TC altqrupları), ali təhsil müəssisələri, dövlət sifarişi və ödənişli əsaslarla təhsil və bölmələr üzrə plan yerlərinin sayı haqqında tam məlumat 1.5 – 1.7 saylı cədvəllərdə təqdim olunur.

Cədvəl 1.5

2025/2026-CI TƏDRİS İLİ ÜÇÜN RESPUBLİKANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU PLANI

İxtisas qrupu	QƏBUL PLANI													
	Müsabiqə əsasında qəbul												Müsabiqədənkənar qəbul	BÜTÖVLÜKDƏ
	Azərbaycan bölməsi üçün			Rus bölməsi üçün			Hər iki bölmənin birgə müsabiqəsi üçün			CƏMİ				
	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi		
I	13615	690	14305	860	0	860	3757	1059	4816	18232	1749	19981	404	20385
I (RK)	9525	320	9845	510	0	510	2034	354	2388	12069	674	12743	212	12955
I (Rİ)	4090	370	4460	350	0	350	1723	705	2428	6163	1075	7238	192	7430
II	9138	2475	11613	590	0	590	1002	1615	2617	10730	4090	14820	115	14935
III	9520	2328	11848	1520	0	1520	637	1365	2002	11677	3693	15370	213	15583
III (DT)	8435	2088	10523	1245	0	1245	527	1125	1652	10207	3213	13420	138	13558
III (TC)	1085	240	1325	275	0	275	110	240	350	1470	480	1950	75	2025
IV	3526	90	3616	360	0	360	264	485	749	4150	575	4725	7	4732
V	1818	0	1818	217	0	217	2314	210	2524	4349	210	4559	145	4704
CƏMİ	**37617**	**5583**	**43200**	**3547**	**0**	**3547**	**7974**	**4734**	**12708**	**49138**	**10317**	**59455**	**884**	**60339**

Cədvəl 1.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ

İxtisas qrupu	Qəbul planı (bütövlükdə)	Dövlət sifarişi			
		Müsabiqə əsasında qəbul	Müsabiqədən-kənar qəbul	Bütövlükdə	
				Sayı	faizi
I	20385	14819[1]	59	14878	52.91
I (RK)	12955	8922	16	8938	31.79
I (Rİ)	7430	5897	43	5940	21.12
II	14935	4116[2]	3	4119	14.65
III	15583	4096[3]	16	4112	14.62
III (DT)	13558	3911	16	3927	13.97
III (TC)	2025	185	0	185	0.66
IV	4732	3433[4]	6	3439	12.23
V	4704	1491[5]	81	1572	5.59
CƏMİ	**60339**	**27955**	**165**	**28120**	**100.00**

[1] Əlavə olaraq maksimum 730 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin, Lənkəran Dövlət Universitetinin və Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

[2] Əlavə olaraq maksimum 330 yer Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

[3] Əlavə olaraq maksimum 385 yer Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

[4] Əlavə olaraq maksimum 105 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin, Lənkəran Dövlət Universitetinin və Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

[5] Əlavə olaraq maksimum 145 yer Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Aşağıdakı cədvəldən göründüyü kimi, qəbul planında ən çox yer Bakı Dövlət Universitetinin payına düşüb. Bu təhsil müəssisəsinin qəbul planı (5934 yer) ümumi plan yerlərinin 9.98%-ni təşkil edib. Bundan əlavə, Azərbaycan Dövlət İqtisad Universiteti (4190 yer), Azərbaycan Dövlət Pedaqoji Universiteti (3600 yer) və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (3585 yer) ən çox plan yeri ayrılan ali təhsil müəssisələri sırasındadır. Ümumiyyətlə, ayrı-ayrı təhsil müəssisələri üzrə plan yerlərinin sayını ötən illə müqayisə etdikdə bəzi təhsil müəssisələri üzrə plan yerlərinin sayında kəskin artım olduğunu görürük. Məsələn, ötən illə müqayisədə cari ildə plan yerlərinin sayı ADA Universiteti və Azərbaycan Dövlət Dəniz Akademiyası üzrə 1.5, Xəzər Universiteti üzrə 1.4, Bakı Ali Neft Məktəbi üzrə 1.3, Türkiyə-Azərbaycan Universiteti üzrə 1.3, Qarabağ Universiteti üzrə 1.3, Azərbaycan Dövlət Aqrar Universiteti üzrə 1.2 dəfə artmışdır.

Cədvəl 1.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	4615	710	609	5934
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	2635	185	765	3585
3	Azərbaycan Texniki Universiteti	1085	15	1045	2145
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	2205	155	240	2600
5	Azərbaycan Tibb Universiteti	815	130	13	958
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3080	330	190	3600
7	Azərbaycan Dövlət İqtisad Universiteti	3355	570	265	4190
8	Azərbaycan Dillər Universiteti	1325	375	110	1810
9	Bakı Slavyan Universiteti	1065	375	0	1440
10	Bakı Mühəndislik Universiteti	1945	0	540	2485
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	258	135	0	393
12	ADA Universiteti	0	0	388	388
13	Bakı Musiqi Akademiyası	0	0	157	157
14	Azərbaycan Milli Konservatoriyası	0	0	146	146
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	579	82	0	661
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	0	0	300	300
17	Azərbaycan Turizm və Menecment Universiteti	535	50	50	635
18	Bakı Xoreoqrafiya Akademiyası	0	0	130	130
19	Azərbaycan İdman Akademiyası	0	0	1678	1678
20	Milli Aviasiya Akademiyası	380	90	370	840
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	280	15	55	350
22	Bakı Ali Neft Məktəbi	0	0	449	449
23	Dövlət Gömrük Komitəsinin Akademiyası	100	0	40	140

Cədvəl 1.7 (ardı)

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
24	Naxçıvan Dövlət Universiteti	1705	0	120	1825
25	Naxçıvan Müəllimlər İnstitutu	230	0	0	230
26	Azərbaycan Dövlət Aqrar Universiteti	1787	160	115	2062
27	Gəncə Dövlət Universiteti	1563	15	0	1578
28	Azərbaycan Texnologiya Universiteti	1305	135	30	1470
29	Sumqayıt Dövlət Universiteti	1825	0	50	1875
30	Mingəçevir Dövlət Universiteti	1595	20	0	1615
31	Lənkəran Dövlət Universiteti	1915	0	0	1915
32	Qarabağ Universiteti	1435	0	0	1435
33	Türkiyə-Azərbaycan Universiteti	0	0	119	119
34	Azərbaycan İlahiyyat İnstitutu	78	0	0	78
35	Azərbaycan Kooperasiya Universiteti	1115	0	400	1515
36	"Azərbaycan" Universiteti	995	0	100	1095
37	Qərbi Kaspi Universiteti	0	0	1475	1475
38	Xəzər Universiteti	0	0	1629	1629
39	Bakı Avrasiya Universiteti	1380	0	60	1440
40	Bakı Qızlar Universiteti	430	0	0	430
41	Odlar Yurdu Universiteti	100	0	925	1025
42	Bakı Biznes Universiteti	1215	0	15	1230
43	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	270	0	130	400
	CƏMİ	**43200**	**3547**	**12708**	**59455**

İxtisaslar üzrə ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulunun proqnozu 1.1.5 saylı cədvəldə təqdim olunub (bax: səh. 242-261).

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün

126656 nəfər abituriyent ərizə vermişdi.

Ərizələrin sayı ötən ildəki ilə müqayisədə 11.61% çoxdur.


Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 126656 abituriyent ərizə vermişdi. Onların 4685-i orta ixtisas, 359-u ali (2-ci ixtisas kimi), qalanları isə tam orta təhsillidir. Sənəd verənlərin sayı ötən ildəkindən 13171 nəfər çox idi.

Yalnız orta ixtisas təhsili müəssisələrinə (tam orta təhsil bazası əsasında) sənəd verənləri də (4314 nəfər) nəzərə alsaq, o zaman ərizə verənlərin sayı bütövlükdə 130970-ə bərabər olacaq (1.3 saylı şəklə bax).

Qeyd edək ki, abituriyentlərə, eyni zamanda həm I–IV qruplardan hər hansı birinin və yaxud ikisinin (o cümlədən I ixtisas qrupunun RK və Rİ altqruplarının, III qrupun DT və TC altqruplarının) ixtisasları üzrə, həm də V qrupun ixtisasları (xüsusi qabiliyyət tələb edən musiqi, incəsənət və idman ixtisasları) üzrə müsabiqədə iştirak etmək imkanı yaradılmış, 94624 abituriyent (72.25%) bu imkandan yararlanmışdır. 32032 abituriyent (24.46%) yalnız V qrupa daxil olan ixtisaslara qəbul olmaq üçün ərizə verib. I–IV qruplar üzrə ərizə verən abituriyentlərdən 1427-i (1.51%) iki ixtisas qrupunu seçmişdir.

Ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin 48.10%-ni (60921 nəfər) oğlanlar, 51.90%-ni (65735 nəfər) isə qızlar təşkil edib.

QRUPLAR ÜZRƏ ƏRİZƏLƏRİN PAYLANMASI




Şəkil 1.3

Müasir informasiya texnologiyalarının tətbiqi sayəsində DİM-də gənclər haqqında çoxşaxəli informasiya bazası formalaşdırılmışdır. DİM hər il qəbul imtahanlarının nəticələri əsasında "Qəbul imtahanlarının nəticələrinin gender aspektləri", "Neft-qaz profilli ixtisaslar statistikada" və "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" adlı təhlili materiallar da hazırlayaraq "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edir.

Cari ildə 30179 subbakalavr qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq üçün ərizə vermişdir.

Qeyd edək ki, qəbul kampaniyasında iştirak etmiş subbakalavrlara öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları bal ilə ümumi qaydada, həm də qəbul imtahanlarında iştirak etmədən orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsində bitirdikləri ixtisaslara uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə (subbakalavr kimi) iştirak etmək imkanı verilmişdir. Ərizə verən subbakalavrlardan 19226-sı (63.71%) ixtisas seçimində yalnız subbakalavr kimi, 959-u (3.18%) yalnız abituriyent kimi, 1051-i (3.48%) isə həm abituriyent, həm də subbakalavr kimi iştirak etmişdir. 8943 (29.63%) subbakalavr isə ixtisas seçimində iştirak etməmişdir.

ƏRİZƏ VERƏN SUBBAKALAVRLARIN PAYLANMASI



Şəkil 1.4

2025-ci ildə ümumtəhsil müəssisələrinin 111527 məzunu olmuşdur.
Ötən illə müqayisədə məzunların sayı 10296 nəfər artmışdır.


Son beş ildə məzunların sayında artım müşahidə olunmuş, 2020-ci illə müqayisədə məzunların sayı 39.68% artmışdır. Bu il sənəd verənlər arasında cari ilin məzunlarının payı ötən ilə nisbətən təxminən 1.73% artmışdır. Belə ki, builki məzunlar cari ildə sənəd verənlərin 81.89%-ni (99587 nəfər) təşkil etmiş və ötən illə müqayisədə ərizə verən cari ilin məzunlarının sayı 12937 nəfər artmışdır. Müqayisə üçün bildirək ki, 2010-cu

ildə ali təhsil müəssisələrinə sənəd verənlər arasında həmin ilin məzunlarının payı 55.63%, 2011-ci ildə 58.39%, 2012-ci ildə 58.84%, 2013-cü ildə 60.66%, 2014-cü ildə 64.05%, 2015-ci ildə 66.04%, 2016-cı ildə 68.31%, 2017-ci ildə 75.83%, 2018-ci ildə 77.86%, 2019-cu ildə 87.54%, 2020-ci ildə 80.52%, 2021-ci ildə 82.76%, 2022-ci ildə 84.14%, 2023-cü ildə 83.17% və 2024-cü ildə 80.16% olmuşdu. Göründüyü kimi, 2010-cu ildən etibarən sənəd verənlərin arasında əvvəlki illərin məzunlarının payı, əsasən, getdikcə azalmış, cari illərin məzunlarının payı isə artmışdır. Bunun əsas səbəbi hər il ali təhsil müəssisələrinə qəbul üçün ayrılan plan yerlərinin ciddi şəkildə artırılması və nəticədə, qəbul olanların sayı artdıqca, növbəti il üçün əvvəlki illərin məzunları arasında qalığın, yəni qəbul olmayanların azalmasıdır.

Sənəd verənlərin ümumtəhsil məktəbini bitirmə illəri üzrə tərkibi aşağıdakı cədvəl və diaqramda təqdim olunur.

Cədvəl 1.8

Ümumtəhsil məktəbini qurtardığı il	Abituriyentlərin sayı	Abituriyentlərin sayı ümumi saya nisbətən, %-lə
2016-cı və ondan əvvəlki illər	5652	4.65
2017	429	0.35
2018	496	0.41
2019	440	0.36
2020	559	0.46
2021	775	0.64
2022	1076	0.88
2023	1815	1.49
2024	10783	8.87
2025	99587	81.89



Şəkil 1.5

Ali təhsil müəssisələrinə qəbul üçün ayrılmış yerlərin 33.61%-i I qrupun (o cümlədən 21.43%-i RK altqrupunun və 12.17%-i Rİ altqrupunun), 24.93%-i II qrupun, 25.85%-i III qrupun (o cümlədən 22.57%-i DT altqrupunun və 3.28%-i TC altqrupunun), 7.95%-i IV qrupun, 7.67%-i isə V qrupun payına düşür. Ötən illə müqayisədə plan yerləri I, II, III, IV və V qruplarda isə müvafiq olaraq 1.61, 2.86, 0.66, 2.43 və 2.17% artmışdır (bax: səh. 26, cədvəl 1.10).

Ən çox plan yeri I ixtisas qrupu üzrə "İnformasiya texnologiyaları" (1623 yer), "Kompüter mühəndisliyi" (1486 yer), "İnformasiya təhlükəsizliyi" (1084 yer) , "Kompüter elmləri" (925 yer), II ixtisas qrupu üzrə "Biznesin idarə edilməsi" (2049 yer), "İqtisadiyyat" (2047 yer), "Maliyyə" (1856 yer), "Marketinq" (1725 yer), III ixtisas qrupu üzrə "Sosial iş" (1795 yer), "Xarici dil müəllimliyi (ingilis dili üzrə)" (1120 yer), "Hüquqşünaslıq" (883 yer) və "Filologiya (Azərbaycan dili və ədəbiyyatı üzrə)" (870 yer), IV ixtisas qrupu üzrə "Tibb" (768 yer), "Ekologiya" (515 yer) və "Psixologiya" (485 yer) ixtisaslarına, V ixtisas qrupu üzrə "Ümumi fiziki hazırlıq" (565 yer), "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" (503 yer) və "Təsviri incəsənət müəllimliyi" (380 yer) ixtisaslarına ayrılmışdır.

İxtisas qrupları üzrə qəbul planları və abituriyent ərizələrinin paylanması 1.9 saylı cədvəldə təqdim edilir. Abituriyentlərin istəklərinin qruplar üzrə paylanmasına diqqət yetirək. Bu il abituriyentlərin 25.59%-i (32416 nəfər) I qrupa, 21.52%-i (27261 nəfər) II qrupa, 23.4%-i (29636 nəfər) III qrupa, 5.32%-i (6738 nəfər) IV qrupa, 100%-i (126656 nəfər) V qrupa, bunlardan isə 1427 abituriyent I-IV qruplardan hər hansı ikisinə (iki müxtəlif qrupa), 94624 abituriyent V qrupla yanaşı, digər qruplardan birinə də ərizə vermişdi. I qrupa ərizə verən abituriyentlərin 58.29%-i (18895 nəfər) yalnız RK altqrupunu, 35.80%-i (11606 nəfər) yalnız Rİ altqrupunu, 5.91%-i (1915 nəfər) isə RK və Rİ altqruplarının hər ikisini seçmişdir. Ötən il bu göstəricilər müvafiq olaraq, 15102, 2900 və 13632 nəfər olmuşdur. Cari ildə əvvəlki illərdən fərqli olaraq, abituriyentlərə hər cəhddə I ixtisas qrupu üzrə yalnız bir altqrup — ya RK, ya da Rİ altqrupunu seçmək imkanı verilmişdir. Əvvəlki illərdə isə abituriyentlər eyni zamanda hər iki altqrupu (RK və Rİ) seçə bildiklərindən seçimlərin paylanması daha bərabər xarakter daşıyırdı. Yeni qaydanın tətbiqi nəticəsində seçim meyillərində nəzərəçarpacaq dəyişiklik müşahidə olunmuş, xüsusilə də yalnız Rİ altqrupunu seçən abituriyentlərin sayı əvvəlki illə müqayisədə təxminən dörd dəfə artmışdır. III qrupa ərizə verən abituriyentlərin 64.31%-i (19059 nəfər) yalnız DT altqrupunu, 3.27%-i (968 nəfər) yalnız TC altqrupunu, 32.42%-i (9609 nəfər) isə DT və TC altqruplarının hər ikisini seçmişdir.

Cədvəl 1.9

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İXTİSAS QRUPU	Qəbul planı				Ərizələrin sayı		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	14305	860	4816	19981	29145	3271	32416
	(RK)	9845	510	2388	12743	18966	1844	20810
	(Rİ)	4460	350	2428	7238	11876	1645	13521
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	11613	590	2617	14820	24799	2462	27261
III	Humanitar, pedaqogika ixtisasları	11848	1520	2002	15370	26517	3119	29636
	(DT)	10523	1245	1652	13420	25751	2917	28668
	(TC)	1325	275	350	1950	8888	1689	10577
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3616	360	749	4725	5666	1072	6738
V	İncəsənət, dizayn, musiqi, idman ixtisasları	1818	217	2524	4559	114917	11739	126656
CƏMİ		**43200**	**3547**	**12708**	**59455**	**114917**	**11739**	**126656**

Qəbul planının və abituriyent ərizələrinin son iki il üzrə müqayisəli təhlili (bax: cədvəl 1.10) göstərir ki, bu il ali təhsil müəssisələrinə qəbul planının 1.78% artmasına baxmayaraq, ərizələrin sayının 11.61% artması müsabiqə vəziyyətinin 9.62% artmasına səbəb olmuşdur. Müsabiqə vəziyyəti bütün ixtisas qruplarında artmışdır.

Cədvəl 1.10

2024-CÜ VƏ 2025-Cİ İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ

İxtisas qrupu	Qəbul planı (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2024	2025	fərq, %-lə	2024	2025	fərq, %-lə	2024	2025	fərq, %-lə
I	19664	19981	+1.61	31634	32416	+2.47	1.609	1.622	+0.81
II	14408	14820	+2.86	25304	27261	+7.73	1.756	1.839	+4.73
III	15269	15370	+0.66	26623	29636	+11.32	1.744	1.928	+10.55
IV	4613	4725	+2.43	6110	6738	+10.28	1.325	1.426	+7.62
V	4462	4559	+2.17	113483	126656	+11.61	25.433	27.782	+9.24
CƏMİ	**58416**	**59455**	**+1.78**	**113485**	**126656**	**+11.61**	**1.943**	**2.130**	**+9.62**

"-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir.

Cari ildə ən yüksək müsabiqə vəziyyəti V ixtisas qrupunda (27.78) olub. Müsabiqə vəziyyətinə görə ikinci yer III ixtisas qrupuna (1.93), sonrakı yerlər isə II (1.834), I (1.62) və IV ixtisas qruplarına (1.43) aid olmuşdur.

V ixtisas qrupuna daxil olan ixtisaslar üzrə müsabiqə vəziyyətinin yüksək olması, əsasən, I–IV qruplardan hər hansı birinə və yaxud ikisinə ərizə verən abituriyentlərə, həm də V qrupa ərizə vermək imkanının yaradılması ilə bağlıdır. Nəzərinizə çatdırırıq ki, abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün öncə V qrupa ərizə verməli və qabiliyyət imtahanı vermək üçün müvafiq

komissiyalar üzrə qeydiyyatdan keçməlidirlər. Bu cür ərizə verən abituriyentlərin sayı çox olsa da, qabiliyyət imtahanı vermək üçün qeydiyyatdan keçən və imtahanda iştirak edən abituriyentlərin sayı ərizə verənlərdən az olub. Bundan əlavə, ötən ildə V ixtisas qrupu üzrə ərizələrin sayının kəskin artması V ixtisas qrupu üzrə xüsusi qabiliyyət imtahanı tələb olunmayan "Dizayn" ixtisasına daha çox yerin ayrılması, o cümlədən bu ixtisasın əlavə bir neçə ali təhsil müəssisəsində yaradılması ilə bağlıdır. Belə ki, "Dizayn" ixtisası üzrə xüsusi qabiliyyət imtahanı tələb olunmayan yerlərin həmin ixtisas üzrə ümumi qəbul planındakı payı 2023-cü ildə 43.75%, 2024-cü ildə 54.36%, 2025-ci ildə isə 60.78% olmuşdur. Cari ildə V qrupda ixtisas seçimi mərhələsində ərizələrin sayı ötən illə müqayisədə 5.67% (859 nəfər) artmışdır. Bu artım xüsusi qabiliyyət imtahanı tələb olunmayan ixtisaslar üzrə 8.95% (949 nəfər), xüsusi qabiliyyət imtahanı tələb olunan ixtisaslar üzrə isə 10.57% (779 nəfər) olmuşdur.

Məlum olduğu kimi, cari ildə subbakalavrlara qəbul imtahanında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak imkanı yaradılmışdır. Nəticədə, 19161 subbakalavr bu imkandan yararlanmış, onların 39.12%-i I, 36.18%-i II, 16.38%-i III, 13.20%-i IV və 1.59%-i V qrupa ərizə vermişdir. Subbakalavrlar diplomlarındakı ixtisaslara uyğun olaraq, bir neçə ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilərdilər və bəzi subbakalavrlar da bu imkandan yararlanmışdır.


İxtisas qrupları üzrə qəbul planı ilə ərizələrin sayı arasında qeyri-tarazlıq vardır.

V qrupda ərizələrin sayı həddindən artıq yüksək olduğu halda, I, II, III və IV qruplarda qəbul planının nisbi çəkisi daha böyükdür.

2025-ci il üçün ali təhsil müəssisələrinin qəbul planının, abituriyent və subbakalavr ərizələrinin qruplar üzrə paylanması 1.6 saylı şəkildə əksini tapıb. Təhlil göstərir ki, ixtisas qrupları üzrə qəbul planı və ərizələrin nisbi çəkiləri arasında qeyri-tarazlıq vardır. Bu halın əyani şəkildə nümayiş etdirilməsi üçün ali təhsil müəssisələrinin qəbul planının və abituriyentlərlə subbakalavrların ərizələrinin nisbi saylarının ixtisas qrupları üzrə paylanmasına 1.7 saylı şəkildə diqqət yetirək. Göründüyü kimi, ümumi qəbul planının V ixtisas qrupu üçün ayrılmış hissəsi ərizələrin müvafiq ixtisas qrupuna düşən hissəsindən kiçik, I və III ixtisas qruplarında, əksinə, böyük, II və IV ixtisas qruplarında isə, demək olar ki, eynidir. Yuxarıda qeyd olunduğu kimi, abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün öncə V qrupa ərizə verməli və qabiliyyət imtahanı vermək üçün müvafiq komissiyalar üzrə qeydiyyatdan keçməlidirlər. Bu cür ərizə verən abituriyentlərin sayı çox olsa da, faktiki olaraq, qabiliyyət imtahanı vermək üçün qeydiyyatdan keçən və imtahanda iştirak edən abituriyentlərin sayı ərizə verənlərdən az olub.

2025-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ SAYI


(abituriyentlər və subbakalavrlar)



Şəkil 1.6

2025-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ NİSBİ SAYI (%-lə)


(abituriyentlər və subbakalavrlar)



Şəkil 1.7

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planları arasındakı fərqi göstərən diaqram 1.8 saylı şəkildə təqdim edilib. Diaqramdan göründüyü kimi, özəl ali təhsil müəssisələri, əsasən, humanitar və iqtisadiyyat ixtisasları üzrə mütəxəssis hazırlığı həyata keçirir. Abituriyentlər özəl ali təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı mövqelərdə göstərdiklərindən bu təhsil müəssisələrinin çoxunda müsabiqə vəziyyəti aşağı olur. Onlar ərizələrinin ilk mövqelərində, əsasən, dövlət ali təhsil müəssisələrinin ixtisaslarını kodlaşdırırlar. 2025-ci ildə sənəd verən abituriyentlər arasında özəl ali təhsil müəssisələrinin ixtisas kodlarını ərizələrində birinci yerdə göstərənlər cəmi 10.31%, subbakalavrlar arasında isə cəmi 12.30% olub. 2000-ci illərin birinci yarısında bu göstərici 0.67% olmuşdu. İyirmi ildən artıq vaxt keçməsinə baxmayaraq, bu sahədə irəliləyiş çox cüzidir. Bu baxımdan, hazırda da özəl ali təhsil müəssisələrinə qəbul olanlar, əsasən, dövlət ali təhsil müəssisələrinə qəbul ola bilməyənlərdir ki, onların da böyük əksəriyyətinin biliyi kafidən yuxarı deyildir. 2010-cu ilə qədər yalnız ödənişli əsaslarla təhsil verdiyi üçün özəl ali təhsil müəssisələrinə, əsasən, bu cür abituriyentlərin qəbul olması həmin müəssisələrin dövlət ali təhsil müəssisələri ilə rəqabət aparmaq imkanlarını məhdudlaşdırırdı. Hazırda özəl ali təhsil müəssisələri dövlət ali təhsil müəssisələri ilə dövlət sifarişi əsasında qəbul aparılan yerləri tutmaq üçün rəqabət aparmaq, ümumiyyətlə, daha bilikli gəncləri özlərinə cəlb etmək imkanına malikdir. Bunun üçün isə onlar həm təhsilin səviyyəsini qaldırmalı, həm də yüksək intellektli tələbələrə təhsil haqqının məbləğində əhəmiyyətli güzəştlər etməlidir. Təəssüf ki, bir çox özəl ali təhsil müəssisələri bu məsələdə o qədər də maraqlı deyil. Ümumiyyətlə, ayrı-ayrı ali təhsil müəssisələrinə qəbul olan gənclərin bilik səviyyələri bir-birindən ciddi şəkildə fərqlənir (bax: səh. 503, cədvəl 6.9). Hesab edirik ki, bu amil birinci kursların tədris planlarında mütləq nəzərə alınmalıdır.

2025-Cİ İLDƏ DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 1.8

Adətən, abituriyent ali təhsil müəssisəsini seçməzdən əvvəl valideynləri, dostları, tanışları ilə məsləhətləşir, maraq göstərdiyi ixtisasların hansı təhsil müəssisələrində olması, həmin təhsil müəssisələrində təhsilin səviyyəsi, biliyin qiymətləndirilməsi meyarları, ali təhsil müəssisəsini bitirdikdən sonra iş yeri tapmaq imkanları, gələcək diplomunun ölkə daxilində və xaricdə tanınması ilə maraqlanır. Bütün bunları nəzərə alaraq, abituriyent meyil göstərdiyi ixtisasların aid olduğu ali təhsil müəssisələri arasında seçim aparır və üstünlük verdiyi ali təhsil müəssisəsinin (müəssisələrinin) ixtisaslarını ərizəsində müxtəlif mövqelərdə qeyd edir.

Müəyyən bir ixtisasın və həmin ixtisasın tədris olunduğu təhsil müəssisəsinin nüfuzundan asılı olaraq, ixtisaslar üzrə müsabiqə vəziyyəti fərqli olur. Bildiyimiz kimi, son illərdə abituriyentlər topladıqları balları öyrəndikdən sonra ixtisas seçirlər, beləliklə də böyük nüfuza malik olan ixtisasları öz ərizələrində yalnız yüksək bal toplamış abituriyentlər qeyd edirlər. Nəticədə, bu cür ixtisaslar üzrə müsabiqə vəziyyəti yüksək olduğu üçün keçid balları və orta ballar da yüksək olur.

Cədvəl 1.11-də ayrı-ayrı ali təhsil müəssisələrinin ixtisaslarına qəbul olan abituriyentlərin qruplar üzrə orta bal göstəriciləri təqdim edilir. I ixtisas qrupu üzrə Bakı Ali Neft Məktəbi (638.171), ADA Universiteti (611.001), Türkiyə-Azərbaycan Universiteti (578.191), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (545.649), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (533.165), II ixtisas qrupu üzrə ADA Universiteti (625.267), Bakı Ali Neft Məktəbi (584.306), III ixtisas qrupu üzrə ADA Universiteti (643.784), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (616.113), Milli Aviasiya Akademiyası (602.858), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (578.455), Qarabağ Universiteti (501.649), IV ixtisas qrupu üzrə isə Azərbaycan Tibb Universiteti (632.691), Naxçıvan Dövlət Universitetinin (534.000) ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri digər ali təhsil müəssisələri ilə müqayisədə daha yüksəkdir.

Cədvəldən göründüyü kimi, yüksəkhazırlıqlı abituriyentlərin Bakı Ali Neft Məktəbinə, Azərbaycan Tibb Universitetinə, ADA Universitetinə, Türkiyə-Azərbaycan Universitetinə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına meyil və marağı olduqca böyükdür.

İşğaldan azad olunmuş Xankəndi şəhərində fəaliyyətə başlayan Qarabağ Universitetinə artıq ikinci ildir ki, tələbə qəbulu aparılır. Universitetin ixtisaslarına qəbul olunan abituriyentlərin orta bal göstəriciləri I qrup

üzrə 404.588, II qrup üzrə 349.16, III qrup üzrə 501.649 və IV qrup üzrə 514.278 bal təşkil etmişdir. Qarabağ Universitetinə qəbulun ikinci ilində də yuxarı hazırlıqlı abituriyentlərin marağı və istəyi yüksək olaraq qalmaqdadır. Türkiyə-Azərbaycan Universitetinə isə yalnız I ixtisas qrupu üzrə tələbə qəbulu aparılıb. Bu təhsil müəssisəsinə qəbul olan abituriyentlərin I ixtisas qrupu üzrə orta balı 578.191 olub.

Özəl ali təhsil müəssisələri arasında yüksək hazırlıqlı abituriyentlər Xəzər Universitetinə üstünlük verirlər. Cari ildə bu universitetin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri I qrup üzrə 438.83, II qrup üzrə 334.886, III qrup üzrə 437.084, IV qrup üzrə 426.496 bal olmuşdur. Digər özəl ali təhsil müəssisələrinə və regionlarda fəaliyyət göstərən dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin orta bal göstəriciləri isə aşağı olub.

I ixtisas qrupu üzrə Lənkəran Dövlət Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Texnologiya Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, II ixtisas qrupu üzrə Bakı Qızlar Universiteti, "Azərbaycan" Universiteti, Gəncə Dövlət Universiteti, Odlar Yurdu Universiteti, Lənkəran Dövlət Universiteti, Bakı Avrasiya Universiteti, Bakı Biznes Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Qərbi Kaspi Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Texnologiya Universiteti, IV ixtisas qrupu üzrə Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Texnologiya Universitetinin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri 250-dən aşağı olub. III ixtisas qrupu üzrə univesitetlərə qəbul olan abituriyentlərin orta bal göstəriciləri 275-dən yuxarı olub.

V ixtisas qrupu üzrə orta bal göstəricisi yüksək olan ali təhsil müəssisələri kimi Azərbaycan Dövlət İqtisad Universiteti (236.147), ADA Univeristeti (234.644), Bakı Mühəndislik Universiteti (203.679) və Azərbaycan Dövlət Aqrar Universitetini (200.224) qeyd etmək olar. Bu göstəricilərin yüksək olması qeyd olunan ali təhsil müəssisələrində V ixtisas qrupu üzrə xüsusi qabiliyyət imtahanı tələb etməyən "Dizayn" ixtisasına qəbulun aparılması ilə bağlıdır.

Cədvəl 1.11

AYRI-AYRI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN QRUPLAR ÜZRƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ (2025-Cİ İL ÜZRƏ)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
1	Bakı Dövlət Universiteti	409.581	343.775	478.527	485.306	442.559	136.079
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	428.879	352.663			419.331	---
3	Azərbaycan Texniki Universiteti	382.425	322.913			370.486	---
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	336.978	276.663			319.961	169.173
5	Azərbaycan Tibb Universiteti				632.691	632.691	---
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	377.933	347.279	422.783	391.164	404.388	155.201
7	Azərbaycan Dövlət İqtisad Universiteti	495.834	431.494	460.736	349.678	444.514	236.147
8	Azərbaycan Dillər Universiteti			442.690		442.690	---
9	Bakı Slavyan Universiteti			356.532	440.793	359.871	---
10	Bakı Mühəndislik Universiteti	392.942	283.502		508.186	362.914	203.679
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	545.649	422.172	578.455		507.095	---
12	ADA Universiteti	611.001	625.267	643.784		624.688	234.644
13	Bakı Musiqi Akademiyası					---	142.815

Cədvəl 1.11 (ardı)


№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
14	Azərbaycan Milli Konservatoriyası					---	113.954
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti		303.475	370.314		351.906	138.386
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	301.025		313.942		309.488	158.311
17	Azərbaycan Turizm və Menecment Universiteti	---	291.527	405.717		328.515	---
18	Bakı Xoreoqrafiya Akademiyası					---	84.770
19	Azərbaycan İdman Akademiyası		292.139		489.273	380.738	142.633
20	Milli Aviasiya Akademiyası	385.006	312.831	602.858		404.661	---
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	385.822				385.822	---
22	Bakı Ali Neft Məktəbi	638.171	584.306			626.039	---
23	Dövlət Gömrük Komitəsinin Akademiyası	533.165	489.510	616.113		538.155	---
24	Naxçıvan Dövlət Universiteti	312.108	372.115	421.008	534.000	409.457	123.017
25	Naxçıvan Müəllimlər İnstitutu	178.004		359.101		330.338	121.608
26	Azərbaycan Dövlət Aqrar Universiteti	217.435	258.886		255.413	229.996	200.224
27	Gəncə Dövlət Universiteti	317.433	238.908	420.552	342.570	340.925	131.311
28	Azərbaycan Texnologiya Universiteti	196.818	186.655		216.707	191.358	181.337
29	Sumqayıt Dövlət Universiteti	308.488	275.428	422.807	338.213	336.600	158.044
30	Mingəçevir Dövlət Universiteti	302.562	204.415	390.346	270.147	290.652	---
31	Lənkəran Dövlət Universiteti	235.631	229.322	388.169	268.433	278.466	112.938
32	Qarabağ Universiteti	404.588	349.160	501.649	514.278	455.491	121.934
33	Türkiyə-Azərbaycan Universiteti	578.191				578.191	---
34	Azərbaycan İlahiyyat İnstitutu			289.087		289.087	---
35	Azərbaycan Kooperasiya Universiteti	233.131	198.921	275.934	209.174	235.425	---
36	"Azərbaycan" Universiteti	316.779	245.591	358.819		317.610	---
37	Qərbi Kaspi Universiteti	287.485	215.345	308.311	353.565	291.340	194.524
38	Xəzər Universiteti	438.830	334.886	437.084	426.496	414.603	191.864
39	Bakı Avrasiya Universiteti	291.286	227.144	317.507		289.638	---
40	Bakı Qızlar Universiteti	292.470	246.325	383.850	286.603	364.538	---
41	Odlar Yurdu Universiteti	294.034	230.181	339.371	329.542	292.622	126.726
42	Bakı Biznes Universiteti	277.415	223.699	317.830		264.015	---
43	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası		220.951	346.544		298.144	---

1992–2025-ci illər ərzində ali təhsil müəssisələri üzrə ən yüksək müsabiqə vəziyyəti 2008-ci ilə, ən aşağı müsabiqə vəziyyəti isə 2019-cu ilə təsadüf edir.

1.9 saylı şəkildə bütövlükdə ali təhsil müəssisələrinə ayrılan plan yerləri və ərizələrin illər üzrə dinamikası təqdim olunub.

1992–2025-ci illər üzrə plan yerləri və abituriyent ərizələrinin dinamikasının müqayisəli təhlili göstərir ki, bu illər ərzində ali təhsil müəssisələrinin qəbul planı 3.56 dəfə, abituriyent ərizələrinin sayı isə 3.14 (subbakalavrlarla birlikdə 3.62) dəfə artıb. İllər üzrə bu göstəricilərin dinamikası müxtəlif olub.

Abituriyent ərizələrinin sayının əvvəlcədən proqnozlaşdırılmasına baxmayaraq, qəbul planları tərtib edilərkən heç də həmişə abituriyentlərin gözlənilən sayı nəzərə alınmayıb. Ali təhsil müəssisələri üçün plan yerləri ən çox 2025-ci ildə, ən az 1993-cü ildə ayrılıb. Abituriyent ərizələrinin sayı isə ən az 1992-ci ildə, ən çox 2025-ci ildə olub. Ötən illər ərzində ən aşağı müsabiqə vəziyyəti 2019-cu ilə təsadüf edir. Qeyd etmək lazımdır ki, müsabiqə vəziyyətinin aşağı olması qəbulun keyfiyyətinə mənfi təsir göstərir, ixtisaslar üzrə keçid ballarının aşağı düşməsinə səbəb olur.



Şəkil 1.9

Mayın 4-də və iyunun 29-da qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər Azərbaycan dili (dövlət dili) fənnindən imtahan veriblər.

DİM "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunu rəhbər tutaraq, qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün Azərbaycan dili (dövlət dili) fənnindən test imtahanı keçirir. Bu il Azərbaycan dili (dövlət dili) fənnindən imtahan iki dəfə – mayın 4-də (Bakı, Naxçıvan, Abşeron, Sumqayıt, Xaçmaz, Quba, Qusar, Gəncə, Mingəçevir, Şəmkir, Tovuz, Zaqatala, Qax, Qəbələ, Şəki, Balakən, Göyçay, Bərdə, Yevlax, Lənkəran və Şirvan) və iyunun 29-da (Bakı və Naxçıvanda) keçirilib. İmtahanda abituriyentlərə fənn kurikulumu əsasında hazırlanmış 27-si qapalı tipli və 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli olmaqla 30 test tapşırığı təqdim edilib. Tapşırıqların yerinə yetirilməsinə 1 saat 30 dəqiqə vaxt ayrılıb. İmtahanın nəticələri "məqbul" və "qeyri-məqbul"la qiymətləndirilib və "məqbul" alan abituriyentlər ali və orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqəyə buraxılıb. Qapalı tipli tapşırıqlar üzrə hər düzgün cavab 1 balla, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar isə markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi. 2024-cü ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən Azərbaycan dili (dövlət dili) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılıb.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri Azərbaycan dili (dövlət dili) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda həmin nəticələr əsas götürülüb və onlar "məqbul" almış hesab olunub. İmtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunub və onlar Azərbaycan dili (dövlət dili) fənnindən yenidən imtahan veriblər.

Mayın 4-də keçirilən I imtahanda iştirak edən 12191 abituriyentdən 9893-ü, iyunun 29-da keçirilən II imtahanda iştirak edən 1054 abituriyentdən isə 560-ı "məqbul" alıb. Qeyd edək ki, keçirilən imtahanlarda "qeyri-məqbul" alan və yaxud imtahanlarda iştirak etməyən abituriyentlər (qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verənlər) 2025-ci ildə ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqədə iştirak etmək hüququnu itiriblər.

I–IV qruplar üzrə imtahanlara 16275 nəzarətçi, 2766 imtahan rəhbəri cəlb olunub. Onların hər birinin fəaliyyəti təhlil edilib və qiymətləndirilib.

Hər il qəbul imtahanlarının idarə olunmasına elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin yüzlərlə nümayəndəsi, imtahanların gedişinə nəzarət işinə isə minlərlə məktəb müəllimi cəlb olunur. Dövlət İmtahan Mərkəzi imtahanların düzgün və obyektiv idarə olunmasına, zallarda nəzarət prosesinin təlimata uyğun həyata keçirilməsinə böyük diqqət yetirir və bu sahədəki fəaliyyətini mütəmadi olaraq təkmilləşdirir. Təsdiq edilmiş iş qrafikinə uyğun olaraq respublikanın bütün rayonları üzrə ümumtəhsil müəssisələrində nəzarətçi bazasına əlavə edilmiş yeni və təcrübəsi az olan zal nəzarətçilərinə yanvar və fevral aylarında təlimlər keçirilib, zal nəzarətçiləri imtahan qaydaları üzrə təlimatlandırılıb. Nəzarətçilərdə imtahan prosesi barədə daha aydın təsəvvür yaratmaq üçün təlimlərdə videomateriallar və hazırlanmış xüsusi təqdimatdan istifadə olunub, onlara DİM-in hazırladığı "Zal nəzarətçisi üçün təlimat" kitabçası təqdim edilib. Təlimlər eyni vaxtda respublikanın digər bölgələrində də keçirilib.

Bu il ali təhsil müəssisələrinə I – IV ixtisas qrupları üzrə qəbul imtahanlarına bütövlükdə 16275 nəfər, o cümlədən Bakı şəhərinin rayonlarından 6145 (Yasamal rayonu – 885, Binəqədi rayonu – 1128, Səbail rayonu – 246, Xətai rayonu – 820, Xəzər rayonu – 246, Nərimanov rayonu – 542, Suraxanı rayonu – 568, Sabunçu rayonu – 630, Nəsimi rayonu – 538, Qaradağ rayonu – 160, Nizami rayonu – 382), Abşeron rayonundan – 889, Sumqayıt şəhərindən – 876, Şəki şəhərindən – 540, Gəncə şəhərindən – 719, Bərdə rayonundan – 625, Naxçıvan MR-dan – 647, Xaçmaz rayonundan – 459, Lənkəran şəhərindən – 412, Şəmkir rayonundan – 398, Mingəçevir şəhərindən – 344, Şirvan şəhərindən – 331, Salyan rayonundan – 338, Masallı rayonundan – 345, Göyçay rayonundan – 312, Sabirabad rayonundan – 310, Quba rayonundan – 228, Şamaxı rayonundan – 201, Qazax rayonundan – 169, Kürdəmir rayonundan – 170, Cəlilabad rayonundan – 108, Ağstafa rayonundan – 86, Tovuz rayonundan – 106, Samux rayonundan – 79, Ucar rayonundan – 63, Astara rayonundan – 58, İsmayıllı rayonundan – 45, Göygöl rayonundan – 52, Hacıqabul rayonundan – 50, Qubadlı rayonundan – 47, Saatlı rayonundan – 45, Ağcabədi rayonundan – 55, Tərtər rayonundan – 49, Lerik rayonundan – 40, Daşkəsən rayonundan – 42, Neftçala rayonundan – 36, Ağdaş rayonundan – 26, Zaqatala rayonundan – 213, Yevlax rayonundan – 30, Qəbələ rayonundan – 15, Zəngilan rayonundan – 14, Goranboy rayonundan – 20, Ağdam rayonundan – 23, Qusar rayonundan – 20, Beyləqan rayonundan – 5, Balakən rayonundan – 26, Laçın, Gədəbəy, Ağsu, Oğuz, Şuşa, Yardımlı, Qobustan, Qax, Biləsuvar, Şabran, Zərdab, Xızı və Siyəzən rayonlarından birlikdə – 105, Milli Elmlər Akademiyasından – 345, DİM əməkdaşlarından – 13 nəfər nəzarətçi kimi cəlb olunmuşdu. Bunlardan 10100 (cəlb edilənlərin 62%-i) nəfəri zal nəzarətçisi sertifikatı almış nəzarətçilərdir.

İmtahanda iştirak edən nəzarətçilərin fəaliyyəti imtahan rəhbərlərinin məlumatlarına və DİM-ə daxil olan şikayət məktublarına əsasən araşdırılmışdır. İmtahanı aşağı səviyyədə keçirən, köçürmə hallarına yol verən, təlimatı qaydaları pozan nəzarətçilər bazadan çıxarılmış və onların siyahıları inzibati tədbirlər görülmək üçün Elm və Təhsil Nazirliyinə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə və müvafiq Regional Təhsil İdarələrinə göndərilmişdir. Nəzarətçilərin böyük əksəriyyəti təlimatı qaydalara əməl etmiş və bu dövlət əhəmiyyətli tədbirin həyata keçirilməsində üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmişdir.

Ali məktəblərə qəbul imtahanlarının ikinci mərhələsinin keçirilməsi üçün 712 imtahan mərkəzindən istifadə olunmuşdur. İmtahanın təhlükəsizliyinin təmin olunması məqsədilə binalara buraxılış rejimini təşkil etmək üçün Daxili İşlər Nazirliyinin xətti ilə, həmçinin müsahibədən keçərək fərdi qaydada seçilmiş 2326 nəfər əməkdaş, 264 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

Qəbul imtahanlarının I mərhələsi aprelin 6-da 18 müxtəlif imtahan mərkəzində keçirilmişdir. Cari ilin məzunları üçün I mərhələnin nəticəsi kimi buraxılış imtahanının nəticəsi əsas götürülmüşdür. Qəbul imtahanlarının I mərhələsinin keçirildiyi mərkəzlər və onlara aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri) aşağıdakı cədvəldə təqdim olunmuşdur:

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ I MƏRHƏLƏSİ

İmtahan mərkəzləri	İmtahan mərkəzlərinin əhatə etdiyi şəhərlər (rayonlar, yaşayış məntəqələri)
Bakı	Bakı, Şamaxı, Qobustan
Qazax	Qazax, Ağstafa, Tovuz
Şəmkir	Şəmkir, Gədəbəy
Şəki	Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax, Oğuz
Bərdə	Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Xankəndi, Xocavənd, Cəbrayıl, Qubadlı, Laçın, Zəngilan, Xocalı, Şuşa, Ağdərə
Sabirabad	Sabirabad, İmişli, Füzuli
Lənkəran	Lənkəran, Astara, Lerik, Yardımlı, Masallı
Naxçıvan	Kəngərli, Naxçıvan, Babək, Ordubad, Sədərək, Culfa, Şərur, Şahbuz
Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
Abşeron	Abşeron
Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Naftalan
Mingəçevir	Mingəçevir, Goranboy, Yevlax, Ağdaş
Göyçay	Göyçay, Ucar, İsmayıllı
Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
Şirvan	Şirvan, Hacıqabul, Saatlı
Salyan	Biləsuvar, Neftçala, Salyan
Cəlilabad	Cəlilabad
Xaçmaz	Quba, Qusar, Xaçmaz, Şabran

Cari ildə ali təhsil müəssisələrinə I – IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi iki cəhd üzrə olmaqla iki dəfə keçirilmişdir. İmtahanlar kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədi ilə, abituriyentlərin sayı nəzərə alınaraq, hər bir ixtisas qrupu üzrə müxtəlif imtahan mərkəzlərində olmaqla ayrı-ayrı günlərdə keçirilmişdir.

İmtahanların ikinci mərhələsinin 1-ci cəhdi II və III ixtisas qruplarının abituriyentləri üçün mayın 25-də, I və IV ixtisas qruplarının abituriyentləri üçün iyunun 1-də keçirilmişdir. 1-ci cəhd üzrə imtahanların keçirilmə qrafiki aşağıdakı kimidir:

I-IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ (1-ci cəhd)

İxtisas qrupu (imtahan tarixi)	Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
III ixtisas qrupu (25.05.2025) **II ixtisas qrupu (25.05.2025)**	Bakı	Bakı
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Naftalan, Goranboy
	Şəmkir	Şəmkir, Gədəbəy
	Ağstafa/Qazax	Qazax, Ağstafa, Tovuz
	Mingəçevir	Mingəçevir, Yevlax
	Abşeron	Abşeron
	Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Xankəndi	Xankəndi, Xocalı, Agdərə, Şuşa, Laçın Cari il məzunları: Cəbrayıl şəhəri, M.Mehdizadə adına kənd tam orta məktəbi Füzuli şəhəri, M.Uluqbəy adına 1 №-li tam orta məktəbi Zəngilan rayonu, Ağalı kənd tam orta məktəbi
	Şəki	Şəki, Qəbələ, Oğuz
	Bərdə	Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Zəngilan
	Göyçay	Göyçay, Ucar, Ağdaş, İsmayıllı
	Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Naxçıvan	Naxçıvan
	Şirvan	Şirvan, Hacıqabul, Saatlı, Salyan, Biləsuvar, Neftçala, Salyan
	Sabirabad	Sabirabad, İmişli, Füzuli
	Xaçmaz	Xaçmaz, Quba, Qusar, Şabran
	Lənkəran	Lənkəran, Astara, Lerik
	Masallı	Yardımlı, Masallı, Cəlilabad

İxtisas qrupu (imtahan tarixi)	Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
IV ixtisas qrupu (01.06.2025) **I ixtisas qrupu (01.06.2025)**	Bakı	Bakı
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Naftalan, Goranboy
	Şəmkir	Şəmkir, Gədəbəy
	Ağstafa/Qazax	Qazax, Ağstafa, Tovuz
	Mingəçevir	Mingəçevir, Yevlax
	Abşeron	Abşeron
	Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Xankəndi	Xankəndi, Xocalı, Agdərə, Şuşa, Laçın Cari il məzunları: Cəbrayıl şəhəri, M.Mehdizadə adına kənd tam orta məktəbi Füzuli şəhəri, M.Uluqbəy adına 1 №-li tam orta məktəbi Zəngilan rayonu, Ağalı kənd tam orta məktəbi
	Şəki	Şəki, Qəbələ, Oğuz
	Bərdə	Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Zəngilan
	Göyçay	Göyçay, Ucar, Ağdaş, İsmayıllı
	Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Naxçıvan	Naxçıvan
	Şirvan	Şirvan, Hacıqabul, Saatlı, Salyan, Biləsuvar, Neftçala, Salyan
	Sabirabad	Sabirabad, İmişli, Füzuli
	Xaçmaz	Xaçmaz, Quba, Qusar, Şabran
	Lənkəran	Lənkəran, Astara, Lerik
	Masallı	Yardımlı, Masallı, Cəlilabad

İmtahanların ikinci mərhələsinin 2-ci cəhdi II və III ixtisas qruplarının abituriyentləri üçün iyulun 6-da, I və IV ixtisas qruplarının abituriyentləri üçün isə iyulun 13-də keçirilmişdir. 2-ci cəhd üzrə imtahanların keçirilmə qrafiki aşağıda təqdim olunan cədvəldə öz əksini tapmışdır:

I – IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ (2-ci cəhd)

İxtisas qrupu (imtahan tarixi)	Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
III ixtisas qrupu (06.07.2025) **II ixtisas qrupu (06.07.2025)**	Bakı	Bakı
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Naftalan, Goranboy
	Şəmkir	Şəmkir, Gədəbəy
	Ağstafa/Qazax	Qazax, Ağstafa, Tovuz
	Mingəçevir	Mingəçevir, Yevlax
	Abşeron	Abşeron
	Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Xankəndi	Xankəndi, Xocalı, Agdərə, Şuşa, Laçın Cari il məzunları: Cəbrayıl şəhəri, M.Mehdizadə adına kənd tam orta məktəbi Füzuli şəhəri, M.Uluqbəy adına 1 №-li tam orta məktəbi Zəngilan rayonu, Ağalı kənd tam orta məktəbi
	Şəki	Şəki, Qəbələ, Oğuz
	Bərdə	Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Zəngilan
	Göyçay	Göyçay, Ucar, Ağdaş, İsmayıllı
	Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Naxçıvan	Naxçıvan
	Şirvan	Şirvan, Hacıqabul, Saatlı, Salyan, Biləsuvar, Neftçala, Salyan
	Sabirabad	Sabirabad, İmişli, Füzuli
	Xaçmaz	Xaçmaz, Quba, Qusar, Şabran
	Lənkəran	Lənkəran, Astara, Lerik

İxtisas qrupu (imtahan tarixi)	Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
I ixtisas qrupu (13.07.2025) **IV ixtisas qrupu (13.07.2025)**	Bakı	Bakı
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Naftalan, Goranboy
	Şəmkir	Şəmkir, Gədəbəy
	Ağstafa/Qazax	Qazax, Ağstafa, Tovuz
	Mingəçevir	Mingəçevir, Yevlax
	Abşeron	Abşeron
	Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Xankəndi	Xankəndi, Xocalı, Agdərə, Şuşa, Laçın Cari il məzunları: Cəbrayıl şəhəri, M.Mehdizadə adına kənd tam orta məktəbi Füzuli şəhəri, M.Uluqbəy adına 1 №-li tam orta məktəbi Zəngilan rayonu, Ağalı kənd tam orta məktəbi
	Şəki	Şəki, Qəbələ, Oğuz
	Bərdə	Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Zəngilan
	Göyçay	Göyçay, Ucar, Ağdaş, İsmayıllı
	Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
	Şamaxı	Şamaxı, Qobustan, İsmayıllı
	Naxçıvan	Naxçıvan
	Şirvan	Şirvan, Hacıqabul, Saatlı, Salyan, Biləsuvar, Neftçala, Salyan
	Sabirabad	Sabirabad, İmişli, Füzuli
	Xaçmaz	Xaçmaz, Quba, Qusar, Şabran
	Lənkəran	Lənkəran, Astara, Lerik

Abituriyentlər V ixtisas qrupuna aid ixtisaslar üzrə müsabiqədə yalnız qəbul imtahanlarının birinci mərhələsinin (müvafiq ilin abituriyentləri buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişdir. Ümumiyyətlə isə imtahanlarda I–IV qruplar üzrə 90911, V qrup üzrə 125619 (orta ixtisas təhsili müəssisələri üzrə birlikdə 129779 nəfər) abituriyent iştirak etmişdir.

C.Naxçıvanski adına və H.Əliyev adına hərbi liseylərə qəbul olmaq istəyənlər müsabiqədə 9-cu siniflər üzrə buraxılış imtahanında, Hərbi Tibb Məktəbinin feldşer ixtisasını seçənlər isə Dövlət İmtahan Mərkəzi və Müdafiə Nazirliyinin birgə razılığına əsasən, müsabiqədə 11-ci siniflər üzrə buraxılış imtahanında topladıqları bal əsasında iştirak ediblər. Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul olmaq istəyən və buraxılış imtahanı verməyən şəxslər imtahanlarda şəhər və rayonların qrafikinə uyğun iştirak ediblər.

İmtahanların gedişi barədə ictimaiyyətə geniş informasiya çatdırılması, həmçinin qəbulda şəffaflığın təmin olunması məqsədi ilə kütləvi informasiya vasitələri nümayəndələrinin imtahanlarda iştirakına geniş şərait yaradılmışdır. Bunun üçün imtahan ərəfəsində və imtahanın keçirildiyi dövrdə DİM-in İdarə Heyətinin sədri kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransları keçirmişdir. Mərkəz artıq iyirmi ildir ki, qəbul imtahanlarının gedişini hər saatdan bir özünün internet saytında işıqlandırır və prosesin hər bir məqamına dair fotoşəkillər təqdim edir.

Qəbul imtahanlarının birinci mərhələsinin test kitabçaları aprelin 6-da keçirilən imtahanlar üçün 2 – 6 aprel, I–IV ixtisas qrupları üzrə keçirilən imtahanların ikinci mərhələsinin 1-ci və 2-ci cəhdlərinin sual kitabçaları isə mayın 25-də keçirilən imtahanlar üçün 20 – 25 may, iyunun 1-də keçirilən imtahanlar üçün 27 may – 1 iyun, iyulun 6-da keçirilən imtahanlar üçün 1 – 6 iyul, iyulun 13-də keçirilən imtahanlar üçün 8 – 13 iyul tarixlərində DİM-in binasında qapalı rejimdə hazırlanmışdır. İmtahanlarda istifadə edilən test tapşırıqları bankdan kompüter proqramı vasitəsilə avtomatik olaraq seçilmişdir. Hər bir qrupun abituriyentlərinin bilik səviyyəsinə uyğun qaydada seçilən test tapşırıqları DİM-də müvafiq fənlər üzrə fəaliyyət göstərən işçi qruplarının iclaslarında müəyyən edilmiş standartlara uyğun olmuşdur. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) tərtib edilmiş və beləliklə, köçürmə hallarının qarşısının alınması məqsədilə çoxvariantlılıq təmin olunmuşdur.

Mayın 25-də keçirilən 1-ci cəhd üzrə imtahanda II və III ixtisas qruplarının abituriyentləri (o cümlədən DİN-in Polis Akademiyasının və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları və DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə təhsil almaq istəyən abituriyentlər) iştirak etmişdir. Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba, Xaçmaz rayon və şəhərlərindəki imtahanlara 5014 nəfər zal nəzarətçisi, 848 nəfər imtahan rəhbəri, 716 nəfər buraxılış rejimini aparan əməkdaş, 80 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyunun 1-də də keçirilən 1-ci cəhd üzrə imtahanda I və IV ixtisas qruplarını seçən abituriyentlər (o cümlədən Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Heydər Əliyev adına Hərbi İnstitutda, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi", Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin "Hərbi tibb" və "Stomatologiya" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər) və III ixtisas qrupunun hər iki altqrupunu (DT və TC) seçən abituriyentlər coğrafiya fənni üzrə imtahanda iştirak etmişdir. İmtahanların idarə olunmasına Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı, Quba, Xaçmaz rayon və şəhərlərindəki imtahanlara 4236 nəfər zal nəzarətçisi, 723 imtahan rəhbəri, 598 nəfər buraxılış rejimini aparan əməkdaş, 70 nəfər imtahan binalarını imtahandan bir gün əvvəl yoxlayaraq möhürləyən şəxs cəlb olunmuşdur.

İyulun 6-sında 2-ci cəhd üzrə imtahanda II və III ixtisas qruplarını seçən abituriyentlər (o cümlədən, DİN-in Polis Akademiyasının və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları və DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə təhsil almaq istəyən abituriyentlər iştirak etmişdir. İmtahanların idarə olunmasına Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba, Xaçmaz rayon və şəhərlərindəki imtahanlara 3851 nəfər zal nəzarətçisi, 653 imtahan rəhbəri, 552 nəfər buraxılış rejimini aparan əməkdaş, 62 nəfər imtahan binalarını imtahandan bir gün əvvəl yoxlayaraq möhürləyən şəxs cəlb olunmuşdur.

İyulun 13-də 2-ci cəhd üzrə imtahanda I və IV ixtisas qruplarını seçən abituriyentlər (o cümlədən, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Heydər Əliyev adına Hərbi İnstitutda, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi", Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin "Hərbi tibb" və "Stomatologiya" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər (həmçinin III ixtisas qrupunun hər iki altqrupunu (DT və TC) seçən abituriyentlər coğrafiya fənni üzrə imtahanda)) iştirak etmişdir. İmtahanların idarə olunmasına Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı, Xaçmaz rayon və şəhərlərindəki imtahanlara 3177 zal nəzarətçisi, 540 imtahan rəhbəri, 460 nəfər buraxılış rejimini aparan əməkdaş, 52 nəfər imtahan binalarını imtahandan bir gün əvvəl yoxlayaraq möhürləyən şəxs cəlb olunmuşdur.

I qrup üzrə sənəd verən abituriyentlərin 62.48%-ni oğlanlar, 37.52%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 28416 nəfəri (87.66%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 2 nəfəri xarici ölkələrin vətəndaşları, 30 nəfəri ali təhsilli şəxslər, 496 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

II qrup üzrə sənəd verən abituriyentlərin 57.51%-ni oğlanlar, 42.49%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 22982 nəfəri (84.30%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 7 nəfəri xarici ölkələrin vətəndaşları, 23 nəfəri ali təhsilli şəxslər, 723 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

III qrup üzrə sənəd verən abituriyentlərin 25.82%-ni oğlanlar, 74.18%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 25059 nəfəri (84.56%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 14 nəfəri xarici ölkələrin vətəndaşları, 75 nəfəri ali təhsilli şəxslər, 843 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

IV qrup üzrə sənəd verən abituriyentlərin 22.71%-ni oğlanlar, 77.29%-ni isə qızlar təşkil etmişdir. Abituriyentlərin 5519 nəfəri (81.91%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 6 nəfəri xarici ölkələrin vətəndaşları, 39 nəfəri ali təhsilli şəxslər, 113 nəfəri isə orta ixtisas məktəblərinin məzunlarıdır.

İmtahanlarda oğlanların ən yüksək nisbi sayı I ixtisas qrupunda (62.48%), qızların ən yüksək nisbi sayı isə IV ixtisas qrupunda (77.29%) olmuşdur.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsilə (bu xətt xüsusi olaraq DİM-in keçirdiyi imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) hazırlanmışdır. Qəbul imtahanlarının birinci mərhələsində sual kitabçalarının xarici dil blokunda "Abituriyentin elektron ərizəsi"ndə "İmtahan verəcəyi xarici dil" bölməsində seçilən xarici dilə uyğun test tapşırıqları təqdim olunub. Xarici dil fənni blokuna daxil olan alman, fransız və ingilis dili fənləri üzrə test tapşırıqları Azərbaycan və rus bölmələri üçün, rus dili, ərəb və fars dili fənləri üzrə test tapşırıqları isə yalnız Azərbaycan bölməsi üçün hazırlanmışdır.

Beləliklə, aprelin 6-da 8, mayın 25-də 16, iyunun 1-də 16, iyulun 6-da 16, iyulun 13-də 16 test kitabçası hazırlanıb. Bu imtahanlarda 8280 test tapşırığından istifadə olunub.

I–IV ixtisas qrupları üzrə imtahanlarda 90911 abituriyent iştirak etmiş, onların 81700-ü Azərbaycan, 9211-i rus bölməsini təmsil etmişdir. İmtahanların gedişinin hər bir məqamı, eləcə də sonrakı proseslər – testlərin ekspertizası və etalonların müəyyənləşdirilməsi, imtahan protokollarının araşdırılması DİM-in internet saytında operativ şəkildə işıqlandırılmışdır. Qəbul imtahanlarının birinci mərhələsi üzrə nəticələr imtahanların keçirilməsindən 26 gün, ikinci mərhələsi üzrə nəticələr isə təxminən 15 gün sonra (birinci mərhələ üzrə aprelin 6-da keçirilən imtahanların nəticələri mayın 2-də, ikinci mərhələ üzrə mayın 25-də keçirilən imtahanların nəticələri iyunun 11-də, iyunun 1-də keçirilən imtahanların nəticələri iyunun 18-də, iyulun 6-da keçirilən imtahanların nəticələri iyulun 17-də, iyulun 13-də keçirilən imtahanların nəticələri isə iyulun 24-də) elan edilmişdir. Nəticələrin elanı DİM-in internet saytı və mobil operatorların telefon xidmətləri vasitəsi ilə həyata keçirilmişdir. Bununla yanaşı, hər bir abituriyentə internet vasitəsi ilə cavab kartı və cavab vərəqinin ön və arxa üzlərinin qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı da yaradılmışdır.

DİM hər imtahandan sonra həmin imtahanda istifadə olunan test tapşırıqlarının düzgün cavablarını DİM-in "Youtube" kanalı vasitəsilə elan etmiş, Mərkəzin məsul əməkdaşları və fənn ekspertləri birbaşa efir vaxtında test tapşırıqları, eləcə də imtahanların gedişi ilə bağlı abituriyentləri və pedaqoji ictimaiyyəti maraqlandıran sualları cavablandırmışdır. Bu tədbir həm abituriyentlərin onları maraqlandıran suallara cavab almaları, həm də imtahan prosesinin şəffaflığının təmin edilməsi baxımından əhəmiyyətli olmuşdur. Abituriyentlərin ballarının hesablanması üçün xüsusi proqram hazırlanmış, DİM-in və "Abituriyent" jurnalının internet saytlarında yerləşdirilmişdir. İstifadə üçün çox sadə olan bu proqramda abituriyentlər fənlər üzrə düzgün və səhv cavablarını müvafiq mövqelərdə qeyd etməklə avtomatik olaraq nisbi və ümumi balları haqqında məlumat almış və nəticələrini çap edə bilmişdir.

Qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu, imtahanın gedişi və imtahan nəticələri ilə əlaqədar müraciətlərə baxılması üçün DİM apellyasiya komissiyası yaratmışdır. Ötən il olduğu kimi cari ildə də apellyasiya müraciətlərinə onlayn şəkildə baxılmışdır. Apellyasiya komissiyasına müraciət etmək istəyənlər elan olunmuş tarixlərdə elektron ərizə doldurmaqla qeydiyyatdan keçmişdir. Komissiyaya daxil olan bütün müraciətlər araşdırılmış və sistemdə hər bir ərizədə yazı işlərinə aid ekspert rəyləri əlavə edilmişdir. Bu prosesdə qəbul imtahanının birinci mərhələsi üzrə 629, ikinci mərhələsi üzrə isə 3335 müraciətə baxılmışdır. İmtahanlar üzrə apellyasiya müraciətləri üçün qeydiyyat tarixləri və apellyasiya proseslərinin başlanma tarixləri aşağıdakı kimidir:

Qəbul imtahanlarının birinci mərhələsində iştirak edənlər üçün

– 06 apreldə keçirilən imtahanlar üzrə qeydiyyat tarixləri 06 – 08 may, apellyasiya prosesinin başlanma tarixi 12 may;

Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün

1-ci cəhd imtahanları üzrə

– II və III qruplar üzrə qeydiyyat tarixləri 17 – 19 iyun, apellyasiya prosesinin başlanma tarixi 20 iyun;
– I və IV qruplar üzrə qeydiyyat tarixləri 21 – 23 iyun, apellyasiya prosesinin başlanma tarixi 24 iyun.

2-ci cəhd imtahanları üzrə

– II və III qruplar üzrə qeydiyyat tarixləri 18 – 20 iyul, apellyasiya prosesinin başlanma tarixi 21 iyul;
– I və IV qruplar üzrə qeydiyyat tarixləri 25 – 27 iyul, apellyasiya prosesinin başlanma tarixi 28 avqust.

Apellyasiya prosesi aşağıdakı ardıcıllıqla aparılıb:

– Apellyasiya Komissiyası tərəfindən haqqında müraciət olunan bütün işlər araşdırılıb;
– İmtahan iştirakçılarının müraciət etdikləri tapşırıqlar üzrə ekspert rəyi (yazılı şəkildə) apellyasiya ərizələrinə əlavə edilib;
– İmtahan iştirakçılarının apellyasiya ərizələrində qeyd etdikləri telefon nömrəsinə apellyasiya prosesinin başa çatması ilə bağlı "sms" göndərilib.
– Bundan sonra şagirdlər (abituriyentlər) *apelyasiya.dim.gov.az* saytında ərizələrinə daxil olaraq apellyasiyanın nəticəsi ilə tanış olub və ekspert rəyini oradan çap edə biliblər.

İxtisas seçimi abituriyentlərin imtahan nəticələri (balları) elan olunduqdan sonra aparılıb.

Müsabiqə şərtlərini ödəyən abituriyentlər müsabiqədə iştirak etmək üçün avqustun 11-dən 19-dək internet internet vasitəsilə ixtisas seçimi aparıb və ixtisas seçimi ərizələrini təsdiqləyiblər. Test imtahanlarının nəticələrinə əsasən, 104773 abituriyent ali təhsil müəssisələrinin ixtisaslarına keçirilən müsabiqədə iştirak etmək hüququ qazanıb. İxtisas seçimi zamanı abituriyentlərə kömək məqsədilə hər bir ixtisas qrupu üzrə bir sıra məlumatlar, o cümlədən plan yerlərinin sayı, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması haqqında məlumatlar ayrı-ayrı kitabçalar şəklində, eləcə də ali təhsil müəssisələrinin ixtisasları üzrə 2024-cü ildə tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc edilmişdir.

Qəbul imtahanlarının nəticələrinə əsasən I ixtisas qrupu üzrə 18044, II ixtisas qrupu üzrə 12704, III, IV və V ixtisas qrupları üzrə müvafiq olaraq 24562, 5420 və 104738 nəfər müsabiqədə iştirak etmək hüququ əldə edib (1.12 saylı cədvələ bax). Hər ixtisas qrupu üzrə ayrı-ayrılıqda abituriyentlərin topladıqları balların paylanması 6.10 – 6.19 saylı cədvəllərdə təqdim edilib (bax: səh. 504-508).

Cədvəl 1.12

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANMIŞ ABİTURİYENTLƏRİN PAYLANMASI

İxtisas qrupu	Qəbul planı				Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı		
	Azərbaycan bölməsi	Rus bölməsi	Birgə müsabiqə aparılan ixtisaslar	Cəmi	Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi
I	14305	860	4816	19981	16279	1765	18044
(RK)	9845	510	2388	12743	10707	1119	11826
(Rİ)	4460	350	2428	7238	6139	710	6849
II	11613	590	2617	14820	11579	1125	12704
III	11848	1520	2002	15370	22054	2508	24562
(DT)	10523	1245	1652	13420	21697	2391	24088
(TC)	1325	275	350	1950	6367	1254	7621
IV	3616	360	749	4725	4566	854	5420
V	1818	217	2524	4559	94104	10634	104738
CƏMİ	**43200**	**3547**	**12708**	**59455**	**94130**	**10643**	**104773**

İxtisas seçimində 66385 abituriyent iştirak edib. Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 36.64%-i (38388 nəfər) arzu etdikləri ixtisaslara qəbul olmaq üçün kifayət qədər yüksək bal toplamadıqlarına, yaxud xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul olduqlarına görə qəbul kampaniyasının ixtisas seçimi mərhələsində iştirak etməyib. Bundan əlavə, ixtisas seçimində 19976 subbakalavr da iştirak edib. Qeyd edək ki, müsabiqədə abituriyent kimi iştirak etmək üçün müraciət edən subbakalavrlardan müsabiqə şərtlərini ödəməyənlər ixtisas seçimi mərhələsində yalnız subbakalavr qismində ərizə veriblər.

İxtisas seçimi mərhələsində ərizə verən abituriyentlərin 13470 nəfəri, subbakalavrların 1608 nəfəri ərizəsində ali təhsil müəssisələrinin yalnız dövlət sifarişi əsasında ayrılmış yerlərini, 20738 abituriyent və 8103 subbakalavr isə yalnız ödənişli əsaslarla ayrılmış yerlərini seçib. Yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçənlərin 1870-i (1413 abituriyent və 457 subbakalavr) ərizələrində yalnız özəl təhsil müəssisələrinin ixtisaslarını göstərib. İxtisas seçimi mərhələsində ərizə verən abituriyentlərin 48.47%-i (32177 nəfər), subbakalavrların 51.39%-i (10265 nəfər) ərizəsində həm dövlət sifarişli, həm də ödənişli əsaslarla olan yerləri qeyd etmişdi.

Müsabiqə və yerləşdirmənin nəticələri ixtisas seçimindən dərhal sonra açıqlanıb.

İlkin mərhələdə ali təhsil müəssisələrinə 57236 nəfər

qəbul olub, qəbul planı 96.27% dolub.

Müsabiqə və yerləşdirmənin nəticələri avqustun 22-də DİM-in internet saytı, AZERCELL, BAKCELL, NARMOBILE və NAXTEL telefon xidmətləri vasitəsi ilə elan olunub, avqustun 24-də isə "Abituriyent" jurnalının 6-cı sayında dərc edilib. Burada ixtisaslar üzrə keçid balları da təqdim olunub.

Qəbul imtahanlarının nəticələrinə əsasən, birinci mərhələdə ali təhsil müəssisələrinə 57236 nəfər (o cümlədən 50775 abituriyent və 6461 subbakalavr) qəbul olub və qəbul planı 96.27% yerinə yetirilib. Qəbul olanların 51929 nəfəri Azərbaycan, 5307 nəfəri isə rus bölməsini təmsil edib. Onlardan dövlət sifarişi üzrə qəbul olanların sayı, müvafiq olaraq, 25761 və 2195 nəfərdir. Qəbul olan abituriyentlər və subbakalavrlar haqqında ayrı-ayrılıqda və ümumiləşdirilmiş məlumatlar cədvəl 1.13-də təqdim olunub.

Cədvəl 1.13

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	19981	14186 (11764)	1404 (1097)	15590 (12861)	78.02
II	14820	10498 (3919)	965 (309)	11463 (4228)	77.35
III	15370	13704 (4198)	1636 (216)	15340 (4414)	99.80
IV	4725	3542 (2857)	504 (367)	4046 (3224)	85.63
V	4559	3735 (1310)	601 (191)	4336 (1501)	95.11
CƏMİ	**59455**	**45665 (24048)**	**5110 (2180)**	**50775 (26228)**	**85.40**
	Subbakalavrlar				
I	19981	2785 (1430)	57 (13)	2842 (1443)	14.22
II	14820	2944 (0)	135 (0)	3079 (0)	20.78
III	15370	0 (0)	0 (0)	0 (0)	0.00
IV	4725	461 (251)	0 (0)	461 (251)	9.76
V	4559	74 (32)	5 (2)	79 (34)	1.73
CƏMİ	**59455**	**6264 (1713)**	**197 (15)**	**6461 (1728)**	**10.87**
	Bütövlükdə				
I	19981	16971 (13194)	1461 (1110)	18432 (14304)	92.25
II	14820	13442 (3919)	1100 (309)	14542 (4228)	98.12
III	15370	13704 (4198)	1636 (216)	15340 (4414)	99.80
IV	4725	4003 (3108)	504 (367)	4507 (3475)	95.39
V	4559	3809 (1342)	606 (193)	4415 (1535)	96.84
CƏMİ	**59455**	**51929 (25761)**	**5307 (2195)**	**57236 (27956)**	**96.27**

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinə ümumilikdə 54836 nəfər qəbul olub, qəbul planı 92.23% dolub.

Nəticələr elan edildikdən sonra avqustun 28-dən sentyabrın 2-dək ali təhsil müəssisələrinin boş qalan yerlərinə əlavə qəbul elan olunub. Əlavə qəbul elanı, boş qalan plan yerləri haqqında məlumatlar və müsabiqə şərtləri "Abituriyent" jurnalının 7-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Əlavə yerləşdirmə zamanı əsas qəbulda yüksək müsabiqə şəraiti olan ixtisaslarda müsabiqədən keçməyən yüksək bal toplayan gənclərin ixtisas seçimlərini bir daha dəqiqləşdirmələrinə, boş qalan yerlərdən öz istəklərinə uyğun olanlarını seçmələrinə şərait yaradılıb. Müsabiqəyə buraxılma şərtləri bu mərhələdə də dəyişdirilmədən birinci mərhələdə olduğu kimi saxlanılıb.

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi eyni vaxtda elan olunub. Hər iki müsabiqə üçün abituriyentlərdən ərizə qəbulu internet vasitəsi ilə həyata keçirilib. Abituriyentlərə internetdə bir ərizə formasında həm ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının 20-dək kodunu istədikləri ardıcıllıqla qeyd etmək imkanı verilib. Bu mərhələdə də müsabiqə ümumi qaydalara müvafiq olaraq abituriyentin seçdiyi ixtisasların ardıcıllığına uyğun şəkildə aparılıb və abituriyent müsabiqədən keçdiyi birinci ixtisasa qəbul olub. Hər iki müsabiqəyə birlikdə 22277 ərizə daxil olub. Ərizələrin yalnız 1595-ində ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının kodları qeyd olunub. Beləliklə, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinin qəbul planının dolma göstəricisi 96.27%-dən 92.23%-ə düşüb (qəbul olan bəzi şəxslər qeydiyyatdan keçmədiyinə görə).

Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri nəzərə alınmaqla ali təhsil müəssisələrinə qəbul olanların sayı haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir.

Cədvəl 1.14

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT (ƏLAVƏ YERLƏŞDİRMƏ VƏ QEYDİYYAT NƏZƏRƏ ALINMAQLA)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	19981	14043 (12052)	1367 (1126)	15410 (13178)	77.12
II	14820	10395 (3912)	942 (309)	11337 (4221)	76.50
III	15370	13463 (4197)	1600 (214)	15063 (4411)	98.00
IV	4725	3259 (2649)	444 (347)	3703 (2996)	78.37
V	4559	3607 (1308)	584 (189)	4191 (1497)	91.93
CƏMİ	**59455**	**44767 (24118)**	**4937 (2185)**	**49704 (26303)**	**83.60**
	Subbakalavrlar				
I	19981	2334 (1439)	40 (11)	2374 (1450)	11.88
II	14820	2281 (1)	115 (0)	2396 (1)	16.17
III	15370	0 (0)	1 (0)	1 (0)	0.01
IV	4725	280 (208)	0 (0)	280 (208)	5.93
V	4559	76 (42)	5 (2)	81 (44)	1.78
CƏMİ	**59455**	**4971 (1690)**	**161 (13)**	**5132 (1703)**	**8.63**
	Bütövlükdə				
I	19981	16377 (13491)	1407 (1137)	17784 (14628)	89.00
II	14820	12676 (3913)	1057 (309)	13733 (4222)	92.67
III	15370	13463 (4197)	1601 (214)	15064 (4411)	98.01
IV	4725	3539 (2857)	444 (347)	3983 (3204)	84.30
V	4559	3683 (1350)	589 (191)	4272 (1541)	93.70
CƏMİ	**59455**	**49738 (25808)**	**5098 (2198)**	**54836 (28006)**	**92.23**

Əlavə yerləşdirmə və qeydiyyatın nəticələrini nəzərə almaqla ayrı-ayrı ixtisas qruplarında qəbulolma göstəricilərinə nəzər salaq:

I ixtisas qrupu üzrə qəbul imtahanında 30910 abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 50.49%-i, rus bölməsi üzrə isə 44.13%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı bütövlükdə (subbakalavrlar da nəzərə alınmaqla) 89.00% yerinə yetirilib.

II ixtisas qrupu üzrə imtahanda iştirak edən abituriyentlərin sayı 25892 nəfər olub. Onların Azərbaycan bölməsi üzrə 44.07%-i, rus bölməsi üzrə isə 40.83%-i tələbə adına layiq görülüb, qəbul planı 92.67% dolub.

III ixtisas qrupu üzrə qəbul imtahanında 28863 abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 52.03%-i, rus bölməsi üzrə isə 53.55%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı 98.01% yerinə yetirilib.

IV ixtisas qrupu üzrə qəbul imtahanında 6551 abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 59.11%-i, rus bölməsi üzrə isə 42.77%-i tələbə adına layiq görülüb, qəbul planı 84.30% dolub. Bu göstərici digər ixtisas qrupları ilə müqayisədə ən aşağı göstəricidir.

V ixtisas qrupu üzrə qəbul imtahanında 125619 abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 3.17%-i, rus bölməsi üzrə isə 5%-i tələbə adına layiq görülüb. Qəbul planı 93.70% dolub.

Göründüyü kimi, imtahanda iştirak edənlər arasından ali təhsil müəssisələrinə qəbulolma faizi I, II və IV ixtisas qrupları üzrə Azərbaycan bölməsində, V ixtisas qrupu üzrə isə rus bölməsində daha yüksəkdir. III ixtisas qrupu üzrə hər iki bölmədə bu göstərici bir-birinə yaxındır. Müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlər arasında isə III və V ixtisas qrupları istisna olmaqla, digər qruplarda qəbulolma faizi Azərbaycan bölməsində daha yüksəkdir. Azərbaycan bölməsində ali təhsil müəssisələrinə qəbul olanlar imtahanlarda iştirak edənlərin 39.29%-ni, müsabiqədə iştirak etmək hüququ qazananların isə 47.56%-ni təşkil edir. Rus bölməsində bu göstəricilər müvafiq olaraq 42.26% və 46.39%-dir.

Qəbulolma göstəricilərinin təhsil müəssisələrinin kateqoriyaları üzrə təhlili göstərir ki, dövlət ali təhsil müəssisələrinə 45412, özəl ali təhsil müəssisələrinə isə 9424 nəfər qəbul olub. Dövlət ali təhsil müəssisələrinin qəbul planı 92.42%, özəl ali təhsil müəssisələrinin planı isə 91.34% dolub.


Ali təhsil müəssisələrinə 5132 subbakalavr qəbul olunub və onların 33.18%-i dövlət sifarişi üzrə, 66.82%-i isə ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub. Qəbul olunan subbakalavrların 69.99%-i (3592 nəfər) dövlət, 30.01%-i (1540 nəfər) özəl ali təhsil müəssisələrinə qəbul olub. 1.14 saylı cədvəldən göründüyü kimi, subbakalavrların böyük əksəriyyəti (92.95%-i) I və II qrup ixtisaslarına qəbul olunub. Dövlət sifarişi üzrə qəbul olanlar arasında bu qrupların payı 85.20%, ödənişli əsaslarla qəbul olanlar arasında isə 96.79%-dir.

Subbakalavrların böyük hissəsi "Mühasibat" (725 nəfər), "Maliyyə" (565 nəfər) , "İqtisadiyyat" (525 nəfər), "Menecment" (338 nəfər), "Nəqliyyat mühəndisliyi" (275 nəfər), "Radiotexnika və telekommunikasiya mühəndisliyi" (162 nəfər), "Dövlət və bələdiyyə idarəetməsi" (154 nəfər), "Baytarlıq təbabəti" (145 nəfər), "Elektrik və elektronika mühəndisliyi" (137 nəfər), "Maşın mühəndisliyi" (137 nəfər), "Energetika mühəndisliyi" (136 nəfər), "İnformasiya təhlükəsizliyi" (121 nəfər), "İnformasiya texnologiyaları" (120 nəfər), "Kompüter mühəndisliyi" (112 nəfər), "Kommunikasiya sistemləri mühəndisliyi" (108 nəfər), "Mexanika mühəndisliyi" (102 nəfər) və "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" (101 nəfər) ixtisaslarına qəbul olub. Bu ixtisaslara qəbul olan subbakalavrlar ali təhsil müəssisələrinə qəbul olan subbakalavrların 77.22%-ni təşkil edir.


Müsabiqə zamanı bir yerə bir neçə subbakalavr iddia etdiyi hallarda onların diplom ballarının orta göstəricisi əsas götürülüb və bu göstəricisi digərlərindən yüksək olan subbakalavr həmin yerə yerləşdirilib. Ali təhsil müəssisələrinə qəbul olan subbakalavrların orta diplom balı 83.674 olub. Bu göstəriciləri aşağı olan subbakalavrlar, əsasən, "Geologiya və geofizika mühəndisliyi" (72.773 bal), "Mexanika mühəndisliyi" (73.677 bal), "Beynəlxalq ticarət və logistika" (74.124 bal), "Sənaye mühəndisliyi" (74.783 bal) və "İnformatika (rəqəmsal bacarıqlar) müəllimliyi" (75.144 bal) ixtisaslarına, yüksək olan subbakalavrlar isə, əsasən, "Biologiya" (93.387 bal), "İdman menecmenti və kommunikasiya" (89.389 bal), "Ekologiya" (88.988 bal), "Bitki mühafizəsi" (88.492 bal), "İnformasiya təhlükəsizliyi" (88.296 bal) və "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" (88.254 bal) ixtisaslarına qəbul olublar. 2025-ci ildə Elm və Təhsil Nazirliyinin təqdim etdiyi siyahıya əsasən ödənişli əsaslarla qəbul aparılan bir neçə ixtisasın müsabiqəsinə ümumi balı 150-dən, II mərhələ üzrə balı 50-dən az olmayan abituriyentlər buraxılıb. Həmin ixtisaslara ayrılan plan yerlərinin əlavə yerləşdirmədən sonra hamısı dolub. Bəzi şəxslər qeydiyyatdan keçmədiyinə görə plan yerlərinin dolma göstəricisi 96.06%-ə düşüb (I ixtisas qrupunda 94.98%, II ixtisas qrupunda 98.04%, III ixtisas qrupunda 97.16%, IV ixtisas qrupunda isə 70.10%).

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında və ödənişli təhsil üzrə abituriyent və subbakalavrların qəbul nəticələrinin paylanma diaqramlarını nəzərdən keçirək (şəkil 1.10, 1.11 və 1.12).


QƏBULUN NƏTİCƏSİ



Şəkil 1.10



Şəkil 1.11



Şəkil 1.12

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmiş abituriyentlərin 39.57%-i və müsabiqədə iştirak edən subbakalavrların 25.34%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul olanların 51.08%-i dövlət sifarişi əsasında (93.92%-i abituriyentlər, 6.08%-i subbakalavrlar), o cümlədən 47.05%-i dövlət (93.61%-i abituriyentlər, 6.39%-i subbakalavrlar), 4.03%-i özəl (97.51%-i abituriyentlər, 2.49%-i subbakalavrlar) ali təhsil müəssisələrində, 48.93%-i isə ödənişli təhsil üzrə (87.22%-i abituriyentlər, 12.78%-i subbakalavrlar), o cümlədən 35.77%-i dövlət (90.09%-i abituriyentlər, 9.91%-i subbakalavrlar), 13.16%-i özəl (79.42%-i abituriyentlər, 20.58%-i subbakalavrlar) ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Beləliklə, imtahanda iştirak edən abituriyentlərin 60.43%-i (75916 nəfər) ali təhsil müəssisələrinə qəbul olmamışdır. Təqdim edilən rəqəmlər qəbul prosesində həm rəqabəti, həm istəkləri təmin edilməyənlərin sayının nə qədər çox olduğunu, həm də qəbul prosesinin kütləviliyini, ağır və məsuliyyətli iş olduğunu göstərir.

DİM bu işin məsuliyyətini dərk edərək qəbul kampaniyasının tam şəffaf keçirilməsini təmin etmək məqsədilə onun bütün mərhələlərində görülən tədbirlər barədə ictimaiyyəti müntəzəm olaraq məlumat-

landırmışdır. Qəbul imtahanlarında iştirak etmiş hər bir gəncin imtahan nəticələri haqqında məlumatlar arayış formasında imtahanın keçirildiyi vaxtdan təxminən 15–25 gün sonra internetdə yerləşdirilmişdir. Arayışda abituriyentlərin hər fənn üzrə ayrı-ayrılıqda düzgün və səhv cavabları, nisbi balları göstərilmişdir. Eyni zamanda hər bir abituriyentə internet vasitəsi ilə cavab kartı və cavab vərəqinin ön və arxa üzlərinin qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı verilmişdir. Bunun əsasında onlar öz imtahan nəticələrini ətraflı təhlil etmək imkanına malik olmuşdur.

Abituriyentlərin imtahan balları elan edildikdən sonra onların düzgün ixtisas seçiminə kömək məqsədi ilə DİM bütün ixtisas qruplarının abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər çap edib. Vəsaitlərdə plan yerlərinin sayı, hər bir qrup üzrə müsabiqə şərtləri, həmçinin müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanma histoqramları cədvəl şəklində təqdim edilib. Cədvəldən istifadə edən müsabiqə iştirakçıları öz imtahan göstəricilərinin bu bal sıralanmasındakı yerini müəyyən etmək və ötən illərdə qəbul imtahanlarında ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaqla uğurlu seçim etmək imkanı qazanıblar.

Ötən il olduğu kimi, bu il də DİM-də Apellyasiya Komissiyası bir neçə mərhələdə fəaliyyət göstərmişdir. Hər bir ixtisas qrupu üzrə imtahan keçiriləndən sonra Komissiyada imtahanın gedişi və qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu ilə əlaqədar müraciətlərə baxılmışdır. Apellyasiya Komissiyasının tərkibində DİM-in müvafiq struktur bölmələrinin əməkdaşları və ekspertlərdən ibarət işçi qrup fəaliyyət göstərmiş, testlərlə bağlı suallara mütəxəssislər tərəfindən hərtərəfli izahat verilmişdir.

Hər ixtisas qrupu üzrə abituriyentlərin istəyinə daha çox uyğun olan, ərizələrdə daha çox birinci yerdə göstərilən ən nüfuzlu ixtisaslar müəyyən edilib.

Hər bir ixtisas üzrə müsabiqə vəziyyəti təkcə həmin ixtisası seçən abituriyentlərin sayından deyil, həm də həmin ixtisas üçün ayrılmış plan yerlərinin miqdarından asılı olur. Bir qayda olaraq, abituriyentlərin sayının artması müsabiqə vəziyyətinin yüksəlməsinə, plan yerlərinin artması isə müsabiqə vəziyyətinin aşağı düşməsinə səbəb olur. Bu baxımdan, müsabiqə vəziyyəti ixtisasın nüfuz səviyyəsini tam ifadə edə bilməz. Nəzərə alsaq ki, ərizədə birinci yerdə göstərilən ixtisas abituriyentin istəyinə ən çox uyğun olandır, deməli, ixtisasın nüfuzunu həmin ixtisasın abituriyent ərizələrində birinci yerdə göstərilməsinin sayı əsasında müəyyənləşdirmək daha düzgün olar. Aparılan müqayisə zamanı müsabiqəsində iştirak etmək üçün ümumi bala qoyulan tələb 200-dən az olan ixtisaslar nəzərə alınmamışdır. Bu qayda ilə hər qrupun ən nüfuzlu ixtisası müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, bu il abituriyentlər Azərbaycan bölməsində I qrupda ən çox Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə", III qrupda Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili üzrə)", IV qrupda Azərbaycan Tibb Universitetinin "Tibb", V qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Dizayn" ixtisasına üstünlük vermişdir (cədvəl 1.15). Rus bölməsinin abituriyentlərinin seçimi I ixtisas qrupunda fərqli olmuşdur, bu qrupda abituriyentlər Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq" ixtisasına üstünlük vermişdir (cədvəl 1.16).

Cədvəl 1.15

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Azərbaycan bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Riyaziyyat müəllimliyi (Bakı Dövlət Universiteti)	333	49.70
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	522	41.49
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	504	31.03
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	956	73.09
V	Dizayn (geyim dizaynı, mühit dizaynı, Azərbaycan Dövlət İqtisad Universiteti)	1408	50.43

Cədvəl 1.16

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Rus bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Memarlıq (Azərbaycan Memarlıq və İnşaat Universiteti)	50	61.73
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	83	41.92
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	43	37.72
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	111	70.70
V	Dizayn (geyim dizaynı, mühit dizaynı, Azərbaycan Dövlət İqtisad Universiteti)	256	51.51

Oğlan abituriyentlər texniki və iqtisadiyyat, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük veriblər.

"Abituriyentin ərizəsi"ni dolduran gənc öz ərizəsində ixtisas qrupunu qeyd etməklə, əslində, özünün bu və ya digər ixtisaslara istəyini, marağını ifadə edir. Bu amil nəzərə alınaraq, ixtisas qrupları üzrə abituriyentlərin istəyini ifadə edən kəmiyyət göstəricisi hesablanıb. Bu zaman ixtisas seçimi aparan abituriyentlərin neçə faizinin həmin ixtisas qrupuna müraciət etməsi nəzərə alınıb. Hər bir abituriyentin istəyi nəzərə alınmaqla hesablanan belə göstərici əsasında ölkənin bütün abituriyentlərini təmsil edən ortastatistik abituriyentin (ayrılıqda oğlan və qız) ixtisas qruplarından hər birinə görə istəyi faizlə müəyyən edilib. 1.17 saylı cədvəldə hesablamanın nəticələri təqdim olunur (bu il hər bir abituriyent eyni zamanda həm V, həm I–IV qruplardan birini və ya ikisini seçə bilmişdir, ona görə qruplar üzrə faizlərin cəmi 100-dən çox alınır).

Cədvəl 1.17

ORTASTATİSTİK OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI (I – IV QRUPLAR)

№	OĞLAN ABİTURİYENT				QIZ ABİTURİYENT			
	Azərb. bölməsi		Rus bölməsi		Azərb. bölməsi		Rus bölməsi	
	Qrup	İstək, %-lə	Qrup	İstək, %-lə	Qrup	İstək, %-lə	Qrup	İstək, %-lə
1	I	32.63	I	39.13	III	33.04	III	37.47
2	II	25.79	II	25.24	III (DT)	32.41	III (DT)	36.23
3	I (RK)	21.27	I (Rİ)	21.80	I	18.65	III (TC)	19.04
4	I (Rİ)	13.36	I (RK)	20.47	II	17.70	I	17.01
5	III	12.28	III	15.26	I (RK)	12.11	II	16.86
6	III (DT)	11.57	III (DT)	13.04	III (TC)	10.37	IV	12.93
7	III (TC)	4.88	III (TC)	9.56	I (Rİ)	7.55	I (RK)	11.12
8	IV	2.23	IV	5.19	IV	7.42	I (Rİ)	6.51

Cədvəldən göründüyü kimi, oğlan və qızların ixtisas qruplarına münasibətləri fərqlidir. Əvvəlki illərdə olduğu kimi, bu il də hər iki bölmənin ortastatistik oğlan abituriyentinin istəyi ən çox Riyaziyyat, fizika və mühəndislik (I qrup) və İqtisadiyyat və idarəetmə (II qrup) ixtisaslarınadır. Azərbaycan bölməsində oğlanların 58.42 %-nin, rus bölməsində isə 64.37%-nin istəyi bu iki ixtisas qrupuna yönəlib. Bu rəqəmlər oğlan abituriyentlərin texniki, iqtisadiyyat və idarəetmə ixtisaslarına marağının nə dərəcədə yüksək olduğunu göstərir. Bununla belə, qeyd etmək lazımdır ki, oğlanların I ixtisas qrupuna istəyi II ixtisas qrupuna nəzərən əhəmiyyətli dərəcədə yüksəkdir. Azərbaycan və rus bölmələrində oğlan abituriyentlərin I qrupa istəyi II qrupla müqayisədə müvafiq olaraq 2018-ci ildə 1.72 və 1.65 dəfə, 2019-cu ildə 1.90 və 1.86 dəfə, 2020-ci ildə 2.14 və 2.25 dəfə, 2021-ci ildə 1.70 və 1.74 dəfə, 2022-ci ildə 1.65 və 1.89 dəfə, 2023-cü ildə 1.30 və 1.68 dəfə, 2024-cü ildə 1.35 və 1.63 dəfə, 2025-ci ildə isə 1.27 və 1.55 dəfə yüksək olmuşdur. Göründüyü kimi, 2021-ci ildən etibarən bu nisbət tədricən azalmış və 2025-ci ildə müvafiq göstəricilər (1.27 və 1.55) I və II ixtisas qrupları üzrə ümumi plan yerlərinin nisbətinə (1.35) yaxın olmuşdur.

Ortastatistik qız abituriyentin humanitar ixtisaslardan ibarət III ixtisas qrupuna istəyi daha yüksəkdir. IV ixtisas qrupunda qızların ixtisas maraqları (istəkləri) oğlanların maraqlarından Azərbaycan

bölməsində 3.3, rus bölməsində 2.5 dəfə yüksəkdir. Qeyd edək ki, IV qrup üzrə ixtisas seçimi mərhələsində iştirak edən qız abituriyentlərin sayı oğlanlardan 3.73 dəfə yüksək olub.

Cari ildə də V ixtisas qrupuna həm oğlan, həm də qız abituriyentlərin marağı yüksək olub. V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması bu qrupa daxil olan ixtisasların müsabiqəsinin yalnız qəbul imtahanının I mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələri əsasında aparılmasıdır. Bildiyimiz kimi, I – IV ixtisas qruplarında müsabiqə qəbul imtahanının hər iki mərhələsinin nəticələri əsasında aparılır və istənilən halda ali təhsil müəssisələrinə qəbul olmaq istəyənlər imtahanın I mərhələsində iştirak edirlər. Bununla yanaşı, cari ilin məzunlarının V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak etmək imkanı olmuşdur və onlar əlavə imtahan verməmişdir. Qeyd olunanlara baxmayaraq, faktiki olaraq, onların bir çoxunun bu qrupa aid olan ixtisaslara marağı çox az olub və yaxud heç olmayıb. Qeyd edək ki, ixtisas seçimi mərhələsində iştirak edən abituriyentlərin cəmi 24.10%-i (oğlanların 30.60%-i, qızların 18.77%-i) V qrupa daxil olan ixtisasları öz ərizələrində qeyd edib.

Bakı şəhərinin Pirallahı rayonu, Salyan, Neftçala və Qusar rayonlarının oğlan abituriyentləri ənənəvi olaraq yüksək faizlə I qrupun ixtisaslarını seçiblər.

Respublikanın ayrı-ayrı bölgələrini təmsil edən oğlan və qız abituriyentlərin və subbakalavrların ixtisas qrupları üzrə istəklərinin paylanması müəyyənləşdirilib. Abituriyentləri və subbakalavrları bu və ya digər ixtisas qrupuna nisbətən daha çox meyil göstərən bölgələr 1.18 saylı cədvəldə təqdim olunub.

Cədvəldən göründüyü kimi, Salyan, Bakı şəhərinin Pirallahı rayonu, Neftçala, Qusar, Sumqayıt, Qax, Qazax və Bakı şəhərinin Sabunçu rayonunda oğlanlar yüksək faizlə (uyğun olaraq, 56.55%, 55.28%, 51.76%, 49.22%, 45.85%, 45.15%, 44.96% və 44.75%) texniki ixtisaslar qrupunu seçiblər. Əvvəlki illərdəki qəbulun nəticələri də göstərir ki, bu bölgələrdə oğlanların texniki ixtisaslara maraqları yüksəkdir və bu, bir ənənəyə çevrilib. Buna səbəb həmin bölgələrdə dəqiq fənlərin, xüsusən riyaziyyat və fizika fənlərinin tədrisi səviyyəsinin yüksək olması, həmçinin texniki elmlərlə bağlılığı olan sənaye müəssisələrinin mövcudluğudur. Şübhəsiz, müəllimin nüfuzu, yüksək təhsili və pedaqoji bacarığı da şagirdlər arasında fənnin daha dərindən öyrənilməsini şərtləndirir. İxtisas seçərkən isə gənclər ən yaxşı bildikləri fənnin daha çox əhəmiyyət kəsb etdiyi ixtisas qrupuna üstünlük verirlər.

Bu il Quba, Mingəçevir, Şamaxı, Bakı şəhərinin Qaradağ rayonu, Xaçmaz, Bakı şəhərinin Sabunçu rayonu, Cəlilabad, Lənkəran və Yardımlıda qızlar humanitar ixtisaslara daha çox üstünlük veriblər.

Cədvəl 1.18

RESPUBLİKANIN BÖLGƏLƏRİNİ TƏMSİL EDƏN OĞLAN VƏ QIZLARIN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI (%-lə)

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
I	Salyan rayonu (56.55), Bakı ş. Pirallahı rayonu (55.28), Neftçala rayonu (51.76), Qusar rayonu (46.54), Qax rayonu (45.15), Qazax rayonu (44.96), Zaqatala rayonu (44.29), Sumqayıt şəhəri (43.94), Bakı ş. Qaradağ rayonu (43.51), İsmayıllı rayonu (42.89), Astara rayonu (42.25), Yardımlı rayonu (42.18), Xaçmaz rayonu (41.63), Bakı ş. Suraxanı rayonu (41.57), Siyəzən rayonu (41.47)	Siyəzən rayonu (29.45), Neftçala rayonu (29.31), Xızı rayonu (29.09), Qax rayonu (27.78), Zərdab rayonu (26.90), Daşkəsən rayonu (26.23), Sumqayıt şəhəri (25.70), Ağdaş rayonu (25.56), Tovuz rayonu (25.27), Şirvan şəhəri (24.85), Zaqatala rayonu (24.65), Salyan rayonu (24.46), Qəbələ rayonu (24.17), Bakı ş. Pirallahı rayonu (24.11)	Qusar rayonu (49.22), Sumqayıt şəhəri (45.85), Bakı ş. Sabunçu rayonu (44.75), Bakı ş. Xətai rayonu (44.08), Bakı ş. Nizami rayonu (43.55), Bakı ş. Suraxanı rayonu (42.56), Quba rayonu (41.79), Bakı ş. Qaradağ rayonu (41.67), Bakı ş. Binəqədi rayonu (39.53), Bakı ş. Yasamal rayonu (38.74), Bakı ş. Xəzər rayonu (38.71), Abşeron rayonu (38.46), Bakı ş. Nəsimi rayonu (38.20)	Balakən rayonu (41.82), Bakı ş. Xəzər rayonu (24.14), Zaqatala rayonu (23.64), Qusar rayonu (21.74), Bakı ş. Qaradağ rayonu (21.11), Bakı ş. Suraxanı rayonu (20.92), Bakı ş. Nəsimi rayonu (20.83), Quba rayonu (19.70), Bakı ş. Sabunçu rayonu (19.16), Abşeron rayonu (18.75), Bakı ş. Səbayel rayonu (18.65), Bakı ş. Nizami rayonu (17.80)
II	Xocavənd rayonu (45.22), Ordubad rayonu (42.22), Naxçıvan şəhəri (41.97), Şərur rayonu (40.27), Şahbuz rayonu (39.72), Babək rayonu (38.03), Cəbrayıl rayonu (37.58), Ağdam rayonu (36.41), İmişli rayonu (35.01), Kəngərli rayonu (34.75), Zəngilan rayonu (33.74)	Ağsu rayonu (32.11), Balakən rayonu (30.06), Şərur rayonu (28.39), Ağdam rayonu (28.39), Zəngilan rayonu (28.33), Bakı ş. Səbayel rayonu (27.92), Şuşa rayonu (27.14), Tərtər rayonu (27.05), Culfa rayonu (26.36), Şabran rayonu (26.08), Ucar rayonu (25.67), Bakı ş. Binəqədi rayonu (25.52), Xızı rayonu (25.45), Bakı ş. Nəsimi rayonu (25.40), Şirvan şəhəri (25.00)	Lənkəran rayonu (40.00), Gəncə şəhəri (30.77), Quba rayonu (29.85), Bakı ş. Nəsimi rayonu (29.40), Bakı ş. Binəqədi rayonu (28.46), Bakı ş. Nərimanov rayonu (28.25), Bakı ş. Səbayel rayonu (28.06), Bakı ş. Yasamal rayonu (26.90), Abşeron rayonu (24.04), Bakı ş. Xətai rayonu (24.01), Sumqayıt şəhəri (23.58), Bakı ş. Xəzər rayonu (23.39), Xaçmaz rayonu (23.21), Bakı ş. Nizami rayonu (23.12)	Sumqayıt şəhəri (24.35), Balakən rayonu (23.64), Lənkəran rayonu (22.81), Bakı ş. Nizami rayonu (22.44), Bakı ş. Xəzər rayonu (22.07), Bakı ş. Binəqədi rayonu (21.55), Bakı ş. Nəsimi rayonu (21.01), Bakı ş. Xətai rayonu (20.99), Abşeron rayonu (18.75), Bakı ş. Nərimanov rayonu (18.55), Bakı ş. Səbayel rayonu (18.04)

Cədvəl 1.18 (ardı)

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
III	Xocalı rayonu (25.35), Bərdə rayonu (18.33), Lerik rayonu (17.52), Kəlbəcər rayonu (16.19), Şamaxı rayonu (16.08), Goranboy rayonu (15.37), Masallı rayonu (15.34), Ordubad rayonu (15.00), Lənkəran rayonu (14.93), Şərur rayonu (14.60), Laçın rayonu (14.60), Şəki rayonu (14.29), Cəlilabad rayonu (14.09)	Şamaxı rayonu (43.71), Cəlilabad rayonu (39.30), Yardımlı rayonu (38.76), Gədəbəy rayonu (38.39), Ağcabədi rayonu (38.37), Kəngərli rayonu (37.68), Laçın rayonu (36.63), Qobustan rayonu (36.54), Şəki rayonu (36.33), Bakı ş. Qaradağ rayonu (36.20), Salyan rayonu (36.18), Bakı ş. Pirallahı rayonu (36.17), Ordubad rayonu (35.88), Masallı rayonu (35.77), Babək rayonu (35.66), Quba rayonu (35.57)	Lənkəran rayonu (22.00), Bakı ş. Xəzər rayonu (17.74), Gəncə şəhəri (16.86), Bakı ş. Nəsimi rayonu (16.80), Bakı ş. Qaradağ rayonu (16.67), Bakı ş. Binəqədi rayonu (15.22), Bakı ş. Sabunçu rayonu (15.18), Bakı ş. Xətai rayonu (14.92), Bakı ş. Nizami rayonu (14.78), Abşeron rayonu (14.42), Bakı ş. Yasamal rayonu (14.04), Bakı ş. Səbayel rayonu (14.03), Bakı ş. Suraxanı rayonu (13.22), Bakı ş. Nərimanov rayonu (13.00), Xaçmaz rayonu (12.50), Sumqayıt şəhəri (11.79)	Quba rayonu (50.00), Mingəçevir şəhəri (44.00), Bakı ş. Qaradağ rayonu (43.33), Xaçmaz rayonu (41.54), Bakı ş. Sabunçu rayonu (41.11), Lənkəran rayonu (38.60), Sumqayıt şəhəri (38.01), Gəncə şəhəri (37.55), Bakı ş. Suraxanı rayonu (36.40), Bakı ş. Səbayel rayonu (36.39), Bakı ş. Yasamal rayonu (36.30), Bakı ş. Nizami rayonu (36.10), Bakı ş. Xəzər rayonu (35.86), Bakı ş. Xətai rayonu (35.14)
IV	Lerik rayonu (6.05), Saatlı rayonu (5.73), Yardımlı rayonu (5.31), Zaqatala rayonu (5.00), Cəlilabad rayonu (4.99), Bərdə rayonu (4.73), Masallı rayonu (4.72), Lənkəran rayonu (4.61), İsmayıllı rayonu (4.60), Oğuz rayonu (4.58)	Naxçıvan şəhəri (17.56), Şahbuz rayonu (17.45), Ordubad rayonu (13.29), Şirvan şəhəri (13.09), Kəngərli rayonu (13.04), Şəmkir rayonu (12.51), Tovuz rayonu (11.94), Göygöl rayonu (11.62), Qəbələ rayonu (11.59), Göyçay rayonu (11.35), Qazax rayonu (11.25), Gəncə şəhəri (11.21), Bakı ş. Nizami rayonu (10.68), Goranboy rayonu (10.68)	Qusar rayonu (7.03), Bakı ş. Nərimanov rayonu (6.95), Gəncə şəhəri (6.21), Quba rayonu (5.97), Bakı ş. Səbayel rayonu (5.67), Bakı ş. Sabunçu rayonu (5.45), Bakı ş. Nəsimi rayonu (5.40), Bakı ş. Nizami rayonu (5.38), Bakı ş. Suraxanı rayonu (5.37), Xaçmaz rayonu (5.36), Bakı ş. Yasamal rayonu (5.12), Bakı ş. Xətai rayonu (4.63), Bakı ş. Binəqədi rayonu (4.55), Sumqayıt şəhəri (4.37)	Qusar rayonu (23.19), Gəncə şəhəri (20.82), Lənkəran rayonu (17.54), Mingəçevir şəhəri (16.00), Bakı ş. Səbayel rayonu (13.46), Bakı ş. Xətai rayonu (13.20), Bakı ş. Suraxanı rayonu (12.55), Bakı ş. Yasamal rayonu (12.43), Bakı ş. Binəqədi rayonu (12.43), Quba rayonu (12.12), Abşeron rayonu (12.05), Bakı ş. Nizami rayonu (11.22), Bərdə rayonu (11.11)

Qeyd: Seçmədə qəbul kampaniyasında iştirak etmək üçün müraciət edənlərin sayı Azərbaycan bölməsində 100-dən, rus bölməsində isə 50-dən az olmayan bölgələr iştirak edir.

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında abituriyentlərin 38.37%-i 200-dən az bal toplamışdır.


I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda (bax: şəkil 1.13 və 1.14) təsvir edilib. Qəbulda toplanılması mümkün olan maksimal bal 700-dür. 0-700 bal diapazonunu şərti olaraq, (0–200), (200–300), (300–500), (500–700) intervallarına bölərək, ənənəvi "2", "3", "4", "5" qiymətləri ilə analogiyasını yaratsaq, görərik ki, bu il abituriyentlərin 38.4%-i imtahandan "2", 21.8%-i "3", 28.4%-i "4", 11.5%-i isə "5" qiymət alıb (bax: şəkil 1.13). Ötən il bu göstəricilər uyğun olaraq 41.4%, 20.9%, 26.4%, 11.3% olmuşdur. Göründüyü kimi, bu il "2" qiymət alanların faizi nisbətən azalmış, "3", "4" və "5" qiymət alanların faizi isə artmışdır. Təbii ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərin topladıqları balların paylanması strukturunda və qəbul planında baş verən dəyişikliklər qəbul olan abituriyentlərin ballarının paylanmasında da öz əksini tapmışdır. Qəbul olanların topladıqları balların paylanma diaqramından (şəkil 1.14) görünür ki, onların 24.4%-ni "3", 50.32%-ni "4", 19.8%-ni isə "5" qiymət alanlar təşkil edib. Ötən il bu göstəricilər uyğun olaraq 29.4%, 46.1%, 19.1% olub.

V ixtisas qrupu üzrə ərizə verib qəbul imtahanında (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında) iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri isə aşağıdakı diaqramlarda (bax: şəkil 1.15 və 1.16) təsvir edilib. Bu imtahanlarda toplanılması mümkün olan maksimal bal 300-dür. Şəkil 1.15-dən göründüyü kimi, qəbul (buraxılış) imtahanlarında iştirak edən abituriyentlərin 37.77%-nin topladığı bal 100-dən aşağıdır. Qəbul olan abituriyentlər arasında 30-dan az bal toplayan yoxdur və abituriyentlərin 42.51%-i 100-150 bal intervalında nəticə göstərib (şəkil 1.16).

Bu il Şəmkir, Ağsu, Ağdaş, Hacıqabul, Şərur, Şamaxı, Tərtər, Babək, Samux, Ağstafa rayonlarının və Şirvan şəhərinin cari il məzunlarını təmsil edən abituriyentlərin 13%-dən çoxunun qəbul imtahanlarında topladığı bal 100-dən aşağı olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI


(I–IV qruplar üzrə)



Şəkil 1.13

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI


(I–IV qruplar üzrə)



Şəkil 1.14

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI


(V qrup üzrə)



Şəkil 1.15

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(V qrup üzrə)



Şəkil 1.16

Məlum olduğu kimi, "Abituriyentin ərizəsi" formasına ayrı-ayrı fənlər üzrə attestat qiymətləri də daxil edilir. Ərizədə qeyd olunan qiymətlər əsasında abituriyentlərin orta attestat qiymətləri hesablanaraq, onların qəbul imtahanlarında topladıqları ballarla müqayisəsi aparılmışdır. Cədvəl 1.19-da attestat qiymətlərinə görə müxtəlif səviyyədə yerləşən cari ilin məzunlarının qəbul imtahanlarında topladıqları balların paylanması təqdim edilir. Bu cədvələ əsaslanaraq, attestatda bütün qiymətləri "5" olan abituriyentlərlə bütün qiymətləri "3" olan abituriyentlərin imtahan ballarını müqayisə edək. Tam orta məktəbi bütün fənlərdən "3" qiymətlə başa vuran məzunların 89.6%-nin qəbul imtahanlarındakı nəticələri də çox zəif (0–200 bal intervalında) olub. "5" qiymətlə bitirən məzunların isə yalnız 48.38%-i attestat qiymətlərini doğrulda bilib. Bu da məktəblərdə verilən aşağı qiymətlərin obyektiv olduğunu, yüksək qiymətlərin isə nisbətən şişirdildiyini göstərir.

Əlbəttə, obyektiv qiymətləndirilmə aparılarsa, təhsilin bir pilləsində əldə olunmuş nailiyyətlər digər pilləyə keçiddə nəzərə alınmalıdır. İndiki halda isə ali təhsil müəssisələrinə qəbul zamanı attestat qiymətləri nəzərə alınaraq bunun əsasında abituriyentin nəticəsinə hər hansı bal əlavə edilərsə, əla qiymətlərini doğrultmayan "əlaçılar" öz biliyi hesabına bal toplayanları sıxışdırıb, onları ali təhsil müəssisələrinə qəbulda üstələyə bilərlər. Digər tərəfdən, bu cür addımın subyektivliyə bir qədər də yol açmayacağına zəmanət vermək çətindir. Odur ki, biz məktəb və qəbul göstəriciləri arasında yüksək korrelyasiya ($r>0.9$) olmayanadək attestat qiymətlərinin qəbulda əlavə bal kimi nəzərə alınmasının tərəfdarı deyilik.

Qiymətləndirmə ilə bağlı qeyd olunan problem digər amillərlə yanaşı, həm də tam orta təhsil standartlarının yerlərdə eyni qaydada tətbiq edilməməsindən irəli gəlir. Qiymət meyarlarının məktəblərdə bir-birindən ciddi fərqlənməsi nəticəsində eyni hazırlıqlı şagirdin biliyi bir məktəbdə (rayonda) "əla", digər məktəbdə (rayonda) "kafi" qiymətləndirilir. Dövlət İmtahan Mərkəzi ümumtəhsil müəssisələrində qiymətləndirmənin vahid standartlar əsasında aparılması işinə kömək məqsədi ilə məktəb proqramlarına uyğun olaraq şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsi üçün fənlər üzrə test kitabları nəşr edib. Kitablar Elm və Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiq edilib. Bu kitablarda qiymətləndirmənin 5 və 9 ballıq sistemdə standartları da təqdim olunub ki, hər bir məktəb bunun əsasında öz şagirdlərinin biliyini vahid qiymətləndirmə sistemi ilə ölçmək imkanı əldə etsin.


Cədvəl 1.19

ATTESTAT QİYMƏTLƏRİ VƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASI

SEÇMƏLƏR		CƏMİ	BAL İNTERVALLARI				
			0-100	100-200	200-300	300-500	500-700
İmtahan iştirakçıları	sayı	90911	9631	25253	19822	25776	10429
	faizi	100.0	10.59	27.78	21.80	28.35	11.47
İmtahan iştirakçıları (2025-ci ilin məzunları)	sayı	78212	6906	19865	17033	24454	9954
	faizi	100.0	8.83	25.40	21.78	31.27	12.73
2025-ci ilin məzunları (əlaçılar)	sayı	13414	32	481	1213	5198	6490
	faizi	100.0	0.24	3.59	9.04	38.75	48.38
2025-ci ilin məzunları (orta attestat balı 4.5-5 intervalında yerləşənlər, 4.5 daxil olmaqla)	sayı	19163	261	2555	4425	9339	2583
	faizi	100.0	1.36	13.33	23.09	48.73	13.48
2025-ci ilin məzunları (orta attestat balı 4-4.5 intervalında yerləşənlər, 4 daxil olmaqla)	sayı	21178	1075	6016	6295	7062	730
	faizi	100.0	5.08	28.41	29.72	33.35	3.45
2025-ci ilin məzunları (orta attestat balı 3.5-4 intervalında yerləşənlər)	sayı	12054	1712	5180	3106	1933	123
	faizi	100.0	14.20	42.97	25.77	16.04	1.02
2025-ci ilin məzunları (orta attestat balı 3-3.5 intervalında yerləşənlər, 3.5 daxil olmaqla)	sayı	9595	2534	4508	1718	816	19
	faizi	100.0	26.41	46.98	17.91	8.50	0.20
2025-ci ilin məzunları (orta attestat balı "3" olanlar)	sayı	2280	1146	897	191	45	1
	faizi	100.0	50.26	39.34	8.38	1.97	0.04

Fənlər üzrə məktəb qiymətləri ilə qəbul imtahanlarında toplanılan balların müqayisəsi üçün abituriyentlərin hər bir fənn üzrə topladıqları balların məktəb qiymətləri ilə korrelyasiyası da araşdırılıb. Məlum olub ki, ümumtəhsil müəssisələrində nisbətən obyektiv qiymətləndirmə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə aparılır. Bu fənlər üzrə korrelyasiya əmsalı 0.63-0.70 intervalındadır. 2014-cü ildə xarici dil üzrə korrelyasiya əmsalı 0.42-yə bərabər olub. Amma son illərdə buraxılış imtahanı fənləri siyahısına xarici dil fənni də daxil edildikdən sonra bu göstərici 0.70-ə yüksəlib. Coğrafiya, biologiya, tarix, ədəbiyyat, kimya və fizika fənləri üzrə korrelyasiya əmsalları 0.37-0.48 intervalındadır.

2014-2025-Cİ İLLƏRDƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASININ MÜQAYİSƏSİ (BÜTÜN MƏZUNLAR NƏZƏRƏ ALINMAQLA)



Şəkil 1.17

Məlum olduğu kimi, 2015-ci ildən V qrup və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul cari ilin məzunları üçün buraxılış imtahanlarının nəticələri əsasında həyata keçirilib. Ona görə də V qrup ixtisaslarına və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər I–IV qruplar üzrə imtahanlarda iştirak etməyiblər. Nəticədə, 2014-cü illə müqayisədə 2015, 2016 və 2017-ci illərdə I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən cari il məzunlarının respublika üzrə bütün məzunların sayındakı payı 65.67%-dən müvafiq olaraq 58.71, 59.16 və 63.34%-dək azalmış, 2018 və 2019-cu illərdə əksinə olaraq bu pay müvafiq olaraq 67.33 və 72.41 faizə qədər artmış, 2020, 2021, 2022, 2023, 2024, 2025-ci illərdə isə qismən azalaraq, müvafiq olaraq 70.97, 68.95, 69.48, 69.62%, 70.45% və 70.13% təşkil etmişdir.

Ümumiyyətlə, son yeddi ildə respublikanın bütün məzunlarına nəzərən I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən cari il məzunlarının nisbi sayında qismən artım müşahidə olunur (qəbul imtahanlarında iştirak edən cari il məzunlarının respublikanın bütün məzunlarına nəzərən iştirak etmə faizinin orta göstəricisi 2014–2018-ci illər üzrə 62.84, 2019–2025-ci illər üzrə isə 70.29% olub). Həmçinin şəkil 1.17-də bal intervallarına nəzər saldıqda 2019-cu ildən etibarən 0–100 intervalında bal toplayanların nisbi sayında 2014–2018-ci illərlə müqayisədə azalma, 100–200, 200–300 və 300–500 intervallarında isə nisbətən artım

olduğunu görürük. Məsələn, 2014–2018-ci illər üzrə cari il məzunlarından ortalama 16.16%-i, 2019–2025-ci illər üzrə isə 20.62%-i 300–500 intervalında bal toplayıb. Bundan əlavə, 2014–2018-ci illər üzrə cari il məzunlarından ortalama 23.93%-i 300-dən, 35.25%-i isə 200-dən yuxarı bal topladığı halda, 2019–2025-ci illər üzrə isə bu göstəricilər müvafiq olaraq 28.74 və 43.71% olub. Məlum olduğu kimi, 2014–2018-ci illər üzrə keçirilən qəbul imtahanlarında abituriyentlər 5 fənn üzrə imtahan veriblər və imtahanda maksimal toplanıla bilən bal – 700 olub. Lakin 2019-cu ildən etibarən ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanının (qəbul imtahanının II mərhələsi) formatı sadələşdirilərək imtahan fənlərinin sayı 5-dən 3-ə endirilmiş və maksimal toplanıla bilən bal – 400 olmuşdur. 300 balı isə abituriyentlər buraxılış imtahanı formatında keçirilən qəbul imtahanından (qəbul imtahanının I mərhələsi) əldə ediblər və yekunda iki mərhələ üzrə birlikdə toplanıla bilən bal 700 olmuşdur. Bundan əlavə, qeyd etmək lazımdır ki, qəbul imtahanının I mərhələsində qapalı tipli test tapşırıqları üzrə yanlış cavablar doğru cavabların nəticəsinə təsir göstərməyib. Cari ilin məzunları üçün qəbul imtahanının I mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülüb, yəni cari ilin məzunları buraxılış və qəbul imtahanlarının birgə nəticəsinə əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak ediblər. DİM buraxılış imtahanlarında iştirakçılara təqdim olunan testlərin məzmununu elə layihələşdirmişdi ki, aşağı və orta hazırlığa malik imtahan iştirakçılarının biliyinin qiymətləndirilməsində yüksək dəqiqlik təmin edilir. Buraxılış imtahanlarında yüksək hazırlıqlı abituriyentlərin diferensiasiyası zəif olur. Bu imtahan üçün tərtib olunan testlərdə əsasən asan və orta səviyyəli qapalı tipli test tapşırıqlarından istifadə edilir. Zənnimizcə, bütün bu sadaladığımız faktorlar 2019–2025-ci illər üzrə imtahanda iştirak edənlərin sayının qismən artmasına təsir göstərmişdir. Digər tərəfdən, 2019–2025-ci illər üzrə aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, 0–100 intervalında bal toplayanların nisbi sayını əsasən müvafiq il üzrə buraxılış imtahanında toplanılan balların orta göstəriciləri müəyyən edir. Belə ki, imtahan nəticələrini təhlil etdikdə aydın olur ki, 2019-cu ildə abituriyentlərin topladıqları balların orta göstərici 112.78 bala, 0–100 intervalında bal toplayanların nisbi sayı isə 10.30%-ə bərabər olub. Yəni imtahanın nəticələrinin yaxşılaşması 0–100 intervalında bal toplayanların nisbi sayının azalmasına səbəb olub. Qeyd edək ki, 2020-ci ildə bu göstəricilər müvafiq olaraq 115.82 və 9.31, 2021-ci ildə 115.93 və 9.74, 2022-ci ildə 111.72 və 10.19, 2023-cü ildə 107.11 və 11.10, 2024-cü ildə 132.09 və 7.43, 2025-ci ildə 132.37 və 6.19-a bərabər olub.

Bundan əlavə, hər bir fənn üzrə attestat qiyməti “kafi” və “əla” olan abituriyentlərin qəbul imtahanlarında müvafiq fəndən topladıqları nisbi balların bal intervalları üzrə paylanma histoqramları təhlil edilib. Məlum olub ki, fənlər üzrə attestat qiymətləri “3” olan abituriyentlərin əksəriyyəti qəbul imtahanlarında da analoji nəticə göstəriblər. Belə ki, bu abituriyentlərin ayrı-ayrı fənlər üzrə 85–98%-i 0–40 intervalında nisbi bal toplamışdır (yalnız birinci mərhələdə tədris dili fənni üzrə 60% və ikinci mərhələdə ədəbiyyat fənni üzrə 74% olub). Deməli, yuxarıda da qeyd etdiyimiz kimi, ümumi təhsil məktəblərində verilən aşağı qiymətlər müəyyən edilmiş vahid standartlara xeyli dərəcədə uyğundur. Ancaq təəssüf ki, “əla” ilə qiymətləndirmədə bunun əksini görürük (bax: cədvəl 1.20). Bu özünü coğrafiya (II, III qruplar), kimya (I, IV qruplar), tarix (II, III qruplar) və fizika (I, IV qruplar) fənləri üzrə qiymətləndirmədə daha qabarıq göstərir. Coğrafiya fənnindən əlaçı abituriyentlərin 46.95%-nin, kimya fənnindən 34.06%-nin, tarix fənnindən 37.09%-nin və fizika fənnindən 26.46%-nin uyğun fənlər üzrə qəbul imtahanının II mərhələsində topladıqları nisbi balları 20-dən az olmuşdur. Əlaçı abituriyentlərin 80–100 bal intervalındakı nəticələrinə nəzər saldıqda görürük ki, bu abituriyentlərin ikinci mərhələdə ayrı-ayrı fənlər üzrə yalnız 4-31%-i 80–100 bal intervalında nəticə göstərərək özlərinin attestat qiymətlərini doğruldublar. Nəticənin belə zəif olması fənlərin aşağı səviyyədə tədrisi və qiymətləndirmədə standartlara əməl edilməməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, burada təhlil olunan göstəricilər qiymətləndirmənin respublika üzrə vəziyyətini ifadə edir. Lakin hər bir bölgənin fərqli göstəriciləri də ola bilər. Biz, sadəcə, bu sahədə problemlərin olduğunu və onun təhlil edilərək aydınlaşdırıla bilinməsi imkanlarını göstərdik. Bu baxımdan, hər bir bölgə müvafiq qaydada nəticələrini təhlil edib mövcud problemlərini üzə çıxara və onların həll olunması üçün tədbirlər görə bilər. Bölgələrdə bu işin, hətta müəllimlər səviyyəsində də təhlil edilməsi mümkündür.

Cədvəl 1.20

FƏNLƏR ÜZRƏ ATTESTAT QİYMƏTLƏRİ "ƏLA" OLAN ABİTURİYENTLƏRİN NİSBİ BAL İNTERVALLARINA GÖRƏ PAYLANMASI (2025-Cİ İLİN MƏZUNLARI)

FƏNN		CƏMİ	BAL İNTERVALLARI				
			0 – 20	20 – 40	40 – 60	60 – 80	80 – 100
I mərhələ üzrə							
Tədris dili	sayı	39742	145	782	3709	14790	20316
	faizi	100.00	0.36	1.97	9.33	37.22	51.12
Riyaziyyat	sayı	25484	1564	2972	4097	6423	10428
	faizi	100.00	6.14	11.66	16.08	25.20	40.92
Xarici dil	sayı	33930	682	2456	5746	9619	15427
	faizi	100.00	2.01	7.24	16.93	28.35	45.47
II mərhələ üzrə							
Tədris dili (III qrup)	sayı	14244	467	1555	2983	4787	4452
	faizi	100.00	3.28	10.92	20.94	33.61	31.26
Ədəbiyyat (III qrup)	sayı	14933	1139	1391	2760	5316	4327
	faizi	100.00	7.63	9.31	18.48	35.60	28.98
Riyaziyyat (I, II qruplar)	sayı	14658	2056	3025	3843	3414	2320
	faizi	100.00	14.03	20.64	26.22	23.29	15.83
Tarix* (II, III qruplar)	sayı	22013	8164	5247	4130	2958	1514
	faizi	100.00	37.09	23.84	18.76	13.44	6.88
Fizika (I, IV qruplar)	sayı	17270	4569	3831	3080	2995	2795
	faizi	100.00	26.46	22.18	17.83	17.34	16.18
Kimya (I, IV qruplar)	sayı	11220	3821	2483	1931	1576	1409
	faizi	100.00	34.06	22.13	17.21	14.05	12.56
Biologiya (IV qrup)	sayı	4343	559	908	980	1007	889
	faizi	100.00	12.87	20.91	22.57	23.19	20.47
Coğrafiya (II, III qruplar)	sayı	12695	5960	2785	1917	1416	617
	faizi	100.00	46.95	21.94	15.10	11.15	4.86

* ***Qeyd:*** Tarix fənnindən göstəricilər Azərbaycan tarixi və ümumi tarix fənlərinin hər ikisindən "əla" qiymət alan abituriyentlərin göstəriciləri əsasında müəyyənləşmişdir.

Abituriyentlərin ballarının paylanma histoqramlarında assimmetriya mövcuddur.
Ortastatistik abituriyentə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir.

Qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin topladıqları balların I–IV və V ixtisas qrupları üzrə paylanması müəyyənləşdirilib. Onlar cədvəl şəklində tərtib olunub (1.21, 1.22, 1.23 və 1.24 saylı cədvəllərə bax) və histoqramları (1.1, 1.2, 1.3, 1.4 saylı qrafiklərə bax) qurulub.

Qrafiklərdə Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin I–IV və V ixtisas qrupları üzrə topladıqları balların paylanma histoqramları və ədədi xarakteristikaları: riyazi gözləmə (orta qiymət) – M, abituriyentlərin seçməsini iki bərabər hissəyə ayıran bal (mediana) – Me, abituriyentlərin ballarının paylanmasında rast gəlmə ehtimalı ən yüksək olan bal (moda) təqdim edilib. Təhlil göstərir ki, I–IV ixtisas qruplarında hər iki bölmə üzrə abituriyentlərin ballarının paylanma histoqramları sağtərəfli assimmetriyaya malikdir. Bu o deməkdir ki, abituriyentlərin tam seçimində orta nəticə göstərən (Azərbaycan bölməsində 279.49, rus bölməsində 276.99 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir. Bununla belə, Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında fərqli cəhətlər mövcuddur. Bunlar aşağıdakılardır:

1. Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsində abituriyentlərin ballarının paylanma histoqramlarında assimmetriya nisbətən zəifdir. Azərbaycan və rus bölmələri abituriyentlərinin orta bal göstəriciləri arasındakı fərq ötən ilə nəzərən 15.31-dən 2.5-ə qədər azalmışdır. Azərbaycan bölməsində abituriyentlərin 61.24, rus bölməsində isə 64.82%-i 200-dən çox bal toplamışdır. Digər tərəfdən, imtahanda iştirak edənlərin yarısının Azərbaycan bölməsində 249.68, rus bölməsində isə 254.46 baldan zəif nəticə göstərməsi, hər iki bölmədə abituriyentlərin hazırlığının günün tələbləri (dövlət tədris proqramları və təhsil standartları) səviyyəsində olmadığını təsdiqləyir.

2. Abituriyentlərin topladıqları balların ortastatistik* abituriyentin topladığı bala (seçmənin riyazi gözləmə qiymətinə) nəzərən paylanması (paylanmanın dəyişkənliyi) ortakvadratik meyillə xarakterizə edilir. Ortakvadratik meyilin qiymətləri bölmələr üzrə test imtahanlarında toplanılan balların paylanmasının ədədi xarakteristikaları cədvəllərində göstərilib. Azərbaycan bölməsi üzrə bu göstərici 157.55, rus bölməsi üzrə 141.04 bala bərabərdir. Əslində, Azərbaycan və rus bölmələri üzrə toplanılan balların riyazi gözləmə (orta) qiymətləri bir-birindən fərqli olduğundan onların ortakvadratik meyillərini bilavasitə müqayisə etmək düzgün deyil. Müqayisə ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında aparılmalıdır. Belə müqayisə isə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 56.37%-ni təşkil etdiyi halda, rus bölməsində 50.92%-ni təşkil edir. Azərbaycan bölməsində ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən paylanmanın yüksək olması bu bölmənin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin bilikləri arasında daha ciddi qütbləşmənin mövcud olduğunu göstərir.

V ixtisas qrupu üzrə Azərbaycan bölməsində abituriyentlərin tam seçməsində orta bal ətrafında nəticə göstərən (orta bal 130.90) abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlər sayca üstünlük təşkil edirlər. Rus bölməsində isə, demək olar ki, normal paylanma müşahidə olunur. Yəni zəif nəticə göstərən abituriyentlərlə yüksək nəticə göstərən abituriyentlər sayca bir-birinə yaxındır. İmtahanda iştirak edənlərin yarısı Azərbaycan bölməsində 119.83, rus bölməsində isə 145.41 baldan aşağı nəticə göstərib. Azərbaycan bölməsi üzrə ortakvadratik meyil 70.27, rus bölməsi üzrə 64.04 bala bərabərdir. Ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında müqayisə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 53.68%-ni təşkil etdiyi halda, rus bölməsində yalnız 43.31%-ni təşkil edir. Göründüyü kimi, ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmə hər iki bölmə üzrə yüksəkdir. Bu da o deməkdir ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərin bilikləri arasında ciddi qütbləşmə mövcuddur.

Qəbul imtahanlarının nəticələri əsasında ixtisas qrupları üzrə də abituriyentlərin topladıqları balların paylanması müəyyənləşdirilib. Onlara uyğun olan statistik sıralar jurnalın əlavələr hissəsində təqdim olunub (cədvəllər 6.10-6.19, bax: səh. 504-508).

* Burada ortastatistik abituriyent dedikdə, I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin bu imtahanda nümayiş etdirdikləri bilik və bacarıq baxımından ümumiləşdirilmiş obrazı nəzərdə tutulur.

Bölmə: Azərbaycan (I–IV qruplar)


Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə:	279.49	Minimal bal:	2.3
Ortakvadratik meyil:	157.55	Maksimal bal:	700.0
Moda:	130	Abituriyentlərin sayı:	81700
Median:	249.68		

Cədvəl 1.21

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	220 - 240	3570	4.37	47.96	460 - 480	1729	2.12	86.17
0 - 20	18	0.02	0.02	240 - 260	3450	4.22	52.18	480 - 500	1679	2.06	88.22
20 - 40	450	0.55	0.57	260 - 280	3315	4.06	56.24	500 - 520	1562	1.91	90.13
40 - 60	1727	2.11	2.69	280 - 300	3172	3.88	60.12	520 - 540	1443	1.77	91.90
60 - 80	2939	3.60	6.28	300 - 320	3049	3.73	63.85	540 - 560	1312	1.61	93.51
80 - 100	3801	4.65	10.94	320 - 340	2887	3.53	67.39	560 - 580	1153	1.41	94.92
100 - 120	4450	5.45	16.38	340 - 360	2591	3.17	70.56	580 - 600	1126	1.38	96.29
120 - 140	4810	5.89	22.27	360 - 380	2491	3.05	73.61	600 - 620	953	1.17	97.46
140 - 160	4689	5.74	28.01	380 - 400	2305	2.82	76.43	620 - 640	872	1.07	98.53
160 - 180	4579	5.60	33.61	400 - 420	2306	2.82	79.25	640 - 660	639	0.78	99.31
180 - 200	4202	5.14	38.76	420 - 440	2050	2.51	81.76	660 - 680	433	0.53	99.84
200 - 220	3946	4.83	43.59	440 - 460	1872	2.29	84.05	680 - 700	130	0.16	100.00

Qrafik 1.1



Bölmə: Rus (I–IV qruplar)


Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə:	276.99	Minimal bal:	17.2
Ortakvadratik meyil:	141.04	Maksimal bal:	687.4
Moda:	150	Abituriyentlərin sayı:	9211
Median:	254.46		

Cədvəl 1.22

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	220 - 240	486	5.28	46.30	460 - 480	190	2.06	89.61
0 - 20	1	0.01	0.01	240 - 260	471	5.11	51.42	480 - 500	158	1.72	91.33
20 - 40	30	0.33	0.34	260 - 280	437	4.74	56.16	500 - 520	148	1.61	92.93
40 - 60	129	1.40	1.74	280 - 300	431	4.68	60.84	520 - 540	125	1.36	94.29
60 - 80	208	2.26	4.00	300 - 320	435	4.72	65.56	540 - 560	126	1.37	95.66
80 - 100	347	3.77	7.76	320 - 340	398	4.32	69.88	560 - 580	107	1.16	96.82
100 - 120	414	4.49	12.26	340 - 360	349	3.79	73.67	580 - 600	90	0.98	97.80
120 - 140	471	5.11	17.37	360 - 380	317	3.44	77.11	600 - 620	75	0.81	98.61
140 - 160	564	6.12	23.49	380 - 400	281	3.05	80.17	620 - 640	65	0.71	99.32
160 - 180	539	5.85	29.35	400 - 420	230	2.50	82.66	640 - 660	41	0.45	99.76
180 - 200	537	5.83	35.18	420 - 440	239	2.59	85.26	660 - 680	18	0.20	99.96
200 - 220	539	5.85	41.03	440 - 460	211	2.29	87.55	680 - 700	4	0.04	100.00

Qrafik 1.2




Bölmə: Azərbaycan (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə:	130.90	Minimal bal:	0.0
Ortakvadratik meyil:	70.27	Maksimal bal:	300.0
Moda:	85	Abituriyentlərin sayı:	113933
Median:	119.83		

Cədvəl 1.23

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	63	0.06	0.06	100 - 110	6333	5.56	44.56	210 - 220	2809	2.47	86.05
0 - 10	61	0.05	0.11	110 - 120	6311	5.54	50.10	220 - 230	2594	2.28	88.32
10 - 20	701	0.62	0.72	120 - 130	5730	5.03	55.13	230 - 240	2375	2.08	90.41
20 - 30	3158	2.77	3.50	130 - 140	5313	4.66	59.79	240 - 250	2224	1.95	92.36
30 - 40	5162	4.53	8.03	140 - 150	4868	4.27	64.06	250 - 260	2218	1.95	94.31
40 - 50	5416	4.75	12.78	150 - 160	4416	3.88	67.94	260 - 270	2029	1.78	96.09
50 - 60	5385	4.73	17.51	160 - 170	4225	3.71	71.65	270 - 280	2010	1.76	97.85
60 - 70	5729	5.03	22.54	170 - 180	3850	3.38	75.02	280 - 290	1709	1.50	99.35
70 - 80	6222	5.46	28.00	180 - 190	3544	3.11	78.14	290 - 300	739	0.65	100.00
80 - 90	6347	5.57	33.57	190 - 200	3241	2.84	80.98				
90 - 100	6188	5.43	39.00	200 - 210	2963	2.60	83.58				

Qrafik 1.3




Bölmə: Rus (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə:	147.85	Minimal bal:	0.0
Ortakvadratik meyil:	64.04	Maksimal bal:	295.4
Moda:	145	Abituriyentlərin sayı:	11686
Median:	145.41		

Cədvəl 1.24

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə
0 - 0	3	0.03	0.03	100 - 110	570	4.88	30.98	210 - 220	426	3.65	84.45
0 - 10	2	0.02	0.04	110 - 120	623	5.33	36.31	220 - 230	357	3.05	87.51
10 - 20	16	0.14	0.18	120 - 130	639	5.47	41.78	230 - 240	333	2.85	90.36
20 - 30	113	0.97	1.15	130 - 140	606	5.19	46.96	240 - 250	309	2.64	93.00
30 - 40	241	2.06	3.21	140 - 150	656	5.61	52.58	250 - 260	297	2.54	95.54
40 - 50	349	2.99	6.20	150 - 160	637	5.45	58.03	260 - 270	244	2.09	97.63
50 - 60	335	2.87	9.06	160 - 170	606	5.19	63.21	270 - 280	195	1.67	99.30
60 - 70	418	3.58	12.64	170 - 180	539	4.61	67.82	280 - 290	72	0.62	99.91
70 - 80	501	4.29	16.93	180 - 190	532	4.55	72.38	290 - 300	10	0.09	100.00
80 - 90	516	4.42	21.34	190 - 200	519	4.44	76.82				
90 - 100	556	4.76	26.10	200 - 210	466	3.99	80.81				

Qrafik 1.4




Məlum olduğu kimi, 2019-cu ildən orta ixtisas təhsili pilləsi, 2021-ci ildən etibarən isə yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərə (subbakalavrlara) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququ verilmişdir. Onlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun ixtisasları seçə biliblər. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları, eləcə də ADA Universitetinin, Bakı Ali Neft Məktəbinin, Qarabağ Universitetinin və Türkiyə-Azərbaycan Universitetinin ixtisaslarını seçə bilməyiblər. İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində (V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar istisna olmaqla) əvvəlcə abituriyentlərin, bundan sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılıb. V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar üzrə müsabiqə isə abituriyentlər və subbakalavrlar arasında eyni vaxtda aparılıb. Eyni yerə iddia edən abituriyent və subbakalavrın qabiliyyət imtahanı üzrə yekun balı bərabər olduğu təqdirdə üstünlük abituriyentə verilib. Bununla yanaşı, subbakalavrlara abituriyent kimi qəbul imtahanında iştirak etmək imkanı da yaradılmışdır. Qəbul imtahanında iştirak etmiş subbakalavrlar öz istəklərindən asılı olaraq həm imtahanda topladığı bal ilə ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak etmişdir.

Qəbul imtahanında iştirak edən subbakalavrların bütövlükdə və imtahanın ayrı-ayrı mərhələləri üzrə topladıqları balların paylanmaları 1.5, 1.6 və 1.7 saylı qrafiklərdə göstərilmişdir. Qrafiklərdən də göründüyü kimi, subbakalavrların imtahan nəticələri zəifdir, histoqramlar isə sağtərəfli assimmetriyaya malikdir.

İmtahanın I mərhələsində iştirak edən 2502 subbakalavrın topladıqları balların riyazi gözləməsi 82.99-a bərabər olmuş, onların yarısı 79.65 baldan az bal toplamışdır. V ixtisas qrupuna müsabiqənin imtahanın I mərhələsinin nəticələri əsasında aparıldığını və bu mərhələdə ən azı 60 bal toplayanların müsabiqəyə buraxıldığını (xoreoqrafiya sənəti istiqaməti üzrə ən azı 30 bal toplayanlar müsabiqəyə buraxılıb) nəzərə alsaq, imtahanda iştirak edən subbakalavrların 26.02%-i (651 nəfər) müsabiqə şərtini ödəməmişdir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.5

1.6 saylı qrafikdə subbakalavrların imtahanın II mərhələsində topladıqları balların paylanması təqdim olunmuşdur. Göründüyü kimi, subbakalavrların yarısı mümkün olan 400 baldan heç 41.3-nü toplaya bilməmiş və riyazi gözləmə 52.38-ə bərabər olmuşdur. I – IV ixtisas qruplarına aid olan əksər ixtisasların müsabiqəsində iştirak etmək üçün qoyulan minimal tələbi (imtahanın II mərhələsində ən azı 100 bal toplayanlar müsabiqəyə


buraxılıblar) bu mərhələdə abituriyent kimi iştirak edən subbakalavrların cəmi 11.75%-i (108 nəfər) ödəmiş, qalan 88.25%-i isə 100-dən az bal toplayaraq minimal tələbi ödəyə bilməmişdir.

1.7 saylı qrafikdə də qəbul imtahanının hər iki mərhələsində iştirak edən subbakalavrların topladıqları balların paylanması təqdim olunmuşdur. Onu da qeyd edək ki, subbakalavrların ali təhsil müəssisələrinə qəbulu üçün müsabiqə onların diplom balları əsasında aparılmışdır. Apardığımız araşdırma göstərir ki, qəbul imtahanının I mərhələsində iştirak edən subbakalavrların diplom balları ilə onların imtahanda topladıqları ballar arasında heç bir stoxastik əlaqə yoxdur və korrelyasiya əmsalı 0.19-ə bərabərdir. Bu isə diplom ballarının obyektiv olmadığını və subbakalavrların ali təhsil müəssisələrinə qəbulunun onların hazırlıq səviyyələrinə görə deyil, təsadüfi qaydada aparılmasını göstərir.

Subbakalavrların I – IV ixtisas qrupları üzrə əldə etdikləri imtahan nəticələrini tam seçmə ilə (imtahanda iştirak edən abituriyentlər və subbakalavrlar (abituriyent kimi iştirak edənlər) birlikdə) müqayisə etdikdə, subbakalavrların nəticələrinin zəif olduğu nəzərə çarpır. I – IV ixtisas qrupları üzrə imtahanda abituriyent kimi iştirak edən subbakalavrların topladıqları balların riyazi gözləməsi 149.79 bal olduğu halda, tam seçmədə bu göstərici 1.86 dəfə böyük olub (279.24 bal). Onu da qeyd edək ki, imtahanda iştirak edən subbakalavrların yarısı 138.5 baldan aşağı nəticə göstərib, tam seçmə üzrə bu göstərici isə 250.3-ə bərabər olub. Subbakalavrların ixtisas seçimində iştirak etdiyini nəzərə alsaq, onların göstəricilərini ixtisas seçimində iştirak edən abituriyentlərlə müqayisə etmək daha ədalətli olardı və burada biz müqayisənin daha acınacaqlı olduğunu görürük. Belə ki, ixtisas seçimində iştirak edən abituriyentlərin qəbul imtahanında topladıqları balların riyazi gözləməsi (362.68) imtahanda iştirak edən subbakalavrların analoji göstəricisindən 2.4 dəfə böyükdür.


Bütün bu qeyd olunanlar onu göstərir ki, imtahan vermədən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı əldə etmiş subbakalavrların hazırlıq səviyyəsi (imtahanın nəticələri əsasında) ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin hazırlıq səviyyəsindən çox aşağıdır. Bu isə ali təhsil müəssisələrində tədris zamanı müəyyən problemlərin ortaya çıxmasına səbəb ola bilər. Fikrimizcə, ali təhsil müəssisələrində subbakalavr kimi qəbul olanlar üçün xüsusi tədris planı hazırlanmalı və onların mütəxəssis kimi hazırlığı bu tədris planı çərçivəsində onlarla daha intensiv məşğul olmaqla həyata keçirilməlidir.

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.6

QƏBUL İMTAHANININ HƏR İKİ MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN ÜMUMİLİKDƏ TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.7

Müasir dünyada inkişaf və iqtisadi yüksəliş üçün ən zəruri amillərdən biri ölkələrdə keyfiyyətli təlim-tədrisi təmin edən effektiv təhsil sistemlərinin qurulmasıdır. Təhsil sistemlərində səmərəliliyi təmin edən həlledici amillərdən biri isə işlək qiymətləndirmə sisteminin yaradılması və onun təkmilləşdirilərək inkişaf etdirilməsidir.

Bu baxımdan, klassik test nəzəriyyəsi əsasında qəbul imtahanlarında istifadə edilən tapşırıqların etibarlılığı hesablanmışdır. Məlum olmuşdur ki, fənlər üzrə testlərin etibarlılıq əmsalının Küder-Riçardson (KR-20) və Split-Half metodları vasitəsi ilə hesablanmış qiymətləri 0.80–0.98 intervalındadır. Etibarlılıq əmsalının aşağı həddi kimi, adətən, 0.70 qiyməti qəbul edildiyindən, əminliklə təsdiq etmək olar ki, bu il qəbul imtahanlarında bütün fənlər üzrə kifayət qədər etibarlı testlərdən istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, testoloji praktikada testlərin etibarlılığı, bir qayda olaraq, 0.8–0.9 intervalında dəyişir.

İxtisas qrupuna aid olan fənlərin çəki əmsalları və fənlər üzrə testlərin etibarlılıq əmsalları nəzərə alınmaqla bütövlükdə hər bir qrup üzrə testin etibarlılıq əmsalı Mosye (Mosier) düsturu əsasında hesablanmışdır. Bütün ixtisas qrupları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, qrup testlərinin etibarlılıq əmsalları 0.91–0.98 intervalında yerləşir. Rəqəmlər göstərir ki, bu il qəbul imtahanlarında fənlər üzrə istifadə edilən testlərin kompozisiyası əsasında tərtib edilmiş qrup testləri də yüksək etibarlılıq keyfiyyətinə malik olmuşdur.

Qəbul imtahanlarına hazırlıqda sınaq imtahanlarının xüsusi yeri vardır. Bu imtahanlarda abituriyent imtahan texnologiyası ilə tanış olur, qəbul imtahanında istifadə ediləcək test modeli və imtahan meyarları əsasında öz bilik səviyyəsini qiymətləndirmək imkanı əldə edir. Abituriyentin sınaq imtahanlarında əldə etdiyi nəticələrlə qəbul imtahanındakı nəticələri arasındakı stoxastik əlaqələri müəyyən etmək məqsədilə onların müvafiq imtahan göstəriciləri (ümumi balları və fənlər üzrə nisbi balları) arasında korrelyasiya əmsalları hesablanıb və təhlil edilib. 1.25 saylı cədvəldə abituriyentlərin sınaq və qəbul imtahanı nəticələri arasında korrelyasiya əmsallarının hesablanmış qiymətləri ixtisas qrupları üzrə təqdim edilib.

Cədvəldən göründüyü kimi, bütün ixtisas qruplarında abituriyentlərin sınaq və qəbul imtahanlarının nəticələri arasında sıx stoxastik əlaqə mövcuddur. Bu əlaqələr həm imtahan fənləri üzrə toplanılan nisbi ballar, həm də ümumi ballar arasında özünü büruzə verir.

Ən yüksək stoxastik əlaqə I ixtisas qrupunu təmsil edən abituriyentlərin nəticələrində özünü göstərir. Bu qrupda abituriyentlərin sınaq və qəbul imtahanlarındakı ümumi balları arasındakı xətti əlaqənin sıxlıq səviyyəsi çox yüksəkdir və korrelyasiya əmsalı 0.942-ə bərabərdir. Qeyd etmək lazımdır ki, korrelyasiya əmsalı vahidə yaxınlaşdıqca stoxastik əlaqə funksional əlaqəyə yaxınlaşır.

Abituriyentlərin ayrı-ayrı imtahan fənlərindən sınaq və qəbul imtahanlarında topladıqları nisbi ballar arasındakı xətti əlaqələrin sıxlığını ifadə edən korrelyasiya əmsalları 0.804-dən (III qrup, ədəbiyyat fənni üzrə) 0.911-ə (I qrup, kimya fənni üzrə) qədər dəyişir.

Sınaq və qəbul imtahanlarında abituriyentlərin topladıqları ümumi ballar arasında mövcud olan belə sıx stoxastik əlaqələr imtahanlarda istifadə edilən test modellərinin yüksək etibarlılığa malik olduğunu nümayiş etdirir.

Cədvəl 1.25

SINAQ VƏ QƏBUL (II MƏRHƏLƏ) İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI

№	İXTİSAS QRUPU	Ümumi bal	İMTAHAN FƏNLƏRİ								
			Tədris dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya	İnfor-matika
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	0.942			0.891	0.845	0.911				0.827
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.937			0.910				0.856	0.857	
III	Humanitar, pedaqogika ixtisasları	0.938	0.840	0.804					0.905	0.887	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.911				0.828	0.867	0.822			

Bu gün gənclərimizin aldıqları təhsilin məzmunu XXI əsrin tələblərinə cavab verməlidir. İnformasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə təhsil müəssisəsi (məktəb və ya universitet) gənclərə düşünməyi, zəruri informasiyanı müstəqil şəkildə əldə etməyi, informasiya bolluğu şəraitində düzgün istiqamət götürməyi, analitik və yaradıcı şəkildə düşünə bilməyi öyrətməlidir. Əlbəttə, bütün bu amillər qəbul imtahanlarının məzmununda da dəyişikliyi zəruri edir.

DİM hər bir imtahan layihəsini tərtib edərkən, ilk növbədə, onun məqsədini müəyyən edir: kimi seçirik?

Tələbə qəbulunda qarşıya qoyulan əsas məqsəd seçdiyi ixtisas üzrə ali təhsil müəssisələrində təhsilalma qabiliyyətinə malik olan abituriyentlərin seçilməsidir. Bu vəzifənin həyata keçirilməsi üçün istifadə edilən test tapşırıqları valid, yəni düzgün seçimetmə keyfiyyətinə malik olmalıdır. Bununla əlaqədar, DİM biliyin qiymətləndirilməsi üzrə beynəlxalq təcrübəyə əsaslanmaqla ardıcıl olaraq test tapşırıqlarının həm məzmununda, həm tərtibində, həm də təqdimat formalarında təkmilləşdirmə işləri aparır. Belə işlərdən biri də son illər qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə testlərdə nəzəri biliklərin bilavasitə tətbiqinə aid test tapşırıqlarının sayının artırılmasıdır. Nəticədə, qeyri-standart düşüncə və yaradıcılıq tələb edən məsələlər artdıqca abituriyentlərin bir hissəsinin topladığı bal ötən illərlə müqayisədə azalmış, lakin bununla belə, yüksək bal diapazonunda (500–700 bal) biliyin qiymətləndirilməsi və onun əsasında abituriyentlərin sıralanması daha dəqiq aparılmışdır. Bu dəyişiklik qəbul imtahanına hazırlaşarkən əzbərçiliyə üstünlük verən abituriyentlərin imtahan nəticələrinə öz təsirini göstərmişdir. Belə abituriyentlər, adətən, məktəb kursunda öyrənilən fiziki, kimyəvi və bioloji proseslərin, riyazi çevirmələrin məğzini anlamağa cəhd etmir, təbiət hadisələrinin səbəb-nəticə əlaqələrini izah etməkdə çətinlik çəkirlər. Bu gün tələbə adı qazananların, xüsusilə də 500 – 700 arasında bal toplayan gənclərin nəticələrinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, DİM ali təhsil müəssisələrinin I kursları üçün bilik və bacarıqları ali təhsil almağa imkan verən tələbə kontingenti seçmişdir.

Öz gələcəyini düşünən hər bir cəmiyyət var gücünü ona yönəldir ki, bütün təbəqələrdən olan insanların təhsil almaq imkanları maksimal dərəcədə bərabərləşsin. Təhsil sistemi gənclərə şəxsi uğur əldə etməyə, öz

bacarıq və səyləri əsasında cəmiyyətdə layiqli yer tutmağa bərabər şanslar verməlidir. Qəbul imtahanlarının nəticələri bir daha təsdiq edir ki, bunun üçün ölkəmizdə real sosial lift qurulub və bu mexanizm uğurla fəaliyyət göstərməkdədir.

DİM 1992–2010-cu illərdə keçirilən qəbul imtahanlarında abituriyentlərə yalnız qapalı tipli test tapşırıqları təqdim edirdi. 2011-ci ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarında riyaziyyat fənni üzrə test blokuna qapalı tipli test tapşırıqları ilə yanaşı, 5 açıq tipli test tapşırığı da daxil edilmişdi. Beləliklə, bütün ixtisas qruplarında riyaziyyat fənnindən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdu. Açıq tipli test tapşırıqlarının mürəkkəblik dərəcəsi orta və çətin idi. 2012–2014-cü illərdə açıq tipli test tapşırıqlarının daxil olduğu fənlər I ixtisas qrupu üzrə fizika və riyaziyyat, II qrup üzrə coğrafiya və riyaziyyat, III qrup üzrə tarix və riyaziyyat, IV qrup üzrə isə kimya və riyaziyyat fənləri olmuşdur. Sadaladığımız fənlərdən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdur. 2015-ci ildən 2018-ci ilədək bütün ixtisas qruplarında açıq tipli test tapşırıqlarının daxil olduğu fənlərin sayı artırılmışdır. Həmin fənlər bunlardır: I ixtisas qrupu üzrə kimya, II və III qruplar üzrə tədris dili, IV qrup üzrə isə biologiya fənni. Açıq tipli test tapşırıqlarının təqdim olunduğu üç fənnin hər birinin test blokunda 21 test tapşırığı qapalı, 4 test tapşırığı isə açıq tipli olmuşdur.

Məlum olduğu kimi, 2019-cu ildə ilk dəfə qəbul imtahanı iki mərhələdə keçirilib. Bununla yanaşı, ilk dəfə olaraq imtahanın hər iki mərhələsində abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları da təqdim olunub. Bu cür test tapşırıqları bizə abituriyentlərin bacarıq və vərdişlərinin qiymətləndirilməsi üçün geniş imkanlar yaradır. Belə ki, bu tapşırıqları vasitəsi ilə abituriyentlərin məktəbdə əldə etdikləri bilikləri real həyatda, praktikada istifadə etmək bacarıqları öyrənilir və qiymətləndirilir. Nəzəri biliklərin real situasiyada tətbiqi kimi vərdişlər gələcək mütəxəssislər üçün ən vacib keyfiyyətlərdən sayılır. Bu məqsədlə abituriyentlərə yazılı şəkildə cavablandırılması üçün I mərhələdə tədris dili fənni üzrə 10, riyaziyyat fənni üzrə 7, xarici dil fənni üzrə 7, ümumilikdə 24, II mərhələdə isə hər bir imtahan fənni üzrə 3, ümumilikdə 9 test tapşırığı təqdim olunmuşdur. Bu tip tapşırıqlar 0, $\frac{2}{3}$, 1, $\frac{4}{3}$ və 2 balla qiymətləndirilmişdir. 2020 və 2021-ci illərdə ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yaranmış çətinliklər nəzərə alınaraq qəbul imtahanlarında müəyyən sadələşdirilmələr aparılmışdır. Belə ki, qəbul imtahanlarının I mərhələsində imtahanında abituriyentlərə təqdim olunan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların sayı 24-dən 12-yə (hər fənn üzrə 4 tapşırıq) salınmış, 2022-ci ildə isə yenidən əvvəlki formata qayıdılmış və tapşırıqların sayı 24 olmuşdur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu tip tapşırıqlara, hətta qapalı test tapşırıqları üzrə yüksək nəticə göstərən abituriyentlərin arasında da zəif cavab verənlər az deyil. Məsələn, II qrupda riyaziyyat fənnindən 13 qapalı tapşırığın ən azı 10-na (təxminən 77%-nə) düzgün cavab verən abituriyentlərin 35.17%-i yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə toplanıla biləcək maksimal balın yalnız üçdə birinə qədərini toplaya bilib, onlardan 24.00%-i isə, ümumiyyətlə, bu tip test tapşırıqlarının heç birini düzgün cavablandıra bilməyib.

Qeyd etmək lazımdır ki, yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar abituriyentlərin qiymətləndirilməsinə geniş imkanlar yarasa da, bu tapşırıqların yoxlanılması və qiymətləndirilməsi çox böyük resurs hesabına mümkün olur. Qiymətləndirmənin keyfiyyətli və obyektiv aparılması xeyli vaxt və maliyyə tələb edir. Tapşırıqların yoxlama prosesini sürətləndirməyə çalışsaq, o zaman yoxlamanın keyfiyyəti aşağı düşər və obyektiv qiymətləndirmədə problemlər yaranar. O da qeyd olunmalıdır ki, bu tip tapşırıqlar əvvəlcədən təlim keçmiş və seçilmiş markerlər tərəfindən yoxlanılır. Proses elə qurulmuşdur ki, insan faktoru qiymətləndirməyə heç bir təsir göstərməsin. Bunu apellyasiya prosesində yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə şikayətlərin az olması da təsdiq edir. Apellyasiya Komissiyasına müraciət etmiş 3335 abituriyentdən (imtahanda iştirak edənlərin (129779) 2.57%-i) 522-nin iddiası təmin edilmiş və onların yazı işlərinin qiymətlərində müvafiq düzəlişlər edilmişdir. Digər iddialarla bağlı isə tapşırıqların yerinə yetirilməsində abituriyentlərin yol verdikləri səhvlər ekspertlər tərəfindən izah edilmişdir.

Qəbul imtahanının II mərhələsində abituriyentlərə hər bir imtahan fənni üzrə 22 qapalı, 8 açıq tipli tapşırıq təqdim olunub. Açıq tipli tapşırıqların 5-i cavabları kodlaşdırılan, 3-ü isə yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar olub. Qapalı və açıq tipli tapşırıqlar arasındakı xətti əlaqəni ifadə edən korrelyasiya əmsalı ixtisas qrupları və imtahan fənləri üzrə müxtəlifdir. II mərhələdə qapalı və açıq tipli

test tapşırıqları arasındakı korrelyasiya əmsalı I qrupda riyaziyyatdan 0.80, fizikadan 0.83, kimyadan 0.78, informatikadan 0.77, II qrupda riyaziyyatdan 0.79, tarixdən 0.73, coğrafiyadan 0.79, III qrupda Azərbaycan dilindən 0.72, ədəbiyyatdan 0.81, tarixdən 0.75, coğrafiyadan 0.45, IV qrupda fizikadan 0.82, kimyadan 0.81, biologiyadan 0.82 olub.

Açıq tipli test tapşırıqlarına, əsasən, qapalı tipli test tapşırıqları üzrə orta və yüksək bal toplayan abituriyentlər cavab verib. Belə abituriyentlərin müxtəlif fənlərdən qapalı tipli test tapşırıqları üzrə düzgün cavabvermə faizi 40-dan yüksək olub. Onlar I ixtisas qrupunda riyaziyyat, fizika, kimya və informatika fənləri üzrə müvafiq olaraq seçmənin 42.85, 40.16, 22.50 və 55.82%-ni, II ixtisas qrupunda riyaziyyat, tarix və coğrafiya fənləri üzrə 26.90, 24.12 və 34.98%-ni, III ixtisas qrupunda Azərbaycan dili, ədəbiyyat, tarix və coğrafiya fənləri üzrə 69.65, 75.38, 42.29 və 9.38%-ni, IV ixtisas qrupunda isə fizika, kimya və biologiya fənləri üzrə 67.19, 66.46 və 69.02%-ni təşkil edib.

Təqdim edilən rəqəmlərdən görünür ki, açıq tipli test tapşırıqları, ilk növbədə, orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən fərqləndirməyə xidmət edib. Məsələn, I ixtisas qrupunda qapalı tipli tapşırıqların ən azı 40%-ni düzgün cavablandıran abituriyentlərin riyaziyyat fənnindən cavabları kodlaşdırılan açıq tipli test tapşırıqlarına verdikləri düzgün cavabların sayına görə paylanmasına nəzər yetirək: onların 21.24%-i açıq tipli test tapşırıqlarının 1-nə, 22.68%-i 2-nə, 19.90%-i 3-nə, 15.43%-i 4-nə, 8.60%-i 5-nə düzgün cavab verib, qalan 12.15%-i isə heç birinə düzgün cavab verə bilməyib. Bu seçmənin yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları üzrə topladıqları balların miqdarına görə paylanmasına nəzər yetirdikdə isə bir az fərqli mənzərə ilə qarşılaşırıq: həmin abituriyentlərin 26.19%-i bu tip tapşırıqlar üzrə maksimum 2 bal (0 daxil deyil), 21.20%-i 2-4 bal (2 daxil deyil), 5.41%-i 4-6 bal (4 daxil deyil) bal toplaya bilib və qalan 47.21%-i isə, ümumiyyətlə, bal toplaya bilməyib. İdeal halda abituriyentlərin diferensiasiyası üçün açıq tipli test tapşırıqları orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsinin səviyyəsinə tam uyğun olsa idi, onları cavabları kodlaşdırılan açıq tipli test tapşırıqları üzrə sayca 6 bərabər hissəyə (alt seçməyə), yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları üzrə isə 4 bərabər hissəyə bölərdi. Reallıqda açıq tipli test tapşırıqları vasitəsi ilə tam seçmə, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanmaların ideal paylanma ilə müqayisəsi göstərir ki, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanma ideala daha yaxındır. Deməli, açıq tipli test tapşırıqları, həqiqətən, orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən daha dəqiq fərqləndirməyə imkan vermişdir.

Ortastatistik abituriyent fənlər üzrə təhsil proqramının yalnız 23-63%-ni mənimsəyir.

Ali təhsil müəssisələrinə imtahan vermiş abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda ortastatistik portreti müəyyənləşdirilib. Belə ki, Azərbaycan bölməsində ortastatistik abituriyent I mərhələdə tədris dili fənnindən test tapşırıqlarının 57.05, riyaziyyatdan 31.38, ingilis dilindən 43.59%-nə, II mərhələdə tədris dilindən 56.75, ədəbiyyatdan 55.18, riyaziyyatdan 28.96, fizikadan 36.27, kimyadan 30.36, biologiyadan 53.66, tarixdən 29.26, informatikadan 37.94, coğrafiyadan 25.99%-inə düzgün cavab verib*.

Rus bölməsində ortastatistik abituriyent isə I mərhələdə tədris dili fənnindən test tapşırıqlarının 54.20, riyaziyyatdan 34.08, ingilis dilindən 59.60%-ni, II mərhələdə tədris dilindən 53.36, ədəbiyyatdan 48.41, riyaziyyatdan 29.81, fizikadan 34.39, kimyadan 31.83, biologiyadan 47.92, tarixdən 24.36, informatikadan 34.06, coğrafiyadan 23.01% ni düzgün cavablandırıb. Abituriyentlərin cavab göstəricilərindən aydın olur ki, ortastatistik abituriyent fənlər üzrə testlərin yalnız 23-60 faizinə düzgün cavab verib. Test tapşırıqlarının təhsil proqramı çərçivəsində hazırlandığını və bu çərçivədən kənara çıxmadığını, qəbul imtahanında iştirak edənlərin məktəbin seçilən şagirdləri olduğunu nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, ortastatistik məzun təhsil proqramının 40–77%-ni mənimsəmir. Bu isə ümumi təhsil müəssisələrimizin böyük qismində tədris prosesinin normal aparılmamasından, tələbkarlığın zəifliyindən, ən başlıcası isə müəllimlərin çoxunun peşəkarlıq səviyyəsinin aşağı olmasından və tədris prosesində yeni təlim üsulları və texnologiyalarından istifadə edə bilməməsindən irəli gəlir. Odur ki bu sahədə həyata keçirilməsi vacib olan digər tədbirlərlə yanaşı, müəllimlərin müasir elmi əsaslarla ixtisasının artırılması, ali təhsil müəssisələrində pedaqoji kadrların hazırlanması səviyyəsinin yüksəldilməsi və gələcək müəllimlərə lazımi pedaqoji-metodiki bilik və bacarıqların aşılanması məsələləri diqqət mərkəzində olmalıdır. Qeyd olunanlarla yanaşı, abituriyentləri yüksək nəticələr qazanan qabaqcıl rayonların, məktəblərin, eləcə də yüksək nəticələri ilə fərqlənən müəllimlərin qabaqcıl təcrübəsi öyrənilməli və yayılmalıdır.

Abituriyentlərin imtahan fənlərinə cavablarının ortastatistik göstəriciləri qruplar üzrə aşağıdakı cədvəllərdə təqdim olunur.

Cədvəl 1.26

AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ											
		I mərhələ			II mərhələ								
		Tədris dili	Riya-ziyyat	İngilis dili	Tədris dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	İnfor-matika	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	62.87	46.11	50.56			33.53	33.29	24.18			37.86	
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	59.01	30.19	43.26			23.21				24.35		28.68
III	Humanitar, pedaqogika ixtisasları	70.68	31.21	53.36	56.63	55.09					33.49		15.51
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	77.55	64.05	70.50				50.56	49.17	52.85			
V	İncəsənət, dizayn, musiqi, idman ixtisasları	57.05	31.38	43.59									

Cədvəl 1.27

RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ											
		I mərhələ			II mərhələ								
		Tədris dili	Riya-ziyyat	İngilis dili	Tədris dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	İnfor-matika	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	55.57	46.31	63.82			32.48	31.75	24.29			33.98	
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	52.15	32.06	58.30			25.19				21.33		26.04
III	Humanitar, pedaqogika ixtisasları	58.93	25.04	62.37	53.21	48.39					26.45		16.98
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	66.99	57.76	74.87				41.48	43.18	47.29			
V	İncəsənət, dizayn, musiqi, idman ixtisasları	54.20	34.08	59.60									

Test ölçü alətidir. Onun elmi baxımdan düzgün istifadə edilməsi və alınmış nəticələrin düzgün şərhi (interpretasiyası) çox əhəmiyyətlidir. Bu səbəbdən testin tərtib və istifadə edilməsinin bütün mərhələləri testologiyanın tələblərinə uyğun həyata keçirilməlidir.

Müasir test nəzəriyyəsi müəyyən qabiliyyətə malik olan sınaq iştirakçısının test tapşırığına düzgün cavabvermə ehtimalını birparametrli (test tapşırığının çətinlik səviyyəsi), ikiparametrli (test tapşırığının çətinlik və diskriminasiya səviyyəsi) və üçparametrli (test tapşırığının çətinlik, diskriminasiya və cavabı təsadüfi şəkildə tapma səviyyəsi) logistik funksiyalarla ifadə olunan riyazi modellər əsasında qiymətləndirir.

DİM test tapşırıqları bankının parametrləndirilməsi üzrə bir sıra tədbirlər həyata keçirir: test tapşırıqlarının sınaqdan keçirilməsi və sonradan nəticələrinin emalı – test tapşırıqlarının kalibrlənməsi aparılır. Test tapşırıqlarının parametrləndirilməsi iki model – Rasch və ikiparametrli logistik model əsasında həyata keçirilir. Rasch modelində bütün test tapşırıqları eyni diskriminasiya (ayırdetmə) göstəricisinə malikdir. Bu, əslində, çox sərt fərziyyədir və praktikada özünü nadir hallarda doğruldur. İkiparametrli logistik modeldə isə test tapşırıqlarının diksriminasiya göstəriciləri bir-birindən fərqlənir. Bu modelin Rasch modelinə nəzərən üstünlüyü onun empirik (real) məlumatlarla daha yüksək uzlaşma səviyyəsinə malik olmasıdır. İkiparametrli logistik model əsasında bilik və bacarıqların qiymətləndirilməsi BILOG-MG proqram təminatı əsasında aparılır.

Təbiidir ki, praktikada bütün test tapşırıqları riyazi modellə uzlaşmır və model işlədiləndə onunla uzlaşmayan test tapşırıqları atılmalı olur. Belə hallar, əsasən, test tapşırıqlarında müxtəlif qüsurların, məsələn, üstünlüyə malik distraktorun, yaxud çox zəif diskriminasiya xassəsinin olmasının nəticəsidir.

Model tətbiq edilərkən sınaq iştirakçılarının motivasiya səviyyəsi də nəzərə alınmalıdır. Başqa sözlə, informasiyanın emalı prosesində sınaq iştirakçısının imtahan prosesində mümkün olan ən yüksək nəticəni əldə etmək marağı hesaba alınmalıdır. Bununla əlaqədar olaraq test tapşırıqları parametrləndirildikdə, test tapşırıqlarının çoxuna cavab verməkdən imtina edən abituriyentlər sınaq iştirakçıları seçməsindən çıxarılır.

Yeni testlərin tərkibində parametrləndirilmiş tapşırıqlardan istifadə edilməsi testləşdirmə aparılan fənn üzrə qabiliyyət göstəricisi şkalasına yeni test tapşırıqlarının əlavə edilməsinə imkan verir. Beləliklə, kalibrlənmə həyata keçirildikdən sonra eyni tapşırıqlara malik olmayan müxtəlif testlərin nəticələrini müqayisə etmək imkanı yaranır. Bununla yanaşı, müxtəlif imtahanlarda eyni imtahan iştirakçılarının olması da bu imtahanlardakı testlərin nəticələrini müqayisə etməyə imkan verir.


Bu il Azərbaycan dili və riyaziyyat fənlərindən imtahan testləri tərtib edilərkən məhz ikinci metoddan istifadə olunmuşdur. Bu da bütün ixtisas qruplarında imtahan verən abituriyentlərin qabiliyyət səviyyələrinin elmi cəhətdən əsaslandırılmış müqayisəsini aparmağa imkan vermişdir.

DİM-in müxtəlif ixtisas qruplarında tətbiq etdiyi testlər eyni struktura malik deyil və onlar müvafiq qrupların kontingentinin qabiliyyətini mümkün qədər dəqiq üzə çıxarmağa və yoxlamağa istiqamətlənib. Testlərin strukturlarındakı müxtəliflik onların informasiya funksiyalarının təhlil prosesində istifadə edilən test tapşırıqlarının sayına görə normallaşdırılmış qrafiklərində özünü göstərir. Təqdim edilən informasiya funksiyaları (bax: qrafiklər 1.8 və 1.9) müvafiq qabiliyyətə malik abituriyentlər testdən keçirildikdə orta hesabla bir test tapşırığına düşən informasiyanın miqdarını təyin etməyə imkan verir. İnformasiya miqdarı nə qədər çox olarsa, qabiliyyəti ölçmə xətası da bir o qədər az olar. Qrafiklərdən göründüyü kimi, bütün informasiya funksiyaları maksimum nöqtəsinə malikdir və bu nöqtə hansı qabiliyyətə malik olan abituriyentlər testdən keçirildikdə ölçmə xətasının minimal olduğunu göstərir. Məsələn, Azərbaycan dilindən testlərin ən kiçik ölçmə xətası III ixtisas qrupunda qabiliyyət göstəricisi -1.20 loqit olan abituriyentlər üçün təmin edilir (bax: qrafik 1.8).

Qəbul imtahanı testinin məqsədi abituriyentləri ranqlara ayırmaq olduğundan onun ən yüksək ölçmə dəqiqliyi məhz müsabiqədə iştirak edən abituriyentlərin daha çox cəmləşdiyi intervalda əldə edilməlidir. Azərbaycan dili fənni üzrə III ixtisas qrupunda və riyaziyyat fənni üzrə I ixtisas qrupunda testlərin informasiya əyrilərinin qabiliyyət göstəricilərinin paylanma histoqramı ilə müqayisəsi (1.8 və 1.9 saylı qrafik) də bizə bunu əyani şəkildə göstərir və göründüyü kimi, abituriyentlərin daha çox cəmləşdiyi yerdə onların qabiliyyətləri daha dəqiq qiymətləndirilir. Belə ki, əgər Azərbaycan dili fənni üzrə orta və yüksək qabiliyyətə malik olan abituriyentlər III ixtisas qrupunda sayca daha çox müşahidə olunursa, onda III ixtisas qrupunun Azərbaycan dili testinin informasiya funksiyasının müvafiq intervaldakı qiyməti də maksimal olmalıdır.


Riyaziyyat fənni üzrə II ixtisas qrupunda testin informasiya əyrisinin qabiliyyət göstəricilərinin paylanma histoqramları ilə müqayisəsinə (1.9 saylı qrafik) baxdıqda, bir qədər fərqli mənzərənin şahidi oluruq. II ixtisas qrupu üzrə informasiya əyrisindən göründüyü kimi, abituriyentlərə təqdim olunan test nəzərdə tutulduğu kimi daha çox orta və yüksək qabiliyyətli abituriyentləri bir-birilərindən fərqləndirmək və həmin hissələrdə onların qabiliyyət göstəricilərini daha dəqiq ölçmək üçün nəzərdə tutulub. Lakin bu ixtisas qrupu üzrə qabiliyyət göstəricilərinin paylanma histoqramına baxdıqda belə məlum olur ki, abituriyentlərin böyük hissəsi riyaziyyat fənni üzrə aşağı və orta qabiliyyət səviyyələrinə malikdirlər. DİM-in qəbul imtahanlarında təqdim olunan testlərin ümumorta təhsil müəssisələrinin tədris proqramları çərçivəsində hazırlandığını nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, şagirdlərin riyaziyyat fənni üzrə hazırlıq səviyyələri qənaətbəxş deyil.


AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.8

RİYAZİYYAT FƏNNİNDƏN İXTİSAS QRUPLARI ÜZRƏ İNFORMASİYA ƏYRİLƏRİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI





Qrafik 1.9


1.18 və 1.19 saylı şəkillərdəki diaqramlarda tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələr üzrə qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən müvafiq olaraq Azərbaycan dili və riyaziyyatdan yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına görə tərkibləri təqdim edilmişdir. Məlum olduğu kimi, II mərhələdə Azərbaycan dili fənni üzrə yalnız III ixtisas qrupunun, riyaziyyat fənni üzrə isə yalnız I və II ixtisas qruplarının abituriyentləri imtahan verdiklərindən II mərhələnin nəticələrinə əsasən abituriyentlərin daha çox hansı ixtisas qruplarını seçdiklərini görmək mümkün deyil. Bu səbəbdən də mənzərəni tam şəkildə görmək üçün qəbul imtahanının I mərhələsənin nəticələri götürülüb.

1.18 saylı şəkildəki diaqramdan göründüyü kimi, Azərbaycan dili fənnindən yüksək qabiliyyətə malik abituriyentlər daha çox III ixtisas qrupunu təmsil edirlər: 5%-li altseçmədə 47.36%, 10%-li altseçmədə 46.75% və 15%-li altseçmədə 45.68%. Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətə malik olan gənclər III qrupla yanaşı, digər ixtisas qruplarında da təmsil olunublar. Onlar müvafiq hazırlıq keçdikləri halda III ixtisas qrupu abituriyentlərinə real rəqabət göstərə bilərdilər. Azərbaycan bölməsi abituriyentlərinin ixtisas qruplarına görə bölgüsünü nəzərə alsaq (I qrupda – 34.11%, II qrupda – 28.87%, III qrupda – 30.75%, IV qrupda – 6.27%), onda Azərbaycan dili üzrə yüksək qabiliyyətli abituriyentlərin istəklərinin qütbləşməsi aşkar şəkildə nəzərə çarpar. Çünki 5 faizli altseçmədə I və II qrupların abituriyentləri müvafiq olaraq cəmi 22.86% və 11.41% təşkil etdiyi halda, III və IV qrupların abituriyentləri artıq 47.36 və 18.37% təşkil edir. Göründüyü kimi, I və II qruplarda 5 faizli altseçmədə abituriyentlərin nisbi sayı tam seçmədən müvafiq olaraq 1.49 və 2.53 dəfə az, III və IV qruplarda isə müvafiq olaraq 1.54 və 2.93 dəfə çox olub.

Ötən illə müqayisədə bu il Azərbaycan dilindən yüksək qabiliyyətə malik olan abituriyentlərin nisbi sayı III ixtisas qrupunda artıb (43.66%-dən 47.36%-ə qədər). I, II və IV ixtisas qruplarında isə, əksinə, belə abituriyentlərin nisbi sayı azalmışdır (I qrupda 24.56%-dən 22.86%-ə, II qrupda 13.16%-dən 11.41%-ə, IV qrupda 18.62%-dən 18.37%-ə qədər). Tam seçmədə abituriyentlərin sayı 2024-cü ilə nəzərən II, III və IV qruplarda artmış (II qrupda 28.17%-dən 28.87%-ə qədər, III qrupda 29.11%-dən 30.75%-ə, IV qrupda 6.10%-dən 6.27%-ə), I qrupda isə azalmışdır (36.62%-dən 34.11%-ə qədər).


Riyaziyyat fənnində tamamilə fərqli mənzərə müşahidə olunur (bax: 1.19 saylı şəkil). Burada 5%-li altseçmədə I ixtisas qrupunun abituriyentləri sayca ən çoxdur (51.79%). I və IV qrupların abituriyentlərinin nisbi çəkiləri (müvafiq olaraq 51.79% və 25.69%) onların tam seçmədəki nisbi çəkilərini (müvafiq olaraq 34.42% və 6.78%) üstələyir. Bütün bunlar onu göstərir ki, I və IV ixtisas qruplarını seçən abituriyentlərin içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi daha çoxdur. II və III ixtisas qruplarında, əksinə, bu qrupları seçənlərin (müvafiq olaraq 28.43% və 30.37%) içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi (müvafiq olaraq 11.41% və 11.12%) daha azdır. Ötən illə müqayisədə bu il riyaziyyat fənnindən yüksək qabiliyyətə malik olan abituriyentlərin nisbi sayı IV ixtisas qrupunda artıb (23.14%-dən 25.69%-ə qədər). I, II və III ixtisas qruplarında isə, əksinə, belə abituriyentlərin nisbi sayı nisbətən azalmışdır (I qrupda 51.85%-dən 51.79%-ə, II qrupda 13.87%-dən 11.41%-ə, III qrupda 11.14%-dən 11.12%-ə qədər). Tam seçmədə abituriyentlərin sayı 2024-cü ilə nəzərən III və IV qruplarda artmış (III qrupda 26.96%-dən 30.37%-ə, IV qrupda 6.69%-dən 6.78%-ə), I və II qruplarda isə azalmışdır (37.63%-dən 34.42%-ə qədər, II qrupda 28.71%-dən 28.43%-ə qədər).

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.18

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ




Şəkil 1.19

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən ayrı-ayrı fənlər üzrə oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələrinin paylanmasını ayrılıqda əks etdirən histoqramların (1.10 və 1.11 saylı qrafiklərə bax) müqayisəsi qızların həm Azərbaycan dili, həm də riyaziyyatdan üstünlüyə malik olduğunu göstərir. Lakin riyaziyyat fənni üzrə bu üstünlük Azərbaycan dilindən fərqli olaraq çox cüzidir.


Azərbaycan dili üzrə qabiliyyət səviyyəsinin paylanmasını əks etdirən histoqramların (1.10 saylı qrafik) müqayisəsi göstərir ki, nisbətən yüksək qabiliyyət intervalında qızlar, aşağı qabiliyyət intervalında isə oğlanlar sayca üstünlük təşkil edir. Histoqramlar üzrə hesablamalar göstərir ki, hər 100 qız abituriyentdən 54–55-nin qabiliyyəti 0.05 loqitdən yüksək olduğu halda, hər 100 oğlan abituriyentdən qabiliyyətləri həmin intervalda yerləşənlərin sayı cəmi 38–39 nəfərdir. Beləliklə, bu intervalda fərq 16% təşkil edir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.10

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN RİYAZİYYAT FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.11

Riyaziyyat fənni üzrə qabiliyyət səviyyələrinin paylanmasında isə bir qədər başqa mənzərə müşahidə olunur (1.11 saylı qrafikə bax). Burada oğlan abituriyentlərin qabiliyyət göstəriciləri qızların göstəricilərinə yaxın olmuşdur. Azərbaycan dilindən fərqli olaraq riyaziyyat fənni üzrə oğlan və qızların qabiliyyət səviyyələrinin paylanmaları arasındakı fərq kiçikdir.

Qabiliyyətlərin ortakvadratik meyillə ifadə edilmiş vahidlərdə fərqlərini müqayisə etdikdə də həmin nəticəyə gəlmək mümkündür. Azərbaycan dili üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_a=1.288 olduğunu nəzərə alsaq, onda fərq aşağıdakı kimi olacaq:

$$\frac{0.226 + 0.271}{1.288} = 0.39\sigma_a$$

Riyaziyyat üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_r=1.326 olduğunu nəzərə alanda fərq:


$$\frac{-0.525 + 0.546}{1.326} = 0.02\sigma_r$$

bərabər olacaq.

Beləliklə, oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələri arasındakı fərq müvafiq ortakvadratik meyilin Azərbaycan dilində 39, riyaziyyatda isə 2%-nə bərabərdir.


1.20 və 1.21 saylı şəkillərdəki diaqramlarda oğlan və qızların tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələri üzrə Azərbaycan dili və riyaziyyatdan qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin nisbi sayları faizlə təqdim edilmişdir. Diaqramlardan göründüyü kimi, Azərbaycan dilindən ən yüksək qabiliyyətə malik olan 5%-li altseçmədə hər 100 abituriyentdən 72-73-ü qız, 27-28-i oğlan, riyaziyyatdan ən yüksək qabiliyyətə malik olan 5%-li altseçmədə hər 100 abituriyentin 47-48-i oğlan, 52-53-ü qızdır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.20

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.21

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin ixtisas qrupları üzrə tərkibinin (bax: cədvəl 1.28 və 1.29) təhlili göstərir ki, Azərbaycan dili üzrə yüksək qabiliyyətə malik olan oğlanların III ixtisas qrupuna istəkləri tam seçməni təmsil edən ortastatistik oğlan abituriyentin həmin qrupa nümayiş etdirdiyi istəkdən yüksəkdir. Doğrudan da, 5%-li altseçmə səviyyəsində III ixtisas qrupunun oğlan abituriyentlərinin nisbi sayı tam seçməyə nəzərən təxminən 2.1 dəfə artmışdır. Azərbaycan dilindən yüksək qabiliyyətə malik oğlan abituriyentlər III ixtisas qrupu ilə yanaşı, IV ixtisas qrupuna da üstünlük verirlər (nisbi sayı isə təxminən 4.4 dəfə çox olub). Qız abituriyentlərin seçimində də belə tendensiya III və IV ixtisas qruplarında müşahidə olunur. Burada 5%-li altseçmə səviyyəsində qız abituriyentlərin istəyi tam seçməyə nəzərən III qrupda 1.2, IV qrupda 2.2 dəfə yüksəkdir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətli oğlanların və qızların I və II qrupların ixtisaslarını seçmə ehtimalı tam seçməyə nəzərən müvafiq olaraq I qrupda 1.3 və 1.4 dəfə, II qrupda 2.1 və 2.5 dəfə zəifdir.

Cədvəl 1.28

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**27.78**	35.94	17.10	34.20	12.76	**72.22**	17.83	9.22	52.42	20.53
10%	**29.59**	37.00	18.58	33.05	11.37	**70.41**	18.65	10.74	52.51	18.10
15%	**31.45**	38.32	19.63	32.06	9.99	**68.55**	19.30	11.60	51.92	17.18
İmtahan iştirakçılarının paylanması	**46.84**	45.16	35.40	16.52	2.92	**53.16**	24.38	23.12	43.29	9.22

Cədvəl 1.29

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmənin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmənin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**47.35**	63.73	12.98	7.61	15.69	**52.65**	41.06	9.99	14.27	34.68
10%	**47.26**	62.43	15.48	8.77	13.33	**52.74**	40.42	11.00	18.34	30.24
15%	**46.86**	62.02	16.57	9.98	11.43	**53.14**	39.51	12.32	21.38	26.78
İmtahan iştirakçılarının paylanması	**47.16**	45.74	34.69	16.29	3.29	**52.84**	24.31	22.84	42.95	9.90

Riyaziyyatdan yüksək qabiliyyətə malik olan oğlan abituriyentlər I qrupun ixtisaslarına üstünlük verirlər. Belə ki, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin 63.73%-i ərizələrində bu qrupu seçib.

Riyaziyyatdan yüksək qabiliyyətə malik qız abituriyentlər seçməsində bir az fərqli mənzərənin şahidi oluruq. Belə ki, bu cür abituriyentlər daha çox I və IV ixtisas qruplarına üstünlük verirlər və riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin müvafiq olaraq 41.06 və 34.68%-i ərizələrində bu qrupları seçib.

Riyaziyyatdan yüksək qabiliyyətə malik həm oğlan, həm qız abituriyentlər III qrupa elə də meyil göstərməyiblər. Oğlan abituriyentlərin tam seçməsinin 16.29%, qız abituriyentlərin 42.95%-i bu qrupu seçmələrinə baxmayaraq, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı müvafiq olaraq 2.1 və 3.0 dəfə az olub. IV ixtisas qrupunda isə bunun tam əksini görürük. 1.29 saylı cədvəldən də göründüyü kimi, oğlan abituriyentlərin 3.29%-i, qız abituriyentlərin 9.90%-i IV ixtisas qrupunu seçdiyi halda yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı tam seçməyə nəzərən müvafiq olaraq 4.8 və 3.5 dəfə çox olub.

Fənlər üzrə elmi-metodiki təhlil və tövsiyələr

2025 – 2026-cı dərs ili üçün ali təhsil müəssisələrinə tələbə qəbulu ötən ildə olduğu kimi, iki mərhələdə keçirilmişdir. Tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsinə, ixtisas qrupları üzrə imtahanlar isə ikinci mərhələsinə aid olmuşdur. Ali təhsil müəssisələrinə I – IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsində iştirak etmək üçün abituriyentlərə iki cəhd verilmişdir. Təqdim olunan bu təhlil qəbul imtahanlarının ikinci mərhələsinə aiddir.

Dərs ilinin əvvəlində ayrı-ayrı fənlər üzrə işçi qrupları tərəfindən ümumtəhsil müəssisələrində istifadədə olan dərsliklərdə müvafiq fənn kurikulumlarının təlim nəticələrinin və məzmun standartlarının tələblərinin reallaşdırıldığı mövzular seçilərək qəbul proqramları hazırlanmışdır. Proqramlara ümumtəhsil müəssisələrinin 11-ci siniflərində təhsil alanların keçdikləri dərsliklərdəki və onların aşağı siniflərdə keçdikləri dərsliklərdə və hazırda qüvvədə olan həmin sinif dərsliklərində eyni olan mövzular daxil edilmişdir. Dərsliklərin yeni nəşrinə daxil edilmiş və ya çıxarılmış mövzular, həmçinin mübahisəli məqamlar proqramlara daxil edilməmişdir.

Ötən illərdə olduğu kimi, dərs ilinin əvvəlində imtahan modelləri hazırlanmış və imtahan modellərində məktəb kursunda keçilən mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınmışdır. Abituriyentlərin qəbul proqramlarını mənimsəmə səviyyələrinin hərtərəfli yoxlanılması məqsədi ilə imtahan modellərinə nəzəri biliklərin tətbiqi tələb olunan, məntiqi düşüncəyə əsaslanan, səbəb-nəticə əlaqələri üzərində qurulan, relevantlıq kateqoriyalarına görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, öncəgörmə və təklif olunan fəaliyyət xarakterli, mürəkkəblik dərəcəsinə görə sadə, orta çətinlikli və çətin tapşırıqlar daxil edilmişdir. İmtahan modellərinə dair test bloklarında proses və hadisələrin mahiyyətinin dərkinə yönəlmiş, səbəb və nəticə əlaqələri əsasında

qurulan tapşırıqlara üstünlük verilmiş və Eyler – Venn diaqramı, klaster formalı tapşırıqlardan da istifadə olunmuşdur. Tapşırıqlar imtahanlarda tələblərinin və təlim nəticələrinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan altstandartlara uyğun tərtib edilmişdir.

Qəbul proqramlarının və imtahan modellərinin hazırlanmasında ayrı-ayrı işçi qruplarının tərkibində ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər, AMEA-nın mütəxəssisləri iştirak etmişdir.

Proqramlar dərs ilinin əvvəlindən DİM-in internet saytında yerləşdirilmiş və "Abituriyent" jurnalının birinci sayında dərc edilmişdir. Jurnalda imtahanlarda yoxlanılması və qiymətləndirilməsi mümkün olan seçilmiş altstandartlar, həmçinin imtahan modelinə uyğun tapşırıq nümunələri və cavabı yazı ilə ifadə olunan tapşırıqların qiymətləndirmə meyarları da verilmişdir.

Abituriyentlərin qəbul imtahanlarına müstəqil şəkildə (repetitor xidmətindən istifadə etmədən) hazırlaşmalarına kömək məqsədi ilə imtahan fənləri üzrə vəsaitlər və 5 – 11-ci sinif dərsliklərinin hər bir mövzusuna aid hazırlanmış "Qiymətləndirmə tapşırıqları" kitabları təkmilləşdirilmiş və yenidən nəşr olunmuşdur.

Bütün imtahan fənləri üzrə qəbul proqramlarının mövzularına dair təcrübəli ekspertlər tərəfindən hazırlanmış 154 videomühazirə DİM-in **"*Youtube*"** kanalına yerləşdirilmişdir. Mühazirələrdə nəzəri materiallarla bərabər, onların tətbiqinə dair test tapşırıqları da verilmişdir. Həmçinin imtahanların məzmunu və keçirilmə texnologiyalarına dair DİM əməkdaşlarının iştirakı ilə hazırlanmış videoçəkilişlər **"*Youtube*"** kanalına yerləşdirilmişdir.

otk.az portalı üzərindən qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 7 (hər biri 1 variant olmaqla (Azərbaycan və rus dillərində)), həmçinin Azərbaycan dilindən fərqli dildə təhsil alanlar üçün Azərbaycan dili (dövlət dili) fənnindən 15 *onlayn* sınaq imtahanı keçirilmişdir.

Beləliklə, dərs ilinin əvvəlindən abituriyentlərə qəbul proqramlarındakı mövzular və imtahanlarda istifadə olunacaq tapşırıqların tipi və modeli barədə məlumat verilmişdir.

Qəbul imtahanlarında test bloklarında I ixtisas qrupunda riyaziyyat, fizika, kimya, II ixtisas qrupunda riyaziyyat, coğrafiya, tarix, III ixtisas qrupunda tədris dili (Azərbaycan dili, rus dili), ədəbiyyat (Azərbaycan ədəbiyyatı, rus ədəbiyyatı), tarix, IV ixtisas qrupunda isə biologiya, kimya, fizika fənlərinin hər birindən 30 tapşırıq (hər ixtisas qrupu üzrə ümumilikdə 90 tapşırıq) istifadə edilmişdir. Bunlardan: 22-si qapalı (verilənlərdən bir doğru cavabın müəyyən edilməsi), 5-i cavabları kodlaşdırılan açıq tipli (hesablama, seçim və uyğunluğu müəyyən etmək), 3-ü isə yazılı şəkildə cavablandırılması tələb edilən, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən – riyaziyyat, coğrafiya (II ixtisas qrupu), fizika, kimya, biologiya (IV ixtisas qrupu) fənlərindən situasiyaya, tarix fənnindən (II, III ixtisas qrupları) mənbəyə, tədris dili (Azərbaycan dili və rus dili) və ədəbiyyat (III ixtisas qrupu) fənlərindən isə mətnə aid tapşırıqlar olmuşdur. Qeyd etmək lazımdır ki, qəbul imtahanlarında I ixtisas qrupunda riyaziyyat, fizika, kimya və informatika fənlərindən 3 tapşırıqlı situasiyanın əvəzinə 3 açıq tipli cavabı yazı ilə ifadə olunan sərbəst tapşırıqdan istifadə edilmişdir. Riyaziyyat fənnindən 1 tapşırıq isbata aid olmuşdur.

İmtahanlar keçirilən günlərdə imtahanlarda istifadə edilmiş tapşırıqların qapalı şəraitdə yekun ekspertizası keçirilib, qapalı tipli, cavabları kodlaşdırılan açıq tipli tapşırıqların doğru cavab etalonları və cavabları yazı ilə ifadə olunan açıq tipli tapşırıqların isə qiymətləndirilmə meyarları dəqiqləşdirilərək təsdiq edilmişdir. Həmçinin imtahanlardan dərhal sonra aparılmış müstəqil ekspertiza nəticəsində qapalı və cavabları kodlaşdırılan açıq tipli tapşırıqların doğru cavab etalonları bir daha təsdiq edilərək Dövlət İmtahan Mərkəzinin "***Youtube***" kanalı vasitəsilə canlı yayımla ictimaiyyətə təqdim olunmuş və internet saytında yerləşdirilmişdir. Cavabları yazı ilə ifadə olunan tapşırıqlar müəyyən vaxt ərzində xüsusi proqram təminatı vasitəsilə markerlər tərəfindən yoxlanılmış və nəticələr elan edilmişdir.

İmtahanlarda istifadə olunmuş tapşırıqlar ayrı-ayrı fənlər üzrə işçi qruplarında imtahan nəticələrinin statistik göstəriciləri əsasında mürəkkəblik dərəcəsi, relevantlıq kateqoriyaları və məzmun baxımından təhlil edilmişdir. Təhlil göstərmişdir ki,

- *tapşırıqlar müvafiq fənn kurikulumlarının təlim nəticələri, imtahanlarda mənimsənilməsi yoxlanıla və qiymətləndirilə bilən altstandartların tələbləri nəzərə alınmaqla hazırlanmış və qəbul proqramlarına tam uyğun olmuşdur;*
- *tapşırıqlarla abituriyentlərin müvafiq bilik və bacarıqlarını obyektiv yoxlamaq və qiymətləndirmək mümkün olmuşdur.*

Təhlil əsasında həmçinin zəif cavablandırılan tapşırıqlar da müəyyənləşdirilmiş, onların izahlarına dair metodik tövsiyələr hazırlanmış və test banklarının təkmilləşdirilməsi üçün təkliflər verilmişdir. Tövsiyələr "Abituriyent" jurnalının ikinci sayında da dərc olunmuşdur.

Aşağıda ayrı-ayrı fənlər üzrə hazırlanmış metodik tövsiyələr təqdim olunur.

Azərbaycan bölməsində ***Azərbaycan dili*** fənnindən III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar fənn kurikulumunun 3 (**"Oxu", "Yazı"** və **"Dil qaydaları"**) məzmun xətti üzrə 3 əsas standart və 65 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları qəbul qaydalarına görə ali təhsil müəssisələrinə tələbə qəbulunun birinci mərhələsidir. Bu mərhələdə Azərbaycan dili fənnindən **"Oxu"** və **"Yazı"** məzmun xətləri standartlarının tələbi olan bacarıqlar yetərincə yoxlanıldığından qəbul imtahanlarında daha çox **"Dil qaydaları"** məzmun xəttinə aid bacarıqlar açıq və qapalı tipli test tapşırıqları vasitəsilə yoxlanılmışdır. Mətn tapşırıqları isə digər məzmun xətlərinə aid bacarıqların yoxlanmasına yönəlmişdir.

Tapşırıqlar abituriyentlərin aşağıdakı bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub:

– *Sözlərin düzgün yazılışı və tələffüzünü bildiyini nümayiş etdirmək;*
– *Sözdə səs və hərf münasibətini, onlar arasındakı fərqli məqamları müəyyənləşdirmək;*
– *Ayrılıqda, yaxud cümlə daxilində fərqləndirilmiş sözləri leksik, qrammatik mənalarına görə izah etmək, müxtəlif sintaktik vəzifələrdə işlətmək;*
– *Sözləri tərkibinə görə təhlil etmək;*
– *Verilmiş cümlədə nitq hissələri və onlara aid leksik, qrammatik xüsusiyyətləri şərh etmək;*
– *Söz birləşməsi və cümlədə sintaktik əlaqəni müəyyənləşdirmək;*
– *Cümlədə cümlə üzvlərinə aid qrammatik xüsusiyyətləri təhliletmək;*
– *Müxtəlif sintaktik vahidlərin işləndiyi cümlələri müəyyənləşdirmək;*
– *Mürəkkəb cümlənin komponentləri, onların bağlanma vasitələri, tərəflər arasında məna əlaqələrini müəyyənləşdirmək;*
– *Qrammatik vahidlərin cümlələrdə işlənmə ardıcıllığını müəyyənləşdirmək;*
– *Cədvəl, sxem, diaqram və qrafiklər üzərində işləmək;*
– *Mətn əsasında sözlərin leksik, qrammatik, üslubi xüsusiyyətlərini, mətnin hissələri arasındakı məntiqi əlaqəni müəyyənləşdirmək və s.*

Dil qaydaları üzrə test tapşırıqları ümumtəhsil müəssisələrində qüvvədə olan tədris proqramı və dərsliklər əsasında hazırlanmış qəbul proqramına tam uyğun tərtib olunmuşdur. Tapşırıqlar aydın dildə, məntiqi cəhətdən əsaslı, düzgün olmuş, sual və cavabların əlaqələnməsində dolaşıqlığa yol verilməmişdir. Burada mübahisəli, proqram və dərslikdən kənar məsələlərə də yer verilməmişdir. Test tapşırıqlarında nəzəri biliklə təcrübi materialların əlaqələndirilməsi, müxtəlif mövzuların qarşılaşdırılması, inteqrasiyası ilə məntiqi nəticələrin əldə edilməsinə də lazımi diqqət göstərilmişdir.

İmtahan nəticələrinin statistik göstəriciləri onu deməyə əsas verir ki, abituriyentlər ana dilinin qayda-qanunlarını öyrənməyə səy göstərmişlər. Lakin bəzi nəzəri məsələləri mənimsəməkdə və onları praktik cəhətdən tətbiq etməkdə çətinlik çəkmişlər. Bu hal bəzən çətinlik səviyyəsi sadə və ya orta olan tapşırıqların cavablandırılması zamanı da özünü göstərmişdir. Ana dilinin saflaşdırılması yolunda ciddi addımların atıldığı indiki zamanda gənc nəsil ana dilini daha yaxşı mənimsəməyə, ondan qüsursuz istifadə etməyə çalışmalıdır.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

Cümlənin müxtəlif səviyyələri üzrə təhlilində abituriyentlər çətinlik çəkmişlər. Bu baxımdan abituriyentlərin qəbul imtahanının birinci cəhdində 23-cü test tapşırığına verdikləri cavablar diqqəti cəlb edir.

25 may tarixli imtahan, A variantı, 23 saylı test tapşırığı

8-ci sinif

4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.

7-ci sinif

4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.

Cümlələrə əsasən doğru fikirləri müəyyən edin.

● *Günəş qalxıb dağları, meşələri brilyant kimi şəffaf işığa qərq etdi.*
● *Sanki günəşdən qaçan süd kimi ağ duman layları sürətlə qərbə tərəf sürünürdü.*

1. Hər iki cümlədə həm şəxsə və kəmiyyətə görə dəyişə bilən, həm də dəyişə bilməyən feil işlənmişdir.
2. İkinci cümlədə qayıdış növdə olan feil keçmiş zamandadır.
3. Hər iki cümlənin qrammatik əsasını təşkil edən üzvlər söz birləşməsi ilə ifadə olunub.
4. Birinci cümlədə işlənən bütün sözlərin quruluşca növü eynidir.
5. İkinci cümlədə həm zərf, həm də zərflik işlənmişdir.
6. İkinci cümlədəki düzəltmə sözlərin hər biri fərqli nitq hissəsidir.

6-cı, 7-ci və 8-ci sinif dərslikləri əsasında tərtib edilmiş bu test tapşırığına abituriyentlərin 20,50%-i doğru cavab vermiş, 20,64%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün bir neçə parametri iki müxtəlif cümlə əsasında yoxlamaq lazımdır. Burada həm sözün quruluşunun, həm nitq hissələrinin, həm də cümlə üzvünün müəyyənləşdirilməsi tələb olunur. Digər tərəfdən, təhlil altı fikir əsasında aparılır. Bu isə daha böyük zaman və diqqət tələb edir.

Birinci bənddəki fikir düzgündür; birinci cümlədə "qalxıb" feili təsriflənməyən (feili bağlama), "qərq etdi" təsriflənən (xəbər şəkli), ikinci cümlədə "qaçan" feili təsriflənməyən (feili sifət), "sürünürdü" feili təsriflənəndir (xəbər şəkli). İkinci bənddəki fikir səhvdir, çünki "sürünürdü" feili qayıdış növdədir, lakin keçmiş zamanda deyil, indiki zamandadır. Sözdəki *-ür* indiki zaman şəkilçisi, *-dü* isə "idi" köməkçi sözünün (hissəciyinin) şəkilçiləşmiş formasıdır. Deməli, bu feil keçmiş zamanda yox, indiki zamandadır. Üçüncü bənddəki fikir səhvdir; birinci cümlədə "Günəş" mübtədası isimlə, "qərq etdi" xəbəri mürəkkəb feillə ifadə olunmuşdur. İkinci cümlədə "duman layları" mübtədası ismi birləşmə ilə, "sürünürdü" xəbəri sözlə, yəni nitq hissəsi ilə ifadə olunmuşdur. Dördüncü bənddəki fikir səhvdir, çünki buradakı sözlərin səkkizi (*Günəş qalxıb dağları, meşələri brilyant kimi şəffaf işığa)* sadə, sonuncusu *(qərq etdi)* mürəkkəbdir. Beşinci bənddəki fikir düzgündür; belə ki, ikinci cümlədə "sürətlə" tərzi-hərəkət zərfidir və tərzi-hərəkət zərfliyi funksiyasındadır. Burada yer zərfliyi də vardır: "qərbə tərəf". Altıncı bənddəki fikir düzgündür. Buradakı "sürətlə" sözü zərf olub, quruluşca düzəltmədir, "sürünürdü" sözü feil olub, quruluşca düzəltmədir.

Doğru cavab: 1, 5, 6

Abituriyentlərin çətinlik çəkdiyi məsələlərdən biri *omonim* səciyyəli əsas və köməkçi nitq hissələrinin dəqiq müəyyənləşdirilə bilməsidir. Bu zaman müxtəlif xüsusiyyətlər nəzərə alınmalıdır; belə ki, əsas nitq hissələri konkret sual tələb edir. Bu cəhətdən qəbul imtahanının birinci cəhdində 24 saylı test tapşırığı diqqət çəkir.

25 may tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

5-ci sinif

4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.

Hansı cümlələrin tərkibində qrammatik mənası müxtəlif cür düşünülə bilən söz var? (Durğu işarələri buraxılıb.)

1. Nə maraqlıdır
2. Nə yaxşı insandır
3. Ancaq sən bu suala cavab vermədin
4. Elə oturmuşdu ki narahat olmağa başladıq
5. Bizdən sonra danışar
6. Bu hadisə yaydan əvvəl baş vermişdi

Bu tapşırığa abituriyentlərin yalnız 8,87%-i doğru cavab vermiş, 9,66%-i isə cavab verməkdən imtina etmişdir.

Birinci cümlədə "nə" sözü iki cür düşünülə bilər; bir halda sual əvəzliyi olub, cavab tələb edir: – Nə maraqlıdır? – Kitab. İkinci halda qüvvətləndirici ədat kimi fikrin təsir gücünü artırmağa xidmət edir və cavab tələb eləmir. Deməli, birinci cümlədəki "nə" sözü qoyulmuş suala cavab kimi götürülməlidir. İkinci cümlədə "nə" sözü ədatdır; əvvəla, bu söz mübtəda, o cümlədən sual əvəzliyi ola bilməz, çünki xəbər funksiyasında olan insan anlayışı "nə?" sualı ilə əlaqələnə bilməz (*kim*? sual əvəzliyi düz olardı.). Deməli, ikinci nümunə tapşırığın doğru cavabı deyil. Üçüncü cümlədə "ancaq" sözü həm qüvvətləndirici ədat, həm də qarşılaşdırma bağlayıcısı kimi düşünülə bilər. Birinci halda həmin söz "yalnız" ədatı ilə, ikinci halda "amma, lakin" bağlayıcıları ilə əvəzlənə bilir. Deməli, üçüncü cümlə tapşırığın doğru cavabıdır. Dördüncü cümlədəki "elə" sözü də iki cür təhlil edilə bilər; birinci halda işarə əvəzliyi kimi həm "necə?" sualını tələb edir, həm də qəlib söz funksiyasını yerinə yetirir. Digər tərəfdən, həmin söz qüvvətləndirici ədat kimi təhlil edilə bilir və onu cümlədən çıxardıqda məzmun dəyişməz, sadəcə, təsir gücü azalar: *Oturmuşdu ki, narahat olmağa başladıq*. Deməli, dördüncü cümlə də tapşırığın şərtinə cavab verir. Beşinci cümlədəki "sonra" sözünü də iki cür təhlil etmək olar; birinci halda zaman zərfi olaraq, "Bizim haqqımızda nə zaman danışar?" sualı verilərək "sonra" zərfi (zərflik vəzifəsində) çıxış edər. İkinci halda "Nə zaman danışar?" sualına "bizdən sonra" cavabı gəlir və "sonra" sözü zaman qoşması kimi çıxış edir. Deməli, bu cümlə də qoyulan şərtə cavab kimi götürülə bilir. Nəhayət, altıncı cümlədə "əvvəl" sözü işlənmişdir ki, bu söz yerinə görə zərf və ya zaman qoşması ola bilir. Verilən cümlədə isə bu söz qoşmadır, onu zərf kimi təhlil etmək olmaz, ona görə ki buradakı "əvvəl" sözünü çıxışlıq halda olan "yay" sözündən ayırmaq, deməli, müstəqil cümlə üzvü — zərflik kimi təhlil etmək mümkün deyil. Ona görə də altıncı cümlə tapşırığın doğru cavabı ola bilməz.

Doğru cavab: 1, 3, 4, 5

Qəbul imtahanının birinci cəhdində abituriyentlərin lazımınca cavablandıra bilmədikləri test tapşırıqlarından biri cümlənin sintaktik baxımdan təhlili ilə bağlıdır. Həmin test tapşırığı belədir:

25 may tarixli imtahan, A variantı, 5 saylı test tapşırığı

5-ci sinif

4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.

8-ci sinif

4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, Şuşanın düşmən işğalından xilas edilməsi müharibənin taleyində həlledici rol oynamışdır cümləsi ilə bağlı doğru fikri müəyyən edin.

A) "Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və prosesin kapitulyasiya ilə nəticələnməsi tarixi zəfərin nümayiş etdirilməsinə səbəb oldu" cümləsinin sintaktik təhlili ilə eynidir.

B) Xüsusi isimlərin hər ikisi ismi birləşmənin asılı tərəfidir.

C) Bir qrammatik əsasdan ibarətdir.

D) Xəbəri məlum növdə olan feillə ifadə olunmuş, köməkçi sözlə (hissəciklə) işlənmişdir.

E) Altından xətt çəkilmiş söz "*qismət"* sözü ilə əvəz edilsə, leksik norma pozulmaz.

7 – 11-ci sinif dərsliklərinin materiallarına əsaslanan bu test tapşırığına abituriyentlərin 24,57%-i doğru cavab vermiş, 22,42%-i cavab verməkdən imtina etmişdir.

A bəndindəki fikir səhvdir, belə ki, sualdakı cümlədə cümlə üzvlərinin ardıcıllığı belədir: *Azərbaycanın hərbi sahədə qazandığı* – təyin, *qələbələr* – mübtəda, *Şuşanın düşmən işğalından xilas edilməsi* – həmcins mübtəda, *müharibənin taleyində* – tamamlıq, *həlledici* – təyin, *rol oynamışdır* – xəbər. Tapşırığın birinci bəndində verilmiş cümlənin sxemi belədir: *Ermənistanın öz məğlubiyyətini etiraf etməsi* (mübtəda) — *prosesin kapitulyasiya ilə nəticələnməsi* (həmcins mübtəda) — *tarixi* (təyin) — *zəfərin nümayiş etdirilməsinə* (tamamlıq) — *səbəb oldu* (xəbər). B bəndindəki fikir səhvdir; "Azərbaycan" xüsusi ismi ismi birləşmənin deyil, "Azərbaycanın hərbi sahədə qazandığı" feili birləşməsinin asılı tərəfidir, "Şuşanın" xüsusi ismi isə "Şuşanın düşmən işğalından xilas edilməsi" feili birləşməsinin asılı tərəfidir. C bəndindəki fikir düzgündür; burada bir xəbər iki həmcins mübtəda ilə əlaqələndiyindən cümlədə bir qrammatik əsas vardır. D bəndindəki fikir səhvdir; cümlənin xəbəri (rol oynamışdır) frazeoloji birləşmə ilə ifadə olunmuşdur, növ şəkilçisi yoxdur — məlum növdədir, lakin burada "idi" hissəciyi yoxdur, *-dır* şəxs şəkilçisidir. E bəndindəki fikir səhvdir; "qismət" sözü insana aiddir, "tale" sözü isə ümumiişləkdir. Bu cümlədə "tale" sözünün yerinə "qismət" sözü işlədilə bilməz.

Doğru cavab: C

Abituriyentlərin düzgün cavablandırmada çətinlik çəkdikləri mövzulardan biri sözlərin düzgün yazılışı – orfoqrafiyadır. Yazının müasir dövrümüzdə əhəmiyyətinin böyük olduğunu nəzərə alaraq, insanlarımızın, o cümlədən abituriyentlərin yazı mədəniyyətinə yiyələnməsinə diqqətin artırılması mühüm məsələdir.

6 iyul tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

5-ci sinif

4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.

Orfoqrafik cəhətdən məntiqi ardıcıllığı tamamlayan sözləri müəyyən edin.

qubar, tövşümək, reportyor, ...

1. lütüfkarlıq
2. çiskin
3. işkəncə
4. kinomatoqrafiya
5. diqqətəlayiq
6. şokolad

Bu tapşırığa abituriyentlərin yalnız 10,48%-i doğru cavab vermiş, 13,30%-i isə cavab verməkdən imtina etmişdir.

Belə tapşırıqlar bir-birindən fərqli üç formada olur: sualda verilən sözlərin hamısı düzgün yazıldığı üçün cavabda da düzgün yazılmış sözlərin müəyyənləşdirilməsi lazım gəlir. Sualda verilən sözlərin hamısı səhv yazılmışdırsa, cavabda da səhv yazılmış sözlərin müəyyənləşdirilməsi vacibdir. Nəhayət, sualdakı sözlər *düzgün, səhv, düzgün* şəklində sıralanmışdırsa, cavabda səhv yazılmış söz müəyyən edilməli, yaxud əksinə sıralanma olmalıdır. Yuxarıdakı tapşırıq əsasında düzgün yazılmış sözlər müəyyənləşdirilməlidir ki, bunlar "çiskin, "diqqətəlayiq", "şokolad" sözləridir. Birinci sözün düzgün yazılış forması "lütfkarlıq"dır. Düzəltmə olan bu sözün kökü "lütf"dür. Üçüncü söz "işgəncə" formasındadır. Dördüncü söz isə "kinematoqrafiya" kimi yazılır. Əslində, bu sözün əsasında dilimizdə olan "kino" durmalıdır, lakin əslən yunan dilindən olan bu komponentdə "o" yox, "e" yazılır. Digər dillərdə, o cümlədən fransız, rus və s. dillərdə də söz "kine" şəklindədir. Ona görə də Azərbaycan dilində bu forma qəbul edilmişdir.

Doğru cavab: 2, 5, 6

Sintaktik təhlil sintaksis bəhsinin yekunu deməkdir; bu tip tapşırıqları düzgün cavablandırmaq üçün sintaksisdə tədris edilən bütün mövzuları öyrənmək lazımdır.

6 iyul tarixli imtahan, A variantı, 26 saylı test tapşırığı

8-ci sinif

4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.

9-cu sinif

4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.

Nümunəyə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

Dəyirmanın çarxı üzərinə tökülən su aramsız şırıldayır, tumurcuqdan təzə çıxmış söyüd yarpaqları pıçıldaşırdı.

Doğrudur	***Yanlışdır***
1. Komponentləri arasında tabesizlik əlaqəsi olan mürəkkəb cümlədir. 2. Mübtədaların ifadə vasitələri fərqli, xəbərlərin ifadə vasitələri eynidir. 3. Təsriflənən feillər indiki zamandadır, təsriflənməyən feillərin hər ikisi indiki zaman anlayışı bildirir.	4. Bərabərhüquqlu cümlə üzvləri işlənmişdir. 5. Təyinlər feili sifət tərkibi ilə ifadə olunmuşdur. 6. Cümlənin ikinci komponentinin baş üzvləri arasında kəmiyyətə görə uzlaşma pozulmuşdur.

7-ci və 8-ci sinif dərslikləri materiallarına əsaslanan bu test tapşırığına abituriyentlərin 15,40%-i doğru cavab vermiş , 18,91%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın birinci bəndində iki qrammatik əsası, yəni hər birinin müvafiq mübtəda və xəbəri olan iki cümlə vardır. Birinci cümlə: *Dəyirmanın çarxı üzərinə tökülən su aramsız şırıldayır,* ikinci cümlə: *Tumurcuqdan təzə çıxmış söyüd yarpaqları pıçıldaşırdı.* Birinci cümlənin mübtədası "su" ismi, xəbəri "şırıldayır" feilidir. İkinci cümlənin mübtədası "söyüd yarpaqları" ismi birləşməsi, xəbəri "pıçıldaşırdı" feilidir. Bu cümlələr bərabərhüquqlu olduğundan onların arasında tabesizlik əlaqəsi vardır və ona görə də tabesiz mürəkkəb cümlədir. Deməli, birinci fikir düzgündür. Yuxarıdakı açıqlamadan göründüyü kimi, ikinci fikir də düzgündür; belə ki, hər iki cümlənin xəbəri feil, yəni eyni nitq hissəsi (şırıldayır, pıçıldayır), mübtədaların ifadə vasitələri fərqlidir, daha doğrusu, birinci cümlənin mübtədası isim (su), ikinci cümlənin mübtədası ismi birləşmədir ("söyüd yarpaqları"). Üçüncü fikir səhvdir; belə ki, bu mürəkkəb cümlədə dörd feil vardır: onlardan ikisi təsriflənən olub indiki zamandadır ("şırıldayır", "pıçıldayırdı"). Buradakı ikinci feildə *-ır* indiki zaman şəkilçisi, *-dı* "idi" köməkçi sözünün (hissəciyinin) şəkilçiləşmiş formasıdır. Cümlədə feilin iki təsriflənməyən forması vardır: birinci komponentdə "tökülən" sözü indiki zaman anlayışlı, ikimci komponentdə "çıxmış" sözü keçmiş zaman məzmunlu feili sifətlərdir. Dördüncü fikir səhvdir, çünki konstruksiya tabesiz mürəkkəb cümlədir; birinci komponentdə bir-biri ilə tabelilik əlaqəsində olan dörd cümlə üzvü var: 1. mübtəda — su, 2. xəbər — şırıldayır, 3. mübtədanın təyini —dəyirmanın çarxı üzərinə tökülən, 4. tərzi-hərəkət zərfliyi — aramsız. İkinci komponentdə isə bir-biri ilə tabelilik əlaqəsində olan üç cümlə üzvü var: 1. mübtəda — söyüd yarpaqları, 2. xəbər — pıçıldaşırdı, 3. mübtədanın təyini — tumurcuqdan təzə çıxmış. Deməli, komponentlərin heç birində həmcins üzv yoxdur. Beşinci fikir düzgündür; birinci komponentdə mübtədanın təyini (*Dəyirmanın çarxı üzərinə tökülən),* ikinci komponentdə də mübtədanın təyini *(tumurcuqdan təzə çıxmış)* feili sifət tərkibi, yəni əsas tərəfi feili sifətlə ifadə olunan feili birləşmədir. Altıncı fikir düzgündür; belə ki, ikinci komponentin mübtədası ismi birləşmə ilə ifadə olunmuş və cəmdədir (söyüd yarpaqları), xəbər isə təkdədir (pıçıldaşırdı). Deməli, xəbər mübtəda ilə kəmiyyətə görə uzlaşmamışdır, lakin bu, ədəbi dilin qrammatik normasının gözlənilməsi kimi qiymətləndirilir; belə ki, üçüncü şəxs cəmdə olan mübtəda cansız varlıqları bildirərsə, xəbər təkdə olmalıdır.

Doğru cavab: 1, 2, 5, 6

Yazı mədəniyyətinin mühüm tərkib hissələrindən biri durğu işarələrindən düzgün istifadə edə bilməkdir. Durğu işarələri, sadəcə, mənasız işarə deyil, fikrin dəqiq anlaşılmasında əhəmiyyətli rol oynayan vasitədir. Durğu işarələrindən düzgün istifadə edilməsi yazılı nitqin anlaşıqlı olmasında böyük rol oynayır.

6 iyul tarixli imtahan, A variantı, 22 saylı test tapşırığı

5-ci sinif

4.1.3. Cümlənin sonunda və dialoqlarda durğu işarələrindən məqsədyönlü istifadə edir.

Dialoqdan verilən nümunədə buraxılmış durğu işarələrini müəyyən edin.

Qardaş dedi kəndə hay salmışam ki Saday Quliyev gəlib onu qarşılamalıyıq.

A) 1 tire, 4 vergül B) 3 tire, 4 vergül C) 2 tire, 4 vergül

D) 3 tire, 3 vergül E) 2 tire, 2 vergül

Tapşırığa abituriyentlərin 22,70%-i doğru cavab vermiş, 8,37%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün cümlənin dialoqdan götürüldüyünü bilmək lazımdır. Bu isə o deməkdir ki, cümlənin əvvəlində tire işarəsi olmalıdır. Verilən nümunə vasitəsiz nitqə aiddir və – V, – m, – v. sxemində qurulmuşdur. Bu konstruksiyada "*dedi*" müəllif sözü, digər hissələr isə vasitəsiz nitqin özüdür: *Qardaş, kəndə hay salmışam ki, Saday Quliyev gəlib, onu qarşılamalıyıq.* Bu isə göstərir ki, vasitəsiz nitq müəllif sözü ilə iki hissəyə parçalanmışdır. Vasitəsiz nitqin arasına girmiş müəllif sözündən əvvəl və sonra vergül və tire işarəsi qoyulmalıdır. Bununla yanaşı, vasitəsiz nitq tabeli mürəkkəb cümlə olduğundan "ki" bağlayıcısından sonra vergül qoyulur. Tabeli mürəkkəb cümlə olan vasitəsiz nitqin budaq cümləsi də tabesiz mürəkkəb cümlədən ibarət olduğu üçün onun da komponentləri arasında vergül işarəsi qoyulur. Ümumi mənzərə belədir: *– Qardaş, – dedi, – kəndə hay salmışam ki, Saday Quliyev gəlib, onu qarşılamalıyıq.*

Doğru cavab: B

İmtahanlarda mətn əsasında üç sualın cavablandırılması da tələb olunur. Burada abituriyentlərin daha çox məntiqi düşüncəsi, faktları əlaqələndirmə bacarığı və bunları dil materialı ilə ifadə edə bilmə imkanları yoxlanılır. Təhlillər göstərir ki, əksərən abituriyentlər lazımi nəticəyə nail olurlar, lakin bəzi məqamlarda zəif göstərici ilə də qarşılaşmaq olur.

6 iyul tarixli imtahan, A variantı, mətnə aid 28 – 30 saylı tapşırıqlar

"Voyniç" əlyazması

Elmə məlum olmayan əlifba ilə yazılmış 240 səhifədən ibarət "Voyniç" əlyazmasının orijinalının 270 səhifədən ibarət olduğu güman edilir. Alimlərin fikrincə, bu sirli kitab anatomiya, təbabət və astrologiyaya aiddir.

Bu müəmma dolu əlyazma 1912-ci ildə Voyniç adlı tədqiqatçı tərəfindən aşkar edilmiş və Amerikaya gətirilmişdir. Kitabın hansı dildə yazıldığı elmə məlum deyil, içində qəribə və maraqlı bitki rəsmləri, ulduz xəritələri və insan şəkilləri vardır.

İllərdir dilçilər, elm adamları və bir çox həvəskarlar bu əlyazmanı araşdırırlar. Karbon testi üsulu ilə əlyazmanın XV əsrə aid olduğu ortaya çıxmışdır. Çox güman ki, kitab intibah dövründə İtaliyada istifadə olunan mürəkkəb vasitəsilə yazılmış, bir çox tibbi və farmakoloji məlumatları özündə ehtiva etmişdir.

Kitabla bağlı başqa fərziyyə də mövcuddur. KİV-in qənaətincə, ən məşhur mülahizə onun yadplanetlilər tərəfindən yazılmasıdır. Bir qrup alim isə bu fikri inkar edərək iddia edir ki, əlyazmada tez-tez rast gəlinən, təkrarlanan sözlər və cızma-qaralar, əslində, sonsuzluq anlamını ifadə edir. Yəni əgər bu yazının sirri tapılsa, ölümsüzlük iksirini hazırlamaq mümkün olacaqdır.

Beləliklə, kitabın şifri açılmadığına görə o hələ də öz sirlərini qorumaqdadır.

28. Mətnə əsasən cədvəli doldurun.

Fakt	***Ehtimal***
1.	1.
2.	2.

Mümkün olan doğru cavablar:

Fakt	*Ehtimal*
1912-ci ildə Voyniç adlı tədqiqatçı bir əlyazma aşkar etmiş, sonralar onu Amerikaya gətirmişdir; *Əlyazmanın XV əsrə aid olduğu məlumdur.*	*İntibah dövründə İtaliyada istifadə olunan mürəkkəb vasitəsilə yazılmışdır;* *Yadplanetlilər tərəfindən yazılmışdır;* *Əlyazmanın sirri tapılsa, ölümsüzlük iksiri hazırlana biləcək.*

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Cədvəlin hər iki xanası doğru yazılır, yanlış fikir ***yazılmır***.
$\frac{1}{2}$	B. Ehtimal olunan doğru cavablara uyğun 3 doğru fikir yazılır, yanlış fikir ***yazılmır***; C. Ehtimal olunan doğru cavablara uyğun 3 doğru fikir yazılsa da, digər fikir ***yanlış*** yazılır; D. Cədvəlin fakt xanasında 2 doğru fikir yazılır, ehtimal xanası ***yanlış*** yazılır və ya ***yazılmır***; E. Cədvəlin ehtimal xanasında 2 doğru fikir yazılır, fakt xanası ***yanlış*** yazılır və ya ***yazılmır***; F. Cədvəlin fakt xanasında 2 doğru fikir, ehtimal xanasında 1 doğru fikir yazılır, digər ehtimal ***yazılmır*** və ya ***yanlış*** yazılır; G. Cədvəlin ehtimal xanasında 2 doğru fikir, fakt xanasında 1 doğru fikir yazılır, digər fakt ***yazılmır*** və ya ***yanlış*** yazılır; H. Ehtimal olunan doğru cavablara uyğun 1 doğru fikir cədvəlin fakt hissəsinə, 1 doğru fikir cədvəlin ehtimal hissəsinə yazılır, yanlış fikir ***yazılmır*** və ya 1 və ya 2 ***yanlış*** fikir yazılır.
0	I. Yalnız 1 doğru fikir yazılır, digər fikirlər ***yanlış*** yazılır və ya ***yazılmır***; J. Cədvəlin hər iki xanası ***yanlış*** yazılır; K. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə 6-cı sinif səviyyəsində *2.2.1. (Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədilə mühüm məqamları vurğulayır)* altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırığın tələbinə əsasən mətndəki faktlar və ehtimallar seçilib cədvəlin müvafiq sütununda yazılmalıdır. Fakt həqiqətən olmuş hadisə, əhvalat, qəziyyə deməkdir. Ehtimal isə hadisənin baş verməsi deyil, ola bilməsi, baş verə bilməsi, mümkünlüyü deməkdir. Mətndə "Voyniç" əlifbası ilə bağlı həm baş verdiyi şübhə doğurmayan hadisələr (faktlar), həm də baş verməsi güman, təxmin edilən hadisələr (ehtimallar) verilib. Bunları düzgün müəyyən edib yazmaq həm anlayışların mahiyyətinə bələd olmağı, həm də məntiqi bacarıqlara malik olmağı şərtləndirir.

Abituriyentlərin 38,00%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 24,81%-i $\frac{2}{3}$ balla, 1,60%-i $\frac{1}{3}$ balla qiymətləndirilmiş, 3,76%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

29. Tünd-qara hərflərlə verilmiş abzaslar əsasında (eyni abzas daxilində və ya abzaslararası) bir-biri ilə qarşılıq təşkil edən sözləri müəyyən edib yazın.

1. ——————— ↔ ———————
2. ——————— ↔ ———————
3. ——————— ↔ ———————

Mümkün doğru cavablar: 1. Rəsm ↔ şəkil
2. Mülahizə ↔ fikir
3. Tapmaq ↔ aşkar etmək

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Bir-biri ilə qarşılıq təşkil edən hər 3 cütlük doğru müəyyən edilib yazılır, yanlış fikir ***yazılmır***;
$\frac{2}{3}$	B. Bir-biri ilə qarşılıq təşkil edən hər 3 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, cütlüklərdən hər hansı biri üçün ***1 yanlış*** fikir də yazılır; C. Bir-biri ilə qarşılıq təşkil edən 2 cütlük doğru yazılır, yanlış fikir ***yazılmır***; D. Bir-biri ilə qarşılıq təşkil edən 2 cütlük doğru yazılsa da, digər cütlük ***yanlış*** yazılır.

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$	E. Bir-biri ilə qarşılıq təşkil edən hər 3 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, cütlüklərdən hər hansı ikisi üçün ***1 yanlış*** fikir də yazılır; F. Bir-biri ilə qarşılıq təşkil edən 2 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, cütlüklərdən hər hansı biri üçün ***1 yanlış*** fikir də yazılır, digər cütlük ***yazılmır***; G. Bir-biri ilə qarşılıq təşkil edən 2 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, cütlüklərdən hər hansı biri üçün ***2 və ya daha çox yanlış*** fikir yazılır, digər cütlük ***yazılmır***; H. Bir-biri ilə qarşılıq təşkil edən 2 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, cütlüklərdən hər hansı biri üçün ***1 yanlış*** fikir yazılır, digər cütlük isə ***yanlış*** yazılır; I. Bir-biri ilə qarşılıq təşkil edən 1 cütlük doğru müəyyən edilib yazılır, qarşılıq təşkil edən 1 cütlük ***yanlış*** yazılmaqla yanaşı, digəri ***yazılmır***; J. Bir-biri ilə qarşılıq təşkil edən yalnız 1 cütlük doğru müəyyən edilib yazılır, digər cütlüklər ***yazılmır***; K. Bir-biri ilə qarşılıq təşkil edən 1 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, digər 2 cütlük ***yanlış*** yazılır.
0	L. Bir-biri ilə qarşılıq təşkil edən 2 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, doğru yazılmış cütlüklərin hər birinə ***1 və ya daha çox yanlış*** fikir yazılır, digər cütlük ***yazılmır***; M. Bir-biri ilə qarşılıq təşkil edən 1 cütlük doğru müəyyən edilib yazılmaqla yanaşı, həmin cütlüyə ***1 və ya daha çox yanlış*** fikir yazılır, digər cütlüklər ***yazılmır*** və ya ***yanlış*** yazılır; N. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə 8-ci sinif səviyyəsində *2.1.1. (Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir)* altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırığın tələbinə əsasən iki abzasda bir-birinin qarşılığı olan sözlər seçilib yazılmalıdır. Bu abzaslarda bir-birinin qarşılığı olan bir çox sözlər var. Belə sözlərin müəyyən olunması dilin leksik tərkibinə dərindən bələd olmağı tələb edir.

Abituriyentlərin 34,27%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş, onların işi 1 balla, 24,86%-i $\frac{2}{3}$ balla, 16,37%-i $\frac{1}{2}$ balla, 13,03%-i $\frac{1}{3}$ balla qiymətləndirilmiş, 11,47%-i isə cavab verməkdən imtina etmişdir.

30. Mətnin məzmununu və üslubunu nəzərə almaqla cümlələrlə bağlı uyğun bəndləri qeyd edin (✓) və seçimlərinizi əsaslandırın.

1. *"Voyniç" əlyazmasını araşdıran alimlərin kitabla bağlı yekdil fikirdə olmadığını mətbuat da xəbər verir.*	
Məzmun cəhətdən uyğundur. ☐ Məzmun cəhətdən uyğun deyil. ☐	Üslubi cəhətdən uyğundur. ☐ Üslubi cəhətdən uyğun deyil. ☐
Əsaslandırma	***Əsaslandırma***
2. *Əlyazma dövrümüzə tam və bütöv şəkildə gəlib çatsa da, onun sirri hələ də açılmamış qalır.*	
Məzmun cəhətdən uyğundur. ☐ Məzmun cəhətdən uyğun deyil. ☐	Üslubi cəhətdən uyğundur. ☐ Üslubi cəhətdən uyğun deyil. ☐
Əsaslandırma	***Əsaslandırma***

Mümkün olan doğru cavalar:

1. "Voyniç" əlyazmasını araşdıran alimlərin kitabla bağlı yekdil fikirdə olmadığını mətbuat da xəbər verir.	
Məzmun cəhətdən uyğundur. ✓	Üslubi cəhətdən uyğundur. ✓
Əsaslandırma	***Əsaslandırma***
Alimlərin bəziləri kitabın yadplanetlilər tərəfindən yazıldığını güman etdiyi halda, digər qrupu isə bu fikri təkzib edir və iddia edir ki, kitabda ölümsüzlüyün sirri yazılıb. Yəni alimlər bu mövzuda eyni fikirdə deyillər.	*Həm mətn, həm də verilmiş nümunə publisistik üslubdadır;* *Həm mətn, həm də verilmiş nümunə aydın, anlaşıqlı nitq formasıdır;* *Həm mətn, həm verilmiş nümunə xalq dilinə yaxındır.*

2. Əlyazma dövrümüzə tam və bütöv şəkildə gəlib çatsa da, onun sirri hələ də açılmamış qalır.	
Məzmun cəhətdən uyğun deyil. ✓	Üslubi cəhətdən uyğundur. ✓
Əsaslandırma	***Əsaslandırma***
Mətndən məlum olur ki, kitab dövrümüzə tam şəkildə gəlib çatmamışdır. Belə ki, orijinalının 270 səhifədən ibarət olduğu güman edildiyi halda, günümüzə sadəcə 240 səhifəsi gəlib çatmışdır.	*Həm mətn, həm də verilmiş nümunə publisistik üslubdadır;* *Həm mətn, həm də verilmiş nümunə aydın, anlaşıqlı nitq formasıdır;* *Həm mətn, həm verilmiş nümunə xalq dilinə yaxındır.*

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Hər iki cümlə ilə bağlı mümkün olan doğru cavablara uyğun xana seçilir və əsaslandırılır, ***yanlış*** fikir ***yazılmır***;
$\frac{2}{3}$	B. 3 xana doğru seçilir və doğru əsaslandırılır, 1 xana ***yanlış*** seçilir və ***yanlış*** əsaslandırılır; C. 3 xana doğru seçilir və doğru əsaslandırılır, 1 xana doğru seçilir və ***yanlış*** əsaslandırılır; D. 3 xana doğru seçilir və doğru əsaslandırılır, yanlış fikir ***yazılmır***; E. Cümlələrdən biri ilə bağlı 2 xana doğru seçilir və doğru əsaslandırılır, digər cümlə ilə bağlı heç bir xana ***seçilmir*** (və ya digər xanalar ***yanlış*** seçilir) və ***əsaslandırılmır***; F. Hər iki cümləyə aid 1 doğru xana seçilir və doğru əsaslandırılır, ***yanlış*** fikir ***yazılmır*** və ya və ya digər xanalar ***yanlış*** seçilir; G. Cümlələrdən biri ilə bağlı 2 xana doğru seçilir və doğru əsaslandırılır, digər cümlə ilə bağlı 2 xana ***yanlış*** seçilir və ***yanlış*** əsaslandırılır; H. Hər iki cümləyə aid 1 doğru xana seçilir və doğru əsaslandırılır, digər xanalardan 1-i ***yanlış*** əsaslandırılır, 1-i isə ***yazılmır***.
$\frac{1}{3}$	I. Hər iki cümləyə aid 1 doğru xana seçilir və doğru əsaslandırılır, 1 və ya 2 ***yanlış*** xana seçilir və ***yanlış*** əsaslandırılır; J. Yalnız 1 xana doğru seçilir və doğru əsaslandırılır, ***yanlış*** fikir ***yazılmır*** və ya 1 ***yanlış*** xana da işarələnir; K. 1 xana doğru seçilir və doğru əsaslandırılır, 1 xana ***yanlış*** seçilir və ***yanlış*** əsaslandırılır, digərləri ***yazılmır***; L. Yalnız xanalar (4 xana) doğru seçilir, heç bir əsaslandırma ***yazılmır***.
0	M. Yalnız 1 xana doğru seçilir və doğru əsaslandırılır, digər xanalar ***yanlış*** seçilir və ***yanlış*** əsaslandırılır; N. Yalnız 1 xana doğru seçilir və doğru əsaslandırılır, 2 xana ***yanlış*** seçilir, ***yanlış*** əsaslandırılır, digər xana ***seçilmir*** və ***əsaslandırılmır***; O. Yalnız 1 xana doğru seçilir və doğru əsaslandırılır, digər xanalar doğru seçilir ***yanlış*** əsaslandırılır; P. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə 10-cu sinif səviyyəsində *2.1.2. (Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir)* və 11-ci sinif səviyyəsində *2.2.3. (Mətni məzmununa əlavələr etməklə genişləndirir)* altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırığın tələbinə əsasən verilmiş cümlələr həm üslubi, həm də məzmun cəhətdən mətnə uyğunlaşdırılmalıdır. Cümlələrin hər ikisi mətnin üslubuna uyğun olsa da, ikinci cümlə məzmun cəhətdən mətnə uyğun deyil. Bu tapşırığı cavablandırmaq üçün həm üslubiyyat haqqında bilik və səriştələrə, həm də mətnin məzmunu ilə bağlı məntiqi bacarıqlara malik olmaq lazımdır.

Abituriyentlərin 5,57%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş, onların işi 1 balla, 29,67%-i $\frac{2}{3}$ balla, 15,07%-i $\frac{1}{2}$ balla, 39,66%-i $\frac{1}{3}$ balla qiymətləndirilmiş, 10,03%-i isə cavab verməkdən imtina etmişdir.

Təhlillər göstərir ki, abituriyentlərin çoxu müasir elmi bilikləri və bacarıqları mənimsəsələr də, müəyyən mövzuların cavablandırılmasında hələ də çətinlik çəkirlər. Bu baxımdan müvafiq fənn üzrə tədrisin səviyyəsini yüksəltməyə böyük ehtiyac vardır. Dilimizin lüğət tərkibinə bələd olmaq üçün Azərbaycan dilində olan bədii, elmi-kütləvi əsərlər, publisistik məqalələr oxumaq, milli, klassik musiqilərə qulaq asmaq, kinofilmlərə, tamaşalara baxmaq, elmi-kütləvi, sənədli filmləri izləmək vacibdir.

Tədris digər dillərdə aparılan təhsil müəssisələrinin şagirdləri üçün ***Azərbaycan dili (dövlət dili)*** fənnindən imtahanlarda istifadə edilmiş test tapşırıqları fənn kurikulumuna görə 3 (**"Dinləyib-anlama"**, **"Oxu"** və **"Yazı"**) məzmun xətti üzrə 9-cu sinifdə 3 əsas, 29 altstandartın, 11-ci sinifdə isə 3 əsas, 38 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib. Qeyd etmək lazımdır ki, ümumi (9 illik) və tam orta (11 illik) təhsil səviyyələrində buraxılış imtahanı verən şagirdlər dövlət dilindən də imtahan veriblər.

9-cu və 11-ci sinif təhsil bazasından buraxılış imtahanlarında şagirdlərin aşağıdakı bilik və bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulub:

- Dinlədiyi söz, ifadə, cümlə və mətnin mənasını anladığını nümayiş etdirmək;
- Dinlədiyi fikirlərlə bağlı mühakimələr yürütmək;
- Dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırmaq;
- Oxuduğu mətndə sözlərin mənasını başa düşüb izah etmək;
- Mətndəki söz və ifadələrin kontekstə uyğun mənalarını izah etmək;
- Azərbaycan dilində olan mətnlər üzərində işləmək, onların məzmunu haqqında mülahizələrini bildirmək;
- Yazılı nitqində orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq etmək;
- Öz fikirlərini sərbəst, məntiqli ifadə etmək;
- Fikirlərini ümumiləşdirmək, məntiqi nəticə çıxarmaq;
- Mətni üslubi-struktur xüsusiyyətlərinə görə təhliletmək;
- Üslubi xüsusiyyətləri nəzərə almaqla mətni təkmilləşdirmək.

İmtahanlarda dil qaydaları ilə bağlı məntiqi təfəkkürə əsaslanan, praktiki əhəmiyyətli test tapşırıqları ilə yanaşı, dinləyib-anlamanı yoxlayan dördtapşırıqlı bir mətndən və oxuyub-anlamanı, dilin praktiki tətbiqini yoxlayan bədii və publisistik üslublarda olan səkkiztapşırıqlı iki mətndən istifadə olunub. Bu tapşırıqlarla mətndəki əsas fikri müəyyən etmək, faktları tutuşdurmaqla məntiqi nəticə çıxarmaq, fikri ümumiləşdirmək, mətndə verilən bir neçə məlumatdan yeni informasiya əldə etmək və s. kimi bacarıqlar yoxlanılıb.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında test tapşırıqlarının hər biri məzmun, qabiliyyət göstəricisi və mürəkkəblik dərəcəsi baxımından təhlil edilib. Təhlil göstərib ki, test tapşırıqlarının məzmunu şagirdlərin nəzəri materialı necə mənimsədiyini, söz ehtiyatını, dinləyib-anlama və oxuyub-anlama bacarıqlarını üzə çıxarmağa imkan verib. O da məlum olub ki, şagirdlərin fənn üzrə hazırlıq səviyyəsi ilbəil yüksəlib. Lakin yenə də şagirdlərin müəyyən hissəsi bəzi test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkiblər.

Test tapşırıqlarının təhlilinə əsasən onu da demək olar ki, ümumtəhsil məktəblərində mətnlərin məzmununun mənimsənilməsi, mətnin tərkib hissələrinin müəyyən edilməsi işi ilə bağlı hələ də bir çox problemlər mövcuddur.

Aşağıda şagirdlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

4 may tarixli imtahan, IX sinif, A variantı, 14 saylı test tapşırığı

6-cı sinif

4.1.3. Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

Əsas nitq hissəsinə görə ardıcıllığı tamamlayın.

1. mənlik
2. burulğan
3. qazanc
4. vətənpərvərlik
5. ...

A) zarafatcıl

B) insanpərvər

C) gülünc

D) qaçağan

E) bolluq

Morfologiya ilə bağlı bu test tapşırığına şagirdlərin 30,86%-i doğru cavab vermiş, 1,33%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün, ilk növbədə, əsas nitq hissələrinin xüsusiyyətlərini, qəbul etdikləri leksik şəkilçiləri bilmək, sözün başlanğıc formasına görə nitq hissələrini bir-birindən fərqləndirməyi bacarmaq lazımdır.

A bəndindəki "*zarafatcıl"* sözünün kökü "*zarafat"* ismidir, *-cıl* şəkilçisi bu ismi *nə cür? necə?* sualına cavab verən sifətə çevirib, deməli, başlanğıc formasına görə bu söz düzəltmə sifətdir.

B bəndindəki "*insanpərvər"* sözünün kökü "*insan"* isimdir, *-pərvər* leksik şəkilçisi bu ismi *necə? nə cür? hansı?* sualına cavab verən düzəltmə sifətə çevirib.

E bəndindəki "*bolluq"* sözü *nə?* sualına cavab verən mücərrəd mənalı düzəltmə isimdir. Kökü "*bol"* sifəti olan bu sözü *-luq* şəkilçisi düzəltmə ismə çevirib. Deməli, "*bolluq"* sözü başlanğıc formasına görə mücərrəd mənalı düzəltmə isimdir.

C bəndindəki "*gülünc"*, D bəndindəki "*qaçağan"* sözləri də feildən düzələn sifətlərdir, *necə? nə cür? hansı?* suallarına cavab verir.

Beləliklə:

zarafatcıl – sifət

insanpərvər – sifət

gülünc – sifət

qaçağan – sifət

bolluq – isim

Test tapşırığında məntiqə əsaslanaraq, əsas nitq hissələrinə görə, nöqtələrin yerinə uyğun sözü müəyyən etmək tələb olunur. Verilmiş sözlərin ardıcıllığı belədir:

mənlik – əvəzlikdən düzəlmiş isim

burulğan – feildən düzəlmiş isim

qazanc – feildən düzəlmiş isim

vətənpərvərlik – sifətdən düzəlmiş isim

Göründüyü kimi, sıradakı sözlərin hamısı düzəltmə isimdir. Buna görə də E bəndindəki *bolluq* sözü seçilməlidir.

Doğru cavab: E

4 may tarixli imtahan, IX sinif, A variantı, mətnə aid 25 saylı tapşırıq

8-ci sinif

3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.

Şəki xan sarayı

Şəki xan sarayı XVIII əsrə aid nadir memarlıq abidəsidir. Şəhərin ən yüksək hissəsində yerləşən sarayı Hüseyn xan tikdirmişdir. Sarayı dörd bir tərəfdən qala divarları əhatə edir. Bura uzun müddət xanların yay **iqamətgahı** olmuşdur. Sarayın altı otağı, dörd dəhlizi və iki güzgülü eyvanı var. Binanın inşasında çay daşlarından və çiy kərpicdən istifadə olunmuşdur. Sarayın birinci mərtəbəsi qonaqların qəbulu üçün ayrılmışdır. İkinci mərtəbədə isə xan və onun ailə üzvləri qalırmışlar.

Saraydakı otaqların hər biri məzmunca bir-birindən fərqlənən rəsmlərlə bəzədilmişdir. Xanın otağında döyüş səhnələrini əks etdirən rəsmlər yer alır. İstirahət otağındakı rəsmlər isə, əsasən, ov, şikar məzmunludur. Qadınlara məxsus otaqların divarları gül-çiçəklə, bülbüllərlə, əfsanəvi quş və heyvan şəkilləri ilə bəzədilmişdir. Maraqlıdır ki, sarayın yalnız divarları deyil, tavanı da rəngbərəng naxışlarla örtülüdür. Sarayı bəzəyən rəsmlər müxtəlif rəssamlar tərəfindən çəkilmişdir. Onların adları sarayın bir neçə yerində divarlara həkk olunmuşdur.

Sarayın pəncərə və qapıları "şəbəkə texnikası" adlanan xüsusi üsulla hazırlanıb. Dünyada **analoqu** olmayan şəbəkələr rəngli şüşə və ağac parçalarının birləşdirilməsi ilə qurulmuşdur. Maraqlıdır ki, bu şəbəkələrin hazırlanmasında, ümumiyyətlə, binanın tikintisində yapışqan və mismardan qətiyyən istifadə edilməmişdir.

Şəki xan sarayı orijinal memarlıq üslubu ilə görənləri heyrətləndirir. Şəkidə 1957-ci ildə qonaq olan türk şairi Nazim Hikmət sarayı gəzib göründən sonra demişdir: "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi".

Azərbaycan memarlığının incisi hesab olunan saray 2019-cu ildə Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Mətnin məzmunundan belə nəticəyə gəlmək olar.

A) Şəki xanları qış fəslində bu sarayda qalırdılar.

B) 300 il əvvəl mismar və yapışqan hələ icad edilməmişdir.

C) Saraydakı divar rəsmlərinin müəllifləri məlumdur.

D) Türk şairi Nazim Hikmət bu saray haqqında şeir yazmışdır.

E) Sarayın memarı Hüseyn xan olub.

Bu test tapşırığına şagirdlərin 36,96%-i doğru cavab vermiş, 0,92%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün mətnin məzmunu əsasında gəlinən nəticəni müəyyən etmək tələb edilir. Mətni oxuyarkən birbaşa verilməyən, ancaq mətndəki məzmun əsasında məlum olan fikirlər mətndən çıxan nəticələrdir. Məlumdur ki, mətndən çıxan əsas nəticə ilə mətndən çıxan hər hansı bir nəticə fərqli anlayışlardır. Mətndən çıxan əsas nəticə mətnin müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikirdir. Mətndən çıxan nəticələr dedikdə isə mətndən çıxan yardımçı fikirlər nəzərdə tutulur.

Test tapşırığının A bəndində yazılıb: *Şəki xanları qış fəslində bu sarayda qalırdılar.* Mətndə isə göstərilir ki, bura uzun müddət xanların yay iqamətgahı olub. Buna görə də bu bənddəki fikir səhvdir.

B bəndində göstərilib: *300 il əvvəl mismar və yapışqan icad edilməmişdir.* Mətnin məzmunundan aydın olur ki, binanın tikintisində, şəbəkələrin hazırlanmasında o zamanın mahir ustaları xüsusi texnikadan, üsullardan istifadə ediblər. Binanın tikintisində yapışqan və mismardan istifadə edilməyib. Lakin bu fakt həmin dövrdə, yəni 300 il əvvəl mismar və yapışqanın icad edilmədiyi nəticəsinə gəlməyə əsas vermir. Bu yalnız ehtimal olaraq düşünülə bilər, qəti bir nəticə kimi ortaya çıxa bilməz. Deməli, B bəndindəki fikir də mətnə uyğun deyil.

D bəndində yazılıb: *Türk şairi Nazim Hikmət bu saray haqqında şeir yazıb.* Mətndə isə yazılıb ki, türk şairi Nazim Hikmət deyib: "Əgər" Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi". Bu fikir onun saray haqqında hər hansı şeir yazması haqqında qənaətə gəlməyə əsas vermir. Deməli, D bəndindəki fikir də mətnə uyğun deyil.

E bəndində yazılıb: *Sarayın memarı Hüseyn xan olub.* Tarixdən və mətnin məzmunundan aydındır ki, Hüseyn xan XVIII əsr Şəki xanı olub və o bu sarayı tikdirib. Sarayı tikdirənlə tikən eyni deyil. Deməli, Hüseyn xan sarayın memarı, yəni onu tikən hesab edilə bilməz.

C bəndində yazılıb: *Saraydakı rəsmlərin müəllifi bəllidir*. Mətndə yazılıb: *Sarayı bəzəyən rəsmlər müxtəlif rəssamlar tərəfindən çəkilmişdir. Onların adları sarayın bir neçə yerində divarlara həkk olunmuşdur*. Deməli, bu fikirlərə əsasən rəsmlərin müəlliflərinin bəlli olduğu qənaətinə gəlmək olar.

Doğru cavab: C

4 may tarixli imtahan, IX sinif, A variantı, 29 saylı mətn tapşırığı

8-ci sinif

3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.

Mətndə hansı suala cavab ***yoxdur***?

A) Sarayın divarlarında nə təsvir olunmuşdur?

B) Binanın tikintisində hansı materialdan istifadə olunmuşdur?

C) Sarayın memarı kim olmuşdur?

D) Saray neçə mərtəbədən ibarətdir?

E) Abidə hansı dövrə aiddir?

Bu tapşırığa şagirdlərin 34,98%-i doğru cavab vermiş, 0,81%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün mətndə verilmiş fikirlər əsasında tapşırıqdakı sualların cavabını müəyyən etmək lazımdır.

A bəndində verilir: *Sarayın divarlarında nə təsvir olunmuşdur?* Mətndə yazılanlara görə, xanın otağında döyüş səhnələri, istirahət otağında ov, şikar, qadınlara məxsus otaqların divarında gül-çiçək, əfsanəvi quş və heyvan şəkilləri çəkilib.

B bəndində verilir: *Binanın tikintisində hansı materialdan istifadə olunmuşdur?* Mətnə görə, binanın inşasında çay daşlarından və çiy kərpicdən istifadə edilib.

D bəndində soruşulur: *Saray neçə mərtəbədən ibarətdir?* Mətndə belə bir fikir var: *Sarayın birinci mərtəbəsi qonaqların qəbulu üçün ayrılmışdır. İkinci mərtəbədə isə xan və onun ailə üzvləri qalarmışlar.*

E bəndində soruşulur: *Abidə hansı dövrə aiddir?* Mətnin birinci cümləsi belədir: *Şəki xan sarayı XVIII əsrə aid memarlıq abidəsidir.* Deməli, yalnız C bəndindəki sualın cavabı mətndə yoxdur.

C bəndindəki sual belədir: *Sarayın memarı kim olmuşdur?* Mətndə bu sualın cavabı yoxdur.

Doğru cavab: C

4 may tarixli imtahan, XI sinif, A variantı, 9 saylı test tapşırığı

5-ci sinif

4.1.3. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir.

Hansı sözdə nöqtələrin yerinə *"ə"* hərfi yazılmalıdır?

A) təv...zökar B) ş...hzadə C) xəc...lət

D) həş...rat E) fəd...kar

Fonetika bölməsinə aid faktoloji material əsasında tərtib olunmuş bu test tapşırığına şagirdlərin yalnız 21,09 %-i doğru cavab vermiş, 0,46%-i cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün, ilk növbədə, Azərbaycan dilinin orfoqrafiya normalarına bələd olmaq lazımdır.

A bəndində "*təv...zökar"*, C bəndində "*xəc...lət"* sözlərində nöqtələrin yerinə "a " hərfi yazılmalıdır. B bəndində "*ş...hzadə"*, E bəndində "*fəd...kar"* sözlərinin düzgün yazılışının müəyyən edilməsi üçün orfoqrafik norma ilə yanaşı, sözün kökünü şəkilçidən düzgün ayıra bilmək də kömək edər. "*Şahzadə"* sözünün kökünün "*şah"*, "*fədakar"* sözünün kökünün "*fəda"*, "*təvazökar"* sözünün kökünün "*təvazö"* olduğunu və nöqtələrin yerinə "ə" hərfinin yox, "a" hərfinin uyğun gəldiyini aydın görmək olar.

Doğru cavab: D

4 may tarixli imtahan, XI sinif, A variantı, 10 saylı test tapşırığı

9-cu sinif

3.1.2. Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur.

Sadə cümləni müəyyən edin.

A) Futbol oynamağa getsək, səni də çağırarıq.

B) Gün çıxmışdı, hava isə hələ də soyuq idi.

C) Onun atası həkim idi, anası isə mühəndis olub.

D) Uzaqdan tanıdım: gələn Polad idi.

E) Nənəm hər il səməni cücərdir, hamımıza pay verir.

Faktoloji material əsasında tərtib olunmuş bu tapşırığa şagirdlərin yalnız 39,57%-i doğru cavab vermiş, 1,31%-i cavab verməkdən imtina etmişdir.

Bu tapşırığın yerinə yetirilməsi üçün ümumiləşdirmə və məntiqi nəticəyə əsaslanmaq daha vacibdir.

Tapşırıqdakı cümlələrin hamısı zahirən bir-birinə oxşayır və bu oxşarlıq, əsasən, çətinlik törədir. Bu test tapşırığının düzgün cavabını müəyyən etmək üçün sadə cümlə, tabeli mürəkkəb cümlə, tabesiz mürəkkəb cümlə ilə bağlı biliklər yada salınmalı və düzgün cavab tapılmalıdır. Əvvəla, məlumdur ki:

1. Sadə cümlənin bir qrammatik əsası olur. (Mübtəda və xəbər qrammatik əsas hesab edilir.)
2. Mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin birləşməsindən əmələ gəlir, deməli, iki və daha çox qrammatik əsası olur.
3. Tabesiz mürəkkəb cümlələr bərabərhüquqlu sadə cümlələrin birləşməsindən yaranır.
4. Tabeli mürəkkəb cümlələrin tərkibindəki sadə cümlələrin biri baş (əsas), digəri budaq (asılı) cümlə olur. Budaq cümlə baş cümlədən asılı olur.
5. Sadə cümlələri bağlayan vasitələr də fərqlidir.

Tapşırıqda verilmiş cümlələrə diqqət yetirək.

A bəndindəki *Futbol oynamağa getsək, səni də çağırarıq* cümləsində budaq cümlə baş cümləyə "sa" şərt şəkilçisi ilə bağlanıb, tabeli mürəkkəb cümlədir. Əvvəl asılı (budaq), sonra əsas (baş) cümlə işlənib:



B bəndindəki *Gün çıxmışdı, hava isə hələ də soyuq idi* cümləsi iki müstəqil, bərabərhüquqlu cümlədən ibarətdir, tabesiz mürəkkəb cümlədir:



C bəndindəki *Onun atası həkim idi, anası isə mühəndis olub* cümləsi də iki bərabərhüquqlu, müstəqil cümlədən ibarətdir, deməli, tabesiz mürəkkəb cümlədir.

D bəndindəki *Uzaqdan tanıdım: gələn Polad idi* nümunəsində ikinci cümlə birinci cümləni aydınlaşdırır. Hər iki cümlənin qrammatik əsası var. Birinci cümlədə mübtəda buraxılsa da, xəbərin köməyi ilə həmin mübtədanı bərpa etmək mümkündür. (Mən uzaqdan tanıdım.) (Gələn Polad idi.) Deməli, bu cümlə də tabesiz mürəkkəb cümlədir.

E bəndindəki *Nənəm hər il səməni cücərdir, hamımıza pay verir* – həmcins xəbərli sadə cümlədir, yəni iki xəbər (cücərdir, pay verir) bir mübtədaya (nənəm) aiddir. Bu bənd test tapşırığının doğru cavabıdır.

Doğru cavab: E

Tapşırıqların yerinə yetirilməsi üçün dərsliklərdəki materialları öyrənməklə yanaşı, mənimsənilən biliklərin sistemləşdirilməsi, ümumiləşdirmələr aparılması lazımdır. Öyrənilmiş mövzulara diqqətli yanaşmaq, təhlil aparmaq, düzgün nəticə çıxarmaq çox vacibdir. Mətn tapşırıqlarını cavablandırmaq üçün nəzəri bilikləri mənimsəmək yetərli deyil. Bədii və publisistik üslublarda yazılmış əsərləri, məqalələri mütaliə etmək dilin incəliklərini mənimsəməyə, məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirməyə səbəb olar.

Azərbaycan bölməsində ***ədəbiyyat*** fənnindən III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə edilən test tapşırıqları şifahi xalq ədəbiyyatı, qədim dövr ədəbiyyatı, intibah dövrü ədəbiyyatı, orta əsrlər ədəbiyyatı, erkən yeni dövr ədəbiyyatı, Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü, Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü, sovet dövrü Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbiyyatında milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi, müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, mövzulararası əlaqə bölmələrini əhatə edib.

Tapşırıqlar ədəbiyyat fənni kurikulumuna görə 2 məzmun xətti (**"Ədəbiyyat və həyat həqiqətləri"**, **"Yazılı nitq"**), həmçinin 3 əsas və 61 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

Tapşırıqlar abituriyentlərin

– *oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirmək;*
– *bədii nümunələrin mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək;*
– *bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə etmək;*
– *bədii nümunələrin məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət vermək;*
– *bədii nümunələrin məzmun və ideyası ilə bağlı fikirlərini əsaslandırmaqla şərh etmək*

kimi bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub.

İmtahan zamanı abituriyentlərin çətinlik çəkdiyi bəzi test tapşırıqlarının izahı təqdim olunur.

25 may tarixli imtahan, A variantı, 79 saylı test tapşırığı

9-cu sinif

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

C. Cabbarlının "Oqtay Eloğlu" əsərinə aid hadisələrin başvermə ardıcıllığını müəyyən edin.

1. Oqtay meyxanada pul verməkdən imtina edir.
2. Sevər dilənçi qadının yanında oturub öz acı həyatını danışır.
3. Oqtay dilənçilik edən bacısı Sevərlə qarşılaşır.
4. Xaspolat Səməd bəydən Oqtaya təsir etməsini xahiş edir.

$\frac{2}{3}$	B) – если верно указан элемент композиции (***диалог***) и приведен пример из текста (при отсутствии ошибок), а обоснование отсутствует – если верно указан элемент композиции (***диалог***), присутствует обоснование (при отсутствии ошибок), а пример из текста отсутствует или приведена только 1 реплика из текста C) если наряду с полным верным ответом присутствует 1 неверный ответ
$\frac{1}{3}$	D) – если наряду с полным верным ответом присутствует 2 неверных ответа – если верно указан элемент композиции (***диалог***), приведен пример из текста, обоснование отсутствует, но рядом допущена ошибка – если верно указан элемент композиции (***диалог***), присутствует обоснование, пример из текста отсутствует или приведена только 1 реплика из текста, но рядом допущена ошибка E) если верно указан только элемент композиции (***диалог***), примеры приведены неверно (или вообще не приведены, или приведена только 1 реплика из текста) и отсутствует обоснование или обоснование неверное
0	F) если рядом с ответом ***диалог*** присутствует неверный ответ (в данном случае наличие верных примеров и верного обоснования не засчитываюся как верные ответы) G) если верно указаны только примеры или присутствует только обоснование, а элемент композиции указан неверно или вообще не указан H) – если ответ неверный – для всех остальных случаев

11 класс

1.2.1. Разбирает стихотворения различных жанров и примеры сюжетной литературы (поэма, рассказ, повесть, роман, драма, комедия, трагедия) с точки зрения языка и стиля, композиции.

1.2.4. Выражает отношение и сопоставляет произведения близкие по теме, проблеме и конфликту, основываясь на общественно-политическую ситуацию времени создания произведения, а также моральные ценности.

90. Какое лиро-эпическое произведение современной азербайджанской литературы идейно созвучно с данным отрывком? Укажите общее (не менее 2-х признаков).

На данное задание открытого типа дали верный ответ 16,44% абитуриентов, 32,10% абитуриентов ответили неверно, а 49,77% отказались отвечать.

Для выполнения задания следует знать произведения азербайджанской литературы.

Верный ответ: Произведение, из которого взят отрывок, – это драма С.Вургуна "Вагиф". Тематически драму роднит с поэмой С.Рустамханлы "Возвращение в Карабах". В обоих произведениях повествуется о защите родной земли от иноземных захватчиков и о победе над врагом.

Критерии оценивания

Шкала баллов	Критерии
1	A) если ответ верный, т.е. названо произведение, которое идейно созвучно с данным отрывком и указаны 2 общих признака между произведениями. При отсутствии ошибочной информации */Драма С.Вургуна "Вагиф", из которой взят отрывок, повествует о событиях XVIII в. – борьбе азербайджанского народа против иранских захватчиков во главе с шахом Мухаммедом Гаджаром. Поэма С.Рустамханлы посвящена Отечественной войне (44-хдневной войне с армянскими захватчиками.)* *С данным отрывком идейно созвучно произведение С.Рустамханлы "Возвращение в Карабах".* *Объединяет эти 2 произведения следующее:* *1. место действия – Гарабах (Шуша);* *2. поэт Вагиф (в произведении Вургуна главный герой, в произведении С.Рустамханлы упоминается как автор газелей, уроженец Гарабаха)* *3. Историческая основа* *4. Исторические личности ("Вагиф" – Вагиф, шах Мухаммед Гаджар, "Возвращение в Карабах" – Вагиф, Панах-хан, Узеир Гаджибейли, Бюльбюль)* *5. темы:* *– патриотическая (патриотизм, гуманизм)* *– единение (сплочение) азербайджанского народа против иноземных захватчиков ("Вагиф" – против иранцев, "Возвращение в Карабах" – против армян)* *– борьба азербайджанского народа против иноземных захватчиков* *– историческая справедливость – освобождение азербайджанских земель, победа азербайджанского народа /*
$\frac{1}{2}$	B) если ученик дал полный верный ответ, но рядом присутствует ошибочная информация C) если названо произведение, которое идейно созвучно с данным отрывком, а общие признаки между произведениями не указаны D) если названо произведение, которое идейно созвучно с данным отрывком и указан 1 общий признак между произведениями
0	E) – если указаны 2 общих признака между произведениями, а произведение, которое идейно созвучно с данным отрывком, не названо – если указан 1 общий признак между произведениями, а произведение, которое идейно созвучно с данным отрывком, не названо – если ответ неверный

Экзамен 6 июля, вариант A, тестовое задание № 67

11 класс

1.1.3. Делит текст на части, составляет план, пересказывает, используя различные формы (кратко, подробно, творчески), определяет причинно-следственные связи в изображенных событиях многоплановых сюжетов и композиций.

Какие главы произведения М.А.Булгакова "Мастер и Маргарита" входят в роман Мастера?

A) "Погребение", "Казнь"

B) "Слава петуху!", "Сон Никанора Ивановича"

C) "Явление героя", "Крем Азазелло"

D) "Неудачливые визитёры", "Беспокойный день"

E) "При свечах", "Великий бал у сатаны"

На данное тестовое задание закрытого типа дали верный ответ 29,39% абитуриентов, пункт ответа E выбрали 17,92%, отказались отвечать – 35,30%.

Для выполнения задания следует знать, что произведение М.А.Булгакова "Мастер и Маргарита" включает в себя 2 романа: первый роман самого́ М.Булгакова о Москве 30-х годов, где Мастер – сам действующее лицо и второй – роман самого́ Мастера о Понтии Пилате и подсудимом Иешуа Га-Ноцри, которому прокуратор выносит смертный приговор. События второго романа (романа

Мастера) разворачиваются в Ершалаиме в начале I тысячелетия. Главы обоих романов перемешаны. Чтобы разобраться в произведении, нужно чётко понимать, о чём идёт речь. Так, ко второму роману относятся главы "Казнь" и "Погребение", в которых повествуется о казни трёх преступников (*Га-Ноцри, Дисмаса и Гестаса*) и дальнейшие действия ученика Иешуа Левия Матвия, связанные с погребением учителя.

Верный ответ: А

Экзамен 6 июля, вариант А, тестовое задание № 84

10 класс

2.1.2. Выражает своё отношение к событиям в литературном произведении, обосновывает мнение о позиции автора, основываясь на речи образов.

Укажите факты из жизни Гобсека (Оноре де Бальзак. “Гобсек”).

1. Дал Дервилю взаймы денег без процентов на покупку конторы.
2. Пленённый красотой Анастази, возвратил ей вексель.
3. С сочувствием отнёсся к графу де Ресто-отцу.
4. Из скупости жил очень скромно.
5. Восхищался скромностью и добродетелью Фанни Мальво.

На данное задание открытого типа верно ответили 9,14% абитуриентов, ответили неверно 73,84%, отказались отвечать – 17,03%.

Для выполнения задания следует знать, что Гобсек – герой одноимённого произведения О. де Бальзака. О нём рассказывает стряпчий Дервиль, которому пришлось какое-то время жить по соседству с ростовщиком и даже вести его дела. Гобсек, действительно, сочувствует графу де Ресто и даже помогает советом в его щекотливом положении (3). Ростовщик, действительно, жил очень скромно (4). Он был слишком скуп, чтобы жить на широкую ногу. Герой, действительно, тепло отзывался о Фанни Мальво, о её скромности и добродетели (5), что сподвигло Дервиля жениться на ней, о чём он никогда не жалел. Чего никогда не было так это того, что Гобсек ссудил Дервилю деньги на покупку адвокатской конторы без процентов (1). Ростовщик взял достаточно большие проценты. А когда стряпчий поинтересовался причиной, ответил, что избавил его от признательности и обязанности. "*И поэтому мы с тобой лучшие в мире друзья*". Также он не был бы Гобсеком (живоглотом), если бы возвратил вексель неоплаченным. Хотя он признавал, что графиня Анастази – удивительно красивая женщина, но одно с другим для ростовщика не связано (2).

Верный ответ: 3, 4, 5

Экзамен 6 июля, вариант А, тестовое задание № 86

9 класс

1.1.4. Определяет жанровые особенности сюжетной литературы (поэма, рассказ, роман, повесть, драма, трагедия).

Укажите ***неверные*** утверждения относительно произведения М.Ю.Лермонтова “Герой нашего времени”.

1. По жанру является повестью.
2. Состоит из пяти глав.
3. Имеется эпилог.
4. Нарушена хронология событий.
5. В произведении два предисловия.

На данное задание открытого типа верно ответили 25,63% абитуриентов, ответили неверно 62,90%, отказались отвечать – 11,47%.

Для выполнения задания следует знать, что произведение М.Ю.Лермонтова “Герой нашего времени” по жанру является реалистическим романом (1), а не повестью и состоит из 5 глав или частей: "Тамань", "Бэла", "Максим Максимыч", "Княжна Мери", "Фаталист" (2). В романе отсутствует эпилог (3), зато есть 2 предисловия: ко всему роману и к "Журналу Печорина" (5). В произведении, действительно, нарушена хронология (4) для того, чтобы лучше раскрыть внутренний мир героя.

Верный ответ: 1, 3

Экзамен 6 июля, III группа, вариант A

Текст и задания № 88 – 90 к нему.

Трофимов. Человечество идёт вперёд, совершенствуя свои силы. Всё, что недосягаемо для него теперь, когда-нибудь станет близким, понятным, только вот надо работать, помогать всеми силами тем, кто ищет истину. У нас, в России, работают пока очень немногие. Громадное большинство той интеллигенции, какую я знаю, ничего не ищет, ничего не делает и к труду пока не способно. Называют себя интеллигенцией, а прислуге говорят "ты", с мужиками обращаются ***как с животными***, учатся плохо, серьёзно ничего не читают, ровно ничего не делают, о науках только говорят, в искусстве понимают мало. Все серьёзны, у всех строгие лица, все говорят только о важном, философствуют, а между тем у всех на глазах рабочие едят отвратительно, спят без подушек, по тридцати, по сорока в одной комнате, везде клопы, смрад, сырость, ***нравственная*** нечистота… И, очевидно, все хорошие разговоры у нас для того только, чтобы отвести глаза себе и другим. Укажите мне, где у нас ясли, о которых говорят так много и часто, где читальни? О них только в романах пишут, на деле же их нет совсем…

11 класс

1.2.1. Разбирает стихотворения различных жанров и примеры сюжетной литературы (поэма, рассказ, повесть, роман, драма, комедия, трагедия) с точки зрения языка и стиля, композиции.

88. Каким элементом композиции является данный отрывок? Обоснуйте свой ответ и приведите пример.

На данное задание открытого типа дали верный ответ 24,37% абитуриентов, дали частично верный ответ 16,67%, дали неверный ответ 27,06%, отказались отвечать 23,84%.

Для выполнения задания надо знать, что монолог – речь одного действующего лица, обращённая к самому себе или к другим героям. В отрывке представлена речь героя комедии "Вишнёвый сад" Пети Трофимова.

Верный ответ: Монолог – речь действующего лица пьесы, обращённая к самому себе или к другим. В отрывке представлена речь героя комедии "Вишнёвый сад" − Пети Трофимова. (Человечество идёт вперёд, совершенствуя свои силы)

Критерии оценивания

Шкала баллов	Критерии
1	A) если ответ верный, т.е. верно указан элемент композиции (***монолог***), присутствует обоснование и приведён пример из текста (при отсутствии ошибок) / ***Монолог*** *– речь действующего лица пьесы, обращённая к самому себе или к другим. В отрывке представлена речь героя комедии "Вишнёвый сад" − Пети Трофимова: "Человечество идёт вперёд, совершенствуя свои силы…"* /
$\frac{2}{3}$	B) – если верно указан элемент композиции (***монолог***) и приведён пример из текста (при отсутствии ошибок), а обоснование отсутствует – если верно указан элемент композиции (***монолог***), присутствует обоснование (при отсутствии ошибок), а пример из текста отсутствует или неверный C) если наряду с полным верным ответом присутствует 1 неверный ответ
$\frac{1}{3}$	D) – если наряду с полным верным ответом присутствуют 2 неверных ответа – если верно указан элемент композиции (***монолог***), приведён пример из текста, обоснование отсутствует, но рядом допущена ошибка – если верно указан элемент композиции (***монолог***), присутствует обоснование, пример из текста отсутствует, но рядом допущена ошибка E) если верно указан только элемент композиции (***монолог***), пример приведён неверно (или вообще не приведён) и отсутствует обоснование (или обоснование неверное)

Шкала баллов	Критерии
0	F) если рядом с ответом ***монолог*** присутствует неверный ответ (в данном случае наличие верных примеров и верного обоснования не засчитываются как верные ответы) G) если верно приведён пример или присутствует только обоснование, а элемент композиции указан неверно или вообще не указан H) – если ответ неверный – для всех остальных случаев

10 класс

2.1.2. Выражает своё отношение к событиям в литературном произведении, обосновывает мнение о позиции автора, основываясь на речи образов.

11 класс

2.1.2. Самостоятельно презентует излюбленное произведение, привлекая дополнительный материал из разных источников, используя художественно-эмоциональные и образные средства.

90. Сравните слова героя произведения А.П.Чехова со словами Ашраф-бека, вспомнив эпизод комедии Н.Везирова “Из-под дождя да под ливень”, когда кредиторы ополчились против Гаджи-Ганбара, требуя с него денег. (Аргументируйте свой ответ, приведя по одному примеру из каждого произведения).

На данное задание открытого типа верно ответили 11,65% абитуриентов, дали частично верный ответ 9,86 %, дали неверный ответ 14,52%, отказались отвечать 46,95%.

Для выполнения задания следует знать, что Петя Трофимов, герой А.П.Чехова, недоволен современным ему обществом, не способным на искренние добрые чувства, на серьёзные поступки (“*Называют себя интеллигенцией, а прислуге говорят “ты”, с мужиками обращаются как с животными, учатся плохо, серьёзно ничего не читают, ровно ничего не делают, о науках только говорят, в искусстве понимают мало*”).

Ашраф-бек, герой комедии Н.Везирова "Из-под дождя да под ливень" также высказывает недовольство чёрствостью людей, неумением сопереживать, помогать ближнему. Его известный монолог (*о мусульманине на востоке и на западе...*) подтверждает это.

Верный ответ: Ашраф-бек был очень зол из-за отношения людей к горю Гаджи-Ганбара. По этому поводу он произнёс свой знаменитый монолог (…если мусульманин на западе занозит себе палец…). Герой Н.Везирова считал, что людям необходимо поддерживать друг друга, особенно в трудной жизненной ситуации. Петю Трофимова, героя А.П.Чехова, возмущало отношение к народу, а именно дворян к бывшим крепостным, о чём он и говорит в данном отрывке. Несмотря на то что крепостное право отменили, это по сути ничего не изменило. Отношение к простому народу оставляло желать лучшего.

Критерии оценивания

Шкала баллов	Критерии
1	A) если ученик верно ответил на вопрос, указав общее между героями произведений и аргументировал ответ двумя примерами (по 1-му примеру из каждого произведения) при отсутствии ошибочной информации / *Общим в речи героев является то, что они недовольны невежеством (необразованностью) и несправедливым отношением к простым людям. Ашраф-бек был очень зол из-за отношения людей к горю Гаджи-Ганбара. По этому поводу он произнёс свой знаменитый монолог (…если мусульманин на западе занозит себе палец…). Герой Н.Везирова считал, что людям необходимо поддерживать друг друга, особенно в трудной жизненной ситуации. Петю Трофимова, героя А.П.Чехова, возмущало отношение к народу, а именно дворян к бывшим крепостным, о чём он и говорит в данном отрывке. Несмотря на то что крепостное право отменили, это по сути ничего не изменило. Отношение к простому народу оставляло желать лучшего* /

Шкала баллов	Критерии
$\frac{2}{3}$	B) если ученик верно указал общее между героями произведений и аргументировал ответ 1 примером (по 1-му произведению) при отсутствии ошибок C) если ученик **не** указал общее между героями произведений, но аргументировал ответ двумя примерами (по 1-му примеру из каждого произведения) при отсутствии ошибок D) если ученик дал полный верный ответ, но рядом присутствует ошибочная информация
$\frac{1}{3}$	E) – если ученик верно указал только общее между героями произведений – если ученик верно указал общее между героями произведений и аргументировал ответ 1 примером (по 1-му произведению), а рядом присутствует неверный ответ F) – если ученик **не** указал общее между героями произведений, но аргументировал ответ 1 примером (по 1-му произведению) – если ученик **не** указал общее между героями произведений, но аргументировал ответ двумя примерами (по 1-му примеру из каждого произведения), а рядом присутствует неверный ответ
0	G) – если ученик верно указал только общее между героями произведений, а рядом присутствует неверный ответ – если ученик **не** указал общее между героями произведений, но аргументировал ответ 1 примером (по 1-му произведению), а рядом присутствует неверный ответ – если ответ неверный (по двум произведениям) и для всех остальных случаев

Tarix fənnindən ali təhsil müəssisələrinə qəbul imtahanlarında II və III ixtisas qrupları üzrə istifadə edilmiş tapşırıqlar həm Azərbaycan tarixinə, həm də ümumi tarix fənlərinə aid olub. Tapşırıq bloklarında fənn kurikulumunun təlim nəticələrinə uyğun olaraq tarixi proses və hadisələr arasında səbəb-nəticə, məkan-zaman əlaqələri, tarixi proses və hadisələrin ümumiləşdirilməsi, müqayisəsi, qanunauyğunluqları, izahat, nəzəri biliklərin tətbiqi və təhlili ilə bağlı bilik və bacarıqları ölçməyə imkan verən tapşırıqlar üstünlük təşkil edib.

Tapşırıqlar fənn kurikulumuna görə 5 (“***Tarixi zaman”, “Tarixi məkan”, “Dövlət”, “Şəxsiyyət”, “Mədəniyyət***”) məzmun xətti üzrə 149 (Azərbaycan tarixindən 88, ümumi tarixdən 61) altstandartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar məzmun xətləri üzrə təlim nəticələrinə uyğun hazırlanıb və abituriyentlərin müxtəlif istiqamətlər üzrə bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsinə yönəlib:

– Azərbaycanın tarixi keçmişi və müasir dövrü haqqında zəruri biliklərə malik olduğunu nümayiş etdirmək;

– tarixi hadisə və proseslərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından təhlil etmək, bir-biri ilə oxşar və fərqli cəhətlərini müəyyən etmək;

– mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil etmək;

– tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən etmək və tarixi dövr baxımından qiymətləndirmək;

– dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə etmək və təhlillər aparmaq;

– müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə etmək;

– cəmiyyət və dövlətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirmək, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə etmək;

– tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolunu qiymətləndirmək;

– müxtəlif cəmiyyətlərdə mədəniyyətin inkişaf xüsusiyyətlərini fərqləndirmək;

– tarixdə ayrı-ayrı dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqları nümayiş etdirmək;

– tarixi termin və anlayışların izahını vermək, fərqləndirmək;

– hadisələrin xronoloji ardıcıllığını müəyyən etmək;

– tarixin ayrı-ayrı dövrlərində baş vermiş hadisələri xəritə və cədvəl formasında vermək;

– Azərbaycan və dünya tarixində mühüm rol oynamış dövlət və elm xadimlərinin fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini müəyyən etmək.

Qəbul imtahanları iki dəfə – 25 may və 6 iyul tarixlərində keçirilib.

İmtahan nəticələrinin statistik göstəricilər əsasında aparılan təhlili göstərir ki, abituriyentlərin müəyyən qismi bəzi bölmələrə dair qapalı tipli tapşırıqları yuxarı faizlə düzgün cavablandırsalar da, bəzi bölmələrə aid qapalı tipli tapşırıqları bir qədər zəif cavablandırıblar. Açıq tipli kodlaşdırıla bilən tapşırıqlar və mənbə tapşırıqlarının düzgün cavablandırılma faizi qapalı tipli tapşırıqlara nisbətən aşağı olmuşdur.

Bölmələr / **Faiz, imtahan, qrup**	**1-ci cəhd**		**2-ci cəhd**	
	II qrup	**III qrup**	**II qrup**	**III qrup**
Azərbaycan ərazisində ibtidai icma cəmiyyəti	44%	62%	54%	62%
Avropa qədim dövrlərdə: Yunanıstan Makedoniya, Roma	14%	53%	33%	44%
Azərbaycan III – VII əsrin 1-ci yarısında	20%	32%	47%	59%
Avropa ölkələri orta əsrlərdə	42%	56%	37%	45%
ABŞ, İngiltərə, Fransa, Rusiya və Osmanlı XVII – XVIII əsrlərdə	28%	30%	11%	15%
Azərbaycan XIX əsrin 30 – 50-ci illərində	17%	26%	54%	59%
Azərbaycan XX əsrin əvvəllərində və Birinci dünya müharibəsi illərində	14%	25%	12%	19%
Azərbaycan XX əsrin 20 – 80-ci illərində	20%	33%	22%	32%
Müstəqilliyin bərpa olunması, XX əsrin sonları, XXI əsrin əvvəllərində Azərbaycanin daxili və xarici siyasəti	9%	14%	23%	30%
Vətən müharibəsi	13%	14%	14%	18%
Azərbaycan mədəniyyəti	Açıq	Açıq	17%	26%


Aşağıda bəzi tapşırıqların izahı təqdim olunur.

Qeyd etmək lazımdır ki, hər bir tapşırıq aid olduğu altstandart(lar)ın tələblərinin yoxlanılması və qiymətləndirilməsi üçün nəzərdə tutulub.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 67 saylı test tapşırığı
(III ixtisas qrupu, A variantı, 44 saylı test tapşırığı)
Ümumi tarix, 7-ci sinif

3.1.2. Feodal dövlətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl və diaqramlar hazırlayır.

Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.



a. Böyük Azadlıqlar xartiyasının imzalanması
b. Səlib yürüşlərində iştirak etməsi
c. Azenkur döyüşündə qalib gəlməsi
d. Yüzillik müharibədə iştirak etməsi
e. Jaklar üsyanının baş verməsi

A) I – a, b; II – e, III – c, d B) I – a; II – b, e; III – c, d C) I – c, e; II – d; III – a, b
D) I – e; II – a, c; III – b, d E) I – d; II – a, e; III – b, c

7 və 10-cu siniflər üçün "Ümumi tarix" dərsliklərindəki material əsasında tərtib edilmiş, "Avropa ölkələri orta əsrlərdə" bölməsinə aid test tapşırığına II ixtisas qrupu üzrə abituriyentlərin 42,33%-i doğru cavab vermiş, 18,73%-i isə cavab verməkdən imtina etmişdir. III ixtisas qrupu üzrə abituriyentlərin isə 55,95%-i doğru cavab vermiş, 17,88%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün orta əsrlərdə İngiltərə və Fransa krallıqlarının tarixi ilə bağlı hadisələrə, proseslərə dair bilik və bacarıqlara malik olmaq lazımdır. Jaklar üsyanının baş verməsi (e) Fransa, Böyük Azadlıqlar xartiyasının imzalanması (a) və Azenkur döyüşündə qələbə qazanılması (c) İngiltərə krallığına aiddir. Hər iki krallıq səlib yürüşlərində (b) və Yüzillik müharibədə (d) iştirak etmişdir.

Doğru cavab: D

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 68 saylı test tapşırığı

Azərbaycan tarixi, 9-cu sinif

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

Azərbaycan tarixi, 11-ci sinif

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Elçibəy, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

Ümumi tarix, 11-ci sinif

1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.

Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda:

A) Milli hökumət süqut etdi.

B) 21 Azər hərəkatı baş verdi.

C) S.C. Pişəvərinin rəhbərliyi ilə Milli Hökumət təşkil edildi.

D) Ş.M. Xiyabaninin rəhbərliyi ilə Milli Hökumət yarandı.

E) Ş.M. Xiyabaninin rəhbərlik etdiyi ADP təşkil edildi.

9 və 11-ci siniflər üçün "Azərbaycan tarixi", həmçinin 9-cu sinif üçün "Ümumi tarix" dərsliklərindəki material əsasında tərtib edilmiş, "Azərbaycan XX əsrin əvvəllərində və Birinci dünya müharibəsi illərində" bölməsinə aid test tapşırığına abituriyentlərin 14,1%-i doğru cavab vermiş, 35,43%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün Birinci Dünya müharibəsinin baş verdiyi illəri (1914 – 1918) bilmək, Cənubi Azərbaycanda baş vermiş hadisələrdən həmin dövrə uyğun gələni müəyyən etmək bacarığına malik olmaq lazımdır. 1917-ci ildə Ş.M.Xiyabaninin rəhbərliyi ilə ADP təşkil edildikdə (E) Birinci Dünya müharibəsi hələ davam edirdi. Milli hökumət süqut etdikdə (A) və Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə Milli Hökumət yarandıqda (D) bəhs edilən müharibə artıq başa çatmışdı. 21 Azər hərəkatı baş verdikdə (B) və Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Milli Hökumət təşkil edildikdə (C) isə İkinci Dünya müharibəsi başa çatmışdı.

Doğru cavab: E

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 77 saylı test tapşırığı
(III ixtisas qrupu, A variantı, 41 saylı test tapşırığı)


Azərbaycan tarixi, 7-ci sinif

2.1.2. Dövrə aid xəritə və xəritə sxemlərdəki müxtəlif tarixi hadisə, proses və təzahürlərə dair məlumatları izah edir.

Azərbaycan tarixi, 10-cu sinif

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

Xəritədə ştrixlənmiş ərazidə mövcud olmuş Azərbaycan dövlətinə aiddir:



A) İskit padşahlığı ilə ittifaqda Assuriya dövlətinə qarşı mübarizə aparması

B) Slavyanların yürüşləri nəticəsində paytaxtının böyük dağıntılara məruz qalması

C) Eramızın əvvəllərində Parfiya Arşakiləri tərəfindən işğal olunması

D) Oğuz-Səlcuq türkləri ilə ittifaqda Bizans, erməni və gürcü feodallarına qarşı mübarizə aparması

E) Bir müddət Sacilər və Salarilər dövlətindən asılı vəziyyətdə olması

7 və 10-cu siniflər üçün "Azərbaycan tarixi" dərsliklərindəki material əsasında tərtib edilmiş, "Azərbaycan IX əsrin ikinci, XI əsrin birinci yarısında" bölməsinə aid test tapşırığına abituriyentlərin 24,73%-i doğru cavab vermiş, 40,72%-i isə cavab verməkdən imtina etmişdir. III ixtisas qrupu üzrə abituriyentlərin isə 35,66%-i doğru cavab vermiş, 33,52%-i cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün xəritədə ştrixlənmiş ərazidə mövcud olmuş dövlətin Şəddadilər dövləti olduğunu, sonra isə həmin dövlətin fəaliyyətinə aid doğru bəndi müəyyən etmək lazımdır. Bu dövlət Oğuz-Səlcuq türkləri ilə ittifaqda Bizans, erməni və gürcü feodallarına qarşı mübarizə aparmışdır (D). İskit padşahlığı və Assuriya (A), Parfiya Arşakiləri (C), habelə Sacilər dövlətləri (E) Şəddadilər dövlətinin yaranmasından əvvəl mövcud olmuşdur. Şəddadilər dövlətinin paytaxtı olmuş Gəncə şəhəri slavyanların yürüşlərinə məruz qalmamışdır (B).

Doğru cavab: D

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 73 saylı test tapşırığı
(III ixtisas qrupu, A variantı 42 saylı test tapşırığı)
Azərbaycan tarixi, 9-cu sinif

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

II Qarabağ (Vətən) müharibəsi dövründə:

1. Xankəndi şəhər mərkəzində dövlət bayrağımız qaldırıldı
2. "Şuşa bəyannaməsi" imzalandı
3. Horadiz qəsəbəsi düşməndən təmizləndi
4. Xocavənd rayonunun bir hissəsi azad edildi
5. Beş rayon mərkəzi (şəhər) azad edildi

A) 2, 5 B) 3, 4 C) 4, 5 D) 1, 3 E) 1, 2

9 və 11-ci siniflər üçün "Azərbaycan tarixi" dərsliklərindəki material əsasında tərtib edilmiş, "Vətən müharibəsi" bölməsinə aid test tapşırığına II ixtisas qrupu üzrə abituriyentlərin 14,11%-i doğru cavab vermiş, 19,49%-i isə cavab verməkdən imtina etmişdir. III ixtisas qrupu üzrə abituriyentlərin 17,66%-i doğru cavab vermiş, 15,71%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün 44 günlük Vətən müharibəsinin baş verdiyi ili (2020) bilmək, ərazi bütövlüyünün bərpası ilə bağlı baş vermiş hadisələrdən həmin dövrə uyğun gələni müəyyən etmək bacarığına malik olmaq lazımdır. 2020-ci ildə Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində Xocavənd rayonunun bir hissəsi (4) və beş rayon mərkəzi (şəhər) azad edildi (5). Xankəndi şəhər mərkəzində dövlət bayrağımız 2023-cü ildə qaldırıldı (1). "Şuşa bəyannaməsi" 2021-ci ildə imzalandı (2). Horadiz qəsəbəsi Birinci Qarabağ müharibəsində düşməndən təmizlənmişdi (3) və İkinci Qarabağ (Vətən) müharibəsi başlayanadək Azərbaycan Ordusunun nəzarətində olmuşdur.

Doğru cavab: C (III ixtisas qrupu üzrə D)

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 85 saylı test tapşırığı
Ümumi tarix, 10-cu sinif

2.1.2. Dünya ölkələrində baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl) təqdim edir.

4.1.1. Tarixi şəxsiyyətləri (II Ramzes, Hammurapi, II Kir, I Dara, İsgəndər, Yuli Sezar, Konstantin, Attila, Məhəmməd Peyğəmbər, Böyük Karl, Alp Arslan, Çingiz xan, II Mehmet Fateh, Əmir Teymur, Sultan Süleyman Qanuni, Şah İsmayıl, I Təhmasib, IV İvan) mənsub olduqları dövlətlərin mənafeyi baxımından qiymətləndirir.

Hadisə-nəticə əlaqələrinin doğru verildiyi bəndləri müəyyən edin.

	Hadisələr	***Nəticələr***
1.	Teoman Tanhunun Çinə hücum etməsi	Xan sülaləsi asılı hala salındı
2.	Hunların Pinçen şəhəri yaxınlığında Çin ordusunu mühasirəyə alması	Xan sülaləsi ağır şərtlərlə sülh müqaviləsi imzalamağa məcbur oldu
3.	Mete xaqanın dövlətin sərhədlərini genişləndirmə siyasəti aparması	Monqol və tibet tayfaları tabe edildi
4.	Teoman Tanhunun Çinin bəzi bölgələrini özünə tabe etməsi	Çində "vuruşan padşahlıqlar" dövrü başa çatdı

6 və 10-cu siniflər üçün "Ümumi tarix" dərsliklərindəki material əsasında tərtib edilmiş, "Qədim Şərq: Misir, Şumerlər, Hun dövləti, Hindistan, Çin" bölməsinə aid test tapşırığına abituriyentlərin 46,51%-i doğru cavab vermiş, 16,41%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün Qədim Hun dövləti, onun hökmdarları, Çinlə münasibətləri ilə bağlı hadisələrə dair bilik və bacarıqlara malik olmaq lazımdır. Hunların Pinçen şəhəri yaxınlığında Çin ordusunu mühasirəyə almasından sonra Xan sülaləsi ağır şərtlərlə sülh müqaviləsi imzalamağa məcbur oldu (2). Mete xaqanın dövlətin sərhədlərini genişləndirmə siyasəti aparması nəticəsində monqol və tibet tayfaları tabe edildi (3). Teoman Tanhunun hakimiyyəti illərində Çində hakim sülalə Xan deyil, Sin idi (1). Çində "vuruşan padşahlıqlar" dövrünün başa çatması Teoman Tanhunun deyil, Sin Şi Xuandinin fəaliyyəti ilə bağlıdır (4).

Doğru cavab: 2, 3

6 iyul tarixli imtahan, III ixtisas qrupu, A variantı 56 saylı test tapşırığı

Azərbaycan tarixi, 8-ci sinif

3.1.1. Mərkəzləşmiş dövlətin yaranması və tənəzzülü, Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizənin xüsusiyyətlərini şərh edir.

Azərbaycan tarixi, 10-cu sinif

3.1.1. Dövlətlərin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirir.

XVII əsrin ikinci yarısı Səfəvi dövlətinin idarəçilik sistemi üçün xarakterikdir:

1. Şahın qeyri-məhdud hakimiyyətə malik olması
2. Məhkəmə orqanlarının şəriət qaydaları əsasında fəaliyyət göstərməsi
3. Sultanın bəylərbəyilikləri idarə etməsi
4. Bəylərbəyilərin vəzirlər tərəfindən təyin edilməsi
5. Ali şiə ruhanilərinin feodalların birinci qrupuna daxil olması

8 və 10-cu siniflər üçün "Azərbaycan tarixi" dərsliklərindəki material əsasında tərtib edilmiş, "Azərbaycan Səfəvilər dövləti XVII əsrdə" bölməsinə aid test tapşırığına abituriyentlərin 8,18%-i doğru cavab vermiş, 16,63%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün XVII əsrin ikinci yarısında Səfəvi dövlətinin idarəçilik sisteminə dair biliklərə malik olmaq lazımdır. Səfəvi dövlətində şah qeyri-məhdud hakimiyyətə malik idi (1), məhkəmə orqanları şəriət qaydaları əsasında fəaliyyət göstərirdi (2). Hər bir bəylərbəyiliyin idarə edilməsi sultan deyil, bəylərbəyi tərəfindən həyata keçirilirdi (3). Bəylərbəyilər vəzirlər deyil, şah tərəfindən təyin edilirdilər (4). Ali şiə ruhaniləri feodalların birinci deyil, ikinci qrupuna daxil idilər (5).

Doğru cavab: 1, 2

Bir neçə ildir ki, ali məktəblərə qəbul imtahanlarında tarixi mənbə üzərində işlə bağlı tapşırıqlar tətbiq edilir. Tarix fənni üzrə tətbiq edilən mənbə üzərində işlə bağlı tapşırıqlar kurikulumun tələblərinə və beynəlxalq təcrübəyə əsaslanır. Mənbələrlə bağlı tapşırıqlar məlumatın əldə edilməsi, nəticəçıxarma, təhlil, müqayisə və səbəb-nəticə əlaqələrini müəyyənetmə bacarıqlarını yoxlamaq məqsədi daşıyır.

25 may tarixli imtahan, III ixtisas qrupu, 58 – 60 saylı tapşırıqlar

1970-ci illərdə Ərəb ölkələri yenidən müttəfiq kimi ümumi düşmənə qarşı birləşib müharibəyə başladılar. Neftin qiymətinin dörd dəfə artması və dünyada iqtisadi böhranın yaratdığı çətinliklər İsrail və müttəfiqlərini danışıqlara getməyə məcbur etdi. Onlar eyni zamanda qarşı tərəfin qüvvələrini parçalamaq istəyirdilər. İsrail və müttəfiqləri bu məqsədi Kemp-Deviddə imzalanmış sazişlə həyata keçirməyə nail oldular.

9 və 11-ci siniflər üçün "Ümumi tarix" dərsliklərindəki material əsasında tərtib edilmiş, "Dünya dövlətləri II dünya müharibəsindən sonrakı dövrdə" bölməsinə aid 58-60-cı tapşırıqları cavablandırmaq üçün Ərəb-İsrail münaqişəsi ilə bağlı biliklərə, həmçinin müvafiq mövzu ilə bağlı mühakimə yürütmək, təhliletmək bacarıqlarına malik olmaq lazımdır. Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhliletməli, həmçinin müvafiq dərsliklər əsasında mənimsədiyi biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirməlidirlər.

Ümumi tarix, 11-ci sinif

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

58. Mənbədə bəhs olunan müharibəni başlamaqda Ərəb dövlətlərinin məqsədi:

Abituriyentlərin 19%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 4,38%-i $\frac{1}{2}$ balla qiymətləndirilmiş, 30,04%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	• İtirilmiş əraziləri geri qaytarmaq. • İsrailin işğalçılıq siyasətinin qarşısını almaq • İsraili məğlub etmək
$\frac{1}{2}$	• Bir doğru, bir yanlış cavab.
0	• Cavablardan heç biri doğru deyil. • Bir doğru iki və daha çox yanlış cavab • Yeni ərazilər əldə etmək

Ümumi tarix, 9-cu sinif

2.1.1. Kapitalist münasibətlərinin inkişaf prosesində və müasir dünyada ölkələrin və xalqların sosial, siyasi, iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımdan qiymətləndirir.

Ümumi tarix, 11-ci sinif

2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl, diaqram) təqdim edir.

59. Bəhs olunan müharibənin başlanması ilə bu münaqişənin beynəlxalq miqyas aldığını göstərən mənbədə ***verilməyən*** siyasi və iqtisadi (hər birinə aid bir) amili yazın:

Abituriyentlərin 3,18%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 11,42%-i $\frac{1}{2}$ balla qiymətləndirilmiş, 54,97%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A) **Siyasi səbəb**: • ABŞ İsraili dəstəklədi, SSRİ ərəb ölkələrini dəstəklədi. • ABŞ və SSRİ-nin vasitəçiliyi ilə tərəflər arasında sülh danışıqlarının aparılması. B) **İqtisadi səbəb:** • Dünyada ilk neft şoku baş verdi. • Neft şoku baş verdi. • Neft beynəlxalq münasibətlərdə təsir vasitəsi kimi istifadə edildi.
$\frac{1}{2}$	• Bir doğru, bir yanlış cavab.
0	• Cavablardan heç biri doğru deyil. • Bir doğru iki və daha çox yanlış cavab. • ABŞ və SSRİ-nin müharibəyə qoşulması.

Ümumi tarix, 9-cu sinif

3.1.1. Dünyanın (Avropa dövlətləri və Rusiya, ABŞ və Latın Amerikası ölkələri, Türk dünyası və Qafqaz xalqları, Asiya, Afrika ölkələri) siyasi inkişaf mərhələsini şərh edir.

Ümumi tarix, 11-ci sinif

1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

60. Haqqında bəhs edilən sazişin Misir dövləti üçün iki nəticəsini yazın.

Abituriyentlərin 13%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 11,92%-i $\frac{1}{2}$ balla qiymətləndirilmiş, 43,66%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	• Ərəb ölkələri Misirlə siyasi-iqtisadi əlaqələri kəsdi. o ***Eyni mahiyyətli cavab*** **–** Misirlə Ərəb ölkələri arasında müttəfiqlik pozuldu. • Sinay yarımadası Misirə qaytarıldı. o ***Eyni mahiyyətli cavab*** **–** (İsrail Misirin işğal etdiyi ərazini geri qaytardı) • Misir İsraili müstəqil dövlət kimi tanıdı. • Misir və İsrail arasında müharibə vəziyyətinə son qoyuldu. o ***Eyni mahiyyətli cavab*** **–** (Tərəflər bir-birinin ərazisinə hərbi müdaxilə etməyəcəkdi)
$\frac{1}{2}$	• Bir doğru, bir yanlış cavab. • Eyni mahiyyətli 2 doğru cavab.
0	• Cavablardan heç biri doğru deyil. • Bir doğru iki və daha çox yanlış cavab.

Beləliklə, qəbul imtahanının nəticələri göstərir ki, abituriyentlər imtahana hazırlıq dövründə tarixi prosesləri öyrənərkən mövzulararası əlaqələndirmə və hadisələri səbəb-nəticə əlaqələri çərçivəsində təhlil edərək yekun ümumiləşdirmə aparmaq, məntiqi nəticə çıxarmaq və mühakimə yürütmək bacarığına daha da dərindən yiyələnməlidirlər.

Coğrafiya fənnindən ali təhsil müəssisələrinə II və III (TC altqrupu) ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar fənn kurikulumunun müəyyən etdiyi 3 (**"*Coğrafi məkan*", *"Təbiət"*, *"Cəmiyyət"***) məzmun xətti üzrə 6 əsas və 118 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanlarında aşağıda qeyd edilən bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi mümkün olub:

– *kainatda Yerin mövqeyini və onun hərəkətinin coğrafi nəticələrini təsvir etmək;*
– *səma cisimlərinin qarşılıqlı təsirini əlaqələndirmək;*
– *Yerin sutkalıq və illik hərəkətini Yerdə həyatın mövcudluğu ilə əlaqələndirmək;*
– *coğrafi təbəqələrin inkişaf mərhələlərini izah etmək;*
– *təbii coğrafi şərait və ehtiyatların yerləşmə qanunauyğunluğunu izah etmək və insanların təbiətdən istifadəsində ekoloji tarazlığın saxlanılması yollarını qiymətləndirmək;*
– *əhalinin dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirmək;*
– *təsərrüfat sahələrinin yerləşməsində olan ərazi fərqlərini ölkələr üzrə müəyyən etmək.*

Qəbul imtahanında istifadə edilmiş tapşırıqların bölmələr üzrə paylanmasında ümumtəhsil məktəblərinin coğrafiya kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınıb.

Test bloklarında məntiqi düşünmə tələb edən, biliklərin tətbiqinə əsaslanan xəritə-sxem, qrafik, diaqram və hesablama xarakterli tapşırıqlara üstünlük verilib.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlili göstərib ki, abituriyentlərin müəyyən hissəsi "Azərbaycanın relyefi, faydalı qazıntıları", "Azərbaycanın iqlimi", "Materiklərin daxili suları", "Dünyanın təbii ehtiyatlarının yerləşməsi", "Dünya təsərrüfatı" və s. mövzulara aid tapşırıqlara daha yaxşı cavab veriblər. Lakin hesablama xarakterli, xəritə-sxem məzmunu olan, nəzəri bilikləri tətbiq etmək, nəticə çıxarmaq qabiliyyəti tələb edən, müəyyən ölkələrin və ya regionların fiziki-coğrafi və iqtisadi-coğrafi səciyyəsinə aid tapşırıqları nisbətən zəif cavablandırıblar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 46 saylı test tapşırığı
8-ci sinif

3.1.1. Əhalinin təbii və mexaniki hərəkətinin səbəblərini izah edir.
3.1.2. Əhalinin təbii artımına görə hesablamalar aparır.

Ölkənin əhalisinin sayı 12 mln. nəfərdir. 1 ildən sonra əhalinin sayı 12,1 mln nəfərə çatmışdır. Artımın 40 min nəfəri mexaniki artım hesabına olmuşdur. Orta illik təbii artımı (hər 1000 nəfərə) hesablayın.

A) 9,6 nəfər B) 60 nəfər C) 8 nəfər
D) 11 nəfər E) 5 nəfər

"Dünya əhalisi" bölməsinə aid test tapşırığına abituriyentlərin 15.90%-i doğru cavab vermiş, 30.41%-i isə cavab verməkdən imtina emişdir.

Tapşırıqda əhalinin sayının artımının hansı hissəsinin təbii artım hesabına baş verməsi və bu prosesdə təbii artımın nisbi kəmiyyətinin (hər 1000 nəfərə görə) müəyyən edilməsi tələb edilir.

Test tapşırığının yerinə yetirilməsi üçün, ilk növbədə, il ərzində əhalinin sayının artımını müəyyən etmək lazımdır. Bunun üçün aşağıdakı ifadələri yazmaq lazımdır:

12,1 mln. – 12,0 mln. = 0,1 mln. nəfər

Yəni il ərzində əhalinin sayı 100 min nəfər artmışdır. Əhalinin sayının 40 min nəfəri mexaniki artım (kənardan gələnlər) hesabına olduğuna görə təbii artım hesabına əhalinin sayı 60 min nəfər artmışdır:

100 min – 40 min = 60 min nəfər

Daha sonra hər 1000 nəfərə düşən təbii artım əmsalını müəyyən etmək üçün aşağıdakı mütənasiblik yazılır.

12 mln. nəfər —— 60 min nəfər

1000 —— x nəfər

x= (60 000 x 1000) : 12 000 000 = 5 (nəfər)

Deməli, verilmiş ölkədə il ərzində təbii artım əmsalı hər 1000 nəfərə 5 nəfər olmuşdur.

Doğru cavab: E

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 55 saylı test tapşırığı

7-ci sinif

2.1.5. Dünya okeanı və quru sularının fiziki-coğrafi xüsusiyyətlərini şərh edir.

Uyğunluq pozulmuşdur:

Sıra	***Mənşəyi***	***Göl***	***Yerləşdiyi ərazi***
1	uçqun	Göygöl	Şahdağ silsiləsi
2	axmaz	Sarısu	Muğan düzü
3	vulkanik	Qaragöl	Vulkanik yayla
4	buzlaq	Acınohur	Yan silsilə
5	uçqun	Maralgöl	Murovdağ
6	relikt	Masazır	Abşeron yarımadası

"Azərbaycanın daxili suları" bölməsinə aid test tapşırığına abituriyentlərin 4.92%-i doğru cavab vermiş, 24.61%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırıqda verilmiş göllərin mənşəyini və hansı ərazidə yerləşməsini müəyyən etmək tələb olunur.

Test tapşırığının yerinə yetirilməsi üçün göllərin yerləşdiyi əraziləri və onların mənşəyini bilmək lazımdır.

Bu amilləri nəzərə almaqla müəyyən etmək olar ki, Göygöl uçqun mənşəli olsa da, Şahdağ silsiləsində deyil, Murovdağ silsiləsində yerləşir (1).

Sarısu gölü axmaz mənşəli olsa da, Muğan düzündə deyil, Mil düzündə yerləşir (2).

Acınohur gölü eyni adlı çökəklikdə (Acınohur) yerləşir, göl buzlaq mənşəli deyil, tektonik mənşəlidir (4). Nəticə olaraq 1, 2, 4 bəndləri doğru cavab olaraq qəbul edilməlidir.

Doğru cavab: 1, 2, 4

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 57 saylı test tapşırığı

7-ci sinif

2.1.1. Yer səthində relyefin müxtəlifliyinin yaranma səbəblərini şərh edir.

9-cu sinif

2.1.2. Geoloji xarakterli tematik xəritələri oxuyur.

10-cu sinif

2.1.2. Geoxronoloji cədvəli oxuyur.

Uyğunluğu müəyyən edin:

Dağlar:	*Dağəmələgəlmə mərhələləri:*
1. Sixote-Alin	a. Alp
2. Krım	b. Kimmeri
3. Skandinaviya	c. Hertsin
	d. Kaledon
	e. Baykal

“Litosfer. Yerin planetar və geoloji inkişaf mərhələsi. Faydalı qazıntılar” bölməsinə aid test tapşırığına abituriyentlərin 6.44%-i doğru cavab vermiş, 29.69%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda dağ silsilələrinin uyğun gəldiyi dağəmələgəlmə mərhələsinin müəyyən edilməsi tələb olunur.

Test tapşırığının yerinə yetirilməsi üçün Yer kürəsində olan dağların yerləşməsini, onların hansı geoloji mərhələyə aid olduğunu bilmək lazımdır.

Belə ki, Sixote-Alin dağları Mezozoy erasında baş vermiş Kimmeri qırışıqlığına aid edilir (1-b).

Krım dağları Kaynozoy erasında yaranan Alp qırışıqlığı dövrünə aid edilir (2-a).

Skandinaviya dağları isə Paleozoy erasında baş vermiş Hertsin və Kaledon qırışıqlıqları dövrünə aid edilir (3-c, d).

Doğru cavab: 1-b, 2-a, 3-c, d

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, situasiyaya aid 58-60 saylı tapşırıqlar

Ovalıqda yerləşən A məntəqəsində günorta vaxtı günəş şüalarının düşmə bucağı 6,5°-dir. Həmin gün 40° cənub enliyində günorta vaxtı günəş şüalarının düşmə bucağı 73,5° olur. A məntəqəsinin yerli vaxtı Bakı şəhərinin yerli vaxtından 80 dəqiqə irəlidir. Məntəqənin aid olduğu ölkədə həm platforma, həm də geosinklinal ərazilər vardır. Bu ölkə bolsulu çaylar və şirinsulu göllərlə zəngindir. Onun inzibati-ərazi quruluşu Avstriya ilə eynidir. Ölkənin ərazisində həm əsas, həm də keçid iqlim qurşaqları yayılmışdır. Bu ölkədə müxtəlif geoloji eralarda yaranmış dağlara rast gəlinir. Ölkədə, onun ərazisinin böyük hissəsinin aid olduğu qitənin ən ucqar şimal və şərq nöqtələri yarımadalarda yerləşir.

58. Mətnə əsasən A məntəqəsi və onun yerləşdiyi ölkəyə aid olan xüsusiyyətləri müəyyən edib cədvələ yazın.

Doğru cavab:

A məntəqəsində günəşin düşmə bucağı göstəricilərinin müşahidə edildiyi günü müəyyən edin və fikrinizi əsaslandıraraq yazın.	A məntəqəsinin coğrafi enliyini və uzunluğunu hesablayıb yazın.	A məntəqəsinin yerləşdiyi ölkənin ərazisinin böyük hissəsinin aid olduğu qitənin ucqar şimal və şərq nöqtələrinin adlarını yazın.
Gün: *22 dekabr (qış gündönümü)* ***Əsaslandırma:*** *40° cənub enliyində günəşin düşmə bucağı 73,5 dərəcədir. Deməli Günəş cənub tropikində zenitdədir, bu da 22 dekabr tarixidir.*	1. 60°şm.e. **Həlli:** 73,5°(90°-40°)=23,5° 6,5°-(90°-23,5°)=-60° 2. 70°ş.u. **Həlli:** 80:4=20° 50°+20°=70° Müxtəlif həll üsulları var.	1. Celyuskin burnu 2. Dejnyov burnu

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Cədvəlin bütün sütunları tam doğru yazılıb, əlavə səhv məlumat yazılmayıb və ya B. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 6 düz 1 səhv olduqda* *– 5 düz 0 səhv olduqda*
$\frac{2}{3}$	C. Cədvəl üzrə iki sütun doğru yazılıb, bir sütun səhv yazılıb və ya yazılmayıb və ya D. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 6 düz 2 səhv olduqda* *– 5 düz 1 səhv olduqda* *– 4 düz 0 səhv olduqda*

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$	E. Cədvəl üzrə bir sütun doğru yazılıb, digər sütunlar səhv yazılıb və ya yazılmayıb və ya
	F. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 6 düz 3 səhv olduqda* *– 5 düz 2 səhv olduqda* *– 4 düz 1 səhv olduqda* *– 3 düz 1 səhv olduqda* *– 3 düz 0 səhv olduqda* *– 2 düz 0 səhv olduqda*
0 bal	G. Digər başqa hallarda.

Qeyd: İkinci sütunda hesablama mütləq yazılmalıdır.

Tapşırıq vasitəsilə "Coğrafi məkan" məzmun xəttinin *8_1.3.2.* (*Kartoqrafik təsvirlər üzərində hesablamalar aparır*), *8_1.2.2.* (*Yerin hərəkətinin coğrafi nəticələri ilə həyatın inkişafı arasındakı əlaqəni izah edir*) və "Təbiət məzmun" xəttinin *7_2.1.2.* (*Fiziki xəritələri təhlil edir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq "Yer Günəş sistemində" bölməsinə aiddir. Abituriyentlərin 3.23%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 5.08%-i $\frac{2}{3}$ balla, 10.19%-i $\frac{2}{3}$ balla, 22.79%-i 0 balla qiymətləndirilmiş, 58.71%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

59. A məntəqəsinin yerləşdiyi ölkəni, onun ərazisində yerləşən yarımadaları və Mezozoy yaşlı dağları müəyyən edib cədvəldə yazın.

Doğru cavab:

A məntəqəsinin yerləşdiyi ölkənin adı	*A məntəqəsinin aid olduğu ölkədə yerləşən Mezozoy yaşlı dağların adları (ən azı iki dağ)*	*A məntəqəsinin yerləşdiyi ölkəyə aid olan yarımadaların adları (ən azı iki yarımada)*
Rusiya	1. Verxoyansk 2. Çersk 3. Sixote-Alin 4. Stanovoy	1. Taymır 2. Yamal 3. Qıdan 4. Kamçatka 5. Çukot 6. Kola 7. Taman

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Cədvəlin bütün sütunları tam doğru yazılıb, əlavə səhv məlumat yazılmayıb və ya
	B. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 5 düz 1 səhv olduqda* *– 4 düz 0 səhv olduqda* ***Qeyd: I sütunda Rusiya qeyd olunmaq şərti ilə***
$\frac{2}{3}$	C. Cədvəl üzrə iki sütun doğru yazılıb, bir sütun səhv yazılıb və ya yazılmayıb və ya
	D. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 5 düz 2 səhv olduqda* *– 4 düz 1 səhv olduqda* *– 3 düz 0 səhv olduqda* ***Qeyd: I sütunda Rusiya qeyd olunmaq şərti ilə***

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$	E. Cədvəl üzrə bir sütun doğru yazılıb, digər sütunlar səhv yazılıb və ya yazılmayıb və ya
	F. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 5 düz 3 səhv olduqda* *– 4 düz 2 səhv olduqda* *– 3 düz 1 səhv olduqda* *– 2 düz 0 səhv olduqda*
0 bal	G. Digər başqa hallarda.

Tapşırıq vasitəsilə "Təbiət məzmun" xəttinin *8_2.1.2.* (*Tektonik xəritələrdə litosfer tavalarının hərəkətinin nəticələrini oxuyur*) və *7_2.1.*6. *(Kontur xəritədə Dünya okeanının hissələrini qeyd edir)* altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq "Litosfer. Yerin planetar və geoloji inkişaf mərhələsi. Faydalı qazıntılar" və "Yer səthinin relyefi və ondan istifadə yolları" bölmələrinə aiddir. Abituriyentlərin 13.87%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 7.17%-i $\frac{2}{3}$ balla, 9.13%-i $\frac{1}{3}$ balla, 19.95%-i 0 balla qiymətləndirilmiş, 49.89%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

60. Mətnə əsasən A məntəqəsi və onun yerləşdiyi ölkəyə aid olan xüsusiyyətləri müəyyən edib cədvəldə yazın.

Doğru cavab:

A məntəqəsinin yerləşdiyi ölkədə mövcud olan əsas iqlim qurşağına aid olan iqlim tiplərinin adları (ən azı iki iqlim tipi)	***A məntəqəsinin yerləşdiyi ovalıq (I) və bu ovalıqdan axan ən böyük çay sistemi (II)***	***A məntəqəsinin olduğu ölkənin ərazisində yerləşən göllərin adları (ən azı iki göl)***
1. Mülayim musson 2. Mülayim dəniz 3. Mülayim kontinental 4. Kontinentinal və ya kəskin kontinentinal	1. Qərbi Sibir 2. Ob	1. Ladoqa 2. Oneqa 3. Baykal 4. Taymır 5. Baskunçak 6. Elton 7. Xəzər

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1 bal	A. Cədvəlin bütün sütunları tam doğru yazılıb, əlavə səhv məlumat yazılmayıb və ya
	B. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 6 düz 1 səhv olduqda* *– 5 düz 0 səhv olduqda*
$\frac{2}{3}$	C. Cədvəl üzrə iki sütun doğru yazılıb, bir sütun səhv yazılıb və ya yazılmayıb və ya
	D. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 6 düz 2 səhv olduqda* *– 5 düz 1 səhv olduqda* *– 4 düz 0 səhv olduqda*
$\frac{1}{3}$	E. Cədvəl üzrə bir sütun doğru yazılıb, digər sütunlar səhv yazılıb və ya yazılmayıb və ya
	F. Cədvəlin hər üç sütununda tələb olunanlardan *– 6 düz 3 səhv olduqda* *– 5 düz 2 səhv olduqda* *– 4 düz 1 səhv olduqda* *– 3 düz 1 səhv olduqda* *– 3 düz 0 səhv olduqda* *– 2 düz 0 səhv olduqda*
0	G. Digər başqa hallarda.

Tapşırıq vasitəsilə “Təbiət məzmun” xəttinin *9_2.1.4.* (*İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir*) və *10_2.1.5. (Quru sularının xüsusiyyətlərinə dair layihələr hazırlayır, təqdim edir.)* altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq “İqlim və onun təsərrüfata təsiri” və “Quru suları və onun təsərrüfatda rolu” bölmələrinə aiddir. Abituriyentlərin 3.76%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 6.43%-i $\frac{2}{3}$ balla, 9.83%-i $\frac{1}{3}$ balla, 26.46%-i 0 balla qiymətləndirilmiş, 53.52%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

25 may tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 72 saylı test tapşırığı

10-cu sinif

2.1.5. Quru sularının xüsusiyyətlərinə dair layihələr hazırlayır, təqdim edir.

Dünya okeanına çay və ya kanal vasitəsilə çıxışı mövcud olan göllər:

A) Xəzər, Ontario, Oneqa, Ladoqa

B) Eri, Aral, Viktoriya, Tanqanika

C) Xəzər, Titikaka, Viktoriya, Eyr

D) Xəzər, Aral, Balxaş, Ladoqa

E) Eyr, Oneqa, Xəzər, Cenevrə

“Quru suları və onun təsərrüfatda rolu” bölməsinə aid test tapşırığına abituriyentlərin 15.50%-i doğru cavab vermiş, 18.60%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda Dünya okeanına çıxışı olan göllərin müəyyən edilməsi tələb edilir.

Tapşırığın yerinə yetirilməsi üçün dünyanın fiziki xəritəsini bilmək tələb olunur. Tapşırıqda verilən bəndlərin təhlili göstərir ki, Xəzər dənizindən Volqa çayı, Volqa-Don kanalı və Don çayı vasitəsilə, Ontario gölündən Müqəddəs Lavrentiya çayının vasitəsilə, Oneqa gölündən Ağ dəniz-Baltik kanalı ilə, Ladoqa gölündən isə Neva çayı vasitəsilə Dünya okeanına çıxışları vardır.

Doğru cavab: A

25 may tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 84 saylı test tapşırığı

8-ci sinif

2.1.6. Okean sularının xüsusiyyətləri ilə bağlı hesablamalar aparır.

Exolotdan göndərilmiş səs siqnalının I çökəkliyin dərinliyinə gedib-qayıtma müddəti 3,6 saniyə, II çökəkliyə isə 5,2 saniyə olmuşdur. Çökəkliklərin dərinlikləri arasındakı fərqin neçə metr olduğunu hesablayın.

“Hidrosfer. Yerin su təbəqəsi” bölməsinə aid test tapşırığına abituriyentlərin 3.10%-i doğru cavab vermiş, 57.36%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda çökəkliklərin dərinlikləri arasındakı fərqin hesablanması tələb olunur.

Test tapşırığının yerinə yetirilməsi üçün səs siqnallarının gedib-qayıtma müddətini 2-yə bölüb, səs dalğasının suda sürətinə vurmaq lazımdır.

(3,6 : 2) x 1500 = 2700 (m) – birinci çökəkliyin dərinliyi

(5,2 : 2) x 1500 = 3900 (m) – ikinci çökəkliyin dərinliyi

Çökəkliklərin dərinliklərini müəyyən etdikdən sonra onlar arasındakı fərq tapılır:

(3900 m – 2700 m = 1200 m). Deməli, iki çökəkliyin dərinliyi arasındakı fərq 1200 m-dir.

Doğru cavab: 1200 (m)

1 iyun tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 5 saylı test tapşırığı

7-ci sinif

2.1.4. Hava elementlərinə dair sadə hesablamalar aparır.

8-ci sinif

2.1.8. Təbii zonalar xəritəsini oxuyur.

9-cu sinif

2.1.7. İqtisadiyyatın inkişafında bioehtiyatların və alternativ enerji ehtiyatlarının rolunu qiymətləndirir.

2.1.8. Yaşadığı ərazinin təbii komponentlərinə dair topladığı məlumatları təqdim edir

3.2.4. Təsərrüfat sahələrinin yerləşməsinin əlaqə prinsiplərinin sxemlərini qurur.

11-ci sinif

2.1.7. Bioloji ehtiyatlardan istifadəyə dair proqnozlar verir.

Cədvələ əsasən respublikamızda qış otlaqlarının yayıldığı məntəqəni müəyyən edin.

Məntəqə	***Orta illik temperatur***	***Rütubətlənmə əmsalı*** $(R._{ə.}=\frac{Y}{B})$
1	–5°C	0,5
2	+14°C	0,3
3	+25°C	1,7
4	+5°C	2,5
5	–10°C	0,2

A) 2 B) 5 C) 1 D) 4 E) 3

"Azərbaycan Respublikasının iqtisadiyyatı (sənayesi, k/t, nəqliyyatı və beynəlxalq iqtisadi əlaqələri)" bölməsinə aid test tapşırığına abituriyentlərin 12.74%-i doğru cavab vermiş, 32.70%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda verilən orta illik temperatur və rütubətlənmə şəraitinə əsasən qış otlaqlarının yerləşdiyi məntəqənin müəyyən edilməsi tələb olunur.

Tapşırığın yerinə yetirilməsi üçün qış otlaqlarının yayıldığı əraziləri müəyyən etmək lazımdır. Belə ki, qış otlaqları düzənlik ərazilərində yerləşir. Bu ərazilərdə orta illik temperatur 14 – 14,5°C, rütubətlənmə əmsalı 0,3-dən aşağıdır. Bu ərazilərdə yarımsəhra və quru çöl iqlimi hakimdir.

Doğru cavab: A

1 iyun tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 20 saylı test tapşırığı

9-cu sinif

2.1.8. Yaşadığı ərazinin təbii komponentlərinə dair topladığı məlumatları təqdim edir

Doğru sıraları müəyyən edin.

	Coğrafi obyekt	***Təbii vilayət***	***Tektonik zona***
1.	Qızılağac milli parkı	Lənkəran	Kür dağarası çökəkliyi
2.	Bozdağ silsiləsi	Kür dağarası çökəkliyi	Kür dağarası çökəkliyi
3.	Hərəmi düzü	Kiçik Qafqaz	Kiçik Qafqaz qalxması
4.	Şərur düzü	Orta Araz	Orta Araz əyilməsi
5.	Qızyurdu zirvəsi	Lənkəran	Kiçik Qafqaz qalxması

A) 2, 4, 5 B) 1, 2, 5 C) 1, 3, 4 D) 1, 3, 5 E) 2, 3, 4

"Azərbaycan Respublikasının fiziki coğrafi rayonlaşdırılması" bölməsinə aid test tapşırığına abituriyentlərin 12.87%-i doğru cavab vermiş, 28.34%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda verilmiş coğrafi obyektlərin müvafiq təbii vilayətlərdə və tektonik zonalarda yerləşməsini müəyyən etmək tələb olunur.

Tapşırığın yerinə yetirilməsi üçün bilmək lazımdır ki, Bozdağ silsələsi Kür dağarası çökəkliyi təbii vilayətində yerləşir, bu ərazilər Kür dağarası çökəkliyi tektonik zonasına uyğun gəlir (2). Şərur düzü Orta Araz təbii vilayətində yerləşir, bu ərazilər Orta Araz əyilməsi tektonik zonasına uyğun gəlir (4). Qızyurdu zirvəsi Lənkəran təbii vilayətində yerləşir, bu ərazilər Kiçik Qafqaz qalxması tektonik zonasına uyğun gəlir (5).

Doğru cavab: A

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 44 saylı test tapşırığı

7-ci sinif

2.1.5. Dünya okeanı və quru sularının fiziki-coğrafi xüsusiyyətlərini şərh edir.

10-cu sinif

2.1.5. Quru sularının xüsusiyyətlərinə dair layihələr hazırlayır, təqdim edir.

Doğru sıraları müəyyən edin.

Sıra	***Mənsəbin mütləq hündürlüyü***		
	Okean səviyyəsi	***Okean səviyyəsindən hündür***	***Okean səviyyəsindən aşağı***
I	Xuanxe	Orinoko	Lena
II	Nil	Darlinq	Araz
III	Missuri	Sırdərya	Volqa
IV	Limpopo	Mavi Nil	Ural

A) I, IV B) II, III C) III, IV D) II, IV E) I, II

"Quru suları və onun təsərrüfatda rolu" bölməsinə aid test tapşırığına abituriyentlərin 13.88%-i doğru cavab vermiş, 42.82%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda çayların mənsəblərinin mütləq hündürlüyünün müqayisə edilməsi tələb olunur.

Tapşırığın yerinə yetirilməsi üçün çayların mənsəblərinin mütləq hündürlüynü okean səviyyəsinə əsasən müqayisə etmək lazımdır.

Cədvəldəki çayların mənsəbinin mütləq hündürlüklərini müəyyən etdikdə məlum olur ki, verilən şərtlərə II və IV sıralarda yazılmış çaylar uyğun gəlir.

İkinci sırada olan Nil çayı Dünya okeanına (Aralıq dənizi), Darlinq çayı Murrey çayına (okean səviyyəsindən hündürdə), Araz çayı isə Kür çayına (okean səviyyəsindən aşağıda, – 11 m) tökülür.

Dördüncü sırada verilən Limpopo Hind okeanına tökülür. Mavi Nil okean səviyyəsindən yuxarıda Nil çayına, Ural çayı isə okean səviyyəsindən aşağıda Xəzər dənizinə tökülür.

Doğru cavab: D

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 57 saylı test tapşırığı

7-ci sinif

2.1.5. Dünya okeanı və quru sularının fiziki-coğrafi xüsusiyyətlərini şərh edir.

2.1.6. Kontur xəritədə dünya okeanının hissələrini qeyd edir.

Uyğunluğu müəyyən edin.

1. İslandiya adası
2. Sardiniya adası
3. Yapon adaları

a. Aralıq dənizində yerləşir.

b. Sahilləri iki okeanın suları ilə yuyulur.

c. Okean və materik tipli litosfer tavalarının toqquşma zonasında yerləşir.

d. Ərazisində yayılmış iqlim qurşağı tiplərə bölünmür.

e. Aid olduğu ölkə teokratik monarxiyadır.

"Hidrosfer. Yerin su təbəqəsi" bölməsinə aid test tapşırığına abituriyentlərin 8.32%-i doğru cavab vermiş, 17.95%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda ayrı-ayrı adalara aid xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur.

Tapşırığın yerinə yetirilməsi üçün aşağıdakı uyğunluğu bilmək lazımdır:

İslandiya adasının sahillərini iki okeanın suları yuyur (Atlantik və Şimal Buzlu), ada iqlim tiplərinə bölünməyən subarktika iqlim qurşağında yerləşir (1-b, d).

Sardiniya adası Aralıq dənizində yerləşir (2-a).

Yapon adaları okean və materik tipli litosfer tavalarının toqquşma zonasında yerləşir (3-c).

Verilmiş adalarda yerləşən ölkələrdən heç biri teokratik monarxiya deyildir.

Doğru cavab: 1-b, d; 2-a; 3-c

6 iyul tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 65 saylı test tapşırığı

9-cu sinif

3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.

11-ci sinif

3.2.4. İqtisadi göstəricilərə əsasən hesablamalar aparır, sxem və diaqramlar qurur.

Verilmiş fikirlərin aid olduğu faydalı qazıntı üçün doğru xüsusiyyətləri müəyyən edin.

– İdxalçıları Yaponiya, Braziliya, Qərbi Avropadır.

– İxracatçıları Avstraliya, ABŞ, CAR-dır.

– Yandırılarkən 1 kq-ın verdiyi istilik 7000 kkal-yə bərabərdir.

1. Paleozoy erasında formalaşmışdır.
2. Respublikamızda zəngin ehtiyatları mövcuddur.
3. Maqmatik mənşəli süxurlarda əmələ gəlir.
4. Dünyada ən çox ixrac olunan yanacaq növüdür.
5. Şərti yanacaq vahidi kimi qəbul edilir.
6. Üzvi mənşəli çökmə süxurdur.

A) 2, 5, 6 B) 2, 3, 4 C) 1, 3, 4 D) 1, 4, 5 E) 1, 5, 6

"Təbii ehtiyatlar və onlardan istifadə" bölməsinə aid test tapşırığına abituriyentlərin 8.85%-i doğru cavab vermiş, 35.40%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda verilmiş əlamətlərə əsasən yanacaq növünü və ona aid xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur.

Tapşırığın yerinə yetirilməsi üçün əlamətlərin aid olduğu yanacaq növünü (daş kömür) müəyyən etmək, sonra isə ona aid xüsusiyyətləri seçmək lazımdır.

Daş kömür yataqları Paleozoy erasında, xüsusilə onun Daş kömür dövründə daha çox formalaşmışdır (1).

Bu faydalı qazıntının 1 kiloqramının yanması zamanı verdiyi istilik (7000 kkal) şərti yanacaq vahidi kimi qəbul edilir (5).

Daş kömür üzvi mənşəli çökmə süxurlara aiddir (6).

Doğru cavab: E

6 iyul tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 81 saylı test tapşırığı

7-ci sinif

2.1.2. Fiziki xəritələri təhlil edir.

8-ci sinif

2.1.5. Dünya okeanında baş verən fiziki-kimyəvi və dinamik prosesləri təhlil edir.

9-cu sinif

2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir.

İki yarımkürədə yerləşən materiklərin oxşar xüsusiyyətləri:

1. Subtropik iqlim qurşağında bərabər rütubətli iqlim tipi formalaşır.
2. Dağ silsilələri Sakit okeanın iqlimə təsirini azaldır.
3. Şimala doğru havanın orta illik temperaturu azalır.
4. Ekvatorial iqlim qurşağı yoxdur.
5. Şərq sahillərindən isti okean cərəyanı keçir.
6. Mülayim iqlim qurşağı daha geniş sahə tutur.

A) 2, 5, 6 B) 2, 3, 6 C) 2, 4, 5 D) 1, 3, 6 E) 1, 3, 4

"Materiklərin coğrafiyası" bölməsinə aid test tapşırığına abituriyentlərin 6.19%-i doğru cavab vermiş, 46.02%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda iki yarımkürədə yerləşən materiklərin oxşar xüsusiyyətlərinin müqayisə edilməsi tələb olunur.

Test tapşırığının yerinə yetirilməsi üçün, ilk növbədə, iki yarımkürədə yerləşən materiklərin Şimali Amerika və Avstraliya olduğunu bilmək lazımdır. Daha sonra hər iki materikə aid oxşar xüsusiyətləri seçmək lazımdır. Tapşırıqda verilmiş bəndləri təhlil etdikdə məlum olur ki, hər iki materikdə dağ silsilələri Sakit okeanın iqlimə təsirini azaldır (2), ekvatorial iqlim qurşağı yoxdur (4), şərq sahillərindən isti okean cərəyanları (Qolfstrim və Şərqi Avstraliya) keçir (5).

Doğru cavab: C

13 iyul tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 1 saylı test tapşırığı
8-ci sinif
1.3.2. Kartoqrafik təsvirlər üzərində hesablamalar aparır.
10-cu sinif
2.1.6. Quru sularının xüsusiyyətlərinə dair hesablamalar aparır

Mənbəyi ilə mənsəbi arasındakı havanın temperatur fərqi 24ºC olan çayın miqyası 1: 5 000 000 olan xəritədə uzunluğu 8 sm-dir. Çayın orta meyilliyini müəyyən edin (m/km).

A) 4,2 B) 2,5 C) 10 D) 8 E) 0,7

"Quru suları və onun təsərrüfatda rolu" bölməsinə aid test tapşırığına abituriyentlərin 11.76%-i doğru cavab vermiş, 34.95%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda çayın mənbəyi və mənsəbi arasında havanın temperaturunun dəyişməsi əsasında onun orta meyilliliyinin müəyyən edilməsi tələb olunur.

Tapşırığın yerinə yetirilməsi üçün, ilk növbədə, çayın mənbəyi və mənsəbi arasında havanın temperatur fərqinə əsasən onun düşməsini müəyyən etmək lazımdır. Belə ki, hər 1000 m yuxarı qalxdıqda havanın temperaturu 6ºC azalırsa, çayın düşməsi 4000 m olur.

1000 m – 6ºC

x m – 24ºC

x = (1000 x 24) : 6 = 4000 m.

İkinci mərhələdə, xəritənin miqyası və çayın xəritədəki uzunluğuna əsasən çayın həqiqi uzunluğu müəyyən edilir.

1 sm – 50 km

8 sm – x

x = 50 x 8


x= 400 km

Alınmış kəmiyyətlərə əsasən çayın meyilliyini hesablamaq üçün çayın düşməsi onun uzunluğuna bölünür: 4000 m : 400 km = 10 m/km.

Doğru cavab: C

13 iyul tarixli imtahan, III ixtisas qrupu (TC altqrupu), A variantı, 12 saylı test tapşırığı
6-cı sinif
3.2.1. Ölkələri müxtəlif əlamətlərinə görə müqayisə edir.
7-ci sinif
2.1.2. Fiziki xəritələri təhlil edir.
8-ci sinif
3.2.1. Ölkələri inkişaf səviyyəsinə görə təhlil edir.
3.2.2. Xəritə üzərində ölkələri inkişaf səviyyəsinə görə qruplaşdırır.

Xəritə-sxemdə ştrixlənmiş ölkə üçün doğru fikirləri müəyyən edin.



1. İqliminə soyuq okean cərəyanı təsir edir.
2. Bütövlükdə tropik iqlim qurşağında yerləşir.
3. Aid olduğu materikin ucqar nöqtəsi burada yerləşir.
4. Materikin ən hündür zirvəsi burada yerləşir.
5. Materik və okean tipli litosfer tavalarının toqquşma sərhədində yerləşir.
6. Tropik işıqlanma qurşağında yerləşir.

A) 2, 4, 6 B) 2, 3, 4 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 3, 6

“Dünya ölkələrinin inkişaf xüsusiyyətləri (İnkişaf etmiş və İnkişaf etməkdə olan ölkələr)” bölməsinə aid test tapşırığına abituriyentlərin 9.72%-i doğru cavab vermiş, 33.70%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıqda ştrixlənmiş ölkənin müəyyən edilməsi və həmin ölkəyə aid xüsusiyyətlərin seçilməsi tələb olunur.

Tapşırığın yerinə yetirilməsi üçün əvvəlcə ştrixlənmiş ölkənin Somali olduğunu müəyyən etmək lazımdır. Daha sonra tapşırıqda verilən məlumatların təhlili göstərir ki, ölkənin sahillərindən soyuq Somali cərəyanı keçir (1), aid olduğu materikin (Afrikanın) ucqar şərq nöqtəsi olan Ras-Xafun burada yerləşir (3), ölkə tropik işıqlanma qurşağında yerləşir (6).

Doğru cavab: E

Riyaziyyat fənnindən ali təhsil müəssisələrinə I və II ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar müvafiq fənn kurikulumlarının təlim nəticələri, məzmun standartlarının tələbləri nəzərə alınmaqla, ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklər əsasında hazırlanmış qəbul proqramına tam uyğun olub.

Tapşırıqlar ***“Ədədlər və əməllər”, “Cəbr və funksiyalar”, “Həndəsə”, “Ölçmə”, “Statistika və ehtimal”*** məzmun xətləri üzrə 12 əsas və 187 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanlarında istifadə edilmiş tapşırıqların I ixtisas qrupu üzrə 20-si cəbr və 10-u həndəsəyə, II ixtisas qrupu üzrə isə 19-u cəbr və 11-i həndəsəyə aid olub. I ixtisas qrupu üzrə test blokuna açıq tipli həlli ətraflı yazı tələb edən üç tapşırıq daxil edilib və onlardan biri “Həndəsə” məzmun xəttinə aid isbat məsələsi olub. II ixtisas qrupu üzrə test blokuna isə həlli ətraflı yazı tələb edən üç tapşırıqlı situasiya məsələsi daxil edilib.

Abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədi ilə test bloklarına mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

Tapşırıqlarla, əsasən, aşağıda qeyd olunan bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi mümkün olub:

– ədədlər üzərində dəqiq və təqribi hesablamalar aparmaq;
– həyati məsələlərin həllində riyazi bilikləri tətbiq etmək;
– riyazi anlayışlara aid alqoritmləri yerinə yetirmək;
– rasional ifadələr üzərində eynilik çevrilmələri aparmaq;
– tənlik və bərabərsizlikləri həll etmək;
– riyazi kəmiyyətlər arasındakı asılılıqların qrafiki təsvirini mənimsəmək;
– həndəsi fiqurlarla, koordinatlar və vektorlarla əməliyyatların yerinə yetirilməsi;
– müstəvi fiqurların və fəza cisimlərinin xassələrini praktik həndəsi məsələlərin həllinə tətbiq etmək;
– statistik məlumatları toplamaq, araşdırmaq, sistemləşdirmək və nəticəsini təqdim etmək;
– statistika və ehtimal əsasında hadisənin baş vermə mümkünlüyünü proqnozlaşdırmaq;
– ətraf aləmdə ehtimal və statistikanın qanunauyğunluqlarının mövcudluğu haqqında məlumatları izah etmək, ehtimalın klassik modelinə əsasən hadisələrin baş verməsini proqnozlaşdırmaq.

İmtahan nəticələrinin statistik göstəricilər əsasında aparılan təhlili göstərib ki, hər iki ixtisas qrupu üzrə bir sıra abituriyentlər “Bərabərsizliklər və bərabərsizliklər sistemi”, “Birləşmələr nəzəriyyəsi”, “Ehtimal nəzəriyyəsi”, “Triqonometrik funksiyalar”, “Triqonometrik funksiyalar üçün toplama teoremi”, “Triqonometrik tənliklər”, “Funksiyalar və qrafiklər”, “İbtidai funksiya və inteqral”, “Üçbucaqlar”, “Çevrə və dairə”, “Fiqurların sahəsi”, “Hərəkət. Oxşarlıq”, “Vektorlar. Koordinatlar metodu”, “Çoxüzlülər, onların səthi və həcmi”, “Fəzada düz xətlər və müstəvilər” mövzularına aid tapşırıqları zəif cavablandırıb.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur.


25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 2 saylı test tapşırığı
8-ci sinif

3.1.3. Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının tərifini bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır.

ABC müxtəliftərəfli üçbucağında AB=5, BC=12, $\angle B < 90^\circ$ olarsa, AC tərəfinin ala biləcəyi tam qiymətlərin sayını tapın.

A) 3 B) 4 C) 6 D) 2 E) 7

8-ci sinifdə tədris olunan "Üçbucaqlar" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 16.20%-i doğru cavab verib, 27.56%-i isə cavab verməkdən imtina edib.



Həlli: $\angle B < 90^\circ$ olduğundan, $|BC - AB| < AC < \sqrt{AB^2 + BC^2}$. Buradan, $12 - 5 < AC < \sqrt{12^2 + 5^2}$, $7 < AC < 13$ olur. Deməli, AC=8, 9, 10, 11, 12 ola bilər. ABC üçbucağı müxtəliftərəfli üçbucaq olduğundan, AC=12 ola bilməz.

Doğru cavab: B

Abituriyentlərin zəif nəticə göstərmələrini üçbucaq bərabərsizliyini düzgün tətbiq edə bilməmələri ilə əlaqələndirmək olar.


25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 3 saylı test tapşırığı

10-cu sinif

3.2.3. Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir.

3.2.4. Piramidanın, kəsik piramidanın yan səthlərinin, tam səthlərinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir.

Həcmi 729 sm^3 olan kubdan tilləri AB=4 sm, AC=7 sm olan $DABC$ piramidası kəsilmişdir. Kubun qalan hissəsinin həcmini tapın.



A) 627 sm^3 B) 603 sm^3 C) 701 sm^3
D) 664 sm^3 E) 687 sm^3

10-cu sinifdə tədris olunan "Çoxüzlülər, onların səthi və həcmi" bölməsinə aid test tapşırığına abituriyentlərin 13.75%-i doğru cavab vermiş, 39.14%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Əvvəlcə kubun tili tapılır: $V_{kub} = a^3 \to a^3 = 729\,\text{sm}^3 \to a = 9\,\text{sm}$. Kubdan kəsilmiş $DABC$ piramidasının oturacağı katetləri AB və AC olan düzbucaqlı üçbucaq, hündürlüyü isə AD-yə bərabərdir. Şərtə əsasən AB=4 sm, AC=7 sm və AD=9 sm olduğu məlum düsturda nəzərə alınaraq piramidanın həcmi tapılır: $V_{piramida} = \frac{1}{3} \cdot S_{\Delta BAC} \cdot AD = \frac{1}{3} \cdot \frac{1}{2} \cdot AB \cdot AC \cdot AD = \frac{1}{6} \cdot 4 \cdot 7 \cdot 9 = 42\left(\text{sm}^3\right)$. Sonra kubun həcmindən kəsilmiş piramidanın həcmi çıxılır və qalan hissənin həcmi tapılır: $V = V_{kub} - V_{piramida} = 729\text{sm}^3 - 42\text{sm}^3 = 687\text{sm}^3$.

Doğru cavab: E

Abituriyentlərin zəif nəticə göstərmələrini çoxüzlülər haqqında təsəvvürlərinin az olması ilə əlaqələndirmək olar.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 11 saylı test tapşırığı

10-cu sinif


3.1.2. Fəzada düz xətlərin və müstəvilərin qarşılıqlı vəziyyətinə aid məsələlər həll edir.

Müstəvidən 8 dm məsafədə olan nöqtədən müstəviyə uzunluğu 16 dm olan mail çəkilmişdir. Perpendikulyarın mail üzərindəki proyeksiyasını tapın.

A) 4 dm B) 6 dm C) 8 dm D) 10 dm E) 5 dm

10-cu sinifdə tədris olunan "Fəzada düz xətlər və müstəvilər" bölməsinə aid test tapşırığına abituriyentlərin 17.23%-i doğru cavab vermiş, 36.79%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Müstəviyə endirilmiş BC perpendikulyarının uzunluğu 8 dm, BA mailinin uzunluğu 16 dm olduğundan məlum teoremə görə ACB düzbucaqlı üçbucağında $\angle BAC = 30^\circ$ olacaqdır. BC perpendikulyarının mail üzərində proyeksiyasının tapılması üçün C nöqtəsindən BA mailinə CD perpendikulyarı endirmək lazımdır.



I üsul. Bu zaman alınan *BDC* üçbucağı *BCA* üçbucağına oxşar olacaqdır. Əvvəlki üçbucaqda olduğu kimi, *BDC* üçbucağında da 30^o-lik bucağın qarşısındakı katet hipotenuzun yarısına bərabərdir, deməli $BD = \frac{1}{2} \cdot BC = 4(\text{dm})$.

II üsul. *BCA* düzbucaqlı üçbucağında *CD* perpendikulyarı endirildikdən sonra metrik münasibətlərə istinad edərək yazmaq olar ki, $BC^2 = BA \cdot BD \to 8^2 = 16 \cdot BD \to BD = 4\,\text{dm}$.

Doğru cavab: A

Abituriyentlərin zəif nəticə göstərmələrini tapşırığın həlli üçün lazım olan məlum faktları bilməmələri ilə əlaqələndirmək olar.


25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 17 saylı test tapşırığı
8-ci sinif
3.1.4. Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır.

Paraleloqramın hündürlükləri $6\sqrt{3}$ sm və 8 sm, onlar arasındakı bucaq 60^o-dir. Paraleloqramın sahəsini tapın.

A) $72\sqrt{3}$ sm^2 B) 32 sm^2 C) 96 sm^2 D) $48\sqrt{3}$ sm^2 E) 24 sm^2

8-ci sinifdə tədris olunan "Fiqurların sahəsi" bölməsinə aid test tapşırığına abituriyentlərin 13.79%-i doğru cavab verib, 44.25%-i isə cavab verməkdən imtina edib.

Həlli: *FBED* dördbucaqlısında iki daxili bucaq düz və $\angle EBF = 60^\circ$ olduğundan, $\angle ADC = 120^\circ$ olduğu alınar. Onda *ABCD* paraleloqramında iti bucaqlar 60^o-yə bərabər olar. Düzbucaqlı üçbucaqda 30°-lik bucağın qarşısındakı katetin xassəsindən istifadə edilərək ΔBEC-də *EC*=6 sm, *BC*=12 sm, ΔABF -də isə



$AF = \frac{8}{\sqrt{3}}$ sm, $AB = \frac{16}{\sqrt{3}}$ sm tapılır. Beləliklə, *ABCD* paraleloqramının tərəfləri *BC*=12 sm və $AB = \frac{16}{\sqrt{3}}$ sm, onların arasındakı bucaq $\angle B = 120^\circ$ olduğundan, sahə düsturuna əsasən $S = AB \cdot BC \cdot \sin\angle B = 12 \cdot \frac{16}{\sqrt{3}} \cdot \frac{\sqrt{3}}{2} = 96\ (\text{sm}^2)$ alınır.

Doğru cavab: C

Abituriyentlərin zəif nəticə göstərmələrini həndəsi biliklərinin az olması ilə əlaqələndirmək olar.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 22 saylı test tapşırığı
9-cu sinif
5.2.1. Birləşmələrin növlərini fərqləndirir və onlara aid sadə məsələləri həll edir.

2557776 yeddirəqəmli ədədinin rəqəmlərinin yerini dəyişməklə 6 rəqəmi ilə başlayan neçə müxtəlif yeddirəqəmli ədəd yazmaq olar?

A) 70 B) 60 C) 90 D) 30 E) 50

9-cu sinifdə tədris olunan "Birləşmələr nəzəriyyəsi" bölməsinə aid test tapşırığına abituriyentlərin 16.61%-i doğru cavab verib, 43.62%-i isə cavab verməkdən imtina edib.


Həlli: 2557776 yeddirəqəmli ədədində iki 5 və üç 7 rəqəmi var. 6 rəqəmi əvvəldə gələrsə, digər rəqəmlərin yerdəyişməsi sayı 6! olacaq. Lakin təkrar rəqəmlər olduğundan təkrarlı permutasiya-yerdəyişmənin xassəsini tətbiq etməklə mümkün düzülüşlərin sayı $\frac{6!}{2! \cdot 3!} = \frac{6 \cdot 5 \cdot 4 \cdot 3!}{2 \cdot 3!} = 60$ alınır.

Doğru cavab: B

Abituriyentlərin zəif nəticə göstərmələrini birləşmələr nəzəriyyəsi ilə bağlı biliklərinin az olması ilə izah etmək olar.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 23 saylı test tapşırığı
9-cu sinif
3.1.3. Çevrəyə toxunanın və kəsənin xassələrini tətbiq edir.

$\overset{\smile}{AB}:\overset{\smile}{BC}:\overset{\smile}{CD}:\overset{\smile}{DA}=12:8:2:3$ olarsa, AEB bucağının dərəcə ölçüsünü tapın.



9-cu sinifdə tədris olunan "Çevrə və dairə" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 10.50%-i doğru cavab verib, 38.41%-i isə cavab verməkdən imtina edib.

Həlli: $\overset{\smile}{AB}:\overset{\smile}{BC}:\overset{\smile}{CD}:\overset{\smile}{DA}=12:8:2:3$ olduğundan, $\overset{\smile}{AB}=12k$, $\overset{\smile}{BC}=8k$, $\overset{\smile}{CD}=2k$, $\overset{\smile}{DA}=3k$ olur.

Qövslərin dərəcə ölçülərinin cəmi 360° olduğundan, $12k+8k+2k+3k=360^\circ \to 25k=360^\circ \to k=\frac{72^\circ}{5}$

olur. $\angle AEB=\frac{\overset{\smile}{AB}-\overset{\smile}{CD}}{2}=\frac{12k-2k}{2}=5k=5\cdot\frac{72^\circ}{5}=72^\circ$ olar.

Doğru cavab: 72

Abituriyentlərin zəif nəticə göstərmələrini çevrədə kəsənlər arasındakı bucağın tapılması düsturunu bilməmələri ilə izah etmək olar.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 24 saylı test tapşırığı
9-cu sinif
2.2.3.Kvadrat bərabərsizliyi həll edir.

m-in hansı ən kiçik tam qiymətində $f(x)=x^2+2(m-5)x+m^2$ parabolasının təpə nöqtəsi I rübdə yerləşər?

9-cu sinifdə tədris olunan "Funksiyalar və qrafiklər" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 7.77%-i doğru cavab verib, 46.83%-i isə cavab verməkdən imtina edib.

Həlli: $f(x)=ax^2+bx+c$ funksiyasının qrafiki olan parabolanın $\left(\frac{-b}{2a};\frac{4ac-b^2}{4a}\right)$ təpə nöqtəsinin I rübdə yerləşməsi üçün

$$\begin{cases}\frac{-b}{2a}>0\\ \frac{4ac-b^2}{4a}>0\end{cases}\to\begin{cases}\frac{-2(m-5)}{2}>0\\ \frac{4\cdot1\cdot m^2-(2(m-5))^2}{4}>0\end{cases}\to\begin{cases}m-5<0\\ 4m^2-4(m-5)^2>0\end{cases}\to\begin{cases}m<5\\ m^2-(m^2-10m+25)>0\end{cases}\to$$

$$\to\begin{cases}m<5\\ m>2{,}5\end{cases}\to 2{,}5<m<5$$ olur. Bu aralıqda m-in ən kiçik tam qiyməti 3 olacaq.

Doğru cavab: 3

Abituriyentlərin zəif nəticə göstərmələrini tapşırığın həlli üçün lazım olan faktları bilməmələri ilə izah etmək olar.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 25 saylı test tapşırığı

10-cu sinif

2.1.2. Triqonometrik funksiyalar üçün çevirmə düsturlarını bilir və tətbiq edir.

2.1.3. Triqonometrik funksiyalar üçün toplama düsturlarını, onlardan alınan nəticələri bilir və tətbiq edir.

$\left(\sqrt{\frac{6\cos 25^\circ \cos 65^\circ}{\cos 40^\circ}}+1\right)\cdot 3\left(\sqrt{3}-1\right)$ ifadəsinin qiymətini tapın.

10-cu sinifdə tədris olunan "Triqonometrik funksiyalar üçün toplama teoremi" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 11.39%-i doğru cavab verib, 50.33%-i isə cavab verməkdən imtina edib.

Həlli: Tapşırığın həlli zamanı əvvəlcə kökaltı ifadədə $\sin\alpha=\cos\left(90^\circ-\alpha\right)$ çevirmə düsturu tətbiq edilərək $\cos 65^\circ=\cos\left(90^\circ-25^\circ\right)=\sin 25^\circ$ kimi, sonra isə $\sin 2\alpha=2\sin\alpha\cos\alpha$ ikiqat arqument düsturu tətbiq edilərək $2\sin 25^\circ\cdot\cos 25^\circ=\sin 50^\circ$ kimi yazılır. Yenə birinci düstura görə $\sin 50^\circ=\cos 40^\circ$ olduğu nəzərə alınır və yekunda çevrilmiş ifadəyə müxtəsər vurma düsturu tətbiq edilərək cavab tapılır:

$$\left(\sqrt{\frac{6\cos 25^\circ \cos 65^\circ}{\cos 40^\circ}}+1\right)\cdot 3\left(\sqrt{3}-1\right)=\left(\sqrt{\frac{3\cdot 2\cos 25^\circ \sin 25^\circ}{\cos 40^\circ}}+1\right)\cdot 3\left(\sqrt{3}-1\right)=\left(\sqrt{\frac{3\sin 50^\circ}{\cos 40^\circ}}+1\right)\cdot 3\left(\sqrt{3}-1\right)=$$

$$=\left(\sqrt{\frac{3\cos 40^\circ}{\cos 40^\circ}}+1\right)\cdot 3\left(\sqrt{3}-1\right)=3\left(\sqrt{3}+1\right)\left(\sqrt{3}-1\right)=3(3-1)=6.$$

Doğru cavab: 6

Abituriyentlərin zəif nəticə göstərmələrini triqonometrik funksiyalara çevirmə düsturlarını tətbiq edə bilməmələri ilə izah etmək olar.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı 26 saylı test tapşırığı

11-ci sinif

2.2.5. Müəyyən inteqralın tərifini bilir və Nyuton-Leybnis düsturunu tətbiq edir.

$\int_3^a \frac{dx}{x}=3\ln 2$ bərabərliyindən *a*-nı tapın.

11-ci sinifdə tədris olunan "İbtidai funksiya və inteqral" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 7.01%-i doğru cavab verib, 51.49%-i isə cavab verməkdən imtina edib.


Həlli: $\int_3^a \frac{dx}{x}=\ln|x|\Big|_3^a=\ln a-\ln 3=\ln\frac{a}{3}$. Şərtə görə $\ln\frac{a}{3}=\ln 2^3\rightarrow\frac{a}{3}=8\rightarrow a=24$ olur.

Doğru cavab: 24

Abituriyentlərin zəif nəticə göstərmələrini tapşırığın həlli üçün lazım olan faktları bilməmələri ilə izah etmək olar.

25 may tarixli imtahan, II ixtisas qrupu, A variantı situasiyaya aid 28-30 saylı tapşırıqlar:

Sandığın qapaq hissəsi yarımsilindr, aşağı hissəsi isə eni 0,6 m, uzunluğu 1 m, hündürlüyü 0,8 m olan düzbucaqlı paralelepiped formasındadır. Sandığa hər birinin kütləsi eyni olan 10 əşya qoyularsa, sandığın kütləsi 24 kq olar. Sandığa hər birinin kütləsi birinci dəfə qoyulan əşyaların birinin kütləsindən 20% çox olan 15 eyni kütləli əşya qoyduqda isə onun kütləsi 30 kq olar. Sandığın qapağının açılması üçün 4 rəqəmli parol təyin edildi.



28. Sandığın həcmini tapın (π=3).

Həlli: Tapşırığın həlli üçün sandıq iki hissəyə bölünür: düzbucaqlı paralelepiped formasında olan aşağı hissə və yarımsilindr formasında qapaq. Şərtə görə düzbucaqlı paralelepipedin uzunluğu b=1 m, eni a=0,6 m, hündürlüyü isə h=0,8 m olduğundan onun həcmi $V_1 = abh = 0{,}6 \cdot 0{,}8 \cdot 1 = 0{,}48\,(\text{m}^3)$ olacaqdır. Sandığın qapağı ox kəsiyi düzbucaqlı paralelepipedin üst oturacağı ilə üst-üstə düşən silindrin yarısı formasında olduğundan, yarımsilindrin oturacağının radiusu $R = \dfrac{0{,}6}{2} = 0{,}3\,(\text{m})$, hündürlüyü isə b=1 m olur. Ona görə də $V_2 = \dfrac{1}{2}\pi R^2 b = \dfrac{1}{2} \cdot 3 \cdot 0{,}3^2 \cdot 1 = 0{,}135\,(\text{m}^3)$ olar. Beləliklə, düzbucaqlı paralelepipedin və yarımsilindrin həcmləri toplanır və sandığın həcmi tapılır: $V = V_1 + V_2 = abh + \dfrac{1}{2}\pi R^2 b = 0{,}48 + 0{,}135 = 0{,}615\,(\text{m}^3)$.

Doğru cavab: 0,615 m^3

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Həll prosesi yazılaraq cavab ($0{,}615\,\text{m}^3$) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, lakin yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Düzbucaqlı paralelepipedin və yarımsilindirin həcmi tapılıb, lakin onların cəmi ***hesablanmayıb*** və ya ***səhv*** hesablanıb; D. Düzbucaqlı paralepipedin həcmi tapılıb, yarımsilindr əvəzinə silindirin həcmi ilə toplanılıb (yəni $V = 1 \cdot 0{,}6 \cdot 0{,}8 + 3 \cdot 0{,}3^2 \cdot 1 = 0{,}48 + 0{,}27 = 0{,}75$ yazılıb); E. Həll prosesi düzgün yazılıb, lakin vahid çevirməsində ***səhvə*** yol verilib;
$\frac{1}{3}$	F. Düzbucaqlı paralelepipedin həcmi düzgün hesablanıb, lakin yarımsilindrin həcmi ***tapılmayıb*** və ya ***yanlış*** tapılaraq paralelepipedin həcmi ilə cəmlənib; G. Silindrin radiusu ***səhvən*** 0,3-dən başqa ədəd seçilib və buna uyğun həll prosesi sona qədər düzgün yazılıb; H. Silindrin hündürlüyü 1-dən başqa ədəd seçilib və buna uyğun həll prosesi sona qədər aparılıb; I. Yalnız silindrin həcmi $V = \pi R^2 H = 0{,}27$ hesablanıb, lakin davamı ***yoxdur*** və ya ***yanlışdır***; J. Meyarın $\frac{2}{3}$ ballıq bəndinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verilib; K. Həll prosesi düzgün yazılıb, lakin 2 mexaniki ***səhvə*** yol verilib (Məsələn: $V_a = 0{,}6 \cdot 0{,}8 \cdot 1 = 4{,}8\,m^3$; $V_y = \dfrac{1}{2}\pi R^2 b = \dfrac{1}{2} \cdot 3 \cdot 0{,}3^2 \cdot 1 = 1{,}35\,m^3 \Rightarrow V = 6{,}15\,m^3$ və s.);
0	L. Birbaşa cavab ($0{,}615\,m^3$) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; M. Yalnız paralelepipedin oturacağının sahəsi tapılıb, davamı ***yoxdur*** və ya ***yanlışdır*** (yəni $S = 1 \cdot 0{,}6 = 0{,}16$ yazılıb); N. Yalnız $V = 2\pi R^2 H$, $V = \dfrac{1}{3}\pi R^2 H$ və sair kimi ***yanlış*** əmsallı düsturlar yazılaraq hesablama aparılıb, lakin davamı ***yoxdur*** və ya ***yanlışdır;*** O. Yalnız 0,6·0,8=0,48 yazılıb; **Bu bənd F bəndindən fərqləndirilməlidir!** P. Başqa tapşırığın həlli yazılıb; Q. Meyarın $\frac{1}{3}$ ballıq bəndinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verilib (Məsələn: $V_a = 0{,}6 \cdot 0{,}8 \cdot 1 = 4{,}8\,\text{m}^3$ və s.); R. Yalnız yarımsilindrin radiusu $R = \dfrac{0{,}6}{2} = 0{,}3\,\text{m}$ qeyd edilib, lakin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; S. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin *10_3.2.3.* (*Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir*) və *11_3.2.3.* (*Silindrin yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 4.48%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 3.41%-i $\frac{2}{3}$ balla, 5.12%-i $\frac{1}{3}$ balla, 18.57%-i 0 balla qiymətləndirilmiş, 68.42%-i isə yazı işini yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab vermələrini təhliletmə qabiliyyətlərinin zəif olmaları ilə əlaqələndirmək olar.

29. Boş sandığın kütləsini tapın.

Həlli:

I üsul. Sandığın kütləsi x kq, əvvəlcə sandığa qoyulan eyni kütləli 10 əşyadan birinin kütləsi də y kq olarsa, onda ikinci dəfə sandığa qoyulacaq əşyaların hər birinin kütləsi ilk dəfə qoyulan əşyalardan birinin kütləsindən 20% çox olduğu üçün $1{,}2y$ kq olar. Əgər sandığa ilk 10 əşya qoyularsa, məsələnin şərtinə görə $x+10y=24$ tənliyi, növbəti dəfə 15 əşya qoyularsa, $x+15\cdot 1{,}2y=30$ tənliyi ödənilər. Onda

$$\begin{cases} x+10y=24 \\ x+18y=30 \end{cases} \Rightarrow \begin{cases} -x-10y=-24 \\ x+18y=30 \end{cases} \Rightarrow \begin{cases} x+10y=24 \\ 8y=6 \end{cases} \Rightarrow \begin{cases} x+10y=24 \\ y=\frac{3}{4} \end{cases} \Rightarrow x+10\cdot\frac{3}{4}=24 \Rightarrow x=16{,}5\,(\text{kq})$$

olar.

II üsul. Birinci dəfə sandığa qoyulması nəzərdə tutulan əşyanın kütləsi y kq olarsa, onda ikinci dəfə sandığa qoyulması nzərədə tutulan əşyanın kütləsi şərtə görə 20% artıq, yəni $1{,}2y$ kq olacaqdır. Birinci halda sandığa 10 əşya, ikinci halda 15 əşya qoyulması nəzərdə tutulduğu üçün, uyğun olaraq, birinci halda sandığın kütləsi $24–10y$, ikinci halda isə $30–15\cdot 1{,}2y$ olacaqdır. Onda,

$24-10y=30-15\cdot 1{,}2y \rightarrow 18y-10y=30-24 \rightarrow 8y=6 \rightarrow y=\frac{3}{4}$ olur. Buradan, sandığın kütləsi

$24-10y=24-10\cdot\frac{3}{4}=16{,}5\,(\text{kq})$ tapılır.

Doğru cavab: 16,5 kq

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Həll prosesi yazılaraq cavab (16,5 *kq*) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Tapşırığın şərtinə uyğun tənliklər sistemi qurulub, lakin həll ***edilməyib*** və ya ***səhv*** həll edilib; D. Həll prosesi yazılaraq bir əşyanın (0,75) və ya əşyaların kütləsi (7,5) tapılıb, lakin sandığın kütləsi qeyd ***edilməyib*** və ya ***səhv*** qeyd edilib; E. Tapşırığın şərtinə uyğun tənliklər sistemi qurulub, lakin həll ***edilmədən*** birbaşa cavab (16,5 kq) yazılıb; **Bu bənd A bəndindən fərqləndirilməlidir!**
$\frac{1}{3}$	F. *Seçmə üsulu* ilə həll prosesi aparılaraq düzgün cavab tapılıb; G. Birinci dəfə sandığa qoyulması nəzərdə tutulan əşyaların ümumi kütləsi (7,5) birbaşa qeyd edilib və həll prosesi aparılaraq boş sandığın kütləsi (16,5) düzgün tapılıb;
0	H. Sandığın kütləsi nəzərə ***alınmadan*** həll prosesi yazılaraq cavab tapılıb $(10x=24; x=2{,}4;\ 2{,}4\cdot 1{,}2=2{,}88;\ 2{,}88\cdot 15=43{,}2;\ 43{,}2-30=13{,}2.)$; I. İkinci dəfə sandığa qoyulacaq əşyaların kütləsini tapmaq üçün ədədi silsilə düsturlarından istifadə edilib, lakin həll ***edilməyib*** və ya ***səhv*** həll edilib; J. Birbaşa cavab (16,5 *kq*) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır***; K. Tamamilə ***yanlış*** tənlik və ya tənliklər sistemi qurularaq həll prosesi yazılıb; L. Başqa tapşırığın həlli yazılıb; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə “Cəbr və funksiyalar” məzmun xəttinin *7_2.2.2.* (*Birdəyişənli xətti tənliyi, modul işarəsi daxilində dəyişəni olan tənliyi və ikidəyişənli iki xətti tənliklər sistemini həll edir*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 5.53%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 1.17%-i $\frac{2}{3}$ balla, 0.28%-i $\frac{1}{3}$ balla, 18.45%-i 0 balla qiymətləndirilib, 74.58%-i isə yazı işini yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün lazım olan tənlik və ya tənliklər sistemini qura bilməmələri ilə əlaqələndirmək olar.

30. Sandığın qapağının açılması üçün təyin edilmiş parolun rəqəmlərinin müxtəlif olması hadisəsinin ehtimalını tapın.

Həlli:

I üsul. Tapşırığın həlli zamanı kombinatorikanın elementlərindən istifadə olunur. Belə ki, parolun təyin edilməsi zamanı hər bir rəqəm 10 üsul ilə seçilə bildiyindən mümkün halların sayı $n=10^4$ üsul ilə müəyyən edilir. Digər tərəfdən seçilmiş dörd rəqəmin müxtəlif olması üçün əlverişli halların sayı $n(A)={}_{10}P_4=10\cdot9\cdot8\cdot7$ ədədinə bərabər olur. Ehtimalın klassik tərifinə əsasən A hadisəsinin baş vermə ehtimalı $P(A)=\frac{n(A)}{n}=\frac{{}_{10}P_4}{10^4}=\frac{10\cdot9\cdot8\cdot7}{10^4}=\frac{10\cdot9\cdot8\cdot7}{10\cdot10^3}=\frac{9\cdot8\cdot7}{1000}=\frac{63}{125}$ kimi tapılır.

II üsul. Tapşırığın şərtinə əsasən mümkün halların sayı $10\cdot10\cdot10\cdot10$ olar. Əlverişli halların sayı isə $10\cdot9\cdot8\cdot7$ olar. Ehtimalın klassik tərifinə əsasən axtarılan ehtimal $P=\frac{10\cdot9\cdot8\cdot7}{10\cdot10\cdot10\cdot10}=\frac{9\cdot7}{5\cdot5\cdot5}=\frac{63}{125}$ olur.

Doğru cavab: $\boldsymbol{\frac{63}{125}}$

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Tapşırığın həll prosesi *doğru* yazılıb və cavab ($\frac{63}{125}$) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb; C. Əlverişli halların sayı kəsrin surətində düzgün qeyd edilməklə ehtimal birdən kiçik *səhv* hesablanıb (məsələn: $P=\frac{7\cdot8\cdot9\cdot10}{10!}==\frac{1}{720}$) ($P$<1 şərti ödənilməlidir); D. Mümkün halların sayı düzgün tapılıb (10^4), lakin əlverişli halların sayı *səhv* qeyd edilib (məsələn: $\frac{{}_{10}C_4}{10^4}=\frac{21}{1000}$) ($P$<1 şərti ödənilməlidir); E. Parolun “0” rəqəmi ilə başlaya bilmədiyi qəbul edilərək $P=\frac{9\cdot9\cdot8\cdot7}{9\cdot10\cdot10\cdot10}=\frac{63}{125}$ yazılıb; Bu bənd A bəndindən fərqləndirilməlidir!
$\frac{1}{3}$	F. Əlverişli halların sayı düzgün qeyd edilib (${}_{10}P_4=5040$ və ya $10\cdot9\cdot8\cdot7=5040$), (Burada əlverişli hallar kəsrin surətində yazılmaqla ehtimal 1-dən böyük tapılan hallar ola bilər. Məsələn: $\frac{10\cdot9\cdot8\cdot7}{{}_{10}C_4}=24$); G. Mümkün halların sayı düzgün tapılıb (10^4), lakin həll prosesinin davamı *yoxdur* və ya *səhv* hesablanıb; H. Rəqəmlərin sayı 9 qəbul edilərək $\frac{{}_9P_4}{9^4}=\frac{112}{243}$ və ya $\frac{9\cdot8\cdot7\cdot6}{9^4}=\frac{112}{243}$ kimi hesablama aparılıb; I. Meyarın $\frac{2}{3}$ ballıq bəndlərinə uyğun həll zamanı mexaniki *səhvə* yol verilib;

Bal şkalası	Meyarlar
0	J. $\frac{1}{10}\cdot\frac{1}{9}\cdot\frac{1}{8}\cdot\frac{1}{7}=\frac{1}{5040}$ və ya $\frac{{}_{10}C_4}{10\cdot9\cdot8\cdot7}=\frac{1}{24}$ kimi düzgün *olmayan* ehtimallar hesablanıb (yəni əlverişli hallar məxrəcdə yazılıb və ya bütün mümkün hallar kəsrin surətində yazılıb); Bu bənd F bəndindən fərqləndirilməlidir! K. ${}_{10}P_4$ qeyd olunub, lakin *hesablanmayıb* və ya *səhv* hesablanıb; L. Başqa tapşırığın həlli yazılıb; M. *Səhvən* $P=\frac{4\cdot3\cdot2\cdot1}{{}_{10}C_4}$ və s. uyğun *olmayan* ehtimallar hesablanıb; N. Meyarın H bəndinə uyğun həll zamanı mexaniki *səhvə* yol verilib; O. Birbaşa cavab ($\frac{63}{125}$) yazılıb, həll prosesi *yazılmayıb* və ya tamamilə *yanlışdır*; P. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Ehtimal və statistika" məzmun xəttinin *9_5.2.3.* (*Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 0.72%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0.26%-i $\frac{2}{3}$ balla, 1.39%-i $\frac{1}{3}$ balla, 25.77%-i 0 balla qiymətləndirilib, 71.84%-i isə yazı işini yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab vermələrini ehtimal nəzəriyyəsi ilə bağlı biliklərinin az olması ilə əlaqələndirmək olar.

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 6 saylı test tapşırığı

9-cu sinif

5.2.1. Birləşmələrin növlərini fərqləndirir və onlara aid sadə məsələləri həll edir.

Cədvəldə fənlər üzrə kitabların sayı verilmişdir. Hər fənn üzrə kitabların müxtəlif olduğunu bilərək eyni fənnə aid kitablar yan-yana olmaq şərtilə bütün kitabları rəfə neçə üsulla düzmək olar?

Azərbaycan dili	2
Riyaziyyat	3
Kimya	2
Coğrafiya	1

A) 360 B) 576 C) 720 D) 144 E) 288

9-cu sinifdə tədris olunan "Birləşmələr nəzəriyyəsi" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 18.89%-i doğru cavab vermiş, 46.37%-i isə cavab verməkdən imtina etmişdir.

***Həlli**:* 2 fərqli Azərbaycan dili, 3 fərqli riyaziyyat, 2 fərqli kimya və 1 coğrafiya kitablarının hər birini uyğun olaraq 1 Azərbaycan dili, 1 riyaziyyat, 1 kimya və 1 coğrafiya kitabı kimi düşündükdə, bu dörd kitab rəfə 4! fərqli şəkildə düzülə bilər. Amma hər fənnin kitabları da öz aralarında müxtəlif olduqlarından 2 Azərbaycan dili, 3 riyaziyyat, 2 kimya və 1 coğrafiya kitabları öz aralarında uyğun olaraq 2!, 3!, 2! və 1! üsulla yer dəyişə bilər. Onda vurma prinsipinə əsasən 2 fərqli Azərbaycan dili, 3 fərqli riyaziyyat, 2 fərqli kimya və 1 coğrafiya kitablarını hər fənnin kitabları yan-yana olmaqla rəfə $4!\cdot2!\cdot3!\cdot2!\cdot1!=24\cdot2\cdot6\cdot2\cdot1=576$ üsulla düzmək olar.

Doğru cavab: B

Abituriyentlərin zəif nəticə göstərmələrini birləşmələr nəzəriyyəsi ilə bağlı biliklərinin az olması ilə izah etmək olar.


1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 22 saylı test tapşırığı

10-cu sinif

2.2.2. Funksiyanın qrafiki anlayışını bilir, funksiyanın dövriliyini, təkliyini, cütlüyünü, monotonluğunu araşdırır, qrafikləri çevirməyi bacarır.

$y=f(x)$ funksiyasının qrafiki verilmişdir. $f(4-3x^2)=0$ tənliyinin neçə müxtəlif həqiqi kökü var?

A) 6 B) 1 C) 5 D) 3 E) 2



10-cu sinifdə tədris olunan "Funksiyalar və qrafiklər" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 18.52%-i doğru cavab verib, 48.61%-i isə cavab verməkdən imtina edib.

***Həlli**:* Qrafikdən aydın olur ki, $f(-5)=0$ və $f(4)=0$. $f(4-3x^2)=0$ olduğundan,

1. $4-3x^2=-5\Rightarrow 3x^2=9\Rightarrow x^2=3\Rightarrow x=\pm\sqrt{3}$;

2. $4-3x^2=4\Rightarrow 3x^2=0\Rightarrow x^2=0\Rightarrow x=0$ olur.

Deməli, $f(4-3x^2)=0$ tənliyinin 3 müxtəlif həqiqi kökü var.

Doğru cavab: D

Abituriyentlərin zəif nəticə göstərmələrini funksiyaların araşdırılması ilə bağlı biliklərinin az olması ilə izah etmək olar.

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 28 saylı test tapşırığı

Elmir və Gülnarın da olduğu düşərgədə Elmir oğlanların sayının qızların sayına nisbətini hesablayanda özünü və Gülnarı saymağı unudur və $\frac{3}{5}$ kəsrini tapır. Gülnar isə oğlanların sayının qızların sayına nisbətini hesablayanda özünü saymağı yaddan çıxarır, Elmiri isə iki dəfə sayır və nəticədə $\frac{2}{3}$ kəsrini tapır. Düşərgədə neçə uşaq var?

***Həlli**:*

I üsul. Oğlanların sayını x ilə, qızların sayını isə y ilə işarə etdikdə, məsələnin şərtlərinə əsasən aşağıdakı tənliklər sistemi alınır:

$$\begin{cases}\dfrac{x-1}{y-1}=\dfrac{3}{5},\\ \dfrac{x+1}{y-1}=\dfrac{2}{3}\end{cases}$$

Sistemin tənliklərini tərəf-tərəfə böldükdə: $\frac{x-1}{y-1}:\frac{x+1}{y-1}=\frac{3}{5}:\frac{2}{3}$, $\frac{x-1}{x+1}=\frac{9}{10}$, $10x-10=9x+9\Rightarrow x=19$ alınır. x=19 olduğunu sistemin birinci tənliyində nəzərə aldıqda: $\frac{19-1}{y-1}=\frac{3}{5}\Rightarrow y=31$ alınır. Beləliklə, düşərgədə olan uşaqların ümumi sayı $x+y$=19+31=50 olar.

II üsul. $\begin{cases}\dfrac{x-1}{y-1}=\dfrac{3}{5}\\ \dfrac{x+1}{y-1}=\dfrac{2}{3}\end{cases}\Rightarrow\begin{cases}5x-3y=2\\ 3x-2y=-5\end{cases}\Rightarrow\begin{cases}10x-6y=4\\ -9x+6y=15\end{cases}\Rightarrow x=19$

Deməli, qızların sayı $10\cdot 19-6y=4\Rightarrow y=31$. Onda düşərgədə olan uşaqların ümumi sayı 31+19=50 olar.

Doğru cavab*: *50

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Həll prosesi yazılaraq cavab (50) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb; C. Tapşırığın şərtinə uyğun düzgün tənliklər sistemi qurularaq həll edilib və qızlarla oğlanların sayı düzgün tapılıb, lakin onların cəmi *hesablanmayıb* və ya *səhv* hesablanıb; D. Tapşırığın şərtinə uyğun düzgün tənliklər sistemi qurulub və həll prosesi *yazılmadan* birbaşa cavab (50) yazılıb; Bu bənd A bəndindən fərqləndirilməlidir!
$\frac{1}{3}$	E. Tapşırığın şərtinə uyğun düzgün tənliklər sistemi qurulub, lakin həll *edilməyib* və ya *yanlış* həll edilib; F. *Seçmə üsulu* ilə həll prosesi yazılıb, oğlanların sayı 19, qızların sayı 31 tapılaraq onların cəmi düzgün qeyd edilib (burada tənliklərdən biri düzgün qurula bilər); G. Tənliklər sisteminə daxil olan tənliklərdən biri düzgün tərtib edilib, digərində isə *səhvə* yol verilib və həll prosesi buna uyğun olaraq sona qədər düzgün yazılıb; (məsələn: $\begin{cases}\frac{x-1}{y-1}=\frac{3}{5}\\ \frac{x+2}{y-1}=\frac{2}{3}\end{cases}\Rightarrow x=28; y=46; x+y=74)$;
0	H. Birbaşa cavab (50 və ya 19+31=50) yazılıb, həll prosesi isə *yazılmayıb* və ya *yanlışdır*; I. Tamamilə *yanlış* tənlik və ya tənliklər sistemi qurularaq həll prosesi yazılıb (məsələn: $\begin{cases}\frac{y-1}{x-1}=\frac{3}{5}\\ \frac{y-1}{x+1}=\frac{2}{3}\end{cases}$ yəni kəsrin surət və məxrəcinin yerləri tərsinə yazılıb); J. Tənliklər sisteminə daxil olan tənliklərdən biri düzgün tərtib edilib, digərində isə *səhvə* yol verilib və həll prosesi sona *çatdırılmayıb* və ya əlavə *səhvə* yol verilib; K. Yalnız bir tənlik yazılıb, digəri isə *yazılmayıb*; L. Başqa tapşırığın həlli yazılıb; M. $\frac{3k+1}{5k+1}=\frac{2k-1}{3k+1}$ tənliyi qurularaq həll edilib; N . Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "*Cəbr və funksiyalar*" məzmun xəttinin *9_2.1.1.* (*Həyati situasiyaya uyğun birdəyişənli tənlik və ya ikidəyişənli iki tənliklər sistemi tərtib edir*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 15.17%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 2.69%-i $\frac{2}{3}$ balla, 5.38%-i $\frac{1}{3}$ balla, 21.96%-i 0 balla qiymətləndirilmiş, 54.80%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini tapşırığın həlli üçün lazım olan faktları bilməməklə əlaqələndirmək olar.

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 29 saylı test tapşırığı

Düzbucaqlı paralelepiped, piramida və kubun oturacaqları konqruyent kvadratdan ibarətdir. Düzbucaqlı paralelepipedin həcmi piramida və kubun həcmlərinin cəminə bərabərdir. Düzbucaqlı paralelepiped və piramidanın hündürlükləri 6 sm olarsa, onların oturacağının tərəfini tapın.

Həlli:

I üsul. Düzbucaqlı paralelepiped, piramida və kubun oturacaqları olan konqruyent kvadratların tərəfini a ilə işarə etdikdə və düzbucaqlı paralelepipedin həcmi piramida və kubun həcmlərinin cəminə bərabər və düzbucaqlı paralelepiped və piramidanın hündürlükləri 6 sm olduğundan,

$$V_{d.p}=V_{piramida}+V_{kub}\Rightarrow a\cdot a\cdot 6=\frac{1}{3}a^2\cdot 6+a^3\Rightarrow 6a^2=2a^2+a^3\Rightarrow 4a^2=a^3\Rightarrow a=4$$

II üsul. Konqruyent kvadratların tərəfi a olarsa, onda

$$a^2 \cdot h = \frac{1}{3}a^2 \cdot h + a^3 \Rightarrow a^2 \cdot h = a^2 \cdot (\frac{1}{3}h + a) \Rightarrow a = \frac{2}{3}h = \frac{2}{3} \cdot 6 = 4.$$

Doğru cavab: 4

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Həll prosesi yazılaraq cavab (4) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb (məsələn: $6a^2 = \frac{1}{3}a^2 \cdot 6 + a^3 \Rightarrow 6a^2 = 3a^2 + a^3 \Rightarrow a = 3$);
$\frac{1}{3}$	C. *Seçmə üsulla* $a = 4$ olduğu tapılıb; D. $a^2 \cdot h = \frac{1}{3}a^2 \cdot h + a^3$ və ya $a^2 \cdot 6 = \frac{1}{3}a^2 \cdot 6 + a^3$ olduğu yazılıb, lakin davamı *yoxdur* və ya *yanlışdır*; E. Piramidanın həcm düsturunda $\frac{1}{3}$ əmsalı qeyd *edilməyib* (yəni $6a^2 = 6a^2 + a^3 \Rightarrow a = 0$) və ya əvəzinə $\frac{4}{3}$ (yəni $6a^2 = \frac{4}{3}a^2 \cdot 6 + a^3 \Rightarrow a = -2$) yazılaraq həll prosesi sona qədər düzgün aparılıb;
0	F. Başqa tapşırığın həlli yazılıb; G. Birbaşa cavab (4) yazılıb, həll prosesi isə *yazılmayıb* və ya *yanlışdır*; H. Həcm əvəzinə sahə düsturlarından istifadə edilərək hesablama aparılıb; I. $abc = \frac{1}{3}S_{ot}h + a^3$ yazılıb; J. $6ab = 2a^2 + a^3 \Rightarrow 6b = 2a + a^2$ (və ya $6b = a(2 + a)$) yazılıb; K. Digər bütün hallarda.


Tapşırıq vasitəsilə "*Həndəsə*" məzmun xəttinin *10_3.2.3*. (*Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir*) və *10_3.2.4.* (*Piramidanın, kəsik piramidanın yan səthlərinin, tam səthlərinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 16.68%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 1.51%-i $\frac{2}{3}$ balla, 0.55%-i $\frac{1}{3}$ balla, 17.23%-i 0 balla qiymətləndirilmiş, 64.02%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.


Abituriyentlərin tapşırığa zəif cavab vermələrini fəza fiqurları haqqında təsəvvürlərinin az olması ilə əlaqələndirmək olar.

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 30 saylı test tapşırığı

Mərkəzi O nöqtəsində olan çevrədə $AB \| CD$, $BO \perp OC$ olarsa, CD vətərinin mərkəzdən olan məsafəsinin AB vətərinin yarısına bərabər olduğunu isbat edin.




İsbatı:



I üsul. 1. *O* nöqtəsindən keçməklə *AB* və *CD* vətərlərinə perpendikulyar düz xətt çəkib, onun *AB* və *CD* vətərləri ilə kəsişmə nöqtələrini, uyğun olaraq, *E* və *F* ilə işarə edib, *EBO* üçbucağında $\angle B = \alpha$ və $\angle EOB = \beta$ işarə etdikdə, $\alpha + \beta = 90^\circ$ olduğundan, *FCO* üçbucağında da $\angle C = \beta$ və $\angle FOC = \alpha$ olar. $OB \cong OC = R$ olduğundan, üçbucaqların konqruyentliyinin *BTB* əlamətinə əsasən $\Delta EBO \cong \Delta FOC$ olar. Deməli, $OF \cong EB$.

2. Digər tərəfdən çevrənin *O* mərkəzindən *AB* vətərinə çəkilən perpendikulyar bu vətəri yarıya böldüyündən $AE \cong EB.\ EB = \frac{AB}{2}$ və $OF \cong EB$ olduğundan,

$OF = \frac{AB}{2}$ olduğu tapılır.



II üsul. 1. *O* nöqtəsindən keçməklə *AB* və *CD* vətərlərinə perpendikulyar düz xətt çəkib, onun *AB* və *CD* vətərləri ilə kəsişmə nöqtələrini, uyğun olaraq, *E* və *F* ilə işarə edib, *EBO* üçbucağında $\angle B = \alpha$ və $\angle EOB = \beta$ işarə etdikdə, $\alpha + \beta = 90^\circ$ olduğundan *FCO* üçbucağında da $\angle C = \beta$ və $\angle FOC = \alpha$ olar. $OB \cong OC = R$ olduğundan, *OFC* üçbucağında $\sin\beta = \frac{OF}{R}$ və *OEB* üçbucağında $\sin\beta = \frac{EB}{R}$ olduğundan, $\frac{OF}{R} = \frac{EB}{R} \Rightarrow OF \cong EB$.

2. Digər tərəfdən çevrənin *O* mərkəzindən *AB* vətərinə çəkilən perpendikulyar bu vətəri yarıya böldüyündən $AE \cong EB$. $EB = \frac{AB}{2}$ və $OF \cong EB$ olduğundan,

$OF = \frac{AB}{2}$ olduğu tapılır.

Teorem isbat olundu.

Qiymətləndirmə meyarlar

Bal şkalası	**Meyarlar**
1	A. Üçbucaqların konqruyentliyi (bərabərliyi) göstərilərək çevrənin mərkəzindən vətərə çəkilən perpendikulyarın həmin vətəri yarıya böldüyü qeyd olunaraq *OF* parçasının *AB* vətərinin yarısına bərabər olduğu isbat olunub;
$\frac{2}{3}$	B. I üsulda $\Delta EBO \cong \Delta FOC$ olduğu isbat edilib, lakin *AB* vətərinin yarıya bölünməsi tətbiq *edilmədiyi* üçün isbat *tamamlanmayıb*; C. II üsulda $OB \cong OC = R$ işarə edilib, *OFC* üçbucağında $\sin\beta = \frac{OF}{R}$ və *OEB* üçbucağında $\sin\beta = \frac{EB}{R}$ olduğunu və $\frac{OF}{R} = \frac{EB}{R} \Rightarrow OF \cong EB$ yazır, lakin *AB* vətərinin yarıya bölünməsi tətbiq *edilmədiyi* üçün isbat *tamamlanmayıb*; D. $\Delta EBO \cong \Delta FOC$ olduğu isbat edilib, lakin çevrə mərkəzindən çevrəyə çəkilən perpendikulyarın vətəri yarıya böldüyü qeyd *edilməyib*, lakin $AB=2OF$ olduğu, buradan da $OF = \frac{AB}{2}$ bərabərliyi qeyd edilib (Perpendikulyarın vətəri yarı böldüyü şəkil üzərində də *göstərilməyib*);

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$	E. $\angle EBO = \angle FOC$, $\angle EOB = \angle FCO$ və $\angle OEB = 90^\circ$ olduğu tapılıb, lakin isbat *tamamlanmayıb*;
0	F. *ABCD* dördbucaqlısı bərabəryanlı trapesiya kimi qəbul edilib və düzgün *olmayan* həll prosesi aparılıb; G. Yalnız mərkəzdən çəkilən perpendikulyarın vətəri yarı böldüyü qeyd edilib; H. *BD* və *AC* parçalarını çəkərkən onların diametr olduğunu nəzərə alaraq qarşılıqlı bucaqların 90^o olduğu qeyd edilib, $\angle AOB = \angle DOC = 90^\circ$ olduğu göstərilərək $AB = DC = R\sqrt{2}$ olduğu qeyd olunaraq isbat edilib; I. Üçbucağın bucaqları 45^o, 45^o, 90^o və ya 30^o, 60^o, 90^o kimi götürülərək isbat edilib; J. Yalnız çevrənin mərkəzindən vətərə çəkilən perpendikulyarın həmin vətəri yarıya böldüyü qeyd olunaraq *OF* parçasının *AB* vətərinin yarısına bərabər olduğu yazılıb; K. Yalnız şəkil üzərində müəyyən qeydlər yazılıb; L. Başqa tapşırığın həlli yazılıb; M. Üçbucaqların konqruyent olduğu yazılıb, davamı *yoxdur* və ya *yanlışdır*; N. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "*Həndəsə*" məzmun xəttinin *9_3.1.3*. (*Çevrəyə toxunanın və kəsənin xassələrini tətbiq edir*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 1.52%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 0.57%-i $\frac{2}{3}$ balla, 0.76%-i $\frac{1}{3}$ balla, 32.74%-i 0 balla qiymətləndirilmiş, 64.41%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.


Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbi kimi nəzəri materialı bilməmələrini göstərmək olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 2 saylı test tapşırığı

9-cu sinif

3.1.3. Çevrəyə toxunanın və kəsənin xassələrini tətbiq edir.

A nöqtəsindən çevrəyə *AB* toxunanı və *AC* kəsəni çəkilmişdir. $AM = 3\sqrt{3}$ sm, $\cup BnM : \cup MkC = 1:2$ və $AB \perp BC$ olarsa, çevrənin radiusunu tapın.




A) $3\sqrt{3}$ sm B) $6\sqrt{3}$ sm C) 9 sm

D) $9\sqrt{3}$ sm E) 6 sm

9-cu sinifdə tədris olunan "Çevrə və dairə" bölməsinə aid test tapşırığına abituriyentlərin 15.34%-i doğru cavab vermiş, 48.69%-i isə cavab verməkdən imtina etmişdir.

***Həlli**:* Şərtə görə $AB \perp BC$ olduğundan məlumdur ki, *B* toxunma nöqtəsinə çəkilmiş radius da *AB*-yə perpendikulyardır. Buradan alınır ki, *BC* çevrənin diametridir. Onda, $\cup BnM : \cup MkC = 180^\circ$. Şərtə görə $\cup BnM : \cup MkC = 1:2$. Burada $\cup BnM = x$ olarsa, $\cup MkC = 2x$ olar. Onda, $x+2x=180^o$ və $x = \cup BnM = 60^\circ$ alınır. *ACB* bucağı daxilə çəkilmiş bucaq olduğu üçün söykəndiyi $\cup BnM$ -in yarısına, yəni 30^o-yə bərabər olacaq.



Onda düzbucaqlı *ABC* üçbucağından $\angle CAB = 60^\circ$ olar. $CB=2R$ olarsa, ΔABC -də $AB = \frac{2R}{\sqrt{3}}$ və $AC = \frac{4R}{\sqrt{3}}$ alınır. Çevrədə kəsən və toxunanlar arasında metrik münasibətə $\left(AB^2 = AM \cdot AC\right)$ əsəsən $\left(\frac{2R}{\sqrt{3}}\right)^2 = 3\sqrt{3} \cdot \frac{4R}{\sqrt{3}}$ olar. Buradan isə $R=9$ alınır.

Doğru cavab: C

Abituriyentlərin zəif nəticə göstərmələrini həndəsi biliklərinin az olması ilə əlaqələndirmək olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 4 saylı test tapşırığı
10-cu sinif
2.1.2. Triqonometrik funksiyalar üçün çevirmə düsturlarını bilir və tətbiq edir.

$\frac{\sqrt{3}}{\sin 20^\circ} - \frac{1}{\cos 20^\circ}$ ifadəsinin qiymətini tapın.

A) 4 B) –4 C) –1 D) 0 E) 1

10-cu sinifdə tədris olunan "Triqonometrik funksiyalar" bölməsinə aid test tapşırığına abituriyentlərin 11.38%-i doğru cavab vermiş, 54.02%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli:

$$\frac{\sqrt{3}}{\sin 20^\circ} - \frac{1}{\cos 20^\circ} = \frac{\sqrt{3}\cos 20^\circ - \sin 20^\circ}{\sin 20^\circ \cdot \cos 20^\circ} = \frac{2 \cdot \left(\frac{\sqrt{3}}{2}\cos 20^\circ - \frac{1}{2}\sin 20^\circ \right)}{\sin 20^\circ \cdot \cos 20^\circ} = \frac{2 \cdot \left(\sin 60^\circ \cos 20^\circ - \cos 60^\circ \sin 20^\circ\right)}{\sin 20^\circ \cdot \cos 20^\circ} =$$

$$= \frac{4 \cdot \sin\left(60^\circ - \sin 20^\circ\right)}{2 \cdot \sin 20^\circ \cdot \cos 20^\circ} = \frac{4 \sin 40^\circ}{\sin 40^\circ} = 4$$


Doğru cavab: A

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini triqonometrik funksiyalar üçün çevirmə düsturlarını düzgün tətbiq edə bilməmələri ilə əsaslandırmaq olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 6 saylı test tapşırığı
8-ci sinif
1.2.5. Nisbət və tənasübün xassələrini, faizin düsturlarını müxtəlif məsələlərin həllinə tətbiq edir.

ABC düzbucaqlı üçbucaq, *ADE* isə oturacağı *AE* olan bərabəryanlı üçbucaqdır. *BF*=6, *CF*=12 və *EF*=20 olarsa, *AB*-ni tapın.


A) 30 B) 25 C) 40 D) 28 E) 36



8-ci sinifdə tədris olunan "Hərəkət. Oxşarlıq" bölməsinə aid test tapşırığına abituriyentlərin 16.30%-i doğru cavab vermiş, 43.12%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: ΔADE bərabəryanlı olduğu üçün $\angle DAE = \angle DEA$. BB əlamətinə görə $\Delta ACB \sim \Delta ECF$. Buradan

$$\frac{BC}{AB} = \frac{FC}{EF}$$
$$\frac{18}{AB} = \frac{12}{20}$$
$$AB = 30$$



Doğru cavab: A

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini oxşar fiqurların uyğun tərəflərinin nisbətini düzgün yaza bilməmələri ilə əsaslandırmaq olar.


6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 15 saylı test tapşırığı
11-ci sinif
2.2.6. Müəyyən inteqralın köməyi ilə əyrixətli trapesiyanın sahəsini hesablayır.

$y=5^x$, $y=25^x$ və $x=a$ xətləri ilə hüdudlanmış fiqurun sahəsi $\log_{25} e$ olarsa, a-nı tapın.

A) 0,2 B) $\log_5 2$ C) 1 D) 0,5 E) $\log_{25} 2$

11-ci sinifdə tədris olunan “İbtidai funksiya və inteqral” bölməsinə aid test tapşırığına abituriyentlərin 11.98%-i doğru cavab vermiş, 61.88%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Əvvəlcə, verilən funksiyaların qrafikləri və $x=a$ düz xətti qurulur.



Aydındır ki, verilən xətlərlə hüdudlanmış fiqurun sahəsi

$$S=\int_0^a\left(25^x-5^x\right)dx=\left(\frac{25^x}{\ln 25}-\frac{5^x}{\ln 5}\right)\Bigg|_0^a=\left(\frac{25^a}{\ln 25}-\frac{5^a}{\ln 5}\right)-\left(\frac{25^0}{\ln 25}-\frac{5^0}{\ln 5}\right)=\left(\frac{25^a}{2\ln 5}-\frac{5^a}{\ln 5}\right)-\left(\frac{1}{2\ln 5}-\frac{1}{\ln 5}\right)=$$

$=\frac{25^a-2\cdot 5^a}{2\ln 5}-\frac{1-2}{2\ln 5}=\frac{25^a-2\cdot 5^a+1}{2\ln 5}$ kimi tapılır. Şərtə əsasən isə həmin sahə $\log_{25} e$ -yə bərabərdir.

Deməli, $\frac{25^a-2\cdot 5^a+1}{2\ln 5}=\log_{25} e.$ Buradan, $\frac{25^a-2\cdot 5^a+1}{2\ln 5}=\frac{1}{\ln 25}$, $\frac{25^a-2\cdot 5^a+1}{2\ln 5}=\frac{1}{2\ln 5}$,

$25^a-2\cdot 5^a+1=1$, $25^a-2\cdot 5^a=0$, $5^a\cdot\left(5^a-2\right)=0$, $5^a=2$, $a=\log_5 2$ alınır.

Doğru cavab: B

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini əyrixətli trapesiyanın sahəsinin tapılmasında çətinlik çəkmələri ilə əsaslandırmaq olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 17 saylı test tapşırığı
10-cu sinif

2.2.2. Funksiyanın qrafiki anlayışını bilir, funksiyanın dövriliyini, təkliyini, cütlüyünü, monotonluğunu araşdırır, qrafikləri çevirməyi bacarır.

$f(x)=x^4-x^2-12$ funksiyasının neçə sıfırı var $(x\in R)$?

A) 3 B) 4 C) 1 D) 2 E) 0

10-cu sinifdə tədris olunan “Funksiyalar və qrafiklər” bölməsinə aid test tapşırığına abituriyentlərin 18.98%-i doğru cavab vermiş, 45.68%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Funksiyanın sıfırlarını tapmaq üçün $x^4-x^2-12=0$ tənliyi həll etmək lazımdır. Buradan $\left(x^2-4\right)\left(x^3+3\right)=0\Rightarrow\left[\begin{array}{l}x^2-4=0\\x^2+3=0\end{array}\right.\Rightarrow\left[\begin{array}{l}x=\pm 2\\x^2=-3\end{array}\right.$ alınır. $x^2=-3$ tənliyinin həqiqi həllər çoxluğu boş çoxluq olduğu üçün funksiyanın sıfırları $x=\pm 2$ olar. Deməli, funksiyanın iki sıfırı var.

Doğru cavab: D

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbi tapşırığın həlli üçün lazım olan faktları bilməmələridir.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 18 saylı test tapşırığı
10-cu sinif

2.3.1. Triqonometrik tənlik və bərabərsizlikləri həll edir.

$\cos(\pi-x)+\cos(\pi+x)=1$ tənliyini həll edin.

A) $\pm\frac{3\pi}{4}+2\pi k, k\in Z$ B) $\pm\frac{5\pi}{6}+2\pi k, k\in Z$ C) $\pm\frac{2\pi}{3}+2\pi k, k\in Z$

D) $\pm\frac{\pi}{6}+2\pi k, k\in Z$ E) $\pm\frac{\pi}{4}+2\pi k, k\in Z$

10-cu sinifdə tədris olunan "Triqonometrik tənliklər" bölməsinə aid test tapşırığına abituriyentlərin 19.69%-i doğru cavab vermiş, 52.63%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: $\cos(\pi - x) + \cos(\pi + x) = 1$ tənliyinə çevirmə düsturlarını tətbiq etdikdə $-\cos x - \cos x = 1$ tənliyi alınar. Buradan, $-2\cos x = 1$, $\cos x = -\frac{1}{2}$, $x = \pm\frac{2\pi}{3} + 2\pi k, k \in Z$ alınır.

Doğru cavab: C

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini çevirmə düsturlarını düzgün tətbiq edə bilməmələri ilə əsaslandırmaq olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 19 saylı test tapşırığı

10-cu sinif

3.2.3. Uc nöqtələrinin koordinatlarına görə parçanın orta nöqtəsinin koordinatlarını tapır, verilmiş iki nöqtədən keçən düz xəttin tənliyini yazır.

Ox koordinat oxu üzərində yerləşən və *A*(–2; 1; 3) və *B*(3; 4; –1) nöqtələrindən bərabər uzaqlıqda olan nöqtənin koordinatları cəmini tapın.

A) 1,2 B) 0,6 C) 0,8 D) 2,2 E) 1,6

10-cu sinifdə tədris olunan "Vektorlar. Koordinatlar metodu" bölməsinə aid test tapşırığına abituriyentlərin 6.29%-i doğru cavab vermiş, 73.38%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: *Ox* koordinat oxu üzərində yerləşən nöqtənin koordinatları *C*(*x*; 0; 0) şəklindədir. Şərtə görə *CA*=*CB*. İki nöqtə arasındakı məsafənin düsturuna əsasən $\sqrt{(-2-x)^2 + 1^2 + 3^2} = \sqrt{(3-x)^2 + 4^2 + (-1)^2}$ olar. Buradan, $(-2-x)^2 + 1^2 + 3^2 = (3-x)^2 + 4^2 + (-1)^2$, $4 + 4x + x^2 + 1 + 9 = 9 - 6x + x^2 + 16 + 1$, $10x = 12$, $x = 1{,}2$ olur. Deməli, *C*(*x*; 0; 0) nöqtəsinin koordinatları cəmi *x* + 0 + 0 = 1,2 + 0 + 0 = 1,2-yə bərabərdir.

Doğru cavab: A

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini iki nöqtə arasındakı məsafə düsturunu düzgün tətbiq edə bilməmələri ilə əsaslandırmaq olar.


6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 23 saylı test tapşırığı

9-cu sinif

3.1.2. Verilmiş üçbucağın daxilinə və xaricinə çevrə çəkir.

Perimetri 40 olan bərabəryanlı *ABC* üçbucağında *AB*=*BC*. Bu üçbucağın daxilinə çəkilmiş çevrənin radiusu *BD* hündürlüyünün $\frac{2}{5}$ hissəsinə bərabər olarsa, *AC* oturacağının uzunluğunu tapın.

9-cu sinifdə tədris olunan "Üçbucaqlar" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 16.84%-i doğru cavab vermiş, 44.39%-i isə cavab verməkdən imtina etmişdir.



Həlli: Üçbucağın sahəsi üçün $S = \frac{1}{2} AC \cdot BD$ yazmaq olar. *r* – daxilə çəkilmiş çevrənin radiusu, *h*=*BD* – üçbucağın hündürlüyü, *P* – üçbucağın perimetri olarsa, şərtə əsasən $\frac{r}{h} = \frac{2}{5}$ olur. Buradan, $r = 2k$ və $h = 5k$ alınır.

$S = \frac{1}{2} AC \cdot BD = \frac{1}{2} AC \cdot h = \frac{1}{2} AC \cdot 5k$, $r = 2k$ və P=40 olduğunu məlum $r = \frac{2S}{P}$ düsturunda nəzərə aldıqda, $2k = \frac{2 \cdot \frac{1}{2} AC \cdot 5k}{40}$, $2 = \frac{AC}{8}$, $AC = 16$ alınır.

Doğru cavab: 16

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini tapşırığın həlli üçün tələb olunan faktları bilməmələri ilə əsaslandırmaq olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 24 saylı test tapşırığı
10-cu sinif
5.2.1. Hadisələrin başvermə ehtimalının hesablanmasına Bernulli sxemini tətbiq edir.
$(a+b)^n$ binomunun açılışında ən böyük binomial əmsallar ${}_nC_4$ və ${}_nC_5$ olarsa, *n*-i tapın.

10-cu sinifdə tədris olunan "Birləşmələr nəzəriyyəsi" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 7.33%-i doğru cavab vermiş, 48.13%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Məlumdur ki, binomun açılışında ən böyük binomial əmsal orta həddin binomial əmsalıdır. Tək dərəcəli binomlarda iki orta hədd vardır və onların binomial əmsalları bir-birinə bərabərdir. Burada isə ${}_nC_4$ və ${}_nC_5$ ən böyük binomial əmsallardır. Deməli, ${}_nC_4 = {}_nC_5$. Bu bərabərlik isə yalnız *n*=9 olduqda, mümkündür.


Doğru cavab: 9

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini birləşmələr nəzəriyyəsi ilə bağlı biliklərinin az olması ilə əsaslandırmaq olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 25 saylı test tapşırığı
10-cu sinif
3.2.3. Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir.
Oturacağının hündürlüyü $3\sqrt{3}$, yan üzünün diaqonalı isə 10 olan düzgün üçbucaqlı prizmanın yan səthinin sahəsini tapın.

10-cu sinifdə tədris olunan "Çoxüzlülər, onların səthi və həcmi" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 7.46%-i doğru cavab vermiş, 50.15%-i isə cavab verməkdən imtina etmişdir.

***Həlli**:* Prizmanın oturacağı bərabərtərəfli üçbucaq olduğu üçün onun hündürlüyü $\frac{\sqrt{3}}{2}a$ -ya bərabərdir. Burada, *a* – həmin bərabərtərəfli üçbucağın tərəfidir. Şərtə əsasən $\frac{\sqrt{3}}{2}a = 3\sqrt{3}$ olur. Buradan, *a*=6 alınır. $BC_1 = 10$ və $BC = a = 6$ olduğu üçün BCC_1 düzbucaqlı üçbucağından Pifaqor teoreminin köməyi ilə prizmanın hündürlüyü $CC_1 = \sqrt{10^2 - 6^2} = 8$ tapılır. Onda prizmanın yan səthinin sahəsi $S_{yan} = 3a \cdot CC_1 = 3 \cdot 6 \cdot 8 = 144$ olar.



Doğru cavab: 144

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini fəza təsəvvürlərinin zəif olmaları ilə əsaslandırmaq olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı 27 saylı test tapşırığı
8-ci sinif
2.2.3. Modul işarəsi daxilində dəyişəni olan və xətti bərabərsizliyə gətirilən bərabərsizlikləri həll edir.
Bərabərsizliklər üçün uyğunluğu müəyyən edin.

1. $|4x-3| < 5$
2. $|3x+5| > -3$
3. $|2x-5| < -2$

a. həlli yoxdur
b. ən kiçik tam həlli 0-a bərabərdir
c. ən böyük tam həlli 1-ə bərabərdir
d. ən kiçik tam həlli 2-yə bərabərdir
e. $x \in (-\infty; +\infty)$

8-ci sinifdə tədris olunan "Bərabərsizliklər və bərabərsizliklər sistemi" bölməsinə aid uyğunluğun müəyyən edilməsi tipli bu test tapşırığına abituriyentlərin 11.86%-i doğru cavab vermiş, 26.21%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: 1. $|4x-3|<5 \Leftrightarrow -5<4x-3<5 \Leftrightarrow -5+3<4x<5+3 \Leftrightarrow -2<4x<8 \Leftrightarrow -\frac{1}{2}<x<2$. Deməli, bu bərabərsizliyin ən kiçik tam həlli 0-a, ən böyük tam həlli isə 1-ə bərabərdir.

2. Mütləq qiymətin tərifinə əsasən $|3x+5|>-3$ bərabərsizliyi ixtiyari $x\in(-\infty;+\infty)$ üçün doğrudur.


3. Mütləq qiymətin tərifinə əsasən $|2x-5|<-2$ bərabərsizliyinin həlli yoxdur.

Doğru cavab: 1-b,c; 2-e; 3-a

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini dəyişəni modul işarəsi daxilində olan bərabərsizliklərin həlli üçün tələb olunan faktları bilməmələri ilə əsaslandırmaq olar.

6 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı situasiyaya aid 28-30 saylı tapşırıqlar:

ABCD düzbucaqlısı şəklində olan futbol meydançasında mərkəzi diaqonalların kəsişmə nöqtəsində yerləşən dairəvi sahə ayrılmışdır. Bu dairəvi sahənin çevrəsinin uzunluğu 9π metr və *AB*=75 m, *BE*=58 m-dir. Meydançada *M* və *N* komandalarının hər birinin 11 oyunçusu var və onların yaşlarının ədədi ortası uyğun olaraq 24 və 26-ya bərabərdir. Meydançadan kənarda *M* komandasının 3 xarici və 3 milli, *N* komandasının isə 2 xarici və 4 milli ehtiyat oyunçusu var.



28. Futbol meydançasının sahəsini tapın.

Həlli*:* Şərtə əsasən mərkəzi *O* nöqtəsində və radiusu *OE* olan çevrənin uzunluğu 9π-yə bərabərdir, yəni $C=2\pi r=2\pi\cdot OE=9\pi,\ \ OE=4,5\,(\text{m})$. Onda $BD=2\cdot(BE+EO)=2\cdot(58+4,5)=125\,(\text{m})$ olar. *ABD* düzbucaqlı üçbucağından Pifaqor teoreminə əsasən $AD=\sqrt{BD^2-AB^2}=\sqrt{125^2-75^2}=100(\text{m})$ alınır. Onda, futbol meydançasının sahəsi 75·100=7500 (m^2) olar.

Doğru cavab: 7500 m^2

Qeyd: ***Hər mexaniki səhvə görə ümumi baldan 1 bal çıxılır.***

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Həll prosesi yazılaraq cavab ($7500\,m^2$) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, lakin yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb; C. Həll prosesi yazılaraq *BD* və *AD* parçalarının uzunluqları hesablanıb, lakin sahə *hesablanmayıb* və ya *səhv* hesablanıb; D. *BD* parçasının uzunluğu birbaşa qeyd edilib, lakin düzbucaqlının *AD* tərəfi hesablanaraq sonda sahə ($7500\,m^2$) tapılıb; E. *BD* parçasının uzunluğu hesablandıqdan sonra *AD* parçasının uzunluğu birbaşa qeyd edilib (sözlə Pifaqor teoreminə əsasən yazıla da bilər), lakin sonda sahə düzgün tapılıb;
$\frac{1}{3}$	F. $BD=125\,m$ hesablanaraq tapılıb, lakin davamı *yoxdur* və tamamilə *yanlışdır*; G. Həll prosesi yazılaraq $S_{ABO}=375\,m^2$ olduğu tapılıb, lakin davamı *yoxdur* və ya *yanlışdır*.
0	H. Birbaşa cavab ($7500\,m^2$) yazılıb, həll prosesi isə *yazılmayıb* və ya *yanlışdır*; I. Yalnız çevrənin radiusu və $BO=62,5\,m$ tapılıb, lakin davamı *yoxdur* və ya tamamilə *yanlışdır* (Burada əlavə olaraq $S=75\cdot AD$ yazıla bilər); J. Birbaşa $BD=125;\ AD=100\Rightarrow S=75\cdot100=7500\,m^2$ və ya $S=75\cdot AD$ yazılıb. K. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin *8_3.1.3.* (*Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının tərifləri bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır*) və *8_3.1.4.* (*Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 13.52%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 2.33%-i $\frac{2}{3}$ balla, 2.53%-i $\frac{1}{3}$ balla, 18.00%-i 0 balla qiymətləndirilmiş, 63.62%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini təhliletmə qabiliyyətlərinin zəif olmaları ilə əlaqələndirmək olar.

29. Oyunun idarə edilməsində bir baş hakim və iki yan xətt hakimi iştirak edir. Hakimlərin və meydançadakı bütün futbolçuların yaşlarının ədədi ortası 26 olarsa, hakimlərin yaşlarının ədədi ortasını tapın.

***Həlli**:* Şərtə əsasən meydançada *M* və *N* komandalarının hər birinin 11 oyunçusu var və onların yaşlarının ədədi ortası, uyğun olaraq, 24 və 26-dır. Buradan, *M* komandasındakı 11 oyunçunun yaşları cəminin $11\cdot24=264$, *N* komandasındakı 11 oyunçunun yaşları cəminin isə $11\cdot26=286$ olduğu alınır. Hakimlərin yaşları x_1, x_2 və x_3 olarsa, şərtə əsasən $\frac{x_1+x_2+x_3+264+286}{3+11+11}=26$, $x_1+x_2+x_3+550=650$, $x_1+x_2+x_3=100$ olur. Buradan $\frac{x_1+x_2+x_3}{3}=\frac{100}{3}=33\frac{1}{3}$ alınır.

Doğru cavab: $33\frac{1}{3}$

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Həll prosesi yazılaraq cavab ($33\frac{1}{3}$) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb; C. Düzgün həll prosesi yazılaraq hakimlərin yaşlarının cəmi (100) tapılıb, lakin ədədi ortası *hesablanmayıb* və ya *səhv* hesablanıb; D. Həll prosesi aparılaraq $\frac{100}{3}$ tapılıb, lakin cavab olaraq 33 və ya 3,3 qəbul edilib; E. *M* və *N* komandalarının yaşlarının cəmi birbaşa (264 və 285) yazılaraq həll prosesi sona qədər düzgün yazılıb;
$\frac{1}{3}$	F. Meyarın $\frac{2}{3}$ ballıq bəndinə uyğun həll prosesində bir hesablama *səhvi* edilib; G. Həll prosesi yazılaraq komandalardakı futbolçuların yaşlarının cəmi və hakimlərlə birgə meydançadakı bütün futbolçuların yaşlarının cəmi tapılıb, lakin davamı *yoxdur* və ya *yanlışdır*; (yəni $24\cdot11=264$; $26\cdot11=286$; $22+3=25$; $26\cdot25=650$; $264+286=550$) H. Həll prosesi yazılaraq hakimlərin yaşlarının cəmi (100) tapılıb, lakin ədədi orta kimi qeyd edilib. Bu bənd C bəndindən fərqləndirilməlidir!
0	I. Birbaşa cavab ($33\frac{1}{3}$) yazılıb, həll prosesi isə *yazılmayıb* və ya *yanlışdır*; J. Başqa tapşırığın həlli yazılıb; K. *M* və *N* komandalarındakı futbolçuların yaşları cəmi ($264; 286; 264+286=550$) doğru tapılıb, lakin həll prosesinin davamı *yazılmayıb* və ya tamamilə *yanlış* yazılıb; L. Meyarın $\frac{1}{3}$ ballıq bəndinə uyğun həll prosesində bir hesablama *səhvi* edilib; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə “Cəbr və funksiyalar” məzmun xəttinin *7_2.1.1.* (*Həyati situasiyaya uyğun xətti tənlik və ya ikidəyişənli iki xətti tənliklər sistemi tərtib edir.*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 12.59%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 5.79%-i $\frac{2}{3}$ balla, 1.79%-i $\frac{1}{3}$ balla, 14.03%-i 0 balla qiymətləndirilmiş, 65.80%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün lazım olan tənliyi qura bilməmələri ilə əlaqələndirmək olar.

30. Oyun zamanı hər komandanın baş məşqçisi meydançadakı 2 oyunçusunu eyni anda əvəz etmək üçün ehtiyat oyunçular arasından ikisini təsadüfi olaraq seçir. Seçilən oyunçulardan *M* komandasında hər ikisinin, *N* komandasında isə yalnız birinin milli oyunçu olması hadisəsinin ehtimalını tapın.

Həlli: Şərtə əsasən *M* və *N* komandalarının hər birində 6 ehtiyat oyunçu var. Hər bir baş məşqçi eyni zamanda əvəz etmək üçün 2 oyunçunu ehtiyat oyunçular arasından ${}_6C_2$ üsulla seçə bilər. *M* komandasında əvəz olunan hər iki oyunçunun milli olması hadisəsi *A* olarsa, onda *A* hadisəsi üçün mümkün halların sayı ${}_6C_2$-yə, əlverişli halların sayı isə ${}_3C_2$-yə bərabər olur. Onda uyğun ehtimal $P(A)=\frac{{}_3C_2}{{}_6C_2}=\frac{3}{15}=\frac{1}{5}$ olar. *N* komandasında əvəz olunan iki oyunçudan birinin milli, o birinin xarici olması hadisəsi *B* olarsa, onda *B* hadisəsi üçün mümkün halların sayı ${}_6C_2$-yə, əlverişli halların sayı isə ${}_4C_1\cdot{}_2C_1$-ə bərabər olur. Onda uyğun ehtimal $P(B)=\frac{{}_4C_1\cdot{}_2C_1}{{}_6C_2}=\frac{4\cdot 2}{15}=\frac{8}{15}$ olar. Onda *A* və *B*-nin eyni zamanda baş verməsi hadisəsinin ehtimalı $P(A\cap B)=P(A)\cdot P(B)=\frac{1}{5}\cdot\frac{8}{15}=\frac{8}{75}$ olacaq.

Doğru cavab: $\frac{8}{75}$

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Tapşırığın həll prosesi *doğru* yazılıb və cavab ($\frac{8}{75}$) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb; C. A və B hadisələrinin ehtimalları düzgün tapılıb, lakin axtarılan ehtimal *hesablanmayıb* və ya *səhv* hesablanıb (məsələn: vurma əvəzinə ehtimallar toplanılıb);
$\frac{1}{3}$	D. A və ya B hadisələrinin ehtimalları düzgün tapılıb (ikisindən biri), lakin axtarılan ehtimal düzgün *hesablanmayıb* və ya *səhv* hesablanıb; E. Meyarın 2 ballıq bəndlərinə uyğun həll zamanı bir mexaniki *səhvə* yol verilib;
0	F. Yalnız ${}_6C_2=15$ olduğu hesablanıb, digər qeydlər tamamilə *yanlışdır*; G. *Səhvən* $P=\frac{{}_3C_2\cdot{}_2C_1}{{}_{12}C_4}$ və ya $P=\frac{{}_3C_2\cdot{}_2C_1}{{}_6C_4}$ və ya $P=\frac{{}_3C_2\cdot{}_4C_1}{{}_{12}C_4}$ və ya $P=\frac{{}_3C_2\cdot{}_4C_1}{{}_6C_4}$ və ya $P=\frac{{}_3C_2\cdot{}_2C_1}{{}_{12}C_2}$ və ya $P=\frac{{}_3C_2\cdot{}_4C_1}{{}_{12}C_2}$ və ya $P=\frac{{}_3C_2\cdot{}_2C_1}{{}_6C_2}$ və s. kimi ehtimallar hesablanıb; H. Başqa tapşırığın həlli yazılıb; I. Birbaşa cavab ($\frac{8}{75}$) yazılıb, həll prosesi *yazılmayıb* və ya tamamilə *yanlışdır*; J. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Ehtimal və statistika" məzmun xəttinin *9_5.2.3.* (*Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 2.07%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 3.31%-i $\frac{2}{3}$ balla, 4.20%-i $\frac{1}{3}$ balla, 19.21%-i 0 balla qiymətləndirilmiş, 71.21%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini ehtimal nəzəriyyəsi ilə bağlı biliklərinin az olması ilə əlaqələndirmək olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 2 saylı test tapşırığı

10-cu sinif

2.2.3. Mürəkkəb funksiya, tərs funksiya anlayışlarını bilir və bəzi funksiyaların tərs funksiyalarını tapır.

$f(x)$ azalan xətti funksiyadır. $f(f(x))=25x-16$ olarsa, $f(-2)$-ni tapın.

A) –11 B) –18 C) 14 D) 21 E) 24

10-cu sinifdə tədris olunan "Funksiyalar və qrafiklər" bölməsinə aid test tapşırığına abituriyentlərin 10.49%-i doğru cavab verib, 63.56%-i isə cavab verməkdən imtina edib.

Həlli: $f(x)$ funksiyası $f(x)=kx+b$ şəklindədir. Şərtə əsasən $k<0$ olmalıdır. Onda $f(f(x))=k(kx+b)+b=k^2x+kb+b=k^2x+b(k+1)$ olur. Deməli, $k^2x+b(k+1)=25x-16$ olur. Buradan $k^2=25, k=-5$ alınır. Həmçinin $b(k+1)=-16,\ b(-5+1)=-16,\ b=4$ olar. Onda $f(x)=-5x+4$ şəklində olacaq. Buradan, $f(-2)=-5\cdot(-2)+4=14$ alınır.

Doğru cavab: C

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbi tapşırığın həlli üçün lazım olan faktları bilməmələridir.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 12 saylı test tapşırığı

9-cu sinif

5.2.3. Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir.

Səkkizbucaqlı prizmanın təpə nöqtələrindən ixtiyari ikisi təsadüfən seçilir. Seçilən bu iki təpə nöqtənin prizmanın hər hansı diaqonalının uc nöqtələri olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{11}{32}$ B) $\frac{5}{16}$ C) $\frac{3}{4}$ D) $\frac{3}{11}$ E) $\frac{1}{3}$

9-cu sinifdə tədris olunan "Ehtimal nəzəriyyəsi" bölməsinə aid test tapşırığına abituriyentlərin 8.84%-i doğru cavab vermiş, 61.85%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Məlumdur ki, n-bucaqlı prizmada $2n$ sayda təpə nöqtə, $n(n-3)$ sayda diaqonal olur. Onda səkkizbucaqlı prizmanın 16 təpə nöqtəsi, 40 diaqonalı olur. Tapşırığın şərtindəki hadisənin ehtimalı $P(A)$ olarsa, onda $P(A)=\frac{40}{{}_{16}C_2}=\frac{40}{\frac{16\cdot 15}{2}}=\frac{40}{120}=\frac{1}{3}$ olar.

Doğru cavab: E

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbi ehtimal nəzəriyyəsi ilə bağlı lazım olan faktları bilməmələridir.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 15 saylı test tapşırığı

10-cu sinif

2.1.3. Triqonometrik funksiyalar üçün toplama düsturlarını, onlardan alınan nəticələri bilir və tətbiq edir.

$\sin(2\alpha-\beta)=5\sin\beta$ olarsa, $\tan(\alpha-\beta)\cdot\cot\alpha$ ifadəsinin qiymətini tapın.

A) $\frac{3}{4}$ B) $\frac{5}{2}$ C) $\frac{2}{3}$ D) $\frac{4}{3}$ E) $\frac{3}{2}$

10-cu sinifdə tədris olunan "Triqonometrik funksiyalar üçün toplama teoremi" bölməsinə aid test tapşırığına abituriyentlərin 5.63%-i doğru cavab vermiş, 71.49%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Triqonometrik eyniliklər və hasilin cəmə çevrilməsi düsturlarına əsasən,

$$\tan(\alpha-\beta)\cdot\cot\alpha=\frac{\sin(\alpha-\beta)}{\cos(\alpha-\beta)}\cdot\frac{\cos\alpha}{\sin\alpha}=\frac{\frac{1}{2}(\sin(2\alpha-\beta)-\sin\beta)}{\frac{1}{2}(\sin(2\alpha-\beta)+\sin\beta)}=\frac{\sin(2\alpha-\beta)-\sin\beta}{\sin(2\alpha-\beta)+\sin\beta}=\frac{5\sin\beta-\sin\beta}{5\sin\beta+\sin\beta}=\frac{4\sin\beta}{6\sin\beta}=\frac{2}{3}$$

alınır.

Doğru cavab: C

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini triqonometrik funksiyalar üçün toplama teoremlərini düzgün tətbiq edə bilməmələri ilə əsaslandırmaq olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 16 saylı test tapşırığı

10-cu sinif


3.1.3. Fəzada düz xətlə müstəvi arasındakı bucağın, iki müstəvi arasındakı bucağın necə təyin olunduğunu bilir və məsələlər həllində onlardan istifadə edir.

Tərəfləri 4 sm və 8 sm olan bərabəryanlı ABC üçbucağının BC oturacağından keçən α müstəvisi bu üçbucağın müstəvisi ilə 30^o-li bucaq əmələ gətirir. A təpəsindən α müstəvisinə qədər olan məsafəni tapın.

A) $\sqrt{19}$ sm B) $\sqrt{12}$ sm C) $\sqrt{7}$ sm D) $\sqrt{11}$ sm E) $\sqrt{15}$ sm

10-cu sinifdə tədris olunan "Fəzada düz xətlər və müstəvilər" bölməsinə aid test tapşırığına abituriyentlərin 15.27%-i doğru cavab verib, 56.76%-i isə cavab verməkdən imtina edib.

Həlli*:* Üçbucaq bərabərsizliyinə əsasən $AB=AC=8$ sm, $BC=4$ sm olur. AE parçası A nöqtəsindən α müstəvisinə çəkilmiş perpendikulyar, AD isə bərabəryanlı ABC üçbucağının BC oturacağına çəkilmiş hündürlük olarsa, onda $BD=DC=2$ sm olur. Pifaqor teoreminə əsasən $AD=\sqrt{AC^2-DC^2}=\sqrt{8^2-2^2}=\sqrt{60}=2\sqrt{15}$ olur. AED düzbucaqlı üçbucağında AE kateti 30^o-li bucağın qarşısında olduğu üçün $AE=\frac{AD}{2}=\frac{2\sqrt{15}}{2}=\sqrt{15}$ olacaq.



Doğru cavab: **E**

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini həndəsi biliklərinin az olması ilə əsaslandırmaq olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 26 saylı test tapşırığı

9-cu sinif

2.1.1. Həyati situasiyaya uyğun birdəyişənli tənlik və ya ikidəyişənli iki tənliklər sistemi tərtib edir.

p parametrinin neçə tam qiymətində $x^2-8|x|+p-4=0$ tənliyinin dörd müxtəlif həqiqi kökü var?

9-cu sinifdə tədris olunan "Birməchullu tənliklər və məsələlər" bölməsinə aid açıq tipli bu test tapşırığına abituriyentlərin 2.39%-i doğru cavab verib, 42.04%-i isə cavab verməkdən imtina edib.

Həlli: $|x|=t$ olarsa, $x^2=|x|^2=t^2$ olar. Onda $t^2-8t+p-4=0$ olacaq. Tapşırığın şərtinə əsasən sonuncu tənlikdən $\begin{cases}D=8^2-4(p-4)>0\\ p-4>0\end{cases}\Rightarrow\begin{cases}64-4p+16>0\\ p>4\end{cases}\Rightarrow\begin{cases}p<20\\ p>4\end{cases}$ alınır. p-nin ala biləcəyi tam qiymətlərin sayı 15 olur.

Doğru cavab: **15**

Abituriyentlərin tapşırığa zəif cavab vermələrinin əsas səbəbini tapşırığın həlli üçün lazım olan faktları bilməmələri ilə əsaslandırmaq olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 28 saylı test tapşırığı

Usta və şagirdi müəyyən işi birlikdə 10 günə yerinə yetirirlər. Usta əmək məhsuldarlığını 2 dəfə, şagirdi isə 3 dəfə artırsa, bu işi birlikdə 4 günə yerinə yetirərlər. Usta əvvəlki məhsuldarlıqla həmin işi təklikdə neçə günə yerinə yetirər?

Həlli: Usta təklikdə müəyyən işi x günə, şagirdi isə y günə görərsə, onda məsələnin şərtinə əsasən $\begin{cases}\frac{1}{x}+\frac{1}{y}=\frac{1}{10}\\ \frac{1}{\frac{x}{2}}+\frac{1}{\frac{y}{3}}=\frac{1}{4}\end{cases}\Rightarrow\begin{cases}\frac{1}{x}+\frac{1}{y}=\frac{1}{10}\\ \frac{2}{x}+\frac{3}{y}=\frac{1}{4}\end{cases}\Rightarrow x=20$ alınır.

Doğru cavab: 20

Qiymətləndirmə meyarları:

Bal şkalası	**Meyarlar**
1	A. Həll prosesi yazılaraq cavab (20) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb; C. Tapşırığın şərtinə uyğun düzgün tənliklər sistemi qurularaq həll edilib və ustanın və ya şagirdin sonrakı məhsuldarlıqla işi 10 və ya $\frac{20}{3}$ günə gördüyü tapılıb, lakin düzgün cavab *tapılmayıb* və ya *səhv* hesablanıb;
$\frac{1}{3}$	D. Meyarın $\frac{2}{3}$ ballıq bəndlərinə uyğun həll zamanı bir mexaniki *səhvə* yol verilib; E. *Seçmə üsulu* ilə həll prosesi yazılıb və düzgün cavab tapılıb;
0	F. Tamamilə *yanlış* tənlik və ya tənliklər sistemi qurularaq həll prosesi yazılıb (Məsələn: $\begin{cases}\frac{1}{x}+\frac{1}{y}=10,\\ \frac{2}{x}+\frac{3}{y}=4\end{cases}$; $\begin{cases}\frac{1}{x}+\frac{1}{y}=10,\\ \frac{1}{2x}+\frac{1}{3y}=4\end{cases}$; $\begin{cases}\frac{1}{x+y}=\frac{1}{10},\\ \frac{1}{2x+3y}=\frac{1}{4}\end{cases}$; $\begin{cases}x+y=10,\\ 2x+3y=4\end{cases}$) G. Yalnız bir tənlik qurulub, digəri isə *qurulmayıb* və ya *səhv* qurulub; H. Başqa tapşırığın həlli yazılıb; I. Birbaşa cavab (20) yazılıb, həll prosesi isə *yazılmayıb* və ya *yanlışdır*; J. Digər bütün hallarda.


Tapşırıq vasitəsilə "*Cəbr və funksiyalar*" məzmun xəttinin *9_2.1.1.* (*Həyati situasiyaya uyğun birdəyişənli tənlik və ya ikidəyişənli iki tənliklər sistemi tərtib edir*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 9.71%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 2.88%-i $\frac{2}{3}$ balla, 0.95%-i $\frac{1}{3}$ balla, 37.60%-i 0 balla qiymətləndirilmiş, 48.85%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini tapşırığın həlli üçün lazım olan tənliklər sistemini qura bilməməklə əlaqələndirmək olar.


13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 29 saylı test tapşırığı

ABC üçbucağının xaricinə çevrə çəkilmişdir. *BC*=4 sm, $\angle A = 30^\circ$ olarsa, ştrixlənmiş hissənin sahəsini tapın.



***Həll**i: OC* və *OB* çevrənin radiuslarıdır. $\angle CAB$ daxilə çəkilmiş bucaq olduğundan, onda *BC* qövsünün dərəcə ölçüsü 60° olacaq. Onda, $\angle COB$=60° olur. ΔCOB bərabərtərəfli üçbucaq və çevrənin radiusu da *R*=4 sm olur. Ştrixlənmiş hissə seqmentdir. Seqmentin sahəsi düsturuna əsasən

$S_{seqment} = S_{sektor} - S_{\Delta} = \frac{\pi R^2 \alpha}{360^\circ} - \frac{R^2\sqrt{3}}{4} = \frac{16\pi \cdot 60^\circ}{360^\circ} - \frac{4^2\sqrt{3}}{4} = \frac{8\pi}{3} - 4\sqrt{3}$ olacaq.



Doğru cavab: $\boldsymbol{\frac{8\pi}{3} - 4\sqrt{3}}$

Qeyd: Burada, $\boldsymbol{\angle ABC = 90^o}$ ***qəbul edilib və ya AC tərəfi çevrənin diametri kimi yazılaraq*** $R = 4\,\text{sm}$ ***tapıldıqda tamamilə yanlışdır. Həll prosesinin davamında tapşırığın doğru cavabı ilə üst-üstə düşən cavab tapıldığı hallar yanlışdır.***

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Həll prosesi yazılaraq cavab ($\frac{8\pi}{3} - 4\sqrt{3}\text{sm}^2$) tapılıb;
$\frac{2}{3}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, lakin yol verilən mexaniki *səhvə* görə (hesablama *səhvi* nəzərdə tutulur) cavab *səhv* tapılıb; C. Çevrənin radiusu tapılaraq dairə sektorunun və üçbucağın sahəsi tapılıb, lakin onların fərqi *hesablanmayıb* və ya *səhv* hesablanıb; D. Dairənin radiusu (və ya üçbucağın tərəfi) izah *edilmədən* və ya şəkil üzərində bucaqlar *göstərilmədən* birbaşa qeyd edilib və dairə seqmentinin sahəsi düzgün hesablanıb; Bu bənd A bəndindən fərqləndirilməlidir! E. Həll prosesi yazılaraq dairənin radiusu və dairə sektorunun sahəsi düzgün hesablanıb, lakin üçbucağın sahəsi birbaşa qeyd edilərək seqmentin sahəsi tapılıb. Bu bənd A bəndindən fərqləndirilməlidir!
$\frac{1}{3}$	F. Dairənin radiusu həll prosesi yazılaraq düzgün tapılıb, lakin davamı *yoxdur* və ya *yanlışdır* (burada əlavə olaraq bərabərtərəfli üçbucağın sahəsi də tapıla bilər); G. Meyarın $\frac{2}{3}$ ballıq bəndinə uyğun həll zamanı bir mexaniki *səhvə* yol verilib;

Bal şkalası	Meyarlar
0	H. Birbaşa cavab ($\frac{8\pi}{3}-4\sqrt{3}\text{sm}^2$) yazılıb, həll prosesi isə *yazılmayıb* və ya *yanlışdır*; I. Birbaşa tərəfi 4 olan üçbucağın sahəsi tapılıb və dairə seqmenti kimi qeyd edilib; J. Heç bir izah *göstərilmədən* $R=4\,\text{sm}$ yazılıb, lakin davamı *yoxdur* və ya tamamilə *yanlışdır.* Bu bənd F bəndindən fərqləndirilməlidir! K. *ABC* düzbucaqlı üçbucaq, *AC* parçası diametr qəbul edilərək həll prosesi sona qədər aparılıb; Bu bənd A bəndindən fərqləndirilməlidir! L. Başqa tapşırığın həlli yazılıb; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "*Həndəsə*" məzmun xəttinin *9_3.1.2*. (*Verilmiş üçbucağın daxilinə və xaricinə çevrə çəkir.*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.


Abituriyentlərin 6.17%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 2.98%-i $\frac{2}{3}$ balla, 2.90%-i $\frac{1}{3}$ balla, 25.76%-i 0 balla qiymətləndirilmiş, 62.19%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini həndəsi biliklərinin az olması ilə əlaqələndirmək olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı 30 saylı test tapşırığı

Bucaqlarından biri 15º olan düzbucaqlı üçbucağın hipotenuzuna çəkilmiş hündürlüyün hipotenuzdan 4 dəfə kiçik olduğunu isbat edin.

İsbatı: Tapşırığın şərtinə uyğun düzbucaqlı üçbucaq *ABC*, *AC* hipotenuzuna çəkilmiş median *BM*, hündürlük *BD* olarsa, onda $AM=CM=BM=\frac{AC}{2}$ olar. ΔBMC-də *BM=CM* olduğundan, $\angle MBC=15^\circ$ olar. Üçbucağın xarici bucağı özünə qonşu olmayan iki daxili bucağın cəminə bərabər olduğundan, $\angle BMD=30^\circ$ olar. Düzbucaqlı üçbucaqda 30º-li bucaq qarşısında dayanan katet hipotenuzun yarısına bərabər olduğundan, *BMD* düzbucaqlı üçbucağından, $BD=\frac{BM}{2}=\frac{\frac{AC}{2}}{2}=\frac{AC}{4}$ olduğu alınır.



Qiymətləndirmə meyarları:

Bal şkalası	Meyarlar
1	A. İsbat prosesinin bütün mərhələləri göstərilməklə teorem isbat olunub;
$\frac{1}{2}$	B. İsbat prosesi *qismən* yazılıb, yəni hər hansı mərhələ izah *edilmədən* birbaşa qeyd edilib və ya qeyd *edilməyib* və ya hər hansı *yanlış* fikir qeyd edilib; Bu bənd A bəndindən fərqləndirilməlidir! C. İsbat prosesi zamanı *BM* medianı çəkilib, onun hipotenuzu yarıya böldüyü və bölünən hissələrə bərabər olduğu qeyd edilib, həmçinin *BMC* üçbucağının bərabəryanlı olduğu göstərilib, lakin davamı *yoxdur* və ya *yanlışdır*;

Bal şkalası	Meyarlar
0	D. Düzbucaqlı üçbucağın düz bucaq təpəsindən hipotenuza çəkilən hündürlüyün hipotenuzdan 4 dəfə kiçik olduğu əvvəlcədən qəbul edilərək Pifaqor teoremindən istifadə edilib və doğruluğu göstərilib; Bu bənd A bəndindən fərqləndirilməlidir! E. Müəyyən düsturlar yazılıb,(məsələn, $c = x + y$; $a^2 + b^2 = c^2$; $h^2 + x^2 = a^2$; $h^2 + y^2 = b^2$) lakin isbat *yoxdur*; F. Başqa tapşırığın həlli yazılıb; G İsbat prosesi zamanı *BM* medianı çəkilib, onun hipotenuzu yarıya böldüyü və bölünən hissələrə bərabər olduğu qeyd edilib, lakin davamı *yoxdur* və ya *yanlışdır*; H. Birbaşa $S = \frac{c^2}{8} = \frac{ch}{2} \Rightarrow h = \frac{c}{4}$ yazılıb; Bu bənd A bəndindən fərqləndirilməlidir! I. Düzbucaqlı üçbucağın tərəfləri konkret ədədlər qəbul edilərək, isbat prosesi aparılıb (burada tərəflər əvvəlcədən verildikdən sonra triqonometrik nisbətlərdən də istifadə edilə bilər); Bu bənd A bəndindən fərqləndirilməlidir! J. Oxşarlıqdan istifadə edilərək alınan üçbucaqların tərəflərinin nisbəti yazılıb, lakin isbat prosesi *aparılmayıb*; K. Hər hansı üsulla həll prosesi yazılıb, lakin şəkil üzərində aparılan qeydlərlə yazılar arasında ziddiyət var; L. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "*Həndəsə*" məzmun xəttinin *8_3.1.3*. (*Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının tərifləri bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır.*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 5.08%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 0.80%-i $\frac{1}{2}$ balla, 40.43%-i 0 balla qiymətləndirilmiş, 53.69%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini həndəsi biliklərinin az olması ilə əlaqələndirmək olar.

Fizika fənnindən qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar ümumtəhsil məktəblərinin fizika kursunun aşağıdakı bölmələrini əhatə etmişdir:

1. Mexanika
2. Molekulyar fizika və termodinamika
3. Elektrodinamika
4. Optika
5. Atom və nüvə fizikası

Tapşırıqların bölmələr üzrə paylanması I ixtisas qrupu üçün 01 iyun və 13 iyul tarixli imtahanlarda eyni olmuşdur: "Mexanika" – 12, "Molekulyar fizika" – 4, "Elektrodinamika" – 10, "Optika" – 2, "Atom və nüvə fizikası" – 2. IV ixtisas qrupu üzrə də 01 iyun və 13 iyul tarixli imtahanlarda tapşırıqların bölmələr üzrə paylanması eynidir: "Mexanika" – 10, "Molekulyar fizika" – 4, "Elektrodinamika" – 12, "Optika"– 2, "Atom və nüvə fizikası" – 2. IV ixtisas qrupunda situasiya tipli tapşırığın olması səbəbindən I və IV ixtisas qrupları üçün paylanma bir-birindən fərqli olmuşdur.

Abituriyentlərin bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi məqsədilə test bloklarına müxtəlif nominasiyalı və mürəkkəblik dərəcəli tapşırıqlar daxil edilmişdir. Test bloklarında fiziki hadisə və proseslərin mahiyyətinə əsaslanan, təhliletmə, mühakiməyürütmə bacarıqları tələb edən tapşırıqlara üstünlük verilmişdir. Qəbul imtahanlarının nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlili göstərmişdir ki, abituriyentlərin əksəriyyəti I ixtisas qrupu üzrə "Düzxətli bərabərsürətli və dəyişənsürərətli hərəkət", "Statikanın əsasları", "İmpuls. Enerji. Saxlanma qanunları", "Ümumdünya cazibə qanunu. Ağırlıq qüvvəsi", "Maqnit sahəsinin induksiyası", "Həndəsi optika", "Atom və nüvə fizikası", IV ixtisas qrupu üzrə isə "Dəyişən elektrik cərəyanı", "Maqnit sahəsinin induksiyası", "Bölmələr arasında genetik əlaqə", "Atom və nüvə fizikası" mövzularına aid test tapşırıqlarına ya zəif cavab vermiş, ya da cavab verməkdən imtina etmişdir. Tapşırıqların statistik göstəriciləri əsasında nominasiyalar üzrə aparılan təhlili göstərmişdir ki, abituriyentlərin müəyyən hissəsi faktoloji materiala əsaslanan düstur və vahidlərə aid tapşırıqlara daha yaxşı, fiziki hadisə və proseslərin mahiyyətinin açılmasına yönəlmiş qrafik, keyfiyyət və hesablama nominasiyalı tapşırıqlara isə nisbətən zəif cavab vermişlər. Ən zəif nəticələr açıq tipli və yazılı şəkildə cavablandırılması


tələb olunan tapşırıqlar olmuşdur. Test tapşırıqlarının elmi-metodiki və statistik təhlili göstərmişdir ki, həm I, həm IV ixtisas qrupları üzrə abituriyentlərin nəticələri ötən illərlə müqayisədə bir qədər üstün olmuşdur.

Abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı aşağıda təqdim olunur.

01 iyun 2025-ci il tarixli imtahan, I ixtisas qrupu, A variantı, 41 saylı test tapşırığı
10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

Başlanğıc koordinatları eyni olan iki cismin sürətinin proyeksiyasının zamandan asılılıq qrafikləri verilmişdir. Hansı zaman anında cisimlər arasındakı məsafə ən böyük olar?



A) t_5 B) t_3 C) t_2 D) t_4 E) t_1

"Düzxətli bərabərsürətli və dəyişənsürərətli hərəkət" mövzusuna aid olan qrafik nominasiyalı bu test tapşırığına abituriyentlərin 24.74%-i doğru cavab vermiş, 15.65%-i cavab verməkdən imtina etmişdir. Yanlış olan B bəndini 31.73% abituriyent doğru hesab etmişdir.

10-cu sinifdə tədris olunan bu mövzuda göstərildiyi kimi, cismin sürətinin proyeksiyasının zamandan asılılıq qrafiki ilə zaman oxu arasında qalan fiqurun sahəsi ədədi qiymətcə yerdəyişmənin proyeksiyasına bərabərdir. Təhlil göstərir ki, tapşırığın yanlış olan t_3 zaman anını seçənlər (31.73%) həmin ana qədər 2-ci cismin sürətinin artmasını, həmin andan sonra isə azalmasını düşünmüşlər. Lakin t_3 zaman anından başlayaraq 2-ci cisim bərabəryavaşıyan hərəkət etməsinə baxmayaraq, t_4 zaman anına qədər 2-ci cismin sürəti 1-ci cismin sürətindən böyük olaraq qalır və cisimlər arasında məsafə artmaqda davam edir. Ancaq t_4 zaman anından sonra 2-ci cismin sürəti 1-ci cismin sürətindən kiçk olur və cisimlər arasında məsafə azalmağa başlayır. Ona görə də t_4 zaman anında cisimlər arasında məsafə ən böyük olur.

Doğru cavab: D

01 iyun 2025-ci il tarixli imtahan, I ixtisas qrupu, A variantı, 54 saylı test tapşırığı
9-cu sinif

1.1.2. Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsinə aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

Radioaktiv elementin 15 sutka ərzində nüvələrinin $\frac{7}{8}$ hissəsi parçalandı. Bu elementin nüvələrinin $\frac{15}{16}$ hissəsi neçə sutkaya parçalanar?

9-cu, həm də 11-ci sinifdə tədris olunan "Atom və nüvə fizikası" mövzusuna aid açıq tipli hesablama formalı bu test tapşırığına abituriyentlərin 14.90%-i doğru cavab vermiş, 40.54%-i cavab verməkdən imtina etmiş, 44.56%-i isə yanlış cavab vermişdir

Əvvəlki illərin qəbul imtahanlarında da bu tip tapşırıqlardan istifadə olunmasına baxmayaraq yenə zəif nəticə alınmışdır. Abituriyentlərin zəif nəticə göstərmələrinin səbəbi ümumtəhsil məktəbi kursunda tədris olunan nüvələrin radioaktiv çevrilmə qanununu yaxşı bilməmələri və riyazi hesablamaların aparılması bacarıqlarının zəif olması ilə əlaqədardır. Radioaktiv parçalanma qanununa görə, nüvələrin parçalanmış hissəsi $\frac{\Delta N}{N_0}=1-2^{-\frac{t}{T}}$ düsturu ilə ifadə olunur. Şərtə görə t=15 sutka ərzində nüvələrin parçalanmış hissəsi $\frac{\Delta N}{N_0}=1-2^{-\frac{15}{T}}=\frac{7}{8}$-dir. Buradan alınmış $2^{-\frac{15}{T}}=\frac{1}{8}=2^{-3}$ ifadəsindən yarımparçalanma periodu (T=5 sutka) hesablanır. Periodun bu qiymətini nəzərə almaqla, $\frac{\Delta N}{N_0}=1-2^{-\frac{t}{5}}=\frac{15}{16}$ ifadəsini yazmaq olar. Buradan da $2^{-\frac{t}{5}}=\frac{1}{16}=2^{-4}$ alınır. Beləliklə, t=20 sutka alınır.


Doğru cavab: 20


13 iyul 2025-ci il tarixli imtahan, I ixtisas qrupu, A variantı, 36 saylı test tapşırığı


10-cu sinif


1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.


X oxunun əksi istiqamətində hərəkət edən cismin təcilinin proyeksiyasının zamandan asılılıq qrafiki verilmişdir. Hansı qrafik bu cismin kinetik enerjisinin zamandan asılılığına uyğundur?




A)


B)


C)


D)


E)


10-cu sinifdə tədris olunan "İmpuls. Enerji. Saxlanma qanunları" mövzusuna aid bu test tapşırığına abituriyentlərin 19,03%-i doğru cavab vermiş, 25.14%-i cavab verməkdən imtina etmişdir. Yanlış olan B bəndini 20,22% abituriyent düzgün hesab etmişdir. Statistik təhlildən məlum olur ki, cavablar bütün distraktorlar arasında təxminən bərabər paylanmışdır.

Tapşırığın yerinə yetirilməsi üçün şərtə və qrafikə əsasən hərəkətin xarakterini müəyyən etmək lazımdır. Belə ki, X oxunun əksi istiqamətində hərəkət edən cismin təcilinin proyeksiyası mənfi olduğundan, onun hərəkəti bərabəryeyinləşən olur. Bu halda cismin kinetik enerjisi

$E_k = \frac{m\upsilon^2}{2} = \frac{m(-\upsilon_0 - at)^2}{2} = \frac{m(\upsilon_0^2 + 2\upsilon_0 at + a^2t^2)}{2}$ düsturu ilə ifadə olunduğundan, onun zamandan asılılıq qrafiki kinetik enerjinin müəyyən qiymətindən başlayaraq kvadratik artır.


Doğru cavab: D

13 iyul 2025-ci il tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 70 saylı test tapşırığı

11-ci sinif

1.1.2. Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsinə aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

Atomun bir enerji səviyyəsindən digərinə keçidi zamanı udulan fotonların dalğa uzunluqları verilmişdir. Atomun E_1 enerjili səviyyədən E_3 enerjili səviyyəyə keçidi zamanı udulan fotonun dalğa uzunluğunu hesablayın.



A) 210 nm B) 160 nm C) 250 nm D) 500 nm E) 400 nm

11-ci sinfində tədris olunan "Atom və nüvə fizikası" mövzusuna aid hesablama formalı bu tapşırığa abituriyentlərin 24,49%-i doğru cavab vermiş, 18,59%-i cavab verməkdən imtina etmişdir. Yanlış olan E bəndini 46,61% abituriyent düzgün hesab etmişdir. Beləliklə, etalon müəyyən olunmamışdır.


Tapşırığın yerinə yetirilməsi üçün atomun bir enerji səviyyəsindən digərinə keçidi zamanı udulan fotonun enerjisini dalğa uzunluqları ilə ifadəsindən istifadə etmək lazımdır. Şərtdə verilmiş diaqrama görə,

atomun E_1 enerji səviyyəsindən E_3 enerji səviyyəsinə keçidi zamanı udulan fotonun enerjisi $E_1 \rightarrow E_2$ və $E_2 \rightarrow E_3$ keçidi zamanı udulan fotonların enerjiləri cəminə bərabərdir. Yəni $E_{1,3}=E_{1,2}+E_{2,3}$. Bu enerjilərin udulan fotonların dalğa uzunluğu ilə ifadələrini $\frac{hc}{\lambda_{1,3}}=\frac{hc}{\lambda_{1,2}}+\frac{hc}{\lambda_{2,3}}$ yazmaq olar. Buradan da $\frac{1}{\lambda_{1,3}}=\frac{1}{\lambda_{1,2}}+\frac{1}{\lambda_{2,3}}$ alınır. Buradan, atomun E_1 enerji səviyyəsindən E_3 enerji səviyyəsinə keçidi zamanı udulan fotonun dalğa uzunluğunu hesablamaq olar: $\lambda_{1,3}=\frac{\lambda_{1,2}\cdot\lambda_{1,3}}{\lambda_{1,2}+\lambda_{1,3}}=\frac{700\ nm\cdot 300\ nm}{700\ nm+300\ nm}=210\ nm$

Doğru cavab: A

01 iyun 2025-ci il tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 88 – 90 saylı situasiya tapşırığı

Sabit gərginlik mənbəyinə qoşulmuş müstəvi kondensatorun lövhələri arasında *m* kütləli yüklü damcı sükunətdədir. Kondensatorun elektrik sahəsinin intensivliyi $E_1=100\frac{\text{V}}{\text{m}}$ -dir. Kondensatorun lövhələri arasındakı elektrik sahəsinin intensivliyi $E_2=150\frac{\text{V}}{\text{m}}$ -ə qədər artırıldı ($g=10\frac{\text{m}}{\text{san}^2}$, hər iki halda sahəni bircins hesab etməli).



88. İntensivlik $E_2=150\frac{\text{V}}{\text{m}}$ olduqda damcı hansı istiqamətdə və necə hərəkət edər? Cavabınızı əsaslandırın.

Həlli: Damcı əvvəlcə sükunətdə olduğundan ona təsir edən əvəzləyici qüvvə sıfıra bərabərdir. Deməli, damcıya elektrik sahəsi tərəfindən təsir edən qüvvə ağırlıq qüvvəsinə bərabərdir və onun əksi istiqamətində yuxarıya doğru yönəlmişdir: $mg = qE_1$

Lövhələr arasındakı elektrik sahəsinin intensivliyini artırdıqda elektrik sahəsi tərəfindən təsir edən qüvvə artar və ağırlıq qüvvəsindən böyük olar. Damcıya təsir edən əvəzləyici qüvvə yuxarıya doğru yönələr. Onda damcı yuxarıya doğru yeyinləşən hərəkət edər.

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A) Damcının əvvəlcə sükunətdə olmasının səbəbi və lövhələr arasındakı elektrik sahəsinin intensivliyini artırdıqda yuxarı istiqamətdə yönəlmiş əvəzləyici qüvvənin yaranması səbəbi yazılmaqla damcının necə (***yeyinləşən, artan təcilli***) hərəkət etməsi doğru yazılmışdır (burada izahın bütün mərhələləri mütləq göstərilməlidir);
$\frac{2}{3}$	B) Damcının əvvəlcə sükunətdə olmasının səbəbi doğru yazılmışdır. Lövhələr arasındakı elektrik sahəsinin intensivliyini artırdıqda yuxarı istiqamətdə yönəlmiş əvəzləyici qüvvənin yaranması səbəbi doğru yazılmış, lakin damcının yuxarıya doğru necə hərəkət etməsi ***yanlış*** yazılmışdır; C) Damcının sükunətdə olmasının səbəbi izah ***edilmədən***, lövhələr arasındakı elektrik sahəsinin intensivliyini artırdıqda yuxarı istiqamətdə yönəlmiş əvəzləyici qüvvənin yaranması ilə onun yuxarı istiqamətdə necə (***yeyinləşən, artan təcilli***) hərəkət etməsi doğru yazılmışdır; D) Damcının sükunətdə olmasının səbəbi doğru yazılmışdır. Lövhələr arasındakı elektrik sahəsinin intensivliyini artırdıqda yuxarı istiqamətdə təsir edən qüvvənin artması ilə onun yuxarı istiqamətdə hərəkət etməsi yazılmışdır, lakin necə hərəkət etməsi qeyd ***edilməmişdir***;
$\frac{1}{3}$	E) Damcının əvvəlcə sükunətdə olmasının səbəbi doğru yazılmışdır, lakin lövhələr arasındakı elektrik sahəsinin intensivliyini artırdıqda ***səhvən*** aşağıya doğru yönəlmiş əvəzləyici qüvvənin yaranması yazılaraq damcının aşağıya doğru bərabərsürətli hərəkət etməsi yazılmışdır; F) Damcının əvvəlcə sükunətdə olmasının səbəbi doğru yazılmışdır, lakin lövhələr arasındakı elektrik sahəsinin intensivliyini artırdıqda damcıya ***səhvən*** aşağıya doğru yönəlmiş əvəzləyici qüvvənin yaranması yazılaraq damcının aşağıya doğru təcilli (və ya artan təcilli) hərəkət etməsi yazılmışdır; G) Yalnız damcının yuxarı istiqamətdə yeyinləşən (bərabəryeyinləşən, artan təcilli) hərəkət etməsi yazılmışdır;

Bal şkalası	Meyarlar
0	H) İstiqamət qeyd ***edilmədən*** damcının bərabəryeyinləşən (yeyinləşən və ya artan təcilli və ya bərabərtəcilli) hərəkət etməsi yazılmışdır; I) Damcının yuxarı istiqamətdə yeyinləşən (bərabəryeyinləşən, artan təcilli) hərəkət etməsi yazılmışdır, lakin izah tamamilə ***yanlışdır*** (məsələn: $E=\frac{F}{d}$ olduğu üçün məsafə azalır və qüvvə artır. Buna görə yuxarı doğru bərabəryeyinləşən hərəkət edir yazılaraq ***yanlış*** izah edilib); J) ***Səhvən*** damcının müsbət qütbdən mənfi qütbə (və ya əksinə) doğru hərəkət etməsi və ya yuxarıdan aşağıya doğru hərəkət etməsi və ya *x* oxu istiqamətində və ya kondensatorun lövhələrinə doğru və ya soldan sağa və s. uyğun ***olmayan*** qeydlər yazılıb; K) Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin *11_1.1.1.* (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*), *10_1.1.1.(Mexaniki və istilik hərəkətini xarakterizə edən kəmiyyətlər arasındakı əlaqəni şərh edir*) və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin *11_3.1.1. (Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) və altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq "Bölmələr arasında genetik əlaqə" bölməsinə aiddir. Belə ki, həm elektrodinamikada "Yüklü zərrəciklərin elektrik sahəsində hərəkəti", həm də mexanikada "Ümumdünya cazibə qanunu. Ağırlıq qüvvəsi" mövzularını əhatə edir

Abituriyentlərin 9.18%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 7.35%-i $\frac{2}{3}$ balla, 6.47%-i $\frac{1}{3}$ balla, 36.66%-i 0 balla qiymətləndirilmiş, 40.34%-i isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir. Nəticələrin zəif olmasının səbəbi bir neçə qüvvənin təsir etdiyi halda cismin tarazlıq şərtinin nədən ibarət olmasını anlamaq və onun riyazi olaraq ifadə edilməsi ilə bağlı çətinliklərdir. Təbii ki, ilk növbədə, baxılan halda cismə təsir edən qüvvələr (ağırlıq və elektrostatik) müəyyənləşdirilməli, tarazlıq şərti riyazi olaraq ifadə edilməlidir. Bundan sonra təklif olunan fəaliyyət nəticəsində qüvvələrdən birinin - baxılan halda elektrostatik qüvvənin artmasının nəyə səbəb olması araşdırılmalıdır.

89. Sahənin intensivliyi $E_2=150\frac{\text{V}}{\text{m}}$ olan halda damcının təcilinin modulunu hesablayın.

Həlli:

I üsul. Sahənin intensivliyi $E_1=100\frac{\text{V}}{\text{m}}$ olan halda damcı sükunətdə olduğundan, $ma=mg-qE_1=0$ yəni, $mg=qE_1$ olur. Sahənin intensivliyi $E_2=150\frac{\text{V}}{\text{m}}$ olan halda sahənin intensivliyi 1,5 dəfə artdığından $qE_2=1,5qE_1=1,5mg$ olar. Onda $ma=qE_2-mg=1,5mg-mg=0,5mg.$ Buradan təcilin qiyməti $a=5\frac{m}{san^2}$ olur.

II üsul. $qE_1=mg$; $m=\frac{qE_1}{g}$.

$$ma=qE_2-mg\ ;\ a=\frac{qE_2}{m}-g=\frac{qE_2}{\frac{qE_1}{g}}-g=\frac{E_2g}{E_1}-g=5\frac{m}{san^2}$$

Doğru cavab: $\boldsymbol{5\frac{m}{san^2}}$

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Həll üsullarından hər hansı birindən istifadə edilərək cavabı doğru ($5\frac{m}{san^2}$) tapılmışdır;
$\frac{1}{2}$	B. Həll prosesi doğru yazılıb, lakin yol verilən hesablama ***səhvinə*** görə cavab ***səhv*** tapılmışdır; C. Damcının sükunətdə olduğu hal üçün həll prosesi doğru aparılmış, lakin intensivliyin 1,5 dəfə artığı hal üçün həll prosesində ***yanlışlığa*** yol verildiyindən cavab doğru ***alınmamışdır*** (yəni $mg = qE_1 \Rightarrow m = \frac{qE_1}{g} = 10q$ yazılıb, lakin davamı ***yanlışdır.*** Məsələn: $a = \frac{qE_2}{m} = \frac{150q}{10q} = 15$ və s. uyğun ***olmayan*** ifadələr yazılıb); D. İntensivliyin 1,5 dəfə artığı hal üçün düsturlar doğru yazılmış, lakin damcının sükunətdə olduğu hal üçün həll prosesi ***aparılmadığından*** sonrakı həll ***yazılmamışdır*** (yəni $ma = qE_2 - mg$; $a = \frac{qE_2}{m} - g$ yazılıb, lakin birinci həll prosesinə əsasən kütlə ***hesablanmadığından*** sonrakı həll ***yazılmamışdır***);
0	E. Birbaşa doğru cavab ($5\frac{m}{san^2}$) yazılmışdır; F. $ma = qE$, $a = \frac{qE}{m}$ və s. düsturlar yazılıb, lakin hesablama ***aparılmayıb***; G. ***Səhvən*** $E_2 - E_1 = 150 - 100 = 50$; $a = \frac{50}{10} = 5$ kimi hesablamalar yazılıb; H. Birbaşa $a = \frac{150 \cdot 10}{100} = 15$ olduğu yazılıb; I. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin *11_1.1.1.* (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*) və *10_1.1.1.* (*Mexaniki və istilik hərəkətini xarakterizə edən kəmiyyətlər arasındakı əlaqəni şərh edir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq "Yüklü zərrəciklərin elektrik sahəsində hərəkəti" və "Ümumdünya cazibə qanunu. Ağırlıq qüvvəsi" mövzularının genetik əlaqəsinə aid hesablama xarakterlidir


Abituriyentlərin 11.76%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 7.42%-i $\frac{1}{2}$ balla, 29.46%-i 0 balla qiymətləndirilmiş, 51.36%-i isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Test tapşırığının yerinə yetirilməsi üçün zəruri olan nəzəri material dərslikdə öz əksini tapmasına baxmayaraq, nəticə zəif olmuşdur. Xüsusən abituriyentlərin təxminən yarısı tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

90. Damcının təcilinin $\left[100\frac{\text{V}}{\text{m}};150\frac{\text{V}}{\text{m}}\right]$ aralığında elektrik sahəsinin intensivliyinin modulundan asılılıq qrafikini çəkin. Qrafikdə təcilin uyğun qiymətlərini qeyd edin.

Həlli: Təcilin $a = \frac{qE}{m}$ ***- g düsturuna əsasən a(E) asılılıq qrafiki xətti asılılıq verir.***

1-ci nöqtə: $E_1 = 100\frac{V}{m} \Rightarrow a = 0$ ***2-ci nöqtə:*** $E_2 = 150\frac{V}{m} \Rightarrow a = 5\frac{m}{san^2}$



Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Verilmiş intervalda təcilin qiymətləri düzgün qeyd olunaraq qrafik doğru çəkilmişdir; B. Əvvəlki tapşırıq həll edilərkən təcilin qiyməti 5-dən fərqli ədəd tapılıb və burada qeyd edilərək düzgün qrafik qurulub;
$\frac{1}{2}$	C. Təcilin qiymətləri qeyd ***olunmadan*** qrafik doğru çəkilmişdir (yəni $a=5$ olması qrafikdə ***göstərilməyib*** və ya ***səhv*** göstərilib); D. İntensivliyin (100–150) V/m qiymətinə uyğun qrafik xətti artma olaraq çəkilmiş, lakin intensivliyin (0–100) V/m intervalı üçün təcilin sabit olması qeyd edilmişdir (sıfırdan fərqli);
0	E. İntensivliyin (0–150) V/m intervalında təcilin sabit qaldığı, intensivliyin 150 V/m qiymətindən etibarən təcilin xətti artdığı göstərilmişdir; F. İntensivliyin (0–100) V/m qiymətinə uyğun təcilin intensivlikdən asılılıq qrafiki düz mütənasiblik kimi çəkilmiş, intensivliyin (100–150) V/m qiymətinə uyğun təcilin sabit olduğu qeyd edilmişdir; G. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin *11_1.1.1. (Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir), 10_1.1.1.(Mexaniki və istilik hərəkətini xarakterizə edən kəmiyyətlər arasındakı əlaqəni şərh edir) və 10_1.1.2.* (*Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir*) altstandartların tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.


Tapşırıq "Yüklü zərrəciklərin elektrik sahəsində hərəkəti" və "Ümumdünya cazibə qanunu. Ağırlıq qüvvəsi" mövzularının genetik əlaqəsinə aid hesablama xarakterlidir.

Abituriyentlərin 10.87%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 22.04%-i $\frac{1}{2}$ balla, 18.37%-i 0 balla qiymətləndirilmiş, 48.71%-i isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Statistik təhlil göstərir ki, belə tapşırıqların cavablandırılmasında – qrafikin qurulması üçün kəmiyyətlərin müvafiq qiymətlərinin hesablanmasında və qrafikin qurulmasında abituriyentlər hələ də çətinlik çəkirlər.

13 iyul 2025-ci il tarixli imtahan, I ixtisas qrupu, A variantı, 58 – 60 saylı test tapşırıqları

58. İpə bağlanmış cismi şaquli müstəvidə çevrə üzrə bərabərsürətli hərəkət etdirərək *A* nöqtəsində ipi qırırlar. Cisim maksimal hündürlüyə müəyyən zaman müddətində qalxır. Cismin dövretmə tezliyini 2 dəfə artırdıqda, onun maksimal hündürlüyə qalxma müddəti necə dəyişər (Havanın müqaviməti nəzərə alınmır)? Uyğun düsturları yazmaqla cavabınızı əsaslandırın.



Həlli:

I üsul. Çevrə üzrə bərabərsürətli hərəkət edən cismin xətti sürəti $\vartheta = 2\pi nR$ düsturu ilə ifadə olunur. Cisim A nöqtəsində olan anda ipi qırdıqda, sürət vektoru şaquli yuxarı yönəlmiş olur. Şaquli yuxarı atılan cismin maksimal hündürlüyə qalxma müddəti $t = \frac{\vartheta_0}{g} = \frac{2\pi nR}{g}$ düsturu ilə ifadə olunur. Cismin maksimal hündürlüyə qalxma müddəti dövretmə tezliyi ilə düz mütənasib olduğundan, dövretmə tezliyi 2 dəfə artdığından maksimal qalxma müddəti də 2 dəfə artar.

II üsul. Çevrə üzrə bərabərsürətli hərəkət edən cismin xətti sürəti $\vartheta = 2\pi nR$ düsturu ilə ifadə olunur. Bu ifadədən alınır ki, dövretmə tezliyi 2 dəfə artdığından cismin sürəti də 2 dəfə artar. Şaquli yuxarı atılan cismin maksimal qalxma hündürlüyü $H = \frac{\vartheta_0^2}{2g}$ düsturu ilə ifadə olunur. Ona görə də cismin xətti sürəti 2 dəfə artdıqda maksimal qalxma hündürlüyü 4 dəfə artır. Onda cismin maksimal hündürlüyə qalxma müddəti $t = \sqrt{\frac{2H}{g}}$ düsturu ilə ifadə olunduğundan, maksimal hündürlüyə qalxma müddəti 2 dəfə artır.

Doğru cavab: 2 dəfə artar

Qiymətləndirmə meyarları


Bal şkalası	Meyarlar
1	A. Həll prosesi doğru yazılmaqla tapşırığın cavabı doğru tapılıb;
$\frac{1}{2}$	B. Çevrə üzrə hərəkətdə xətti sürətin düsturu, maksimal hündürlüyə qalxma müddətinin düsturu düzgün yazılıb, lakin qalxma müddətinin *2 dəfə azalacağı* yazılıb; C. Çevrə üzrə hərəkətdə xətti sürətin düsturu, maksimal hündürlüyə qalxma müddətinin düsturu düzgün yazılıb, lakin xətti sürətin ifadəsini qalxma müddətinin düsturunda yerinə yazdıqda ***səhvə*** yol verilib, ancaq qalxma müddətinin 2 dəfə artacağı yazılıb; D. Çevrə üzrə hərəkətdə xətti sürətin düsturu yazılmadan tezliyin 2 dəfə artması zamanı sürətin də 2 dəfə artdığı birbaşa yazılmışdır. Maksimal hündürlüyə qalxma müddətinin düsturu düzgün yazılıb və cavab doğru tapılıb; E. Çevrə üzrə hərəkətdə xətti sürətin düsturunun yazılışında $\vartheta = \pi nR$, $\vartheta = 2\pi n$ və s. kimi ***səhvə*** yol verilib (düsturdan $\vartheta \sim n$ alınır), maksimal hündürlüyə qalxma müddətinin düsturu düzgün yazılıb və qalxma müddətinin 2 dəfə artacağı doğru yazılıb; F. Çevrə üzrə hərəkətdə xətti sürətin düsturu doğru yazılmış, lakin maksimal hündürlüyə qalxma müddətinin düsturunun yazılışında $t = \frac{2\vartheta_0}{g}$, $t = \frac{\vartheta_0}{2g}$ və s. kimi ***səhvə*** yol verilib (düsturdan $t \sim \vartheta$ alınır) və qalxma müddətinin 2 dəfə artacağı doğru yazılıb; G. Çevrə üzrə hərəkətdə xətti sürətin düsturu doğru yazılmaqla, dövretmə tezliyini 2 dəfə artırdıqda maksimal qalxma hündürlüyünün $(H = \frac{\vartheta_0^2}{2g})$ 4 dəfə artdığı doğru yazılıb *(düsturların hər biri doğru yazılmalıdır)*, lakin maksimal hündürlüyə qalxma müddətinin necə dəyişdiyi ***yazılmayıb***;
0	H. Çevrə üzrə hərəkətdə xətti sürətin düsturu doğru yazılmaqla onun 2 dəfə artması yazılsa da, sonrakı həll ya heç ***yazılmayıb***, ya da ***yanlış*** yazılıb ($h = \frac{\vartheta t}{2}, t = \frac{2h}{\nu} = \frac{2h}{2\pi nR}$ və s.); I. Sadəcə maksimal hündürlüyə qalxma müddətinin düsturu qeyd edilib və 2 dəfə artar yazılıb; J. Heç bir izah yazılmadan və ya tamamilə yanlış izah edilərək *2 dəfə artar* yazılıb; K. Sərbəstdüşmə təcilinin qiyməti mərkəzəqaçma təcilinin ifadəsi ilə əvəz edilib (məsələn: $a = 4\pi^2 n^2 R$ düstur $t = \frac{\vartheta_0}{a}$ və ya $S = \frac{at^2}{2}$ ifadələrdə yerinə qoyulub); L. Digər bütün yanlış hallarda.

Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin *10_1.1.1.* (*Mexaniki və istilik hərəkətini xarakterizə edən kəmiyyətlər arasındakı əlaqəni şərh edir*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Keyfiyyət nominasiyalı bu test tapşırığı "Ümumdünya cazibə qanunu. Ağırlıq qüvvəsi" bölməsinə aiddir. Abituriyentlərin 9.37%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 8,65%-i $\frac{1}{2}$ balla, 23,83%-i 0 balla qiymətləndirilmiş, 58.15%-i isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini tapşırığın şərtlərini dərslikdə verilmiş mövzuya uyğun düsturlara tətbiq etməkdə çətinlik çəkmələri ilə əlaqələndirmək olar. Bu səbəbdən abituriyentlərin yarıdan çoxu tapşırığı həll etməkdən imtina etmişlər.

59. Kütləsi 4 kq olan cisim radiusu 2 m olan çevrə üzrə hərəkət edir. Radius vektorun dönmə bucağının zamandan asılılıq qrafikinə əsasən bu cismin kinetik enerjisini hesablayın.



Həlli: Məlum olduğu kimi, cismin kinetik enerjisi $E_k = \frac{m\upsilon^2}{2}$ ifadəsi ilə təyin olunur. Burada υ –cismin çevrə üzrə hərəkətdə xətti sürətidir. Xətti sürət bucaq sürətinin radiusa hasili kimi təyin olunur $\upsilon = \omega R$. Qrafikdən bucaq sürətini hesablayaraq $\omega = \frac{\varphi}{t} = \frac{6\ rad}{2\ san} = 3\ \frac{rad}{san}$ (və ya $\omega = \frac{\varphi}{t} = \frac{12}{4} = 3\ \frac{rad}{san}$) xətti sürəti müəyyən edilir $\vartheta = \omega R = 3 \cdot 2 = 6\frac{m}{san}$. Daha sonra kinetik enerji hesablansa: $E_k = \frac{m\vartheta^2}{2} = \frac{4\ kq \times 36\ \frac{m^2}{san^2}}{2} = 72\ C$ və ya $E_k = \frac{m\vartheta^2}{2} = \frac{m\omega^2 R^2}{2} = \frac{m\varphi^2 R^2}{2t^2} = \frac{4 \cdot 6^2 \cdot 2^2}{2 \cdot 2^2} = 72\,C$ alınar.

Doğru cavab: 72 C

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Həll prosesi doğru yazılmaqla tapşırığın cavabı doğru (72 C) tapılıb;
$\frac{1}{2}$	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Həll prosesi doğru yazılmaqla tapşırığın cavabı enerji vahidi C-dan fərqli vahidlə ***yanlış*** ifadə edilib; D. Bucaq sürətinin, xətti sürətin düsturları düzgün yazılıb və qiymətləri düzgün tapılıb, lakin kinetik enerjinin düsturu ***yazılmayıb*** və (və ya) hesablama ***aparılmayıb***; E. Bucaq sürətinin qiyməti birbaşa $3 \cdot 2 = 6\frac{m}{san}$ yazılaraq kinetik enerjinin qiyməti düzgün (72 C) hesablanıb;
0	F. Yalnız bucaq sürətinin düsturu düzgün yazılıb və qiyməti düzgün hesablanılıb, lakin həllin davamı ***yoxdur*** və ya ***yanlışdır***; G. Xətti sürətinin düsturu $\vartheta = \frac{\varphi}{t}$ şəklində ***yanlış*** yazılaraq hesablanma aparılıb və kinetik enerjinin ifadəsində bu qiymət nəzərə alınaraq hesablanılıb; H. Həll prosesi ***aparılmadan***, düsturlar ***yazılmadan*** və ya tamamilə ***yanlış*** izah edilərək 72 C yazılıb (məsələn: Xətti sürətin qiyməti yanlış üsullarla hesablanaraq 6 tapılıb və kinetik enerji düsturunda yerinə qoyularaq 72 C tapılıb); I. Digər bütün hallarda.


Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin *10_1.1.2. (Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli*) məsələlər qurur və həll edir) və altstandartlarının tələbləri üzrə bilik və bacarıqları yoxlanılır.

Qrafik nominasiyalı bu test tapşırığı 10-cu sinifdə tədris edilən "Çevrə üzrə bərabərsürətli hərəkət" və "İmpuls. Enerji. Saxlanma qanunları" mövzuları arasında genetik əlaqə bölməsinə aiddir.


Abituriyentlərin 36.88%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 6.45%-i $\frac{1}{2}$ balla, 21.67%-i 0 balla qiymətləndirilmiş, 35.00%-i isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Test tapşırığının yerinə yetirilməsi üçün zəruri olan nəzəri material dərslikdə öz əksini tapmışdır. Təhlildən məlum olur ki, qrafikdən müvafiq kəmiyyətlərin qiymətlərindən istifadə etməklə, nəzəri düsturlarda qiymətləri yerinə yazmaqla hesablama nəticəsində doğru cavabın alınması mümkündür. Məhz bu səbəbdən nəticə kifayət qədər yüksək olmuş, tapşırığı yerinə yetirməkdən imtina edənlərin sayı isə kifayət qədər az olmuşdur.

60. Sabit kütləli ideal qaz üzərində aparılan proseslər p, T koordinatlarında (p – təzyiq, T – mütləq temperaturdur) verilmişdir. Bu prosesləri p, V koordinatlarında (V – həcmdir) çəkin.



Həlli: Əvvəlcə göstərilən proseslər müəyyən etmək lazımdır. Qrafikdən göründüyü kimi, 1–2 prosesi izobarik qızma və ya genişlənmədir, ona görə də bu prosesdə $p = const \Rightarrow V \uparrow \sim T \uparrow$



2–3 izoxor qızma, $V = const \Rightarrow p \uparrow \sim T \uparrow$

3–4 izotermik sıxılma, $T = const \Rightarrow V \downarrow \sim \frac{1}{p \uparrow}$

4–1 izoxor soyumadır, $p \downarrow \sim T \downarrow \Rightarrow V = const$

Bu prosesləri p,V koordinatlarında çəkdikdə doğru cavab alınır:

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. İzoproseslər izah edilərək, hər prosesə uyğun qrafik doğru çəkilmişdir;
$\frac{2}{3}$	B. p,T koordinatlarında verilən proseslərə uyğun qrafiklər p,V koordinatlarında düzgün qurulub, lakin prosesi göstərən rəqəmlər (1–2–3–4–1) qrafikin üzərində qeyd ***edilməyib;*** C. p,V koordinatlarında proseslərdən hər hansı üçünə uyğun qrafik doğru çəkilib (ayrı-ayrılıqda da ola bilər), digəri ***səhv*** çəkilib;
$\frac{1}{3}$	D. p,V koordinatlarında proseslərdən hər hansı ikisinə uyğun qrafik doğru çəkilib (ayrı-ayrılıqda da ola bilər), digər ikisi ***səhv*** çəkilib;
0	E. p,V koordinatlarında proseslərdən hər hansı birinə uyğun qrafik doğru çəkilib, digərləri ***səhv*** çəkilib və ya ***çəkilməyib***; F. Digər bütün yanlış hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin *11_1.1.2.* (*Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir*) və altstandartının tələbləri üzrə bilik və bacarıqları yoxlanılır. Abituriyentlərin 11.52%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 15.54%-i $\frac{2}{3}$ balla, 9.68%-i $\frac{1}{3}$ balla, 28.48%-i 0 balla qiymətləndirilmiş, 34.79%-i isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Qrafik nominasiyalı açıq tipli bu test tapşırığı "Molekulyar-kinetik nəzəriyyənin əsasları" bölməsinə aiddir.

Test tapşırığının yerinə yetirilməsi üçün şərtdə p, T koordinatlarında verilmiş sabit kütləli ideal qaz üzərində aparılan prosesləri müəyyənləşdirmək və həmin proseslərdə ideal qazın həcminin necə dəyişməsini müəyyən etmək lazımdır. Daha sonra bu prosesləri p, V koordinatlarında diaqramı çəkmək kifayət edir.

Kimya fənnindən ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar müvafiq fənn kurikulumlarının təlim nəticələri, məzmun standartlarının tələbləri nəzərə alınmaqla, ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklər əsasında hazırlanmış qəbul proqramına tam uyğun olub.

Tapşırıqlar **"Maddə və maddi aləm", "Kimyəvi hadisələr", "Eksperiment və modelləşdirmə", "Kimya və həyat"** məzmun xətləri üzrə 10 əsas və 33 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Hər iki ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar "Ümumi kimya", "Qeyri-üzvi kimya" və "Üzvi kimya" bölmələrinə aid olub.

Tapşırıqların bölmələr üzrə paylanması zamanı məktəb kimya kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və hər iki ixtisas qrupunun peşə xüsusiyyətləri nəzərə alınıb.

Test bloklarına elmi-metodiki cəhətdən mübahisə doğuran tapşırıqlar daxil edilməyib.

İmtahanlarda əsas etibarilə nəzəri biliklərin tətbiqinə, məntiqi düşüncəyə əsaslanan, kimyəvi hadisə və proseslərin mahiyyətinin dərkinə yönəlmiş cədvəl, qrafik və sxem formalı tapşırıqlara üstünlük verilib.

Abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədi ilə test bloklarına relevantlıq kateqoriyalarına görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, proqnozlaşdırma və təklif olunan fəaliyyət tipli, mürəkkəblik dərəcəsinə görə isə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

Tapşırıqlarla, əsasən, aşağıda qeyd olunan bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi mümkün olub:

– *Maddələrin Beynəlxalq və tarixi (trivial) adlandırılması;*
– *Qeyri-üzvi və üzvi maddələrin tərkibi və xassələrinə görə təsnifatı;*
– *Atomun quruluşu, valentlik, kimyəvi elementlərin oksidləşmə dərəcəsi və ionların yükünün, kimyəvi rabitələrin və kristal qəfəslərin tipinin, quruluş formuluna görə izomerliyin və homoloqların, suda məhlulların mühitinin, oksidləşdirici və reduksiyaediciliyinin müəyyən edilməsi;*
– *D.İ.Mendeleyevin dövri sisteminə və atomun quruluşuna əsasən kimyəvi elementlərin və onların birləşmələrinin kimyəvi xassələrinin xarakterizə edilməsi;*
– *Kimyəvi tarazlığa və reaksiya sürətinə təsir edən amillərin xarakterizə edilməsi;*
– *Oksidləşmə-reduksiya reaksiyalarının tənliklərinin əmsallaşdırılması;*
– *İon-mübadilə reaksiyalarının tam və qısa ion tənliklərinin tərtib olunması;*
– *Maddələrin kimyəvi xassələrinin dəyişməsi qanunauyğunluğunun, kimyəvi reaksiyaların mahiyyətinin izah edilməsi;*
– *Kimyəvi formullara və tənliklərə görə hesablamalar aparılması.*

Ötən illərdə olduğu kimi, qəbul imtahanlarının nəticələrinin statistik göstəriciləri əsasında hər bir test tapşırığı məzmun, mürəkkəblik dərəcəsi və relevantlıq kateqoriyaları baxımından təhlil edilib.

Təhlil göstərmişdir ki, hər iki ixtisas qrupu üzrə abituriyentlərin nəticələri əvvəlki illərlə müqayisədə yaxşı olub. Bununla yanaşı, bir sıra abituriyentlər I ixtisas qrupu üzrə "Qeyri-üzvi birləşmələrin mühüm sinifləri", "Aldehidlər və karbon turşuları", "Kauçuklar", "Alüminium", "Azot və onun birləşmələri", "Karbon turşuları", "Elektrolitik dissosiasiya. Dissosiasiya dərəcəsi", "Aminlər", IV ixtisas qrupu üzrə isə "Alkanlar", "Karbon", "Məhlullar", "Turşular və Duzlar", "İon mübadiləsi reaksiyaları" mövzularına aid tapşırıqlara zəif cavab veriblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 66 saylı test tapşırığı
11-ci sinif

1.2.1. Oksigenli, azotlu üzvi birləşmələrdə atomların qarşılıqlı təsirini izah edir.

Qarışqa turşusu və qarışqa aldehidi üçün ümumi ***olmayan*** nədir?

I. Karbon atomunun oksidləşmə dərəcəsi
II. Molekullarında sp^2- hibrid vəziyyətində olan karbon atomlarının sayı
III. Adi şəraitdə aqreqat halları
IV. $Cu(OH)_2$ ilə reaksiyaya daxil olması

A) I, II B) III, IV C) I, III D) I, IV E) II, IV

11-ci sinifdə tədris olunan “Aldehidlər və karbon turşuları” mövzularına aid bu tapşırığa abituriyentlərin 17,51%-i doğru cavab vermiş, 40,35%-i cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün aldehid və karbon turşularının həm molekul quruluşunu, həm də fiziki və kimyəvi xassələrini bilmək lazımdır.

qarışqa turşusu: HCOOH

qarışqa aldehidi: HCHO

I. ümumi olmayan; $\overset{+2}{H}COOH$ $\overset{0}{H}CHO$

II. ümumi olan; $H\overset{sp^2}{C}OOH$ $H\overset{sp^2}{C}HO$

III. ümumi olmayan; HCOOH – maye HCHO - qaz

IV. ümumi olan;

$HCOOH + 2Cu(OH)_2 \xrightarrow{t} CO_2 + 3H_2O + Cu_2O$

$HCHO + 2Cu(OH)_2 \xrightarrow{t} HCOOH + 2H_2O + Cu_2O$

Doğru cavab: C

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 84 saylı test tapşırığı

9-cu sinif

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

Azot və hidrogendən ibarət 360 mol qaz qarışığının reaksiyasından sonra yalnız 40 mol hidrogen artıq qalarsa, ilkin qaz qarışığında neçə mol hidrogen olmuşdur?

9-cu sinifdə tədris olunan “Azot və onun birləşmələri” mövzusuna aid bu tapşırığa abituriyentlərin 7,13%-i doğru cavab vermiş, 47,33%-i cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün həm azot və onun birləşmələri mövzusunu bilmək, həm də kimyəvi tənliklər üzrə hesablamalar aparmağı bacarmaq lazımdır.

Reaksiya zamanı sərf olunan qaz qarışığı: 360 – 40 = 320 mol

$N_2 + 3H_2 \rightarrow 2NH_3$ reaksiyasından göründüyü kimi 1 mol azot ilə 3 mol hidrogen, yəni ümumilikdə 4 mol qaz reaksiyaya daxil olur.

4 mol qazın ———— 1 molu (N_2)

320 mol qazın ——— x molu (N_2) x=80 mol N_2 reaksiyaya daxil olub.

Azot tam sərf olunduğu üçün qazların ümumi mol miqdarından azotun mol miqdarı çıxılır və hidrogenin mol miqdarı müəyyən edilir.

360 – 80 = 280 mol H_2

Doğru cavab: 280

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 87 saylı test tapşırığı

11-ci sinif

2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.

Uyğunluğu müəyyən edin.

Karbohidrogenlər

1. $C_{36}H_{74}$
2. CH_4
3. C_4H_{10}

Katalitik oksidləşməsindən alınan maddələr

a. etan turşusu b. qarışqa turşusu

c. palmitin turşusu d. butan turşusu

e. stearin turşusu

11-ci sinifdə tədris olunan “Karbon turşuları” mövzusuna aid bu tapşırığa 5,61%-i doğru cavab vermiş, 33,06%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün karbon turşularının alınma üsullarını bilmək lazımdır.

$2C_{36}H_{74} + 5O_2 \rightarrow 2H_2O + 4C_{17}H_{35}COOH$ (stearin turşusu)


$2CH_4 + 3O_2 \rightarrow 2H_2O + 2HCOOH$ (qarışqa turşusu)

$2C_4H_{10} + 5O_2 \rightarrow 2H_2O + 4CH_3COOH$ (etan turşusu)

Doğru cavab: 1-e; 2-b; 3-a

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 88 saylı test tapşırığı

4 mol $CaCl_2$ və 10 mol NaCl duzlarından ibarət qarışıq suda həll edildikdə alınan Ca^{2+} və Cl^- ionlarının mol sayının zamandan asılılığı verilmişdir:



$CaCl_2$ duzunun dissosiasiya dərəcəsi 80% olarsa, *n*-in qiymətini (1) və NaCl duzunun dissosiasiya dərəcəsini faizlə (2) hesablayın.

İzah: Əvvəlcə $CaCl_2$-nin dissosiasiya tənliyini yazılır və alınan ionların mol miqdarını hesablamaq üçün tənasüb qurulur:

4 mol x mol y mol

$CaCl_2 \leftrightarrow Ca^{2+} + 2Cl^-$

1 mol 1 mol 2 mol

x = 4 mol Ca^{2+} ionu yaranmalıdır;

y = 8 mol Cl^- ionu yaranmalıdır.

100 % ———— 4 mol

80 % ———— n mol n = 3,2 mol Ca^{2+} ionu yaranır.

100 % ———— 8 mol

80 % ———— *a* mol *a* = 6,4 mol Cl^- ionu yaranır.

Qrafikdən görünür ki, Cl^- ionlarının ümumi mol sayı 5n, yəni 5·3,2=16 mol olur.

Lakin alınan 16 mol Cl^- ionunun 6,4 molunun $CaCl_2$-dən alındığını tapdıq. Beləliklə, 16 – 6,4 = 9,6 mol Cl^- ionu NaCl-in dissosiasiyasından alınıb. Şərtdə 10 mol NaCl verilib:

10 mol *b* mol

$NaCl \leftrightarrow Na^+ + Cl^-$

1 mol 1 mol *b* = 10 mol Cl^- ionu əmələ gəlməlidir. Lakin 9,6 mol əmələ gəldiyini tapdıq. Tənasüb quraraq dissosiasiya dərəcəsini tapaq:

10 mol Cl^- ———— 100%

9,6 mol ———— x% x = 96%

Doğru cavab:1) n = 3,2 mol

2) 96%

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Dissosiasiya tənlikləri doğru yazılmaqla, hesablama qaydaları düzgün qeyd edilməklə n-in qiyməti və NaCl duzunun dissosiasiya dərəcəsi doğru hesablanıb (Əlavə olaraq, heç bir yanlış cavab yazılmayıb.).
$\frac{2}{3}$	B. Dissosiasiya tənlikləri doğru yazılmaqla, hesablama qaydalarını düzgün qeyd edilməklə n-in qiyməti doğru hesablanıb, lakin NaCl duzunun dissosiasiya dərəcəsi **hesablanmayıb** və ya ***yanlış*** hesablanıb. C. Hesablama qaydaları düzgün qeyd edilməklə n-in qiyməti doğru tapılıb, NaCl duzunun dissosiasiya dərəcəsi düzgün hesablanıb. Lakin dissosiasiya tənliklərində ionların ***yükləri yanlış*** yazılıb, yaxud ***yük (və ya yüklər) yazılmayıb***.
$\frac{1}{3}$	D. Yalnız $CaCl_2$-nin dissosiasiya tənliyi yazılıb, düzgün hesablama aparılaraq, n-in qiyməti düzgün tapılıb, lakin digər tənlik yazılmayıb və düzgün hesablama aparılmayıb. E. Dissosiasiya tənliklərinin ikisi də düzgün qeyd olunub, lakin n-in qiyməti və NaCl duzunun dissosiasiya dərəcəsi ***tapılmayıb*** və ya yanlış hesablanıb.
0	F. ***Dissosiasiya tənlikləri yazılmadan*** həll yazılıb. G. Heç bir həll qeyd olunmadan yalnız düzgün cavablar qeyd edilib. H. Yalnız 1 dissosiasiya tənliyi qeyd edilib, heç bir həll yoxdur. I. Digər bütün hallarda.

Qeyd 1: Dissosiasiya tənliyində (→) və ya (↔) işarəsinin hər ikisi DÜZGÜN sayılsın.

Qeyd 2: Əgər dissosiasiya tənliyi yazılmadan izahlı şəkildə hesablama aparılaraq, cavablar doğru yazılıbsa, bu zaman yazı işi 1 balla qiymətləndirilə bilər.

Tapşırıq vasitəsilə "Maddə və maddi aləm" məzmun xəttinin *8_1.3.1.* (*Atomun quruluşuna, kimyəvi rabitələrə, elektrolit məhlulunda baş verən proseslərə aid məsələlər qurur və həll edir.*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.


Tapşırıq 8-ci sinifdə tədris olunan "Elektrolitik dissosiasiya. Dissosiasiya dərəcəsi" mövzusuna aiddir.

Abituriyentlərin 2,52%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 0,59%-i $\frac{2}{3}$ balla, 2,72%-i $\frac{1}{3}$ balla, 17,58%-i 0 balla qiymətləndirilmiş, 76,59%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 89 saylı test tapşırığı

$KOH + Cl_2 \xrightarrow{t} KCl + KClO_3 + H_2O$

Reaksiya tənliyi üzrə alınan məhsulların mol miqdarlarının zamandan asılılıq qrafiki aşağıdakı kimidir:



B maddəsinin flüor ilə reaksiyasının kimyəvi tənliyini yazın və əmsallaşdırın (1). C maddəsinin kimyəvi formulunu yazın (2).

İzah: Tənlik əmsallaşdırılır:

$6KOH + 3Cl_2 \xrightarrow{t} 5KCl + KClO_3 + 3H_2O$

Qrafikdən aydın olur ki, alınan A maddəsi daha çox mol miqdardadır, deməli o, KCl, beləcə, B maddəsi su, C maddəsi isə daha az mol miqdarda alınan $KClO_3$-dür.

Doğru cavab: 1) $2H_2O + 2F_2 \rightarrow 4HF + O_2$

2) $KClO_3$

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. İlkin reaksiya tənliyi doğru əmsallaşdırılıb, (tam və ya kəsr ədədlərlə), C maddəsinin formulu doğru yazılıb. B maddəsinin flüor ilə reaksiya tənliyi doğru yazılıb və doğru əmsallaşdırılıb. Əlavə heç bir yanlış cavab qeyd edilməyib.
$\frac{2}{3}$	B. İlkin reaksiya tənliyi doğru əmsallaşdırılıb (tam və ya kəsr ədədlərlə), C maddəsinin formulu doğru yazılıb, B maddəsinin flüor ilə reaksiyası tənliyi doğru yazılıb, lakin ***əmsallaşdırılmayıb***, yaxud yanlış əmsallaşdırılıb. C. İlkin reaksiya tənliyi doğru əmsallaşdırılıb (tam və ya kəsr ədədlərlə), C maddəsinin formulunu ***yanlış*** yazılıb və ya ümumiyyətlə yazılmayıb. B maddəsinin flüor ilə reaksiya tənliyini doğru yazılıb və doğru əmsallaşdırılıb. D. İlkin reaksiya tənliyi doğru əmsallaşdırılmayıb, C maddəsinin formulu doğru yazılıb. B maddəsinin flüor ilə reaksiya tənliyi doğru yazılıb və doğru əmsallaşdırılıb. Əlavə heç bir yanlış cavab qeyd edilməyib.
$\frac{1}{3}$	E. İlkin reaksiya tənliyi doğru əmsallaşdırılıb (tam və ya kəsr ədədlərlə), C maddəsinin formulunu doğru yazılıb. B maddəsinin flüor ilə reaksiya tənliyi ***yazılmayıb*** və ya ***səhv*** yazılıb. F. Reaksiya tənliyi doğru əmsallaşdırılıb (tam və ya kəsr ədədlərlə), yalnız B maddəsinin flüorla reaksiya tənliyi düzgün yazılıb, lakin düzgün ***əmsallaşdırılmayıb.*** C maddəsi ***yanlış*** qeyd edilib və ya ümumiyyətlə ***qeyd edilməyib.***
0	G. Bütün cavablar yanlış tapılıb. H. Digər hallarda.

Digər ehtimallar üçün qiymətləndirmə cədvələ əsasən aparıla bilər.

$6KOH + 3Cl_2 \xrightarrow{t} 5KCl + KClO_3 + 3H_2O$	$H_2O + F_2 \rightarrow HF + O_2$	$2H_2O + 2F_2 \rightarrow 4HF + O_2$	$KClO_3$	**Bal**
+	+	+	+	**3**
+	+	+	–	**2**
–	+	+	+	**2**
+	+	–	+	**2**
+	–	–	–	**1**
–	+	–	+	**1**
–	+	+	–	**1**
+	–	–	+	**1**
+	+	–	–	**1**
–	–	–	+	**0**

Tapşırıq vasitəsilə “Kimyəvi hadisələr” məzmun xəttinin *9_2.2.1.* (*Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq 9-cu sinifdə tədris olunan “Halogenlər” mövzusuna aiddir.

Abituriyentlərin 6,64%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 3,04%-i $\frac{2}{3}$ balla, 7,30%-i $\frac{1}{3}$ balla, 18,54%-i 0 balla qiymətləndirilmiş, 64,50%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

1 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 90 saylı test tapşırığı

9 qram etilaminin tam yanma məhsullarından suyu ayırdıqdan sonra qaz qarışığını artıq miqdarda əhəng suyundan keçirdikdə qarışıqdakı qazların biri tam reaksiyaya daxil olur. Əhəng suyu olan qabın kütləsinin neçə qram artdığını (1) və neçə litr (n. ş.) qazın əhəng suyu ilə reaksiyaya ***daxil olmadığını*** (2) hesablayın. $A_r(C)=12$, $A_r(O)=16$, $A_r(N)=14$, $A_r(H)=1$

İzah: Yanma məhsullarını əhəng suyundan buraxdıqda azot reaksiyaya daxil olmur, deməli, əhəng suyu olan qabın kütləsinin artmasına səbəb CO_2-dir. Ona görə də CO_2-nin kütləsini (q) və azotun həcmini (n.ş.*l*) tapmaq lazımdır:

9 q x q y *l*

$4C_2H_5NH_2 + 15O_2 \rightarrow 8CO_2 + 14H_2O + 2N_2$

4·45 q 8·44 q 2· 22,4 *l*

x = 17,6 qram CO_2

y = 2,24 *l*

Doğru cavab: 1) 17,6

2) 2,24

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Reaksiyanın tənliyi doğru yazılıb, düzgün əmsallaşdırılıb (tam və ya kəsr ədədlərlə), müvafiq hesablamaları qeyd edilməklə, CO_2-nin kütləsi və N_2 nin həcmi ***doğru*** hesablanıb (Əlavə olaraq heç bir yanlış cavab qeyd edilməyib.).
$\frac{2}{3}$	B. Reaksiyanın tənliyi doğru yazılıb, düzgün əmsallaşdırılıb (tam və ya kəsr ədədlərlə), müvafiq hesablamaları qeyd edilməklə CO_2-nin kütləsi ***səhv (və ya hesablanmayıb)***, N_2 nin həcmi ***doğru*** hesablanıb. C. Reaksiyanın tənliyi doğru yazılıb, düzgün əmsallaşdırılıb, (tam və ya kəsr ədədlərlə), müvafiq hesablamaları qeyd edilməklə CO_2-nin kütləsi ***doğru,*** N_2 nin həcmi ***səhv hesablanıb (və ya hesablanmayıb).*** D. Reaksiyanın tənliyi doğru yazılıb, lakin ***səhv*** əmsallaşdırılıb və ya ***əmsallaşdırılmayıb***, müvafiq hesablamaları qeyd edilməklə, CO_2-nin kütləsi və N_2-nin həcmi (hər ikisi) ***doğru*** hesablanıb (Əlavə olaraq heç bir yanlış cavab qeyd edilməyib.).
$\frac{1}{3}$	E. Yalnız reaksiyanın tənliyi doğru yazılıb, (düzgün əmsallaşdırılıb və ya əmsallaşdırılmayıb), CO_2-nin kütləsi və N_2 -nin həcmi ***səhv*** hesablanıb (yaxud ümumiyyətlə hesablanmayıb). F. Reaksiyanın tənliyi doğru yazılıb (düzgün əmsallaşdırılıb və ya əmsallaşdırılmayıb). Qabın kütləsini artıran qazın (CO_2) və reaksiya girməyən qazın (N_2) kimyəvi formulu vurğulanıb, lakin hesablama aparılmayıb, cavablar ***tapılmayıb***. G. Reaksiyanın tənliyi doğru yazılıb, lakin ***əmsallaşdırılmayıb***. CO_2 və ya N_2-dən ***hər hansı birinin qiyməti hesablanaraq düzgün tapılıb***. H. ***Reaksiya tənliyi yazılmayıb,*** lakin izahlı şəkildə alınan CO_2 və N_2-nin hər ikisi üçün uyğun miqdarlar düzgün hesablanaraq tapılıb.
0	I. Yanma reaksiyasının yazılmadığı, yaxud səhv yazıldığı digər bütün hallarda. J. Reaksiya yazılmadan, ***birbaşa cavablar yazılıb.*** K. Digər bütün hallar.

Qeyd 1: Əhəng suyu ilə gedən reaksiya tənliyi yazılıb-yazılmaması nəzərə alınmasın.

Qeyd 2: Düzgün reaksiya tənliyi ilə yanaşı, səhv tənlik qeyd olunarsa, reaksiya tənliyi düzgün götürülmür.


Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin *11_2.2.2.* (*Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıq 11-ci sinifdə tədris olunan "Aminlər" mövzusuna aiddir.

Abituriyentlərin 1,44%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 1,49%-i $\frac{2}{3}$ balla, 3,72%-i $\frac{1}{3}$ balla, 9,97%-i 0 balla qiymətləndirilmiş, 83,37%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

1 iyun tarixli imtahan, IV ixtisas qrupu, A variantı, situasiyaya aid 58-60 saylı tapşırıqlar

Qapalı qabda CH_3COONa və NaOH qarışığını qızdırdıqda baş verən reaksiya zamanı maddələrin kütləsi zamandan asılı olaraq qrafikdə göstərildiyi kimi dəyişir.



Reaksiya başa çatdıqdan sonra qabda qalan bərk qalıq üzərinə HCl məhlulu əlavə edən zaman qabdan X qazının ayrılması müşahidə olunur. Qabdakı bərk qalığın tam reaksiyasına 122 ml HCl məhlulu sərf olunur. $A_r(C)=12$; $A_r(H)=1$; $A_r(O)=16$; $A_r(Na)=23$

58. a (1), b (2) və c-ni (3) hesablayın.

İzah:

$M_r(CH_4)=16 < M_r(Na_2CO_3)=106$

Deməli, qrfikdə verilən 3,2 q CH_4 -ın kütləsidir.

b x 3,2 *q* c

$CH_3COONa + NaOH \rightarrow CH_4 + Na_2CO_3$

82 40 16 106

$M_r(CH_3COONa)=82 > M_r((NaOH)=40$ olduğundan,

b *q* ----- 3,2 *q*

82 *q* ----- 16 *q* / **b** = **16,4** q **(CH_3COONa** sərf olunur**)**

3,2 *q* ----- c *q*

16 *q* ----- 106 *q* / **c** = **21,2** q **(Na_2CO_3** əmələ gəlir**)**

x *q* ---- 3,2 q

40 *q* ---- 16 *q* / **x = 8** *q* **(NaOH** sərf olunur**)**

Qrafikə əsasən reaksiyanın əvvəlində $m(NaOH)=m(CH_3COONa)=b=16,4$ q

b – a = 8

16,4 – a = 8,4

a = 8,4

Doğru cavab: 1) 8,4; 2) 16,4; 3) 21,2

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Reaksiya tənliyi düzgün yazılıb, a,b və c-nin həll prosesi düzgün göstərilməklə, doğru cavabları tapılıb (Əlavə olaraq, heç bir səhv reaksiya tənliyi və ya cavab yazılmayıb).
$\frac{2}{3}$	B. Reaksiya tənliyi düzgün yazılıb, a, b və c-dən hər hansı 2-nin həll prosesi doğru yazılıb, cavabı düzgün tapılıb, lakin: • digərinin ***həll prosesi yazılmadan*** birbaşa doğru cavabı yazılıb • digərinin həll prosesi tamamilə ***səhv*** yazılaraq, doğru cavab tapılıb • digəri ümumiyyətlə ***yazılmayıb.***

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$	C. Reaksiya tənliyi düzgün yazılıb, a, b və c-dən yalnız 1-nin həll prosesi doğru yazılaraq, düzgün cavab tapılıb, lakin: • digər ikisinin ***həll prosesi yazılmadan*** birbaşa doğru cavabları yazılıb; • digər ikisinin həll prosesi tamamilə ***səhv*** yazılaraq, doğru cavabları tapılıb; • digər ikisi ümumiyyətlə ***yazılmayıb.*** D. Yalnız reaksiya tənliyi düzgün yazılıb, a, b və c-nin qiymətləri: • həll yazılmadan ***birbaşa*** cavabları düzgün yazılıb; • ***səhv*** yazılıb; • ümumiyyətlə ***yazılmayıb.***
0	E. Digər bütün hallarda.

Qeyd: Reaksiya tənliyinin düzgün yazılmadığı istənilən həll üsulu və cavab 0 balla qiymətləndirilir.

Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin *10_2.2.2.* (*Qeyri-üzvi birləşmələr və üzvi birləşmələrə (karbohidrogenlərə) aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Təqdim olunan tapşırıq 10-cu sinifdə tədris olunan "Alkanlar" mövzusuna aiddir.

Abituriyentlərin 26,89%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 5,88%-i $\frac{2}{3}$ balla, 15,43%-i $\frac{1}{3}$ balla, 13.01%-i 0 balla qiymətləndirilmiş, 38,80%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

59. Neçə litr (n.ş) X qazının ayrıldığını hesablayın (1) və bu qazın alınma reaksiyasının tam ion tənliyini yazın (2).

İzah: Reaksiyadan alınan Na_2CO_3 ilə HCl məhlulunun reaksiyasından **X** qazı (**CO_2**) əmələ gəlir:

21,2 q x *l*

$Na_2CO_3 + 2HCl \rightarrow 2NaCl + H_2O + CO_2\uparrow$

106 q 22,4 *l*

21,2 q ---- x *l*

106 q ----- 22,4 *l* / **x = 4,48 *l*** (**CO_2** əmələ gəlir)

$2Na^+ + CO_3^{2-} + 2H^+ + 2Cl^- \rightarrow 2Na^+ + 2Cl^- + H_2O + CO_2$

Doğru cavab: 1) 4,48

2) $2Na^+ + CO_3^{2-} + 2H^+ + 2Cl^- \rightarrow 2Na^+ + 2Cl^- + H_2O + CO_2$

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. X qazının alınma reaksiyasının tənliyi doğru yazılıb, doğru əmsallaşdırılıb, müvafiq hesablamaları qeyd etməklə X qazının həcmi doğru hesablanıb və reaksiyanın tam ion tənliyi ***əmsalları və yükləri ilə tam doğru*** yazılıb (Əlavə hər hansı bir səhv tənlik və ya cavab yazılmayıb).
$\frac{2}{3}$	B. X qazının alınma reaksiyasının tənliyini doğru yazılıb, doğru əmsallaşdırılıb, Reaksiyanın tam ion tənliyi ***əmsalları və yükləri ilə tam doğru*** yazılıb, X qazının həcmi **yanlış** hesablanıb və ya ümumiyyətlə **hesablanmayıb**. C. X qazının alınma reaksiyasının tənliyi doğru yazılıb, doğru əmsallaşdırılıb, müvafiq hesablamaları qeyd etməklə X qazının həcmi doğru hesablanıb, lakin reaksiyanın tam ion tənliyini **yanlış** yazılıb və ya ion tənliyindəki ionların yükləri ***səhv*** yazılıb (və ya yazılmayıb), yaxud ümumiyyətlə tənlik yazılmayıb (yaxud qısa ion tənliyi şəklində yazılıb).
$\frac{1}{3}$	D. Yalnız reaksiya tənliyi doğru yazılıb. Digərləri yanlış yazılıb, yaxud ümumiyyətlə yazılmayıb. E. Yalnız tam ion tənliyi doğru yazılıb. Digərləri yanlış yazılıb, yaxud ümumiyyətlə yazılmayıb.
0	F. Hər iki tənlik (reaksiya tənliyi və tam ion tənliyi) yazılmayıb, yaxud yanlış yazılıb, lakin qazın həcmi düzgün tapılıb. G. Digər bütün hallar.

Qeyd:

- Tənlik (Na_2CO_3+HCl→ ...) yazılmayan cavablarda şagirdin əvvəlki cavabına baxaraq, tənliyin yazılıb-yazılmaması dəqiqləşdirilməlidir.
- Tam ion tənliyində ionların yükü düzgün yazılmayan ion tənliyi yanlış hesab edilməlidir.
- Cavabda düzgün reaksiya tənliyi ilə yanaşı sualda sözü gedən digər tənlik yazılıbsa, əlavə yazılmış tənlik nəzərə alınmamalıdır.
- Əgər tam ion tənliyi yazılıb, sonra qısa tənlik şəklində yazılıbsa, düzgün hesab edilməlidir.

Tapşırıq vasitəsilə "Maddə və maddi aləm" məzmun xəttinin *8_1.3.1.* (*Atomun quruluşuna, kimyəvi rabitələrə, elektrolit məhlulunda baş verən proseslərə aid məsələlər qurur və həll edir.*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Təqdim olunan tapşırıq 9-cu sinifdə tədris olunan "Karbon", həmçinin 8-ci sinifdə tədris olunan "İon mübadiləsi reaksiyaları" mövzularına aiddir.

Abituriyentlərin 13,74%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 16,16%-i 2/3 balla, 15.65%-i 1/3 balla, 16,24%-i 0 balla qiymətləndirilmiş, 38,21%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

60. HCl məhlulu ilə reaksiyanın sonunda qabda neçə mol duz alındığını (1) və HCl məhlulunun molyar qatılığını (mol/l) hesablayın (2).

İzah: Qabda olan bərk qalığın tərkibi artıq qalan **NaOH** və əmələ gələn **Na_2CO_3**-dən ibarətdir.

Əlavə edilən **HCl** məhlulu hər iki maddə ilə reaksiyaya daxil olur və **NaCl** duzu əmələ gəlir:

21,2 *q* x *mol* y *mol*
$Na_2CO_3 + 2HCl \rightarrow 2NaCl + H_2O + CO_2$
106 q 2 *mol* 2 *mol*

21,2 *q* ----- x *mol*
106 *q* ----- 2 *mol* / **x = 0,4** *mo*l (**HCl** sərf olunur)

21,2 *q* ----- y *mol*
106 *q* ----- 2 *mol* / **y = 0,4** *mo*l (**NaCl** əmələ gəlir)

8,4 *q* x *mol* y *mol*
NaOH + HCl → NaCl + H_2O
40 *q* 1 *mol* 1 *mol*

8,4 *q* ----- x *mol*
40 *q* ----- 1 mol / x = 0,21 *mo*l (**HCl** sərf olunur)

8,4 *q* ----- y *mol*
40 *q* ----- 1 mol / y = 0,21 *mo*l (**NaCl** əmələ gəlir)

Qabda alınan **NaCl** duzunun cəmi mol miqdarı:

0,4 + 0,21 = **0,61mol**

Sərf olunan **HCl-**un cəmi mol miqdarı:

0,4 + 0,21 = **0,61**

Turşunun molyar qatılığı:
C(HCl) = *v* : V = 0,61 : 0,122 = **5** mol/litr

Doğru cavab: 1) 0,61; 2) 5

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Hər iki reaksiya tənliyi doğru yazılıb və doğru əmsallaşdırılıb, müvafiq hesablamaları qeyd etməklə alınan duzun miqdarı və turşunun molyar qatılığı doğru hesablanıb (Əlavə olaraq, heç bir ***səhv*** reaksiya və ya cavab yazılmayıb).
$\frac{2}{3}$	B. Hər iki reaksiya tənliyi doğru yazılıb və doğru əmsallaşdırılıb, müvafiq hesablamaları qeyd etməklə alınan duzun miqdarı doğru hesablanıb, turşunun molyar qatılığı **yanlış** hesablanıb və ya ümumiyyətlə hesablanmayıb. C. Hər iki reaksiya tənliyi doğru yazılıb və doğru əmsallaşdırılıb, müvafiq hesablamaları qeyd etməklə turşunun molyar qatılığı doğru hesablanıb, lakin duzun miqdarı hesablamayıb və ya **yanlış** hesablanıb.
$\frac{1}{3}$	D. Hər iki reaksiya tənliyi doğru yazılıb, lakin duzun kütləsi və turşunun molyar qatılığı yanlış yazılıb, yaxud ümumiyyətlə yazılmayıb. E. Yalnız 1 reaksiya tənliyi doğru yazılaraq, doğru əmsallaşdırılıb (***şagirdin əvvəlki cavabına baxılaraq dəqiqləşdirilməli),*** düzgün hesablama aparılaraq, (həmin reaksiyaya uyğun) duz və ya turşunun miqdarı (yaxud hər ikisi) düzgün tapılıb.
0	F. Yalnız bir reaksiya tənliyi düzgün yazılıb (***şagirdin əvvəlki cavabına baxılaraq dəqiqləşdirilməli).*** G. Heç bir hesablama aparmadan yalnız düzgün cavablar qeyd edilib. H. Digər bütün hallar.

Qeyd: Reaksiya tənliyinin düzgün yazılmadığı (yaxud ümumiyyətlə yazılmadığı) istənilən həll üsulu və cavab 0 balla qiymətləndirilir.

Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin *8_2.2.2.* (*Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Təqdim olunan tapşırıq 8-ci sinifdə tədris olunan "Məhlullar", həmçinin "Turşular və Duzlar" mövzularına aiddir.

Abituriyentlərin 3,16%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 1,54%-i $\frac{2}{3}$ balla, 20,13%-i $\frac{1}{3}$ balla, 29,10%-i 0 balla qiymətləndirilmiş, 46,07%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 63 saylı test tapşırığı

8-ci sinif

2.2.1. Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

Hansı reaksiya nəticəsində alınan maddələrin hər ikisi natrium-hidroksid məhlulu ilə reaksiyaya daxil olur?

A) $NH_3 + O_2 \xrightarrow{t}$ B) $CaCO_3 \xrightarrow{t}$

C) $Mg(OH)_2 \xrightarrow{t}$ D) $H_2S + O_2 \xrightarrow{t}$

E) $FeS_2 + O_2 \xrightarrow{t}$

8-ci sinifdə tədris olunan "Oksid, əsas, turşu, duz" mövzularına aid bu tapşırığa abituriyentlərin 11,37%-i doğru cavab vermiş, 49,29%-i cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün qeyri-üzvi maddələrin kimyəvi xassələrini bilmək lazımdır.


E variantında verilmiş reaksiyanı tamamladıqda:


$FeS_2 + O_2 \xrightarrow{t} Fe_2O_3 + SO_2$

Reaksiya tənliyindən görür ki, alınan maddələrdən Fe_2O_3 amfoter, SO_2 isə turşu oksididir. Bu maddələrin hər ikisi NaOH məhlulu ilə reaksiyaya daxil olur.

Doğru cavab: E


13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 67 saylı test tapşırığı
11-ci sinif
2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.
Polikondensləşmə reaksiyası tənliyinin sxemini göstərin.

A) 

B) 

C) $CH_3COOH + HOCH_2CH_2OH \xrightarrow{t,\ H^+}$


D) $nCH_2{=}CHCl \xrightarrow{t,\ p,\ kat}$

E) 

11-ci sinifdə tədris olunan "İrimolekullu birləşmələr" mövzularına aid bu tapşırığa abituriyentlərin 12,92%-i doğru cavab vermiş, 53,29%-i cavab verməkdən imtina etmişdir.


Tapşırığın yerinə yetirilməsi üçün irimolekullu birləşmələrin alınma üsullarını bilmək lazımdır.

Məlumdur ki, polikondensləşmə reaksiyaları zamanı irimolekullu birləşmə ilə yanaşı, su, ammonyak və s. kimi əlavə maddələr də alınır. A variantında verilmiş tənliyi tamamlasaq su alındığını görərik:



Doğru cavab: A

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 71 saylı test tapşırığı
7-ci sinif
2.2.2. Sadə reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.



7 mol X_2 və 3 mol Y_2 tam reaksiyaya daxil olarsa, ilkin maddələrin birindən neçə mol artıq qalar?

A) 1 B) 4 C) 2 D) 5 E) 3

7-ci sinifdə tədris olunan “Hidrogen. Oksigen. Su” mövzularına aid bu tapşırığa abituriyentlərin 11,55%-i doğru cavab vermiş, 58,20%-i cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün hidrogen və oksigenin alınma üsullarını bilmək lazımdır.

Birinci şəklə uyğun reaksiyanı tamamladıqda, H_2 alındığını görünür. Deməli, X_2 maddəsi hidrogendir:

$Fe + 2HCl \rightarrow FeCl_2 + H_2$

$KMnO_4$-ün parçalanmasından isə O_2 alınır. Deməli, Y_2 maddəsi oksigendir.

$2KMnO_4 \xrightarrow{t} K_2MnO_4 + MnO_2 + O_2$

H_2 və O_2 arasında baş verən reaksiyanın tənliyini yazdıqda, görünür ki, oksigen və hidrogen uyğun olaraq 1:2 nisbətində reaksiyaya daxil olur. Məsələnin şərtində 3 mol oksigen və 7 mol hidrogen verilmişdir. Amma nisbətə görə 3 mol O_2 ilə 6 mol H_2 reaksiyaya daxil olur, deməli, 1 mol H_2 qazı artıq qalır:

2 mol 1 mol

$2H_2 + O_2 \xrightarrow{t} 2H_2O$

6 mol 3 mol

7 – 6 = 1 mol H_2 artıq qalır.

Doğru cavab: A

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 83 saylı test tapşırığı

10-cu sinif

2.2.2. Qeyri-üzvi birləşmələr və üzvi birləşmələrə (karbohidrogenlərə) aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

15 q alkanın tam yanmasından 44 q karbon (IV) oksid ayrılmışsa, reaksiyadan neçə qram su alınar?

$A_r(C)=12$, $A_r(H)=1$, $A_r(O)=16$

10-cu sinifdə tədris olunan “Alkanlar” mövzusuna aid bu tapşırığa abituriyentlərin 8,91%-i doğru cavab vermiş, 41,06%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün alkanların kimyəvi xassələrini bilmək lazımdır.

Alkanların yanma reaksiyası üçün ümumi tənlik yazılır və ayrılan karbon qazına uyğun olaraq karbon atomunun sayı tapılır:

14n+2 q 44n q

$$C_nH_{2n+2} + \frac{3n+1}{2}O_2 \xrightarrow{t} nCO_2 + (n+1)H_2O$$

15 q 44 q

14n+2 q ———— 44n q

15 q ———— 44 q / n=2

Deməli, yanan alkan C_2H_6-dır:

2·30 q 6·18 q

$2C_2H_6 + 7O_2 \rightarrow 4CO_2 + 6H_2O$

15 q x q /x = 27 qram su alınar.

Doğru cavab: 27

“Biologiya” fənnindən qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar 4 **(“Canlıların quruluşu və müxtəlifliyi”, “Bioloji proseslər”, “İnsan və onun sağlamlığı”, “Canlılar və ətraf mühit”)** məzmun xətti üzrə 6 əsas standartın və 72 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

İmtahanda istifadə olunmuş tapşırıqlar “Botanika”, “Zoologiya”, “İnsan” və “Ümumi biologiya” bölmələrinə aid olub. Tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimi olub: “Botanika”– 6, “Zoologiya” – 6, “İnsan” –8, Ümumi biologiya” – 10.

İmtahanlarda istifadə edilmiş test bloku canlı orqanizmlərdə gedən bioloji proseslərin mahiyyətinin dərk olunmasını tələb edən, insan orqanizmində baş verən bioloji proseslər, bitki və heyvanların fizioloji və ekoloji xüsusiyyətləri, onların həyat fəaliyyəti sahəsində bilik və bacarıqlarını yoxlayan, ümumiləşdirmə və məntiqi düşüncəyə istinad edərək qazanılmış biliklərin tətbiqinə əsaslanan tapşırıqlardan ibarət olub.

Test tapşırıqları ilə abituriyentlərin:

- *əsas bioloji qanun və qanunauyğunluqları, bioloji varlıqların quruluşu və əlamətlərini, canlılara xas olan bioloji proses və xüsusiyyətləri bilmək və başa düşmək;*
- *canlılarda baş verən həyati prosesləri başa düşmək və təhliletmək, bioloji məsələləri həll etmək, sxemlər qurmaq, bioloji varlıqların xüsusiyyətlərini müqayisə edərək nəticə çıxarmağı bacarmaq;*
- *qazanılmış bilik və bacarıqları ətraf mühitin qorunmasında, sağlam həyat tərzinin keçirilməsində tətbiq etmək kimi* bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

Tapşırıq bloklarında məntiqi düşünməyə yönəlmiş, nəzəri məlumatın tətbiqinə əsaslanan sxem, qrafik, şəkil tipli tapşırıqlara üstünlük verilib.

İmtahan nəticələrinin statistik göstəricilər üzrə təhlili göstərir ki, abituriyentlərin bir çoxu insanın embrional inkişafının mərhələləri, dayaq-hərəkət aparatının xüsusiyyətləri, sinir sistemi, qıjıkimilərin həyat dövriyyəsi, məməlilərin xüsusiyyətləri, balıqların daxili quruluşu haqqında, həmçinin hüceyrə orqanoidlərinin quruluşu və funksiyaları, təkamül proseslərinin xüsusiyyətlərinə aid ümumiləşdirmə və izahatyönlü, habelə təklif olunan fəaliyyət tipli test tapşırıqlarına yaxşı cavab verib.

Bununla yanaşı, bir sıra abituriyentlər insanın tənəffüs və ifrazat sistemi orqanları, parazit qurdların həyat dövriyyəsi, çiçəkli bitkilərin generativ orqanları, örtülütoxumlu bitkilərin müxtəlif fəsilələrinə aid olan bitkilərin səciyyəvi xüsusiyyətləri, ekoloji və coğrafi növəməlgəlmə, orqanizmlərin çoxalması və fərdi inkişafı, həyatın yaranması və inkişafı, DNT molekulunun quruluşuna aid nəzəri biliklərin yoxlanılması nəzərdə tutulan, həmçinin hesablama tipli test tapşırıqlarının yerinə yetirilməsində çətinlik çəkiblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur

1 iyun tarixli imtahan, A variantı, 4 saylı test tapşırığı
7-ci sinif
2.1.1. Müxtəlif canlılarda gedən həyati prosesləri fərqləndirir.
Həzm sistemi yalnız bir dəliklə xarici mühitlə əlaqəli olanlar:


A) ağ planari və nereid
B) soxulcan və ağ planari
C) soxulcan və insan askaridi
D) insan askaridi və öküz soliteri
E) ağ planari və qaraciyər sorucusu

"Qurdlar. Molyusklar" bölməsinə aid bu tapşırığa abituriyentlərin 46,00%-i doğru cavab vermiş, 10,07%-i isə cavab verməkdən imtina etmişdir.

Bu tapşırıqda yastı, sap və həlqəvi qurdların müxtəlif nümayəndələri göstərilmişdir. 7-ci sinfin "Biologiya" dərsliyindəki məlumatlardan aydın olur ki, yastı qurdlar tipinin nümayəndələrində həzm sistemi yalnız bir dəliklə – ağızla xarici mühitlə əlaqədə olur. Öküz soliterində həzm sistemi yoxdur. Askariddə isə həzm sistemi ağızla başlayır, anal dəliklə bitir. Bu tipin nümayəndələri olan ağ planari və qaraciyər sorucusunda ağız həm qidanın qəbul edilməsinə, həm də həzm olunmamış qida qalıqlarının xaric olunmasına xidmət edir. Ona görə də ağ planari və qaraciyər sorucusunun doğru cavab olduğu müəyyən olunur.

Doğru cavab: E

1 iyun tarixli imtahan, A variantı, 27 saylı test tapşırığı
6-cı sinif
2.1.1. Bioloji proseslərin xüsusiyyətlərini sadalayır.
7-ci sinif
1.1.4. Canlıların sistematik kateqoriyalarını fərqləndirir.
Uyğunluğu müəyyən edin.



a. bibər
b. dağlaləsi
c. quşəppəyi
d. inciçiçəyi
e. yabanı ağ turp

“Örtülütoxumlular” bölməsinə aid, açıq tipli bu tapşırığa abituriyentlərin 27,70%-i doğru cavab vermiş, 14,03%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıq 6-cı və 7-ci siniflərin “Biologiya” dərsliklərindəki tədris məlumatına əsasən tərtib olunub. Uyğunluq tipli tapşırıqdakı sxemdə verilən bitkilərdən bibər, quşəppəyi, yabanı ağ turp ikiləpəli, dağlaləsi və inciçiçəyi isə birləpəlidir. Bibər və inciçiçəyinin meyvəsi giləmeyvə, quşəppəyi və yabanı ağ turpun meyvəsi buynuzmeyvə, dağlaləsinin meyvəsi isə qutucuqdur. Bibərdən başqa digər bitkilərin çiçəkləri altı erkəkciklidir.

Doğru cavab: 1-a; 2-c,e; 3-d

13 iyul tarixli imtahan, A variantı, 11 saylı test tapşırığı

9-cu sinif

2.1.1. Bioloji proseslərin mahiyyət və məzmunu ilə bağlı təqdimatlar hazırlayır.

Erkək fərdləri heteroqamet olan diploid ikievli çiçəkli bitki toxumunun endosperminin genotipi *XXY* olarsa, bu toxumdan əmələ gələn bitkidə:

A) tozcuq borusu yarana bilər
B) yalnız mikrosporlar yaranar
C) ikicinsli çiçəklər olar
D) ikiqat mayalanma gedə bilər
E) yalnız dişicikli çiçəklər olar

“Çoxalma. Ontogenez” bölməsinə aid bu tapşırığa abituriyentlərin 33,74%-i doğru cavab vermiş, 22,91%-i isə cavab verməkdən imtina etmişdir. Tapşırıq 9-cu sinfin “Biologiya” dərsliyindəki tədris materialına əsasən tərtib olunub. Tapşırığın şərtinə əsasən, diploid ikievli bitki erkək heteroqametli olduğu üçün XXY genotipli endospermə malik toxumdan yalnız erkək fərdlər əmələ gələ bilər. Tozcuq borusunun yaranması və ikiqat mayalanma dişi fərddə baş verən proseslərdir. Mikrosporlar isə erkək fərddə yaranır. İkievli bitkinin çiçəkləri bircinsli olur.


Doğru cavab: B

8-ci sinif

2.1.1. İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir.

13 iyul tarixli imtahan, A variantı, 16 saylı test tapşırığı

A-dan *B*-yə keçid hansı halda doğrudur?



A) 1 və 5 B) yalnız 4 C) 3 və 5
D) yalnız 1 E) 2 və 4


“Qan, qan dövranı, tənəffüs” bölməsinə aid, sxem formalı bu tapşırığa abituriyentlərin 48,90%-i doğru cavab vermiş, 18,24%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırıq 8-ci sinfin “Biologiya” dərsliyindəki tədris materialına əsasən tərtib olunub. Tapşırığın şərtindəki sxemdən görünür ki, əzələ kapilyarlarında arterial qanın venoz qana çevrilməsi baş verir. Ağciyər venası və aortada əsasən qaz mübadiləsi baş vermədiyi üçün venoz qan arterial qana bu damarlarda çevrilmir. Sxemdə göstərilən damarlardan yalnız alveol kapilyarlarında venoz qan arterial qana çevrilir. Ona görə də alveol kapilyarları doğru cavab hesab olunur.

Doğru cavab: B

1 iyun tarixli imtahan, A variantı, situasiyaya aid 28-30 saylı tapşırıqlar

Həkim müayinəsinə gələn iki pasient – 40 yaşlı İsgəndər və 15 yaşlı Ayxan müayinədən keçdikdən sonra məlum oldu ki, İsgəndərdə şəkil **A**-da, Ayxanda isə şəkil **B**-də göstərilən problem müşahidə olunur.



A



B

28. İsgəndər (1) və Ayxanın (2) problemi necə adlanır? Şəkil B-də göstərilən sümüklərin sınığı zamanı ilk yardım necə edilməlidir (3)?

Doğru cavab: (1) – podaqra; (2) - skolioz; (3) – Onurğa sınığı olanda xəstəni bərk yerdə üzüüstə uzatmaq lazımdır.

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Hər üç cavab düzgün qeyd edilib.
$\frac{2}{3}$	B. Yalnız iki cavab düzgün qeyd edilib, digər cavab ***yanlış*** qeyd edilib, yaxud ümumiyyətlə ***qeyd edilməyib.***
$\frac{1}{3}$	C. Yalnız bir cavab doğru qeyd edilib (digər ***ikisi yanlış*** qeyd edilib və ya ümumiyyətlə ***qeyd edilməyib***).
0	D. Hər ***3 cavab yanlış*** qeyd edilib. E. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin *8_3.2.2.* (*Xəstəliklər, zədələnmələr zamanı ilkin yardım göstərir*) və *11_3.2.1. (İnsan orqanizmində baş verən xəstəliklərin hüceyrə səviyyəsində olduğunu əsaslandırır, məruzə və təqdimatlar hazırlayır)* altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 29,68%-i yazı işini tam yerinə yetirmiş və onların işi 3 balla, 30,71%-i 2 balla, 23,73%-i 1 balla, 9,77%-i isə 0 balla qiymətləndirilmişdir. Abituriyentlərdən 6,10%-i isə bu tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Həlli: Tapşırıq 8-ci sinfin "Biologiya" dərsliyində "Sümük və əzələ sistemləri" və 11-ci sinif "Hüceyrənin nəzarətli və nəzarətsiz bölünməsi" bölməsindəki tədris materialına əsasən tərtib edilib. Şəkil A-da podaqra xəstəliyinin əlamətləri təsvir edilib. Bu xəstəlik haqqında məlumat 11-ci sinif "Biologiya" dərsliyində verilib. Şəkil B-də isə onurğanın yana əyriliyi – skolioz göstərilib. 8-ci sinif "Biologiya" dərsliyindəki tədris materialında skolioz xəstəliyi haqqında məlumatlara rast gəlinir. Məlumdur ki, skolioz onurğanın xəstəliyidir. Onurğa sütununda sınıq müşahidə olunarsa, xəstəni bərk yerdə üzüüstə uzatmaq və həkimə çatdırmaq lazımdır.

29. X, Y, Z və T-ni müəyyən edib yazın.

	İnsan skeletinin hansı şöbəsinə aiddir?	***Əsasən, hansı növ sümük birləşməsinin fəaliyyətini məhdudlaşdıra bilər?***
Şəkil A-da göstərilən problem	X	Z
Şəkil B-də göstərilən problem	Y	T

Doğru cavab: X – ətrafların skeleti (aşağı ətraflar);
Y – gövdə skeleti (onurğa sütunu);
Z – hərəkətli (oynaq);
T – yarımhərəkətli;

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. X ,Y, Z, T cavabların 4-ü də doğru yazılıb.
$\frac{2}{3}$	B. X, Y, Z, T cavabların 4-ü də doğru yazılıb, lakin cavablarından hər hansı ***birində*** doğru cavabla yanaşı ***səhv*** cavab da yazılıb. C. X, Y, Z, T cavablarından 3-ü doğru yazılıb (Hər hansı ***biri yanlış*** yazılıb və ya ümumiyyətlə ***yazılmayıb***).
$\frac{1}{3}$	D. X, Y, Z və T-dən yalnız ***ikisi*** doğru yazılıb (Digər ***ikisi yanlış*** yazılıb və ya ümumiyyətlə ***yazılmayıb).*** E. X, Y, Z ,T cavabların 4-ü də doğru yazılıb, lakin cavablarından hər hansı ***ikisində*** doğru cavabla yanaşı, ***səhv*** cavab da yazılıb.
0	F. X, Y, Z və T-dən yalnız biri doğru yazılıb (Digər ***üçü isə yanlış*** yazılıb və ya ümumiyyətlə ***yazılmayıb***). G. X, Y ,Z ,T cavabların 4-ü də doğru yazılıb, lakin cavablarından hər hansı ***üçündə*** doğru cavabla yanaşı ***səhv*** cavab da yazılıb. H. Bütün cavablar ***yanlış*** qeyd edilib. I. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin *8_3.2.2.* (*Xəstəliklər, zədələnmələr zamanı ilkin yardım göstərir*) və *11_3.2.1. (İnsan orqanizmində baş verən xəstəliklərin hüceyrə səviyyəsində olduğunu əsaslandırır, məruzə və təqdimatlar hazırlayır)* altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 29,68 %-i yazı işini tam yerinə yetirmiş və onların işi 3 balla, 11,54 %-i 2 balla, 28,58 %-i 1 balla, 20,50 %-i isə 0 balla qiymətləndirilmişdir. Abituriyentlərdən 9,70%-i isə bu tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Həlli: Test tapşırığı "Sümük və əzələ sistemləri" bölməsinə aiddir. Şəkil A-da insanın ayaq pəncəsi təsvir edilib. Ayaq pəncəsi aşağı ətrafın skeletinə aiddir. Şəkil B-də isə onurğa sütunu təsvir olunmuşdur. Onurğa sütunu gövdənin skeletinə aiddir. Podaqra xəstəliyində duzların toplanması nəticəsində əl və ayaq oynaqlarında iltihablaşma gedir, podaqra düyünləri yaranır. Bu zaman yaranan düyünlər oynaqların – hərəkətli sümük birləşmələrinin fəaliyyətini məhdudlaşdıra bilər. Skolioz zamanı isə, əsasən, yarımhərəkətli sümük birləşmələrinin fəaliyyəti məhdudlaşa bilər. Çünki onurğanın əksər fəqərələrinin cisimləri bir-biri ilə yarımhərəkətli birləşir.

30. Hansı pasientin (pasientlərin) mövcud sağlamlıq problemləri ***olmasaydı***, sümük iliyi donoru ola bilərdi (1)? Cavabınızı əsaslandırıb yazın (2).

Doğru cavab: (1) – İsgəndər və Ayxan (hər ikisi)

Əsaslandırma: Donorun yaşı 18-ə çatmadıqda ondan yalnız sümük iliyi götürülə bilər. Belə ki, hər yaşda sümük iliyi üçün donor ola bilər.

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Hər ***iki cavab düzgün*** qeyd edilib.
$\frac{1}{2}$	B. Yalnız bir cavab düzgün qeyd edilib. Digəri ***yanlış*** qeyd edilib və ya ümumiyyətlə ***qeyd edilməyib.***
0	C. Hər iki cavab ***yanlış*** qeyd edilib. D. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə “Bioloji proseslər” məzmun xəttinin *8_3.2.2.* (*Xəstəliklər, zədələnmələr zamanı ilkin yardım göstərir*) və *11_3.2.1. (İnsan orqanizmində baş verən xəstəliklərin hüceyrə səviyyəsində olduğunu əsaslandırır, məruzə və təqdimatlar hazırlayır)* altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 7,79 %-i yazı işini tam yerinə yetirmiş və onların işi 2 balla, 4,70 %-i 1 balla, 76,27 %-i isə 0 balla qiymətləndirilmişdir. Abituriyentlərdən 11,24%-i isə bu tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Həlli: Tapşırıq “Mövzulararası əlaqə” bölməsinə aiddir. Bu tapşırığı cavablandırmaq üçün abituriyentlər 8-ci sinif “Biologiya” dərsliyindəki “Orqan nəqli həyat verir” mövzusunu diqqətlə oxumalıdırlar. Bu mövzuda məlumat verilir ki, donorun yaşı 18-ə çatmadıqda ondan yalnız sümük iliyi götürülə bilər. Buna görə də sağlamıq problemləri olmasa, həm İsgəndər, həm də Ayxan sümük iliyi donoru ola bilər.

Qəbul imtahanlarının nəticələrinin təhlili “Biologiya” fənninin tədrisi metodikasının daha da təkmilləşdirilməsini, xüsusilə də mənimsənilmiş mövzuların müntəzəm olaraq təkrarlanmasına geniş yer verilməsini tələb edir. Abituriyentlər dərslikdəki materialı öyrənməklə yanaşı, ümumiləşmə aparmaq, mənimsədikləri bilikləri sistemləşdirmək bacarıqlarını daha da inkişaf etdirməlidirlər.

İnformatika fənnindən ali təhsil müəssisələrinə I (Rİ altqrupu) ixtisas qrupu üzrə qəbul imtahanında istifadə olunmuş tapşırıqlar fənn kurikulumuna görə 4 (“İnformasiya və informasiya prosesləri”, “Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma”, “Kompüter, informasiya-kommunikasiya texnologiyaları və sistemləri”, “Cəmiyyətin informasiyalaşdırılması”) məzmun xətti üzrə 8 əsas və 76 altstandartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanında istifadə edilmiş tapşırıqlar aşağıdakı bölmələrə aid olub:

1. İnformasiya və informasiya prosesləri.
2. Mövqesiz say sistemləri. Mövqeli say sistemləri. İkilik say sistemi. Səkkizlik say sistemi. Onaltılıq say sistemləri. Bir say sistemindən başqasına keçid.
3. Müxtəlif say sistemlərində hesab əməlləri.
4. Kod və kodlaşdırma. Mətn informasiyasının kodlaşdırılması. Qrafik informasiyanın kodlaşdırılması. Səs informasiyasının kodlaşdırılması. Video informasiyanın kodlaşdırılması.
5. İnformasiyanın ölçü vahidləri. İnformasiyanın miqdarının ölçülməsi.
6. Cədvəl informasiya modeli. Kompüter modelləşdirməsi.
7. Ağac informasiya modeli. Qraf informasiya modeli.
8. Kompüterin aparat təminatı.
9. Kompüterin proqram təminatı.
10. Əməliyyat sistemi.
11. Mətnlərin emalı.
12. Elektron cədvəl və onun komponentləri. Mütləq və nisbi ünvanlar.
13. Düsturlar. Elektron cədvəldə funksiyalar.
14. Diaqramlar və onların elementləri. Elektron cədvəl proqramında modelləşdirmə. Statistik verilənlər əsasında proseslərin modelləşdirilməsi.
15. “Verilənlər bazası” anlayışı. Verilənlər modeli. VBİS. Cədvəllər və onlar arasında əlaqələr. Formalar.
16. Sorğular. Verilənlərin axtarışı və çeşidlənməsi. Hesabatlar.
17. Kompüter qrafikası.
18. Alqoritm.
19. “Proqram”, “proqramlaşdırma”, “proqramlaşdırma dili” anlayışları. Translyator: interpretator, kompilyator. Python proqramlaşdırma dili. Sabit və dəyişən kəmiyyətlər. Verilənlərin daxil və xaric edilməsi. Şərt operatoru.
20. Dövr operatorları. Ədədlər üzərində əməllər.
21. Sətirlər və onlar üzərində əməllər. Siyahılar və onlar üzərində əməllər. Funksiya.
22. Kompüter şəbəkələri.
23. İnternet.
24. “Veb-proqramlaşdırma” anlayışı. Saytın hazırlanma mərhələləri. HTML nişanlama dili. Siyahıların yaradılması.
25. Cədvəllərin yaradılması. Veb-səhifənin rəng sxemi. Veb-səhifəyə qrafik faylların yerləşdirilməsi. İstinadlardan istifadə.
26. İnformasiya təhlükəsizliyi.

Test blokunda “Alqoritm” və “Proqramlaşdırma” mövzularına aid tapşırıqlar (11 tapşırıq) üstünlük təşkil edib. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə test blokuna mürəkkəblik dərəcəsinə görə sadə, orta, çətin tapşırıqlar daxil edilib və nəzəri biliklərin tətbiqinə əsaslanan, məntiqi düşüncə, təhliletmə bacarığı tələb olunan tapşırıqlara üstünlük verilib.

İmtahan nəticələrinin statistik göstəricilər əsasında aparılan təhlili göstərmişdir ki, abituriyentlərin müəyyən hissəsi alqoritm, Python proqramlaşdırma dili, cədvəl informasiya modeli, İnternetdə axtarışa aid tapşırıqları zəif cavablandırıblar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur.

01 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 61 saylı test tapşırığı

7-ci sinif.

2.1.1. Obyektin informasiya modelinin cədvəl formasını izah edir.

2.1.2. İnformasiya modelinin cədvəl formasında təsvirini nümunələrlə şərh edir.

2.1.3. Obyektin informasiya modelini cədvəl formasında ifadə edir.

Vəli, Piri, Samir və Kərimin soyadları Vəkilov, Pənahov, Səlimov, Kamilov soyadlarından biridir. Onlar eyni gündə imtahan verirlər. Məlumdur ki:

— Vəli və Səlimov imtahandan 5 alıblar.

— Piri və Vəkilov imtahandan 3 alıblar.

— Vəkilovun boyu Pənahovdan hündürdür.

— Kərimin boyu Pənahovdan qısadır.

— Samir və Pirinin boyları eynidir.

Verilən məlumatlara əsasən doğru mülahizəni müəyyən edin.

A) Samirin boyu Kərimdən qısadır.

B) Vəlinin soyadı Pənahov deyil.

C) Səlimovun boyu Piridən hündürdür.

D) Kərim imtahandan 5 almayıb.

E) Pirinin soyadı Kamilovdur.

7-ci sinifdə tədris olunan “*Cədvəl informasiya modeli. Kompüter modelləşdirməsi.*” bölməsinə aid bu test tapşırığına abituriyentlərin 15,62%-i doğru cavab vermiş, 42,29%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: İlk iki mülahizəyə əsasən Vəli və Səlimov 5 aldığı üçün Vəlinin soyadı Səlimov deyil, eyni zamanda Vəkilov 3 aldığı üçün Vəlinin soyadı Vəkilov da deyil. Bu qayda ilə Pirinin də soyadı nə Səlimov, nə də Vəkilovdur. Eyni zamanda Pənahovun boyu Kərimdən hündür, Vəkilovdan qısa olduğu üçün Kərim nə Pənahov, nə də Vəkilov soyadını daşıyır. Bu məlumatlara əsasən aşağıdakı cədvəli qurmaq olar və cədvəldə müvafiq xanalara “–” yazdıqdan sonra Samirin soyadının Vəkilov, Kərimin soyadının isə Səlimov olduğu aydınlaşır:

	Vəkilov	Pənahov	Səlimov	Kamilov
Vəli	–		–	
Piri	–		–	
Samir	+	–	–	–
Kərim	–	–	+	–

Kərimin (Səlimov), Pənahovun və Vəkilovun (Samir) müxtəlif boylarda, Samir və Piri isə eyni boyda olduğu nəzərə alınsa, Pirinin soyadının Pənahov olmadığı aydınlaşır və cədvəlin qalan boş xanaları aşağıdakı kimi doldurulur:

	Vəkilov	Pənahov	Səlimov	Kamilov
Vəli	–	+	–	–
Piri	–	–	–	+
Samir	+	–	–	–
Kərim	–	–	+	–

Deməli, verilən mülahizələrdən “Pirinin soyadı Kamilovdur” mülahizəsi doğru cavabdır.

Doğru cavab: E

Abituriyentlərin zəif nəticə göstərmələrini cədvəl informasiya modeli haqqında kifayət qədər biliklərinin olmaması ilə əlaqələndirmək olar.

01 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 70 saylı test tapşırığı
8-ci sinif.

2.2.3. Verilmiş məsələnin proqramını tərtib edir.

Python dilində yazılmış proqramın nəticəsini müəyyən edin.

```
m=24
s=0
if m%3==0:
    s=s+1
    if m%4==6:
        s=s+2
        if m%6==0:
            s=s+5
    elif s%8==0:
        s=s+4
    else:
        s=s+6
else:
    s=s+3
s=s+m
print(s)
```

A) 30 B) 31 C) 29 D) 27 E) 36

8-ci sinifdə tədris olunan "*Proqram, proqramlaşdırma, proqramlaşdırma dili anlayışları. Translyator: interpretator, kompilyator. Python proqramlaşdırma dili. Sabit və dəyişən kəmiyyətlər. Verilənlərin daxil və xaric edilməsi. Şərt operatoru.*" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 18,96%-i doğru cavab vermiş, 15,85%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Proqramın icrası zamanı m dəyişəninə 24, *s* dəyişəninə isə 0 ilkin qiymətləri mənimsədilir. m%3==0 şərti ödəndiyi üçün s dəyişəninin qiyməti 1 vahid artır və s=1 olur. m%4==6 şərti ödənmədiyi üçün idarə s%8==0 şərtinin yoxlandığı şərt operatoruna ötürülür. Bu şərt də ödənmədiyi üçün s=s+6 əmrinin icrası həyata keçirilir və s=7 olur. Sonra s=s+m əmrinin nəticəsində s-ə 31 qiyməti mənimsədilir və bu nəticə çap olunur.

Doğru cavab: B

Abituriyentlərin zəif nəticə göstərmələrini şərt operatorunun yerinə yetirilmə qaydası haqqında biliklərinin az olması ilə əsaslandırmaq olar.


01 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 84 saylı test tapşırığı
11-ci sinif.

3.3.1. *Müasir şəbəkə texnologiyalarını izah edir.*

Cədvəldə axtarış serverinə verilən sorğular və bu sorğular nəticəsində İnternetdə tapılan səhifələrin sayı göstərilmişdir. **A AND (NOT B)** sorğusu nəticəsində neçə səhifə tapılar?

Sorğular	Səhifə sayı
A	500
B	700
C	400
A OR B OR C	1300
B AND C	100
A AND C	70
A AND B AND C	20
A AND (NOT B)	?

Həlli: A AND B AND C sorğusunun nəticəsində tapılmış səhifələrin sayının 20 olmasına əsasən Eyler-Venn diaqramını aşağıdakı kimi qurmaq olar:



Cədvəldəki verilənlərə və diaqrama əsasən
x=n(A AND B AND C)=20
y=n(A AND C) – n(A AND B AND C)=70-20=50
z=n(B AND C) – n(A AND B AND C)=100-20=80
Onda diaqramda ştrixlənmiş hissə üçün n(C)-x-y-z=400-20-50-80=250 olar.
Deməli, n(A AND (NOT B)) = n(A OR B OR C)-n(B)-250=1300-700-250=350
Doğru cavab: 350

11-ci sinifdə tədris olunan "*Kompüter şəbəkələri. İnternet*" bölməsinə aid bu açıq tipli test tapşırığına abituriyentlərin 8,75%-i doğru cavab vermiş, 38,33%-i isə cavab verməkdən imtina etmişdir.


Abituriyentlərin zəif nəticə göstərmələrini İnternet şəbəkəsində axtarış sistemlərinin iş prinsipləri haqqında kifayət qədər biliklərinin olmaması ilə əlaqələndirmək olar.

01 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 88 saylı test tapşırığı


Daxil edilmiş N natural ədədi üçün $S=\frac{1}{2}-\frac{1}{4}+\frac{1}{6}-....+\frac{(-1)^{N+1}}{2N}$ cəmini hesablayan alqoritmin blok-sxemini qurun.

Həlli:


I üsul:




II üsul:



III üsul:



IV üsul:



Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Həldə göstərilmiş blok-sxem və ya ona ekvivalent blok-sxem doğru qurulub.
$\frac{1}{2}$	B. Mexaniki ***səhvə*** yol verilib. Burada mexaniki ***səhv*** bir fiqur seçimində, budaqlanmanın istiqamətində ola bilər. C. Dövrün gövdəsində S-in qiymətinin hesablanması zamanı i dövrün addımı yazılmalı yerdə girişdə verilən N dəyişəni yazılıb (yəni $S = S + (–1)^{i+1}/(2*i)$ əvəzinə $S = S + (–1)^{N+1}/(2*N)$ yazılıb). D. *N*-in qiymətinin girişə verilməsi üçün istifadə olunan fiqur ***səhv*** təsvir olunub və ya ümumiyyətlə istifadə ***olunmayıb.*** E. ***S, i, k*** dəyişənlərinə ilkin qiymətlərin verilməsi və onlar üçün olan fiqur düzgün ***göstərilməyib*** və ya ümumiyyətlə ***yoxdur.*** F. Dövrün davametmə (bitmə) şərti doğru ***deyil***, amma blok-sxemin digər hissələri doğrudur. G. Dövrün addımı ***dəyişdirilmir*** (***səhv dəyişdirilir***) və ya ümumiyyətlə ***göstərilməyib***, amma blok-sxemin digər hissələri doğrudur. H. Blok-sxem qurularkən işarələrin növbələşməsi nəzərə ***alınmayıb*** və ya ***səhv*** nəzərə alınıb, amma blok-sxemin digər hissələri doğrudur. I. Blok-sxem S= 1/2 + 1/4 + 1/6 + ... + 1/(2N) ifadəsinin qiymətinin hesablanması üçün doğru qurulub. J. Blok-sxem S= 1/2 – 1/3 + ... +$(–1)^N$ /N, S= – 1/2 + 1/3 - ... +$(–1)^{N+1}$ /N və ya $S = \frac{1}{2} - \frac{1}{4} + \frac{1}{6} - ... + \frac{(-1)^{N+1}}{N}$ ifadələrinin qiymətlərinin hesablanması üçün doğru qurulub. K. **II** və ya **IV** üsullarla həll zamanı kəsrin məxrəcində mötərizə düzgün istifadə ***edilməyib.***
0	L. Başqa tapşırığın həlli yazılıb. M. 1 balla qiymətləndirilən halların birində əlavə bir və ya daha çox ***səhvə*** yol verilib. N. Heç bir dövrü proses istifadə ***olunmayıb***. O. Yalnız cəmin ilkin qiymətinin 0 olması, i=2, k=1 və çıxışa vermə fiquru doğru göstərilib. P. Tapşırığın Python proqramı yazılıb. Q. Digər bütün ***yanlış*** hallarda.

Tapşırıq vasitəsilə "*Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma*" məzmun xəttinin *7_2.2.2.* (*Məsələnin həlli alqoritmini qurur*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 10,09%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 11,90%-i $\frac{1}{2}$ balla, 23,47%-i 0 balla qiymətləndirilmiş, 54,26%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün tələb olunan blok-sxem qurma biliklərinin zəif olması ilə əlaqələndirmək olar.

01 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 89 saylı test tapşırığı

Natural ədədlər A, B və C başlıqlı sütunlara aşağıdakı cədvəldəki kimi düzülmüşdür:

A	B	C
1	2	3
6	5	4
7	8	9
12	11	10
...	...	...
102	101	100

Klaviaturadan daxil edilmiş natural *a* ədədinin ($1 \le a \le 102$) hansı sütunda olduğunu müəyyən edən proqramı Python dilində yazın. Məsələn,

Giriş	Çıxış
6	A
11	B
22	C

Həlli:

I üsul:

```
a=int(input())
if a % 6==0 or a % 6==1:
    print("A")
elif a % 6==2 or a % 6==5
    print("B")
else:
    print("C")
```

II üsul:

```
a=int(input())
if a % 6==0 or a % 6==1:
    print("A")
elif a % 3==2:
    print("B")
else:
    print( "C")
```

III üsul:

```
a=[]
b=[]
c=[]
for i in range(1,100,6):
    a.append(i)
    a.append(i+5)
for i in range(2,102,3):
    b.append(i)
for i in range(3,100,6):
    c.append(i)
    c.append(i+1)
n=int(input('n='))
if a.count(n)>0:
    print('A')
elif b.count(n)>0:
    print('B')
else:
    print('C')
```

IV üsul:

```
a=[]
b=[]
c=[]
for i in range(1,103,6):
    a.append(i)
    b.append(i+1)
    c.append(i+2)
for i in range(4,101,6):
    c.append(i)
    b.append(i+1)
    a.append(i+2)
n=int(input('n='))
if a.count(n)>0:
    print('A')
elif b.count(n)>0:
    print('B')
else:
    print('C')
```

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Proqram doğru tərtib edilib;

$\frac{1}{2}$	B. Proqram doğru tərtib edilib, lakin proqramda "**or**" məntiq əməlinin əvəzinə "**and**" məntiq əməli istifadə olunub;
	C. a dəyişəninin qiymətinin klaviaturadan daxil edilməsi nəzərə ***alınmayıb***, lakin digər hissələr doğrudur;
	D. Proqramın strukturu doğrudur, lakin şərt operatorundakı mürəkkəb məntiqi ifadənin əvəzinə sadə məntiqi ifadə istifadə olunub, lakin digər hissələr doğrudur. Məsələn:
	a)
	`a=int(input())`
	`if a % 6==0:`
	`  print("A")`
	`elif a % 6==2:`
	`  print("B")`
	`else:`
	`  print( "C")`
	b)
	`a=int(input())`
	`if a % 6==1:`
	`  print("A")`
	`elif a % 6==2:`
	`  print("B")`
	`else:`
	`  print( "C")`
	c)
	`a=int(input())`
	`if a % 6==0:`
	`  print("A")`
	`elif a % 3==2:`
	`  print("B")`
	`else:`
	`  print( "C")`
	d)
	`a=int(input())`
	`if a % 6==1:`
	`  print("A")`
	`elif a % 3==2:`
	`  print("B")`
	`else:`
	`  print( "C")`

0	E. 1 balla qiymətləndirilən halların birində əlavə bir və ya daha çox ***səhvə*** yol verilib; F. Proqram əvəzinə blok-sxem qurulub və ya başqa proqramlaşdırma dilindən istifadə edilib; G. Başqa tapşırığın həlli yazılıb; H. Şərtin gövdəsi tamamilə ***yanlışdır***; I. Digər bütün ***yanlış*** hallarda.

Tapşırıq vasitəsilə "*Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma*" məzmun xəttinin *9_2.2.3.* (*Proqramlaşdırma dilinin əsas əmrlərini izah edir*) və *9_2.2.4.* (*Öyrənilən proqramlaşdırma mühitində işləmək bacarıqlarını nümayiş etdirir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 2,76%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 2,69%-i $\frac{1}{2}$ balla, 21,87%-i 0 balla qiymətləndirilmiş, 72,68%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün tələb olunan Python proqramlaşdırma dilini zəif mənimsəmələri ilə əlaqələndirmək olar.

01 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 30 saylı test tapşırığı

Klaviaturadan daxil edilmiş sətirdə müxtəlif simvolların sayını tapan proqramı Python dilində yazın. Məsələn:

Giriş	Çıxış
banan	3
termometr	5
böyük dinozavr	14
1?226669?:a	7

Həlli:

I üsul:	***II üsul:***	***III üsul:***

`a = input()`
`s = []`
`for i in a:`
`  if s.count(i) == 0:`
`  s.append(i)`
`print(len(s))`
	`a=input()`
	`k=""`
	`for i in a:`
	`  if k.count(i)==0:`
	`  k=k+i`
	`print(len(k))`
		`a = input()`
		`s = ""`
		`for i in a:`
		`  if i not in s:`
		`  s = s + i`
		`print(len(s))`

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Proqram doğru tərtib edilib.
$\frac{1}{2}$	B. Proqram düzgün tərtib olunub, lakin sətirdəki müxtəlif simvolların sayı əvəzinə müxtəlif simvollardan ibarət sətir çap olunub. C. Mexaniki ***səhvə*** yol verilib (məs., s=[], k='' şəklində ilkin qiymətlərin ***verilməməsi*** və ya ***yanlış*** verilməsi, ***s.append()***, ***k.count()*** kimi metodlardan düzgün istifadə ***olunmaması*** və s.) D. **III üsulla** həll zamanı not operatoru düzgün ***yazılmayıb***. E. Sətrin simvollarına müraciəti təmin etmək üçün olan dövr operatorunda ***səhvə*** yol verilib, lakin proqramın qalan hissələri doğrudur. F. Sətrin simvollarına müraciəti təmin etmək üçün olan dövr ***doğru*** qurulub, lakin dövr sətrin simvoluna onun ***indeksinə*** görə müraciət üçün (range() və ya while ilə) qurulduğu halda dövr daxilində sətrin simvolunu ifadə edən dəyişən ***indekssiz*** müraciəti təmin edəcək şəkildə qurulub, lakin digər proseslər doğrudur. G. Sətrin simvollarına müraciəti təmin etmək üçün olan dövr ***doğru*** qurulub, lakin dövr sətrin simvoluna onun ***indeksinə*** görə yox, birbaşa müraciət üçün (məs., range() istifadə edilmədən) qurulduğu halda dövr daxilində sətrin simvolunu ifadə edən dəyişən indeksli müraciəti təmin edəcək şəkildə qurulub, lakin digər proseslər doğrudur. H. Dövr və ya şərtin gövdəsində girinti boşluqlarında ***səhvə*** yol verilib. Girinti boşluğu qoyulmalı yerlərdə boşluq ***qoyulmayıb***, lakin digər proseslər doğrudur. I. Sətir daxil edilərkən ***səhvə*** yol verilib (məsələn: a=int(input()) kimi), lakin proqramın qalan hissələri doğrudur. J. Proqram sətirdəki müxtəlif simvolların sayı əvəzinə təkrarlanan simvolların sayını çap edilib.
0	K. Proqram sətirdəki müxtəlif simvolların sayı əvəzinə bütün simvolların sayı çap edilib. L. $\frac{1}{2}$ balla qiymətləndirilən hallarda əlavə ***səhvə*** yol verilib. M. Dövr operatorundan istifadə ***edilməyib***. N. Proqram əvəzinə blok-sxem qurulub və ya başqa proqramlaşdırma dilindən istifadə edilib. O. Başqa tapşırığın həlli yazılıb. P. Nümunədə verilən banan, termometr və s. sətirlərin müxtəlif simvollarının sayını çıxışa verən proqram tərtib edilib. Q. Digər bütün ***yanlış*** hallarda.

Tapşırıq vasitəsilə "*Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma*" məzmun xəttinin *9_2.2.3.* (*Proqramlaşdırma dilinin əsas əmrlərini izah edir*) və *9_2.2.4.* (*Öyrənilən proqramlaşdırma mühitində işləmək bacarıqlarını nümayiş etdirir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 9,63%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 6,60%-i $\frac{1}{2}$ balla, 22,29%-i 0 balla qiymətləndirilmiş, 61,47%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün tələb olunan Python proqramlaşdırma dilini zəif mənimsəmələri ilə əlaqələndirmək olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 86 saylı test tapşırığı

8-ci sinif.

2.2.3. *Verilmiş məsələnin proqramını tərtib edir.*

Klaviaturadan *y* dəyişəni üçün hansı ən böyük natural ədəd daxil edilərsə, proqramın icrası nəticəsində *m* üçün 8, *n* üçün 19 qiyməti çap olunar?

```
y=int(input())
m=0
n=0
while y>0:
    m=m+2
    n=n+(y%10)
    y=y//10
print(m,n)
```

8-ci sinifdə tədris olunan "*Dövr operatorları. Ədədlər üzərində əməllər.*" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 18,87%-i doğru cavab vermiş, 43,10%-i isə cavab verməkdən imtina etmişdir.

Həlli: Verilmiş proqram fraqmentinin nəticəsinə əsasən daxil edilmiş ədəd haqqında aşağıdakı fikirləri söyləmək olar:

1- Daxil edilən ədəd dördrəqəmli ədəddir.

2- Daxil edilən ədədin rəqəmləri cəmi 19-dur.

Bu şərti ödəyən ən böyük natural ədəd 9910 ədədidir.

Doğru cavab: 9910


Abituriyentlərin zəif nəticə göstərmələrini dövrlər haqqında biliklərinin kifayət qədər olmaması ilə əlaqələndirmək olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 88 saylı test tapşırığı


Daxil edilən N sayda həqiqi ədədlərin mənfi olanlarının sonuncusunun sıra nömrəsini və qiymətini çap edən, bu ədədlərin arasında mənfi ədəd olmadıqda isə "Mənfi ədəd yoxdur" ifadəsini çap edən alqoritmin blok-sxemini qurun.

Həlli:

I üsul:



II üsul:



Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Həldə göstərilmiş blok-sxem və ya ona ekvivalent blok-sxem doğru qurulub;
$\frac{1}{2}$	B. Həldə göstərilmiş blok-sxem və ya ona ekvivalent blok-sxem doğru qurulub, lakin mənfi ədədin olub-olmaması ***yoxlanılmayıb*** və ya ***səhv*** yoxlanıb; C. Mexaniki ***səhvə*** yol verilib. Burada mexaniki ***səhv*** bir fiqur seçimində və ya budaqlanmanın istiqamətində ola bilər; D. *N*-in qiymətinin girişə verilməsi üçün istifadə olunan fiqur ***səhv*** təsvir olunub və ya ümumiyyətlə istifadə ***olunmayıb***; E. ***t, i*** dəyişənlərinə ilkin qiymətlərin verilməsi və (və ya) onlar üçün olan fiqur düzgün ***göstərilməyib*** və ya ümumiyyətlə ***yoxdur***; F. Dövrün davametmə (bitmə) şərti doğru ***deyil***, amma blok-sxemin digər hissələri doğrudur; G. Dövrün addımı ***dəyişdirilməyib*** (və ya ***səhv*** dəyişdirilib) və ya ümumiyyətlə ***göstərilməyib***, amma blok-sxemin digər hissələri doğrudur; H. Alqoritm yalnız son mənfi elementin indeksini və ya yalnız son mənfi elementin özünü çap edib, lakin digər hissələr doğrudur; I. Alqoritm ilk mənfi elementinin indeksini və elementin özünü çap edib; J. Alqoritm (N–1) və ya (N+1) sayda ədəd üçün doğru qurulub;
0	K. Alqoritm yalnız ilk mənfi elementin indeksini və ya yalnız ilk mənfi elementin özünü çap edir; L. $\frac{1}{2}$ balla qiymətləndirilən halların birində əlavə bir və ya daha çox ***səhvə*** yol verilib; M. Heç bir dövrü proses istifadə ***olunmayıb***; N. Tapşırığın Python proqramı yazılıb; O. Başqa tapşırığın həlli yazılıb; P. Alqoritm ən kiçik mənfi ədədin tapılması üçün qurulub; Q. Alqoritm yalnız mənfi tam ədədlərin sayının tapılması üçün qurulub; R. Digər bütün ***yanlış*** hallarda.

Tapşırıq vasitəsilə "*Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma*" məzmun xəttinin *7_2.2.2.* (*Məsələnin həlli alqoritmini qurur*) altstandartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 6,34%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 6,53%-i $\frac{1}{2}$ balla, 28,77%-i 0 balla qiymətləndirilmiş, 58,36% -i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün tələb olunan blok-sxem qurma biliklərinin zəif olması ilə əlaqələndirmək olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 89 saylı test tapşırığı

Klaviaturadan daxil edilən ixtiyari natural ədədin bütün tək natural bölənlərinin cəmini çap edən proqramı Python dilində yazın. Məsələn:

Giriş	Çıxış
36	13
23	24

Həlli:

I üsul:

```
n=int(input())
s=0
for i in range(1,n+1):
    if n%i==0 and i%2==1:
          s=s+i
print(s)
```

II üsul:

```
n=int(input())
s=0
for i in range(1,n+1,2):
    if n%i==0:
          s=s+i
print(s)
```

III üsul:	*IV üsul:*

`n=int(input())`
`s=0`
`i=1`
`while i<=n:`
`  if n%i==0 and i%2==1:`
`  s=s+i`
`  i=i+1`
`print(s)`
	`n=int(input())`
	`s=0`
	`i=1`
	`while i<=n:`
	`  if n%i==0:`
	`  s=s+i`
	`  i=i+2`
	`print(s)`

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1	A. Proqram doğru tərtib edilib. Bu halda ‘:’ , ‘.’ kimi simvolların buraxılması, ‘==’ yerinə ‘=’kimi simvolunun istifadəsi ilə formalaşan sintaksis xətalar abituriyentin balına ***təsir etmir;***
$\frac{1}{2}$	B. Proqram doğru tərtib edilib, lakin proqramda “**and**” məntiq əməlinin əvəzinə “**or**” məntiq əməli istifadə olunub; C. **n** dəyişəninin qiymətinin klaviaturadan daxil edilməsi nəzərə ***alınmayıb*** (və ya ***səhv*** daxil edilib) və ya **s** dəyişəninə başlanğıc qiymət ***verilməyib*** (və ya ***səhv*** verilib), lakin digər hissələr doğrudur; D. **n** dəyişəninin tək bölənlərinin cəmi əvəzinə onların sayı tapılıb, lakin digər hissələr doğrudur; E. **n** dəyişəninin tək bölənlərinin cəmi əvəzinə cüt bölənlərinin cəmi hesablanıb, lakin digər hissələr doğrudur; F. Dövrün parametrinin sərhəd qiymətləri düzgün ***verilməyib***, məsələn; a) for i in range(0,n); b) for i in range(0,n+1); c) for i in range(1,n) və s., lakin digər hissələr doğrudur; G. Dövr və ya şərtin gövdəsində girinti boşluqlarında ***səhvə*** yol verilib. Girinti boşluğu qoyulmalı yerlərdə boşluq ***qoyulmayıb***, lakin digər proseslər doğrudur;
0	H. Yalnız tək ədədlərin cəmini hesablayan proqram qurulub; I. $\frac{1}{2}$ balla qiymətləndirilən halların birində əlavə bir və ya daha çox ***səhvə*** yol verilib; J. Proqram əvəzinə blok-sxem qurulub və ya başqa proqramlaşdırma dilindən istifadə edilib; K. Şərtin gövdəsi tamamilə ***yanlışdır***; L. Başqa tapşırığın həlli yazılıb; M. Digər bütün ***yanlış*** hallarda.

Tapşırıq vasitəsilə “*Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma*” məzmun xəttinin *9_2.2.3.* (*Proqramlaşdırma dilinin əsas əmrlərini izah edir*) və *9_2.2.4.* (*Öyrənilən proqramlaşdırma mühitində işləmək bacarıqlarını nümayiş etdirir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 13,90%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 9,02%-i $\frac{1}{2}$ balla, 18,97%-i 0 balla qiymətləndirilmiş, 58,12%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün tələb olunan Python proqramlaşdırma dilini zəif mənimsəmələri ilə əlaqələndirmək olar.

13 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 90 saylı test tapşırığı

a siyahısının elementləri klaviaturadan bir-birindən 1 boşluqla ayrılmış sətir şəklində daxil edilir. Bu siyahının 3 simvolu ilə başlayıb 6 simvolu ilə bitən elementlərinin indeksləri cəmini hesablayaraq çap edən proqramı Python dilində yazın. Məsələn:

Giriş	Çıxış
4a6 3ab6 c756 3 36 fed 34546	11
6k8 376 345 246 30b6	5

Həlli:

I üsul.	***II üsul.***

`b = input()`
`a = b.split(' ')`
`cem = 0`
`for i in range (0,len(a)):`
`  k = a[i]`
`  if k[len(k)-1]=='6' and k[0]=='3':`
`  cem = cem + i`
`print (cem)`
	`b = input()`
	`a = b.split(' ')`
	`cem = 0`
	`j=0`
	`for i in a:`
	`  if i[0]=='3' and i[len(i)-1]=='6':`
	`  cem = cem + j`
	`  j=j+1`
	`print (cem)`

Qiymətləndirmə meyarları

Bal şkalası	**Meyarlar**
1	A. Proqram doğru tərtib edilib. Bu halda ‘:’ , ‘.’ kimi simvolların buraxılması, ‘==’ yerinə ‘=’kimi simvolunun istifadəsi ilə formalaşan sintaksis xətalar abituriyentin balına ***təsir etmir;***
$\frac{1}{2}$	B. **II üsulla** həll zamanı indeks üçün əlavə dəyişən istifadə ***edilməyib*** və indeksi müəyyən etmək üçün *index* metodundan istifadə olunub (cem = cem +a.index(i)); C. Təkcə 6 ilə bitən və ya 3 ilə başlayan elementlərin indekslərini cəmləyən proqram yazılıb; D. Mexaniki ***səhvə*** yol verilib (məs: ilkin qiymətlərin ***verilməməsi*** və ya ***yanlış*** verilməsi və s.); E. Sətrin simvollarına müraciəti təmin etmək üçün olan dövr operatorunda ***səhvə*** yol verilib, lakin proqramın qalan hissələri doğrudur; F. Sətrin simvollarına müraciəti təmin etmək üçün olan dövr ***doğru*** qurulub, lakin dövr sətrin simvoluna onun ***indeksinə*** görə müraciət üçün (range() və ya while ilə) qurulduğu halda dövr daxilində sətrin simvolunu ifadə edən dəyişən ***indekssiz*** müraciəti təmin edəcək şəkildə qurulub, lakin digər proseslər doğrudur; G. Sətrin simvollarına müraciəti təmin etmək üçün olan dövr ***doğru*** qurulub, lakin dövr sətrin simvoluna onun ***indeksinə*** görə yox, birbaşa müraciət üçün (məs., range() istifadə ***edilmədən***) qurulduğu halda dövr daxilində sətrin simvolunu ifadə edən dəyişən indeksli müraciəti təmin edəcək şəkildə qurulub, lakin digər proseslər doğrudur; H. İndekslərin cəmi əvəzinə uyğun simvollar özü və ya onların indeksləri çapa verilib;
0	I. $\frac{1}{2}$ balla qiymətləndirilən halların birində əlavə bir və ya daha çox ***səhvə*** yol verilib; J. Proqram əvəzinə blok-sxem qurulub və ya başqa proqramlaşdırma dilindən istifadə edilib; K. Proqram sətirdəki bütün simvolların indeksləri cəmini çap edir; L. Başqa tapşırığın həlli yazılıb; M. Dövr operatorundan istifadə ***edilməyib;*** N. **II üsulla** həll zamanı indeks üçün əlavə dəyişən istifadə ***edilməyib*** və indeksi müəyyən etmək üçün ***səhvən*** find metodundan istifadə olunub (cem = cem +a.find(i)); **Bu bənd B bəndindən fərqləndirilməlidir!** O. Digər bütün ***yanlış*** hallarda.

Tapşırıq vasitəsilə “*Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma*” məzmun xəttinin *9_2.2.3.* (*Proqramlaşdırma dilinin əsas əmrlərini izah edir*) və *9_2.2.4.* (*Öyrənilən proqramlaşdırma mühitində işləmək bacarıqlarını nümayiş etdirir*) altstandartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 6,09%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirmiş və onların işi 1 balla, 7,36%-i $\frac{1}{2}$ balla, 18,97%-i 0 balla qiymətləndirilmiş, 67,58%-i isə yazı işini yerinə yetirməkdən imtina etmişdir.

Abituriyentlərin zəif cavab vermələrini tapşırığın həlli üçün tələb olunan Python proqramlaşdırma dilini, sətirlər və siyahılar üzərində əməlləri zəif mənimsəmələri ilə əlaqələndirmək olar.

I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 21.4%-i (19425 nəfər) imtahan verdikləri fənlərin ən azı birindən sıfır bal toplayıb.

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 21.4%-i imtahan verdikləri fənlərin biri və ya bir neçəsi üzrə test suallarına ya cavab verməmiş, ya da cavabları təhlil aparmadan təsadüfi qaydada seçmişdir. Təbii ki, belə abituriyentlərin yanlış cavablarının sayı düzgünlərin sayından qat-qat çox olmuş, nəticədə, düzgün cavabların yanlış cavablar nəzərə alınmaqla təshih edilmiş qiyməti sıfırdan kiçik alınmış və qəbul qaydalarına əsasən sıfıra bərabər qəbul olunmuşdur. Təəssüf ki, gənclər arasında birtərəfli hazırlıqla ali təhsil müəssisələrinə qəbul olmaq arzusunda olanlar hələ də var.

DİM şagird və abituriyentlərin nəinki imtahan fənlərinə, həmçinin ümumtəhsil məktəblərində tədris olunan digər fənlərə lazımi diqqət göstərməsinin tərəfdarıdır. Sirr deyil ki, hazırda məktəblərdə yuxarı sinif şagirdlərinin, əsasən, seçdikləri ixtisas qrupuna aid fənlərə üstünlük verməsi, digər fənləri isə, heç olmasa, proqramın minimum tələbləri səviyyəsində öyrənməməsi halları mövcuddur. Məktəb rəhbərləri, eləcə də müəllimlər şagirdlərin bütün fənlər üzrə ən azı minimum proqram həcmində bilik almasına nail olmalı, imtahana düşən fənləri yaxşı bildiklərinə görə digər fənləri lazımınca öyrənməmələrinə güzəşt etməməlidirlər.

Aşağıdakı cədvəllərdə ayrı-ayrı fənlər üzrə sıfır bal toplayan abituriyentlərin statistikası (faizlə) təqdim edilib.

Cədvəl 1.30

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ											
		I mərhələ			II mərhələ								
		Tədris dili	Riya-ziyyat	İngilis dili	Tədris dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	İnfor-matika	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	0.05	0.40	0.10			8.40	9.24	15.45			8.88	
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.06	0.80	0.11			19.31				4.02		14.87
III	Humanitar, pedaqogika ixtisasları	0.02	0.80	0.07	0.94	4.99					1.71		23.85
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.09	0.33	0.04				4.68	7.02	3.19			
V	İncəsənət, dizayn, musiqi, idman ixtisasları	0.17	1.34	0.24									

Cədvəl 1.31

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ											
		I mərhələ			II mərhələ								
		Tədris dili	Riya-ziyyat	İngilis dili	Tədris dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	İnfor-matika	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	0.06	0.39	0.06			8.65	9.07	14.83			7.88	
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.00	1.00	0.00			15.78				5.29		13.61
III	Humanitar, pedaqogika ixtisasları	0.03	1.17	0.03	0.74	4.30					5.64		20.47
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.00	0.10	0.00				5.30	6.55	2.41			
V	İncəsənət, dizayn, musiqi, idman ixtisasları	0.11	1.18	0.14									

Cədvəllərdə sıfır bal toplayanların sayının faizlə ifadəsi qruplar üzrə verilib. Ümumilikdə, I mərhələdə sıfır bal toplayanlar çox azdır. Bunun əsas səbəbi kimi bu mərhələdə II mərhələdən fərqli olaraq qapalı tipli test tapşırıqları üzrə yanlış cavablara görə cərimə tətbiq olunmaması və bu cavabların ümumi bala təsir göstərməməsidir. Nəticədə, abituriyentlər I mərhələdə daha cəsarətli davranır və cavablarını bilmədikləri test tapşırıqlarını da cavablandırırlar ki, bu da, öz növbəsində, təsadüfi şəkildə düzgün cavabların qeyd olunması ehtimalını artırır.

II mərhələdə tədris dili, tarix, biologiya və ədəbiyyat fənləri üzrə sıfır bal toplayan abituriyentlərin sayı (faizi) digər fənlərə nisbətən azdır. Sıfır bal toplayanlar ən çox riyaziyyat, coğrafiya və kimya fənləri üzrədir. Bu fənlər üzrə abituriyentlərin nəticələrinin aşağı olması və sıfır bal toplayanların sayının çoxluğu bir sıra məktəblərdə həmin fənlərin tədrisinə, eləcə də bu fənlər üzrə qəbula hazırlıq prosesinə laqeyd münasibətin nəticəsidir. İstənilən halda, bunun real səbəbləri aydınlaşdırılmalı və həmin fənlərə münasibətin dəyişdirilməsi üçün tədbirlər görülməlidir.


II mərhələdə imtahan fənlərindən sıfır bal toplayan abituriyentlər Azərbaycan bölməsində çoxluq təşkil edir. Rus bölməsi ilə müqayisədə bu bölmə üzrə I qrupda kimya, informatika, fizika, II qrupda riyaziyyat, coğrafiya, III qrupda tədris dili, ədəbiyyat, coğrafiya, IV qrupda kimya və biologiya fənlərindən sıfır bal toplayanlar nisbətən daha çoxdur.

Məlum olduğu kimi, 2019-cu ildən etibarən müsabiqə şərti kimi imtahan fənləri üzrə heç bir məhdudiyyət qoyulmur. I – IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında 11819 nəfərin altı imtahan fənnindən (hər iki mərhələ üzrə birlikdə) heç olmasa biri üzrə nisbi balı 10-dan az olmuşdur. Onlardan 9925 nəfərin yalnız bir, 1807 nəfərin iki, 87 nəfərin isə üç fənni üzrə nisbi balı 10-dan az olmuşdur. Ən azı 1 fənn üzrə nisbi balı 10-dan az olan abituriyentlərin 17.18%-i (yalnız 1 fənn üzrə nisbi balı 10-dan az olanların 14.31%-i, 2 fənn üzrə nisbi balı 10-dan az olanların 31.49%-i və 3 fənn üzrə nisbi balı 10-dan az olanların 48.28%-i) 200-dən az bal toplayıb. I – IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında I mərhələdə tədris dili fənni üzrə 8, riyaziyyat fənni üzrə 1703 və xarici dil fənni üzrə 135 abituriyentin topladığı nisbi balı 10-dan az olub. II mərhələdə tədris dili fənni üzrə 4, ədəbiyyat fənni üzrə 49, riyaziyyat fənni üzrə 2696, fizika fənni üzrə 1113, kimya fənni üzrə 2198, biologiya fənni üzrə 44, tarix fənni üzrə 3991, coğrafiya fənni üzrə 1659, informatika fənni üzrə 200 abituriyentin topladığı nisbi balı 10-dan az olub.

Bu il qəbul imtahanlarının II mərhələsində Azərbaycan bölməsi abituriyentlərinin riyaziyyat və kimya fənləri istisna olmaqla, digər bütün fənlər üzrə göstəriciləri rus bölməsi abituriyentlərinin göstəricilərindən yüksəkdir. Belə üstünlük özünü ədəbiyyat, biologiya və tarix fənləri üzrə daha qabarıq şəkildə göstərib. I mərhələdə isə riyaziyyat və ingilis dili fənləri üzrə rus bölməsinin abituriyentlərinin göstəriciləri yüksək

olmuşdur. Aşağıda Azərbaycan və rus bölmələri abituriyentlərinin fənlər üzrə düzgün cavablarının müqayisəsini ifadə edən 1.22 saylı diaqram təqdim edilir.


AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİ ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.22

Müsabiqə şərtlərini ödəyərək ixtisas seçimində iştirak edən abituriyentlər seçməsi üzrə Azərbaycan və rus bölmələri abituriyentlərinin II mərhələdə imtahan fənləri üzrə düzgün cavablarının müqayisəsi göstərir ki, bütün fənlər üzrə Azərbaycan bölməsi abituriyentlərinin göstəriciləri daha üstündür (bax: şəkil 1.23). I mərhələdə rus bölməsinin abituriyentlərinin göstəriciləri ingilis dili fənni üzrə üstündür.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİNİN MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.23

ALİ MƏKTƏB	Min. bal	Orta bal
Gəncə Dövlət Universiteti	403.4	436.827
Mingəçevir Dövlət Universiteti	366.3	399.260
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba filialı)	349.2	379.548
Lənkəran Dövlət Universiteti	342.2	379.113
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)	332.6	360.557
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)	330.6	358.987
Naxçıvan Müəllimlər İnstitutu	329.7	357.727
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Cəlilabad filialı)	329.6	351.497
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şamaxı filialı)	325.4	355.423
Xarici dil müəllimliyi (ingilis dili)		
Naxçıvan Dövlət Universiteti	510.3	556.512
Gəncə Dövlət Universiteti	485.9	557.730
Azərbaycan Dillər Universiteti	482.5	552.352
Azərbaycan Dövlət Pedaqoji Universiteti	480.8	516.367
Bakı Slavyan Universiteti	478.4	492.835
Qarabağ Universiteti (YDS)	477.0	542.788
Sumqayıt Dövlət Universiteti	468.6	498.605
Mingəçevir Dövlət Universiteti	451.1	503.505
Lənkəran Dövlət Universiteti	430.2	485.342
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)	417.6	462.544
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba filialı)	405.7	442.130
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)	400.2	424.400
Naxçıvan Müəllimlər İnstitutu	387.8	420.570
Xarici dil müəllimliyi (fransız dili)		
Azərbaycan Dillər Universiteti	358.9	384.405
Bakı Slavyan Universiteti	352.8	365.880
Azərbaycan Dövlət Pedaqoji Universiteti	344.5	357.437
Gəncə Dövlət Universiteti	295.9	307.460
Naxçıvan Dövlət Universiteti	293.9	311.370
Xarici dil müəllimliyi (alman dili)		
Azərbaycan Dillər Universiteti	427.7	447.110
Bakı Slavyan Universiteti	413.9	422.333
Gəncə Dövlət Universiteti	328.0	345.904
Naxçıvan Dövlət Universiteti	325.1	351.790
Xarici dil müəllimliyi (rus dili)		
Gəncə Dövlət Universiteti	316.3	339.412
Bakı Slavyan Universiteti	304.1	341.185
Naxçıvan Dövlət Universiteti	298.7	325.310

ALİ MƏKTƏB	Min. bal	Orta bal
Beynəlxalq münasibətlər		
ADA Universiteti (tədris ingilis dilində)	562.6	609.800
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	511.4	536.780
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	499.7	529.180
Azərbaycan Dövlət İqtisad Universiteti	429.5	470.763
Azərbaycan Dillər Universiteti (tədris ingilis dilində)	425.8	461.050
Bakı Dövlət Universiteti	407.6	445.828
Azərbaycan Dövlət İqtisad Universiteti (tədris türk dilində)	390.8	408.650
Azərbaycan Dillər Universiteti	387.3	399.865
Bakı Slavyan Universiteti	370.9	381.470
Azərbaycan Turizm və Menecment Universiteti	361.4	371.292
Qarabağ Universiteti (YDS)	344.8	416.922
Naxçıvan Dövlət Universiteti (tədris ingilis dilində)	323.7	395.040
Naxçıvan Dövlət Universiteti	280.7	322.313
Dövlət və ictimai münasibətlər		
ADA Universiteti (tədris ingilis dilində)	604.7	619.838
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	599.4	615.570
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	597.4	613.097
Bakı Dövlət Universiteti	537.5	569.186
Naxçıvan Dövlət Universiteti	492.2	524.347
Filologiya (ingilis dili və ədəbiyyatı)		
Bakı Dövlət Universiteti	512.7	535.480
Bakı Slavyan Universiteti	414.0	437.652
Azərbaycan Dillər Universiteti	293.7	472.468
Filologiya (Azərbaycan dili və ədəbiyyatı)		
Bakı Dövlət Universiteti	451.1	485.901
Azərbaycan Dillər Universiteti	431.3	443.822
Azərbaycan Dövlət Pedaqoji Universiteti	408.2	424.787
Bakı Slavyan Universiteti	400.4	412.552
Sumqayıt Dövlət Universiteti	376.9	395.213
Gəncə Dövlət Universiteti	364.8	394.733
Naxçıvan Dövlət Universiteti	355.1	376.100
Mingəçevir Dövlət Universiteti	331.2	350.983
Bakı Dövlət Universiteti (Qazax filialı)	312.7	340.210
Filologiya (alman dili və ədəbiyyatı)		
Bakı Dövlət Universiteti	417.8	452.340
Azərbaycan Dillər Universiteti	408.7	432.033

Cədvəl 1.67 (ardı)

ALİ MƏKTƏB	Min. bal	Orta bal
Filologiya (türk dili və ədəbiyyatı)		
Bakı Dövlət Universiteti	384.3	396.945
Bakı Slavyan Universiteti	350.1	363.885
Filologiya (fransız dili və ədəbiyyatı)		
Bakı Dövlət Universiteti	360.9	395.825
Azərbaycan Dillər Universiteti	355.5	380.507
Hüquqşünaslıq		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	664.5	675.428
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	655.4	666.230
ADA Universiteti (tədris ingilis dilində)	633.6	657.691
Bakı Dövlət Universiteti	621.7	639.124
Milli Aviasiya Akademiyası (tədris ingilis dilində)	618.5	626.493
Dövlət Gömrük Komitəsinin Akademiyası	607.9	616.113
Milli Aviasiya Akademiyası	602.9	611.903
Qarabağ Universiteti (YDS)	590.8	604.323
Naxçıvan Dövlət Universiteti	577.1	599.408
Jurnalistika		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	479.9	501.852
Bakı Dövlət Universiteti	419.8	446.007
Azərbaycan Dillər Universiteti (tədris ingilis dilində)	399.0	423.822
Bakı Slavyan Universiteti	394.0	402.965
Naxçıvan Dövlət Universiteti	310.9	366.973
Kitabxanaçılıq və informasiya fəaliyyəti		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	412.3	429.000
Bakı Dövlət Universiteti	334.2	374.098
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	315.7	337.787
Naxçıvan Müəllimlər İnstitutu	273.8	298.024
Naxçıvan Dövlət Universiteti	259.7	269.770
Politologiya		
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	580.2	590.007
Bakı Dövlət Universiteti	460.4	529.119
Sumqayıt Dövlət Universiteti	366.6	386.788
Regionşünaslıq (Amerika üzrə)		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	407.7	426.767
Bakı Dövlət Universiteti	363.0	406.197
Azərbaycan Dillər Universiteti (tədris ingilis dilində)	351.9	412.950
Azərbaycan Dillər Universiteti	319.6	334.327

ALİ MƏKTƏB	Min. bal	Orta bal
Regionşünaslıq (Türkiyə üzrə)		
Bakı Dövlət Universiteti	327.4	345.24
Azərbaycan Dillər Universiteti	298.7	310.86
Regionşünaslıq (Böyük Britaniya üzrə)		
Azərbaycan Dillər Universiteti (tədris ingilis dilində)	338.2	358.78
Azərbaycan Dillər Universiteti	305.2	319.573
Regionşünaslıq (Yaponiya üzrə)		
Bakı Dövlət Universiteti	342.0	358.72
Azərbaycan Dillər Universiteti	313.0	328.84
Regionşünaslıq (Qafqaz üzrə)		
Bakı Dövlət Universiteti	311.4	328.547
Azərbaycan Dillər Universiteti	278.8	294.274
Bakı Dövlət Universiteti	267.4	302.287
Regionşünaslıq (ərəb ölkələri üzrə)		
Bakı Dövlət Universiteti	285.3	301.935
Azərbaycan Dillər Universiteti	274.0	309.78
Regionşünaslıq (Pakistan üzrə)		
Bakı Dövlət Universiteti	270.7	277.07
Azərbaycan Dillər Universiteti	245.6	252.34
Regionşünaslıq (Balkan ölkələri üzrə)		
Azərbaycan Dillər Universiteti	271.5	282.66
Bakı Slavyan Universiteti	240.2	252.94
Tarix		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	562.1	585.596
Bakı Dövlət Universiteti	475.3	526.659
Sumqayıt Dövlət Universiteti	418.0	433.133
Gəncə Dövlət Universiteti	402.2	442.358
Qarabağ Universiteti (YDS)	379.1	454.211
Naxçıvan Dövlət Universiteti	373.5	421.478
Mingəçevir Dövlət Universiteti	368.6	391.298
Bakı Dövlət Universiteti (Qazax filialı)	324.9	352.828
Tərcümə (ingilis dili üzrə)		
Azərbaycan Dillər Universiteti	487.7	521.987
Bakı Slavyan Universiteti	435.9	461.968
Azərbaycan Turizm və Menecment Universiteti	388.6	406.782
Naxçıvan Dövlət Universiteti	379.1	463.825
Gəncə Dövlət Universiteti	355.4	395.452
Tərcümə (alman dili üzrə)		
Azərbaycan Dillər Universiteti	489.4	527.34
Bakı Slavyan Universiteti	393.2	403.095
Tərcümə (fransız dili üzrə)		
Azərbaycan Dillər Universiteti	389.6	420.85
Bakı Slavyan Universiteti	355.0	364.6

Cədvəl 1.67 (ardı)

ALİ MƏKTƏB	Min. bal	Orta bal
Tərcümə (ərəb dili üzrə)		
Bakı Dövlət Universiteti	335.0	371.51
Azərbaycan Dillər Universiteti	328.3	370.3
Naxçıvan Dövlət Universiteti	245.1	261.66
Tərcümə (fars dili üzrə)		
Bakı Dövlət Universiteti	283.1	306.17
Naxçıvan Dövlət Universiteti	249.4	272.76
Tərcümə (rus dili üzrə)		
Azərbaycan Dillər Universiteti	344.7	364.5
Bakı Slavyan Universiteti	292.2	314.13
Muzey, arxiv işi və abidələrin qorunması		
Bakı Dövlət Universiteti	409.4	417.668
Azərbaycan Turizm və Menecment Universiteti	307.7	351.472
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	300.5	340.043
Lənkəran Dövlət Universiteti	268.2	292.135
Naxçıvan Dövlət Universiteti	263.1	287.107
Sənətşünaslıq		
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	367.5	381.630
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	367.5	383.452
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	306.2	368.337
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	269.1	314.343
Sosial iş		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	536.1	554.272
Bakı Dövlət Universiteti	505.4	520.728
Azərbaycan Dövlət İqtisad Universiteti	487.4	501.814
Azərbaycan Dövlət Pedaqoji Universiteti	464.1	475.366
Naxçıvan Dövlət Universiteti	454.4	477.388
Azərbaycan Turizm və Menecment Universiteti	395.1	429.108
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	392.3	423.598
Sumqayıt Dövlət Universiteti	390.2	415.808
Gəncə Dövlət Universiteti	381.7	420.728
Lənkəran Dövlət Universiteti	353.7	394.105
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)	346.3	379.717
Mingəçevir Dövlət Universiteti	340.2	357.717
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba filialı)	320.9	351.910
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Ağcabədi filialı)	314.6	333.873
Bakı Dövlət Universiteti (Qazax filialı)	308.6	331.207

IV QRUP

ALİ MƏKTƏB	Min. bal	Orta bal
Biologiya müəllimliyi		
Bakı Dövlət Universiteti	433.9	460.901
Azərbaycan Dövlət Pedaqoji Universiteti	291.4	356.662
Naxçıvan Dövlət Universiteti	289.1	398.727
Qarabağ Universiteti (YDS)	286.2	358.780
Sumqayıt Dövlət Universiteti	239.3*	307.365
Gəncə Dövlət Universiteti	237.6*	298.829
Kimya müəllimliyi		
Bakı Dövlət Universiteti	454.4	490.372
Qarabağ Universiteti (YDS)	325.9	389.453
Azərbaycan Dövlət Pedaqoji Universiteti	318.1	377.832
Gəncə Dövlət Universiteti	303.0*	445.529
Naxçıvan Dövlət Universiteti	288.4*	429.4
Sumqayıt Dövlət Universiteti (tədris ingilis dilində)	251.8	361.53
Sumqayıt Dövlət Universiteti	212.8*	311.925
Kimya və biologiya müəllimliyi		
Azərbaycan Dövlət Pedaqoji Universiteti	400.1	440.361
Gəncə Dövlət Universiteti	263.2*	377.261
Sumqayıt Dövlət Universiteti	263.1	345.354
Bakı Dövlət Universiteti (Qazax filialı)	244.8*	356.267
Lənkəran Dövlət Universiteti	218.8*	328.752
Mingəçevir Dövlət Universiteti	217.1*	323.736
Psixologiya		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	581.5	590.573
Bakı Dövlət Universiteti	540.7	559.698
Bakı Slavyan Universiteti	492.8	516.107
Qarabağ Universiteti (YDS)	485.9	515.467
Naxçıvan Dövlət Universiteti	416.5	502.743
Sumqayıt Dövlət Universiteti	334.8	387.448
Gəncə Dövlət Universiteti	296.2*	366.383
Biologiya		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	542.2	558.209
Bakı Dövlət Universiteti	493.5	514.419
Naxçıvan Dövlət Universiteti	364.8	416.360
Gəncə Dövlət Universiteti	324.4*	373.142
Gəncə Dövlət Universiteti	283.7*	359.200
Sumqayıt Dövlət Universiteti	256.0*	355.664
Biotexnologiya		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	586.8	593.415
Bakı Dövlət Universiteti	562.3	575.563

Cədvəl 1.67 (ardı)

ALİ MƏKTƏB	Min. bal	Orta bal
Bakı Mühəndislik Universiteti	515.2	544.950
Azərbaycan Dövlət Aqrar Universiteti	262.2*	329.640
Ekologiya		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	396.2	430.016
Bakı Dövlət Universiteti	349.9	383.300
Azərbaycan Dövlət İqtisad Universiteti	314.7	350.675
Sumqayıt Dövlət Universiteti	236.7	269.047
Gəncə Dövlət Universiteti	211.5	245.420
Azərbaycan Texnologiya Universiteti	161.0*	185.667
Mingəçevir Dövlət Universiteti	161.0*	223.144
Lənkəran Dövlət Universiteti	158.5*	219.105
Azərbaycan Dövlət Aqrar Universiteti	152.5*	186.368
Kimya		
Bakı Dövlət Universiteti (tədris ingilis dilində)	548.1	566.657
Bakı Dövlət Universiteti	482.6	511.190
Bakı Mühəndislik Universiteti (tədris ingilis dilində)	477.2	504.167
Bakı Mühəndislik Universiteti	415.2	458.373
Gəncə Dövlət Universiteti	373.7*	426.250
Sumqayıt Dövlət Universiteti	261.6*	342.563
Naxçıvan Dövlət Universiteti	253.2	401.393
Bağçılıq və tərəvəzçilik		
Azərbaycan Dövlət Aqrar Universiteti (tədris türk dilində)	203.9*	203.900
Lənkəran Dövlət Universiteti (YDS)	179.0*	197.650
Azərbaycan Dövlət Aqrar Universiteti (YDS)	177.0*	189.200
Azərbaycan Dövlət Aqrar Universiteti (YDS) (tədris ingilis dilində)	168.6	269.700
Baytarlıq təbabəti		
Azərbaycan Dövlət Aqrar Universiteti (tədris ingilis dilində) (YDS)	275.8	301.560
Naxçıvan Dövlət Universiteti (YDS)	181.2*	253.600
Azərbaycan Dövlət Aqrar Universiteti (YDS)	158.9*	224.900
Lənkəran Dövlət Universiteti (YDS)	158.6*	218.620
Bitki mühafizəsi		
Bakı Dövlət Universiteti	270.4	295.610
Azərbaycan Dövlət Aqrar Universiteti (YDS)	167.4*	219.175
Azərbaycan Dövlət Aqrar Universiteti (tədris türk dilində)	159.7*	208.233
Su bioehtiyatları və akvakultura		
Bakı Dövlət Universiteti	266.2	289.215
Azərbaycan Dövlət Aqrar Universiteti (YDS)	166.0*	253.478
Əczaçılıq		
Azərbaycan Tibb Universiteti	580.6	588.772
Naxçıvan Dövlət Universiteti	566.7	576.755
Azərbaycan Dövlət Aqrar Universiteti	238.2*	330.841
Fizioterapiya		
Azərbaycan Tibb Universiteti	603.4	609.638
Azərbaycan İdman Akademiyası	453.9	492.180
Tibb bacısı işi		
Azərbaycan Tibb Universiteti	547.8	569.083
Qarabağ Universiteti (YDS)	490.6	527.900
Naxçıvan Dövlət Universiteti	482.4	511.020
İctimai səhiyyə		
Azərbaycan Tibb Universiteti	593.0	598.327
Naxçıvan Dövlət Universiteti	582.0	598.327
Stomatologiya		
Azərbaycan Tibb Universiteti	615.5	627.680
Naxçıvan Dövlət Universiteti	600.4	603.897
Tibb		
Azərbaycan Tibb Universiteti (tədris ingilis dilində)	683.7	688.792
Azərbaycan Tibb Universiteti	624.3	651.884
Qarabağ Universiteti (YDS)	614.6	624.181
Naxçıvan Dövlət Universiteti (tədris ingilis dilində)	607.3	613.836
Naxçıvan Dövlət Universiteti	604.1	612.063

(YDS) – yalnız dövlət sifarişi əsasında qəbul aparılan ixtisaslar.

* işarəsi ilə qeyd olunan ixtisaslar üzrə əsas və əlavə yerləşdirmədən sonra boş yerlər qalmışdır.

2025-ci ildə ali təhsil müəssisələrinə qəbul olunan abituriyent seçməsinin zonal tərkibi 1.68 saylı cədvəldə təqdim edilib. Cədvəldən göründüyü kimi, abituriyentlər yaşayış yerinə yaxın olan ali təhsil müəssisələrinə daha çox üstünlük veriblər. Məsələn, Bakı, Gəncə, Naxçıvan, Mingəçevir, Lənkəran şəhərlərindəki ali təhsil müəssisələrinə qəbul olanların zonal tərkibində müvafiq şəhərlərin və yaxın ətraf bölgələrin abituriyentləri sayca üstünlük təşkil edir. Paytaxt ali təhsil müəssisələrinə digər bölgələrin abituriyentlərinin istəyi böyük olsa da, Bakı şəhəri abituriyentlərinin Azərbaycan Texnologiya Universiteti, Qarabağ Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti və Sumqayıt Dövlət Universiteti istisna olmaqla, digər bölgə ali təhsil müəssisələrinə marağı zəifdir.

Cədvəl 1.68

2025-Ci İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLAR SEÇMƏSİNİN ZONAL TƏRKİBİ

(abituriyentlər və subbakalavrlar birlikdə)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qəbul olu-nub	ABİTURİYENTLƏRİN ZONALAR ÜZRƏ TƏRKİBİ, %-LƏ											
			Bakı	Nax.	Sum.	Min.	Gən.	Şəki	Göy.	İm.	Şir.	Lən.	Quba	Xar.
1	Bakı Dövlət Universiteti	5652	41.81	1.04	10.88	7.73	10.70	4.37	4.37	6.33	4.90	4.10	3.75	0.00
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	3334	46.43	1.86	11.16	5.97	6.45	5.52	4.14	4.53	6.03	4.50	3.42	0.00
3	Azərbaycan Texniki Universiteti	1886	41.57	1.43	8.80	7.10	5.67	5.83	4.51	7.21	6.95	5.73	5.14	0.05
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	2512	47.17	1.00	10.83	6.81	5.21	5.18	4.86	5.81	5.73	3.58	3.82	0.00
5	Azərbaycan Tibb Universiteti	903	43.19	1.99	11.74	7.20	10.30	5.65	3.32	4.43	4.21	4.43	3.54	0.00
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3432	30.59	0.44	9.62	10.93	6.96	7.31	6.24	5.83	6.26	7.28	8.51	0.03
7	Azərbaycan Dövlət İqtisad Universiteti	4090	49.32	1.74	12.35	5.18	5.43	7.36	3.86	5.40	3.64	2.81	2.89	0.02
8	Azərbaycan Dillər Universiteti	1796	49.44	0.50	11.92	8.24	7.74	4.12	2.51	6.29	4.06	2.62	2.51	0.06
9	Bakı Slavyan Universiteti	1388	47.05	0.50	12.25	7.35	8.00	3.53	2.88	5.98	4.25	4.11	4.03	0.07
10	Bakı Mühəndislik Universiteti	2296	28.40	2.26	22.65	8.58	7.27	7.10	3.79	7.53	4.75	3.96	3.70	0.00
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	393	52.16	1.53	10.94	3.82	8.65	3.31	4.33	4.83	3.31	3.05	4.07	0.00
12	ADA Universiteti	351	59.54	2.28	12.25	3.42	2.85	3.13	1.42	7.98	3.42	2.56	1.14	0.00
13	Bakı Musiqi Akademiyası	126	54.76	1.59	5.56	6.35	13.49	4.76	2.38	2.38	3.97	1.59	3.17	0.00
14	Azərbaycan Milli Konservatoriyası	133	37.59	3.76	11.28	13.53	9.77	6.02	3.76	2.26	5.26	3.76	3.01	0.00
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	624	44.55	1.28	12.02	7.69	5.13	6.25	3.37	6.25	5.61	4.65	2.88	0.32
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	297	56.57	0.34	17.17	4.04	3.70	4.71	2.36	4.71	3.03	1.35	1.68	0.34
17	Azərbaycan Turizm və Menecment Universiteti	620	45.65	1.94	12.10	7.74	4.68	5.16	4.52	7.10	3.06	2.42	5.65	0.00
18	Bakı Xoreoqrafiya Akademiyası	124	58.06	4.03	15.32	2.42	4.03	4.84	1.61	2.42	4.03	1.61	0.81	0.81
19	Azərbaycan İdman Akademiyası	1626	49.26	0.86	12.85	6.40	7.01	4.61	3.38	4.86	3.87	3.38	3.51	0.00
20	Milli Aviasiya Akademiyası	839	53.99	3.93	7.15	5.60	9.18	3.58	2.74	3.69	3.69	4.29	2.15	0.00
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	333	27.63	1.20	11.71	2.10	6.91	3.60	7.81	3.00	9.31	14.11	12.61	0.00
22	Bakı Ali Neft Məktəbi	444	49.77	2.48	13.06	8.11	4.95	2.93	1.80	9.23	4.28	2.03	1.35	0.00
23	Dövlət Gömrük Komitəsinin Akademiyası	140	42.14	4.29	12.14	7.86	8.57	4.29	2.86	7.14	3.57	7.14	0.00	0.00

Cədvəl 1.68 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qəbul olu-nub	ABİTURİYENTLƏRİN ZONALAR ÜZRƏ TƏRKİBİ, %-LƏ											
			Bakı	Nax.	Sum.	Min.	Gən.	Şəki	Göy.	İm.	Şir.	Lən.	Quba	Xar.
24	Naxçıvan Dövlət Universiteti	1664	8.05	74.28	3.00	3.61	3.49	1.68	1.02	1.38	1.56	1.44	0.48	0.00
25	Naxçıvan Müəllimlər İnstitutu	194	8.76	70.62	3.09	5.67	3.09	1.55	1.55	1.03	2.58	1.03	1.03	0.00
26	Azərbaycan Dövlət Aqrar Universiteti	1875	12.59	0.37	4.16	13.65	41.65	7.36	6.24	3.68	4.80	1.55	3.95	0.00
27	Gəncə Dövlət Universiteti	1399	5.79	1.07	3.43	24.80	53.32	2.07	2.36	4.29	1.50	0.43	0.93	0.00
28	Azərbaycan Texnologiya Universiteti	1156	18.77	1.21	5.02	22.15	27.68	4.15	4.84	7.61	4.58	1.90	2.08	0.00
29	Sumqayıt Dövlət Universiteti	1659	14.35	1.33	31.40	7.53	5.30	2.95	6.09	12.48	6.45	5.24	6.87	0.00
30	Mingəçevir Dövlət Universiteti	1425	5.61	1.12	2.39	44.56	7.30	9.68	16.21	6.04	4.14	1.33	1.61	0.00
31	Lənkəran Dövlət Universiteti	1588	10.01	0.82	4.79	3.27	1.13	0.76	1.32	5.86	15.11	56.05	0.88	0.00
32	Qarabağ Universiteti	1021	16.06	4.11	8.42	24.39	16.06	5.88	4.80	6.17	6.56	4.60	2.94	0.00
33	Türkiyə-Azərbaycan Universiteti	92	61.96	1.09	13.04	2.17	3.26	4.35	5.43	0.00	1.09	2.17	5.43	0.00
34	Azərbaycan İlahiyyat İnstitutu	77	25.97	0.00	14.29	5.19	3.90	18.18	12.99	1.30	7.79	7.79	2.60	0.00
35	Azərbaycan Kooperasiya Universiteti	1351	42.19	2.29	11.32	6.00	5.48	3.92	5.63	5.48	6.96	5.03	5.63	0.07
36	"Azərbaycan" Universiteti	1058	46.50	2.17	9.17	4.16	6.90	4.82	4.82	5.29	7.09	5.58	3.40	0.09
37	Qərbi Kaspi Universiteti	1320	54.47	1.14	9.17	5.83	4.92	3.79	2.88	4.17	5.23	3.94	4.47	0.00
38	Xəzər Universiteti	1438	49.72	1.18	11.13	3.62	4.59	8.14	5.29	2.85	4.52	4.03	4.87	0.07
39	Bakı Avrasiya Universiteti	1336	42.22	1.57	12.43	5.61	3.82	4.72	4.72	7.71	6.59	6.14	4.42	0.07
40	Bakı Qızlar Universiteti	378	32.54	0.26	8.99	4.50	8.47	5.03	6.61	5.03	14.02	7.67	6.88	0.00
41	Odlar Yurdu Universiteti	981	50.97	1.33	11.11	5.20	4.99	2.85	3.57	4.69	5.30	5.20	4.79	0.00
42	Bakı Biznes Universiteti	1144	32.60	3.41	12.59	5.33	4.63	5.59	6.21	6.73	8.04	7.60	7.17	0.09
43	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	341	32.84	2.05	13.20	5.87	6.16	4.99	6.16	7.92	7.33	5.87	7.62	0.00

İxtisarlar:

Bakı – Bakı şəhərinin rayonları

Nax. – Naxçıvan şəhəri, bölgələri

Sum. – Sumqayıt şəhəri, Abşeron, Xızı, Şamaxı, Qobustan bölgələri

Min. – Mingəçevir, Naftalan, Yevlax, Şuşa, Xocalı, Xocavənd, Goranboy, Kəlbəcər, Bərdə, Ağcabədi, Ağdam, Tərtər bölgələri

Gən. – Gəncə şəhəri, Daşkəsən, Şəmkir, Göygöl, Samux, Gədəbəy, Qazax, Ağstafa, Tovuz bölgələri

Şəki – Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax, Oğuz bölgələri

Göy. – Göyçay, Ucar, Kürdəmir, Zərdab, Ağdaş, İsmayıllı, Ağsu bölgələri

İm. – İmişli, Cəbrayıl, Qubadlı, Füzuli, Beyləqan, Laçın, Zəngilan bölgələri

Şir. – Şirvan şəhəri, Hacıqabul, Sabirabad, Biləsuvar, Neftçala, Salyan, Saatlı bölgələri

Lən. – Lənkəran şəhəri, Astara, Lerik, Yardımlı, Cəlilabad, Masallı bölgələri

Quba – Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən bölgələri

Xar. – xarici dövlətlər

Son on üç ilin statistikası əsasında hər bir rayonun ayrı-ayrı fənlər üzrə ən qabaqcıl məktəbləri də müəyyənləşdirilib. Bunun üçün hər bir fənn üzrə abituriyentlərinin sayı 10-dan az olmayan məktəblər götürülüb. 6.25 və 6.26 saylı cədvəllərdə (bax: səh. 519-526) respublikanın rayonlarının hər bir fənn üzrə son on üç ildə stabil olaraq yaxşı nəticə göstərən məktəbləri təqdim edilib. Rayon və şəhər təhsil sektorları tərəfindən bu məktəblərin fəaliyyəti qiymətləndirilməli, onların qabaqcıl iş təcrübələri öyrənilib yayılmalıdır. Həmin məktəblərin məzunlarının yüksək nəticələr qazanması bəzən bütövlükdə pedaqoji kollektivlərin fəaliyyətindən çox, qabaqcıl iş təcrübəsi ilə seçilən bir neçə fənn müəlliminin, hətta bəzi hallarda bir müəllimin əməyi nəticəsində başa gəlir. Belə müəllimlərin fəaliyyəti öyrənilməlidir. Onların ictimaiyyətə tanıdılması, əməyinin layiqincə qiymətləndirilməsi digər müəllimlərin də dərslərə yaradıcı yanaşmasına səbəb olar ki, bu da nəticə etibarilə məktəblərdə təhsilin səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərər.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində ümumtəhsil müəssisələri məzunlarının intellektual baxımdan daha hazırlıqlı hissəsi iştirak edir və onlar hər bir tələbə yeri uğrunda yüksək müsabiqədən keçməli olurlar. Qəbul imtahanları həm də gənclərin intellektinin formalaşmasında mühüm rol oynayan məktəb müəllimlərinin, bütövlükdə isə abituriyentlərin təmsil olunduğu bölgələrin pedaqoji ictimaiyyətinin, bir növ, hesabatıdır. Abituriyentləri (cari və əvvəlki illərin məzunları) ən yüksək və ən zəif nəticə göstərən bölgələrin siyahısı 1.69 və 1.70 saylı cədvəllərdə təqdim edilir.

Respublikanın müxtəlif bölgələrindən olan abituriyentlərin ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri üzrə aparılan statistik araşdırmalar göstərir ki, İsmayıllı rayonu abituriyentlərinin ali təhsil müəssisələrinə qəbulolma faizi daha yüksəkdir (bax: 1.69 saylı cədvəl). O da qeyd edilməlidir ki, son illərdə Bakı, Naxçıvan, Sumqayıt şəhərlərindən, Abşeron, Qubadlı və Ordubad rayonlarından olan abituriyentlərin qəbulolma faizi yüksək olub.

Son illər qəbul imtahanlarında iştirak edən və qəbul olan abituriyentlərin arasında kənd rayonları abituriyentlərinin sayı artıb. Belə ki, 2011-ci ildə kənd rayonlarından olan abituriyentlərin sayı imtahanda iştirak edən abituriyentlər içərisində 52.76%, qəbul olan abituriyentlər içərisində isə 45.59% idisə, artıq 2015-ci ildə bu rəqəmlər müvafiq olaraq 54.67% və 50.05%, 2016-cı ildə 55.51% və 52.13%, 2017-ci ildə 57.13% və 52.67%, 2018-ci ildə 58.18% və 54.15%, 2019-cu ildə 57.82% və 54.38%, 2020-ci ildə 59.64% və 56.84%, 2021-ci ildə 59.67% və 55.84%, 2022-ci ildə 58.62% və 54.96%, 2023-cü ildə 57.98% və 53.40%, 2024-cü ildə 57.86% və 53.26%, 2025-ci ildə isə 56.07% və 50.97% olmuşdur.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ABİTURİYENTLƏRİN QƏBULOLMA FAİZİNƏ GÖRƏ ƏN YÜKSƏK VƏ ƏN AŞAĞI NƏTİCƏ GÖSTƏRƏN BÖLGƏLƏR

ƏN YÜKSƏK NƏTİCƏ Cədvəl 1.69

№	B Ö L G Ə	Abit. sayı	Qəbul olub	Qəbul-olma faizi
1	İsmayıllı rayonu	835	394	47.19
2	Qubadlı rayonu	946	446	47.15
3	Sumqayıt şəhəri	5479	2577	47.03
4	Abşeron rayonu	5414	2476	45.73
5	Naxçıvan şəhəri	1547	693	44.80
6	Bakı şəhəri	41972	18715	44.59
7	Qəbələ rayonu	1262	562	44.53
8	Sədərək rayonu	152	67	44.08
9	Şəki rayonu	2096	921	43.94
10	Ordubad rayonu	418	182	43.54

ƏN AŞAĞI NƏTİCƏ Cədvəl 1.70

№	B Ö L G Ə	Abit. sayı	Qəbul olub	Qəbul-olma faizi
1	Saatlı rayonu	863	262	30.36
2	Quba rayonu	1974	592	29.99
3	Sabirabad rayonu	1514	454	29.99
4	Qusar rayonu	985	288	29.24
5	Samux rayonu	689	200	29.03
6	Göygöl rayonu	878	248	28.25
7	Lerik rayonu	461	128	27.77
8	Ağsu rayonu	701	185	26.39
9	Tərtər rayonu	778	201	25.84
10	Daşkəsən rayonu	188	42	22.34

Respublikanın böyük şəhərlərini təmsil edən abituriyentlərin (cari və əvvəlki illərin məzunları) ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri 1.71 saylı cədvəldə təqdim edilib. Abituriyentlərinin ali təhsil müəssisələrinə qəbulolma faizinə görə Sumqayıt şəhərinin nəticələri digər şəhərlərin göstəricilərindən yüksəkdir. İmtahanda iştirak edən hər 100 Sumqayıt məktəblisindən 47-si ali təhsil müəssisəsinə qəbul olub.

Bundan başqa, son illər Naxçıvan şəhəri də abituriyentlərinin ali təhsil müəssisələrinə qəbulolma faizinə görə fərqlənir. Cədvəldən göründüyü kimi, imtahanda iştirak edən hər 100 məktəblidən 44–45-i ali təhsil müəssisəsinə qəbul olub. Naxçıvan şəhərinin göstəricisinin bu dərəcədə yüksək olması daha çox bu şəhərin məktəblərini bitirən abituriyentlərin yerli ali təhsil müəssisələrinə üstünlük vermələri və bu ali təhsil müəssisələrinə istəyin digər regionlarda elə də yüksək olmadığından irəli gəlir. Əgər 1.68 saylı cədvələ nəzər salsaq, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olanların müvafiq olaraq 74.28 və 70.62%-ni Naxçıvan MR-in məktəblilərinin təşkil etdiyini görərik. Respublikanın qalan ali təhsil müəssisələrinə (Bakı Xoreoqrafiya Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyası və Qarabağ Universiteti istisna olmaqla) qəbul olan abituriyentlər arasında Naxçıvan MR-dən olan abituriyentlərin payı 4%-dən çox olmayıb.

Bakı şəhərinin abituriyentləri ənənəvi olaraq, qəbulolma göstəricisinə görə ən yaxşılardan olub və aşağıdakı cədvəldən də göründüyü kimi, imtahanda iştirak edən hər 100 Bakı məktəblisindən 44–45-i ali təhsil müəssisəsinə qəbul olub.

Ötən ilə nəzərən, bu il böyük şəhərləri təmsil edən abituriyentlər seçməsində ali təhsil müəssisələrinə qəbul olanların nisbi çəkisi, demək olar ki, eyni qalmışdır.

Cədvəl 1.71

RESPUBLİKANIN BÖYÜK ŞƏHƏRLƏRİNİ TƏMSİL EDƏN ABİTURİYENTLƏRİN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBULOLMA GÖSTƏRİCİLƏRİ

№	Ş Ə H Ə R	Abituriyentlərin sayı			Qəbul olub			Qəbulolma faizi		
		Cəmi	Oğlan	Qız	Cəmi	Oğlan	Qız	Cəmi	Oğlan	Qız
1	Sumqayıt	5479	2759	2720	2577	1221	1356	47.03	44.26	49.85
2	Naxçıvan	1547	745	802	693	292	401	44.80	39.19	50.00
3	Bakı	41972	20739	21233	18715	8568	10147	44.59	41.31	47.79
4	Mingəçevir	1481	673	808	623	276	347	42.07	41.01	42.95
5	Gəncə	4689	2203	2486	1758	771	987	37.49	35.00	39.70

Rayon təhsil sektorları üçün maraqlı olacağı nəzərə alınaraq, tam orta məktəbi 2025-ci ildə bitirmiş abituriyentlərin ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri haqqında məlumat 1.72 saylı cədvəldə təqdim olunur. Cədvəldən göründüyü kimi, Elm və Təhsil Nazirliyinin tabeliyində olan liseylər respublikanın digər ümumtəhsil müəssisələri ilə müqayisədə ənənəvi olaraq üstünlüyə malikdir. Qəbul imtahanlarında iştirak edən Elm və Təhsil Nazirliyinin tabeliyində olan liseylərin və özəl liseylərin abituriyentlərinin 56.08%-i ali təhsil müəssisələrinə qəbul olub. Həm respublika üzrə, həm də respublikanın bölgələri içərisində bu göstərici üzrə ən yüksək nəticə Ordubad rayonunun məzunlarına məxsusdur. Bu il Ordubad rayonunun imtahanda iştirak edən hər 100 məzunundan 57-58 nəfəri ali təhsil müəssisələrinə qəbul olmuşdur.

1.72 saylı cədvəldə ali təhsil müəssisələrinə qəbul olan builki məzunların onların ümumi sayına nəzərən faizi də təqdim edilib. Bu göstərici üzrə cari ildə Naxçıvan şəhərinin, Ordubad, Qubadlı rayonlarının, Sumqayıt şəhərinin, Şahbuz rayonunun ümumtəhsil müəssisələri respublikanın digər bölgələrini təmsil edən məktəblərlə müqayisədə çox böyük üstünlüyə malikdir. Məktəbi 2025-ci ildə bitirən hər 100 nəfər məzundan Naxçıvan şəhəri üzrə 54-55-i, Ordubad rayonu üzrə 53-54-ü, Şahbuz rayonu üzrə 58–59-u, Qubadlı rayonu və Sumqayıt şəhəri üzrə 52–53-ü ali təhsil müəssisələrinə qəbul olmuşdur. Qeyd etmək lazımdır ki, böyük şəhərlərin ümumtəhsil müəssisələrinə nəzərən bölgə məktəblərinin nisbətən az sayda məzununun ali təhsil müəssisələrinə sənəd verməsi səbəbindən bölgə məzunlarının bütövlükdə qəbulolma faizi aşağı olub. Məsələn, Sabirabad rayonunun qəbul imtahanlarında iştirak edən məzunlarının ali təhsil müəssisələrinə qəbulolma faizi 35.39-a bərabərdir, lakin qəbul imtahanlarında məzunların yalnız 74.43%-i iştirak etdiyindən bütövlükdə rayon məzunlarının ali təhsil müəssisələrinə qəbulolma faizi cəmi 26.34% olub.

Cədvəl 1.72

2025-Cİ İL MƏZUNLARININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBULOLMA GÖSTƏRİCİLƏRİ

№	TƏHSİL SEKTORU	Məzunların sayı*	Abituriyentlər		Qəbul olan abituriyentlər		
			sayı	faizi (bölgənin məzunlarının sayına görə)	sayı	faizi (bölgənin abituriyentlərinin sayına görə)	faizi (bölgənin məzunlarının sayına görə)
1	Naxçıvan şəhəri	1140	1124	98.60	622	55.34	54.56
2	Ordubad rayonu	320	301	94.06	172	57.14	53.75
3	Qubadlı rayonu	788	760	96.45	415	54.61	52.66
4	Sumqayıt şəhəri	4541	4326	95.27	2373	54.85	52.26
5	Şahbuz rayonu	152	145	95.39	76	52.41	50.00
6	Naftalan şəhəri	111	106	95.50	55	51.89	49.55
7	Cəbrayıl rayonu	662	622	93.96	322	51.77	48.64
8	İsmayıllı rayonu	767	683	89.05	370	54.17	48.24
9	Bakı şəhəri	33272	31337	94.18	15876	50.66	47.72
10	Abşeron rayonu	4791	4505	94.03	2278	50.57	47.55
11	Culfa rayonu	461	420	91.11	217	51.67	47.07
12	Mingəçevir şəhəri	1200	1151	95.92	555	48.22	46.25
13	Laçın rayonu	1052	940	89.35	482	51.28	45.82
14	Xocavənd rayonu	131	125	95.42	59	47.20	45.04
15	Qax rayonu	451 (400)	378	83.81 (94.50)	180	47.62	39.91 (45.00)
16	Liseylər (ETN tabeli və özəl)	3794	2960	78.02	1660	56.08	43.75
17	Şuşa rayonu	225	205	91.11	98	47.80	43.56
18	Zəngilan rayonu	478	435	91.00	208	47.82	43.51
19	Kəlbəcər rayonu	1112	987	88.76	483	48.94	43.44
20	Şəki rayonu	1878	1616	86.05	809	50.06	43.08
21	Oğuz rayonu	388	363	93.56	167	46.01	43.04
22	Qəbələ rayonu	1216	1045	85.94	520	49.76	42.76
23	Sədərək rayonu	142	114	80.28	59	51.75	41.55
24	Gəncə şəhəri	3612	3377	93.49	1500	44.42	41.53
25	Şərur rayonu	682	647	94.87	283	43.74	41.50
26	Babək rayonu	702	661	94.16	281	42.51	40.03
27	Neftçala rayonu	643	549	85.38	249	45.36	38.72
28	Xızı rayonu	145	131	90.34	56	42.75	38.62
29	Ağdam rayonu	1698	1510	88.93	651	43.11	38.34
30	Şirvan şəhəri	797	702	88.08	303	43.16	38.02
31	Balakən rayonu	713 (702)	607	85.13 (86.47)	265	43.66	37.17 (37.75)
32	Qazax rayonu	896	824	91.96	332	40.29	37.05
33	Göyçay rayonu	1129	923	81.75	416	45.07	36.85
34	Kəngərli rayonu	239	205	85.77	88	42.93	36.82
35	Bərdə rayonu	1519	1310	86.24	550	41.98	36.21
36	Füzuli rayonu	1106	981	88.70	400	40.77	36.17
37	Zərdab rayonu	420	395	94.05	151	38.23	35.95
38	Hacıqabul rayonu	612	521	85.13	217	41.65	35.46
39	Qobustan rayonu	325	289	88.92	115	39.79	35.38
40	Şabran rayonu	640	500	78.13	226	45.20	35.31
41	Salyan rayonu	1428	1130	79.13	496	43.89	34.73
42	Zaqatala rayonu	1137 (1114)	862	75.81 (77.38)	385	44.66	33.86 (34.56)
43	Lənkəran rayonu	2143	1796	83.81	740	41.20	34.53
44	Siyəzən rayonu	461	394	85.47	159	40.36	34.49

*Mötərizədə gürcü bölməsinin şagirdləri nəzərə alınmadan hesablanmış göstəricilər təqdim edilmişdir.

Cədvəl 1.72 (ardı)


№	TƏHSİL SEKTORU	Məzunların sayı*	Abituriyentlər		Qəbul olan abituriyentlər		
			sayı	faizi (bölgənin məzunlarının sayına görə)	sayı	faizi (bölgənin abituriyentlərinin sayına görə)	faizi (bölgənin məzunlarının sayına görə)
45	Tovuz rayonu	1721	1496	86.93	593	39.64	34.46
46	Ağstafa rayonu	813	734	90.28	275	37.47	33.83
47	Şamaxı rayonu	866	786	90.76	293	37.28	33.83
48	İmişli rayonu	1212	951	78.47	399	41.96	32.92
49	Beyləqan rayonu	890	771	86.63	288	37.35	32.36
50	Masallı rayonu	1800	1452	80.67	579	39.88	32.17
51	Lerik rayonu	371	334	90.03	119	35.63	32.08
52	Yardımlı rayonu	438	335	76.48	138	41.19	31.51
53	Goranboy rayonu	1080	941	87.13	339	36.03	31.39
54	Ağdaş rayonu	930	804	86.45	288	35.82	30.97
55	Gədəbəy rayonu	640	493	77.03	198	40.16	30.94
56	Biləsuvar rayonu	960	852	88.75	296	34.74	30.83
57	Samux rayonu	587	503	85.69	180	35.79	30.66
58	Ucar rayonu	694	581	83.72	211	36.32	30.40
59	Ağcabədi rayonu	1526	1226	80.34	461	37.60	30.21
60	Quba rayonu	1578	1353	85.74	474	35.03	30.04
61	Kürdəmir rayonu	1090	806	73.94	327	40.57	30.00
62	Göygöl rayonu	754	672	89.12	226	33.63	29.97
63	Şəmkir rayonu	2388	1932	80.90	710	36.75	29.73
64	Yevlax rayonu	1044	862	82.57	310	35.96	29.69
65	Astara rayonu	1062	853	80.32	308	36.11	29.00
66	Qusar rayonu	930	753	80.97	260	34.53	27.96
67	Xaçmaz rayonu	2004	1553	77.50	558	35.93	27.84
68	Cəlilabad rayonu	1961	1502	76.59	536	35.69	27.33
69	Saatlı rayonu	895	701	78.32	242	34.52	27.04
70	Ağsu rayonu	593	519	87.52	160	30.83	26.98
71	Sabirabad rayonu	1568	1167	74.43	413	35.39	26.34
72	Tərtər rayonu	706	578	81.87	183	31.66	25.92
73	Xocalı rayonu	79	63	79.75	19	30.16	24.05
74	Daşkəsən rayonu	168	120	71.43	35	29.17	20.83
75	İdman liseyləri	60	51	85.00	9	17.65	15.00
CƏMİ		**111527 (111442)**	**98706**	**86.37 (86.55)**	**45346**	**42.30**	**36.76 (36.84)**

Böyük şəhərlərdən və kənd rayonlarından olan abituriyentlərin istəklərində oxşar cəhətlər olsa da, bilikləri fərqlidir. Bu fərq özünü ən çox ingilis dili fənninə verilən cavablarda göstərir.

Respublikanın böyük şəhərlərindən və kənd rayonlarından olan abituriyentlərin ayrı-ayrı ixtisas qruplarına meyilləri və fənlər üzrə test suallarına cavabvermə göstəricilərinin hər biri ayrılıqda araşdırılıb. Nəticələrə əsasən, hər iki kontingentin ixtisas qruplarına olan istək və meyilləri arasında fərq, demək olar ki, yox dərəcəsindədir. Həm böyük şəhərlərin, həm də kənd rayonlarının oğlan abituriyentləri riyaziyyat və mühəndislik ixtisasları qrupuna, qız abituriyentləri isə humanitar və pedaqoji ixtisaslar qrupuna daha çox

*Mötərizədə gürcü bölməsinin şagirdləri nəzərə alınmadan hesablanmış göstəricilər təqdim edilmişdir.

üstünlük verirlər. Lakin bu iki kontingentdən olan abituriyentlərin imtahan fənləri üzrə test tapşırıqlarına cavablarında ciddi fərq vardır. Böyük şəhərlərdən olan abituriyentlərin hazırlıq səviyyəsi kənd rayonlarından olan abituriyentlərin hazırlıq səviyyəsindən yüksəkdir. Bu üstünlük özünü, ənənəvi olaraq, daha çox ingilis dili fənni üzrə hazırlıq səviyyəsində göstərir. Bu müqayisənin əyani olması üçün aşağıdakı diaqramları (şəkil 1.24) təqdim edirik. Diaqramdan da aydın görünür ki, şəhərlərdən olan abituriyentlərin səviyyəsi bütün fənlər üzrə yüksəkdir. Bu, şübhəsiz, şəhər məktəblərinin maddi-texniki bazasının, təlim-tədris texnologiyasının, informasiya təminatının kənd məktəbləri ilə müqayisədə xeyli üstün olması və digər obyektiv amillərlə bağlıdır. Bununla belə, son illər dövlət xətti ilə, həmçinin Heydər Əliyev Fondu tərəfindən respublikanın müxtəlif bölgələrində, əsasən də kənd rayonlarında müasir standartlara cavab verən məktəblərin inşa edilməsi, onların maddi-texniki bazasının və müəllim potensialının gücləndirilməsi şəhər və rayon abituriyentlərinin bilikləri arasındakı fərqin azalmasına səbəb olur.



Şəkil 1.24

Məcburi köçkün ailələrindən olan abituriyentlərin imtahan nəticələri ilbəil yaxşılaşır.
Onların təhsil problemlərinin həlli diqqət mərkəzindədir.

Dövlət İmtahan Mərkəzi məcburi köçkün ailələrindən olan abituriyentlərin qəbul imtahanlarına hazırlığına kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Hər il onlarla görüşlər təşkil olunur, peşəyönlü söhbətlər aparılır, onları imtahanların texnologiyası ilə tanış etmək məqsədi ilə pulsuz sınaq imtahanları keçirilir. Onlara dərsliklər, dərs vəsaitləri, "Abituriyent" jurnalları, həmçinin imtahanlarda istifadə olunmuş test kitabçaları hədiyyə olunur. Bütün bunlar və digər amillər məcburi köçkün və qaçqın ailəsindən olan abituriyentlərin təhsillərini davam etdirmək istəklərinə, imtahan göstəricilərinə müsbət təsir göstərir. Bu il ali təhsil müəssisələrinə sənəd verən 16511 (14259 abituriyent və 2252 subbakalavr) məcburi köçkün və qaçqın ailələrindən olan şagirdlərin və abituriyentlərin 6345-i (5637 abituriyent və 708 subbakalavr) tələbə adı qazanıb.

1.1. Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulu

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq gənclərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində həm dövlət sifarişi, həm də ödənişli əsaslarla təhsil alması üçün qəbul aparılır. Dövlət sifarişi əsasında təhsil adambaşına maliyyələşdirmə prinsipi ilə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslar üzrə mütəxəssis hazırlığını dövlət sifarişinə əsasən yerinə yetirən təhsil müəssisələrinə maliyyə vəsaitləri tələbələrin sayından asılı olaraq ayrılır.


Ali təhsildə adambaşına maliyyələşdirmə mexanizmi dünyanın inkişaf etmiş ölkələrində tətbiq olunan mütərəqqi metodlardandır. Belə bir mexanizmin tətbiqi ali təhsildə keyfiyyətin yüksəlməsinə, ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında təhsil alan tələbə uğrunda rəqabətin yaranmasına xidmət edir.

Tətbiq olunan qaydaya əsasən mülkiyyət formasından asılı olmayaraq qanunvericiliyə uyğun fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır. Qeyd etmək lazımdır ki, qəbul imtahanında yüksək nəticə əldə edərək dövlət sifarişi əsasında dövlət, yaxud özəl ali təhsil müəssisəsinə qəbul olan abituriyentin təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında 27955 (əlavə olaraq, 165 yer müsabiqədənkənar) tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 53.01%-i I qrupun (yerlərin 60.21%-i RK altqrupunun, 39.79%-i Rİ altqrupunun), 14.72%-i II qrupun, 14.65%-i III qrupun (yerlərin 95.48%-i DT altqrupunun, 4.52%-i TC altqrupunun), 12.28%-i IV qrupun, 5.33%-i V qrupun payına düşürdü. Ötən illə müqayisədə cari ildə dövlət hesabına tələbə qəbuluna ayrılan yerlərin sayı 2.49% (678 yer), ümumi qəbul planındakı payı isə 46.69%-dən 47.02%-dək artmışdır.

Ayrılmış yerlərin sayındakı dəyişiklik ixtisas qrupları üzrə müxtəlif olmuşdur. Cari ildə I, IV qruplara daxil olan ixtisaslar üçün ayrılan yerlər müvafiq olaraq 5.05, 13.30% artmış, II, III və V qruplarda isə müvafiq olaraq 5.70, 4.03 və 1.13% azalmışdır.

Ümumiyyətlə, son yeddi ildə dövlət sifarişi üzrə ayrılan plan yerlərində artım müşahidə olunub. Belə ki, 2019-cu illə müqayisədə 2025-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin sayı 41.59% (8211 yer) artmışdır (1.1.1 saylı şəklə bax).



Şəkil 1.1.1

2019-cu illə müqayisədə 2024-cü ildə hər 100 məzuna düşən dövlət sifarişli plan yerlərinin sayı da artmışdır. 2019-cu ildə hər 100 məzuna 24-25 dövlət sifarişli yer düşürdüsə, 2025-ci ildə bu göstərici 25-26-ya bərabər olmuşdur. 2024-cü ildə 27 olduğunu nəzərə alsaq, cari il bu göstəricinin azaldığını görərik.

Bu il 33 mülki dövlət və 10 özəl ali təhsil müəssisəsi dövlət sifarişinin yerinə yetirilməsində iştirak etmişdir. Ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında ən çox mütəxəssis hazırlamaq imkanına Bakı Dövlət Universiteti (5158 yer), Azərbaycan Dövlət İqtisad Universiteti (3780 yer), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (3580 yer) və Azərbaycan Dövlət Pedaqoji Universiteti (3246 yer) malik olmuşdur.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqə Azərbaycan və rus bölmələri ilə birgə aparılmışdır. Nəticədə, Azərbaycan bölməsindən 94118, rus bölməsindən isə 10640 abituriyent bu yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdı. Ümumilikdə isə dövlət sifarişi ilə qəbul aparılan yerlərin müsabiqəsində 104758 abituriyent və 19420 subbakalavr iştirak etmək hüququ qazanmışdı. Abituriyentlərin 17.22%-i (18044 nəfər) I qrupun (onlardan 65.54%-i (11826 nəfər) RK altqrupunun, 37.96%-i (6849 nəfər) Rİ altqrupunun), 7.03%-i (7367 nəfər) II qrupun, 19.29%-i (20213 nəfər) III qrupun (onlardan 98.92%-i (19995 nəfər) DT altqrupunun, 24.15%-i (4882 nəfər) TC altqrupunun), 5.17%-i (5420 nəfər) IV qrupun, 99.98%-i (104738 nəfər) V qrupun, subbakalavrların 38.16%-i (7410 nəfər) I qrupun, 35.57%-i (6907 nəfər) II qrupun, 16.16%-i (3138 nəfər) III qrupun, 12.98%-i (2521 nəfər) IV qrupun, 2.44%-i (473 nəfər) V qrupun payına düşüb.

V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması daha çox cari ilin məzunları ilə bağlıdır. Bildiyimiz kimi, cari ilin məzunları V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak ediblər. Həmçinin cari ilin məzunları ali təhsil müəssisələrinə qəbul kampaniyasında ilk dəfə iştirak etdikləri üçün onların iştirakı dövlət büdcəsi tərəfindən maliyyələşdirilmişdir. Lakin faktiki olaraq onların bir çoxunun bu qrupa aid olan ixtisaslara marağı çox az olub. Belə ki, müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlərin 99.98%-i V ixtisas qrupunun payına düşsə də, belələri ixtisas seçimində iştirak edən abituriyentlər arasında cəmi 24.56% təşkil etmişdir.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlərin 45647-sı (43.57%), subbakalavrlardan isə 11873-ü (61.14%) öz ərizələrində bu yerləri qeyd etmişdi. Ötən illə müqayisədə abituriyentlər arasında müsabiqə iştirakçılarının sayı 1.74% az olmuş, onların 90.39%-i (41260 nəfər) Azərbaycan, 9.61%-i (4387 nəfər) isə rus bölməsini təmsil etmişdir. Azərbaycan bölməsində abituriyentlərin 34.60%-i I qrupun (onlardan 62.06%-i RK, 40.41%-i Rİ altqrupunun), 13.02%-i II qrupun, 22.05%-i III qrupun (onlardan 96.82%-i DT, 13.48%-i TC altqrupunun), 8.87%-i IV qrupun, 23.75%-i isə V qrupun dövlət sifarişli yerlərini öz ərizələrində qeyd etmişdi. Rus bölməsində bu göstəricilər, müvafiq olaraq, 30.89% (onlardan 59.19%-i RK, 43.17%-i Rİ), 10.94%, 17.35% (onlardan 92.38%-i DT, 29.57%-i TC), 12.13% və 32.21%-dir. Ən yüksək müsabiqə vəziyyəti V qrupda (1 yerə 6.7 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə IV qrupda (1 yerə 0.9 ərizə) müşahidə edilmişdir.

Təhlil göstərir ki, ödənişli ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 99.99%-i dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdır. Qeyd edək ki, cari ildə dövlət sifarişli və ödənişli yerlər üçün müsabiqə şərtləri eyni olmuşdur. Bu göstərici I, IV və V qruplar üzrə 100%, II qrup üzrə 57.99%, III qrup üzrə isə 82.29% təşkil etmişdir. Qeyd edək ki, cari ildə dövlət sifarişli və ödənişli yerlər üzrə müsabiqə şərtləri eyni olmuşdur. Amma II və III qruplar üzrə dövlət sifarişli və ödənişli yerlər üzrə müsabiqə şərtlərinin eyni olmasına baxmayaraq, göstəricilərin 100%-dən az olmasının səbəbi bəzi ixtisasların ödənişli yerləri üzrə müsabiqə şərtlərinin müsabiqəyə buraxılmaq üçün qoyulan ümumi şərtlərdən aşağı (bu ixtisasların ödənişli yerləri üzrə müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal 150 olub) olması ilə əlaqədardır. I və IV ixtisas qruplarında da bəzi ixtisasların müsabiqəsində iştirak üçün tələb olunan minimal bal 150 olub, lakin bu müsabiqə şərti həm də həmin ixtisasların dövlət sifarişi üzrə ayrılan yerlərinə də şamil olunmuşdur. Bu hesabla, əlavə olaraq I qrupda 4725 nəfərin, IV qrupda isə 870 nəfərin təkcə bu ixtisasların dövlət sifarişli yerlərinin müsabiqəsində iştirak etmək hüququ olmuşdur. Əgər bu abituriyentlər nəzərə alınmasaydı, o zaman təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin I qrup üzrə yalnız 73.81%-nin, IV qrup üzrə 93.95%-nin, bütövlükdə isə 99.98%-nin dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ olardı.

Dövlət sifarişi əsasında qəbul aparılan yerlərin, bu yerlər uğrunda müsabiqədə iştirak etmək hüququ qazanan və iştirak edən abituriyentlərin ixtisas qrupları üzrə paylanması, eləcə də qruplarda yaranan müsabiqə vəziyyəti 1.1.1 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.1

DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ


№	İxtisas qrupu		Dövlət sifarişi	Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı			Müsabiqədə iştirak edən abituriyentlərin sayı			Müsabiqə vəziyyəti
				Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	
I	Riyaziyyat, fizika, mü-həndislik, memarlıq, aqrar ixtisasları	Bütövlükdə	14819[1]	16279	1765	18044	14277	1355	15632	0.965
		RK altqrupu	8922	10707	1119	11826	8860	802	9662	0.981
		Rİ altqrupu	5897	6139	710	6849	5769	585	6354	1.101
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları		4116[2]	6752	615	7367	5370	480	5850	1.429
III	Humanitar, pedaqogika ixtisasları	Bütövlükdə	4096[3]	18340	1873	20213	9096	761	9857	2.330
		DT altqrupu	3911	18170	1825	19995	8807	703	9510	2.316
		TC altqrupu	185	4175	707	4882	1226	225	1451	4.237
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları		3433[4]	4566	854	5420	3661	532	4193	0.913
V	İncəsənət, musiqi, idman ixtisasları		1491[5]	94104	10634	104738	9800	1413	11213	6.681
C Ə M İ			**27955**	**94118**	**10640**	**104758**	**41260**	**4387**	**45647**	**1.521**

1. Əlavə olaraq maksimum 730 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin, Lənkəran Dövlət Universitetinin və Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.
2. Əlavə olaraq maksimum 330 yer Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.
3. Əlavə olaraq maksimum 385 yer Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.
4. Əlavə olaraq maksimum 105 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin, Lənkəran Dövlət Universitetinin və Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.
5. Əlavə olaraq maksimum 145 yer Qarabağ Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Plan yerləri və müsabiqədə iştirak edən abituriyentlərin sayının 1992-2025-ci illər üzrə dinamikasının (şəkil 1.1.3) təhlili göstərir ki, 1996-cı ildən başlayaraq, dövlət hesabına maliyyələşən yerlər üzrə qəbul planı 2019-cu ilə kimi, demək olar ki, sabit qalıb. 2019-cu ildə isə dövlət hesabına maliyyələşən yerlərin sayında kəskin artım müşahidə olunur. 2020, 2021, 2022, 2023, 2024 və 2025-ci illərdə də bu tendensiya davam etmiş və ötən illərlə müqayisədə dövlət hesabına maliyyələşən yerlərin sayı artmışdır.

Müsabiqə iştirakçılarının sayında illər ərzində böyük dəyişikliklər baş verib. Bu dəyişikliklər bir tərəfdən məktəb məzunlarının sayı və onların qəbul imtahanlarında nümayiş etdirdikləri bilik səviyyəsi ilə əlaqədardırsa, digər tərəfdən ayrı-ayrı illərdə DİM-in müsabiqə şərtlərində apardığı təkmilləşdirmələrlə bağlıdır. Test üsulu ilə qəbul aparılan ilk illərdə dəyişikliklər daha çox olub. Ən ciddi dəyişiklik 2002 və 2010-cu illərə təsadüf etmişdir ki, bu da 2002-ci ildə respublikada məktəb məzunlarının sayının kəskin şəkildə azalması, 2010-cu ildə isə ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi ilə əlaqədardır.

1992 – 2025-ci İLLƏRDƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ DİNAMİKASI (DÖVLƏT HESABINA MALİYYƏLƏŞƏN YERLƏR* ÜZRƏ MÜSABİQƏ ŞƏRTLƏRİNİ ÖDƏYƏN ABİTURİYENTLƏR)



Şəkil 1.1.3

İxtisas qrupları üzrə builki qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyətinin ötən ilin müvafiq göstəriciləri ilə müqayisəsinin rəqəmlərlə ifadəsi 1.1.2 saylı cədvəldə təqdim edilir. Ötən illə müqayisədə cari ildə ərizələrin sayı 1.74% azalıb.

Ötən illə müqayisədə cari ildə dövlət büdcəsi vəsaiti hesabına maliyyələşən yerlərin sayının 2.49% artması və həmin yerlərə ərizə verənlərin sayının isə 1.74% azalması müsabiqə vəziyyətinin 0.65% azalmasına səbəb olmuşdur. Hər bir qrup üzrə ayrılıqda baxdıqda, müsabiqə vəziyyətinin II, III və V qruplarda artdığı, I və IV qruplarda azaldığı müşahidə olunur.

2025-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin müsabiqəsində iştirak etmək üçün 11873 subbakalavr ərizə verib. Onların 49.99%-i (5935 nəfər) I qrupa, 20.51%-i (2435 nəfər) II qrupa, 15.58%-i (1850 nəfər) III qrupa, 14.56%-i (1729 nəfər) IV qrupa, 3.38%-i (401 nəfər) isə V qrupa ərizə verib.

Cədvəl 1.1.2

2024-cü VƏ 2025-ci İLLƏR ÜZRƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRİN SAYI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ

İxtisas qrupu	Dövlət sifarişi (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2024	2025	fərq, %-lə	2024	2025	fərq, %-lə	2024	2025	fərq, %-lə
I	14106	14819	+5.05	16219	15632	-3.62	0.998	0.965	-3.31
II	4365	4116	-5.70	6081	5850	-3.80	1.310	1.429	+9.08
III	4268	4096	-4.03	10902	9857	-9.59	2.222	2.330	+4.86
IV	3030	3433	+13.30	3577	4193	+17.22	1.009	0.913	-9.51
V	1508	1491	-1.13	11172	11213	+0.37	6.465	6.681	+3.34
CƏMİ	**27277**	**27955**	**+2.49**	**46456**	**45647**	**-1.74**	**1.531**	**1.521**	**-0.65**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Builki qəbul imtahanlarının nəticələrinə əsasən ali təhsil müəssisələrinin dövlət sifarişi əsasında ayrılan 27955 plan yerinə 28006 nəfər qəbul olmuş, dövlət sifarişi 100.18% yerinə yetirilmişdir. Qəbul olanlardan

* 2010-cu ildən etibarən dövlət sifarişi əsasında ayrılan yerlər nəzərdə tutulur.

51 nəfəri Azərbaycan Dövlət Aqrar Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universitetivə Qarabağ Universiteti üçün nəzərdə tutulmuş əlavə yerlərə qəbul olmuşdur.

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planı, həmin ali təhsil müəssisələrinin ixtisaslarını seçən abituriyentlərin sayı və müsabiqə vəziyyəti haqqında məlumat 1.3.1 – 1.3.3 saylı cədvəllərdə təqdim olunur. Cədvəllərdən göründüyü kimi, ixtisas qrupları üzrə özəl ali təhsil müəssisələrinə ərizələrin sayı plan yerlərinin sayından çox olsa da, I və II qruplarda müsabiqə şəraitinin yaranma ehtimalı yoxdur. Çünki abituriyentlər bu təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı yerlərdə göstərmişdir. Xatırladaq ki, ehtimal olunan müsabiqənin hesablanması qaydasında abituriyentin seçdiyi ixtisasları öz ərizəsində hansı yerdə qeyd etməsi amili nəzərə alınır. Subbakalavrları da nəzərə alsaq, bütün ixtisas qruplarında müsabiqə şəraitinin olduğunu görərik.

Cari ildə ötən ildəki kimi özəl ali təhsil müəssisələrinin V qrup ixtisasları üzrə müsabiqə vəziyyəti yüksək olub (bir yerə 11-dən çox ərizə). Bunun səbəbi ötən ildə olduğu kimi V ixtisas qrupu üzrə özəl ali təhsil müəssisələrinin qəbul planında xüsusi qabiliyyət imtahanı tələb olunmayan ixtisasların mövcudluğu və bu ixtisaslar üzrə daxil olan ərizələrin sayının çoxluğu ilə bağlı olub. Belə ki, əgər 2024-cü ildə özəl ali təhsil müəssisələri üzrə yalnız Qərbi Kaspi Universitetinin ("Dizayn (qrafik dizayn, interyer dizayn)" ixtisasında xüsusi qabiliyyət imtahanı tələb olunmayıbsa, 2025-ci ildə həm Qərbi Kaspi Universitetinin "Dizayn (qrafik dizayn, interyer dizayn və sənaye dizaynı)", həm də Xəzər Universitetinin "Dizayn (qrafik dizayn, interyer dizayn və landşaft dizaynı)" ixtisaslarında xüsusi qabiliyyət imtahanı tələb olunmayıb. Bu ixtisaslar üzrə 110 plan yeri ayrılmışdı (V ixtisas qrupunda özəl ali təhsil müəssisələrinin ixtisasları üçün ayrılan ümumi plan yerlərinin 52.38%-i). V ixtisas qrupunda özəl ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak edənlərin 11.78%-i (976 nəfər) xüsusi qabiliyyət imtahanı tələb edən ixtisasları, 95.74%-i (7935 nəfər) isə xüsusi qabiliyyət imtahanı tələb olunmayan ixtisasları seçmişdir.

Dövlət ali təhsil müəssisələrində I və II ixtisas qruplarından müsabiqə şəraiti mövcud olmayıb. Subbakalavrları da nəzərə alsaq, dövlət ali təhsil müəssisələrində bütün ixtisas qrupları üzrə müsabiqə şəraitinin mövcud olduğunu görərik.

Dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (0.859) I, ən yüksək müsabiqə (3.119) isə V ixtisas qrupunda olub. Subbakalavrları da nəzərə alsaq, dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (1.242) I, ən yüksək müsabiqə (3.206) isə V ixtisas qrupunda olub.

Cədvəl 1.3.1

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	13615	860	3757	18232	690	0	1059	1749
	RK altqrupu	9525	510	2034	12069	320	0	354	674
	Rİ altqrupu	4090	350	1723	6163	370	0	705	1075
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	9138	590	1002	10730	2475	0	1615	4090
III	Humanitar, pedaqogika, beynəlxalq münasibətlər, regionşünaslıq ixtisasları	9520	1520	637	11677	2328	0	1365	3693
	DT altqrupu	8435	1245	527	10207	2088	0	1125	3213
	TC altqrupu	1085	275	110	1470	240	0	240	480
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3526	360	264	4150	90	0	485	575
V	İncəsənət, musiqi, idman ixtisasları	1818	217	2314	4349	0	0	210	210
CƏMİ		**37617**	**3547**	**7974**	**49138**	**5583**	**0**	**4734**	**10317**

Cədvəl 1.3.2

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri			Özəl ali təhsil müəssisələri		
		Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	14842	1480	16322	4570	670	5240
	RK altqrupu	9414	919	10333	2555	353	2908
	Rİ altqrupu	5812	601	6413	2038	320	2358
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	10625	968	11593	5208	652	5860
III	Humanitar, pedaqogika, beynəlxalq münasibətlər, regionşünaslıq ixtisasları	17816	2119	19935	12291	1319	13610
	DT altqrupu	16714	1926	18640	11701	1153	12854
	TC altqrupu	4217	959	5176	2663	598	3261
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3810	582	4392	1539	328	1867
V	İncəsənət, musiqi, idman ixtisasları	13694	2014	15708	6884	1404	8288
CƏMİ		**58159**	**6626**	**64785**	**29766**	**3991**	**33757**

Cədvəl 1.3.3

ƏRİZƏ QƏBULU MƏRHƏLƏSİNDƏ İXTİSAS QRUPLARI ÜZRƏ MÜSABİQƏ VƏZİYYƏTİ
(subbakalavrlar istisna olmaqla)

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	0.840	1.123	1.701	0.859	0.965	---	0.856	0.775
	RK altqrupu	0.802	1.167	1.427	0.795	1.327	---	1.099	1.074
	Rİ altqrupu	0.946	1.072	2.043	1.001	0.653	---	0.737	0.590
II	İqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya ixtisasları	0.964	1.175	2.344	0.990	0.609	---	0.760	0.539
III	Humanitar, pedaqogika, beynəlxalq münasibətlər, regionşünaslıq ixtisasları	1.580	1.216	3.031	1.501	1.847	---	2.365	1.624
	DT altqrupu	1.619	1.213	3.077	1.540	1.963	---	2.608	1.751
	TC altqrupu	1.852	1.840	3.331	1.800	1.791	---	1.981	1.521
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.964	1.354	3.501	1.007	0.691	---	1.194	1.034
V	İncəsənət, musiqi, idman ixtisasları	4.364	4.134	3.511	3.119	0.000	---	11.536	11.536
CƏMİ		**1.228**	**1.359**	**2.465**	**1.241**	**1.170**	**---**	**1.743**	**1.205**

İmtahanların nəticələrinə əsasən özəl ali təhsil müəssisələrinin plan yerlərinin dolma göstəricisi 91.34%-dir. Ayrı-ayrı ixtisas qruplarında plan yerlərinin dolma faizləri fərqlidir. Bu göstəricilər I qrupda 88.39%, II qrupda 87.73%, III qrupda 97.18%, IV qrupda 89.22%, V qrupda isə 89.52%-ə bərabərdir.

Dövlət ali təhsil müəssisələrinin plan yerlərinin dolma faizi ümumilikdə 92.42% olub. Ən yüksək göstərici III ixtisas qrupunda (98.27%), ən aşağı göstərici isə IV ixtisas qrupunda (83.61%) qeydə alınıb.

Özəl və dövlət ali təhsil müəssisələrinə qruplar və bölmələr üzrə qəbulolma göstəriciləri 1.3.4 və 1.3.5 saylı cədvəllərdə təqdim edilib.

Cədvəl 1.3.4

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	1749	1149 (988)	190 (148)	1339 (1136)	76.56
II	4090	1963 (269)	292 (15)	2255 (284)	55.13
III	3693	3491 (356)	98 (11)	3589 (367)	97.18
IV	575	419 (272)	94 (61)	513 (333)	89.22
V	210	130 (29)	58 (4)	188 (33)	89.52
CƏMİ	**10317**	**7152 (1914)**	**732 (239)**	**7884 (2153)**	**76.42**
	Subbakalavrlar				
I	1749	190 (54)	17 (1)	207 (55)	11.84
II	4090	1246 (0)	87 (0)	1333 (0)	32.59
III	3693	0 (0)	0 (0)	0 (0)	0.00
IV	575	0 (0)	0 (0)	0 (0)	0.00
V	210	0 (0)	0 (0)	0 (0)	0.00
CƏMİ	**10317**	**1436 (54)**	**104 (1)**	**1540 (55)**	**14.93**

Cədvəl 1.3.4 (ardı)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Bütövlükdə				
I	1749	1339 (1042)	207 (149)	1546 (1191)	88.39
II	4090	3209 (269)	379 (15)	3588 (284)	87.73
III	3693	3491 (356)	98 (11)	3589 (367)	97.18
IV	575	419 (272)	94 (61)	513 (333)	89.22
V	210	130 (29)	58 (4)	188 (33)	89.52
CƏMİ	**10317**	**8588 (1968)**	**836 (240)**	**9424 (2208)**	**91.34**

Cədvəl 1.3.5

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT


İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	18232	12894 (11064)	1177 (978)	14071 (12042)	77.18
II	10730	8432 (3643)	650 (294)	9082 (3937)	84.64
III	11677	9972 (3841)	1502 (203)	11474 (4044)	98.26
IV	4150	2840 (2377)	350 (286)	3190 (2663)	76.87
V	4349	3477 (1279)	526 (185)	4003 (1464)	92.04
CƏMİ	**49138**	**37615 (22204)**	**4205 (1946)**	**41820 (24150)**	**85.11**
	Subbakalavrlar				
I	18232	2144 (1385)	23 (10)	2167 (1395)	11.89
II	10730	1035 (1)	28 (0)	1063 (1)	9.91
III	11677	0 (0)	1 (0)	1 (0)	0.01
IV	4150	280 (208)	0 (0)	280 (208)	6.75
V	4349	76 (42)	5 (2)	81 (44)	1.86
CƏMİ	**49138**	**3535 (1636)**	**57 (12)**	**3592 (1648)**	**7.31**
	Bütövlükdə				
I	18232	15038 (12449)	1200 (988)	16238 (13437)	89.06
II	10730	9467 (3644)	678 (294)	10145 (3938)	94.55
III	11677	9972 (3841)	1503 (203)	11475 (4044)	98.27
IV	4150	3120 (2585)	350 (286)	3470 (2871)	83.61
V	4349	3553 (1321)	531 (187)	4084 (1508)	93.91
CƏMİ	**49138**	**41150 (23840)**	**4262 (1958)**	**45412 (25798)**	**92.42**

1.3.1 və 1.3.2 saylı şəkillərdə I–IV ixtisas qrupları üzrə özəl və dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramları təsvir olunub. Göründüyü kimi, dövlət ali təhsil müəssisələrinə qəbul olanların 22.91%-nin, özəl ali təhsil müəssisələrinə qəbul olanların isə cəmi 4.52%-nin balı 500-700 intervalında yerləşir. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların çoxunun (74.61%) imtahan nəticələri orta (300-500) və yüksək (500-700) bal diapazonlarında olduğu halda, özəl ali təhsil müəssisələrinə qəbul olanların (51.86%) nəticələri, əsasən, orta (150-200 və 200-300) bal diapazonunda yerləşir.

V ixtisas qrupu üzrə qəbul olan abituriyentlər arasında bir qədər fərqli mənzərə görürük. Belə ki, V ixtisas qrupu üzrə həm özəl, həm dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin çox hissəsi (müvafiq olaraq 71.43% və 75.17%) 100-200 diapazonunda bal toplayıb. Ən azı 150 bal toplayanların nisbi sayı dövlət ali təhsil müəssisələrinə qəbul olanlar arasında 43.88%, özəl ali təhsil müəssisələrinə qəbul olanlar arasında isə 72.38%-dir (bu göstəricinin özəl ali təhsil müəssisələri üzrə yuxarı olması, əsasən, yüksək nəticə göstərən abituriyentlərin Qərbi Kaspi Universitetinin və Xəzər Universitetinin xüsusi qabiliyyət imtahanı tələb olunmayan "Dizayn" ixtisaslarına qəbul olması ilə bağlıdır). Dövlət ali təhsil müəssisələrinə qəbul olanların 12.85%-i 100 baldan aşağı nəticə göstərib. Özəl ali təhsil müəssisələrinə qəbul olanlardan 100 baldan aşağı nəticə göstərən olmayıb. Bunun səbəbi, əsasən, özəl ali təhsil müəssisələrinin xüsusi qabiliyyət imtahanı tələb edən ixtisasları üzrə qəbul planının azalması (cari ildə Qərbi Kaspi Universiteti ilə yanaşı, Xəzər Universitetinin "Dizayn" ixtisasında da xüsusi qabiliyyət imtahanı tələb olunmayıb) nəticəsində bu ixtisaslar üzrə müsabiqə vəziyyətinin nisbətən yüksək olmasıdır və nəticədə daha hazırlıqlı abituriyentlər bu ixtisaslara


qəbul olmuşdular. Məsələn, ötən illə müqayisədə cari ildə Odlar Yurdu Universitetinin xüsusi qabiliyyət tələb edən "Dizayn" ixtisasına daha yüksək hazırlıqlı abituriyentlər qəbul olmuşlar. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların 0.39%-i 30-50 bal diapazonunda nəticə göstərmişdir. Bunun səbəbi isə V qrup üzrə yalnız Bakı Xoreoqrafiya Akademiyasının "Xoreoqrafiya sənəti" ixtisası üzrə müsabiqə şərtinin 50 baldan aşağı olmasıdır (minimal bal 30 bal olmuşdur). Digər ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal 60 olub (1.3.3 və 1.3.4 saylı şəkillərə bax).

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)




Şəkil 1.3.1

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)




Şəkil 1.3.2

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.3

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)




Şəkil 1.3.4

Abituriyentlərin imtahan fənlərinə cavablarının təhlili göstərir ki, özəl ali təhsil müəssisələrinə qəbul olanların göstəriciləri dövlət ali təhsil müəssisələrinə qəbul olanların göstəricilərindən aşağıdır. Belə nəticə göstərənlər sonradan birinci kursun tədris proqramını mənimsəməkdə çətinlik çəkirlər. Ona görə də özəl ali təhsil müəssisələrinin birinci kurs tələbələri üçün genişləndirilmiş tədris proqramları hazırlanmalı və həmin proqramlar tədrisin intensivləşdirilməsi hesabına həyata keçirilməlidir.

Dövlət və özəl ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin bilikləri arasındakı fərqin əyani müqayisəsi üçün 1.3.5 və 1.3.6 saylı şəkillər təqdim edilir. Şəkildəki diaqramlardan göründüyü kimi, həm Azərbaycan bölməsində, həm də rus bölməsində bütün fənlər üzrə üstünlük dövlət ali təhsil müəssisələrinə qəbul olan gənclərin tərəfindədir.

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)


AZƏRBAYCAN BÖLMƏSİ



Şəkil 1.3.5

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

RUS BÖLMƏSİ



Şəkil 1.3.6

1.4. Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu

Dövlət İmtahan Mərkəzi 2025-ci il mayın 25-də və iyulun 6-da Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinə, iyunun 1-də və iyulun 13-də Polis Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyası, H.Əliyev adına Hərbi İnstitut, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, iyunun 1-də və iyulun 13-də Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universitetinə test üsulu ilə qəbul imtahanı keçirib. C.Naxçıvanski adına Hərbi liseyə, H.Əliyev adına Hərbi liseyə sənəd verənlər ayrıca qəbul imtahanı vermədən müsabiqədə 9-cu siniflərin buraxılış imtahanında topladıqları bal əsasında, Naxçıvan MR Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə və Orta Hərbi Tibb Məktəbinə sənəd verənlər isə 11-ci sinif buraxılış imtahanında topladıqları bal əsasında iştirak ediblər. Hərbi Kolleclərə (Naxçıvan Hərbi Kolleci və Bakı Hərbi Kollecinə) sənəd verən cari ilin məzunları müsabiqədə 11-ci sinif buraxılış imtahanında, digər abituriyentlər isə aprelin 6-da keçirilən qəbul imtahanında topladıqları bal əsasında iştirak ediblər.

H.Əliyev adına Hərbi İnstituta və hərbi liseylərə qəbul ixtisaslar üzrə deyil, ümumiləşmiş şəkildə, Orta İxtisas Polis Məktəbinə "Hüquq mühafizə fəaliyyəti", Orta Hərbi Tibb Məktəbinə "Feldşer", Polis Akademiyasına "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi", Daxili Qoşunların Hərbi İnstitutuna "İctimai təhlükəsizlik və idarəetmə", Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasına "Hüquqşünaslıq", "Dövlət təhlükəsizliyi və idarəetmə" və "İnformasiya təhlükəsizliyi", Fövqəladə Hallar Nazirliyinin Akademiyasına "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi", Dövlət Sərhəd Xidmətinin Akademiyasına I qrup ixtisasları, Azərbaycan Tibb Universitetinə "Hərbi tibb" və "Stomatologiya", Naxçıvan Dövlət Universitetinə "Hərbi tibb" ixtisasları üzrə aparılıb.

H.Əliyev adına Hərbi İnstitutun, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının, Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarında və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının və Polis Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında təhsil almaq istəyən abituriyentlər mülki ali təhsil müəssisələrinin I qrupunun, Daxili Qoşunların Hərbi İnstitutunda, Polis Akademiyasının "Hüquqşünaslıq" və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının digər ixtisaslarında təhsil almaq istəyənlər III qrupun, Azərbaycan Tibb Universitetində və Naxçıvan Dövlət Universitetində təhsil almaq istəyənlər IV qrupun abituriyentləri ilə birgə imtahan vermişdir.

Sənədlərin qəbulu xüsusi təyinatlı təhsil müəssisələrində aparılmış və abituriyentlər test imtahanından əvvəl həmin təhsil müəssisələrinin ixtisas-peşə tələblərinə uyğun xüsusi yoxlamalardan keçmişdir.

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin hamısı I mərhələdə tədris dili, riyaziyyat və xarici dil fənlərindən imtahan verib. II mərhələdə H.Əliyev adına Hərbi İnstitutun, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının, Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarına və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının və Polis Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasına sənəd verənlər riyaziyyat, fizika və kimya, Daxili Qoşunların Hərbi İnstitutuna, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının III qrup ixitsaslarına və Polis Akademiyasının "Hüquqşünaslıq" ixtisasına sənəd verənlər Azərbaycan dili, tarix və ədəbiyyat, Azərbaycan Tibb Universitetinə və Naxçıvan Dövlət Universitetinə sənəd verənlər fizika, kimya və biologiya fənlərindən imtahan vermişdir. Hərbi liseylərə, Orta Hərbi Tibb Məktəbinə və Orta İxtisas Polis Məktəbinə sənəd verənlər tədris dili, riyaziyyat və xarici dil fənlərindən test imtahanı vermişdir. Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərə, müsabiqə şərtlərini ödədikləri halda, imtahan verdikləri ixtisas qrupuna daxil olan mülki ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmək imkanı vermişdir.

Heydər Əliyev adına Hərbi İnstitut, Orta Hərbi Tibb Məktəbi, Orta İxtisas Polis Məktəbi və hərbi liseylərdə təhsil almaq istəyən abituriyentlər üçün test tapşırıqları yalnız Azərbaycan dilində, Daxili Qoşunların Ali Hərbi Məktəbində, Polis Akademiyasında, Dövlət Təhlükəsizlik Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin akademiyalarında, Azərbaycan Tibb Universitetində və Naxçıvan Dövlət Universitetində təhsil almaq istəyən abituriyentlər üçün isə Azərbaycan və rus dillərində təqdim olunmuşdur.

Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul Dövlət İmtahan Mərkəzinin təsdiq etdiyi ali təhsil müəssisələrinə, ümumi və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı proqramları əsasında aparılmışdır.

İmtahan nəticələrinin statistik təhlili nəticəsində abituriyentlərin ortastatistik portreti müəyyənləşdirilib.

Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinin ixtisasını seçən ortastatistik abituriyent tədris dilindən test tapşırıqlarının 78.96/67.93, ədəbiyyatdan 68.22, riyaziyyatdan 48.72, tarixdən 52.31, ingilis dilindən isə 63.90%-ni düzgün cavablandırıb.

Heydər Əliyev adına Hərbi İnstitut, Dövlət Sərhəd Xidmətinin Akademiyasının və Fövqəladə Hallar Nazirliyinin Akademiyasının ixtisaslarını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi tədris dilindən 58.84, riyaziyyatdan 40.29/30.14, fizikadan 28.74, kimyadan 21.70, ingilis dilindən 41.64 olub.

Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi tədris dilindən 77.07, riyaziyyatdan 76.22/57.01, fizikadan 58.28, informatikadan 52.35, ingilis dilindən 72.37 olub.

Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universitetinin ixtisaslarını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi tədris dilindən 84.59, riyaziyyatdan 85.06, fizikadan 68.44, kimyadan 67.99, biologiyadan 66.03, ingilis dilindən 81.72 olub.

Orta Hərbi Tibb Məktəbi və Orta İxtisas Polis Məktəbini seçən abituriyentlərin düzgün cavablarının faizi tədris dilindən 66.11, riyaziyyatdan 40.58, ingilis dilindən 50.23, hərbi liseylərin abituriyentlərinin düzgün cavablarının faizi isə tədris dilindən 63.81, riyaziyyatdan 40.55, ingilis dilindən 38.54 olub.

1.5 Bölgələr üzrə 2025-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili*

Burada ölkəmizin ayrı-ayrı bölgələrini təmsil edən məzunların imtahan nəticələrinin məktəb və rayon (şəhər) səviyyəsində elmi-statistik təhlili verilir. Bu təhlillər əsasında onların imtahan fənləri üzrə nəticələri, müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali məktəblərə qəbulolma göstəriciləri, habelə yüksək və zəif göstəricili məktəblər müəyyənləşdirilmişdir. Bu, ilk növbədə, hər bir təhsil sektoru və məktəbin öz nəticələri haqqında dolğun məlumat əldə etməsi məqsədinə xidmət edir.

Materiallarda hər bölgə üzrə məzunların buraxılış imtahanındakı göstəriciləri bölgənin tam seçməsi üzrə təqdim edilmişdir. Bölgənin məzunlarının qəbul imtahanlarında ümumi və fənlər üzrə ayrılıqda əldə etdikləri nəticələr olaraq onların I–IV qruplar üzrə keçirilən imtahanlarda topladıqları ballar götürülmüşdür. V qrup üzrə müsabiqə buraxılış imtahanının nəticəsi əsasında aparıldığı üçün bu qrup üzrə abituriyentlərin göstəriciləri ayrıca verilməmişdir.

Bakı şəhəri:

2025-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 33272 şagird bitirib və onların 33188 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (60.78) respublika üzrə orta göstəricidən 8.68%, riyaziyyat fənni üzrə topladıqları orta bal (36.09) respublika üzrə orta göstəricidən 9.22%, xarici dil fənni üzrə topladıqları orta bal (52.24) respublika üzrə orta göstəricidən 19.74%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (149.12) respublika üzrə orta göstəricidən 12.65% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 12.75%-i 30 və daha az, 46.78%-i 30 – 70 intervalında, 40.47%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 54.73%, 28.34% və 16.93%, xarici dil fənni üzrə isə 29.60%, 37.46% və 32.94% olmuşdur.

Ümumilikdə 33200 nəfər attestat alıb.

Attestat alanların 77.07%-i (25587 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 94.39%-i (31337 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Respublika üzrə rayonun (şəhərin) fərqlənən məktəblərini müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon və şəhər məktəblərinin məzunlarının I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal müvafiq olaraq 300 və 350 baldan az olmamalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalıdır.

Rayon (şəhər) üzrə fərqlənən məktəbləri müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon (şəhər) məktəblərinin məzunlarının I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı rayon (şəhər) üzrə orta göstəriciyə bərabər olmalıdır.

Hər il respublikada bütün fənlər üzrə ən yüksək nəticələri liseylərin məzunları əldə edirlər və onların nəticələri bölgələrin məzunlarının nəticələrindən kəskin şəkildə fərqlənir. Qeyd olunan hal respublikadakı real mənzərəni görməyə imkan vermir və bu səbəbdən fənlər üzrə respublikanın ən yüksək nəticə göstərən bölgələri haqqında məlumat müəyyən edilərkən ETN tabeli və özəl liseylərin göstəriciləri nəzərə alınmır.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 15876 məzunu (imtahanlarda iştirak edənlərin 50.66%-i) tələbə adını qazanıb. Onların 47.73%-i (7578 nəfəri) dövlət, 5.35%-i (850 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 32.91%-i (5225 nəfəri) dövlət, 14.00%-i (2223 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Şəhərin məzunlarının 3431 nəfəri 500-dən, o cümlədən 1062 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 7.22% (1847 nəfər), 100 – 200 intervalında 24.21% (6194 nəfər), 200 – 300 intervalında 22.55% (5771 nəfər), 300 – 500 intervalında 32.61% (8344 nəfər), 500-dən yuxarı 13.41% (3431 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 46.02%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.62%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 51.25%-dir.

Qəbul imtahanlarında 322 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin Humanitar fənlər təmayüllü məktəb-lisey, Texniki humanitar lisey, "Zəngi" liseyi, İ.Hacıyev adına "Tərəqqi" liseyi, 147 nömrəli texniki-humanitar təmayüllü lisey, 160 nömrəli klassik gimnaziya, 287 nömrəli "Zəkalar"' liseyi, 291 nömrəli Ekologiya liseyi, "Ankara Məktəbi" məktəb-liseyi, 62, 70, 220 və 261 nömrəli məktəb-liseyləri, 129, 254, 260, 263, 290, 313, 327 və 336 nömrəli tam orta məktəbləri daxil olub.

Azərbaycan bölməsi:

Tədris dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix, informatika və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 307.056-ya bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 4.2% yuxarıdır.

Rus bölməsi:

Şəhərin abituriyentlərinin göstəriciləri I – IV qruplarda tədris dili, ədəbiyyat, fizika, kimya, tarix, informatika və coğrafiya fənləri üzrə respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tədris dilindən – 1.49%, ədəbiyyatdan – 3.43%, fizikadan – 1.01%, kimyadan – 1.40%, tarixdən – 5.59%, informatikadan – 1.97%, coğrafiyadan – 0.76% təşkil edir.

Şəhərin riyaziyyat və biologiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Riyaziyyat və biologiya fənləri üzrə şəhərin göstəriciləri respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Abituriyentlərin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 282.344-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.5% aşağıdır.

Naxçıvan şəhəri:

2025-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 1140 şagird bitirib və onların 1136 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (64.74) respublika üzrə orta göstəricidən 15.75%, riyaziyyat fənni üzrə topladıqları orta bal (40.39) respublika üzrə orta göstəricidən 22.21%, xarici dil fənni üzrə topladıqları orta bal (53.24) respublika üzrə orta göstəricidən 22.02%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (158.37) respublika üzrə orta göstəricidən 19.64% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 12.50%-i 30 və daha az, 37.76%-i 30 – 70 intervalında, 49.74%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 50.62%, 27.20% və 22.18%, xarici dil fənni üzrə isə 28.43%, 35.65% və 35.92% olmuşdur.

Ümumilikdə 1140 nəfər attestat alıb.

Attestat alanların 90.18%-i (1028 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 98.60%-i (1124 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 98.60%-i (1124 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 622 məzunu (imtahanlarda iştirak edənlərin 55.34%-i) tələbə adını qazanıb. Onların 48.71%-i (303 nəfəri) dövlət, 0.96%-i (6 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 44.86%-i (279 nəfəri) dövlət, 5.47%-i (34 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Şəhərin abituriyentlərinin I – IV qruplarda ədəbiyyat, riyaziyyat, tarix və informatika fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan – 0.36%, riyaziyyatdan – 0.45%, tarixdən – 14.40%, informatikadan – 19.19% təşkil edir.

Tədris dili, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Kimya fənni üzrə şəhərin göstəricisi respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Şəhərin məzunlarının 170 nəfəri 500-dən, o cümlədən 49 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universitetinə qəbul olub.

Şəhərin abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 303.94-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 3.2% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 10.89% (112 nəfər), 100 – 200 intervalında 23.44% (241 nəfər), 200 – 300 intervalında 18.58% (191 nəfər), 300 – 500 intervalında 30.54% (314 nəfər), 500-dən yuxarı 16.54% (170 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 47.08%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.69%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 44.38%-dir.

Qəbul imtahanlarında 21 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin Naxçıvan şəhər qızlar liseyi, Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziya və Heydər Əliyev adına tam orta məktəb daxil olub.

Naxçıvan MR Babək rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 702 şagird bitirib və onların 700 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (55.25) respublika üzrə orta göstəricidən 1.22%, riyaziyyat fənni üzrə topladıqları orta bal (30.04) respublika üzrə orta göstəricidən 9.10%, xarici dil fənni üzrə topladıqları orta bal (36.28) respublika üzrə orta göstəricidən 16.84%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (121.57) respublika üzrə orta göstəricidən 8.16% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 22.57%-i 30 və daha az, 42.14%-i 30 – 70 intervalında, 35.29%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 63.29%, 26.86% və 9.86%, xarici dil fənni üzrə isə 48.71%, 40.86% və 10.43% olmuşdur.

Ümumilikdə 702 nəfər attestat alıb.

Attestat alanların 79.63%-i (559 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 94.16%-i (661 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 94.16%-i (661 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 281 məzunu (imtahanlarda iştirak edənlərin 42.51%-i) tələbə adını qazanıb. Onların 40.93%-i (115 nəfəri) dövlət, 0.36%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 51.25%-i (144 nəfəri) dövlət, 7.47%-i (21 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda tədris dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, tarix və informatika fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tədris dilindən – 6.17%, ədəbiyyatdan – 10.51%, riyaziyyatdan – 20.15%, fizikadan – 18.03%, kimyadan – 18.61%, tarixdən – 10.90%, informatikadan – 40.11% təşkil edir.

Coğrafiya fənni üzrə göstərici respublika üzrə orta göstəricidən yuxarıdır.

Rayonun məzunlarının 44 nəfəri 500-dən, o cümlədən 7 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 257.054-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 12.8% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 13.60% (76 nəfər), 100 – 200 intervalında 28.62% (160 nəfər), 200 – 300 intervalında 23.43% (131 nəfər), 300 – 500 intervalında 26.48% (148 nəfər), 500-dən yuxarı 7.87% (44 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 34.35%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 3.00%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 39.00%-dir.

Qəbul imtahanlarında 34 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Yuxarı Buzqov kənd və Nəcəfəli Dizə kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında V.Mahmudov adına Babək şəhər 1 nömrəli, Y.Sadiqov adına Yarımca kənd və E.Əliyev adına Çeşməbasar kənd tam orta məktəblərini qeyd etmək olar.

Naxçıvan MR Culfa rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 461 şagird bitirib və onların 459 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (58.04) respublika üzrə orta göstəricidən 3.76%, riyaziyyat fənni üzrə topladıqları orta bal (38.88) respublika üzrə orta göstəricidən 17.63% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (38.55) respublika üzrə orta göstəricidən 11.65% aşağı, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (135.46) respublika üzrə orta göstəricidən 2.33% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 20.04%-i 30 və daha az, 40.74%-i 30 – 70 intervalında, 39.22%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 47.93%, 34.64% və 17.43%, xarici dil fənni üzrə isə 47.06%, 38.13% və 14.81% olmuşdur.

Ümumilikdə 461 nəfər attestat alıb.

Attestat alanların 79.61%-i (367 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 91.11%-i (420 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 91.11%-i (420 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 217 məzunu (imtahanlarda iştirak edənlərin 51.67%-i) tələbə adını qazanıb. Onların 50.69%-i (110 nəfəri) dövlət, 2.30%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 42.86%-i (93 nəfəri) dövlət, 4.15%-i (9 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda fizika və informatika fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq fizikadan – 19.02%, informatikadan – 33.09% təşkil edir.

Tədris dili, ədəbiyyat, riyaziyyat, kimya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 40 nəfəri 500-dən, o cümlədən 11 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 293.811-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.3% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 7.36% (27 nəfər), 100 – 200 intervalında 27.52% (101 nəfər), 200 – 300 intervalında 20.44% (75 nəfər), 300 – 500 intervalında 33.79% (124 nəfər), 500-dən yuxarı 10.90% (40 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 44.69%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 2.15%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 37.63%-dir.

Qəbul imtahanlarında 24 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Gülüstan kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Əlincə kənd və Saltaq kənd tam orta məktəbləri daxil olub.

Naxçıvan MR Kəngərli rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 239 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (55.27) respublika üzrə orta göstəricidən 1.19%, riyaziyyat fənni üzrə topladıqları orta bal (28.95) respublika üzrə orta göstəricidən 12.42%, xarici dil fənni üzrə topladıqları orta bal (37.45) respublika üzrə orta göstəricidən 14.18%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (121.66) respublika üzrə orta göstəricidən 8.10% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 20.08%-i 30 və daha az, 49.37%-i 30 – 70 intervalında, 30.54%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 62.76%, 29.29% və 7.95%, xarici dil fənni üzrə isə 39.75%, 53.14% və 7.11% olmuşdur.

Ümumilikdə 239 nəfər attestat alıb.

Attestat alanların 70.71%-i (169 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 85.77%-i (205 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 85.77%-i (205 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 88 məzunu (imtahanlarda iştirak edənlərin 42.93%-i) tələbə adını qazanıb. Onların 36.36%-i (32 nəfəri) dövlət ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 61.36%-i (54 nəfəri) dövlət, 2.27%-i (2 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda tədris dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tədris dilindən – 16.08%, ədəbiyyatdan – 21.15%, riyaziyyatdan – 20.98%, fizikadan – 20.59%, kimyadan – 16.29%, tarixdən – 4.10% təşkil edir.

Coğrafiya fənni üzrə göstərici respublika üzrə orta göstəricidən yuxarıdır.

Rayonun məzunlarının 10 nəfəri 500-dən, o cümlədən 3 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 260.05-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 11.7% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 7.10% (12 nəfər), 100 – 200 intervalında 31.95% (54 nəfər), 200 – 300 intervalında 28.40% (48 nəfər), 300 – 500 intervalında 26.63% (45 nəfər), 500-dən yuxarı 5.92% (10 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 32.54%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 200 baldan aşağı nəticə göstərən yoxdur. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 58.82%-dir.

Qəbul imtahanlarında 12 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən R.Rəhimov adına Təzəkənd kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Qıvraq qəsəbə tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Ordubad rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 320 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal 65.25, riyaziyyat fənni üzrə topladıqları orta bal 37.62, xarici dil fənni üzrə topladıqları orta bal 44.17, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 147.05-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 16.67%, 13.85%, 1.24%, 11.09% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 10.00%-i 30 və daha az, 43.44%-i 30 – 70 intervalında, 46.56%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 52.81%, 28.75% və 18.44%, xarici dil fənni üzrə isə 37.81%, 43.13% və 19.06% olmuşdur.

Ümumilikdə 320 nəfər attestat alıb.

Attestat alanların 86.56%-i (277 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 94.06%-i (301 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 94.06%-i (301 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 172 məzunu (imtahanlarda iştirak edənlərin 57.14%-i) tələbə adını qazanıb. Onların 47.09%-i (81 nəfəri) dövlət, 1.74%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 43.60%-i (75 nəfəri) dövlət, 7.56%-i (13 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda tədris dili, ədəbiyyat, tarix və informatika fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tədris dilindən – 3.33%, ədəbiyyatdan – 8.33%, tarixdən – 12.76%, informatikadan – 2.29% təşkil edir.

Riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Fizika fənni üzrə rayonun göstəricisi respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Rayonun məzunlarının 36 nəfəri 500-dən, o cümlədən 10 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 293.07-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.5% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 9.03% (25 nəfər), 100 – 200 intervalında 24.91% (69 nəfər), 200 – 300 intervalında 21.30% (59 nəfər), 300 – 500 intervalında 31.77% (88 nəfər), 500-dən yuxarı 13.00% (36 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 44.77%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 2.17%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 36.96%-dir.

Qəbul imtahanlarında 30 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Çənnəb kənd və Tivi kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında M.Füzuli adına İnternat tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Sədərək rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 142 şagird bitirib və onların 139 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (57.85) respublika üzrə orta göstəricidən 3.42% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (28.46) respublika üzrə orta göstəricidən 13.87%, xarici dil fənni üzrə topladıqları orta bal (36.29) respublika üzrə orta göstəricidən 16.82%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (122.60) respublika üzrə orta göstəricidən 7.38% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 13.67%-i 30 və daha az, 49.64%-i 30 – 70 intervalında, 36.69%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 65.47%, 27.34% və 7.19%, xarici dil fənni üzrə isə 49.64%, 43.17% və 7.19% olmuşdur.

Ümumilikdə 142 nəfər attestat alıb.

Attestat alanların 69.01%-i (98 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 80.28%-i (114 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 80.28%-i (114 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 59 məzunu (imtahanlarda iştirak edənlərin 51.75%-i) tələbə adını qazanıb. Onların 30.51%-i (18 nəfəri) dövlət, 1.69%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 55.93%-i (33 nəfəri) dövlət, 11.86%-i (7 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda tədris dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tədris dilindən – 9.96%, ədəbiyyatdan – 26.01%, riyaziyyatdan – 17.16%, fizikadan – 23.72%, kimyadan – 4.92%, tarixdən – 6.53% təşkil edir.

Coğrafiya fənni üzrə göstərici respublika üzrə orta göstəricidən yuxarıdır.

Rayonun məzunlarının 6 nəfəri 500-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 257.978-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 12.4% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 2.04% (2 nəfər), 100 – 200 intervalında 38.78% (38 nəfər), 200 – 300 intervalında 27.55% (27 nəfər), 300 – 500 intervalında 25.51% (25 nəfər), 500-dən yuxarı 6.12% (6 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 31.63%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 4.55%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 27.27%-dir.

Qəbul imtahanlarında 5 məktəbin məzunları iştirak edib.

Naxçıvan MR Şahbuz rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 152 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal 61.80, riyaziyyat fənni üzrə topladıqları orta bal 35.70, xarici dil fənni üzrə topladıqları orta bal 48.62, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 146.12-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 10.49%, 8.03%, 11.44%, 10.39% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 17.11%-i 30 və daha az, 35.53%-i 30 – 70 intervalında, 47.37%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 56.58%, 26.32% və 17.11%, xarici dil fənni üzrə isə 33.55%, 39.47% və 26.97% olmuşdur.

Ümumilikdə 152 nəfər attestat alıb.

Attestat alanların 86.18%-i (131 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 95.39%-i (145 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 95.39%-i (145 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 76 məzunu (imtahanlarda iştirak edənlərin 52.41%-i) tələbə adını qazanıb. Onların 50.00%-i (38 nəfəri) dövlət ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 50.00%-i (38 nəfəri) dövlət ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda ədəbiyyat, riyaziyyat, fizika və kimya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan – 6.12%, riyaziyyatdan – 8.80%, fizikadan – 14.69%, kimyadan – 16.02% təşkil edir.

Tədris dili, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Coğrafiya fənni üzrə rayonun göstəricisi respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Rayonun məzunlarının 18 nəfəri 500-dən, o cümlədən 5 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 290.299-a bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 1.5% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 12.21% (16 nəfər), 100 – 200 intervalında 27.48% (36 nəfər), 200 – 300 intervalında 15.27% (20 nəfər), 300 – 500 intervalında 31.30% (41 nəfər), 500-dən yuxarı 13.74% (18 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 45.04%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 8.70%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 39.13%-dir.

Qəbul imtahanlarında 22 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Külüs kənd, İ.D.Rüstəmov adına Badamlı kənd və Daylaqlı kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun N.Namazov adına Qızıl Qışlaq kənd tam orta məktəbi daxil olub.

Naxçıvan MR Şərur rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 682 şagird bitirib və onların 677 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (57.16) respublika üzrə orta göstəricidən 2.21%, riyaziyyat fənni üzrə topladıqları orta bal (33.14) respublika üzrə orta göstəricidən 0.27% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (38.18) respublika üzrə orta göstəricidən 12.49%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (128.49) respublika üzrə orta göstəricidən 2.94% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 20.09%-i 30 və daha az, 43.28%-i 30 – 70 intervalında, 36.63%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 59.23%, 27.33% və 13.44%, xarici dil fənni üzrə isə 45.79%, 39.29% və 14.92% olmuşdur.

Ümumilikdə 681 nəfər attestat alıb.

Rayonun abituriyentlərinin I – IV qruplarda tədris dili, riyaziyyat, fizika, kimya, biologiya, informatika və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tədris dilindən – 1.42%, riyaziyyatdan – 15.09%, fizikadan – 20.28%, kimyadan – 16.58%, biologiyadan – 7.17%, informatikadan – 38.76%, coğrafiyadan – 16.70% təşkil edir.

Ədəbiyyat və tarix fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 61 nəfəri 500-dən, o cümlədən 16 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 272.595-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 7.5% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 10.00% (60 nəfər), 100 – 200 intervalında 30.33% (182 nəfər), 200 – 300 intervalında 21.83% (131 nəfər), 300 – 500 intervalında 27.67% (166 nəfər), 500-dən yuxarı 10.17% (61 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 37.83%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 200 baldan aşağı nəticə göstərən yoxdur. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 53.66%-dir.

Qəbul imtahanlarında 41 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Qaraoğlan kənd, Nəmərli kənd və Hacımahmudlu kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Aran qəsəbə 1 nömrəli tam orta məktəbini qeyd etmək olar.

Zaqatala rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 1137 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (53.89) respublika üzrə orta göstəricidən 3.64%, riyaziyyat fənni üzrə topladıqları orta bal (31.73) respublika üzrə orta göstəricidən 3.99%, xarici dil fənni üzrə topladıqları orta bal (41.61) respublika üzrə orta göstəricidən 4.63%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (127.24) respublika üzrə orta göstəricidən 3.88% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 25.33%-i 30 və daha az, 39.93%-i 30 – 70 intervalında, 34.74%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 63.24%, 21.20% və 15.57%, xarici dil fənni üzrə isə 46.26%, 31.84% və 21.90% olmuşdur.

Ümumilikdə 1137 nəfər attestat alıb.

Attestat alanların 58.05%-i (660 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 75.81%-i (862 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 75.81%-i (862 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 385 məzunu (imtahanlarda iştirak edənlərin 44.66%-i) tələbə adını qazanıb. Onların 51.95%-i (200 nəfəri) dövlət, 13.77%-i (53 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 25.19%-i (97 nəfəri) dövlət, 9.09%-i (35 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda ədəbiyyat, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan – 0.05%, tarixdən – 10.05%, coğrafiyadan – 1.78% təşkil edir.

Tədris dili, riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 85 nəfəri 500-dən, o cümlədən 18 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 305.545-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 3.7% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 6.97% (46 nəfər), 100 – 200 intervalında 24.09% (159 nəfər), 200 – 300 intervalında 20.76% (137 nəfər), 300 – 500 intervalında 35.30% (233 nəfər), 500-dən yuxarı 12.88% (85 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 48.18%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 1.81%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 43.37%-dir.

Qəbul imtahanlarında 49 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Yolayrıc kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Humanitar təmayüllü gimnaziya, Akademik Z.Əliyeva adına Texniki fənlər liseyi və 3 nömrəli şəhər tam orta məktəbi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Tala kənd 3 nömrəli tam orta məktəbini qeyd etmək olar.

Zəngilan rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 478 şagird bitirib və onların 474 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (58.10) respublika üzrə orta göstəricidən 3.88% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (31.33) respublika üzrə orta göstəricidən 5.19% aşağı, xarici dil fənni üzrə topladıqları orta bal (44.96) respublika üzrə orta göstəricidən 3.05% yuxarı, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (134.39) respublika üzrə orta göstəricidən 1.53% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 19.41%-i 30 və daha az, 39.03%-i 30 – 70 intervalında, 41.56%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 61.60%, 25.32% və 13.08%, xarici dil fənni üzrə isə 38.19%, 39.03% və 22.78% olmuşdur.

Ümumilikdə 474 nəfər attestat alıb.

Attestat alanların 73.63%-i (349 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 91.77%-i (435 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 91.77%-i (435 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 208 məzunu (imtahanlarda iştirak edənlərin 47.82%-i) tələbə adını qazanıb. Onların 38.94%-i (81 nəfəri) dövlət, 2.40%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 50.96%-i (106 nəfəri) dövlət, 7.69%-i (16 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda tədris dili, ədəbiyyat, riyaziyyat, fizika, tarix və informatika fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tədris dilindən – 2.98%, ədəbiyyatdan – 5.88%, riyaziyyatdan – 3.39%, fizikadan – 3.64%, tarixdən – 0.62%, informatikadan – 6.37% təşkil edir.

Kimya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 45 nəfəri 500-dən, o cümlədən 14 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 287.123-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 2.6% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 10.89% (38 nəfər), 100 – 200 intervalında 24.64% (86 nəfər), 200 – 300 intervalında 21.78% (76 nəfər), 300 – 500 intervalında 29.80% (104 nəfər), 500-dən yuxarı 12.89% (45 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 42.69%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 4.26%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 41.49%-dir.

Qəbul imtahanlarında 27 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun 5, 26 və 28 nömrəli tam orta məktəbləri daxil olub.

Zərdab rayonu:

2025-ci ildə rayonun ümumtəhsil müəssisələrini 420 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (56.98) respublika üzrə orta göstəricidən 1.88% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (30.92) respublika üzrə orta göstəricidən 6.44%, xarici dil fənni üzrə topladıqları orta bal (36.13) respublika üzrə orta göstəricidən 17.19%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (124.03) respublika üzrə orta göstəricidən 6.30% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 19.05%-i 30 və daha az, 47.62%-i 30 – 70 intervalında, 33.33%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 65.71%, 20.71% və 13.57%, xarici dil fənni üzrə isə 48.33%, 40.48% və 11.19% olmuşdur.

Ümumilikdə 420 nəfər attestat alıb.

Attestat alanların 76.43%-i (321 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 94.05%-i (395 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 94.05%-i (395 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 151 məzunu (imtahanlarda iştirak edənlərin 38.23%-i) tələbə adını qazanıb. Onların 52.32%-i (79 nəfəri) dövlət, 4.64%-i (7 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 36.42%-i (55 nəfəri) dövlət, 6.62%-i (10 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplarda riyaziyyat, fizika, kimya, tarix, informatika və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq riyaziyyatdan – 18.25%, fizikadan – 10.59%, kimyadan – 9.03%, tarixdən – 19.22%, informatikadan – 11.54%, coğrafiyadan – 10.36% təşkil edir.

Tədris dili və ədəbiyyat fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 32 nəfəri 500-dən, o cümlədən 10 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət Pedaqoji Universiteti və Mingəçevir Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 256.559-a bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 12.9% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 11.53% (37 nəfər), 100 – 200 intervalında 36.14% (116 nəfər), 200 – 300 intervalında 18.38% (59 nəfər), 300 – 500 intervalında 23.99% (77 nəfər), 500-dən yuxarı 9.97% (32 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 33.96%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 3.57%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 50.00%-dir.

Qəbul imtahanlarında 28 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Y.Məmmədəliyev adına Bəyimli qəsəbə tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında İ.Nəsimi adına Yarməmmədbağı kənd tam orta məktəbini qeyd etmək olar.

Liseylər (ETN tabeli və özəl):

2025-ci ildə ETN tabeli və özəl liseyləri 3794 şagird bitirib və onların 3791 nəfəri buraxılış imtahanında iştirak edib.

Liseylərin məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal 72.28, riyaziyyat fənni üzrə topladıqları orta bal 57.61, xarici dil fənni üzrə topladıqları orta bal 74.61, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 207.53-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 29.24%, 74.32%, 71.01%, 56.78% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 4.08%-i 30 və daha az, 34.10%-i 30 – 70 intervalında, 61.82%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq 27.10%, 30.71% və 42.19%, xarici dil fənni üzrə isə 8.07%, 23.48% və 68.44% olmuşdur.

Ümumilikdə 3788 nəfər attestat alıb.

Attestat alanların 64.52%-i (2444 nəfəri) I – IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 78.14%-i (2960 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Qəbul imtahanlarının nəticələrinə əsasən liseylərin 1660 məzunu (imtahanlarda iştirak edənlərin 56.08%-i) tələbə adını qazanıb. Onların 62.29%-i (1034 nəfəri) dövlət, 4.34%-i (72 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 25.78%-i (428 nəfəri) dövlət, 7.59%-i (126 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olub.

Liseylərin məzunlarının 768 nəfəri 500-dən, o cümlədən 326 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0 – 100 intervalında 1.19% (29 nəfər), 100 – 200 intervalında 11.66% (285 nəfər), 200 – 300 intervalında 16.98% (415 nəfər), 300 – 500 intervalında 38.75% (947 nəfər), 500-dən yuxarı 31.42% (768 nəfər). Beləliklə, liseylərin abituriyentlərinin yalnız 70.17%-i 300-dən yuxarı bal toplayıb.

Liseylərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.02%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 54.20%-dir.

Qəbul imtahanlarında 55 liseyin məzunları iştirak edib. Bu məktəblərdən Bakı Türk Anadolu liseyi, Azerbaijan British College təhsil kompleksi, Zaqatala şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya və Qərbi Kaspi Universitetinin nəzdində tam orta məktəbin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Landau School ümumi təhsil müəssisəsi MMC-nin Yasamal filialı, "Baku Oxford School" orta ümumtəhsil məktəbi, "Oxbridge Academy" ümumi təhsil müəssisəsi və Azerbaijan British College təhsil kompleksinin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin sayı, məzunlarının sayının 10%-ni belə təşkil etmir.

Avropa Azərbaycan məktəbi, BSB tam orta innovasiyalar məktəbi və SABIS SUN Beynəlxalq məktəbinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməmişdir.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il Kimya-biologiya təmayüllü liseyi, Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi), Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseyi, Şirvan şəhər Kimya-biologiya təmayüllü lisey, Akademik Z.Əliyeva adına lisey, BDU-nun nəzdində "Gənc istedadlar" liseyi, Şəki şəhər Kimya-biologiya təmayüllü Respublika liseyi, Şəmkir şəhər Kimya-biologiya təmayüllü lisey, M.İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev adına lisey, Bakı Avropa liseyi, S.Rüstəm adına Xarici dillər təmayüllü gimnaziya, S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziya, Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin Quba rayonundakı sinifləri, S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyası, M.Şeyxzadə adına Ağdaş rayonu Texniki, humanitar və təbiət fənnləri təmayüllü internat tipli gimnaziya , Sumqayıt şəhəri "İdrak" liseyi, "Kaspi" liseyinin Xətai filialı daxil olub.

Azərbaycan bölməsi:

Tədris dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix, informatika və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 417.194-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 41.6% yuxarıdır.

Rus bölməsi:

Abituriyentlərin göstəriciləri I – IV qruplarda coğrafiya fənni üzrə respublikanın orta göstəricisindən aşağıdır. Fərq 0.36% təşkil edir.

Tədris dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və informatika fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.


Abituriyentlərin I – IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 341.237-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 20.3% yuxarıdır.

1.6. Ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan abituriyent və subbakalavrların təhsilə davamiyyəti

DİM müxtəlif illərdə ali təhsilin bakalavr pilləsinə qəbul olan abituriyent və subbakalavrların sonradan normativ təhsil müddətində* təhsilə davamiyyətini araşdırır, həmçinin ali təhsil müəssisələrinə qəbul olunduqdan sonra təhsillərini müxtəlif səbəblərə görə başa vurmayanların say tərkibini müəyyənləşdirməyə çalışır. Bu məqsədlə "Tələbə-Məzun" Dövlət Elektron Məlumat Sistemindəki informasiyaya əsaslanaraq, 2016 – 2019-cu illərdə ali təhsil müəssisələrinə bakalavriat səviyyəsi üzrə qəbul olub tələbə adını qazanmış abituriyent və subbakalavrların sonradan təhsilə davamiyyətinin vəziyyəti, onların ali təhsilin bakalavr pilləsini müəyyən edilmiş müddətdə başa vurub-vurmadıqları müxtəlif aspektlər üzrə təhlil edilmişdir.

Qeyd edək ki, ali təhsil müəssisələrinə qəbul olub normativ təhsil müddətində təhsillərini başa vuran tələbələrin say tərkibi müxtəlif aspektlər üzrə təhlil edilib. 1.6.1 – 1.6.8 saylı diaqramlarda ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan abituriyentlərin, 1.6.9 – 1.6.10 saylı diaqramlarda və 1.6.1 saylı cədvəldə isə subbakalavrların məzun olma göstəriciləri müxtəlif aspektlər üzrə müqayisəli şəkildə təqdim edilib. Beləliklə, 2016-cı ildə ali təhsil müəssisələrinə 34374 abituriyent qəbul olaraq tələbə adını qazanmışdır. Onlardan 29085 nəfəri (84.61%-i) müəyyən edilmiş müddətdə təhsilini başa vuraraq məzun olublar. Göründüyü kimi, 5289 nəfər (15.39%) müxtəlif səbəblərdən ali təhsilin normativ müddətində məzun ola bilməyib. Bütövlükdə isə 2016 – 2019-cu illər üzrə ali təhsil müəssisələrinə keçirilən qəbul kampaniyasında 150397 abituriyent tələbə adını qazanmışdır. Onlardan 126474 nəfəri (84.09%-i) normativ müddətdə təhsilini başa vuraraq bakalavr dərəcəsi alıblar. 1.6.1 saylı şəkildə 2016 – 2019-cu illərdə ali təhsilin bakalavr pilləsinə qəbul olaraq tələbə adını qazanan abituriyentlərin normativ təhsil müddətində bakalavriat səviyyəsini başa vurmaqları haqqında məlumat verilib.

2016-2019-cu illərdə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən normativ təhsil müddətində məzun olan və olmayanların nisbi sayı




Şəkil 1.6.1

* Normativ təhsil müddəti ali təhsil müəssisələrinin ixtisaslarından asılı olaraq, 4, 5 və ya 6 il təşkil edir.

Şəkildən göründüyü kimi, müxtəlif illərdə qəbul olub normativ müddətdə təhsillərini başa vuranların nisbi sayında ciddi dəyişiklik müşahidə olunmur. Belə ki, 2016 – 2019-cu illər üzrə bakalavr pilləsinə qəbul olub tələbə adını qazanan abituriyentlərin normativ təhsil müddətində məzun olma faizləri 83.29-85.13 intervalında dəyişir. Nisbətən, 2017-ci ildə bakalavr pilləsinə qəbul olub normativ müddətdə təhsillərini başa vurmayanların faizi digər illərlə müqayisədə cüzi azdır.

Araşdırma göstərir ki, 2016 – 2019-cu illərdə ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən 23923 nəfəri (15.91%-i) normativ təhsil müddətində bakalavriat səviyyəsini başa vurmayıb (şəkil 1.6.1). Onlardan 6738 nəfəri (28.17%-i (müvafiq olaraq, qəbul olub tələbə adını qazanan abituriyentlərin 4.48%-i) ali təhsil müəssisələrindən müxtəlif səbəblərə görə xaric olunanlardır. Xaric olunanlardan 3950 nəfəri (58.62%-i) 3-cü kursa qədər, 3121 nəfəri (46.32%-i) 2-ci kursa qədər təhsil aldıqları müəssisələrdən kənarlaşdırılıblar (şəkil 1.6.2). Xaric olunanların 4556-sı (67.62%-i) oğlan, 2182-si (32.38%-i) qız, 5824-ü (86.44%-i) Azərbaycan bölməsi, 914-ü (13.56%-i) rus bölməsi üzrə təhsil alan tələbələr olub. Xaric olunanlardan 1854-ü (27.52%-i) dövlət sifarişi əsasında, 4884-ü (72.48%-i) ödənişli əsaslarla qəbul olan tələbələrdir. Təhlil zamanı müəyyən edilmişdir ki, xaric olunanlardan 2222-si (32.98%-i) I qrup, 1780-ni (26.42%-i) II qrup, 1516-sı (22.50%-i) III qrup, 578-i (8.58%-i) IV qrup və 642-si (9.53%-i) V qrupun ixtisaslarına qəbul olub tələbə adını qazanan abituriyentlərdir. Göründüyü kimi, xaric olunanların ən çoxu I ixtisas qrupu üzrə qəbul olub tələbə adını qazanan abituriyentlərin payına düşür. I ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul olub, lakin təhsil müddəti ərzində xaric olunanlardan 52.97%-i, II ixtisas qrupu üzrə 64.61%-i, III ixtisas qrupu üzrə 58.44%-i, IV ixtisas qrupu üzrə 68.86%-i və V ixtisas qrupu üzrə 52.80%-i 3-cü kursa qədər təhsil aldıqları müəssisələrdən kənarlaşdırılıblar. Bundan əlavə, xaric olunanların 52.31%-i 150-300, 34.76%-i 300-500 və 12.93%-i isə 500-700 intervalında bal toplayaraq I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan abituriyentlər olub. V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul olub, lakin təhsil müddəti ərizində xaric olunanların 85.98%-i 30-100, 13.71%-i 100-200, 0.31%-i isə 200-300 intervalında bal toplayaraq qəbul olub tələbə adını qazanan abituriyentlərdir.

2016-2019-cu illərdə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən təhsil müddəti ərzində xaric olunanların nisbi sayı (tədris illəri (kurs) üzrə)




Şəkil 1.6.2

Ümumiyyətlə, qəbul olanların sonradan təhsillərini başa vurmamaqlarının müxtəlif səbəbləri ola bilər. Ola bilsin ki, onların bir qismi ya öz istəkləri ilə təhsillərini yarımçıq qoyaraq başa vurmayıblar, ya da aşağı akademik göstəricilərinə, aşağı davamiyyətə görə təhsildən kənarlaşdırılıblar. Fikrimizcə, uyğun olmayan ixtisas seçimi, qəbul olduğu ixtisasa və təhsilə marağın sonradan azalması, başqa peşəyə keçmək istəyi, təhsil haqqını ödəməkdə problemlər, ailə vəziyyəti, maddi vəziyyət ilə əlaqədar işləmək ehtiyacı, universitet mühitinə adaptasiya problemləri, təhsil formasının (əyani və ya qiyabi) uyğun gəlməməsi (işlə uyğunlunlaşdırıla bilməmək), tədris prosesindən qeyri-məmnunluq, təhsil müddəti ərzində aşağı akademik göstəricilər, fənləri keçməkdə çətinliklər, akademik borcların yığılması (vaxtında aradan qaldırıla bilməməsi), uzunmüddətli xəstəliklər (sağlamlıq durumunun təhsilə mane olması), miqrasiya məsələləri (ailənin başqa

ölkəyə köçməsi), hərbi xidmətlə bağlı fasilə, akademik məzuniyyət, vəfat etmə, təhsil müəssisəsinin fəaliyyətinin dayandırması, təhsillərini xaricdə davam etdirmək istəkləri və s. bu kimi faktorlar tələbələrin təhsillərini başa vurmamaqlarına səbəb ola bilər.

Eyni zamanda normativ təhsil müddətində ali təhsillərini başa vuran oğlan və qız tələbələrin say tərkibi müqayisəli şəkildə təhlil edilib. Təhlil göstərir ki, 2016 – 2019-cu illər üzrə ali məktəblərə qəbul olan oğlan və qız abituriyentlərdən müvafiq olaraq 79.90 və 88.25%-i normativ müddətdə təhsilini başa vurub. Göründüyü kimi, qəbul olmalarına baxmayaraq, qızlar ilə müqayisədə oğlanların daha çoxu (20.10%-i) təhsilini başa vurmayıb. Fikrimizcə, maddi vəziyyət ilə əlaqədar oğlan tələbələrin daha çox işləmə zərurətinin ortaya çıxması və bu zərurətdən irəli gələn təhsil-iş balansının pozulması, qəbul olduqları ixtisasa və təhsilə sonradan marağın azalması, başqa peşəyə keçmək istəyi, təhsil aldıqları dövrdə akademik borcların yığılması və onları vaxtında aradan qaldırıla bilməməsi, təhsillərini xaricdə davam etdirmək istəkləri və bu kimi digər səbəblər oğlan tələbələrin təhsillərini bitirməməklərinə təsir göstərən amillər ola bilər. Digər tərəfdən, qəbul olan oğlan və qız abituriyentlərin ali təhsilin normativ müddətində məzun olma faizlərinin onların qəbul olduqları ixtisas qrupları üzrə də müqayisəli təhlili aparılıb. Məlum olub ki, qəbul olub müəyyən olunmuş müddətdə təhsillərini bitirə bilməyən oğlan abituriyentlərin nisbi sayı bütün ixtisas qruplarında qızlara nəzərən daha çoxdur. Fərq I, III və IV qrupların ixtisaslarına qəbul olub, məzun ola bilməyən oğlan və qız abituriyentlərin nisbi sayında daha çox nəzərə çarpır. I qrupun ixtisaslarına qəbul olan oğlan abituriyentlərin 21.14%-i, qız abituriyentlərin isə 11.27%-i normativ müddətdə bakalavr pilləsi üzrə təhsilini müəyyən səbəblərdən başa vura bilməyib. Bu göstəricilər II ixtisas qrupu üzrə, müvafiq olaraq, 17.64 və 12.15, III ixtisas qrupu üzrə 25.51 və 12.24, IV ixtisas qrupu üzrə 16.90 və 9.47, V ixtisas qrupu üzrə isə 18.77 və 13.81%-dir. Göründüyü kimi, II və V ixtisas qruplarına qəbul olub normativ müddətdə ali təhsillərini başa vuran oğlan və qız tələbələrin nisbi sayı arasındakı fərq daha azdır. Zənnimizcə, bu, II ixtisas qrupunda oğlanların daha çox biznes və maliyyə, V ixtisas qrupunda isə idman yönümlü ixtisaslara daha çox maraqlarının olması, o cümlədən bu ixtisaslara qəbul olan oğlan tələbələrin təhsillərini tamamlamağa daha həvəsli olmaları ilə bağlı ola bilər.


2016 – 2019-cu illərdə ali təhsilin bakalavr pilləsinə qəbul olaraq tələbə adını qazanan oğlan və qız abituriyentlərin müəyyən edilmiş müddətdə bakalavriat səviyyəsini başa vurmaqları haqqındakı göstəricilər 1.6.3 saylı şəkildə verildiyi kimidir:



Şəkil 1.6.3

Bundan əlavə, Azərbaycan və rus bölmələri üzrə qəbul olub tələbə adını qazanan abituriyentlərin normativ təhsil müddətində ali təhsillərini uğurla başa vurub-vurmadıqları da araşdırılıb. Təhlil nəticəsində müəyyən edilmişdir ki, daha çox rus bölməsi üzrə qəbul olan abituriyentlər normativ müddətdə ali təhsillərini başa vurmayıblar. Bu, 2019-cu ildə rus bölməsi üzrə qəbul olub tələbə adını qazanan, lakin məzun ola bilməyən abituriyentlər seçməsində özünü daha qabarıq göstərir. Belə ki, həmin ildə qəbul olub tələbə adını qazanan rus bölməsi abituriyentlərinin 22.42%-i normativ təhsil müddətində bakalavr pilləsi üzrə təhsilini bitirməyib.

2016-2019-cu illərdə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən normativ təhsil müddətində məzun olanların nisbi sayı (Azərbaycan və rus bölmələri üzrə müqayisə)




Şəkil 1.6.4

Müqayisəni ixtisas qrupları üzrə apardıqda (şəkil 1.6.5) məlum olur ki, IV ixtisas qrupuna qəbul olub tələbə adını qazanan abituriyentlərin normativ müddətdə məzun olma faizi digər ixtisas qrupları ilə müqayisədə nisbətən yuxarıdır. Belə ki, 1.6.5 saylı şəkildən göründüyü kimi, 2016 – 2019-cu illər üzrə bütövlükdə, IV ixtisas qrupuna qəbul olub tələbə adını qazanan abituriyentlərin 88.59%-i ali təhsilini normativ müddətdə başa vurub. Bildiyimiz kimi, IV qrupda yüksək bal toplayan abituriyentlərin qəbul olduğu tibb ixtisasları yer alır. Bu ixtisaslara qəbul prosesi daha rəqabətli olur. Bu ixtisaslara qəbul olan tələbələr, ümumiyyətlə, daha yüksək akademik bacarıqlı, daha motivasiyalı və intizamlı olurlar. Digər tərəfdən, tibb ixtisasları əmək bazarında həm yüksək tələbatla, həm də yüksək gəlir, maliyyə təminatı və rahat iş tapmaq imkanları ilə fərqlənirlər. Təbii olaraq, bu, tələbələri təhsillərini tamamlamağa daha çox həvəsləndirir. Məzun olma faizi üzrə nisbətən aşağı göstəricilər I və V qrupların ixtisaslarına qəbul olub tələbə adını qazanan abituriyentlər seçməsi üzrədir. Aşağıdakı diaqramdan (şəkil 1.6.5) göründüyü kimi, 2016 – 2019-cu illər üzrə bütövlükdə, I ixtisas qrupu üzrə qəbul olub tələbə adını qazanan abituriyentlərin 82.66, V ixtisas qrupu üzrə isə 83.23%-i ali təhsilin normativ müddətini başa vuraraq bakalavr dərəcəsi alıblar. Fikrimizcə, I ixtisas qrupu üzrə müsabiqədə bəzi texniki və mühəndislik ixtisaslarına aşağı bal toplayan abituriyentlər qəbul olur ki, sonradan təhsil müddətində tədris prosesinin ağır olması (fənlərin sayının çox olması və çətin olması, çoxsaylı laboratoriya, layihə işləri) onların dərslərə motivasiyasının azalmasına, həm akademik, həm də davamiyyət göstəricilərinin aşağı olmasına səbəb olur və nəticədə, tələbə adını qazanan bu abituriyentlər sonradan

təhsillərini yarımçıq buraxmalı və ya ixtisaslarını dəyişməli olurlar. Bununla yanaşı, düşünürük ki, bəzi mühəndislik və texniki ixtisaslar üzrə məzunların əmək bazarına inteqrasiyada çətinliklərlə üzləşməsi də bu ixtisaslara qəbul olanların sonradan təhsillərini davam etməmələrinə təsir göstərən amillərdəndir. Ümumiyyətlə, abituriyentlər əvvəlki illərin tələbə qəbulu müsabiqəsində ali təhsil müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid ballarına əsaslanaraq imtahanda topladıqları ballara uyğun ixtisas seçimi edirlər. Bəzən topladıqları bal onların öz istədikləri, arzuladıqları ixtisasa uyğun olmur (topladıqları bal daha az olur) və nəticədə, müsabiqə zamanı istəmədikləri ixtisasa qəbul olurlar və ya öz istəkləri ilə yox, valideynlərinin arzu və istəkləri ilə ixtisas seçimi edib qəbul olurlar. Bütün bu sadaladığımız amillər, əlbəttə, qəbul olan tələbələrin təhsil müddətində həmin ixtisaslara maraqlarının azalmasına, motivasiyanın düşməsinə, akademik göstəricilərin aşağı olmasına, ixtisaslarını dəyişmək istəklərinin yaranmasına səbəb ola bilər.


2016-2019-cu illərdə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən normativ təhsil müddətində məzun olanların nisbi sayı (ixtisas qrupları üzrə müqayisə)



Şəkil 1.6.5

1.6.6 saylı şəkildə dövlər sifarişi və ödənişli əsaslarla qəbul olub tələbə adını qazanan abituriyentlərin ali təhsil üzrə məzun olma göstəriciləri təqdim olunub. Diaqramdan da göründüyü kimi, 2016 – 2019-cu illər üzrə bütövlükdə, ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə qəbul olan abituriyentlərin 11.85%-i, ödənişli əsaslarla qəbul olanların isə 18.40%-i normativ müddətdə bakalavr pilləsi üzrə təhsilini başa vurmayıb. Fikrimizcə, ödənişli təhsil üzrə bu göstəricinin yuxarı olması, təhsil haqqını ödəməkdə çətinliklərlə bağlı ola bilər. Qeyd edək ki, son illər təhsilin əhatə dairəsini genişləndirmək, əlçatanlığını təmin etmək və təhsil almaqda bərabər imkanlar yaratmaq məqsədilə dövlət tərəfindən bu istiqamətdə bir sıra işlər görülür. Ödənişli əsaslarla qəbul olan tələbələrin təhsil haqqı xərclərini ödəmələri üçün yaradılan Təhsil Tələbə Krediti Fondu tərəfindən onlara uzunmüddətli və aşağı faizlərlə tələbə kreditləri verilir.


2016-2019-cu illərdə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən normativ təhsil müddətində məzun olanların nisbi sayı (Dövlət sifarişi və ödənişli əsaslarla qəbul olanlar üzrə müqayisə)



Şəkil 1.6.6

1.6.7 saylı diaqramda Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinə, regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinə və özəl ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan abituriyentlərin ali təhsilin normativ müddətində təhsillərini bitirmələri haqqında müqayisəli təhlil təqdim olunub. Göründüyü kimi, bütövlükdə, regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin təhsilin normativ müddətində məzun olma faizi (89.82%) Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinə qəbul olub məzun olanların nisbi sayına (83.68%) və özəl ali təhsil müəssisələrinə qəbul olub məzun olanların nisbi sayına (74.46%) nəzərən yuxarıdır. Zənnimizcə, bunun səbəblərindən biri regionlardakı ali təhsil müəssisələrinə əsasən həmin regionun və ətraf rayonların abituriyentlərinin qəbul olmasıdır ki, tələbə adını qazanan bu abituriyentlərin sosial-məişət xərclərinin daha az olması (kirayə mənzil xərcləri, nəqliyyat xərcləri və s.), o cümlədən maddi vəziyyət, təhsil xərcləri ilə əlaqədar işləmək ehtiyacının daha az olması dolayısı yolla məzun olma faizinin yuxarı olmasına təsir edən faktorlardır. Digər səbəb regionlarda yerləşən ali təhsil müəssisələrinin ödənişli ixtisasları üzrə təhsil haqqının daha aşağı olmasıdır. Düşünürük ki, Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrində tədris proqramının daha ağır olması, dərs yükünün sıxlığı, bəzi ali təhsil müəssisələrində ciddi qiymətləndirmə sisteminin olması, işlədikləri üçün tələbələrin dərsə davamiyyətinin aşağı düşməsi və akademik borcların yığılması, təhsillərini xaricdə davam etdirmək istəkləri və s. başqa amillər tələbələrin təhsillərini başa vurmamalarına səbəb ola bilər. Özəl ali təhsil müəssisələrinə isə əsasən ödənişli əsaslarla aşağı bal toplayan abituriyentlər qəbul olur və fikrimizcə, təhsil haqqının yüksək olması, təhsil mühitinin qənaətbəxş olmaması, motivasiyanın olmaması, tədris prosesindən qeyri-məmnunluq və bu kimi digər səbəblərdən tələbələr təhsillərini başa vurmaqda maraqlı olmurlar.


2016-2019-cu illərdə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən normativ təhsil müddətində məzun olanların nisbi sayı (Dövlət və özəl ali təhsil müəssisələrinə qəbul olanlar üzrə müqayisə)



Şəkil 1.6.7

Bundan başqa, tələbə adını qazanan abituriyentlərin normativ müddətdə məzun olma faizlərinin onların ali təhsil müəssisələrinə qəbul olduqları ballarına (bal intervallarına) görə də müqayisəli təhlili aparılıb (şəkil 1.6.8). Təhlil zamanı müəyyən edilib ki, 2016 – 2019-cu illərdə I-IV ixtisas qrupları üzrə qəbul kampaniyasında 150-300 intervalında bal toplayaraq qəbul olub tələbə adını qazanan abituriyentlərdən 21.27%-i normativ müddətdə bakalavriat səviyyəsi üzrə təhsilini bitirməyib. Bu göstərici 300-500 intervalında bal toplayıb qəbul olanlar üzrə 12.90%, 500-700 intervalında bal toplayıb qəbul olanlar üzrə isə 13.30%-dir. Düşünürük ki, 500-700 intervalında bal toplayıb qəbul olanların bir qismi təhsillərini sonradan xaricdəki ali təhsil müəssisələrində davam etdiriblər. Qeyd edək ki, 2019-cu ildən etibarən V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanında toplanıla bilən maksimal bal 300 olub. Həmin ildə V ixtisas qrupu üzrə 30-100 intervalında bal toplayaraq qəbul olub tələbə adını qazanan abituriyentlərdən 82.58%-i, 100-200 intervalında bal toplayaraq qəbul olub tələbə adını qazanan abituriyentlərdən 86.51%-i və 200-300 intervalında bal toplayaraq qəbul olub tələbə adını qazanan abituriyentlərdən isə 93.24%-i normativ təhsil müddətində bakalavriat səviyyəsini bitiriblər.

2016-2019-cu illərdə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan abituriyentlərdən normativ təhsil müddətində məzun olanların nisbi sayı (bal intervalları üzrə müqayisə, I-IV qruplar)




Şəkil 1.6.8

Məlum olduğu kimi, 2019-cu ildən orta ixtisas təhsili pilləsi, 2021-ci ildən etibarən isə yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərə (subbakalavrlara) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququ verilmişdir. Onlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçə biliblər. Beləliklə, 2019-cu ildə ali təhsilin bakalavriat səviyyəsinə qəbul olaraq tələbə adını qazanan subbakalavrların da normativ təhsil müddətində bakalavriat səviyyəsini bitirib-bitirmədikləri araşdırılıb. Həmin ildə ali təhsil müəssisələrinə 3540 subbakalavr qəbul olaraq tələbə adını qazanmışdır. Onlardan 1703 nəfəri (48.11%-i) müəyyən edilmiş müddətdə təhsilini başa vuraraq məzun olublar (şəkil 1.6.9). Göründüyü kimi, qəbul olan subbakalavrların yarıdan çoxu (1837 nəfər (51.89%)) müxtəlif səbəblərdən normativ təhsil müddətində bakalavriat səviyyəsini başa vura bilməyib. Düşünürük ki, bu səbəblərdən ən birincisi imtahan vermədən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı əldə etmiş subbakalavrların hazırlıq (bilik) səviyyələrinin qəbul imtahanının nəticələri əsasında ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin hazırlıq səviyyələri ilə müqayisədə çox aşağı olması ilə bağlı ola bilər. Təbii olaraq, hazırlıq səviyyələri aşağı olan subbakalavrların ali təhsil müəssisələrindəki tədris prosesinə inteqrasiya etmələri çox çətin olur. Nəticədə, belə subbakalavrlar ya öz istəkləri ilə təhsillərini yarımçıq buraxıb, ya da tədris prosesi zamanı aşağı akademik göstəricilərə, zəif davamiyyətə görə təhsil müəssisələrindən xaric olunublar.

Qeyd olunduğu kimi, ali təhsil müəssisəsinə qəbul olub tələbə adını qazanan subbakalavrdan 1837-si (51.89%-i) müxtəlif səbəblərdən bakalavriat səviyyəsini bitirməyib. Onlardan 402 nəfəri (21.88%-i, (müvafiq olaraq, qəbul olub tələbə adını qazanan subbakalavrların 11.36%-i) ali təhsil müəssisələrindən təhsil müddəti ərzində müxtəlif səbəblərə görə (aşağı davamiyyət, yığılan akademik borclar və s.) xaric olunublar. Onların da yarıdan çoxu 226 nəfəri (56.22%-i) 2-ci kursa qədər təhsil aldıqları müəssisələrdən kənarlaşdırılıblar (şəkil 1.6.10). Xaric olunanların 166-sı (41.29%-i) oğlan, 236-sı (58.71%-i) qız; 367-si (91.29%-i) Azərbaycan bölməsi, 35-i (8.71%-i) rus bölməsi üzrə təhsil alan tələbələr olub. Bununla yanaşı, tələbə adını qazanıb təhsil müddəti ərzində xaric olunan subbakalavrlardan 41-i (10.20%-i) dövlət sifarişi əsasında, 361-i (89.80%-i) ödənişli əsaslarla qəbul olanlardır. Xaric olunanlardan 90 nəfər (22.39%) I ixtisas qrupu üzrə, 296 nəfər (73.63%) II ixtisas qrupu üzrə, 16 nəfər isə (3.98%) digər ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan subbakalavrlar olub.


2019-cu ildə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan subbakalavrlardan normativ təhsil müddətində məzun olan və olmayanların nisbi sayı



Şəkil 1.6.9

Yuxarıda qeyd olunduğu kimi, 2016-2019-cu illər üzrə, bütövlükdə, bakalavr pilləsinə qəbul olub tələbə adını qazanan abituriyentlərin 4.48%-i, 2019-cu ildə qəbul olub tələbə adını qazanan subbakalvarların isə 11.36%-i təhsil aldıqları müəssisələrdən xaric olunmuşdular. Göründüyü kimi, qəbul olub tələbə adını qazanan subbakalavrlardan təhsil müddəti ərzində xaric olunanların nisbi sayı abituriyentlər ilə müqayisədə 2.54 dəfə çoxdur.

2019-cu ildə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan subbakalavrlardan təhsil müddəti ərzində xaric olunanların nisbi sayı (tədris illəri (kurs) üzrə)



Şəkil 1.6.10

Qeyd edək ki, 2019-cu ildə ali təhsil müəssisələrinə qəbul olan subbakalavrlardan 1296-sını (36.61%-ni) oğlanlar, 2244-nü (63.39%-ni) qızlar təşkil edib. Araşdırma göstərir ki, onlardan da, müvafiq olaraq, 774-ü (59.72%-i) və 1063-ü (47.37%-i) normativ müddətdə təhsilini başa vura bilməyib. Azərbaycan bölməsi üzrə qəbul olub tələbə adını qazanan subbakalavrların 52.05%-i, rus bölməsi üzrə isə 49.80%-i normativ müddətdə təhsilini başa vura bilməyib. Dövlət sifarişi əsasında qəbul olan subbakalavrlardan 57.90%-i, ödənişli əsaslarla qəbul olan subbakalavrlardan isə 45.87%-i normativ müddətdə təhsilini başa vurub. Bundan əlavə, Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinə qəbul olub tələbə adını qazanan subbakalavrlardan 58.67%-i, regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinə qəbul olan subbakalavrlardan 43.80%-i, özəl ali təhsil müəssisələrinə qəbul olan subbakalavrlardan isə 45.79%-i müəyyən edilmiş müddətdə bakalavriat səviyyəsi üzrə təhsilini bitirib.

Aşağıdakı cədvəldə 2019-cu ildə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan subbakalavrlardan normativ təhsil müddətində məzun olanların nisbi sayının onların qəbul olduqları ixtisas qrupları üzrə müqayisəli təhlili təqdim edilib.

Cədvəl 1.6.1

2019-cu ildə bakalavriat səviyyəsinə qəbul olub tələbə adını qazanan subbakalavrlardan normativ təhsil müddətində məzun olanların nisbi sayı (ixtisas qrupları üzrə müqayisə)

İxtisas qrupu	Qəbul olan subbakalavrların sayı	Normativ təhsil müddətində məzun olanların	
		sayı	faizi
I	1024	517	50.49
II	2307	1057	45.82
III	27	13	48.15
IV	95	59	62.11
V	87	57	65.52
Cəmi	**3540**	**1703**	**48.11**

Cədvəldən də göründüyü kimi, subbakalavrların 94.10%-i (3331 nəfəri) I və II qrupların ixtisaslarına qəbul olmuşdur. Onlardan da 47.25%-i (1574 nəfəri) normativ təhsil müddətində bakalavriat səviyyəsini bitirmişdir. Göründüyü kimi, I və II qrupların ixtisaslarına qəbul olan subbakalavrların yarıdan çoxu (52.75%-i) ali təhsilin normativ müddətində məzun ola bilməyib. Ümumiyyətlə, ali təhsil müəssisələrinə qəbul olan subbakalavrların fundamental bazaları (hazırlıq səviyyələri) çox zəif olur. Xüsusilə, onların riyaziyyat fənni üzrə baza bilikləri qənaətbəxş deyildir. Bu hal ali riyaziyyat, diferensial tənliklər, riyazi analiz və s. bu kimi çətin fənlər tədris olunan I ixtisas qrupunun mühəndislik, texniki, eləcə də daha yüksək riyazi bilik və bacarıqlar tələb edən II ixtisas qrupunun maliyyə yönümlü ixtisaslarına qəbul olunan subbakalavrların tədris prosesinə uyğunlaşmasını əhəmiyyətli dərəcədə çətinləşdirir. Nəticədə, həmin tələbələr ixtisas fənlərini mənimsəməkdə problemlərlə qarşılaşırlar ki, bu da onların akademik göstəricilərinə və təhsil keyfiyyətinə mənfi təsir göstərir. Bu baxımdan, düşünürük ki, qəbul olan subbakalavrların ali təhsilə keçidini asanlaşdırmaq üçün onların hazırlıq səviyyələrinin artırılmasına yönəlmiş xüsusi tədris planı hazırlanmalı və tətbiq edilməlidir.

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL

Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2005-ci il tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"yə uyğun olaraq, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ölkəmizin bütün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul 2005-2015-ci illərdə TQDK tərəfindən həyata keçirilib. 2016-cı ildən isə ali təhsilin bu səviyyəsi üzrə qəbulu Dövlət İmtahan Mərkəzi mərkəzləşdirilmiş qaydada həyata keçirir.

DİM magistraturaya qəbul imtahanının obyektiv və şəffaf keçirilməsi məqsədi ilə imtahanlarda istifadə olunan tapşırıqlar bazasını, qiymətləndirmə alətlərini müntəzəm olaraq təkmilləşdirir, yeni model yoxlama-ölçmə materiallarından istifadəyə üstünlük verir. Magistraturaya qəbul mexanizminin daha da təkmilləşdirilməsi, imtahanda istifadə olunan yoxlama-ölçmə materiallarının etibarlılıq səviyyəsininin yüksəldilməsi üçün hər il əvvəlki ildə keçirilmiş imtahanların nəticələrinin elmi-statistik təhlili aparılır. Bu təhlillər əsasında ixtisaslı və peşəkar mütəxəssislərdən ibarət ekspert qrupunun iştirakı ilə imtahan proqramlarında, zərurət yarandıqda, müəyyən dəyişikliklər edilir, eyni zamanda imtahanın məzmununun təkmilləşdirilməsi ilə bağlı elmi-metodik işlər həyata keçirilir. Təhlillərin nəticəsi, normativ-hüquqi sənədlər, qəbul proqramları "Magistr" jurnalı və DİM-in internet resursları vasitəsi ilə ictimaiyyətə, eləcə də imtahana hazırlaşan bakalavrlara çatdırılır.

2025-ci ildə hər iki cəhd imtahanında istifadə olunmuş test tapşırıqlarının ətraflı izahı imtahandan sonra DİM-in internet saytında yerləşdirilmişdir. Bu həm imtahan vermiş bakalavrlara öz nəticələrini araşdırmağa imkan verir, həm də növbəti ildə qəbul imtahanını verməyi planlaşdıranlara müstəqil hazırlaşmaq üçün dəstək olur.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq respublikanın ali təhsil müəssisələrində magistr hazırlığına sərf olunan dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında adambaşına maliyyələşdirmə prinsipi ilə reallaşdırılır. Bu prinsipə əsasən müəyyən bir ixtisaslaşma üzrə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tələbə yerlərinə müsabiqə ayrı-ayrı ali təhsil müəssisələri çərçivəsində deyil, bütövlükdə həmin ixtisaslaşma üzrə dövlət sifarişini yerinə yetirən bütün ali təhsil müəssisələri üzrə birlikdə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslaşma üzrə dövlət sifarişi əsasında kadr hazırlığı üçün ali təhsil müəssisəsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti yalnız birgə müsabiqədən keçərək həmin ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların sayından asılı olaraq verilir. Beləliklə, ali təhsil müəssisəsinə dövlət sifarişi üzrə qəbul olan bakalavrların təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2025-ci ildə respublikada fəaliyyət göstərən 31 dövlət və 10 özəl ali təhsil müəssisəsinin magistratura səviyyəsinə qəbul imtahanı keçirilib. Qəbul aparılan ixtisaslaşmalar 67 proqram üzrə qruplaşdırılıb. Magistratura səviyyəsinə qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər malikdirlər.

Cari ildə də bakalavrlara magistraturaya qəbul imtahanında 2 dəfə iştirak etmək imkanı yaradılmışdır: 1-ci cəhd üçün ərizə qəbulu 2025-ci il yanvarın 13-dən 27-dək, 2-ci cəhd üçün aprelin 1-dən 14-dək internet vasitəsi ilə aparılmışdır. İmtahanda iştirak etmək üçün bakalavrlar DİM-in internet saytının *ekabinet.dim.gov.az* səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra ərizə vermək üçün tələb olunan məbləği (müsabiqə ödənişli olub) "Şəxsi kabinet"lərindəki hesablarına əlavə ediblər. Daha sonra bakalavrlar "Şəxsi kabinet"lərinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in internet saytının müvafiq səhifəsinə (*http://eservices.dim.gov.az/erizemag/erize*) daxil olaraq "Bakalavrın elektron ərizəsi" formasını doldurub təsdiq ediblər.

İmtahanı DİM mərkəzləşdirilmiş qaydada, bakalavrların ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürünün), informatika və xarici dil biliklərinin qiymətləndirilməsi üzrə keçirib. Bakalavrlara xarici dil fənni üzrə 20, informatika fənni üzrə 25 və ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsini yoxlayan 50 test tapşırığı təqdim olunub. Xarici dil fənni üzrə tapşırıqların 2-si, digər fənlərin hər biri üzrə isə 5-i açıq tipli olmuşdur. Keçirilən imtahanda xarici dil fənni üzrə oxu mətnlərinə aid verilmiş fikrin doğru və ya yanlış olmasını müəyyənləşdirməyi tələb edən qapalı tipli test tapşırıqları da verilib. Bu tip test tapşırıqlarında, ümumilikdə 4 mülahizə olur. Bakalavrın mülahizələrə dair verdiyi bütün cavablar doğru olduqda bu, 1 (tam) balla, 3 mülahizəyə dair verdiyi cavab doğru olduqda 0.5 (yarım) balla, iki və ya daha az mülahizəni doğru cavablandırdıqda isə 0 (sıfır) balla qiymətləndirilib. Digər tapşırıqlarda hər düzgün cavab bir balla qiymətləndirilib. Səhv cavablar ümumi nəticəyə təsir göstərməyib.

Artıq altıncı ildir ki, qəbul imtahanında bakalavrlara xarici dil fənnindən dinləmə mətnləri üzrə test tapşırıqları təqdim olunur. Hər bir xarici dil fənni üzrə dinləmə mətnləri əvvəlcədən DİM-in səsyazma studiyasında səsləndirilmiş və arxivləşdirilmişdir. İmtahanda bakalavrlara 1 dinləmə mətni və bu mətnə aid 5 test tapşırığı təqdim olunmuşdur. Dinləmə mətninin audiofaylı bir audioqurğuya yazılmış və hər audioqurğu yalnız bir imtahan zalına aid olmuşdur. Dinləmə mətni bütün imtahan zallarında imtahanın əvvəlində səsləndirilmişdir. Audioqurğu imtahan başlandıqda yerləşdiyi zərfdən çıxarılmış və işə salınmışdır. 2 dəqiqə ərzində imtahan zallarındakı bakalavrlar həmin dinləmə mətni üzrə onlara təqdim olunan tapşırıqlarla tanış olmuşlar. Dinləmə mətni bütün zallarda arada 2 dəqiqəlik fasilə olmaqla 2 dəfə səsləndirilmişdir. Bundan sonra isə bakalavrlar həm dinləmə mətni üzrə onlara təqdim olunan, həm də digər tapşırıqları cavablandırmışlar.

Artıq ikinci ildir ki, qəbul imtahanında bakalavrlara xarici dil fənni üzrə yazı işi təqdim olunur. Bu tapşırıqda bakalavra verilmiş 2 sərbəst mövzudan birini seçərək imtahan verdiyi xarici dildə 150-200 sözdən ibarət yazı işi (esse) yazmaq təklif olunub. Tapşırıqların cavablandırılmasına 3 saat, yazı işinin yetirilməsinə isə 30 dəqiqə vaxt ayrılıb. Tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara qəbul imtahanında ingilis, alman, fransız və ya rus dilini, tədrisi rus dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə ingilis, alman və ya fransız dilini, tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə isə yalnız ingilis (alman) dilini xarici dil kimi seçmək imkanı verilib.

Filologiya ixtisasının Azərbaycan dili və Azərbaycan ədəbiyyatı, habelə tarix ixtisasının tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlara (filologiya (Azərbaycan dili və ədəbiyyatı), tarix, tarix müəllimliyi, antropologiya ixtisasları üzrə bakalavr dərəcəsi olanlar) xarici dil fənni kimi ərəb və ya fars dilini də seçmək imkanı verilib.

Filologiya (xarici dil və ədəbiyyat), xarici dil və ədəbiyyat müəllimliyi, xarici dil müəllimliyi və tərcümə ixtisasları üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara (xarici dil və ədəbiyyatı, dil və ədəbiyyat müəllimliyi (xarici dil və ədəbiyyatı müəllimliyi), xarici dil müəllimliyi (xarici dillər üzrə), filologiya (xarici dil və ədəbiyyat) ixtisasları üzrə bakalavr dərəcəsi olanlar) ixtisaslaşma dili istisna olmaqla, ingilis, alman, fransız və ya rus dillərdən birini xarici dil kimi seçmək imkanı verilib.

Regionşünaslıq (Amerikaşünaslıq), regionşünaslıq (ABŞ və Kanada üzrə), regionşünaslıq (Böyük Britaniyaşünaslıq) ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar yalnız ingilis dilini, regionşünaslıq (Almaniyaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar yalnız alman dilini, regionşünaslıq (Fransaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar isə yalnız fransız dilini seçə bilərdilər.

Qəbul imtahanının nəticələrinə görə DİM-in müəyyən etdiyi şərtləri (bax: cədvəl 2.1) ödəyən bakalavrlar ixtisaslaşma seçiminə buraxılıblar.

Qəbul aparılan ixtisaslaşmalar qəbul proqramları üzrə qruplaşdırılıb. Hər bir bakalavrın seçdiyi magistr ixtisaslaşması onun bitirdiyi bakalavr ixtisasına müvafiq olub. İxtisaslaşma seçiminə kömək məqsədi ilə "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" tərtib edilərək "Magistr" jurnalının 3-cü sayında çap olunub və bununla hər bir bakalavrın bitirdiyi ixtisasa uyğun olaraq verilən ixtisaslaşma seçimi imkanlarından istifadə etməsinə şərait yaradılıb.

Bundan başqa, ***"Sosial iş"*** ixtisasının **"Gənclərlə iş"** və **"Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş"** ixtisaslaşmalarını 40 və daha çox bal toplamış və fənlər üzrə müsabiqə şərtlərini ödəyən, ***"Fəlsəfə"*** ixtisasının **"Təbiətşünaslıq fəlsəfəsi"** ixtisaslaşmasını *Təbiət ixtisasları qrupunu* bitirən, 50 və daha çox bal toplamış, fənlər üzrə müsabiqə şərtlərini ödəyən, ***"Fəlsəfə"*** ixtisasının **"Fəlsəfə tarixi"** və **"Sosial fəlsəfə"** ixtisaslaşmalarını *Humanitar və sosial ixtisaslar qrupunu* bitirən, 50 və daha çox bal toplamış, fənlər üzrə müsabiqə şərtlərini ödəyən, ***Jurnalistika*** proqramına aid ixtisaslaşmaları 50 və daha çox bal toplamış, fənlər üzrə müsabiqə şərtlərini ödəyən və müsahibə mərhələsində "məqbul" alan, ***56 saylı MBA*** (**Biznesin idarə edilməsi**) proqramına aid ixtisaslaşmaları imtahanda 45 və daha çox bal toplamış və fənlər üzrə müsabiqə şərtlərini ödəyən bütün bakalavrlar seçə bilərdilər.

2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinin magistratura səviyyəsinin 68, 69 və 70 saylı proqramlarına aid xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar qabiliyyət imtahanlarında iştirak etmək üçün iyunun 13-dən 17-dək internet vasitəsi ilə qeydiyyatdan keçiblər. Qabiliyyət imtahanları 22-26 iyun tarixlərində keçirilmişdir. Naxçıvan Dövlət Universitetinin 68 saylı proqramına aid xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar qabiliyyət imtahanlarında iştirak etmək üçün iyulun 1-dən 2-dək internet vasitəsi ilə qeydiyyatdan keçiblər. Qabiliyyət imtahanı 4 iyul tarixində keçirilmişdir. Qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilib. Qabiliyyət imtahanlarından minimal 6 bal toplayan bakalavrlar 68, 69 və 70 saylı proqramların ixtisaslaşmaları ilə yanaşı, nəzəri ixtisaslaşmaları da seçə biliblər.

Jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən və qəbul imtahanında ən azı 50 bal toplayan bakalavrlar 2025-ci il iyunun 17-dən 22-dək DİM-in internet saytının müvafiq səhifəsində (https://eservices.dim.gov.az/erizemag/jurnalistikaanket) jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrların qeydiyyatı üçün nəzərdə tutulmuş bölməyə daxil olaraq anket sorğusunu doldurmaqla qeydiyyatdan keçiblər. Qeydiyyatdan keçən bakalavrlar DİM-in elan etdiyi vaxtda "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edərək, vərəqədə göstərilən vaxtda qabiliyyət imtahanında iştirak ediblər. Qabiliyyət imtahanında bakalavrlar yazılı tapşırıqları yerinə yetirməklə intellektual səviyyələrini, dünyagörüşlərini, jurnalistika sahəsində nəzəri və təcrübi biliklərini, ədəbi dili, dil və nitq normalarını bilmələrini nümayiş etdiriblər. Bitirdikləri bakalavr ixtisasından asılı olmayaraq bütün bakalavrlara jurnalistika ixtisaslaşmaları üzrə təhsil almaq imkanı yaradılıb. Qabiliyyət imtahanında 6 və daha çox bal toplayan bakalavrlar ixtisaslaşma seçimi zamanı jurnalistika üzrə magistratura ixtisaslaşmalarını seçmək hüququ qazanıblar. 35 nəfər jurnalistika üzrə ixtisaslaşmaları seçmək məqsədi ilə qabiliyyət imtahanında iştirak etmək üçün müraciət edib. Qabiliyyət imtahanının nəticələrinə əsasən onların hamısı (35 nəfər) 6 və daha çox bal toplayaraq 44-cü proqramı seçmək hüququ əldə edib və 26-sı jurnalistika ixtisaslaşmaları üzrə magistraturaya qəbul olub. Qeyd edək ki, qəbul olan bakalavrların 24-ü bakalavriat səviyyəsində təhsilini "Jurnalistika" ixtisası üzrə bitirib.

Hər bir bakalavra seçməyə hüququ olduğu və bitirdiyi bakalavr ixtisasına müvafiq 20-dək ixtisaslaşma kodunu seçmək imkanı verilib. Bakalavrlar seçdikləri ixtisaslaşmaları müəyyən olunmuş tarixdə istədikləri ardıcıllıqla öz elektron ərizə formalarına daxil edib, hər bir ixtisaslaşma üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiklərini qeyd edərək təsdiqləyiblər. Seçilmiş ixtisaslaşmaların ərizə formalarında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunub və bakalavrlar topladıqları ballara əsasən müsabiqədən keçdikləri ixtisaslaşmaların birincisinə yerləşdiriliblər.

Magistraturada dövlət hesabına təhsil almış magistrlər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzdilər.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox bakalavrı fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

- bakalavriat səviyyəsi üzrə ümumi orta müvəfəqiyyət göstəricisi (ÜOMG);
- ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü) yoxlayan testdən toplanılan bal;
- xarici dil üzrə testdən toplanılan bal.

Xüsusi qabiliyyət imtahanı tələb olunan ixtisaslaşmalar üzrə müsabiqə qabiliyyət imtahanında toplanılan ballara əsasən aparılır. Müsabiqə zamanı qabiliyyət imtahanında toplanılan balı eyni olan iki və daha çox bakalavrı bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

- magistraturaya qəbul imtahanında toplanılan bal;
- ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);
- ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü) yoxlayan testdən toplanılan bal;
- xarici dil üzrə testdən toplanılan bal.

ADA Universiteti, Hərbi Elmi Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun, M.V.Lomonosov adına MDU-nun Bakı filialının, Birgə Azərbaycan-Fransız Universitetinin (UFAZ), İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının magistraturalarına qəbul olmaq istəyən bakalavrlar, müvafiq müsabiqə şərtlərini ödədikləri halda, qəbul imtahanından sonra həmin ali təhsil müəssisələrinə müraciət etməli və onların müəyyən etdiyi qəbul prosedurlarından keçməlidirlər. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistraturasının tədrisi ingilis dilində olan "İdman tibbi və reabilitasiyası" ixtisaslaşmasına qəbul olmaq istəyən şəxslər müsabiqə şərtlərini, həmçinin Akademiya tərəfindən qoyulan ingilis dili üzrə tələbləri ödədikləri halda həmin ali təhsil müəssisəsinin müəyyən etdiyi qəbul prosedurlarından keçməlidirlər.

Cədvəl 2.1

Müsabiqə şərtləri

Magistratura üzrə ixtisaslar qrupunun (ixtisasın) adı	**İmtahanın nəticəsinə qoyulan minimal tələblər***		
	Fənlər üzrə minimal tələb		**İmtahan üzrə minimal bal**
	Fənnin adı	**Minimal bal**	
Təhsil ixtisasları qrupu Texniki və texnoloji ixtisaslar qrupu Səhiyyə, rifah və xidmət ixtisasları qrupu (Bədən tərbiyəsi və idman ixtisasından başqa)	Məntiqi təfəkkürün yoxlanılması	15	**40 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Humanitar və sosial ixtisaslar qrupu*	Məntiqi təfəkkürün yoxlanılması	15	**50 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Təbiət ixtisasları qrupu İqtisadiyyat və idarəetmə ixtisasları qrupu	Məntiqi təfəkkürün yoxlanılması	15	**45 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Mədəniyyət və incəsənət ixtisasları qrupu* Kənd təsərrüfatı ixtisasları qrupu Xüsusi təyinatlı ixtisaslar qrupu Bədən tərbiyəsi və idman ixtisası	Məntiqi təfəkkürün yoxlanılması	10	**30 bal**
	İnformatika	5	
	Xarici dil	5	

*** Tədrisi ingilis (və ya alman) dilində olan ixtisaslaşmaların müsabiqəsində bunlarla yanaşı, aşağıdakı şərtləri ödəyən bakalavrlar iştirak ediblər:**

- təhsili ödənişli əsaslarla həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (və ya alman) dilindən topladıqları bal 15-dən az olmayan bakalavrlar;
- təhsili dövlət sifarişi əsasında həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (və ya alman) dilindən topladıqları bal 20-dən az olmayan bakalavrlar.

–xarici dil fənnindən yazı işi (esse) tapşırığı üzrə nəticəyə bal məhdudiyyəti qoyulmamışdır.


2025-ci ildə ali təhsil müəssisələrinin magistratura səviyyəsinə 16848 plan yeri ayrılmışdı. Bunlardan 11518-i (68.36%) Azərbaycan bölməsi, 916-sı (5.44%) rus bölməsi, 4414-sı (26.20%) isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Ötən illə müqayisədə magistraturaya qəbul planı 5.82% (926 yer) artmışdır.

Dövlət sifarişi əsasında qəbul aparılan yerlər (6630 yer) qəbul planının 39.35%-ni təşkil etmişdir (şəkil 2.1). Ötən illə müqayisədə dövlət sifarişi əsasında qəbul planı 2.73% (176 yer) artmışdır. Qeyd edək ki, cari ildə dövlət sifarişi əsasında ayrılan plan yerləri ümumi plan yerlərinin 39.35%-ni təşkil etmişdir. Ötən il isə bu göstərici 40.54%-ə bərabər olub. Qəbul planı üzrə yerlərin 14676-si dövlət, 2172-si isə özəl ali təhsil müəssisələrinin payına düşüb (şəkil 2.2).

QƏBUL PLANI



Şəkil 2.1



Şəkil 2.2

Plan yerlərinin dövlət sifarişli və ödənişli əsaslar üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2025-ci ildə rus bölməsi və hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin nisbi sayı Azərbaycan bölməsi üçün ayrılan yerlərin hesabına artıb. Belə ki, ötən illə müqayisədə Azərbaycan bölməsində plan yerlərinin nisbi çəkisi 69.05%-dən 68.36%-ə qədər azalıb. Rus bölməsində isə plan yerlərinin ümumi plandakı nisbi çəkisi 4.78%-dən 5.44%-ə, hər iki bölmənin birgə müsabiqəsi üçün isə 26.17%-dən 26.20%-ə qədər artıb.

Aşağıdakı cədvəldən (cədvəl 2.2) göründüyü kimi, magistraturaya qəbul planında ən çox yer Azərbaycan Dövlət İqtisad Universitetinin payına düşüb. Bu təhsil müəssisəsinin qəbul planı ümumi plan yerlərinin 16.29%-ni təşkil edib. Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına ayrılmış qəbul planı bu təhsil müəssisəsinin bakalavriat səviyyəsinə ayrılmış plan yerlərinin 65.51%-nə bərabər olub. Bu həmin təhsil müəssisəsində magistr hazırlığının həm də müxtəlif beynəlxalq layihələr əsasında aparılması ilə bağlıdır.

Ümumiyyətlə, ayrı-ayrı təhsil müəssisələri üzrə plan yerlərinin sayını ötən illə müqayisə etdikdə bəzi təhsil müəssisələri üzrə plan yerlərinin sayında kəskin artım olduğunu görürük. Məsələn, ötən illə müqayisədə cari ildə plan yerlərinin sayı Azərbaycan Tibb Universiteti üzrə 1.9, Xəzər Universiteti üzrə 1.2, Azərbaycan Dövlət Pedaqoji Universiteti üzrə 1.2, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti üzrə 1.2 və Azərbaycan Dövlət İqtisad Universiteti üzrə 1.1 dəfə artıb.

Cədvəl 2.2

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİ ÜZRƏ QƏBUL PLANLARI


№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	971	214	161	1346
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1220	160	365	1745
3	Azərbaycan Texniki Universiteti	1196	55	755	2006
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	861	15	296	1172
5	Azərbaycan Tibb Universiteti	137	20	0	157
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	488	0	120	608
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1790	270	685	2745
8	Azərbaycan Dillər Universiteti	374	23	0	397
9	Bakı Slavyan Universiteti	107	35	3	145
10	Bakı Mühəndislik Universiteti	458	0	50	508
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	110	45	10	165
12	Bakı Musiqi Akademiyası	0	0	63	63
13	Azərbaycan Milli Konservatoriyası	0	0	62	62
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	208	6	15	229
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	0	0	74	74
16	Azərbaycan Turizm və Menecment Universiteti	350	15	15	380
17	Bakı Xoreoqrafiya Akademiyası	0	0	19	19
18	Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Azərbaycan İdman Akademiyası	10	15	70	95
19	Milli Aviasiya Akademiyası	97	13	8	118
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	32	2	0	34
21	Bakı Ali Neft Məktəbi	120	0	110	230
22	Dövlət Gömrük Komitəsinin Akademiyası	10	0	0	10
23	Naxçıvan Dövlət Universiteti	296	0	3	299
24	Naxçıvan Müəllimlər İnstitutu	30	0	0	30
25	Azərbaycan Dövlət Aqrar Universiteti	0	0	424	424
26	Gəncə Dövlət Universiteti	369	0	0	369
27	Azərbaycan Texnologiya Universiteti	218	18	13	249
28	Sumqayıt Dövlət Universiteti	370	0	0	370
29	Mingəçevir Dövlət Universiteti	204	0	0	204
30	Lənkəran Dövlət Universiteti	408	0	0	408
31	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	0	0	15
32	Azərbaycan Kooperasiya Universiteti	0	0	375	375
33	Azərbaycan İlahiyyat İnstitutu	10	0	0	10
34	Azərbaycan Universiteti	173	0	40	213
35	Qərbi Kaspi Universiteti	222	0	49	271
36	Xəzər Universiteti	201	0	228	429
37	Bakı Avrasiya Universiteti	190	0	0	190
38	Bakı Qızlar Universiteti	50	0	0	50
39	Odlar Yurdu Universiteti	0	0	391	391
40	Bakı Biznes Universiteti	156	10	10	176
41	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	67	0	0	67
	Cəmi	**11518**	**916**	**4414**	**16848**

Magistraturaya bütövlükdə 26934 nəfər bakalavr ərizə verib (2024-cü ildə bu rəqəm 25349 olub). Ərizələrin 91.96%-i (24768-i) Azərbaycan, 8.04%-i (2166-sı) isə rus bölməsi üzrə olub. Sənəd verənlərin 48.49%-ni (13061 nəfər) oğlanlar, 51.51%-ni (13873 nəfər) isə qızlar təşkil edib. Onların da 15964 nəfəri (59.27%-i) bakalavriat səviyyəsinin builki məzunlarıdır və ali təhsil müəssisələrinə, əsasən, 2021-ci ildə daxil olanlardır. Həmin il 42573 nəfər tələbə adını qazanmışdı.

Magistraturaya qəbul imtahanı (1-ci cəhd fevralın 16-da, 2-ci cəhd mayın 11-də) Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Mingəçevir, Lənkəran şəhərlərində və Abşeron rayonunda keçirilib. Sual kitabçaları hər bir bakalavr üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçasının "Dil fənni blokundakı xarici dil" bölməsində seçilən xarici dil üzrə test tapşırıqları və yazı işi təqdim olunub. Bütün fənlər üzrə tapşırıqlar 4 variantda hazırlanıb.

İmtahanda 26241 bakalavr (1-ci cəhddə 21406, 2-ci cəhddə 19852, hər ikisində 15017 bakalavr) iştirak edib. 1-ci imtahanın yekun nəticəsi martın 14-də (qapalı və kodlaşdırıla bilən açıq tipli tapşırıqlar üzrə fevralın 19-də), 2-ci imtahanın yekun nəticəsi isə mayın 30-da (qapalı və kodlaşdırıla bilən açıq tipli tapşırıqlar üzrə mayın 13-də) DİM-in internet saytında elan olunub. Hər iki cəhddə iştirak edən bakalavrların bu iki imtahanda əldə etdikləri nəticələr təhlil olunub. Aparılan təhlil göstərir ki, bakalavrların 2-ci imtahandakı nəticələri ilə 1-ci imtahandakı nəticələri, demək olar ki, bir-birinə yaxındır. Bakalavrların 52.23%-nin hər iki imtahandakı nəticələri arasındakı fərq 5 baldan, 82.51%-nin nəticələri arasındakı fərq isə 10 baldan çox deyil. Qeyd edək ki, nəticələr arasındakı korrelyasiya əmsalı 0.85-ə bərabərdir. Aşağıdakı qrafikdə hər iki imtahanda iştirak edən bakalavrların topladıqları balların fərqlərinin paylanması təqdim olunub.

HƏR İKİ İMTAHANDA İŞTİRAK EDƏN BAKALAVRLARIN İKİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARLA BİRİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARIN FƏRQİNİN PAYLANMASI





Qrafik 2.1

Bakalavrlar iyulun 7-dən 16-dək qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün DİM-in internet saytının müvafiq səhifəsində öz ərizələrinə daxil olaraq ixtisaslaşma seçimi aparıblar. Proqram və ixtisaslaşma seçimində 15525 nəfər (qəbul imtahanında iştirak edənlərin 59.16%-i) iştirak edib. Onların 47.97%-i oğlanlar, 52.03%-i isə qızlardır. İxtisaslaşma seçimində iştirak edənlərin 70.27%-i (10910 nəfər) bakalavriat səviyyəsinin builki məzunlarıdır.

Qəbulun nəticələri iyulun 2-də DİM-in internet saytında elan olunub və “Magistr” jurnalının 5-ci sayında dərc edilib. Qəbulun nəticələrinə əsasən 13446 bakalavr magistraturaya qəbul olunub, onlardan 934-ü qeydiyyatdan keçməyib, 2468 yer isə boş qalıb. Bu səbəbdən avqustun 13-dən 18-dək boş qalan yerlərə ixtisaslaşma seçimi aparılıb. Bu mərhələdə 1418 nəfər (onlardan 87-si birinci ixtisaslaşma seçimində iştirak etməyib) iştirak edib və onların 617-si magistraturaya qəbul olub (onlardan 458-i qeydiyyatdan keçib). Beləliklə, ixtisaslaşma seçimində 15612 nəfər (qəbul imtahanında iştirak edənlərin 59.49%-i) iştirak edib (şəkil 2.3) və 12970 nəfər (ixtisaslaşma seçimində iştirak edənlərin 83.08%-i) magistraturaya qəbul olub (şəkil 2.4).

İXTİSASLAŞMA SEÇİMİ VƏ QƏBULUN NƏTİCƏLƏRİ

Qəbul imtahanından sonra	İxtisaslaşma seçimindən sonra
	
Şəkil 2.3	Şəkil 2.4


Bakalavrların 3172 nəfəri ərizələrində yalnız dövlət sifarişi əsasında ayrılan yerləri, 4057 nəfəri isə yalnız ödənişli ixtisaslaşmaları seçib. Təhsili ödənişli əsaslarla seçənlərin 50 nəfəri ərizəsində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslaşmalarını göstərib. 8383 nəfər ərizəsində ixtisaslaşmaları həm ödənişli, həm də dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən plan yerləri üzrə qeyd edib.

İxtisaslaşma seçimində iştirak edən bakalavrların Azərbaycan bölməsi üzrə 82.86%-i, rus bölməsi üzrə isə 85.35%-i qəbul olub, ümumilikdə isə qəbul planı 76.98% dolub. Qəbul olanların 49.85%-i (6466 nəfər) oğlan, 50.15%-i (6504 nəfər) isə qızdır. Magistr adı qazananların 73.07%-i (9477 nəfər –57.52% (5451 nəfər) oğlan, 42.48% (4026 nəfər) qız) cari ilin məzunlarıdır.

Magistraturaya dövlət sifarişi üzrə ayrılmış yerlərə qəbul olan 6590 nəfərin 56.01%-i (3691 nəfər) oğlan, 43.99%-i (2899 nəfər) qızlardır. Qəbul olanların 83.41%-i (5497 nəfər – 60.54% (3328 nəfər) oğlan, 39.46% (2169 nəfər) qız) cari ilin məzunlarıdır.

Qəbul olan bakalavrların dövlət hesabına və ödənişli təhsil üzrə paylanması 2.5 saylı şəkildə və 2.3 saylı cədvəldə təqdim olunur. 2.3 saylı cədvəldən göründüyü kimi, qəbul planı dövlət ali təhsil müəssisələri üzrə 80.70%, özəl ali təhsil müəssisələri üzrə isə 51.84% dolub.

QƏBUL OLAN BAKALAVRLARIN DÖVLƏT HESABINA VƏ ÖDƏNİŞLİ TƏHSİL ÜZRƏ PAYLANMASI



Şəkil 2.5

Cədvəl 2.3

MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN SAYI HAQQINDA MƏLUMAT

Ali TƏHSİL MÜƏSSİSƏLƏRİ	Qəbul planı	Qəbul edilib (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
Dövlət	14676	10748 (5740)	1096 (538)	11844 (6278)	80.70
Özəl	2172	1039 (281)	87 (31)	1126 (312)	51.84
C Ə M İ	**16848**	**11787 (6021)**	**1183 (569)**	**12970 (6590)**	**76.98**

2.4 saylı cədvəldə magistraturaya tələbə qəbulunun qəbul proqramları üzrə nəticələri, həmçinin qəbul imtahanından sonra keçirilən proqram və ixtisaslaşma seçimində iştirak edən bakalavrların (ərizələrin) sayı təqdim olunub. Göründüyü kimi, 1, 2, 3, 9, 12, 29, 30, 36, 40, 44, 45, 47, 51, 58, 61, 64, 66, 68, 69 və 70 saylı proqramlara aid olan ixtisaslaşmalar üzrə təqdim edilən ərizələrin sayı ayrılmış plan yerlərinin sayından azdır. Sadalanan 20 proqram magistratura səviyyəsinə qəbul aparılan bütün proqramların 29.85%-ni təşkil edir. Beləliklə, proqram və ixtisaslaşma seçimindən sonra qəbul proqramlarının bəziləri üzrə qəbul planının kəsirdə qalacağı bəlli olmuşdu. Ali təhsil müəssisələrinə yerləşdirilmə aparıldıqdan sonra isə daha 41 proqram üzrə (cəmi 61 proqram üzrə) qəbul planının kəsirdə qaldığı məlum oldu. Cədvəldən göründüyü kimi, 21 (7006025 Maşın mühəndisliyi), 25 (7006003 Aviasiya təhlükəsizliyi mühəndisliyi), 50 (7003011 Musiqişünaslıq), 54 (7001001 Pedaqogika, 7008001 Məşqçilik, 7009004 İdman tibbi), 57 (7008002 Nəqliyyatda servis) və 60 (7006001 Aerokosmik mühəndislik) saylı proqramlara aid olan ixtisaslaşmalar üzrə qəbul planı tam dolmuşdur. Qalan 61 proqram üzrə qəbul planı bu və ya digər səviyyədə kəsirdə qalmışdır. Bu proqramlardan 18-si üzrə isə plan yerlərinin 50%-dən çoxu boş qalmışdır. 4 saylı proqram üzrə isə ümumiyyətlə qəbul olan yoxdur.

Ən yüksək qəbul planına malik olan proqramlardan 56 saylı proqram üzrə qəbul planı 81.58%, 26 saylı proqram üzrə isə 63.61%, 14 saylı proqram üzrə isə 96.13% dolub. Bu üç proqramın birlikdə götürülmüş qəbul planı ümumi qəbul planının 51.25%-ni, bu proqramlara daxil olan ixtisaslaşmalara qəbul olanlar isə bütövlükdə magistraturaya qəbul olanların 52.64%-ni təşkil edir.

Qəbul olanların 90.88%-i Azərbaycan, 9.12%-i isə rus bölməsinin bakalavrlarıdır. Dövlət sifarişi əsasında qəbul olan Azərbaycan bölməsini təmsil edən bakalavrların nisbi sayı artaraq 91.37%, rus bölməsində isə azalaraq 8.63% olub.

Cədvəl 2.4

MAGİSTRATURAYA QƏBULUN NƏTİCƏLƏRİ
(qəbul proqramları üzrə)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
1	7005006 Geologiya 7006010 Geologiya və geofizika mühəndisliyi	81	75 (75)	9	8 (8)	174	90	83 (83)	47.70
2	7006034 Neft-qaz mühəndisliyi	215	163 (157)	18	17 (16)	238	233	180 (173)	75.63
3	7006002 Aqromühəndislik 7006008 Elektrik və elektronika mühəndisliyi 7006009 Energetika mühəndisliyi	272	222 (212)	14	10 (10)	335	286	232 (222)	69.25
4	7006025 Maşın mühəndisliyi	11	0 (0)	0	0 (0)	10	11	0 (0)	0.00
5	7006025 Maşın mühəndisliyi 7006026 Materiallar mühəndisliyi 7006027 Mexanika mühəndisliyi 7006031 Metallurgiya mühəndisliyi	139	52 (52)	8	4 (4)	145	147	56 (56)	38.62
6	7006002 Aqromühəndislik 7006004 Cihaz mühəndisliyi 7006025 Maşın mühəndisliyi 7006027 Mexanika mühəndisliyi	271	69 (68)	6	4 (4)	197	277	73 (72)	37.06
7	7006006 Dəniz naviqasiyası mühəndisliyi 7006012 Gəmi energetik qurğularının istismarı mühəndisliyi 7006013 Gəmiqayırma və gəmi təmiri mühəndisliyi	30	26 (26)	0	0 (0)	29	30	26 (26)	89.66
8	7006035 Nəqliyyat mühəndisliyi	14	2 (2)	0	0 (0)	13	14	2 (2)	15.38
9	7006035 Nəqliyyat mühəndisliyi	22	18 (18)	0	0 (0)	52	22	18 (18)	34.62
10	7006024 Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi	485	142 (137)	27	5 (5)	149	512	147 (142)	98.66
11	7006004 Cihaz mühəndisliyi 7006039 Radiotexnika və telekommunikasiya mühəndisliyi	520	198 (175)	50	18 (17)	241	570	216 (192)	89.63
12	7005007 Hidrometeorologiya	4	4 (4)	0	0 (0)	11	4	4 (4)	36.36
13	7006028 Mexatronika və robototexnika mühəndisliyi 7006038 Proseslərin avtomatlaşdırılması mühəndisliyi	1036	162 (152)	50	9 (8)	187	1086	171 (160)	91.44
14	7001001 Pedaqogika 7006005 Data elmləri 7005009 Kompüter elmləri 7006016 İnformasiya texnologiyaları 7006017 İnformasiya təhlükəsizliyi 7006022 Kompüter mühəndisliyi	2395	1393 (1280)	302	174 (156)	1630	2697	1567 (1436)	96.13
15	7003005 Dizayn 7006030 Memarlıq 7006041 Şəhərsalma	533	142 (141)	62	35 (32)	219	595	177 (173)	80.82

Cədvəl 2.4 (ardı)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
16	7006018 İnşaat mühəndisliyi 7006021 Kommunikasiya sistemləri mühəndisliyi 7006026 Materiallar mühəndisliyi 7006029 Meliorasiya mühəndisliyi 7006036 Nəqliyyat tikintisi mühəndisliyi 7006038 Proseslərin avtomatlaşdırılması mühəndisliyi 7006040 Sənaye mühəndisliyi	481	212 (186)	31	19 (18)	268	512	231 (204)	86.19
17	7006011 Geomatika və geodeziya mühəndisliyi 7007009 Yerquruluşu və daşınmaz əmlakın kadastrı	73	51 (50)	0	0 (0)	57	73	51 (50)	89.47
18	7006020 Kimya mühəndisliyi	400	184 (170)	35	17 (14)	213	435	201 (184)	94.37
19	7005004 Ekologiya 7006007 Ekologiya mühəndisliyi 7007007 Meşəçilik	1059	290 (249)	102	28 (23)	415	1161	318 (272)	76.63
20	7006023 Qida mühəndisliyi 7006042 Şərabçılıq	254	126 (122)	17	10 (9)	175	271	136 (131)	77.71
21	7006025 Maşın mühəndisliyi	139	5 (5)	0	0 (0)	5	139	5 (5)	100.00
22	7008004 Turizm və hotelçilik	388	155 (83)	54	28 (17)	234	442	183 (100)	78.21
24	7006015 Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi	64	54 (48)	0	0 (0)	57	64	54 (48)	94.74
25	7006003 Aviasiya təhlükəsizliyi mühəndisliyi	13	5 (5)	0	0 (0)	5	13	5 (5)	100.00
26	7002002 Davamlı inkişaf 7004001 Beynəlxalq ticarət və logistika 7004002 Biznesin idarə edilməsi 7004004 Dövlət və bələdiyyə idarəetməsi 7004005 İqtisadiyyat 7004006 Maliyyə 7004007 Marketinq 7004008 Menecment 7004009 Mühasibat 7005012 Statistika 7006040 Sənaye mühəndisliyi	2643	1446 (603)	278	164 (84)	2531	2921	1610 (687)	63.61
27	7001001 Pedaqogika 7004008 Menecment	2622	588 (211)	144	31 (9)	699	2766	619 (220)	88.56
28	7001001 Pedaqogika 7005009 Kompüter elmləri 7005011 Riyaziyyat	642	193 (152)	55	12 (10)	211	697	205 (162)	97.16
29	7006032 Mədən mühəndisliyi	8	6 (6)	0	0 (0)	25	8	6 (6)	24.00
30	7005010 Mexanika	7	7 (7)	0	0 (0)	8	7	7 (7)	87.50
31	7001001 Pedaqogika 7005005 Fizika 7006033 Mühəndislik fizikası	230	128 (98)	7	6 (6)	158	237	134 (104)	84.81
32	7001001 Pedaqogika 7005008 Kimya	389	104 (86)	30	11 (9)	164	419	115 (95)	70.12
33	7001001 Pedaqogika 7005001 Biologiya	498	165 (139)	23	13 (13)	202	521	178 (152)	88.12

Cədvəl 2.4 (ardı)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qabul olub (o cümlədən dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qabul olub (o cümlədən dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qabul olub (o cümlədən dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
34	7001001 Pedaqogika 7005003 Coğrafiya	163	66 (31)	2	2 (1)	95	165	68 (32)	71.58
35	7007001 Aqronomluq 7007002 Bağçılıq və tərəvəzçilik 7007005 Bitki mühafizəsi 7007008 Torpaqşünaslıq və aqrokimya	248	118 (118)	27	10 (10)	170	275	128 (128)	75.29
36	7007004 Baytarlıq təbabəti 7007010 Zoomühəndislik	58	44 (44)	3	2 (2)	70	61	46 (46)	65.71
37	7003006 Ədəbi yaradıcılıq və ekran dramaturgiyası 7003017 Sənətşünaslıq 7003012 Muzey, arxiv işi və abidələrin qorunması	368	86 (84)	10	7 (7)	100	378	93 (91)	93.00
38	7001001 Pedaqogika 7002006 Filologiya	451	240 (71)	0	0 (0)	305	451	240 (71)	78.69
39	7001001 Pedaqogika 7002006 Filologiya	4	2 (0)	28	20 (3)	27	32	22 (3)	81.48
40	7001001 Pedaqogika 7002006 Filologiya	226	164 (77)	11	8 (4)	265	237	172 (81)	64.91
41	7001001 Pedaqogika 7002006 Filologiya	63	26 (6)	0	0 (0)	48	63	26 (6)	54.17
42	7002005 Fəlsəfə 7002015 Sosiologiya 7008003 Sosial iş	3120	237 (88)	307	16 (11)	263	3427	253 (99)	96.20
43	7002017 Tərcümə	164	29 (10)	8	0 (0)	63	172	29 (10)	46.03
44	7002009 Jurnalistika	31	25 (19)	2	1 (1)	49	33	26 (20)	53.06
45	7002010 Kitabxanaçılıq və informasiya fəaliyyəti	8	2 (2)	0	0 (0)	17	8	2 (2)	11.76
46	7001001 Pedaqogika 7002016 Tarix	364	146 (71)	17	10 (0)	196	381	156 (71)	79.59
47	7002001 Beynəlxalq münasibətlər 7002012 Politologiya 7002014 Regionşünaslıq	212	104 (38)	68	38 (7)	337	280	142 (45)	42.14
48	7002013 Psixologiya	339	135 (61)	49	17 (5)	257	388	152 (66)	59.14
49	7002007 Hüquqşünaslıq	307	203 (138)	38	24 (17)	233	345	227 (155)	97.42
50	7003011 Musiqişünaslıq	114	39 (37)	3	1 (1)	40	117	40 (38)	100.00
51	7002003 Dinşünaslıq 7002008 İslamşünaslıq	4	3 (3)	0	0 (0)	10	4	3 (3)	30.00
52	7005013 Su bioehtiyatları və akvakultura 7007003 Balıqçılıq	83	21 (21)	0	0 (0)	23	83	21 (21)	91.30
53	7003005 Dizayn 7003017 Sənətşünaslıq	241	77 (77)	31	8 (8)	129	272	85 (85)	65.89
54	7001001 Pedaqogika 7008001 Məşqçilik 7009004 İdman tibbi	274	64 (34)	46	8 (4)	72	320	72 (38)	100.00
55	7009001 Əczaçılıq	167	38 (37)	3	0 (0)	40	170	38 (37)	95.00
56	7004003 Biznesin təşkili və idarə edilməsi (MBA)	6742	3282 (0)	856	368 (0)	4474	7598	3650 (0)	81.58

Cədvəl 2.4 (ardı)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
57	7008002 Nəqliyyatda servis	42	15 (15)	0	0 (0)	15	42	15 (15)	100.00
58	7006014 Hava nəqliyyatının hərəkətinin təşkili 7006043 Uçuş mühəndisliyi	4	1 (1)	0	0 (0)	8	4	1 (1)	12.50
59	7009002 Fizioterapiya 7009003 İctimai səhiyyə 7009006 Tibb bacısı (qardaşı) işi	78	26 (26)	0	0 (0)	51	78	26 (26)	50.98
60	7006001 Aerokosmik mühəndislik	30	19 (19)	9	4 (4)	23	39	23 (23)	100.00
61	7010006 Silah sistemləri mühəndisliyi	15	13 (13)	4	2 (2)	50	19	15 (15)	30.00
64	7010003 Xüsusi rabitə vasitələri mühəndisliyi	10	9 (7)	0	0 (0)	30	10	9 (7)	30.00
66	7005002 Biotexnologiya	3	1 (1)	1	0 (0)	44	4	1 (1)	2.27
68	7003002 Bəstəkarlıq 7003004 Dirijorluq 7003009 İnstrumental ifaçılıq 7003014 Populyar musiqi və caz ifaçılığı 7003018 Vokal sənəti	117	96 (96)	7	7 (7)	134	124	103 (103)	76.87
69	7003001 Aktyor sənəti 7003008 Xoreoqrafiya sənəti 7003013 Operator sənəti 7003015 Rejissorluq	13	12 (12)	0	0 (0)	39	13	12 (12)	30.77
70	7003003 Dekorativ-tətbiqi sənət 7003005 Dizayn 7003007 Heykəltəraşlıq 7003010 Qrafika 7003016 Rəngkarlıq	47	30 (30)	4	2 (2)	69	51	32 (32)	46.38
71	7006044 Yanğın təhlükəsizliyi mühəndisliyi	7	4 (4)	0	0 (0)	5	7	4 (4)	80.00
75	7002004 Dövlət və ictimai münasibətlər	72	23 (11)	12	5 (1)	40	84	28 (12)	70.00
	CƏMİ	**14226**	**11787 (6021)**	**1386**	**1183 (569)**	**16848**	**15612**	**12970 (6590)**	**76.98**

Qeyd: 23-cü proqramla aid olan ixtisaslaşmalar 21-ci proqrama daxil edilmişdir. 62, 63, 65, 67, 72, 73 və 74-cü proqramlara daxil olan ixtisaslaşmalar ləğv olunub. Bu səbəbdən 23, 62, 63, 65, 67, 72, 73 və 74-cü proqramlar üzrə qəbul aparılmamışdır.

Ayrı-ayrı ali təhsil müəssisələrinin dövlət sifarişi əsasında tələbə qəbulu imkanları (təhsil müəssisəsinin inhisarında olan ixtisaslaşmalar və digər ali təhsil müəssisələri ilə birgə qəbul aparılan ixtisaslaşmalar üzrə) və bu imkanlardan istifadə olunmasını əks etdirən göstəricilər (qəbulolma faizləri) 2.5 saylı cədvəldə təqdim edilib. Cədvəldən də göründüyü kimi, dövlət sifarişi üzrə nisbətən daha çox kadr hazırlığı imkanına malik olan (ən azı 100 nəfər) ali təhsil müəssisələri içərisində yüksək qəbulolma göstəricisi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına (83.66%), Azərbaycan Dövlət İqtisad Universitetinə (81.49%) və Azərbaycan Tibb Universitetinə (77.10%) məxsusdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dövlət hesabına təhsil almaq üçün 153 bakalavr qəbul etmək imkanına malik olub. İstifadə edilən yerlərin 29-u Akademiyanın inhisarında olan, 124-ü isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Bu yerlərin müsabiqəsində 124 qalibdən 99-u təhsilini davam etdirmək üçün məhz bu ali təhsil müəssisəsini seçib. Beləliklə, nisbətən çox qəbul planına malik ali təhsil müəssisələri içərisində digər ali təhsil müəssisələrinin iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər üzrə ən yüksək qəbulolma faizi (79.84%) də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına məxsusdur.

Azərbaycan Dövlət İqtisad Universiteti dövlət hesabına təhsil almaq üçün 913 bakalavr qəbul etmək imkanına malik olub. İstifadə edilən yerlərin 131-i ADİU-nun inhisarında olan, 782-si isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Bu yerlərin müsabiqəsində 782 qalibdən 613-ü təhsilini davam etdirmək üçün məhz bu ali təhsil müəssisəsini seçmişdir.

Azərbaycan Tibb Universiteti dövlət hesabına təhsil almaq üçün 133 bakalavr qəbul etmək imkanına malik olub. İstifadə edilən yerlərin 57-si Azərbaycan Tibb Universitetinin inhisarında olan, 74-ü isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Bu yerlərin müsabiqəsində 74 qalibdən 44-ü təhsilini davam etdirmək üçün məhz bu ali təhsil müəssisəsini seçib.

Dövlət ali təhsil müəssisələri arasında dövlət sifarişi ilə tələbə qəbulunda ən zəif nəticə Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Bakı Slavyan Universiteti və Azərbaycan Texnologiya Universitetinə məxsusdur. Bu ali təhsil müəssisələrində dövlət sifarişi üzrə ayrılan yerlərə (digər ali təhsil müəssisələri ilə rəqabət aparılan) qəbulolma faizi 20-dən aşağıdır. Naxçıvan Müəllimlər İnstitutuna isə, ümumiyyətlə, qəbul olan yoxdur.

Özəl ali təhsil müəssisələri (Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Universiteti, Qərbi Kaspi Universiteti, Xəzər Universiteti, Bakı Avrasiya Universiteti, Bakı Qızlar Universiteti, Odlar Yurdu Universiteti, Bakı Biznes Universiteti və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası) dövlət sifarişi üzrə magistraturaya tələbə qəbulunda iştirak etmişdir. "Naxçıvan" Universitetinin (Naxçıvan şəhəri) fəaliyyəti dayandırıldığı üçün cari ildə bu universitetə bakalavr qəbulu aparılmamışdır. Özəl ali təhsil müəssisələrinin hamısı birlikdə, faktiki olaraq, müxtəlif ixtisaslaşmalar üzrə dövlət hesabına 1341 tələbə qəbul etmək imkanına malik olub. Bu yerlərin 138-si özəl ali təhsil müəssisələrinin inhisarında olan yerlər idi. Qəbul imtahanında yüksək nəticə göstərən 150 bakalavr müsabiqə nəticəsində öz istəkləri ilə müxtəlif özəl ali təhsil müəssisələrinə qəbul olub. Bu gənclərin 66-sı (44.00%) təhsilini Xəzər Universiteti, 27-si (18.00%) Qərbi Kaspi Universiteti, 24-ü (16.00%) Odlar Yurdu Universitetində davam etdirmək istədiyini bildirib. Müsabiqə Bakı Qızlar Universitetinin və Bakı Avrasiya Universitetinin yüksəkhazırlıqlı bakalavrlar arasında heç bir nüfuza malik olmadığını göstərib. 2.5 saylı cədvəldən də göründüyü kimi, dövlət hesabına təhsil almaq hüququ qazanan bakalavrların heç biri təhsil müəssisələrində təhsil almaq istəməmişdir.

Cədvəl 2.5

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT HESABINA TƏLƏBƏ QƏBULU İMKANLARI VƏ QƏBULUN NƏTİCƏLƏRİ

№	Ali təhsil müəssisəsi	Ali təhsil müəssisəsinin dövlət sifarişi üzrə kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
1	Bakı Dövlət Universiteti	1109	23	1086	812	74.77	405	37.29	681	407	59.77
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1403	57	1346	897	66.64	578	42.94	768	319	41.54
3	Azərbaycan Texniki Universiteti	1395	85	1310	860	65.65	552	42.14	758	308	40.63
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	750	18	732	463	63.25	309	42.21	423	154	36.41
5	Azərbaycan Tibb Universiteti	133	2	131	101	77.10	57	43.51	74	44	59.46
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	410	0	410	147	35.85	0	0.00	410	147	35.85
7	Azərbaycan Dövlət İqtisad Universiteti	913	0	913	744	81.49	131	14.35	782	613	78.39
8	Azərbaycan Dillər Universiteti	275	0	275	146	53.09	0	0.00	275	146	53.09
9	Bakı Slavyan Universiteti	145	0	145	20	13.79	0	0.00	145	20	13.79

Cədvəl 2.5 (ardı)

№	Ali təhsil müəssisəsi	Ali təhsil müəssisəsinin dövlət sifarişi üzrə kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
10	Bakı Mühəndislik Universiteti	333	0	333	122	36.64	58	17.42	275	64	23.27
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	153	0	153	128	83.66	29	18.95	124	99	79.84
12	Bakı Musiqi Akademiyası	63	3	60	49	81.67	23	38.33	37	26	70.27
13	Azərbaycan Milli Konservatoriyası	62	0	62	47	75.81	23	37.10	39	24	61.54
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	199	25	174	90	51.72	40	22.99	134	50	37.31
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	74	9	65	52	80.00	9	13.85	56	43	76.79
16	Azərbaycan Turizm və Menecment Universiteti	255	0	255	108	42.35	15	5.88	240	93	38.75
17	Bakı Xoreoqrafiya Akademiyası	19	9	10	2	20.00	0	0.00	10	2	20.00
18	Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Azərbaycan İdman Akademiyası	75	0	75	34	45.33	23	30.67	52	11	21.15
19	Milli Aviasiya Akademiyası	117	7	110	81	73.64	42	38.18	68	39	57.35
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	34	3	31	31	100.00	26	83.87	5	5	100.00
21	Bakı Ali Neft Məktəbi	50	0	50	46	92.00	0	0.00	50	46	92.00
22	Dövlət Gömrük Komitəsinin Akademiyası	10	0	10	2	20.00	0	0.00	10	2	20.00
23	Naxçıvan Dövlət Universiteti	248	3	245	86	35.10	13	5.31	232	73	31.47
24	Naxçıvan Müəllimlər İnstitutu	30	0	30	0	0.00	0	0.00	30	0	0.00
25	Azərbaycan Dövlət Aqrar Universiteti	336	19	317	216	68.14	154	48.58	163	62	38.04
26	Gəncə Dövlət Universiteti	324	0	324	99	30.56	39	12.04	285	60	21.05
27	Azərbaycan Texnologiya Universiteti	158	15	143	38	26.57	15	10.49	128	23	17.97
28	Sumqayıt Dövlət Universiteti	340	0	340	135	39.71	51	15.00	289	84	29.07
29	Mingəçevir Dövlət Universiteti	164	0	164	34	20.73	19	11.59	145	15	10.34
30	Lənkəran Dövlət Universiteti	364	7	357	72	20.17	34	9.52	323	38	11.76
31	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	1	14	14	100.00	4	28.57	10	10	100.00
32	Azərbaycan Kooperasiya Universiteti	205	0	205	28	13.66	8	3.90	197	20	10.15
33	Azərbaycan İlahiyyat İnstitutu	10	7	3	3	100.00	3	100.00	0	0	--
34	Azərbaycan Universiteti	143	0	143	13	9.09	8	5.59	135	5	3.70
35	Qərbi Kaspi Universiteti	231	0	231	62	26.84	35	15.15	196	27	13.78
36	Xəzər Universiteti	229	0	229	91	39.74	25	10.92	204	66	32.35
37	Bakı Avrasiya Universiteti	79	0	79	0	0.00	0	0.00	79	0	0.00
38	Bakı Qızlar Universiteti	50	0	50	0	0.00	0	0.00	50	0	0.00
39	Odlar Yurdu Universiteti	221	0	221	86	38.91	62	28.05	159	24	15.09
40	Bakı Biznes Universiteti	116	0	116	5	4.31	0	0.00	116	5	4.31
41	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	67	0	67	3	4.48	0	0.00	67	3	4.48

2.6 saylı cədvəldə ixtisaslaşmalar üzrə dövlət sifarişi əsasında tələbə qəbuluna ayrılan yerlərin sayı və qəbulun nəticələri təqdim edilmişdir. Cədvəldə ixtisaslaşmalar üzrə qəbul olan bakalavrların sayı bütövlükdə və təhsil müəssisələri üzrə ayrılıqda verilmişdir. Magistratura səviyyəsinə bütövlükdə 117 ixtisaslaşmaya dövlət sifarişi üzrə qəbul aparılıb. Onlardan 50.43%-nin yerləri tam dolub, 47.01%-nin yerləri isə kəsirdə qalıb. "Xoreoqrafiya sənəti", "Operator sənəti" və "Uçuş mühəndisliyi" ixtisaslaşmaları üzrə, ümumiyyətlə, qəbul olan yoxdur.

Hər il ali təhsil müəssisələrinə qeydiyyat başa çatdıqdan sonra məlum olur ki, bəzi bakalavrlar müəyyən ixtisaslaşmalar üzrə təhsil almaqdan imtina edirlər. Nəticədə, bu ixtisaslaşmalar üzrə dövlət sifarişi əsasında ayrılan yerlərin bir hissəsi boş qalır. Bundan başqa, müəyyən ixtisaslaşmalar üzrə də müsabiqə şərtini ödəyən bakalavrların sayı kifayət qədər olmadığı üçün boş yerlər yaranır. Bu səbəbdən artıq ikinci ildir ki, hər hansı bir ixtisaslaşma üzrə boş qalan dövlət sifarişli yerlər "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı"na əsasən həmin ixtisaslaşmanın daxil olduğu ixtisaslaşmalar qrupuna aid olan digər ixtisaslaşmalara ödənişli əsaslarla qəbul olan bakalavrlar arasında onların qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən paylanıb. Beləliklə, ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olan bakalavrların bir hissəsi dövlət hesabına təhsil almaq imkanı əldə edib. Bu səbəbdən də aşağıdakı cədvəldə bəzi ixtisaslaşmalarda dövlət sifarişi əsasında ayrılan yerlərə qəbulolma faizi 100-dən çox olmuşdur. Məsələn, ali təhsil müəssisələrinə yerləşdirmə başa çatdıqdan sonra 7005005 Fizika ixtisaslaşması üzrə dövlət sifarişi əsasında ayrılan yerlərdən 16-sı, 7005006 Geologiya ixtisaslaşması üzrə 11-i, 7005009 Kompüter elmləri ixtisaslaşması üzrə 3-ü, 7005010 Mexanika ixtisaslaşması üzrə 1-i, 7005013 Su bioehtiyatları və akvakultura ixtisaslaşması üzrə 1 yer boş qalmışdı. Bu ixtisaslaşmalar "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı"na əsasən "Təbiət ixtisasları qrupu"na daxildir. Bu səbəbdən boş qalan 32 yer həmin qrupa daxil olan 7005004 Ekologiya ixtisaslaşması üzrə ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olan və ən yüksək nəticə əldə edən 32 bakalavr arasında bölüşdürülmüşdür. Nəticədə bu bakalavrlar qəbul olduqları ixtisaslaşmalar üzrə dövlət hesabına təhsil almaq imkanı əldə etmişdir.

Qəbul imtahanının nəticələrinə görə, ən yüksək keçid balları 7006014 Hava nəqliyyatının hərəkətinin təşkili (74.0 bal), 7002002 Davamlı inkişaf (71.0) və 7004001 Beynəlxalq ticarət və logistika (70.5 bal) ixtisaslaşmalarında qeydə alınıb.

Təhsil dövlət hesabına olan yerlərə qəbul ən çox 7005009 Kompüter elmləri (390 nəfər), 7006016 İnformasiya texnologiyaları (388 nəfər), 7001001 Pedaqogika (350 nəfər) və 7006022 Kompüter mühəndisliyi (304 nəfər) ixtisaslaşmaları üzrə olub.

Cədvəl 2.6

İXTİSASLAŞMALAR ÜZRƏ TƏLƏBƏ QƏBULUNA DÖVLƏT HESABINA AYRILAN YERLƏRİN SAYI VƏ QƏBULUN NƏTİCƏLƏRİ

№	Dövlət sifarişi əsasında qəbul aparılan ixtisaslaşmaların adı	Qəbul planı	Qəbul olan bakalavrların sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
1	Aerokosmik mühəndislik	23	23	100.00	47.50	Milli Aviasiya Akademiyası	23
2	Aktyor sənəti	13	9	69.23	6.0 (36.00)	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	9
3	Aqromühəndislik	25	22	88.00	34.00	Azərbaycan Dövlət Aqrar Universiteti	22
4	Aqronomluq	55	48	87.27	31.00	Azərbaycan Dövlət Aqrar Universiteti	33
						Lənkəran Dövlət Universiteti	15
5	Aviasiya təhlükəsizliyi mühəndisliyi	4	5	125.00	48.50	Milli Aviasiya Akademiyası	5
6	Bağçılıq və tərəvəzçilik	15	15	100.00	32.50	Azərbaycan Dövlət Aqrar Universiteti	15
7	Balıqçılıq	9	9	100.00	39.00	Azərbaycan Dövlət Aqrar Universiteti	9
8	Baytarlıq təbabəti	55	37	67.27	37.00	Naxçıvan Dövlət Universiteti	1
						Azərbaycan Dövlət Aqrar Universiteti	27
						Lənkəran Dövlət Universiteti	4
						Xəzər Universiteti	5

Cədvəl 2.6 (ardı)

№	Dövlət sifarişi əsasında qəbul aparılan ixtisaslaşmaların adı	Qəbul planı	Qəbul olan bakalavrların sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
9	Beynəlxalq münasibətlər	30	30	100.00	68.00	Bakı Dövlət Universiteti	14
						Azərbaycan Dillər Universiteti	1
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	13
						Naxçıvan Dövlət Universiteti	1
						Xəzər Universiteti	1
10	Beynəlxalq ticarət və logistika	10	10	100.00	70.50	Azərbaycan Texniki Universiteti	2
						Azərbaycan Dövlət İqtisad Universiteti	6
						Dövlət Gömrük Komitəsinin Akademiyası	1
						Azərbaycan Texnologiya Universiteti	1
11	Bəstəkarlıq	7	2	28.57	10.0 (32.00)	Bakı Musiqi Akademiyası	1
						Azərbaycan Milli Konservatoriyası	1
12	Biologiya	162	146	90.12	45.00	Bakı Dövlət Universiteti	51
						Azərbaycan Tibb Universiteti	16
						Naxçıvan Dövlət Universiteti	7
						Azərbaycan Dövlət Aqrar Universiteti	3
						Gəncə Dövlət Universiteti	26
						Sumqayıt Dövlət Universiteti	10
						Qərbi Kaspi Universiteti	19
						Odlar Yurdu Universiteti	14
13	Biotexnologiya	20	1	5.00	64.50	Bakı Dövlət Universiteti	1
14	Bitki mühafizəsi	23	13	56.52	30.00	Azərbaycan Dövlət Aqrar Universiteti	13
15	Biznesin idarə edilməsi	100	100	100.00	62.50	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	2
						Azərbaycan Texniki Universiteti	2
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	4
						Azərbaycan Dövlət İqtisad Universiteti	92
17	Cihaz mühəndisliyi	89	110	123.60	45.00	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	77
						Azərbaycan Texniki Universiteti	29
						Milli Aviasiya Akademiyası	4
18	Coğrafiya	47	28	59.57	45.00	Bakı Dövlət Universiteti	17
						Gəncə Dövlət Universiteti	4
						Sumqayıt Dövlət Universiteti	6
						Azərbaycan Kooperasiya Universiteti	1
19	Data elmləri	100	64	64.00	51.50	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	5
						Azərbaycan Texniki Universiteti	24
						Azərbaycan Dövlət İqtisad Universiteti	26
						Sumqayıt Dövlət Universiteti	9
20	Davamlı inkişaf	8	8	100.00	71.00	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	8

Cədvəl 2.6 (ardı)

№	Dövlət sifarişi əsasında qəbul aparılan ixtisaslaşmaların adı	Qəbul planı	Qəbul olan bakalavrların sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
21	Dekorativ-tətbiqi sənət	16	10	62.50	6.0 (30.00)	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	2
						Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	8
22	Dəniz naviqasiyası mühəndisliyi	15	15	100.00	43.00	Azərbaycan Dövlət Dəniz Akademiyası	15
23	Dinşünaslıq	4	2	50.00	55.50	Azərbaycan İlahiyyat İnstitutu	2
24	Dirijorluq	8	7	87.50	7.0 (42.50)	Bakı Musiqi Akademiyası	4
						Azərbaycan Milli Konservatoriyası	3
25	Dizayn	50	101	202.00	6.0 (43.00)	Azərbaycan Memarlıq və İnşaat Universiteti	38
						Azərbaycan Dövlət İqtisad Universiteti	38
						Bakı Mühəndislik Universiteti	1
						Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	3
						Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	10
						Azərbaycan Texnologiya Universiteti	6
						Xəzər Universiteti	2
						Odlar Yurdu Universiteti	3
26	Dövlət və bələdiyyə idarəetməsi	40	40	100.00	67.50	Azərbaycan Dövlət İqtisad Universiteti	19
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	21
27	Dövlət və ictimai münasibətlər	10	12	120.00	69.00	Bakı Dövlət Universiteti	1
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	11
28	Ekologiya	40	72	180.00	45.00	Bakı Dövlət Universiteti	28
						Azərbaycan Dövlət İqtisad Universiteti	20
						Azərbaycan Dövlət Aqrar Universiteti	2
						Mingəçevir Dövlət Universiteti	5
						Lənkəran Dövlət Universiteti	5
						Azərbaycan Kooperasiya Universiteti	4
						Qərbi Kaspi Universiteti	2
						Odlar Yurdu Universiteti	6
29	Ekologiya mühəndisliyi	90	195	216.67	45.00	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	58
						Azərbaycan Texniki Universiteti	59
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	49
						Bakı Mühəndislik Universiteti	13
						Milli Aviasiya Akademiyası	5
						Azərbaycan Texnologiya Universiteti	2
						Sumqayıt Dövlət Universiteti	6
						Mingəçevir Dövlət Universiteti	3

Cədvəl 2.6 (ardı)

№	Dövlət sifarişi əsasında qəbul aparılan ixtisaslaşmaların adı	Qəbul planı	Qəbul olan bakalavrların sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
30	Elektrik və elektronika mühəndisliyi	120	121	100.83	42.00	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	40
						Azərbaycan Texniki Universiteti	60
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	7
						Milli Aviasiya Akademiyası	3
						Azərbaycan Dövlət Dəniz Akademiyası	5
						Azərbaycan Dövlət Aqrar Universiteti	2
						Sumqayıt Dövlət Universiteti	3
						Xəzər Universiteti	1
31	Energetika mühəndisliyi	120	96	80.00	40.00	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	52
						Azərbaycan Texniki Universiteti	31
						Bakı Mühəndislik Universiteti	3
						Milli Aviasiya Akademiyası	4
						Naxçıvan Dövlət Universiteti	2
						Mingəçevir Dövlət Universiteti	4
32	Əczaçılıq	40	37	92.50	47.50	Azərbaycan Tibb Universiteti	31
						Naxçıvan Dövlət Universiteti	2
						Azərbaycan Dövlət Aqrar Universiteti	4
33	Ədəbi yaradıcılıq və ekran dramaturgiyası	6	6	100.00	48.50	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	6
34	Fəlsəfə	19	19	100.00	55.50	Bakı Dövlət Universiteti	19
35	Filologiya	75	75	100.00	64.50	Bakı Dövlət Universiteti	34
						Azərbaycan Dillər Universiteti	30
						Naxçıvan Dövlət Universiteti	2
						Gəncə Dövlət Universiteti	1
						Xəzər Universiteti	8
36	Fizika	109	93	85.32	45.00	Bakı Dövlət Universiteti	62
						Naxçıvan Dövlət Universiteti	3
						Gəncə Dövlət Universiteti	8
						Sumqayıt Dövlət Universiteti	20
37	Fizioterapiya	6	7	116.67	40.00	Azərbaycan Tibb Universiteti	7
38	Geologiya	27	16	59.26	46.50	Bakı Dövlət Universiteti	8
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	8
39	Geologiya və geofizika mühəndisliyi	109	67	61.47	40.00	Bakı Dövlət Universiteti	20
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	47
40	Geomatika və geodeziya mühəndisliyi	17	17	100.00	40.00	Bakı Dövlət Universiteti	5
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	12

Cədvəl 2.6 (ardı)

№	Dövlət sifarişi əsasında qəbul aparılan ixtisaslaşmaların adı	Qəbul planı	Qəbul olan bakalavrların sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
41	Gəmi energetik qurğularının istismarı mühəndisliyi	10	7	70.00	46.50	Azərbaycan Dövlət Dəniz Akademiyası	7
42	Gəmiqayırma və gəmi təmiri mühəndisliyi	4	4	100.00	45.50	Azərbaycan Dövlət Dəniz Akademiyası	4
43	Hava nəqliyyatının hərəkətinin təşkili	4	1	25.00	74.00	Milli Aviasiya Akademiyası	1
44	Heykəltəraşlıq	4	3	75.00	8.0 (33.00)	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	3
45	Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi	35	48	137.14	46.00	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	19
						Azərbaycan Texniki Universiteti	10
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	9
						Fövqəladə Hallar Nazirliyinin Akademiyası	10
46	Hidrometeorologiya	11	4	36.36	46.00	Milli Aviasiya Akademiyası	4
47	Hüquqşünaslıq	140	155	110.71	69.00	Bakı Dövlət Universiteti	135
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	14
						Milli Aviasiya Akademiyası	1
						Dövlət Gömrük Komitəsinin Akademiyası	2
						Naxçıvan Dövlət Universiteti	3
48	Xoreoqrafiya sənəti	9	0	0.00	---		
49	Xüsusi rabitə vasitələri mühəndisliyi	30	7	23.33	41.00	Azərbaycan Texniki Universiteti	7
50	İctimai səhiyyə	15	15	100.00	55.50	Azərbaycan Tibb Universiteti	15
51	İdman tibbi	3	3	100.00	64.50	Azərbaycan Tibb Universiteti	3
52	İqtisadiyyat	200	199	99.50	63.00	Bakı Dövlət Universiteti	24
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	14
						Azərbaycan Texniki Universiteti	12
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	3
						Azərbaycan Dövlət İqtisad Universiteti	110
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	15
						Azərbaycan Turizm və Menecment Universiteti	3
						Milli Aviasiya Akademiyası	2
						Naxçıvan Dövlət Universiteti	4
						Azərbaycan Dövlət Aqrar Universiteti	3
						Lənkəran Dövlət Universiteti	2
						Xəzər Universiteti	5
						Odlar Yurdu Universiteti	1
						Bakı Biznes Universiteti	1

Cədvəl 2.6 (ardı)

№	Dövlət sifarişi əsasında qəbul aparılan ixtisaslaşmaların adı	Qəbul planı	Qəbul olan bakalavrların sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
	Bütövlükdə	**12970**	**4773**	**36.80**	**6666**	**51.40**	**836**	**6.45**	**603**	**4.65**	**92**	**0.71**
	cari ilin məzunları	9477	3810	29.38	4723	36.41	588	4.53	351	2.71	5	0.04
	əvvəlki illərin məzunları	3493	963	7.42	1943	14.98	248	1.91	252	1.94	87	0.67

3. REZİDENTURAYA QƏBUL

Rezidentura tibb ixtisasları üzrə əsas (baza ali) tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığı formasıdır. Burada təhsil dövlət standartı və proqramına uyğun olaraq hazırlanmış əsas (baza ali) tibb təhsili proqramları əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr 503 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların təsnifatı"nda qeyd olunan həkim-mütəxəssis ixtisasları üzrə aparılır. Rezidenturada həkim-mütəxəssis hazırlığı klinik baza olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş elm, təhsil müəssisələri və klinikalarda aparılır. Azərbaycan Respublikasının vətəndaşları üçün rezidenturada təhsil dövlət sifarişi əsasında həyata keçirilir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli, 156 nömrəli fərmanı, "Rezidentura təhsilinin məzmunu və təşkili qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli, 50 nömrəli və 2013-cü il 21 noyabr tarixli, 330 nömrəli qərarlarına əsasən rezidenturaya qəbul 2025-ci ildə də DİM tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilmişdir. Qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları" ilə tənzimlənib.

2025-ci ildə tibb (müalicə işi, pediatriya), stomatologiya və tibbi profilaktika istiqamətləri ilə yanaşı, ilk dəfə olaraq ictimai səhiyyə istiqaməti üzrə rezidenturaya qəbul imtahanları keçirilmişdir. Bununla da namizədlər 2025-ci ildə 3 deyil, 4 istiqamət üzrə imtahan vermişlər. Ötən illərdə olduğu kimi, əsas (baza ali) tibb təhsilinin tibb (müalicə işi, pediatriya), stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə baza və ixtisas fənlərindən qəbul proqramları əlavə və düzəlişlər edilməklə təkmilləşdirilmiş, ictimai səhiyyə istiqaməti üzrə isə yeni proqramlar tərtib olunaraq tibb təhsili müəssisələrinin müvafiq kafedralarının əməkdaşlarının iştirakı ilə müzakirə edilərək, razılaşdırılmışdır. Eyni zamanda test tərtibi metodikası üzrə treninqlər keçirilmiş, mövcud test bankı yeni test tapşırıqları ilə zənginləşdirilmiş və ictimai səhiyyə istiqaməti üzrə yeni test bankı yaradılmışdır.

Rezidenturaya qəbul qaydaları və baza fənləri üzrə qəbul proqramları, 2024-cü ildə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri 2025-ci ilin fevral ayında "Rezidentura" jurnalının 1-ci nömrəsində dərc olunaraq ictimaiyyətə təqdim olunmuşdur. Rezidenturaya qəbul elanı və ixtisas fənləri üzrə qəbul proqramları, 2024-cü ildə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri "Rezidentura" jurnalının 2-ci nömrəsində, qəbul imtahanının II mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisasların siyahısı, qəbul imtahanının I mərhələsinin nəticələri, qəbul planı və namizədlər üçün tövsiyələr, 2024-cü ildə rezidenturaya qəbul müsabiqəsində klinik bazaların ixtisasları üzrə formalaşmış keçid balları isə jurnalın 3-cü nömrəsində dərc edilmişdir. Jurnalın 4-cü nömrəsində 2025-ci ildə rezidenturaya qəbul olanların adlı siyahısı və cari ildə klinik bazalar üzrə formalaşmış keçid balları verilmişdir.

2020-ci ildən etibarən rezidenturaya qəbul imtahanının I mərhələsinin nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir, imtahandan 40 və daha çox bal toplayan namizədlər "məqbul" alaraq imtahanın II mərhələsində iştirak etmək hüququ qazanırlar. Bundan başqa, imtahanın I mərhələsində "məqbul" alanların nəticəsi 5 (beş) il qüvvədə qalır, yəni onlar 5 (beş) il ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. Rezidenturaya qəbulun I mərhələsinə əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş tələbələr (IV və V kurs tələbələri) də buraxılıblar. Bu imtahandan "məqbul" alan tələbələr isə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən sonra buraxılacaqlar.

Rezidenturaya qəbul aparılan ixtisaslar əsas (baza ali) tibb təhsilinə uyğun olaraq istiqamətlər üzrə qruplaşdırılıb. 3.1 saylı cədvəldə istiqamətlərin, həmçinin istiqamətlərə müvafiq baza və ixtisas fənlərinin siyahısı təqdim edilib.

Cədvəl 3.1

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHAN FƏNLƏRİ

İstiqamətin adı	Baza fənləri	İxtisas fənləri
I. Tibb (müalicə işi, pediatriya)	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya) Patoloji fiziologiya Mikrobiologiya Farmakologiya Biokimya	Daxili xəstəliklər (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya, yoluxucu xəstəliklər, psixiatriya) Cərrahlıq (ümumi cərrahlıq, cərrahi xəstəliklər, uşaq cərrahlığı) Mamalıq və ginekologiya Neonatologiya
II. Stomatologiya	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya) Patoloji fiziologiya Mikrobiologiya Farmakologiya Biokimya	Terapevtik stomatologiya Ortopedik stomatologiya Üz-çənə cərrahiyyəsi Uşaq stomatologiyası
III. Tibbi profilaktika	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya) Patoloji fiziologiya Mikrobiologiya Farmakologiya Biokimya	Yoluxucu xəstəliklər Gigiyena (ətraf mühitin gigiyenası, yaşayış məskənlərinin gigiyenası, qidalanma gigiyenası, əmək gigiyenası, uşaq və yeniyetmələrin gigiyenası) Epidemiologiya Klinik biokimya
IV. İctimai səhiyyə	İnsan anatomiyası Hüceyrə biologiyası (sitologiya) İnsan fiziologiyası Fiziopatologiya (patoloji fiziologiya) Mikrobiologiya Farmakologiya Biokimya	Yoluxucu xəstəliklər Gigiyena (ətraf mühitin gigiyenası, yaşayış məskənlərinin gigiyenası, qidalanma gigiyenası, əmək gigiyenası, uşaq və yeniyetmələrin gigiyenası) Epidemiologiya Klinik biokimya

2025-ci ildə rezidenturaya qəbul Səhiyyə Nazirliyi sistemi üzrə 33 klinik bazaya aparılıb. Rezidenturaya Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün ümumilikdə 778 plan yeri ayrılmışdı (onlardan 71 plan yeri Hərbi tibb fakültəsi, 40 plan yeri isə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı üçün nəzərdə tutulmuşdur). 3.2 saylı cədvəldən də göründüyü kimi, rezidenturaya ən çox qəbul planı Azərbaycan Tibb Universitetinin payına düşüb (277 yer – Hərbi tibb fakültəsi də daxil olmaqla). Bu təhsil müəssisəsinin qəbul planı ümumilikdə rezidentura üçün ayrılmış qəbul planının 35.60%-ni təşkil edib.

Cədvəl 3.2

QƏBUL PLANININ KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	İstiqamətlər*			Bütövlükdə
		I	II	I, III, IV	
1	Azərbaycan Tibb Universiteti	143	38	25	206
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	25	0	1	26
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	25	0	1	26
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti sistemi üçün)	15	0	0	15
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi sistemi üçün)	2	0	0	2
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti sistemi üçün)	2	0	0	2

Cədvəl 3.2 (ardı)

№	Müəssisənin adı	İstiqamətlər*			Bütövlükdə
		I	II	I, III, IV	
2	Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi	6	0	0	6
3	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	47	5	2	54
4	Milli Onkologiya Mərkəzi	6	0	1	7
5	Ak. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi	15	0	0	15
6	Milli Hematologiya və Transfuziologiya Mərkəzi	0	0	4	4
7	Kliniki Tibbi Mərkəz	31	0	2	33
8	Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi	15	0	0	15
9	Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu	3	0	0	3
10	K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu	7	0	0	7
11	Respublika Neyrocərrahiyyə Xəstəxanası	3	0	0	3
12	Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu	10	0	4	14
13	Mərkəzi Neftçilər Xəstəxanası	34	0	1	35
14	Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası	4	0	0	4
15	Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu	5	0	0	5
16	Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu	6	0	0	6
17	Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası	40	2	0	42
18	Mərkəzi Klinika	21	0	0	21
19	Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu	4	0	0	4
20	Bakı Sağlamlıq Mərkəzi	13	0	0	13
21	Naxçıvan Dövlət Universiteti	23	3	4	30
22	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	40	0	0	40
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı	22	0	2	24
24	Yeni Klinika	40	0	0	40
25	Naxçıvan Muxtar Respublikası Xəstəxanası	24	0	0	24
26	Naxçıvan Sağlamlıq Mərkəzi	17	0	0	17
27	Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi	0	11	0	11
28	Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi	2	0	4	6
29	Yaqub Budaqov adına Naxçıvan Muxtar Respublikasının Psixi Xəstəliklər Dispanseri	6	0	0	6
30	Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası	6	0	0	6
31	Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi	2	0	0	2
32	Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi	2	0	0	2
33	Naxçıvan Muxtar Respublikası Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi	2	0	0	2
	C Ə M İ	**668**	**59**	**51**	**778**

* (İstiqamətlər: I – tibb (müalicə işi, pediatriya); II – stomatologiya; III – tibbi profilaktika; IV – ictimai səhiyyə)

2024-cü illə müqayisədə qəbul planı tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə 99 yer, stomatologiya istiqaməti üzrə 24 yer artmışdır.

Artıq beşinci ildir ki, namizədlərə baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iki dəfə iştirak etmək üçün şərait yaradılır. Qəbul imtahanının I mərhələsinin 1-ci cəhdində iştirak etmək üçün ərizələrin qəbulu 2025-ci il aprelin 11-dən 18-dək, 2-ci cəhdində iştirak etmək üçün isə iyunun 4-dən 12-dək internet vasitəsilə aparılıb. Namizədlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet"lərini yaratdıqdan sonra "Şəxsi kabinet"lərinin istifadəçi adı və parolundan istifadə edərək DİM-in internet saytının müvafiq səhifəsinə (eservices.dim.gov.az/erizerez/erize) daxil olaraq, "Namizədin elektron ərizəsi" formasını doldurub təsdiq ediblər. Müsabiqədə iştirak ödənişli olmuşdur. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının xarici ölkələrdə əsas (baza ali) tibb təhsili almış vətəndaşları imtahanda iştirak etmək üçün "Namizədin elektron ərizəsi" formasını doldurduqdan sonra tələb olunan sənədlərin əslini şəxsən təqdim edərək elektron ərizələrini DİM-də yaradılmış Sənəd Qəbulu Komissiyalarında təsdiq etdiriblər.

Rezidenturada təhsil almaq üçün 1762 namizəd ərizə verib. Onların 40.41%-ni (712 nəfər) oğlanlar, 59.59%-ni (1050 nəfər) qızlar təşkil edib. Sənəd verənlərin 581 nəfəri (32.97%) əsas (baza ali) tibb təhsilini cari ildə başa vurub. Onlardan 215 nəfərini oğlanlar (37.01%), 366 nəfərini isə qızlar (62.99%) təşkil edib.

Əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə qəbul planı, imtahanda iştirak etmək üçün təqdim edilən ərizələrin sayı və ərizə qəbulu mərhələsində müsabiqə vəziyyəti 3.3 saylı cədvəldə göstərilir.

Cədvəl 3.3

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ VƏ BÖLMƏLƏR ÜZRƏ QƏBUL PLANI, NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN PAYLANMASI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

İstiqamət	Qəbul planı*	Ərizələrin sayı			Müsabiqə vəziyyəti
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Tibb (müalicə işi, pediatriya)	719 (668)	1093	312	1405	2.0
II. Stomatologiya	59 (59)	155	40	195	3.3
III. Tibbi profilaktika	51 (0)	110	12	122	2.4
IV. İctimai səhiyyə	51 (0)	39	1	40	0.8
C Ə M İ	**778****	**1397**	**365**	**1762**	**2.3**

* Mötərizədə yalnız müvafiq istiqamət üzrə ayrılan plan yerlərinin (digər istiqamətlərlə birgə olan plan yerləri istisna olunmaqla) sayı göstərilib.

** Tibb (müalicə işi, pediatriya), tibbi profilaktika və ictimai səhiyyə üzrə 51 yer (tibbi biokimya (17 yer), tibbi mikrobiologiya (21 yer) və yoluxucu xəstəliklər və kliniki mikrobiologiya (13 yer) ixtisasları üzrə) üçün birgə müsabiqə aparılıb.

3.3 saylı cədvəldən görünür ki, imtahanda iştirak etmək üçün ən çox ərizə tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə təqdim edilib. Ümumiyyətlə, ərizələrin sayı ötən illə müqayisədə tibbi profilaktika istiqaməti üzrə 13.48% (19 ərizə) azalmış, tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə 1.59% (22 ərizə), stomatologiya istiqaməti üzrə 46.62% (62 ərizə), bütün istiqamətlər üzrə isə ümumilikdə 6.34% (105 ərizə) artmışdır.

Ən yüksək müsabiqə vəziyyəti stomatologiya istiqaməti üzrə (bir yerə orta hesabla 3.3 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə ictimai səhiyyə istiqaməti üzrə (bir yerə orta hesabla 0.8 ərizə) müşahidə olunub. Ümumilikdə ötən illə müqayisədə müsabiqə vəziyyəti 2.4-dən 2.3-ə qədər azalmışdır. Müsabiqə vəziyyətinin aşağı olması cari ildə plan yerlərinin sayının artması ilə əlaqədardır.

Rezidenturaya qəbul imtahanı iki mərhələdə keçirilib. I mərhələ üzrə imtahanın 1-ci cəhdi mayın 4-də, 2-ci cəhdi iyunun 29-da, II mərhələ üzrə imtahan isə avqustun 10-da keçirilib. Qəbul imtahanının hər iki mərhələsi Bakı və Naxçıvan şəhərlərində keçirilib. II mərhələyə imtahanın I mərhələsində nəticələri "məqbul" olan (40 və daha çox bal toplayan) və müsabiqədə iştirak etmək hüququ olan namizədlər buraxılıb. İmtahanın birinci mərhələsində namizədlərin əsas (baza ali) tibb təhsili istiqamətinə müvafiq olaraq baza fənləri üzrə, ikinci mərhələsində isə ixtisas fənləri üzrə bilikləri yoxlanılıb. Namizədlərə hər mərhələdə 100 test tapşırığı təqdim olunub. Hər bir test tapşırığına düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar namizədin imtahan nəticələrinə təsir göstərməyib. Hər mərhələdə imtahan suallarının cavablandırılmasına 2.5 saat vaxt ayrılıb.

İmtahanın I mərhələsində əsas (baza ali) tibb təhsilinin bütün istiqamətləri üzrə patoloji fiziologiya və insan fiziologiyası fənlərindən son 5 test tapşırığı açıq formalı olub. İmtahanın II mərhələsində tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən, tibbi profilaktika və ictimai səhiyyə istiqamətləri üzrə epidemiologiya fənnindən son 5 test tapşırığı açıq formalı olub. Hər iki mərhələdə sual kitabçaları fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları imtahanın hər iki mərhələsində tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə 2 variantda, digər istiqamətlər üzrə isə 1 variantda, Azərbaycan və rus dillərində hazırlanıb. Bütövlükdə, imtahanlarda 30 sual kitabçasından və 3000 test tapşırığından istifadə edilib.

Qəbul imtahanının I mərhələsi üzrə 1-ci cəhdin nəticələri mayın 5-də, 2-ci cəhdin nəticələri iyulun 1-də, II mərhələsi üzrə nəticələr isə avqustun 11-də DİM-in internet saytında elan olunub.

Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iştirak etmək üçün 815 tələbə (344 oğlan, 471 qız) müraciət etmiş, onlardan 814 nəfəri (343 oğlan, 471 qız) baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirak etmiş və 341-i (137 oğlan, 204 qız) "məqbul" almışdır.

İmtahanın I mərhələsində iştirak edən 1864 namizəddən 1050-si (419 oğlan (39.90%), 631 qız (60.10%)) əvvəlki və cari ilin məzunları olmuşdur. Bu namizədlərdən 269-u (83 oğlan (30.86%), 186 qız (69.14%)) məqbul alaraq II mərhələdə iştirak etmək hüququ əldə etmişdir.

Aşağıdakı cədvəldə əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın I mərhələsində iştirak edən cari il məzunlarının nəticələrinin IV və V kurs tələbələrinin nəticələri ilə müqayisəsi təqdim olunmuşdur.

Cədvəl 3.4


ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHANIN I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏNLƏRİN NƏTİCƏLƏRİNİN MÜQAYİSƏSİ

İstiqamət	İmtahanda iştirak edənlərin sayı		"Məqbul" alanların sayı və faizi			
			Cari ilin məzunları		IV və V kurs tələbələri	
	Cari ilin məzunları	IV və V kurs tələbələri	sayı	faizi	sayı	faizi
I. Tibb (müalicə işi, pediatriya)	185	724	51	27.57	308	42.54
II. Stomatologiya	38	71	19	50.00	28	39.44
III. Tibbi profilaktika	17	0	3	17.65	0	---
IV. İctimai səhiyyə	40	19	21	52.50	5	26.32
C Ə M İ	**280**	**814**	**94**	**33.57**	**341**	**41.89**

Cədvəldən də göründüyü kimi, 2025-ci ildə imtahanın I mərhələsində iştirak edən cari il məzunlarının bütövlükdə 33.57%-i, IV və V kurs tələbələrinin isə 41.89%-i "məqbul" almışdır. Cari il məzunlarının 294 nəfəri əvvəlki illərdə tələbə kimi imtahanın I mərhələsindən "məqbul" aldığı üçün cari ildə imtahanın I mərhələsində iştirak etməmişdir. Onları da nəzərə alsaq, bu halda cari il məzunlarından "məqbul" alanların nisbi sayı faktiki olaraq 67.60% olardı.


3.1-3.3 saylı şəkillərdə qəbul imtahanının I mərhələsində iştirak edən əvvəlki illərin məzunlarının, cari il məzunlarının, IV və V kurs tələbələrinin ayrı-ayrılıqda topladıqları balların paylanma diaqramı təqdim edilib. Diaqramlar göstərir ki, əvvəlki illərin məzunlarının imtahandakı nəticələri digər imtahan iştirakçılarının nəticələrindən çox zəifdir. IV və V kurs tələbələrinin 41.90%-i imtahanın I mərhələsində müsabiqə şərtini ödəyib (ən azı 40 bal toplayıb). Bu cür nəticə göstərənlərin nisbi sayı cari ilin məzunları arasında 33.57%, əvvəlki illərin məzunları arasında isə 22.73% təşkil edib. Əvvəlki illərin məzunlarının böyük hissəsi (77.27%-i) 40 baldan aşağı nəticə göstərdiyinə görə məqbul nəticə əldə edə bilməmişdir. Təhlil zamanı bu namizədlərin hazırlıq səviyyəsinin digər imtahan iştirakçılarından aşağı olduğunu görürük.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARININ TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI




Şəkil 3.1

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN CARİ İL MƏZUNLARININ TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.2

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN IV VƏ V KURS TƏLƏBƏLƏRİNİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.3

Cari ildə imtahanın I mərhələsində iştirak edənlərdən 269 nəfər əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın II mərhələsində iştirak etmək hüququ qazanmış və onlardan 231-i imtahanın II mərhələsində iştirak etmək üçün ərizə vermişdir. Bundan başqa, əvvəlki illərdə rezidenturaya qəbul imtahanının I mərhələsində iştirak edərək "məqbul" alan 674 nəfər də II mərhələdə iştirak etmək üçün ərizə vermiş və ümumilikdə II mərhələdə iştirak etmək üçün ərizə verənlərin sayı 905 nəfər olmuşdur. İmtahanın II mərhələsində 901 nəfər iştirak etmiş və bu namizədlərin çoxu (610 nəfər – 67.70%) müsabiqədə iştirak etmək hüququ qazanmışdır. Onlardan 228 nəfəri oğlan (116 nəfər cari ilin məzunu), 382 nəfəri qız (188 nəfər cari ilin məzunu) olub.

İmtahanda və müsabiqədə iştirak etmək hüququ qazanan namizədlərin istiqamətlər üzrə sayı haqqında məlumat 3.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 3.5

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL PLANI, İMTAHANIN II MƏRHƏLƏSİNDƏ VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANAN NAMİZƏDLƏRİN PAYLANMASI

İstiqamət	Qəbul planı*	İmtahanda iştirak edən namizədlərin sayı		Müsabiqədə iştirak etmək hüququ qazanmış namizədlərin sayı
		I mərhələ	II mərhələ**	
I. Tibb (müalicə işi, pediatriya)	719 (71)	797 (4)	730 (56)	516 (32)
II. Stomatologiya	59 (0)	145	84	65
III. Tibbi profilaktika	51 (2)	68	69	20
IV. İctimai səhiyyə	51 (2)	40	18	9
C Ə M İ	778 (71)	1050 (4)	901 (56)	610 (32)

* mötərizədə o cümlədən Hərbi tibb fakültəsi üzrə qəbul planı verilib.


** II mərhələdə I mərhələ üzrə (cari və əvvəlki 5 il ərzində) ən azı 40 bal toplayan namizədlər iştirak ediblər.

3.4 və 3.5 saylı şəkillərdə rezidenturaya qəbul olmaq üçün imtahanda iştirak edən cari və əvvəlki illərin məzunlarının I və II mərhələ üzrə topladıqları balların paylanma diaqramları təqdim edilib. I mərhələdə namizədlərin 25.62%-i (269 nəfər) müsabiqə şərtini (40 və daha yüksək bal) ödəyib və bu namizədlər

II mərhələdə iştirak etmək hüququ qazanıblar. Ötən il bu göstərici 32.47%-ə, 2023-cü ildə 37.43%-ə, 2022-ci ildə 30.96%-ə, 2021-ci ildə 41.91%-ə, 2020-ci ildə isə 53.46%-ə bərabər olub. I mərhələdə "məqbul" alanların nisbi sayını 2020-ci illə müqayisə etdikdə məlum olur ki, sonrakı illərdə bu göstərici üzrə azalma müşahidə olunur. Məlum olduğu kimi, rezidenturaya qəbul imtahanının I mərhələsində "məqbul" alanların nəticələri 5 il qüvvədə qalır və bu qayda ilk dəfə olaraq 2020-ci ildə tətbiq edilib. III, IV və V kursda təhsil alan tələbələr də bu imkandan istifadə edirlər. Bu səbəbdən, 2020-ci ildən etibarən hər il rezidenturaya keçirilən qəbul imtahanının I mərhələsində "məqbul" alanların payının azalması müşahidə olunur. Belə ki, bu tələbələrin imtahanda iştirak etmələri növbəti illərdə imtahan verən seçmənin tərkibində yüksəkhazırlıqlı namizədlərin nisbi çəkisinin azalması ilə nəticələnib.


Qəbul imtahanının II mərhələsində iştirak edən namizədlərin böyük hissəsi (610 nəfər, 67.70%-i) 50 baldan yuxarı nəticə göstərərək ixtisas seçiminə buraxılıb. Namizədlərin 32.30%-i isə 50 baldan aşağı nəticə göstərdiyi üçün ixtisas seçiminə buraxılmayıb.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN (CARİ VƏ ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARI) TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.4

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ (İXTİSAS FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.5

Qəbul imtahanının nəticələri əsasında reprezentativ seçməyə malik olan tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə I və II mərhələdə iştirak edən namizədlərin ayrılıqda topladıqları balların paylanmasının ədədi xarakteristikaları və histoqramları müəyyənləşdirilib (3.6, 3.7 saylı cədvəllər və 3.1, 3.2 saylı qrafiklərə bax). Qrafiklərdə namizədlərin topladıqları balların paylanma histoqramı, riyazi gözləmə – orta qiyməti (M) və namizədlər seçməsini sayca iki bərabər hissəyə ayıran mediana (Me) təsvir edilib. Balların paylanma histoqramı həm I mərhələdə, həm də II mərhələdə, demək olar ki, normal paylanmaya yaxındır.


Tibb (müalicə işi, pediatriya) istiqaməti
(*I mərhələ, IV və V kurs tələbələri də nəzərə alınmaqla*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə:	35.30	Minimal bal:	8
Ortakvadratik meyil:	9.68	Maksimal bal:	73
Moda:	32	Namizədlərin sayı:	1521
Median:	34.16		

Cədvəl 3.6

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	319	20.97	53.52	66 - 70	6	0.39	99.93
1 - 5	0	0.00	0.00	36 - 40	287	18.87	72.39	71 - 75	1	0.07	100.00
6 - 10	1	0.07	0.07	41 - 45	211	13.87	86.26	76 - 80	0	0.00	100.00
11 - 15	13	0.85	0.92	46 - 50	102	6.71	92.97	81 - 85	0	0.00	100.00
16 - 20	55	3.62	4.54	51 - 55	60	3.94	96.91	86 - 90	0	0.00	100.00
21 - 25	168	11.05	15.58	56 - 60	31	2.04	98.95	91 - 95	0	0.00	100.00
26 - 30	258	16.96	32.54	61 - 65	9	0.59	99.54	96 - 100	0	0.00	100.00

Qrafik 3.1




Tibb (müalicə işi, pediatriya) istiqaməti
(*II mərhələ*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə:	55.55	Minimal bal:	13
Ortakvadratik meyil:	11.61	Maksimal bal:	86
Moda:	52	Namizədlərin sayı:	730
Median:	55.09		

Cədvəl 3.7

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	23	3.15	4.79	66 - 70	66	9.04	90.00
1 - 5	0	0.00	0.00	36 - 40	36	4.93	9.73	71 - 75	48	6.58	96.58
6 - 10	0	0.00	0.00	41 - 45	68	9.32	19.04	76 - 80	18	2.47	99.04
11 - 15	1	0.14	0.14	46 - 50	92	12.60	31.64	81 - 85	6	0.82	99.86
16 - 20	1	0.14	0.27	51 - 55	132	18.08	49.73	86 - 90	1	0.14	100.00
21 - 25	2	0.27	0.55	56 - 60	112	15.34	65.07	91 - 95	0	0.00	100.00
26 - 30	8	1.10	1.64	61 - 65	116	15.89	80.96	96 - 100	0	0.00	100.00

Qrafik 3.2



Rezidenturaya qəbul imtahanının II mərhələsində iştirak edənlər və qəbul olanlar seçmələri üzrə ayrılıqda ortastatistik namizədin portreti müəyyənləşdirilib. II mərhələ üzrə imtahanda iştirak edənlər seçməsini təmsil edən ortastatistik namizədin topladığı bal Azərbaycan bölməsində 54.29-a, rus bölməsində 56.48-ə bərabərdir. Rezidenturaya qəbul olanlar seçməsini təmsil edən ortastatistik namizədin imtahanın II mərhələsində topladığı bal Azərbaycan bölməsində 61.32-yə, rus bölməsində isə 62.46-ya bərabərdir. Təqdim edilən rəqəmlərdən də göründüyü kimi, bölmələr üzrə ayrılıqda namizədlərin imtahana hazırlığı və imtahan nəticələri çox az fərqlənir.

Müsabiqəyə buraxılan namizədlər malik olduqları əsas (baza ali) tibb təhsilinin istiqamətinə uyğun olaraq avqustun 13-dən 17-dək ixtisas seçimi aparıb. İxtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Mərkəzin müəyyən etdiyi müsabiqə şərtini ödəyən – ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında 50 və daha çox bal toplayan namizədlər buraxılıb.

İxtisas seçiminə kömək məqsədilə "Rezidentura" jurnalının 3-cü nömrəsində "Rezidentura üzrə ixtisas seçimi cədvəli" dərc olunub (cədvəl 3.8). Bununla da hər bir namizədə bitirdiyi istiqamətə uyğun olaraq səmərəli ixtisas seçimi imkanı yaradılıb.

Cədvəl 3.8

REZİDENTURA ÜZRƏ İXTİSAS SEÇİMİ CƏDVƏLİ

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	**Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar**
I. Tibb (müalicə işi, pediatriya)	7100002 – Ailə təbabəti 7100003 – Anesteziologiya-reanimatologiya 7100004 – Aviasiya təbabəti 7100005 – Daxili xəstəliklər 7100006 – Dermatovenerologiya 7100008 – Fizioterapiya və tibbi reabilitasiya 7100009 – İdman təbabəti 7100010 – Kardiologiya 7100011 – Mamalıq-ginekologiya 7100012 – Məhkəmə-tibbi ekspertiza 7100013 – Nevrologiya 7100014 – Neyrocərrahiyyə 7100015 – Nüvə təbabəti 7100016 – Oftalmologiya 7100021 – Ortopediya və travmatologiya 7100022 – Otorinolarinqologiya 7100024 – Pediatriya 7100025 – Plastik, rekonstruktiv və estetik cərrahiyyə 7100026 – Psixiatriya 7100027 – Pulmonologiya 7100028 – Radiologiya 7100030 – Sualtı və hiperbarik təbabət 7100031 – Şüa onkologiyası 7100032 – Təcili tibb 7100033 – Tibbi biokimya 7100034 – Tibbi genetika 7100035 – Tibbi mikrobiologiya 7100036 – Tibbi patologiya 7100037 – Torakal cərrahiyyə 7100038 – Urologiya 7100039 – Uşaq cərrahiyyəsi 7100041 – Uşaq və yeniyetmə psixiatriyası 7100042 – Ümumi cərrahiyyə 7100043 – Ürək-damar cərrahiyyəsi 7100044 – Yoluxucu xəstəliklər və kliniki mikrobiologiya

Cədvəl 3.8 (ardı)

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar
II. Stomatologiya	7100001 – Ağız, üz və çənə cərrahiyyəsi 7100007 – Endodontiya 7100017 – Oral patologiya 7100018 – Oral radiologiya 7100019 – Ortodontiya 7100020 – Ortopedik stomatologiya 7100023 – Parodontologiya 7100029 – Restorativ stomatologiya 7100040 – Uşaq stomatologiyası
III. Tibbi profilaktika	7100033 – Tibbi biokimya 7100035 – Tibbi mikrobiologiya 7100044 – Yoluxucu xəstəliklər və kliniki mikrobiologiya
IV. İctimai səhiyyə	7100033 – Tibbi biokimya 7100035 – Tibbi mikrobiologiya 7100044 – Yoluxucu xəstəliklər və kliniki mikrobiologiya

Seçilmiş ixtisasların ərizə formasında ardıcıllığını namizəd özü müəyyənləşdirib və o, topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Müsabiqə zamanı balı eyni olan iki və daha çox namizədi fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

– əsas (baza ali) tibb təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

– baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından toplanılan bal.

Müsabiqənin nəticələri avqustun 18-də elan edilib.

Müsabiqədə iştirak edən namizədlərin ərizələrinin rezidentura təhsilini həyata keçirən klinik bazalar üzrə paylanması 3.9 saylı cədvəldə təqdim edilib.

Cədvəl 3.9

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	Ərizələrin sayı				
		Tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə	Stomatologiya istiqaməti üzrə	Tibbi-profilaktika istiqaməti üzrə	İctimai səhiyyə istiqaməti üzrə	Bütövlükdə
1	Azərbaycan Tibb Universiteti	466	65	20	9	560
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	6	0	0	0	6
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	24	0	0	0	24
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti sistemi üçün)	0	0	0	0	0
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi sistemi üçün)	0	0	0	0	0
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti sistemi üçün)	1	0	0	0	1

Cədvəl 3.9 (ardı)

№	Müəssisənin adı	Ərizələrin sayı				
		Tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə	Stomatologiya istiqaməti üzrə	Tibbi-profilaktika istiqaməti üzrə	İctimai səhiyyə istiqaməti üzrə	Bütövlükdə
2	Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi	147	0	0	0	147
3	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	348	61	14	5	428
4	Milli Onkologiya Mərkəzi	228	0	17	7	252
5	Ak. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi	288	0	0	0	288
6	Milli Hematologiya və Transfuziologiya Mərkəzi	43	0	18	7	68
7	Kliniki Tibbi Mərkəz	340	0	17	8	365
8	Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi	116	0	0	0	116
9	Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu	102	0	0	0	102
10	K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu	213	0	0	0	213
11	Respublika Neyrocərrahiyyə Xəstəxanası	72	0	0	0	72
12	Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu	97	0	13	6	116
13	Mərkəzi Neftçilər Xəstəxanası	394	0	16	8	418
14	Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası	86	0	0	0	86
15	Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu	138	0	0	0	138
16	Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu	86	0	0	0	86
17	Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası	243	45	0	0	288
18	Mərkəzi Klinika	370	0	0	0	370
19	Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu	157	0	0	0	157
20	Bakı Sağlamlıq Mərkəzi	330	0	0	0	330
21	Naxçıvan Dövlət Universiteti	43	22	11	2	78
22	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	62	0	0	0	62
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı	355	0	17	7	379
24	Yeni Klinika	397	0	0	0	397
25	Naxçıvan Muxtar Respublikası Xəstəxanası	49	0	0	0	49
26	Naxçıvan Sağlamlıq Mərkəzi	45	0	0	0	45
27	Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi	0	26	0	0	26

Cədvəl 3.9 (ardı)

№	Müəssisənin adı	Ərizələrin sayı				
		Tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə	Stomatologiya istiqaməti üzrə	Tibbi-profilaktika istiqaməti üzrə	İctimai səhiyyə istiqaməti üzrə	Bütövlükdə
28	Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi	10	0	10	2	22
29	Yaqub Budaqov adına Naxçıvan Muxtar Respublikasının Psixi Xəstəliklər Dispanseri	4	0	0	0	4
30	Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası	14	0	0	0	14
31	Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi	13	0	0	0	13
32	Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi	4	0	0	0	4
33	Naxçıvan Muxtar Respublikası Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi	5	0	0	0	5
	C Ə M İ	**509**	**65**	**20**	**9**	**603**

Cədvəldən göründüyü kimi, müsabiqədə iştirak edən 603 namizədin 84.41%-i (509 nəfər) tibb (müalicə işi, pediatriya), 10.78%-i (65 nəfər) stomatologiya, 3.32%-i (20 nəfər) tibbi profilaktika və 1.49%-i (9 nəfər) ictimai səhiyyə istiqaməti üzrə imtahan verənlərdir.

Müsabiqədə iştirak edən namizədlərin 92.87%-i (560 nəfər) öz ərizəsində Azərbaycan Tibb Universitetinə (Hərbi tibb fakültəsi ilə birlikdə 98.01% (591 nəfər)), 70.98%-i (428 nəfər) Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna, 69.32%-i (418 nəfər) Mərkəzi Neftçilər Xəstəxanasına, 65.84%-i (397 nəfər) Yeni Klinikaya, 62.85%-i (379 nəfər) Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalına, 61.36%-i (370 nəfər) Mərkəzi Klinikaya, 60.53%-i (365 nəfər) Kliniki Tibbi Mərkəzə aid olan ixtisasları qeyd edib.

Əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə rezidenturaya qəbul olan namizədlərin sayı haqqında statistik məlumat 3.10 saylı cədvəldə təqdim edilir.

Cədvəl 3.10

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Qəbul planı*	Qəbul olanların sayı			Qəbul olub (%)
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Tibb (müalicə işi, pediatriya)	692 (71)	390 (31)	103 (0)	493 (31)	71.24 (43.66)
II. Stomatologiya	59	51	5	56	94.92
III. Tibbi profilaktika	19	19	0	19	100.00
IV. İctimai səhiyyə	8	8	0	8	100.00
C Ə M İ	**778 (71)**	**468 (31)**	**108 (0)**	**576 (31)**	**74.04 (43.66)**

* Birgə müsabiqə aparılan ixtisaslar üzrə qəbul olanların paylanması nəzərə alınaraq əsas (baza ali) tibb təhsili istiqamətlərinin qəbul planları dəqiqləşdirilib (bax: cədvəl 3.3).

** Mötərizədə, o cümlədən Hərbi tibb fakültəsi üzrə qəbul planı verilib.

Cədvəldən göründüyü kimi, tibb (müalicə işi, pediatriya) istiqaməti üzrə qəbul planı 71.24%, stomatologiya istiqaməti üzrə 94.92%, tibbi profilaktika istiqaməti üzrə isə 100%, ictimai səhiyyə istiqaməti üzrə isə 100% dolub. Qəbul planı ümumilikdə 74.04% yerinə yetirilib.

Rezidenturaya sənəd verənlərin 581 nəfərini əsas (baza ali) tibb təhsilini cari ildə başa vuranlar (37.01%-i oğlanlar, 62.99%-i qızlar) təşkil edib. Tibb təhsili istiqamətləri üzrə onların paylanması belədir: Tibb (müalicə işi, pediatriya) – 449 nəfər, stomatologiya – 58 nəfər, tibbi profilaktika – 34 nəfər və ictimai səhiyyə – 40 nəfər. Cari ilin məzunlarından qəbul imtahanının I mərhələsində 280 (bundan əlavə, 294 nəfər əvvəlki illərdə tələbə kimi imtahanın I mərhələsindən "məqbul" qiymət alıb), II mərhələsində isə 371 nəfər iştirak edib və onların 293-ü (istiqamətlər üzrə, müvafiq olaraq 248, 29, 8 və 8 nəfər) rezidenturaya qəbul olub. Cari il məzunlarının rezidenturaya qəbulolma göstəriciləri tam seçməyə nəzərən yüksək olub – 50.43%. Rezidenturaya qəbul olan məzunların 38.91%-ni oğlanlar, 61.09%-ni isə qızlar təşkil edib.

Əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə rezidenturaya sənəd verən və qəbul olan oğlan və qız namizədlərin sayı barədə məlumat 3.11 saylı cədvəldə göstərilib. Rezidenturaya sənəd verən və qəbul olan namizədlərin seçmələrində oğlan və qızların sayca nisbi çəkilərində qismən dəyişiklik baş verib. Belə ki, rezidenturaya sənəd verən namizədlərin 40.41%-ni oğlanlar, 59.59%-ni qızlar təşkil etdiyi halda, qəbul olanlar seçməsində namizədlərin 38.37%-i oğlanlar, 61.63%-i isə qızlardır. Ümumiyyətlə, 2025-ci ildə rezidenturaya qəbul olmaq üçün sənəd verən qız namizədlərin rezidenturaya qəbulolma göstəriciləri (33.81%) oğlan namizədlərin qəbulolma göstəricilərindən (31.04%) yüksəkdir.

Cədvəl 3.11


ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ ƏRİZƏ VERƏN VƏ QƏBUL OLAN OĞLAN VƏ QIZ NAMİZƏDLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Ərizə verən				Qəbul olan			
	oğlanların		qızların		oğlanların		qızların	
	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
I. Tibb (müalicə işi, pediatriya)	580	41.28	825	58.72	189	38.34	304	61.66
II. Stomatologiya	97	49.74	98	50.26	28	50.00	28	50.00
III. Tibbi-profilaktika	30	24.59	92	75.41	4	21.05	15	78.95
IV. İctimai səhiyyə	5	12.50	35	87.50	0	0.00	8	100.00
C Ə M İ	**712**	**40.41**	**1050**	**59.59**	**221**	**38.37**	**355**	**61.63**

Rezidenturaya qəbul olan namizədlərin topladıqları balların paylanma diaqramı 3.6 saylı şəkildə təqdim olunub. Diaqramdan görünür ki, qəbul olanların 45.31%-nin topladığı bal 50-59, 52.26%-nin topladığı bal isə 60-79 bal diapazonlarında yerləşir. Qeyd edək ki, maksimal toplanıla bilən bal 100-ə bərabərdir.

Klinik bazalar üzrə rezidenturaya qəbul olan namizədlərin sayı və orta bal göstəriciləri 3.12 saylı cədvəldə təqdim edilib. Cədvəldən aydın olur ki, Mərkəzi Klinikaya qəbul olan namizədlərin qəbul imtahanında topladıqları balların orta qiymətləri (həmin tibb müəssisələrinə qəbul olanları təmsil edən ortastatistik namizədin qəbul imtahanında topladığı bal) ən yüksəkdir. Bu klinik bazaya qəbul olan ortastatistik namizədin balı 70.100-ə bərabər olub.

QƏBUL OLAN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.6

Nisbətən zəif hazırlıqlı namizədlər Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi və Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzinə qəbul olublar (ortastatistik namizədin qəbul imtahanında topladığı bal 52.000 olub).

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Milli Hematologiya və Transfuziologiya Mərkəzi, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Respublika Neyrocərrahiyyə Xəstəxanası, Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi üçün ayrılan plan yerləri tam dolub. Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti sistemi üçün), Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi sistemi üçün), Yaqub Budaqov adına Naxçıvan Muxtar Respublikasının Psixi Xəstəliklər Dispanseri, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi, Naxçıvan Muxtar Respublikası Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi üçün ayrılan plan yerlərinin hamısı boş qalıb. Digər klinik bazalar üçün ayrılan plan yerləri bu və ya digər səviyyədə kəsirdə qalmışdır.

Cədvəl 3.12

KLİNİK BAZALAR ÜZRƏ REZİDENTURAYA QƏBUL OLAN NAMİZƏDLƏRİN SAYI VƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ

	Tibb müəssisələri	Qəbul planı	Qəbul olanların sayı			Orta bal
			oğlan	qız	cəmi	
1	Azərbaycan Tibb Universiteti	206	69	124	193	63.596
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	26	6	0	6	58.000
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	26	24	0	24	56.833
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti sistemi üçün)	15	0	0	0	---
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi sistemi üçün)	2	0	0	0	---
	Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi (Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti sistemi üçün)	2	1	0	1	53.000
2	Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi	6	2	4	6	63.167
3	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	54	13	39	52	59.865
4	Milli Onkologiya Mərkəzi	7	0	6	6	59.167
5	Ak. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi	15	8	4	12	57.583
6	Milli Hematologiya və Transfuziologiya Mərkəzi	4	0	4	4	52.250
7	Kliniki Tibbi Mərkəz	33	13	16	29	59.448
8	Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi	15	1	5	6	54.000
9	Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu	3	0	3	3	69.667
10	K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu	7	0	6	6	54.167
11	Respublika Neyrocərrahiyyə Xəstəxanası	3	1	2	3	56.333
12	Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu	14	1	6	7	53.286
13	Mərkəzi Neftçilər Xəstəxanası	35	11	17	28	63.929

Cədvəl 3.12 (ardı)

	Tibb müəssisələri	Qəbul planı	Qəbul olanların sayı			Orta bal
			oğlan	qız	cəmi	
14	Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası	4	3	0	3	60.000
15	Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu	5	2	3	5	64.600
16	Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu	6	6	0	6	63.333
17	Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası	42	11	17	28	60.536
18	Mərkəzi Klinika	21	7	13	20	70.100
19	Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu	4	1	2	3	57.667
20	Bakı Sağlamlıq Mərkəzi	13	4	8	12	63.083
21	Naxçıvan Dövlət Universiteti	30	4	4	8	54.500
22	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	40	6	24	30	58.833
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı	24	8	13	21	63.952
24	Yeni Klinika	40	12	26	38	63.684
25	Naxçıvan Muxtar Respublikası Xəstəxanası	24	0	1	1	54.000
26	Naxçıvan Sağlamlıq Mərkəzi	17	1	2	3	56.000
27	Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi	11	5	3	8	54.750
28	Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi	6	1	1	2	52.000
29	Yaqub Budaqov adına Naxçıvan Muxtar Respublikasının Psixi Xəstəliklər Dispanseri	6	0	0	0	---
30	Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası	6	0	0	0	---
31	Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi	2	0	2	2	52.000
32	Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi	2	0	0	0	---
33	Naxçıvan Muxtar Respublikası Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi	2	0	0	0	---
	CƏMİ	**778**	**221**	**355**	**576**	**61.531**

Fənlər üzrə elmi-metodik təhlil və tövsiyələr

Ötən illərdə olduğu kimi, 2025-ci ildə də Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin iştirakı ilə 2025/2026-cı tədris ili üçün rezidenturaya qəbul imtahanlarında istifadə olunmuş test tapşırıqlarının elmi-statistik təhlili aparılmışdır: ayrı-ayrı test tapşırıqları üzrə namizədlərin əldə etdikləri nəticələr təhlil edilib, onların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqları müzakirə olunub, tapşırıqların nisbətən çətin cavablandırılmasının səbəbləri araşdırılıb, bu səbəblərin aradan qaldırılması üçün müvafiq təklif və tövsiyələr hazırlanıb. Təhlillərdən əldə olunan nəticələr test bankının təkmilləşdirilməsi və zənginləşdirilməsi sahəsində işlər aparılarkən nəzərə alınır.

Qeyd etmək lazımdır ki, rezidenturaya qəbul imtahanı proqramları, eləcə də qəbul imtahanında istifadə olunacaq test tapşırıqlarının tipi və mürəkkəblik dərəcəsi haqqında məlumat, test tapşırığı nümunələri ilin əvvəlində "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Rezidentura" jurnalının 1-ci və 2-ci saylarında dərc edilmişdi.

Eyni zamanda imtahanlara hazırlaşanlara elmi-metodik kömək məqsədi ilə ***otk.az*** saytında imtahan fənləri üzrə qəbul proqramlarının mövzularını əhatə etməklə, qəbul imtahanlarında istifadəsi nəzərdə tutulan test modelinə uyğun onlayn sınaq imtahanları yerləşdirilmişdir. Bununla da namizədlərin imtahanlarda istifadə edilmiş test tapşırıqlarının məzmunu və forması ilə əvvəlcədən tanış olmalarına şərait yaradılmışdır.

2025/2026-cı tədris ili üçün rezidenturaya qəbul imtahanlarında da ayrı-ayrı fənlər üzrə istifadə olunan test tapşırıqlarının mövzu və bölmələr üzrə paylanmasında onların nəzəri və praktiki əhəmiyyəti nəzərə alınmışdır. Bütün istiqamətlər üzrə test blokuna faktoloji, biliklərin ümumiləşdirilməsini, izahat və uyğunluğun müəyyən edilməsini tələb edən, eləcə də təklif olunan fəaliyyət kateqoriyalı, çətinlik dərəcəsinə görə sadə, orta və mürəkkəb olan test tapşırıqları daxil edilmiş, bununla da namizədlərin qəbul proqramı üzrə materialı necə mənimsədiklərini dəqiq qiymətləndirmək, eyni zamanda onların bilik və bacarıqlarını tətbiq etmək qabiliyyətlərini yoxlamaq mümkün olmuşdur.

Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında istifadə olunan 100 test tapşırığından 10-u (insan fiziologiyası və patoloji fiziologiya fənlərindən), ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında isə istifadə olunan 100 test tapşırığından 5-i açıq formalı olmuşdur: tibb (müalicə işi, pediatriya) istiqaməti (bundan sonra – tibb istiqaməti) üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən, tibbi profilaktika və ictimai səhiyyə istiqamətləri üzrə epidemiologiya fənnindən.

Baza fənləri üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi test tapşırıqlarının izahını təqdim edirik. Təqdim olunan bu təhlillər baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının (tibb istiqaməti) 1-ci cəhdinin nəticələri əsasında hazırlanmışdır.

İnsan anatomiyası fənni üzrə "Kiçik və böyük qan dövranı damarları", "Dayaq-hərəkət aparatı. Kəllə sümükləri və onların birləşmələri", "Yuxarı və aşağı boş vena sistemləri. Qapı venası, venoz anastomozlar. Limfa və immun sistemi orqanları", "Periferik sinir sisteminin və vegetativ sinir sisteminin anatomiyası", "Yuxarı ətraf sümükləri və onların birləşmələri", "Tənəffüs sistemi orqanlarının morfofunksional anatomiyası", "Gövdənin əzələlərinin, ətraf əzələlərinin və onların fassiyalarının anatomiyası", "Sidik orqanlarının morfofunksional anatomiyası. Cinsiyyət və endokrin orqanlarının anatomiyası", "Sinir sisteminin və mərkəzi sinir sisteminin anatomiyası", "Damar sistemi haqqında məlumat", "Daxili orqanlar. Həzm sistemi orqanlarının morfofunksional anatomiyası", "Duyğu orqanlarının morfofunksional anatomiyası" və "Baş və boyunun əzələ və fassiyalarının morfofunksional anatomiyası" bölmələri üzrə bilikləri yoxlayan test tapşırıqları təqdim edilmişdi. Elmi-metodik təhlildən məlum olur ki, namizədlər "Dayaq-hərəkət aparatı. Kəllə sümükləri və onların birləşmələri" bölməsi üzrə təqdim olunan test tapşırığının cavablandırılmasında daha çox çətinlik çəkmişlər.

Həmin test tapşırığının şərhini təqdim edirik:

B variantı, 2 saylı test tapşırığı

Kəllənin orta çuxurunda ***yerləşmir***:

A) *foramen ovale* B) *foramen spinosum* C) *foramen lacerum*
D) *foramen rotundum* E) *foramen jugulare*


Namizədlərin 22,63%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı çətinlik dərəcəsinə görə sadədir (***Doğru cavab: E***). Bu test tapşırığına doğru cavab vermək üçün "Kəllə əsası" mövzusu üzrə əldə olunmuş biliklərin ümumiləşdirilməsi tələb olunur.

Kəllə əsası daxili və xarici əsasa bölünür. Kəllənin daxili əsasında topoqrafik baxımdan üç çuxur – ön, orta və arxa çuxurlar ayırd edilir (bax: Şadlinski V.B., Mövsümov N.T., Qasımov Ş.İ. və b. İnsan anatomiyası. Bakı: "Müəllim" nəşr., 2019, I cild, s. 188-189; Şadlinski V.B., Qasımov Ş.İ., İsayev A.B., Hüseynov B.M. İnsan anatomiyası /rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK, Bakı: "CBS Polygraphic production" nəşr., 2015, s. 91; Шадлинский В.Б., Касумов Ш.И., Исаев А.Б., Гусейнов Б.М. Анатомия человека /пособие для поступающих в резидентуру. ГЭЦ: "Print House Poliqrafaz" nəşr., Баку: 2020, с. 88; Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека: В 2-х т. Баку: "Муаллим", 2017, I том, с. 180-181).

Kəllənin ön çuxuru (*fossa cranii anterior*) alın sümüyünün göz yuvası hissələrinin beyin səthi, xəlbir sümüyünün xəlbir səfhəsi və əsas sümüyün kiçik qanadlarının beyin səthindən təşkil olunmuşdur.

Kəllənin orta çuxuru (*fossa cranii media*) əsas sümüyü cisminin yuxarı səthindən və böyük qanadların beyin səthindən, gicgah sümüyünün pullu hissəsinin bir qismindən və piramidinin ön səthindən təşkil olunmuşdur. Onun ortasında türk yəhəri (*sella turcica*), hipofiz çuxuru (*fossa hipophysialis*), yəhər qabarcığı (*tuberculum sellae*), ondan öndə çarpaz şırımı (*sul. chiasmatis*) yerləşir. Çarpaz şırımı yanlarda görmə kanalında (*canalis opticus*) qurtarır. Kəllənin orta çuxuru görmə kanalı və göz yuvasının yuxarı yarığı vasitəsilə göz yuvası ilə, böyük qanadlar üzərində yerləşən girdə dəlik (D cavab variantı) vasitəsilə

qanadabənzər-damaq çuxuru ilə, oval və tin dəlikləri (A və B cavab variantları) vasitəsilə gicgahaltı çuxurla və cırılmış dəlik (C cavab variantı) vasitəsilə kəllənin xarici əsasının orta şöbəsi ilə birləşir. Bu çuxurun arxa divarında böyük və kiçik daşlıq siniri kanalları deşiyi və şırımları, üçlü sinir qanqlionuna məxsus basıqlıq yerləşir. Kəllənin orta çuxuru gicgah sümüyünün daşlıq hissəsinin yuxarı kənarı və əsas-ənsə bitişməsi vasitəsilə kəllənin arxa çuxurundan ayrılır (şəkil 1).



Şəkil 1. Kəllənin daxili əsası.
1 – girdə dəlik; 2 – oval dəlik;
3 – tin dəliyi; 4 – cırılmış dəlik;
5 – vidaci dəlik.

Kəllənin arxa çuxuru (*fossa cranii posterior*) orta çuxurdan arxaya yerləşərək kəllə boşluğunun qalan hissəsini tutur. Burada beyincik, Varoli körpüsü və beyin ayaqcıqları yerləşir. Bu çuxuru ənsə sümüyü, əsas sümüyün cisminin arxa səthi, təpə sümüyünün məməyəbənzər bucağı və gicgah sümüyünün daşlıq hissəsi ilə məməyəbənzər çıxıntısı əmələ gətirir. Burada *foramen magnum*, *canalis nervi hypoglossi, foramen jugulare*, *foramen mastoideum* və *porus acusticus internus* yerləşmişdir. Arxa çuxurdan *foramen magnum* vasitəsi ilə onurğa kanalına və *canalis hypoglossi*, *foramen jugulare et foramen mastoideum* vasitəsi ilə kəllənin xarici əsasına keçmək olur.

Namizədlərin 28,76%-i tərəfindən doğru cavab kimi seçilmiş B cavab variantında göstərilən *foramen spinosum* kəllənin orta çuxurunda yerləşir və bu dəlikdən *a. meningea media* keçir.

Dərslik və dərs vəsaitlərində mövzu haqqında ətraflı məlumat verilməsinə baxmayaraq, namizədlərin bu test tapşırığını cavablandırarkən səhvə yol vermələrinin əsas səbəbi kəllə sümüklərinə və kəllənin topoqrafiyasına dair bilikləri ümumiləşdirə bilməmələri olmuşdur. Bununla yanaşı, bir sıra namizədlərin test tapşırığının həllində çətinlik çəkmələrinin səbəbi kimi anatomik törəmələrin latın dilində verilməsini də göstərmək olar.

2025-ci ildə də ***histologiya*** (sitologiya, embriologiya, ümumi və xüsusi histologiya) fənni üzrə 7 test tapşırığı təqdim edilib. Bu tapşırıqlar "Hüceyrə, plazmalemma, sitoskelet, orqanellər və əlavələr", "Embriologiya bioloji inkişafın bir hissəsi kimi. Progenez. Meyoz. Hüceyrənin diferensiasiyası, ölümü. Toxumaların, orqanların və sistemlərin inkişafı", "Həzm, tənəffüs sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi", "Toxumalar: təsnifatı, quruluş-funksiya səciyyəsi", "Ürək-damar, immun müdafiə sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi. Qanyaranma", "İfrazat, cinsiyyət sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi" və "Dərinin, sinir sistemi, endokrin sistem və duyğu orqanlarının ümumi quruluş-funksiya səciyyəsi" bölmələrini əhatə etmişdir. Elmi-metodik təhlildən aydın olur ki, bu il də namizədlər histologiya fənni üzrə təqdim olunan bir çox test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmişlər.

Bu fənn üzrə namizədlərin daha çox çətinlik çəkdiyi test tapşırığının şərhini təqdim edirik:

B variantı, 15 saylı test tapşırığı

Sinir daraqlarından inkişaf edir:

1. Büllur
2. Somitlər
3. Vegetativ sinir düyünləri
4. Hörümçək torunabənzər beyin qişası
5. Böyrəküstü vəzilərin qabıq maddəsi
6. Dərinin melanositləri

A) 1, 5, 6 B) 2, 4, 5 C) 3, 4, 6 D) 1, 2, 5 E) 2, 3, 4

Namizədlərin 16,70%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Embriologiya bioloji inkişafın bir hissəsi kimi. Progenez. Meyoz. Hüceyrənin diferensiasiyası, ölümü. Toxumaların, orqanların və sistemlərin inkişafı" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: C***).

Bu test tapşırığını cavablandırmaq üçün "Embriologiya bioloji inkişafın bir hissəsi kimi" mövzusu üzrə əldə olunmuş biliklərin ümumiləşdirilərək tətbiq edilməsi tələb olunur. Embrional inkişafın qastrulyasiya mərhələsi hüceyrələrin bölünməsi, böyüməsi, istiqamətli yerdəyişməsi və diferensiasiyası ilə müşayiət olunan mürəkkəb prosesdir. Qastrulyasiya nəticəsində rüşeym vərəqələri – e***k***toderma, mezoderma və e***n***toderma formalaşır. Bu rüşeym vərəqələrinin sonrakı diferensiasiyası nəticəsində müxtəlif toxuma strukturları yaranır, orqan və sistemlərin mayası qoyulur.

E***k***todermanın diferensiasiyası zamanı inkişafın üçüncü həftəsinin sonunda sinir sisteminin mayasının qoyulması prosesi – neyrulyasiya başlayır. Bu dövrdə e***k***todermanın dorsal hissəsinin qalınlaşması şəklində meydana çıxan sinir lövhəsindən sinir borusu formalaşır. Sinir lövhəsinin hüceyrələrinin bir qismi isə sinir borusunun tərkibinə daxil olmur, dəri e***k***todermaası ilə sinir borusu arasında yerləşərək sinir daraqlarını (qanqlioz lövhəni) əmələ gətirir.

Sinir daraqlarının hüceyrələrinin bir qismi dermaya doğru miqrasiya edir və dəri melanositlərini əmələ

gətirir. Digər qismi isə ventral istiqamətdə miqrasiya edərək hissi və vegetativ qanqlionların neyrositlərini və qliya hüceyrələrini, hörümçək torunabənzər və yumşaq beyin qişalarını, böyrəküstü vəzin beyin maddə hüceyrələrini, çoxsaylı neyroendokrin hüceyrələri əmələ gətirir. Qanqlioz lövhədən miqrasiya edən hüceyrələr kəllə sümüklərinin formalaşmasında iştirak edən neyromezenximə də başlanğıc verir.

Namizədlərin 10,20%-i A cavab variantını seçməklə yanlış olaraq dəri e***k***toderması törəməsi olan bülluru və ventral mezodermadan inkişaf edən böyrəküstü vəzilərin qabıq maddəsini doğru cavab hesab etmişdir.

Namizədlərin 15,77%-i tərəfindən seçilmiş B cavab variantına aid olan 4-cü bənddə göstərilən hörümçək torunabənzər beyin qişası doğrudur, lakin somitlər və böyrəküstü vəzilərin qabıq maddəsi sinir daraqları törəmələrinə aid edilmir.

Namizədlərin 8,91%-i tərəfindən seçilmiş D cavab variantında qeyd olunan strukturlardan büllur, somitlər və böyrəküstü vəzilərin qabıq maddəsi sinir daraqlarından deyil, müvafiq olaraq, e***k***todermadan və mezodermadan inkişaf edir.

Namizədlərin əksəriyyəti (47,50%-i) somitləri sinir daraqlarından inkişaf edən strukturlara aid edərək E cavab variantını seçmişlər. Orta rüşeym vərəqəsi olan mezodermanın diferensiasiyası zamanı mezodermada üç hissə yaranır: paraaksial mezoderma (xordanın hər iki tərəfində yerləşir), ara mezoderma (nefrogen maya) və lateral (ventral) mezoderma. 17-ci sutkadan başlayaraq paraaksial mezoderma seqmentlərə bölünməyə başlayır və xordanın yan tərəflərində simmetrik cüt strukturlar – somitlər yaranır. Seqmentləşmə öndən arxaya doğru tədricən baş verdiyi üçün somitlərin sayı artaraq 35-ci sutkada 44 cüt təşkil etmiş olur. 4-cü həftədən başlayaraq somitlər üç hissəyə bölünərək sklerotom, miotom və dermatomu əmələ gətirir. Sklerotomdan miqrasiya edən hüceyrələr əvvəlcə mezenximi əmələ gətirir, sonra isə bu mezenxim hüceyrələrindən skelet toxumalarını formalaşdıran sümük və qığırdaq hüceyrələri diferensiasiya edir. Miotom skelet əzələlərinə, dermatom isə dərinin birləşdirici toxumasına başlanğıc verir (bax: Sultanova T.Ə., Əyyubova G.M., Nəcəfova T.M. Histologiya (sitologiya, embriologiya, ümumi və xüsusi histologiya) /dərs vəsaiti. DİM, Bakı: "İndigo" nəşr., 2023, s.118; Султанова Т.А., Эйюбова Г.М., Наджафова Т.М. Гистология (цитология, эмбриология, общая и частная гистология) /пособие для поступающих в резидентуру. ГЭЦ, Баку: "Print House Poliqrafaz" nəşr., 2019, с.129; Кузнецов С.Л., Мушкамбаров Н.Н. Гистология, цитология и эмбриология /учеб. для мед. ВУЗ-ов. М.: ООО "МИА", 2016, s.110, 602). Adı çəkilən dərslik və dərs vəsaitlərində embrional inkişaf haqqında dəqiq və aydın izahat verilməsinə baxmayaraq, namizədlər yenə də sinir daraqlarından inkişaf edən strukturları seçməkdə çətinlik çəkmişlər.

Namizədlərə qastrulyasiya mərhələsində yaranan rüşeym vərəqələrinin sonrakı diferensiasiyasını, eləcə də onlardan inkişaf edən hüceyrə və toxuma strukturlarını daha ətraflı və dəqiq öyrənmək tövsiyə olunur.

Mikrobiologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ümumi və xüsusi mikrobiologiya, xüsusi virusologiya, tibbi mikologiya, tibbi parazitologiya, eləcə də klinik mikrobiologiya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlamağa imkan vermişdir. Test tapşırıqları "Mikroorqanizmlərin təsnifatı və nomenklaturası", "Mikroorqanizmlərin ekologiyası", "Patogen və şərti patogen koklar", "Tibbi mikologiya", "Fermentləşdirməyən qram mənfi aerob çöplər və kokobasillər. Hemoqlobinofil və oxşar bakteriyalar", "Patogen rikketsiyalar. Patogen mikoplazmalar", "İmmunologiyanın əsasları", "Tibbi parazitologiya", "Aerob və fakultativ-anaerob qram müsbət çöpvari bakteriyalar", "Patogen və şərti-patogen enterobakteriyalar", "İnfeksiya haqqında təlim", "RNT tərkibli viruslar", "Mədə-bağırsaq traktı infeksiyalarının mikrobiologiyası və diaqnostika prinsipləri", "Hepatit virusları. Onkogen viruslar", "Patogen və şərti-patogen mikobakteriyalar. Aktinomisetlər" bölmələri üzrə bilik və bacarıqları yoxlamağa imkan vermişdir.

Namizədlərin cavablandırmaqda daha çox çətinlik çəkdiyi biliklərin ümumiləşdirilməsini tələb edən test tapşırığının şərhini təqdim edirik:

B variantı, 30 saylı test tapşırığı

Qarın yatalağına şübhə olduqda xəstəliyin ilk günlərində diaqnostika məqsədilə:

A) qanda antitoksinlər müəyyən edilir
B) Veyl-Feliks reaksiyası qoyulur
C) koprokultura alınır
D) hemokultura alınır
E) Vidal reaksiyası qoyulur

Namizədlərin 15,96%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Patogen və şərti-patogen enterobakteriyalar" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: D***).

Qarın yatalağının mikrobioloji diaqnostikası zamanı xəstəliyin tsiklik gedişi nəzərə alınaraq, müayinə materialı və üsulu xəstəliyin mərhələsi ilə müəyyən olunur.

Xəstəliyin ilk günlərində bakteriemiya müşahidə olunur, buna görə də xəstəliyin 1-ci həftəsində və bütün qızdırma dövrü ərzində hemokultura üsulu istifadə olunur: qanın ödlü bulyona əkilməsi ilə daha sonra diferensial-diaqnosik mühitlərə (Endo, Ploskiryev mühitləri, bismut-sulfit aqar) köçürülməsi. Alınmış kultura biokimyəvi xassələrinə və antigen quruluşuna görə identifikasiya olunur, ayırd edilmiş *Salmonella*

typhi kulturası isə infeksiya mənbəyinin müəyyən edilməsi üçün Vi-faqlarla tipləşdirilir. 2-ci həftənin sonunda kopro-, urino- və bilikulturanın ayırd edilməsi aparılır, yəni müayinə üçün material nəcis, sidik və öd olur. Beləliklə, namizədlərin 20,41%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən koprokultura xəstəliyin 2-ci həftəsinin sonundan etibarən tətbiq edilir.

Xəstəliyin 2-ci həftəsinin sonundan etibarən anticisimlərin və onların tipinin müəyyən edilməsi məqsədilə seroloji reaksiya O-, H- və Vi-diaqnostikumlarla qoyulan dolayı hemaqqlütinasiya reaksiyasının köməyi ilə aparılır. 1:200-dən az olmayan diaqnostik titr müsbət hesab olunur. Namizədlərin 34,51%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən Vidal reaksiyası seroloji diaqnostika üçün tətbiq oluna bilər. Hazırda seroloji diaqnostika İFA köməyi ilə də aparılır (bax: Qarayev Z.Ö., Qurbanov A.İ. Tibbi mikrobiologiya və immunologiya. Bakı: "Təbib" nəşr., 2010, s. 386; Медицинская микробиология, вирусология и иммунология. /Под ред. А.А. Воробъева. М.: Мед.информ. агентство, 2004, с.3654 Jawetz, Melnick & Adelberg. Medical microbiology. 27th edition, 2016, p.241).

Təhlildən belə nəticəyə gəlmək olur ki, namizədlər xəstəliklərin diaqnostikasına dair nəzəri bilikləri sistemləşdirməkdə və ümumiləşdirməkdə çətinlik çəkirlər. Ona görə də biliklərin ümumiləşdirilməsini tələb edən bu test tapşırığını cavablandırarkən namizədlər tədris zamanı əldə etdikləri nəzəri bilikləri praktikaya tətbiq edə bilməmişlər.

Farmakologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ötən illərdə olduğu kimi farmakokinetika, farmakogenetika və xronofarmakologiya sahəsində, eləcə də dərman maddələrinin təsir mexanizminə dair namizədlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi daşıyıb. Bu fənn üzrə təqdim olunmuş test tapşırıqları "Mübadilə prosesinə təsir göstərən dərman maddələri. Vitamin və ferment preparatları", "Ürək-qan damar sisteminə təsir göstərən dərman maddələri. Qan sisteminə təsir göstərən dərman maddələri", "Farmakologiyaya giriş, farmakokinetika, farmakodinamika, farmakogenetika, xronofarmakologiya", "Antimikrob maddələr. Spesifik antimikrob dərman maddələri", "Psixoleptiklər, psixoanaleptiklər", "Tənəffüs orqanlarının funksiyasına təsir göstərən dərman maddələri", "Neyrotrop maddələr", "Antiparazitar dərman maddələri", "Ümumi reseptura", "İltihabəleyhinə və allergiyaəleyhinə dərman maddələri", "Avtonom sinir sisteminə təsir göstərən dərman maddələri" və "Həzm sistemi orqanlarının sekretor fəaliyyətinə və motor funksiyasına təsir göstərən dərman maddələri" bölmələri üzrə bilik və bacarıqları yoxlamağa imkan vermişdir.

Namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 45 saylı test tapşırığı

Prometazin üçün xarakterik ***deyil***:

A) güclü sedativ təsir
B) α-adrenoreseptorların blokadası
C) antixolinergik təsir
D) vegetativ qanqlionların blokadası
E) anesteziyaedici təsir

Namizədlərin 16,70%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "İltihabəleyhinə və allergiyaəleyhinə dərman maddələri" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: D***). Test tapşırığının həlli üçün praktikada geniş istifadə olunan müxtəlif nəsil antihistamin preparatlar arasında dəqiq diferensiasiya aparılması tələb olunur.

Antihistamin preparatın effektiv seçimi onun farmakodinamikasını, farmakokinetikasını və əlavə təsirlərinin spektrini başa düşmədən mümkün deyil. Ümumi göstərişlərə və əsas təsir mexanizminin (H_1-histamin reseptorlarının blokadası) eyni olmasına baxmayaraq, birinci nəsil preparatlar sedativ, antixolinergik və adrenoblokadaedici təsirin nəzərəçarpanlığına görə fərqlənirlər.

Bu xüsusiyyətlər komorbid vəziyyətlərdə – bir xəstədə iki və ya daha çox xroniki xəstəliyin eyni vaxtda mövcudluğu və bir-birinin gedişinə qarşılıqlı təsir göstərməsi zamanı xüsusi əhəmiyyət kəsb edir. Komorbidlik terapevtik seçimi çətinləşdirir, çünki dərmanların mümkün qarşılıqlı təsirləri, əlavə təsirlərin kumulyasiyası və xəstənin fərdi həssaslığı nəzərə alınmalıdır. Müasir klinik praktikada komorbidlik istisna kimi deyil, xüsusilə yaşlı xəstələrdə və xroniki xəstəliklər zamanı qanunauyğunluq kimi qiymətləndirilir. Məsələn, ürək-damar pozğunluqları və qlaukoması olan yaşlı xəstəyə antihistamin preparatların təyini zamanı güclü antixolinergik və sedativ aktivliyə malik birinci nəsil preparatlar selikli qişaların quruluğunu, taxikardiyanı və gözdaxili təzyiqin artmasını gücləndirə bilər ki, bu da dozanın korreksiyasını və ya alternativ dərman maddəsinin seçilməsini tələb edir.

Prometazin birinci nəsil antihistamin preparatlara aiddir və fenotiazin törəməsidir. O, klassik H_1-histamin reseptorlarının blokatorudur və bir sıra əlavə təsirlər göstərir.

Əksər antihistamin preparatların sedativ təsiri mərkəzi sinir sistemində H_1-histamin reseptorlarının blokadası ilə əlaqədardır. Xüsusilə prometazin hematoensefalik baryeri asanlıqla keçir ki, bu da onun həyəcan vəziyyətləri və yuxusuzluq zamanı effektivliyini təmin edir. Məhz bu xüsusiyyət prometazinin anesteziologiya praktikasında cərrahi müdaxilələrdən əvvəl və sonra sedativ vasitə kimi, tez-tez analgetiklərlə və digər sakitləşdirici maddələrlə birgə istifadəsinə imkan verir. Beləliklə, namizədlərin

10,20%-i tərəfindən doğru cavab kimi seçilmiş A cavab variantında göstərilən güclü sedativ təsir prometazinin mərkəzi sinir sisteminə keçməsi və mərkəzi H_1-reseptorlarını blokada etməsi ilə əlaqədardır. Bundan əlavə, onun antimuskarin aktivliyi sedativ təsiri daha da gücləndirir.

Namizədlərin 23,19%-i tərəfindən seçilmiş B cavab variantında göstərilən α_1-adrenoreseptorların blokadası isə yüngül ortostatik hipotenziyaya səbəb olur ki, bu da antihistaminlərin, xüsusən prometazinin antihipertenziv maddələrlə birgə istifadəsi zamanı nəzərə alınmalıdır. Prometazin α_1-adrenoreseptorlara qarşı antaqonizmə malikdir və epinefrinlə birgə istifadə zamanı mümkün qarşılıqlı təsirin nəzərə alınması zəruridir.

Namizədlərin 36,36%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən antixolinergik təsir orta dərəcədə ifadə olunur, selikli qişaların quruması, midriaz, saya əzələlərin tonusunun azalması, qəbizlik, sidiyin ləngiməsi və tərləmənin azalması ilə təzahür edir. İntoksikasiya halında isə M-xolinoblokatorların doza həddinin aşılması üçün səciyyəvi deliriy mümkündür.

Namizədlərin 12,06%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən zəif anesteziyaedici təsir periferik sinirlərin həssaslığının azalması ilə özünü büruzə verir və birinci nəsil antihistaminlərin əksəriyyəti üçün səciyyəvi xüsusiyyətdir.

Beləliklə, prometazinin farmakoloji profili onu kombinəolunmuş təsirə malik preparat kimi xarakterizə etməyə imkan verir: güclü sedativ, mülayim antixolinergik, yüngül α_1-adrenoblokadaedici və zəif anesteziyaedici təsirlər.

Vegetativ qanqlionların blokadası prometazin üçün səciyyəvi deyil. Bu effekt birinci nəsil antihistaminlərin erkən nümayəndəsi – difenhidramin (dimedrol) üçün xarakterik əlamətlərdən biridir. Difenhidraminin qanqlioblokadaedici təsiri saya əzələlərin tonusunun azalması, arterial təzyiqin ortostatik hipotenziyaya qədər enməsi və sekretor aktivliyin zəifləməsi ilə təzahür edir. Prometazin isə belə təsirlər törətmir və vegetativ stabillik baxımından bu preparat daha təhlükəsiz hesab olunur (bax: Qəniyev M.M. Farmakologiya /dərslik, 2 cilddə, Bakı: "Təbib" nəşr., 2014, II cild, s. 607; Харкевич Д.А. Фармакология /учебник для студентов ВУЗ-ов. М.: Медицина, 2015, с. 556; Oğuz Kayaalp S., Editör. Tibbi Farmakoloji /onikinci baskı: 2 cilt, 2009, s. 1246).

Bu test tapşırığı antihistamin preparatların xüsusiyyətlərinin diferensiasiyasını dərindən öyrənməyin zəruriliyini göstərir. Praktik həkim üçün yalnız əsas göstərişlərin və təsir mexanizminin deyil, əlavə təsirlərin nəzərəçarpanlığının, preparatın metabolizm xüsusiyyətlərinin və xəstənin klinik vəziyyətinin də nəzərə alınması zəruridir. Antihistamin preparatın düzgün seçimi qarşılıqlı təsirlərin, əlavə təsirlərin kumulyasiyasının və mövcud xəstəliklərin mümkün kəskinləşməsinin təhlilini tələb edir.

Biokimya fənni üzrə statik, dinamik və funksional biokimya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlayan test tapşırıqları təqdim edilmişdir. Cari ildə biokimya fənni üzrə "Qanın biokimyası", "Nuklein turşularının kimyası və funksiyası", "Böyrəklərin biokimyası", "Fermentlər", "Əzələ toxumasının biokimyası", "Karbohidrat mübadiləsi", "Karbohidratların kimyası və funksiyası", "Lipid mübadiləsi", "Zülal mübadiləsi", "Hormonlar", "Zülalların kimyası və funksiyası", "Vitaminlər", "Maddələr mübadiləsinin əsas qanunauyğunluqları. Enerji mübadiləsi" mövzularını əhatə edən 13 test tapşırığı təqdim olunmuşdur.

Namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 60 saylı test tapşırığı

Limon turşusu dövranının fəallığı $NADH_2/NAD^+$ nisbətindən asılı olan fermentləri:

1. Piruvatdehidrogenaza
2. Akonitathidrataza
3. İzositratdehidrogenaza
4. Malatdehidrogenaza
5. Suksinatdehidrogenaza

A) 3, 5 B) 1, 2 C) 2, 4 D) 1, 5 E) 3, 4


Namizədlərin 15,21%-i tərəfindən doğru cavablandırılmış test tapşırığı "Maddələr mübadiləsinin əsas qanunauyğunluqları. Enerji mübadiləsi" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: E***).

Əsas qida maddələrinin (karbohidratlar, piylər, zülallar) katabolizminin spesifik yolları ən mühüm aralıq substratların (piroüzüm turşusu və asetil-KoA) əmələ gəlməsi ilə nəticələnir. Bunlarda toplanan enerji hüceyrələrdə katabolizmin ümumi yollarında dehidrogenləşmə reaksiyalarının köməyi ilə ayrılır. NAD-asılı və FAD-asılı dehidrogenazaların kataliz etdiyi reaksiyaların gedişi, müvafiq olaraq, $NADH_2/NAD^+$ və $FADH_2/FAD$ nisbətindən asılıdır. Reaksiya məhsulları olan NADH və $FADH_2$-in yüksək miqdarı bu fermentlərin aktivliyini ləngidir, aşağı miqdarı isə əksinə artırır (bax: İslamzadə F.İ., Əfəndiyev A.M., İslamzadə F.Q. İnsan biokimyasının əsasları /dərslik, 2 cilddə, Bakı: "Müəllim" nəşr., II cild, s. 41-42; Qarayev A.N. Bioloji kimya /rezidenturaya hazırlaşanlar üçün vəsait. DİM, Bakı: "Şərq-Qərb" nəşr., 2023, s. 213; Гасанова Ш.И., Азизова

Г.И. Биологическая химия /пособие для поступающих в резидентуру. DİM, Баку: “Print House Poliqrafaz” nəşr., 2019, s. 254-255).

Piroüzüm turşusunun oksidləşməklə dekarboksilləşməsini (katabolizmin birinci ümumi yolu) mürəkkəb multiferment (piruvatdehidrogenaza) kompleksi kataliz edir. Ferment kompleksinə 3 ferment (piruvatdekarboksilaza, dihidrolipoilasetiltransferaza, dihidrolipoildehidrogenaza) və 5 koferment (TPF, NAD, FAD, HS-KoA, lipoy turşusu) daxildir. Proses başa çatdıqdan sonra fermentlərin tərkibində olan 3 koferment (TPF, lipoy turşusu, FAD) ilkin formaya regenerasiya olunur, digərləri isə kompleksdən ayrılır: koenzim A asetil qrupunu (Asetil-KoA) limon turşusu dövranına, $NADH_2$ isə hidrogenləri mitoxondrial tənəffüs zəncirinə ötürür. Asetil-KoA və $NADH_2$ bu kompleksin allosterik inhibitorlarıdır: $NADH_2/NAD^+$ nisbəti piruvatdehidrogenazanın aktivliyini tənzimləyir. Namizədlərin 5,57%-i tərəfindən doğru cavab kimi B, 40,45%-i tərəfindən isə D cavab variantları seçilmiş olsa da, bu cavab variantlarında olan piruvatdehidrogenaza katabolizmin birinci ümumi yoluna aiddir.

Limon turşusu dövranı (Krebs dövranı və ya katabolizmin ikinci ümumi yolu) mürəkkəb çoxmərhələli prosesdir (şəkil 2). Asetil-KoA oksalatsirkə turşusu ilə kondensasiya olunaraq limon turşusu dövranına daxil olur. Bu dövranda NAD-asılı və FAD-asılı dehidrogenazaların iştirakı ilə asetil qalığı iki molekul CO_2 və dörd cüt hidrogen atomuna qədər oksidləşir, oksalatsirkə turşusu isə limon turşusunun əmələ gəlməsinə sərf edilir və dövranın sonunda regenerasiyaya uğrayır. Buna görə oksalatsirkə turşusuna limon turşusu dövranının katalizatoru kimi baxıla bilər.



Şəkil 2. Katabolizmin ümumi yolları

Şəkildən göründüyü kimi dövran 7 ferment və 1 multiferment sistemi tərəfindən kataliz olunan 8 reaksiyadan ibarətdir: sitratsintaza, sis-akonitathidrataza, izositratdehidrogenaza, α-ketoqlutaratdehidrogenaza kompleksi, suksinattiokinaza, suksinatdehidrogenaza, fumaraza, malatdehidrogenaza.

Krebs dövranının müxtəlif mərhələlərində aralıq substratlardan hidrogen ayrılır: izolimon turşusunun oksalatkəhrəba turşusuna (izositratdehidrogenaza), α-ketoqlutar turşusunun suksinil-KoA-ya (α-ketoqlutaratdehidrogenaza) və alma turşusunun oksalatsirkə turşusuna (malatdehidrogenaza) çevrilməsi ilə 3 molekul NADH, kəhrəba turşusunun fumar turşusuna çevrilməsi ilə isə 1 molekul $FADH_2$ əmələ gəlir. Namizədlərin 24,12%-i tərəfindən 5-ci bənddə göstərilən suksinatdehidrogenazanın aid edildiyi A cavab variantı seçilmişdir. B cavab variantına, eləcə də namizədlərin 13,54%-i tərəfindən seçilmiş C cavab variantına aid olan 2-ci bənddə göstərilən akonitathidrataza fermenti isə NAD-asılı deyil.

Patologiya fənnində “Qan və limfa dövranı pozğunluqları”, “Sepsis”, “Tənəffüs sistemi xəstəlikləri. Peşə xəstəlikləri”, “Hüceyrə ölümü (nekroz və apoptoz). Ölüm, meyit əlamətləri”, “Xüsusi patologiya. Ümumi hissə. Ürək-damar sistemi xəstəlikləri”, “Ateroskleroz. Hipertenziya (arterial hipertoniya xəstəliyi)”, “Prenatal və perinatal patologiyalar”, “Böyrək xəstəlikləri”, “Şişlər”, “Vərəm”, “İltihab”, “Parenximatoz, mezenximal və qarışıq distrofiyalar (degenerasiya)” bölmələri üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir.

Patologiya fənnində namizədlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 70 saylı test tapşırığı

Qon ocağının formalaşması zamanı dəyişikliklərin ardıcıllığını müəyyən edin:

1. Petrifikasiya
2. Kapsulanın əmələ gəlməsi
3. Ossifikasiya

A) 2, 3, 1 B) 3, 2, 1 C) 2, 1, 3 D) 3, 1, 2 E) 1, 3, 2

Namizədlərin 30,24%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Vərəm" bölməsinə aid olub, çətinlik dərəcəsinə görə sadədir (***Doğru cavab: C***).

Qon ocağı ilkin vərəmin sönməsi və ilkin zədələnmə ocağının sağalması nəticəsində əmələ gəlir. Bu zaman əvvəlcə perifokal iltihab sorulur, ekssudativ toxuma reaksiyası produktiv toxuma reaksiyası ilə əvəz olunur. İlkin affektin ətrafında kapsula formalaşır, kapsulanın xarici qatı limfoid hüceyrələrlə əhatə olunmuş çoxlu miqdarda xırda damarlara malik kövşək birləşdirici toxumadan təşkil olunur. Kapsulanın bilavasitə kazeoz kütlələrə söykənən daxili qatı tədricən lifli strukturlarla zənginləşir və xarici qata birləşir. Kazeoz kütlələr tədricən susuzlaşır, bərkiyir, əhəngləşir (petrifikasiya). Diametri, adətən, 0,5-1 sm olan belə sağalmış ilkin ocağa *Qon ocağı* deyilir. Vaxt ötdükcə əhəngləşmiş kazeoz kütlələrə təmas edən daxili qatda bu kütlələrin sorulmasını təmin edən çoxnüvəli hüceyrələr meydana çıxır. Onların yerində metaplaziya yolu ilə sümük tirləri əmələ gəlir. Beləliklə, petrifikasiyalaşmış ilkin ocaq ossifikasiyaya məruz qalır (bax: Həsənov Ə.B. Patoloji anatomiya /dərslik. Bakı: "Elm" nəşr., 2003, s. 632; Həsənov Ə.B., Məmmədov N.R. Patologiya (patoloji anatomiya) /rezidenturaya hazırlaşanlar üçün vəsait. DİM, Bakı: "İndigo" nəşr., 2022, s.411; Серов В.В., Струков А.И. Патологическая анатомия. М.: Медицина, 1995, с. 502; 2010, с.655).

Namizədlərin 27,27%-i tərəfindən E, 19,29%-i tərəfindən isə D cavab variantları doğru cavab kimi seçilmişdir. Lakin yuxarıda qeyd edildiyi kimi, ilkin vərəm ocağının sağalması prosesində ocağın ətrafında birləşdirici toxumadan ibarət kapsulanın əmələ gəlməsi daha əvvəl baş verir.

Patoloji fiziologiya fənnində isə "Hüceyrə zədələnməsi", "Tənəffüs sisteminin patofiziologiyası", "Endokrin sisteminin patofiziologiyası", "Böyrəklərin patofiziologiyası", "İltihab. Qızdırma", "Ekstremal vəziyyətlər. Ümumi adaptasiya sindromu", "Qan sisteminin patofiziologiyası", "Hipoksiyalar", "Ümumi nozologiya. Xarici və daxili amillərin xəstəliklərin əmələ gəlməsində rolu", "Mikrosirkulyasiyanın və yerli qan dövranının pozulması", "İmmunpatoloji proseslər. Allergiya", "Toxuma inkişafının patologiyası. Şişlər", "Həzm sisteminin patofiziologiyası. Qaraciyərin patofiziogiyası" mövzuları üzrə bilik və bacarıqları yoxlamağa imkan verən 13 test tapşırığından istifadə edilmişdir.

Namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 77 saylı test tapşırığı

Leykositlərin və endotel hüceyrələrin səthində olan ..... kəskin iltihab ocağında leykositlərin bütün növlərinin transmiqrasiyasını təmin edir.

A) GlyCam-1 B) CD95 C) VCAM-1 D) CD31 E) CD34

Namizədlərin 13,91%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "İltihab" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: D***).

İltihabi reaksiyalar zamanı leykositlər (əsasən neytrofillər və makrofaqlar) bakteriya və digər mikroorqanizmlərin faqositozuna, eləcə də nekrotik toxumanın, yad maddələrin orqanizmdən kənarlaşdırılmasına cavabdehdir. Bu baxımdan, iltihab reaksiyasının ən vacib təzahürlərindən biri zədələnmə ocağında leykositlərin toplanması və zərərverici amillərin eliminasiyası üçün onların aktivləşməsidir. Leykositlərin damarlardan ekstravaskulyar sahəyə çıxması mərhələli proses olub, aşağıdakı ardıcıllıqla həyata keçir:

- ✓ marginasiya və yuvarlanma (rollinq);
- ✓ adheziya;
- ✓ endotel hüceyrələri arasından transmiqrasiya;
- ✓ leykositlərin zədələnmə zonasına xemotaksisi.

Emiqrasiya və ya *ekstravazasiya* adlanan bu proses endotelial-leykositar adheziya molekulları (selektinlər, inteqrinlər, hüceyrəarası adheziya molekulları və s.) hesabına həyata keçir.

Selektinlər. P-, E- və L-selektinlər yuvarlanmada iştirak edir. *P-selektin* endotel hüceyrələrinin Veibel-Palade cisimciklərində saxlanılır. Histamin, trombin və ya PAF (trombositləri fəallaşdıran amil) kimi iltihab mediatorlarının təsiri altında *P-selektin* hüceyrə səthinə ekspressiya olunur. Bu molekul leykositlərin səthində yerləşən liqandı – *PSGL-1* (***P-Selectin Glycoprotein Ligand-1***) ilə zəif bağlanaraq, onların damar divarı boyunca yuvarlanmasını təmin edir.

E-selektin TNF-α və IL-1 kimi iltihab mediatorlarının təsiri ilə endotel hüceyrələrinin səthinə ekspressiya olunur. Bu molekul leykositlərin səthindəki liqanda – *Sialil-Levis X* qlikoproteininə bağlanaraq, onların

endotel boyunca hərəkət etməsini (rollinqi), həmçinin neytrofillər, monositlər və T-limfositlər üçün adheziyanı təmin edir.

L-selektin, əsasən, leykositlərin (xüsusilə neytrofillərin və monositlərin) səthində yerləşir. Bu molekul endotel hüceyrələrin səthindəki *GlyCAM-1* və namizədlərin 35,81%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən *CD34* liqandlarına bağlanaraq rollinqi həyata keçirir.

İnteqrinlər. LFA-1, Mac-1 və VLA-4 inteqrinləri leykositlərin səthində yerləşir, adheziya mərhələsində iştirak edir. Onlar xemoattraktantların təsiri ilə aktivləşir. Aktivləşmiş *LFA-1* və *Mac-1* endotel hüceyrələrinin səthində olan ICAM-1 molekullarına bağlanaraq, leykositin endotelə sıx yapışmasını təmin edir. Bu molekullar həmçinin transmiqrasiyada da iştirak edir.

VLA-4 (β_1) inteqrini isə endotel hüceyrələrindəki VCAM-1 molekuluna bağlanır və bununla da adheziyanı təmin edir.

Hüceyrəarası adheziya molekulları. *ICAM-1* (***I**nter**c**ellular **A**dhesion **M**olecule-1*) endotel hüceyrələrinin səthində yerləşir və TNF-α, IL-1 kimi sitokinlərin təsiri ilə səviyyəsi artır. Bu molekul LFA-1 və Mac-1 inteqrinləri ilə birləşərək, leykositlərin damar divarına sıx adheziyasına kömək edir.

Namizədlərin 25,23%-nin seçdiyi C cavab variantında göstərilən *VCAM-1* (***V**ascular **C**ell **A**dhesion **M**olecule-1*) də endotel hüceyrələrinin səthində yerləşir. Bu molekul VLA-4 inteqrini ilə bağlanaraq, eozinofillərin, limfositlərin və monositlərin endotelə yapışmasını təmin edir. *VCAM-1* molekulu xüsusilə xroniki iltihabi proseslərdə mühüm rol oynayır.

Transmiqrasiya molekulları. *CD31 (PECAM-1)* həm leykositlərin, həm də endotel hüceyrələrinin səthində yerləşir. Bu molekul homofilik, yəni öz-özü ilə bağlanaraq, leykositlərin endotel hüceyrələri arasından keçməsini (diapedez) təmin edir.

İltihab zamanı leykositlərin damarlardan interstisial sahəyə keçməsi çoxmərhələli prosesdir. Bu mərhələlərin hər biri ayrı-ayrı molekullar tərəfindən tənzimlənir: selektinlər rollinq, inteqrin-ICAM və ya inteqrin-VCAM əlaqələri adheziya, CD31 (PECAM-1) isə transmiqrasiya üçün vacibdir.

Namizədlərin 19,48%-i tərəfindən seçilmiş B cavab variantında göstərilən CD95 (və ya FAS) isə ölüm reseptorudur və apoptozu təmin edir. Qeyd etmək istəyirik ki, ədəbiyyat mənbələrində mövzunun ətraflı şərhi verilmişdir (bax: Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. Bakı: "Təbib" nəşr., 2015, I cild, s. 295; Əliyev S.C., Əliyev M.X., Əliyeva C,T., Pənahova S.R. Patoloji fiziologiya /dərs vəsaiti. DİM, Bakı: "Şərq-Qərb" nəşr., 2023, s. 111; Алиев С.Дж., Алиев М.Х., Панахова С.Р., Алиева Дж.Т. Патологическая физиология /пособие для поступающих в резидентуру. ГЭЦ, Баку: "Print House Poliqrafaz" nəşr., 2019, с. 124).

Təhlillər göstərir ki, namizədlər ***açıq formalı*** test tapşırıqlarının həllində cari ildə də çətinlik çəkmişlər. Buna misal olaraq ***patoloji fiziologiya*** fənnindən uyğunluğun müəyyən edilməsini tələb edən test tapşırığının şərhini təqdim edirik:

B variantı, 84 saylı (açıq formalı) test tapşırığı

Uyğunluğu müəyyən edin:

1. Polisitemik hipervolemiya
2. Oliqositemik hipovolemiya

a. Ağciyər emfizeması
b. Vakez-Osler xəstəliyi
c. Massiv hemoliz
d. Addison-Birmer anemiyası
e. Ürək qüsurları

Namizədlərin 15,21%-i tərəfindən doğru cavablandırılmış açıq formalı bu test tapşırığı "Qan sisteminin patofiziologiyası" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: 1-a, b, e; 2-c, d***).

Müxtəlif xəstəliklər zamanı dövr edən qanın həcmi arta, azala və ya normada ola bilər. Qanın həcminin artması *hipervolemiya,* azalması *hipovolemiya,* normada olması isə *normovolemiya* adlanır. Hiper-, hipo- və normovolemiyaların hər biri *sadə* (hematokrit ədədi dəyişmir), *oliqositemik* (hematokrit ədədi azalır) və *polisitemik* (hematokrit ədədi artır) olmaqla qruplaşdırılır.

Sadə (normositemik) hipervolemiya zamanı dövr edən qanın həcmi artır, onun tərkibində hüceyrəvi elementlərlə plazma arasındakı nisbət isə pozulmur. Bu vəziyyət, əsasən, qanköçürmə zamanı meydana çıxır, gərgin fiziki iş zamanı da müşahidə oluna bilər. Bu, depolarda olan qanın ümumi qan cərəyanına keçməsi ilə əlaqədardır.

Polisitemik hipervolemiya qanın həcminin formalı elementlərin, xüsusilə eritrositlərin hesabına artmasıdır. Nəticədə hematokrit ədədi də artır. Hipervolemiyanın bu növünə ağciyər emfizeması, ürək qüsurları və eritremiya (Vakez-Osler xəstəliyi) zamanı rast gəlinir. *Ağciyər emfizeması* və *ürək qüsurları* zamanı qan oksigenlə kifayət qədər zənginləşmir, bu da toxumalarda xroniki hipoksiyaya səbəb olur. Hipoksiya fonunda böyrəklərdə eritropoetin sekresiyası artır. Eritropoetin qırmızı sümük iliyində eritropoez

prosesini stimulə edir. Nəticədə, qanda eritrositlərin miqdarının çoxalması hesabına qanın özlülüyü və ümumi həcmi artır. Beləliklə, polisitemik hipervolemiya inkişaf edir.

Vakez-Osler xəstəliyi xroniki leykozun formalarından biridir. Şişin inkişaf mənbəyi qırmızı sümük iliyində mielopoezin sələf hüceyrələridir, əsas substratı isə eritrositlərdir. Mutasiya nəticəsində sümük iliyində daim eritrosit sintezi stimulə olunur. Nəticədə, qanda eritrositlərin sayı artır və hematokrit ədədi yüksəlir. Eyni zamanda eritrositoz hesabına dövr edən qanın həcmi də artır. Beləliklə, polisitemik hipervolemiya yaranır.

Oliqositemik hipovolemiya dedikdə eritrositlərin miqdarının azalması hesabına dövr edən qanın həcminin azalması nəzərdə tutulur. Hipovolemiyanın bu növü massiv hemoliz, Addison-Birmer anemiyası və s. zamanı müşahidə olunur.

Massiv hemoliz qanda eritrositlərin müxtəlif səbəblərdən (zəhərlərin, temperaturun, ionlaşdırıcı şüaların, travmanın təsiri və s.) parçalanmasının sürətlənməsidir. Nəticədə, qanda eritrositlərin sayı sürətlə azalır, bu isə oliqositemik hipovolemiyaya səbəb olur.

Addison-Birmer anemiyası orqanizmdə B_{12} vitamini çatışmazlığı zamanı inkişaf edir. B_{12} vitamininin defisiti onun kofermentlərinin – metilkobalamin və 5-dezoksiadenozilkobalaminin iştirak etdiyi proseslərin pozulmasına səbəb olur. Metilkobalamin hüceyrə bölünməsi üçün vacibdir, onun çatışmazlığı fonunda bütün hüceyrələrdə, eləcə də sümük iliyində mitoz bölünmə ləngiyir, nəticədə normal eritropoez meqaloblastik eritropoezlə əvəz olunur, yəni sümük iliyində normal eritrositlər əvəzinə meqaloblastlar yaranır. Bu anormal hüceyrələr periferik qana çıxmadan məhv olur. Buna "effektsiz eritropoez" də deyilir. Eritrositlərin əmələ gəlməsinin kəskin azalması hesabına qanın həcmi də azalır. Nəticədə, oliqositemik hipovolemiya inkişaf edir.

Mövzu ilə əlaqədar patoloji fiziologiya fənni üzrə dərslik və dərs vəsaitlərində (bax: Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. Bakı: "Təbib" nəşr., 2016, II cild, s. 13-14; Əliyev S.C., Əliyev M.X., Əliyeva C,T., Pənahova S.R. Patoloji fiziologiya /dərs vəsaiti. DİM, Bakı: "Şərq-Qərb" nəşr., 2023, s. 267; Алиев С.Дж., Алиев М.Х., Панахова С.Р., Алиева Дж.Т. Патологическая физиология /пособие для поступающих в резидентуру. ГЭЦ, Баку: "Print House Poliqrafaz" nəşr., 2019, c. 301) ətraflı məlumat verilməsinə baxmayaraq, namizədlərin bu tapşırığı cavablandırmaqda çətinlik çəkmələri isə onların tədris zamanı əldə etdikləri bilikləri tətbiq etmək bacarıqlarının kifayət qədər olmaması ilə bağlıdır.

İnsan fiziologiyası fənnindən "Oyanan toxumaların ümumi fiziologiyası", "Tənəffüs sisteminin fiziologiyası", "Həzm sisteminin fiziologiyası", "Damar sisteminin fiziologiyası", "Sinir hüceyrələrinin fiziologiyası", "Ali sinir fəaliyyəti", "Mərkəzi sinir sisteminin ümumi fiziologiyası", "İfrazat sisteminin fiziologiyası", "Yuxunun fiziologiyası", "Qan sisteminin fiziologiyası", "Daxili sekresiya vəzilərinin fiziologiyası. Fizioloji funksiyaların hormonal tənzimi", "Əzələlərin fiziologiyası", "Analizatorlar (sensor sistem)", "Maddələr və enerji mübadiləsi. Qidalanma" və "Vegetativ funksiyaların sinir tənzimi" bölmələri üzrə bilik və bacarıqları yoxlayan test tapşırıqları təqdim edilmişdir.

Namizədlərin bu fənn üzrə cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 92 saylı test tapşırığı

Deserebrasion qıclıq ..... kəsik aparıldıqda aradan qalxır.

A) Varol körpüsünün ön kənarı səviyyəsində
B) Deyters nüvəsindən yuxarı
C) qırmızı nüvədən aşağı
D) dördtəpəli cisimdən aşağı
E) onurğa beyninin arxa köklərində

Namizədlərin 20,22%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Mərkəzi sinir sisteminin xüsusi fiziologiyası" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: E***).

Bu test tapşırığının düzgün cavablandırılması üçün "Uzunsov beyinin fiziologiyası" və "Orta beyinin fiziologiyası" mövzularına diqqət yetirmək tələb olunur. Bu mövzulardan məlumdur ki, əgər heyvanda Varol körpüsünün ön kənarı səviyyəsində kəsik aparılarsa, kəsik Deyters nüvəsindən yuxarı, qırmızı nüvədən aşağı olduğuna görə bükücü əzələlərin tonusu itir, açıcı əzələlərin tonusu isə yüksəlir və "deserebrasion qıclıq" adlanan vəziyyət yaranır (bax: Məmmədov A.M., Sudakov K.V. Normal fiziologiya. Bakı: "Təbib" nəşr., 2011, I cild, s. 235; Судаков К.В., Нормальная физиология. М.: Мед.инф. агентство, 2006, с. 153; 2015, с. 116; Бахшиева З.Т., Рустам-заде А.Ш., Алиев А.Х., Гасанова Г.А. Нормальная физиология /пособие для поступающих в резидентуру. ГЭЦ, Баку: "Print House Poliqrafaz" nəşr., 2019, s.116-117). Deserebrasion qıclığı aradan qaldırmaq üçün ya Deyters nüvəsi onun ətrafında olan retikulyar formasiyanın neyron strukturları ilə birlikdə dağıdılmalı, ya da Deyters nüvəsindən aşağıda rombabənzər çuxur səviyyəsində təkrar kəsik aparılmalıdır. Deserebrasion qıclıq, həmçinin müvafiq əzələ qruplarından onurğa beyninə gələn hissi sinir köklərini kəsməklə aradan qaldırıla bilər.

A, B, C və D cavab variantları namizədlərin, müvafiq olaraq, 33,58%-i, 17,63%-i, 14,47%-i və 12,99%-i tərəfindən yanlış olaraq seçilmişdir.

Beləliklə, aydın olur ki, əksər namizədlər tədris zamanı "Uzunsov beyinin fiziologiyası" və "Orta beyinin fiziologiyası" mövzularına dair əldə etdikləri bilikləri düzgün əlaqələndirməkdə və sistemləşdirməkdə çətinlik çəkmişlər.

İnsan fiziologiyası fənnindən təqdim olunmuş və namizədlərin cavab verməkdə çətinlik çəkdikləri açıq formalı seçim tələb edən test tapşırığının şərhini təqdim edirik:

B variantı, 96 saylı (açıq formalı) test tapşırığı

Miozin:

1. ATF-aza fəallığına malikdir.
2. tropomiozinlə birləşərək aktindən izolə olunur.
3. aktinlə birləşərək təqəllüsə səbəb olur.
4. Ca^{2+} ionları ilə birləşdikdə onları sekvestrasiya edir.
5. troponinlə kompleks birləşmə əmələ gətirir.

Namizədlərin 14,29%-i tərəfindən doğru cavablandırılmış açıq formalı bu test tapşırığı "Əzələlərin fiziologiyası" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: 1, 3***).

Test tapşırığının düzgün cavablandırılması üçün "Əzələ təqəllüsünün mexanizmi" mövzusuna diqqət yetirmək lazımdır (bax: Məmmədov A.M., Sudakov K.V. Normal fiziologiya. Bakı: "Təbib" nəşr., 2011, I cild, s. 101; Судаков К.В., Нормальная физиология. М.: Мед.инф. агентство, 2015, с. 45; Бахшиева З.Т., Рустам-заде А.Ш., Алиев А.Х., Гасанова Г.А. Нормальная физиология /пособие для поступающих в резидентуру. ГЭЦ, Баку: "Print House Poliqrafaz" nəşr., 2019, s. 45-47). Sakit halda troponin I (TnI) aktinlə birləşərək onun miozinlə birləşməsinin qarşısını alır. Əzələ lifi oyandıqda plazmatik membran boyunca yayılan oyanma sarkoplazmatik şəbəkənin oyanmasına və orada sekvestrasiya olunmuş Ca^{2+} ionlarının sarkoplazmaya çıxmasına səbəb olur. Kalsiuma həssas olan troponin (TnC) Ca^{2+} ionları ilə birləşərək tropomiozini kənara çəkir və miozinin aktinlə birləşməsi üçün şərait yaradır. Nəticədə, miozin aktinlə birləşir və təqəllüs baş verir. Miozin başlıqlarında olan ATF-aza fermenti aktinlə birləşdikdə fəallaşır, ATF-i hidroliz edərək, enerji yaranmasına və miozin başlığının aktindən ayrılmasına səbəb olur. Beləliklə, miozin yeni aktin sahəsinə birləşə bilir.

Statistik təhlil göstərir ki, namizədlərin əksəriyyətinin cavablandırmaqda çətinlik çəkdikləri yuxarıda şərhini təqdim etdiyimiz test tapşırıqlarını imtahanda ən yüksək bal toplamış namizədlər doğru cavablandırmışlar. Qeyd etmək istəyirik ki, baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında yüksək bal toplamış namizədlərin ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında əldə etdiyi nəticələr də yüksək olmuşdur. Buradan belə nəticəyə gəlmək olar ki, bu namizədlər özlərində tədris zamanı mənimsədikləri bilikləri sistemləşdirmək qabiliyyətlərini təkmilləşdirərək tətbiq etmək bacarıqlarını formalaşdırmışlar.

DİM-də baza fənləri ilə yanaşı, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında da namizədlərin cavablandırmaqda daha çox çətinlik çəkdikləri test tapşırıqlarının təhlili aparılmışdır. Bu imtahanda da istifadə edilmiş test tapşırıqları rezidenturaya qəbul proqramlarına və müvafiq ədəbiyyat mənbələrinə uyğun olmuşdur; onlar çətinlik dərəcəsinə görə sadə, orta və mürəkkəb olmaqla, bütün qabiliyyət göstəricilərini əhatə etmiş, namizədlərin qazandıqları bilik və bacarıqları obyektiv qiymətləndirməyə imkan vermişdir. Bütün istiqamətlər üzrə məntiqi düşüncə və nəzəri biliklərin tətbiqini tələb edən, elmi cəhətdən əsaslandırılmış və praktik əhəmiyyətə malik test tapşırıqlarına üstünlük verilmişdir.

Tibb istiqaməti üzrə namizədlərə **Daxili xəstəliklər** blokunda (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya, yoluxucu xəstəliklər, psixiatriya) 66 test tapşırığı təqdim olunmuşdur. Təhlillər göstərmişdir ki, 2025-ci ildə bu blok daxilində namizədlər qastroenterologiya, nefrologiya, hematologiya, yoluxucu xəstəliklər və nevrologiya fənləri üzrə təqdim olunmuş test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmişlər.

Qastroenterologiya fənni üzrə "Uşaq qastroenterologiyası" bölməsinə aid olan və namizədlərin cavablandırmaqda daha çox çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 89 saylı test tapşırığı

Uşaqlarda kəskin herpes stomatiti üçün səciyyəvi ***deyil***:

A) udmanın ağrılı olması
B) dəri hiperesteziyası
C) çənəaltı limfa düyünlərinin böyüməsi
D) hipersalivasiya
E) ağızın selikli qişasında pərdəşəkilli ərp

Namizədlərin 23,64%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Uşaqlarda ağız boşluğu xəstəliklərinin semiotikası" mövzusuna aiddir, orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: E***).

Kəskin herpes stomatiti bədən hərarətinin artması və ümumi halsızlıqla başlayır. 1-2 gün sonra ağız boşluğunda yemək və danışıq zamanı güclənən ağrı yaranır. Selikli qişa qızarır və ödemləşir, sonra onun üzərində tək-tək və ya qrup şəklində xırda qovuqcuqlar əmələ gəlir. Vezikullar sürətlə eroziyaya keçir. Eroziyalar, əsasən, damaqda, dildə, dodaqlarda lokallaşır.

Namizədlərin 16,30%-i tərəfindən seçilmiş A cavab variantında göstərilən udmanın ağrılı olması kəskin herpes stomatitinin səciyyəvi əlamətidir. Namizədlərin 30,98%-i tərəfindən seçilmiş B cavab variantında göstərilən dəri hiperesteziyası bu xəstəlik zamanı tez-tez müşahidə olunur. Namizədlərin 18,21%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən çənəaltı limfa düyünlərinin böyüməsi aydın müəyyən olunur. Namizədlərin 9,24%-i tərəfindən seçilmiş D cavab variantında göstərilən hipersalivasiya kəskin herpes stomatitinin mühüm simptomudur. Ağız suyu özlü və yapışqan olur, ağızda xoşagəlməz, çürüntülü qoxu qeyd edilir (bax: Шабалов Н.П. Детские болезни /учебник для ВУЗ-ов, в 2-х т., 6-ое изд., СПб.: Питер, том 1, 2011, с. 639, 2017, с. 587).

Test tapşırığının doğru cavabı olan ağızın selikli qişasında pərdəşəkilli ərp ağız boşluğu kandidozu – süd yarası zamanı müşahidə olunur.

Nevrologiya fənni üzrə namizədlərin cavablandırılmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 58 saylı test tapşırığı

Ştrümpel xəstəliyi üçün səciyyəvi ***deyil***:

A) intellektin saxlanılması
B) aşağı ətraflarda hemianesteziya
C) "Fridreyx ayağı"
D) aşağı ətraflarda vətər reflekslərinin artması
E) aşağı ətraflarda proqressivləşən zəiflik

Namizədlərin 4,08%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Piramid və ekstrapiramid sistemin xəstəlikləri" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: B***).

Ştrümpel xəstəliyi (ailəvi spastik paraplegiya) onurğa beyninin yan və ön ciyələrinin piramid yollarının ikitərəfli zədələnməsi ilə müşayiət olunan heterogen xəstəliklər qrupudur.

Xəstəlik tədricən inkişaf edir, xəstəliyin debüt etdiyi yaşda dəyişikliklər qeyd edilsə də, ilk simptomlar adətən həyatın ikinci onilliyində təzahür edir. İlk təzahürlər xəstəlik proqressivləşdikcə ayaqlarda artan ağırhərəkətlilik və yeriş zamanı tez yorulmadır. Tədricən spastik yeriş inkişaf edir, ayağın varus və ekvinovarus deformasiyası (əyripəncəlik) qoşulur, eləcə də namizədlərin 8,70%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən "Fridreyx ayağı" formalaşır. Kontrakturalar, xüsusilə, aşıq-baldır oynağında nəzərə çarpır (bax: Гусев Е.И., Коновалов А.Н. и др. Неврология. Национальное руководство. М.: ГЭОТАР-Медиа, 2009, с.904; Гусев Е.И., Гречко В.Е. и др. Нервные болезни. М.: Медицина, 1988, с. 608-609; Петрухин А.С. Детская неврология: в 2-х т., М.: ГЭОТАР-Медиа, 2012, том 2, с.185).

Namizədlərin 5,16%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən aşağı ətraflarda proqressivləşən zəiflik vaxt ötdükcə artır, lakin aşağı ətrafların tam iflici müşahidə olunmur. Artıq xəstəliyin başlanğıc mərhələlərində xəstənin klinik müayinəsi zamanı namizədlərin 73,37%-i tərəfindən seçilmiş D cavab variantında göstərilən aşağı ətraflarda vətər reflekslərinin artması aşkar edilir, açıcı və büküçü əzələ qruplarının patoloji refleksləri, ayağın klonusu erkən təzahür edir. Yuxarı ətraflar patoloji prosesə xeyli gec cəlb olunur.

Ayrı-ayrı xəstələrdə görmə və gözün hərəki sinirlərinin zədələnməsi, nistaqm, dizartriya, ataksiya və intension tremor müşahidə oluna bilər. Dəri refleksləri əksər hallarda saxlanılır, çanaq orqanlarının funksiyası pozulmur. Hissiyyat pozulmaları (o cümlədən hemianesteziya) olmur, intellekt saxlanılır (namizədlərin 8,15%-i tərəfindən seçilmiş A cavab variantı).

Hematologiya fənni üzrə namizədlərin cavablandırılmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

B variantı, 54 saylı test tapşırığı

Xronik mieloleykoz üçün səciyyəvi ***deyil***:


A) hemorragik diatez
B) neytrofillərdə qələvi fosfataza aktivliyinin artması
C) splenomeqaliya
D) hiperurikemiya
E) qan zərdabında B_{12} vitamininin miqdarının artması

Namizədlərin 22,28%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Xroniki mieloleykoz" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə sadədir (***Doğru cavab: B***).

Xroniki mieloleykoz xroniki mieloproliferativ xəstəlikdir, bu zaman şiş substratı kimi qranulositlərin (əsasən, neytrofillərin, eləcə də promielositlərin, mielositlərin, metamielositlərin) əmələ gəlməsinin güclənməsi qeyd edilir. Xroniki mieloleykoz zamanı sümük iliyində blastların miqdarı artır, eritro- və trombopoez isə süstləşir.

Namizədlərin 5,71%-i tərəfindən seçilmiş A cavab variantında göstərilən hemorragik diatez hemostazın prokoaqulyant və trombositar halqasının pozulması nəticəsində inkişaf edir (bax: Daxili xəstəliklər /V.Ə.Əzizovun redaktəsi ilə. Bakı: "Qolialf Nəşriyyat Evi" MMC, 2011, s. 806-808; Шабалов Н.П. Детские болезни /учебник для ВУЗ-ов, в 2-х т., 6-ое изд., СПб.: Питер, 2011, том 2, с. 369-372; Маколкин В.И. Внутренние болезни /учебник, 6-ое изд., М.: Медицина, 2012, с. 604-606).

Namizədlərin 7,88%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən splenomeqaliya xroniki mieloleykozun səciyyəvi əlamətidir, bu zaman dalaq adətən olduqca böyük ölçülərə çatır (kütləsi 6-9 kq təşkil edir və aşağı qütbü kiçik çanağa enir). Sol və sağ qabırğaaltı nahiyədə ağırlıq və ağrılar adətən dalağın və qaraciyərin böyüməsi ilə izah olunur (şəkil 3).



Şəkil 3. Xroniki mieloleykozlu xəstədə splenomeqaliya

Namizədlərin 10,05%-i tərəfindən seçilmiş D cavab variantında göstərilən hiperurikemiya qranulositlərin parçalanmasının artması nəticəsində inkişaf edir və sidik turşusu diatezi ilə təzahür edir.

Namizədlərin 53,26%-i tərəfindən E cavab variantı seçilmişdir. Mieloproliferativ xəstəliklər, o cümlədən xroniki mieloleykoz zamanı qan zərdabında B_{12} vitamininin miqdarı xeyli artır. Belə ki, blast hüceyrələrin sayının artması normada mielositlərdə və digər qranulositlərdə sintez olunan B_{12} vitamini birləşdirici zülalın qana keçməsinin artmasına gətirib çıxarır. Bundan əlavə, qaraciyərin zədələnməsi də qan zərdabında B_{12} vitamininin səviyyəsinin artmasında rol oynayır.

Xroniki mieloleykoz zamanı neytrofillərdə qələvi fosfataza aktivliyi azalmış olur. Bu xüsusiyyətdən xroniki mieloleykozu infeksiyalar zamanı leykemoid reaksiyalardan (neytrofillərdə qələvi fosfataza aktivliyinin artması ilə müşayiət olunur) diferensiasiya etmək məqsədilə istifadə olunur.

Namizədlər ***yoluxucu xəstəliklər*** fənni üzrə "Helmintozlar" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında daha çox çətinlik çəkmişlər.

Həmin test tapşırığının şərhini təqdim edirik:

B variantı, 93 saylı test tapşırığı

Opistorxozun müalicəsi üçün daha effektiv preparat:

A) levamizol B) prazikvantel C) fenasal
D) ivermektin E) mebendazol

Namizədlərin 5,71%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı çətinlik dərəcəsinə görə sadədir (***Doğru cavab: B***).

Opistorxoz peroral biohelmintozdur. Helmintin yumurtalarını nəcislə ifraz edən insan, pişiklər, tülkülər, itlər və s. parazitin son sahibi və törədicinin mənbəyidir. Aralıq sahibi şirin su molyuskları (*Bithynia laechi*), əlavə sahibləri karp balıqlarıdır.

İnsan qidada tərkibində helmintin diri sürfələri – metaserkarilər olan çiy, az duzlanmış və ya zəif

qurudulmuş balıqlardan istifadə etdikdə opistorxoza yoluxur. Opistorxilər insanın və bir sıra balıqyeyən heyvanların ödçıxarıcı və mədəaltı vəzi axacaqlarında parazitlik edir. İnsanın udduğu sürfələr nazik bağırsaqda qişadan azad olur, bir neçə saat sonra ümumi od axacağından qaraciyərdaxili öd yollarına, eləcə də mədəaltı vəzi axacaqlarına keçir, burada 2 həftə sonra yumurta ifraz edən cinsi yetkin maritalara çevrilirlər. Opistorxinin yetkin fərdi insan orqanizmində 25 ilə qədər yaşaya bilər (bax: Vəliyev Ə.H. İnfeksion xəstəliklər. Bakı: "Nasir" nəşr., 2013, s. 603; Шувалова Е.П., Белозеров Е.С., Беляева Т.В., Змушко Е.И. Инфекционные болезни /учебник для студентов медицинских ВУЗ-ов, 7-е изд., испр. и доп. Санкт-Петербург: изд. «СпецЛит», 2015, с.707; Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология: Учебник, 2-е изд. М.: ГЭОТАР-Медиа, 2004, с. 767).

Opistorxozlu xəstələrin müalicəsi üçün seçim preparatı yeməkdən dərhal sonra gündəlik 40-60 mq/kq dozada bir gün ərzində 4-6 saat intervalla üç qəbulda təyin olunan prazikvanteldir. Preparatın maksimal birdəfəlik dozası 2 q, maksimal gündəlik dozası 6 qramdır.

Namizədlərin 55,16%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən mebendazol askaridlərə, bizquyruqlara, tükbaş qurdlara, strongiloidlərə, böyük dozalarda bağırsaqdankənar helmintozlara – trixinelloza və exinokokkoza təsir göstərir.

Namizədlərin 19,84%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən fenasal enli lentcə, öküz soliteri və cırtdan soliterin törətdiyi bağırsaq sestodozları zamanı istifadə olunur.

Namizədlərin 11,68%-i tərəfindən seçilmiş A cavab variantında göstərilən levamizol askaridoz və enterobiozda effektivdir.

Namizədlərin 7,07%-i tərəfindən seçilmiş D cavab variantında göstərilən ivermektin mikrofilyarisid antihelmint preparatdır. Preparat, həmçinin, strongiloidoz və *larva migrans cutanea* zamanı tətbiq olunur.

Nefrologiya fənnindən namizədlərin cavab verməkdə çətinlik çəkdikləri açıq formalı seçim tələb edən test tapşırığının şərhini təqdim edirik:

B variantı, 98 saylı (açıq formalı) test tapşırığı

Diabetik nefropatiyanın yaranmasına təsir göstərən patogenetik amillər:

1. Qanda kalsitoninin səviyyəsinin artması
2. Hiperlipidemiya
3. Hiperfosfatemiya
4. Yumaqcıqdaxili hipertenziya
5. Sistemli hipertenziya

Namizədlərin 19,57%-i tərəfindən doğru cavablandırılmış açıq formalı bu test tapşırığı "Diabetik nefropatiya" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: 2, 4, 5***).

Şəkərli diabet zamanı böyrəklərin zədələnməsinin inkişafı iki patogenetik amilin – metabolik və hemodinamik amillərin eyni vaxtda təsiri ilə əlaqələndirilir.

Metabolik amillərə hiperqlikemiya və hiperlipidemiya aiddir. Hiperlipidemiya diabetik nefropatiyanın inkişafında və proqressivləşməsində iştirak edir. Modifikasiya olunmuş aşağı sıxlıqlı lipoproteinlər böyrək yumaqcığı kapilyarlarının zədələnmiş endotelindən keçir və onlarda sklerotik proseslərin inkişafına səbəb olur. Hiperlipidemiya şəraitində nefrosklerozun inkişaf prosesi damarların aterosklerozunun formalaşma mexanizminə oxşardır (bax: Daxili xəstəliklər /V.Ə.Əzizovun redaktəsi ilə. Bakı: Qolialf nəşriyyat evi, 2011, s. 766; Нефрология. /Под ред. Е.М. Шилова. М.: ГЭОТАР-Медиа, 2007, с.427).

Hemodinamik amillərə sistemli və yumaqcıqdaxili hipertenziyaların təsiri aiddir. Yumaqcıqdaxili hipertenziya (böyrək yumaqcıqlarının kapilyarlarında yüksək hidrostatik təzyiq) diabetik nefropatiyanın inkişafında əsas hemodinamik amil kimi önə çıxır. Şəkərli diabet zamanı bu fenomenin əsasını böyrək yumaqcıqlarının gətirici və aparıcı arteriollarının tonusunda olan disbalans təşkil edir.

Bununla belə, həm 1-ci, həm də 2-ci tip şəkərli diabet zamanı arterial hipertenziya böyrək çatışmazlığının proqressivləşməsində ən güclü amil olub, öz zədələyici təsirinə görə metabolik amillərin təsirini bir neçə dəfə üstələyir.

Cərrahlıq blokunda (ümumi cərrahlıq, cərrahi xəstəliklər və uşaq cərrahlığı) 20 test tapşırığı təqdim olunmuşdur. Bu blok daxilində namizədlər daha çox ümumi cərrahlıq fənni üzrə təqdim olunmuş test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmişlər.

Ümumi cərrahlıq fənni üzrə "Cərrahi infeksiya" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında namizədlərin daha çox çətinlik çəkdikləri qeyd edilmişdir.

Həmin test tapşırığının şərhini təqdim edirik:

B variantı, 14 saylı test tapşırığı

Vərəm qonitinin artritik mərhələsində müşahidə olunur:
1. Diz oynağında ağrılar
2. Ətrafın məcburi düzlənmiş vəziyyəti
3. Kornevin "cilov" simptomu
4. Aleksandrov simptomu
5. Ətrafın məcburi yarımbükülü vəziyyəti

A) 1, 3, 5 B) 1, 2, 3 C) 1, 2, 4 D) 3, 4, 5 E) 1, 4, 5

Namizədlərin 18,48%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: E***).

Diz oynağının vərəm prosesi ilə zədələnməsi əksər hallarda uşaqlarda erkən yaşda rast gəlinir. Tezliyinə görə vərəm qoniti sümük-oynağın vərəm xəstəlikləri arasında üçüncü yeri (15-20%) tutur. Vərəm qonitinin gedişində prosesin sümüyün epifizində lokallaşdığı preartritik və prosesin oynağa yayıldığı artritik mərhələlər ayırd edilir (bax: Cəfərov Ç.M. Ümumi cərrahlıq. Bakı: "Azərbaycan" nəşr., 2006, s. 466; Hacıyev C.N. Ümumi cərrahlıq: 2 cilddə, Bakı: 2013, II cild, s. 355; Гостищев В.К. Общая хирургия. М.: ГЭОТАР-Медиа, 5-е изд., перераб. и доп., 2013, с. 599).

Artritik mərhələdə oynaqda ağrı yaranır, oynaq həcmcə böyüyür, üzərindəki dəri hamar, parlaq olur, oynağın sərhədləri hamarlaşır, oynaq iyəbənzər forma alır. Diz qapağının çalxalanma simptomu müəyyən olunur: diz qapağı diz kasacığına basıldıqda batır, təzyiq dayandırılan kimi isə əvvəlki vəziyyətinə qayıdır. Xəstə ayağını yarımbükülmüş vəziyyətdə saxlayır. Sağlam ayaqla müqayisədə oynağın dairəsi artmış, bud nahiyəsində ətrafın dairəsi isə azalmış olur. Xəstə ayaqda budun xarici səthində dəri büküşü sağlam ayağa nisbətən daha qalın olur (Aleksandrov simptomu).

Namizədlərin 48,91%-i tərəfindən seçilmiş A cavab variantına aid olan 3-cü bənddə göstərilən Kornevin "cilov" simptomu onurğa vəréminin spondilolitik fazası zamanı müşahidə olunur. Bu simptom gövdənin açılması zamanı arxa əzələlərinin gərginləşməsi (kürək sümüklərinin bucaqlarından vərəmlə zədələnmiş fəqərəyə gedən atmalar şəklində) və arxaya doğru çıxmış tin çıxıntısına təzyiq edildikdə ağrı ilə təzahür edir (şəkil 4).



Şəkil 4. Kornevin "cilov" simptomu

Namizədlər ***mamalıq və ginekologiya*** fənni üzrə "Uşaqlığın mioması və endometrioid heterotopiyalar" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında daha çox çətinlik çəkmişlər.

Həmin test tapşırığının şərhini təqdim edirik:

B variantı, 29 saylı test tapşırığı

Adenomioz:
A) uşaqlığın selikli qişasının iltihabıdır
B) uşaqlıq cisminin endometrioid heterotopiya ilə zədələnməsidir
C) uşaqlığın xoşxassəli şişidir
D) uşaqlıq boynunun xərçəngönü xəstəliyidir
E) endometriumun xərçəngönü xəstəliyidir

Namizədlərin 38,59%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı çətinlik dərəcəsinə görə sadədir (***Doğru cavab: B***).

Endometrioz endometrium toxumasının ektopik ocaqlarının əmələ gəlməsi ilə səciyyələnən patoloji prosesdir. Lokalizasiyasından asılı olaraq genital və ekstragenital endometrioz ayırd edilir. Genital endometrioz daxili endometrioza (uşaqlıq cisminin, boğazının, uşaqlıq borularının interstisial şöbələrinin) və xarici endometrioza (xarici cinsiyyət üzvlərinin, uşaqlıq yolunun və uşaqlıq boynunun uşaqlıq yolu hissəsinin, retroservikal nahiyənin, yumurtalıqların və s.) bölünür. Ekstragenital endometrioz zamanı endometrioid implantlar qadın orqanizminin digər orqan və toxumalarında (ağciyərlər, bağırsaq, göbək, əməliyyatdan sonrakı yaralar və s.) aşkar olunur.

Adenomioz (uşaqlıq cisminin endometriozu) endometrioid heterotopiyaların miometriumda aşkar edildiyi genital endometrioz formasıdır. Makroskopik olaraq uşaqlıq cisminin endometriozu onun böyüməsi, miometriumun hiperplaziyası ilə təzahür edir. Endometrioz sahəsində hemorragik möhtəviyyatlı kistoz boşluqların yaranması, yaxud stromal endometrioid toxumasının üstünlüyü ilə düyünlü elementlərin formalaşması mümkündür.

Adenomioz namizədlərin 26,09%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən endometriumun xərçəngönü xəstəliyi hesab edilmir, eləcə də namizədlərin 19,29%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən uşaqlığın xoşxassəli şişlərinə aid deyil (bax: Ginekologiya /dərslik, elmi redaktor: H.F.Bağırova. Bakı: "Şərq-Qərb" nəşr., 2012, s. 272-274; Савельева Г.М. и др. Гинекология. М.: ГЭОТАР-Медиа, 2011, с.193).

Stomatologiya istiqaməti üzrə "Ortopedik stomatologiya", "Üz-çənə cərrahiyyəsi", "Uşaq stomatologiyası" və "Terapevtik stomatologiya" fənlərindən namizədlərin bilik və bacarıqlarını obyektiv qiymətləndirməyə imkan verən test tapşırıqları təqdim edilmişdir. Bu imtahanda da bütün fənlər üzrə nəzəri biliklərin tətbiqini tələb edən, elmi cəhətdən əsaslandırılmış və praktik əhəmiyyətə malik test tapşırıqlarına üstünlük verilmişdir.

Namizədlərin ***ortopedik stomatologiya*** fənni üzrə cavablandırılmasında daha çox çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:


A variantı, 18 saylı test tapşırığı

Çənənin sümük plastikasından əvvəl dişlər olmadıqda və geniş qüsurlar zamanı istifadə olunan çıxan aparat:

A) Vasilyev şinası B) Vankeviç şinası
C) Betelman aparatı D) Zbarjın standart şinası E) Oksman aparatı

Namizədlərin 24,66%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Üz-çənə ortopediyası" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: B***).

Çənənin sümük plastikasından əvvəl həkimin əsas vəzifəsi fiksəedici aparat hazırlamaqdan ibarətdir. Belə ki, çənənin sümük plastikası zamanı transplantat üçün normal şəraitin yaradılması məqsədilə fraqmentlərin möhkəm fiksasiyasının təmin olunması zəruridir. Çənə fraqmentlərində dişlərin sayı kifayət qədər olduqda çıxmayan ağızdaxili və ağızxarici aparatlarla fiksasiya aparıla bilər. Çıxan aparatlardan bu məqsədlə yalnız Vankeviç şinası yararlıdır. Vankeviç şinası əzələlərin yığılma qüvvəsindən istifadə edən repozisiyaedici aparatdır. Bu aparat damaq səthindən aşağı molyarların dil səthinə və ya dişsiz alveol darağına doğru ayrılan iki müstəviyə malik, plastmas diş-diş əti şinasından ibarətdir. Əng və çənə qapandıqda bu müstəvilər çənə fraqmentlərini aralayır və onları düzgün vəziyyətdə təsbit edir (şəkil 5).



A **B**

Şəkil 5. Vankeviç şinası.
A – əng modelində görünüş;
B – dişsiz çənənin zədələnməsi zamanı fraqmentlərin repoziyası və fiksasiyası.

Namizədlərin 13,70%-i tərəfindən seçilmiş A cavab variantında göstərilən Vasilyev şinası əng və çənənin sınıqları zamanı dartı və fiksasiya üçün istifadə olunan repozisiyaedici aparatdır. Vasilyev şinası paslanmayan poladdan, təxminən 0,3 mm qalınlığında, standart lentşəkilli, hazır qarmaqlı ilgəkləri olan aparatdan ibarətdir. Vasilyevin standart şinası diş sırası boyunca bükülür və liqatura məftillə dişlərin üzərinə bərkidilir (bax: Qarayev Z.İ. Ortopedik stomatologiya /dərslik. Bakı: "Oskar" nəşr., 2008, s. 336; Трезубов В.Н., Мишнев Л.М., Сапронова О.Н. Энциклопедия ортопедической стоматологии. СПб.: Фолиант, 2008, с. 641).

Namizədlərin, müvafiq olaraq, 21,92%-i və 32,88%-i tərəfindən seçilmiş C və E cavab variantlarında göstərilən Betelman və Oksman aparatları çənə fraqmentlərinin fiksasiyası üçün istifadə edilən çıxmayan aparatlardır. Bundan əlavə, bu aparatların tətbiqi üçün dişlərin olması zəruridir.

Namizədlərin 6,85%-i tərəfindən seçilmiş D cavab variantında göstərilən Zbarjın standart şinası əng sınıqlarının müalicəsi üçün istifadə edilir.

Namizədlər ***üz-çənə cərrahiyyəsi*** fənni üzrə "Üz-çənə nahiyəsinin bədxassəli şişləri" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında daha çox çətinlik çəkmişlər.

Həmin test tapşırığının şərhini təqdim edirik:

A variantı, 32 saylı test tapşırığı

Qulaq seyvanının yastı hüceyrəli xərçəngi erkən mərhələdə klinik olaraq oxşardır:

A) keratoakantoma ilə B) Keyr eritroplaziyası ilə
C) fibroma ilə D) Yuinq sarkoması ilə
E) sadə leykoplakiya ilə

Namizədlərin 17,81%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəbdir (***Doğru cavab: A***).

Yastı hüceyrəli xərçəng tez-tez yanaqların və qulaq seyvanlarının dərisində lokalizasiya olunur. Dərinin yastı hüceyrəli xərçəngi, xüsusilə də erkən mərhələlərdə bazal-hüceyrəli xərçəng, keratoakantoma və qocalıq keratozu ilə diferensiasiya olunur. Keratoakantoma makroskopik olaraq dəri üzərindən yuxarı qalxan, mərkəzində kraterəbənzər çökəklik və buynuz kütlələri olan yarımkürə formalı törəmədən ibarətdir. Mikroskopik olaraq ocaqlı akantoz və kəskin nəzərəçarpan hiperkeratoz müəyyən olunur. Epitelin məməciklərarası çıxıntıları dermanın dərinliyinə nüfuz edir, bazal qat pis ayırd edilir. Törəmənin mərkəzində keratoakantomanın morfoloji əlaməti olan buynuz kütlələri ilə dolu dəri defekti ("buynuz kasası") aşkar olunur. Keratoakantomanın diaqnostikası müəyyən qədər mürəkkəbdir, belə ki, onun klinik və patomorfoloji mənzərəsi yastı hüceyrəli xərçənglə oxşardır (bax: Хирургическая стоматология /под ред. проф. Робустовой Т.Г. 2-е изд, перер. и доп.. М.: Медицина, 2000, с. 566).

Namizədlərin 26,03%-i tərəfindən seçilmiş B cavab variantında göstərilən Keyr eritroplaziyası ahıl şəxslərdə ağız boşluğu selikli qişasında, bəzən isə dodaqların qırmızı haşiyəsində lokalizasiya olunur.

Namizədlərin 12,33%-i tərəfindən seçilmiş C cavab variantında göstərilən fibroma lifli birləşdirici toxumadan inkişaf edən xoşxassəli şişdir. Klinik olaraq fibroma dəyişilməmiş dəri ilə örtülmüş, sərt-elastik konsistensiyalı, məhdud, ağrısız şişdən ibarətdir.

Namizədlərin 32,88%-i tərəfindən seçilmiş D cavab variantında göstərilən Yuinq sarkoması sümük iliyi şişlərinə aiddir və daha çox yeniyetmə yaş dövründə olan uşaqlarda rast gəlinir. Yuinq sarkoması sümük iliyi kanalında inkişaf edir, sümüyün kortikal qatını, sümüküstlüyünü və ətraf yumşaq toxumaları zədələyir. Yuinq sarkoması nəzərəçarpan bədxassəli gedişə malikdir, olduqca sürətli böyüyür. Klinik gedişinə görə şiş osteomieliti xatırlada bilər, yəni kəskinləşmə dövrlərinə malikdir.

Namizədlərin 10,96%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən sadə leykoplakiya ağız boşluğu selikli qişasında lokalizasiya olunur. Leykoplakiya selikli qişanın distrofik dəyişikliyi olub, epitelin bu və ya digər dərəcədə buynuzlaşması ilə müşayiət olunur və dəridə inkişaf etmir.

Ümumiyyətlə, namizədlər test tapşırığında göstərilən patoloji proseslərin klinik mənzərəsi ilə yanaşı, onların lokalizasiya olunduğu toxumaları (dəri, selikli qişa, sümük toxuması və s.) da ayırd etməkdə çətinlik çəkmişlər.

Namizədlər ***uşaq stomatologiyası*** fənni üzrə "Ağız boşluğu selikli qişasının xəstəlikləri, dil və dodaq xəstəlikləri" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında daha çox çətinlik çəkmişlər.

Həmin test tapşırığının şərhini təqdim edirik:

A variantı, 64 saylı test tapşırığı

Ağız boşluğunun işlənməsi üçün göbələkəleyhinə təsirə malik antiseptiklər:

1. Levamizol 2. Prodiqiozan 3. Miramistin
4. Heksoral 5. Furasilin

A) 1, 3 B) 2, 5 C) 3, 4 D) 4, 5 E) 1, 2

Namizədlərin 21,92%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: C***).

Ağız boşluğu selikli qişasının və dodaqların kandidozu ən geniş yayılmış xəstəliklərə aiddir. Kandidoz insan orqanizmində müəyyən fizioloji dəyişikliklər fonunda, müxtəlif patoloji vəziyyətlər zamanı inkişaf edir. Süd yarası ilə daha çox həyatın birinci ilində zəifləmiş uşaqlar xəstələnir, lakin xəstəlik gigiyena qaydalarının pozulması zamanı sağlam uşaqlarda da rast gəlinir. Yenidoğulmuşun dərisinin və ağız boşluğu selikli qişasının infeksiyalaşması onun uşaqlıq yolu kandidamikozundan əziyyət çəkən ananın doğuş yollarından keçməsi zamanı baş verə bilər. Kandidoz, həmçinin uzun müddət antibakterial, hormonal və ya

sitostatik preparatlar qəbul edən böyük yaşlı uşaqlarda da yarana bilər (bax: Əliyeva R.Q., Zeynalova G.K. Uşaq terapevtik stomatologiyası. Bakı: "Səda" nəşr., 2017, s. 314; Леонтьев В.К., Кисельникова Л.П. Детская терапевтическая стоматология /национальное руководство. М.: ГЭОТАР-Медиа, 2010, с. 650; Персин Л.С., Елизаров В.М., Дьякова С.В. Стоматология детского возраста. М.: Медицина, 2006, с.287).

Müalicənin zəruri şərti göbələklərin çoxalmasının qarşısının alınması üçün ağız boşluğunda qələvi mühitin yaradılmasıdır. Ağız boşluğu hər yedizdirilmədən sonra 1-2%-li qida sodası ilə yuyulmalıdır. Hazırda göbələkəleyhinə təsir göstərən antiseptik vasitələr – miramistin, heksoral uğurla istifadə olunur. Ağız boşluğu selikli qişasının işlənməsi üçün yod preparatları (yodinol və s.) da tətbiq oluna bilər.

Namizədlərin, müvafiq olaraq, 20,55%-i və 24,66%-i tərəfindən seçilmiş B və D cavab variantlarında göstərilən furasilinin təsir spektri, əsasən, qrammüsbət və qrammənfi bakteriyalardan ibarətdir.

Namizədlərin, müvafiq olaraq, 26,03%-i və 6,85%-i tərəfindən seçilmiş A və E cavab variantlarında göstərilən levamizol, eləcə də bakterial polisaxarid olan prodiqiozan göbələkəleyhinə təsir göstərmir, adətən xroniki residivləşən aftoz stomatit zamanı immunostimulyator kimi tətbiq edilir.

Rezidenturaya qəbul imtahanının II mərhələsində – ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən həm açıq formalı, həm də çoxseçimli test tapşırıqlarından istifadə edilmişdir.

Namizədlərin ***terapevtik stomatologiya*** fənni üzrə cavablandırılmasında daha çox çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

A variantı, 85 saylı test tapşırığı

Depoforez metodunun aparılması üçün mütləq şərt:

A) xəstə cavan olmalıdır
B) kanallar keçilən olmalıdır
C) kanallar əvvəlcədən rezorsin-formalin məhlulu ilə işlənməlidir
D) pulpa devitalizasiya olunmalıdır
E) kanallar əvvəlcədən gümüş nitrat məhlulu ilə işlənilməlidir

Namizədlərin 39,73%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Endodontiya" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: D***).

Endodontik müalicənin effektivliyini və etibarlılığını artırmaq, eləcə də "problemli" kök kanallarında uzunmüddətli qənaətbəxş nəticəni təmin etmək məqsədilə mis-kalsium hidroksid depoforezi üsulu işlənib hazırlanmışdır. Depoforez üsulunun mahiyyəti belədir: kök kanalları 1/3-2/3 uzunluqda keçilir və genişləndirilir. Bundan sonra kanallardan birinə mis-kalsium hidroksidin sulu suspenziyası yeridilir, iynəşəkilli elektrod (-) daxil edilir, elektrik dövrəsi qapanır və prosedur aparılır. Sonra analoji şəkildə digər kanallar işlənir. Depoforez kursu yekunlaşdıqdan sonra kanalların keçilən hissələri mis tərkibli xüsusi qələvi sementlə plomblanır.

Namizədlərin 28,77%-i tərəfindən doğru cavab kimi B cavab variantı seçilmişdir, lakin depoforez keçilməyən kök kanallarının işlənməsi və möhtəviyyatının zərərsizləşdirilməsi üsulu olub, impreqnasiya üsullarının alternatividir. Mis-kalsium hidroksid depoforezinin tətbiqi, ilk növbədə, keçilməyən kök kanalları olan dişlərin endodontik müalicəsi zamanı göstərişdir. Bundan əlavə, bu üsulun kanal möhtəviyyatının güclü infeksiyalaşması, kanal mənfəzində alətin sınması (zirvədən çıxmadan), "ənənəvi" üsullarla dişin uğursuz müalicəsi, təkrar endodontik müalicə, geniş apikal dəliyin olması zamanı istifadəsi tövsiyə edilir.

Daha əvvəl rezorsin-formalin üsulu ilə müalicə olunmuş dişlərin təkrar müalicəsi zamanı depoforez istifadəsinin tövsiyə olunması mübahisəlidir və əlavə araşdırma tələb edir. Bu onunla əlaqədardır ki, məlum olduğu kimi, bərkimiş rezorsin-formalin qarışığı elektrik cərəyanını keçirmir, buna görə də depoforez prosesində elektrik cərəyanının təsiri altında kanalın apikal hissəsinin mis-kalsium hidroksidlə tam hopdurulması praktik olaraq mümkün olmur (bax: Николаев А.И., Цепов Л.П. Практическая терапевтическая стоматология. М.: МЕД пресс-инф., 2008, с. 774). Yadda saxlamaq lazımdır ki, depoforezin aparılmasından əvvəl kanalda pulpa hökmən devitalizasiya olunmalıdır.

Təhlillər göstərir ki, namizədlər ***terapevtik stomatologiya*** fənnindən uyğunluğun müəyyən edilməsini tələb edən açıq formalı test tapşırığının həllində daha çox çətinlik çəkmişlər.

Həmin test tapşırıqlarının şərhini təqdim edirik:

A variantı, 99 saylı (açıq formalı) test tapşırığı

Uyğunluğu müəyyən edin:

1. Bərk şankr
2. Settonun aftaları

a. Xora kəskin ağrılıdır
b. Ətrafında hiperemiya olan dərin, kraterəbənzər xora
c. Xoranın əsasında qığırdağabənzər infiltrat
d. Xoraların formalarının atipikliyi
e. Ağız boşluğunun selikli qişasının deformasiyasına səbəb olan kobud çapıqlar

Namizədlərin 34,25%-i tərəfindən doğru cavablandırılmış açıq formalı bu test tapşırığı "Ağız boşluğu selikli qişasının allergik xəstəlikləri" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: 1-c, d; 2-a, b, e***).

Bu test tapşırığı xroniki residivləşən aftoz stomatitin ağır forması olan Setton aftaları və birincili sifilis arasında fərqli xüsusiyyətlərin müəyyən edilməsini tələb edir.

Birincili sifiloma və ya bərk şankr infeksiyanın ilkin daxilolma yerində əmələ gəlir. Zədələnmə elementlərinin sayı 2-3-dən artıq olmur, onlar daha çox dodaqların qırmızı haşiyəsində, az hallarda ağız boşluğu selikli qişasında (dil, damaq badamcıqları və ya digər sahələr) lokallaşır. Bərk şankr tipik hallarda diametri 1-2 sm-ə qədər artan məhdud sahəli hiperemiya və bərkimə ilə başlayır. Sonra onun mərkəzi hissəsinin səthi nekrozlaşır, ağrısız eroziya, yaxud hamar və qalxmış kənarları olan, dairəvi və ya oval formalı, nəlbəkiyəbənzər, səthi xora yaranır. Əsasında qığırdağabənzər infiltrat palpasiya olunur. Xoranın dibi hamar, parlaq, ət-qırmızı rəngli, ərpsiz və ya bozumtul-sarı "piyli" ərplə örtülü olur. Bərk şankr lokalizasiyadan asılı olaraq atipik formada (çat, sıyrıntı, cəhəng şəklində) ola bilər. Diş ətində o, aypara formalı eroziya şəklində görünür.

Setton aftaları bir sutka ərzində səthi xoralarla əvəz olunan ağrılı bərkimələrin əmələ gəlməsi ilə başlayır. Növbəti günlərdə xoralar dərinləşir, periferiya boyu hiperemiyalı və əsasında infiltrasiya olan kraterəbənzər forma əldə edir. Onların sağalmasından sonra selikli qişanı deformasiyaya uğradan kobud çapıqlar qalır (bax: Məmmədova S.Ə. Terapevtik stomatologiya. Parodont və oral mukoza xəstəlikləri /rezidenturaya hazırlaşanlar üçün vəsait. DİM, Bakı: "Consulting&Coaching" nəşr., 2018, s. 163, 200-201; Боровский Е.В. Терапевтическая стоматология. М.: Медицина, 2001, с. 540-542, 596).

İctimai səhiyyə və Tibbi profilaktika istiqamətləri üzrə keçirilən rezidenturaya qəbul imtahanlarında namizədlərin "Yoluxucu xəstəliklər", "Klinik biokimya", "Epidemiologiya" fənləri və "Gigiena" bloku (ətraf mühitin gigiyenası, yaşayış məskənlərinin gigiyenası, qidalanma gigiyenası, əmək gigiyenası, uşaq və yeniyetmələrin gigiyenası fənləri) üzrə bilik və bacarıqları yoxlanılmışdır. Diqqət çəkən məqamlardan biri yoluxucu xəstəliklər fənnindən təqdim olunmuş eyni test tapşırığını bu istiqamətlə (A variantı, 11 saylı test tapşırığı) yanaşı, tibb istiqaməti (B variantı, 93 saylı test tapşırığı) üzrə imtahan verən namizədlərin də cavablandırmaqda çətinlik çəkmələri olmuşdur (həmin tapşırığın izahı səh. 387-də verilmişdir). Bu faktın tədris zamanı ATU-nun müvafiq kafedrasının əməkdaşları tərəfindən nəzərə alınması tövsiyə olunmuşdur.

Namizədlərin ***klinik biokimya*** fənni üzrə cavablandırılmasında daha çox çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik:

A variantı, 31 saylı test tapşırığı

Xroniki böyrək çatışmazlığı üçün səciyyəvi ***deyil***:

A) anemiya B) hipokalsiemiya C) hipofosfatemiya D) hiperkaliemiya E) asidoz

Namizədlərin 18,18%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Böyrəklərin biokimyası və patobiokimyası" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (***Doğru cavab: C***).

Xroniki böyrək çatışmazlığı yumaqcıq filtrasiyasının sürətinin uzun müddət azalması, böyrəklərdə natrium, kalium, hidrogen və digər ionların ekskresiyasının zəifləməsi, eləcə də metabolik asidoz, azotemiya ilə səciyyələnən patoloji vəziyyətdir. Xroniki böyrək çatışmazlığı zamanı böyrəklərin funksiyaları bərpa olunmayan dərəcəyə qədər pozulur və xəstənin həyatını davam etdirməsi üçün hemodializ aparılmasına və ya böyrək transplantasiyasına zərurət yaranır (bax: Əfəndiyev A.M., İslamzadə F.Q., Qarayev A.N., Eyyubova A.Ə. Bioloji kimyadan laboratoriya məşğələləri. Bakı: "Müəllim" nəşr., 2019, s. 228-229; Əfəndiyev A.M., Eyyubova A.Ə., Qarayev A.N. Patoloji və klinik biokimya. Bakı: "Təbib" nəşr., 2019, s. 223-222; Qarayev A.N. Bioloji kimya /rezidenturaya hazırlaşanlar üçün vəsait. DİM: "Şərq-Qərb" nəşr., Bakı: 2023, s. 472; Гасанова Ш.И., Азизова Г.И. Биологическая химия

/пособие для поступающих в резидентуру. DİM, Bakı: “Print hous Poliqrafaz” nəşr., 2019, c. 483; Маршал В.Дж. Клиническая биохимия. М.: изд. Бином, 2002, с. 80, 2025, с. 90).

Namizədlərin 9,09%-i tərəfindən seçilmiş A cavab variantında göstərilən anemiya xroniki böyrək çatışmazlığı zamanı eritropoetin sintezinin pozulması nəticəsində inkişaf edir.

Namizədlərin 12,12%-i tərəfindən seçilmiş B cavab variantında göstərilən hipokalsiemiya xroniki böyrək çatışmazlığının səbəb olduğu metabolik dəyişikliklərə aiddir. Bu zaman əksər xəstələrdə böyrək osteodistrofiyası inkişaf edir. Fosfatların ekskresiyasının ləngiməsi kalsitriolun sintezinin azalmasına və hipokalsiemiyanın inkişafına gətirib çıxarır. Parathormonun sekresiyasının güclənməsi (ikincili hiperparatireoz) bütün nefronlarda fosfatların reabsorbsiyasını azaldır və davamlı hiperfosfatemiyaya səbəb olur.

Namizədlərin 48,48%-i tərəfindən seçilmiş D cavab variantında göstərilən hiperkaliemiya xroniki böyrək çatışmazlığının gecikmiş təzahürüdür.

Namizədlərin 9,09%-i tərəfindən seçilmiş E cavab variantında göstərilən asidoz xroniki böyrək çatışmazlığı olan xəstələrdə müşahidə edilir. Fosfatların ekskresiyasının və ammonyak sintezinin azalması nəticəsində sidiyin bufer xüsusiyyəti pisləşir. Tez-tez ayrı-ayrı nefronlarda bikarbonatların reabsorbsiyası azalır.

Yuxarıda təqdim olunan elmi-statistik təhlillər (müxtəlif test tapşırıqlarının izahları) göstərir ki, namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqlarının əksəriyyəti yalnız xarici dildə olan ədəbiyyatlarda dərc edilmiş materiallar əsasında tərtib olunan tapşırıqlardır. Bu isə ATU-da tədris zamanı istifadə olunan dərsliklərin rezidenturaya qəbul proqramlarını tam əhatə etməməsindən irəli gəlir. Belə ki, müasir müayinə və müalicə metodları haqqında məlumatların, xəstəliklərin yeni təsnifatlarının Azərbaycan dilində olan ədəbiyyatlarda natamam verilməsi və ya, ümumiyyətlə, verilməməsi xarici dillərdə olan ədəbiyyatlardan istifadəyə zərurət yaradır. Digər bir səbəb isə ədəbiyyat mənbələrinin sayca çox olmasıdır. Bu problemlərin aradan qaldırılması üçün rezidenturaya hazırlaşanlara kömək məqsədi ilə DİM-də baza fənləri üzrə elmi-metodik vəsaitlər tərtib edilmişdir. Buna görə də Rezidentura üzrə şöbə tərəfindən baza fənlərində olduğu kimi ixtisas fənləri üzrə də rezidenturaya qəbul proqramlarını tam əhatə edən, müvafiq elm sahəsinə dair ən müasir məlumatları lakonik şəkildə özündə cəmləyən elmi-metodik vəsaitlərin tərtibinə başlanılmışdır. Ötən illərdə ixtisas fənləri üzrə ilk dəfə Azərbaycan və rus dillərində nəşr edilmiş “Terapevtik stomatologiya (parodont və oral mukoza xəstəlikləri)” və “İxtisas fənləri üzrə test toplusu” adlı vəsaitləri buna misal göstərmək olar.

Hesab edirik ki, təqdim etdiyimiz elmi-statistik təhlillər tibb təhsili müəssisələrində çalışanlar üçün tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına, həmçinin namizədlərin rezidenturaya qəbul imtahanlarına sərbəst hazırlaşmalarına yardımçı olacaqdır. Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, rezidenturaya qəbul imtahanlarında uğur qazanmaq üçün namizədlərdən dərslikdəki materialları öyrənməklə yanaşı, həm də ümumiləşdirmə aparmaq, tədris zamanı mənimsədikləri bilikləri sistemləşdirmək və tətbiq etmək bacarıqlarını inkişaf etdirmək tələb olunur. Əsas (baza ali) tibb təhsili verən ali təhsil müəssisələrində isə tələbələrin məntiqi düşünmə, nəzəri bilikləri tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsinə diqqət artırılmalı, təhsilin səviyyəsi müasir tələblərə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən dərsliklər və ya dərs vəsaitləri hazırlanmalıdır.

Proqramı tam mənimsəmiş, güclü məntiqi təfəkkürə malik namizədlərin hazırlıq səviyyələrinin yoxlanılmasına, müstəqil araşdırma bacarıqlarının aşkara çıxarılmasına və qiymətləndirilməsinə imkan verən, seçim və uyğunluğun müəyyən edilməsini tələb edən açıq formalı test tapşırıqlarına DİM-in rezidenturaya hazırlaşanlara kömək məqsədi ilə nəşr etdiyi vəsaitlərdə də kifayət qədər yer ayrılmışdır. Təəssüf ki, namizədlər cari ildə də belə test tapşırıqlarının həllində çətinlik çəkmişlər. Əslində, açıq formalı test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlar çoxseçimli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlardan mahiyyətcə fərqlənmir. Kifayət qədər biliyə və məntiqi təfəkkürə malik olan namizədlər bu tapşırıqlara asanlıqla cavab verə bilərlər. Namizədlərin bilik, bacarıq və vərdişlərində olan çatışmazlıqların bir qismi onların praktikyönlü biliyinin dərin olmaması ilə bağlıdır ki, bu da, əsasən, tədris prosesində həmin istiqamətə az diqqət yetirilməsinin göstəricisidir.

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları"na uyğun olaraq, 2025-ci il fevralın 20-dən martın 5-dək internet vasitəsilə aparılıb. Abituriyentlər *ekabinet.dim.gov.az* internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (*eservices.dim.gov.az/erizebak/erize*) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurub və təsdiq ediblər (etdiriblər). Müsabiqədə iştirak ödənişli olub. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 fevral 2017-ci il tarixli 2694 nömrəli Sərəncamına əsasən orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Bundan əlavə, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 fevral 2017-ci il tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının da (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına təmin edilib:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3**.** Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2, 1.3 və 1.4 -ci yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq Sənəd Qəbulu Komissiyalarında (SQK) təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni DİM-in internet saytında ictimaiyyətə təqdim olunub və ərizə qəbulu ilə bağlı bütün digər lazımi məlumatlar da müntəzəm və operativ şəkildə saytda yerləşdirilib.

Azərbaycanda təhsil almış Azərbaycan Respublikasının vətəndaşları (1.1, 1.2, 1.3 və 1.4-cü bəndlərdə göstərilən abituriyentlər istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə elektron ərizələrini aşağıdakı SQK-larda təsdiq etdiriblər:

Bakı şəhərində:

Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusu
(Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov küç., 50);
Memarlıq və İnşaat Universiteti
(Bakı şəhəri, Yasamal rayonu, A.Soltanova küç., 11);
Azərbaycan Universiteti
(Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küç., 71.).

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi;*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Regional Bölməsi.*

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi ali təhsil müəssisələrinə V ixtisas qrupu üzrə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında toplanılan ballar əsasında aparılıb. Tam orta təhsil səviyyəsini əvvəlki illərdə bitirən və təhsil haqqında sənəd alan, yaxud tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının hüdudlarından kənarda bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün tədris (Azərbaycan, rus) dili, riyaziyyat və xarici dil fənlərindən qəbul imtahanı veriblər. İmtahan aprelin 6-da Bakı, Şəki, Lənkəran, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Qazax, Şəmkir, Bərdə, Sabirabad, Göyçay, Kürdəmir, Salyan, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan MR-də keçirilmişdir.

2024-cü ildə keçirilmiş qəbul (buraxılış) imtahanlarının nəticələri 2 il qüvvədə olduğundan, abituriyentlər cari il üzrə müsabiqə şərtlərini ödədikləri halda, həmin nəticə əsasında cari tədris ilində orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında keçirilən tələbə qəbulu üzrə müsabiqədə iştirak edə biliblər.

Tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (11-ci siniflər üzrə) tədris dilindən, riyaziyyat və xarici dil fənlərindən əldə etdikləri nəticələr əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda, ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.
- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər.
- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər.

İmtahanda abituriyentlərə tədris (Azərbaycan, rus) dili fənnindən 30, riyaziyyat fənnindən 25 və xarici dil fənnindən 30 olmaqla 85 tapşırıq təqdim olunmuş, test tapşırıqlarının cavablandırılmasına 3 saat vaxt ayrılmışdı. İmtahan fənləri üzrə tapşırıqların strukturu aşağıdakı kimi olmuşdur:

- ***Xarici dil***
  - Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq;
  - Qapalı tipli 16 tapşırıq;
  - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq; qapalı tipli 4 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq.
- ***Tədris (Azərbaycan, rus) dili***
  - Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq;
  - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq (cəmi 20 tapşırıq): qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq.
- ***Riyaziyyat***
  - Qapalı tipli 13 tapşırıq;
  - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq;
  - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili (dövlət dili) fənnindən imtahan veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə fənn kurikulumu əsasında hazırlanmış 27-si qapalı tipli və 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli olmaqla 30 test tapşırığı təqdim edilib. Tapşırıqların yerinə yetirilməsinə 1 saat 30 dəqiqə vaxt ayrılıb. Qapalı tipli tapşırıqlar üzrə hər düzgün cavab 1 balla qiymətləndirilib. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar isə markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün topladığı bal 15-dən az olmamalıdır.

2025-ci ildə Azərbaycan dili (dövlət dili) fənnindən imtahan iki dəfə – mayın 4-də və iyunun 29-da keçirilib.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunub. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunub və Azərbaycan dili (dövlət dili) fənnindən yenidən imtahan veriblər.

2024-cü ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən Azərbaycan dili (dövlət dili) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılıb.

İxtisas seçimi ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra aparılıb. İxtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, tədris (Azərbaycan, rus) dili və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıb (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir). Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ixtisas seçimi ali təhsil müəssisələrinin boş qalan yerlərinə ixtisas seçimi ilə eyni vaxtda – avqustun 28-dən sentyabrın 2-dək internet vasitəsi ilə aparılıb. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilib. Abituriyentlər elektron ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərib.

"Fiziki tərbiyə müəllimliyi" ixtisasının müsabiqəsinə qəbul (buraxılış) imtahanında topladıqları ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) digər bütün xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 40-dan az olmayan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılıblar.

Sentyabrın 24-dən 28-dək tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunmuşdu. Müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının, digər abituriyentlər üçün keçirilmiş qəbul imtahanının nəticələrinə əsasən aparılmışdır. Müsabiqədə iştirak edən

abituriyentlər elektron ərizələrində yalnız orta ixtisas təhsili müəssisələrinin 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərmişdir.

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 15874 tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 1870-i özəl orta ixtisas təhsili müəssisələrinə (730 yer Bakı Biznes və Kooperasiya Kollecinə, 525 yer Bakı Avrasiya Kollecinə, 410 yer "Odlar Yurdu" Kollecinə, 190 yer Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsinə, 15 yer Bakı İlahiyyat Kollecinə) ayrılmışdı. Plan yerlərinin sayı ötən illə müqayisədə 28.15% (3487 yer) artıb. Qəbul planında müşahidə olunan artma struktur xarakterli dəyişikliklərlə bağlıdır. Belə ki, orta ixtisas təhsili müəssisələri üzrə ayrılan plan yerlərinin ümumi orta təhsil bazasından tam orta təhsil bazasına keçirilməsi nəticəsində cari ildə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul planı əvvəlki illə müqayisədə 25.49% (2786 yer) azalmışdır. Yerlərin 33.80%-i ödənişsiz, 66.20%-i isə ödənişli təhsil üçün ayrılıb. Ümumi plan yerlərinin 92.29%-i Azərbaycan, 3.72%-i rus, 3.99%-i isə Azərbaycan və rus bölmələri abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu.

Bu il 52 dövlət orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Ən çox plan yerləri 2 nömrəli Bakı Baza Tibb Kollecinə (660 yer), ən az isə Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinə (8 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.1.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (TAM ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	115	0	0	115	305	0	0	305	420
2	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	96	58	0	154	255	72	0	327	481
3	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	142	21	0	163	209	24	0	233	396
4	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	100	8	0	108	225	27	0	252	360
5	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	108	12	0	120	345	48	0	393	513
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	180	35	0	215	340	40	0	380	595
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	151	0	0	151	332	0	0	332	483
8	1 nömrəli Bakı Tibb Kolleci	27	0	184	211	18	0	281	299	510
9	2 nömrəli Bakı Baza Tibb Kolleci	240	24	0	264	345	51	0	396	660
10	Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	0	0	3	3	0	0	5	5	8
11	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	79	5	0	84	120	5	0	125	209
12	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	44	44	0	0	53	53	97
13	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	30	30	0	0	10	10	40
14	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	100	0	0	100	230	0	0	230	330
15	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	65	0	0	65	345	0	0	345	410
16	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	122	0	0	122	233	0	0	233	355
17	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	40	0	0	40	60	0	0	60	100
18	Naxçıvan Tibb Kolleci	100	0	0	100	100	0	0	100	200
19	Naxçıvan Dövlət Texniki Kolleci	18	0	0	18	36	0	0	36	54
20	Naxçıvan Musiqi Kolleci	0	0	0	0	12	0	0	12	12
21	Gəncə Tibb Kolleci	120	0	0	120	190	0	0	190	310
22	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	208	0	0	208	317	0	0	317	525

Cədvəl 4.1.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
23	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	110	0	0	110	180	0	0	180	290
24	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	146	0	0	146	208	0	0	208	354
25	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	143	0	0	143	211	0	0	211	354
26	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	71	0	0	71	143	0	0	143	214
27	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	0	0	13	13	0	0	11	11	24
28	Quba Dövlət Sosial-İqtisadi Kolleci	86	0	0	86	75	0	0	75	161
29	Quba Tibb Kolleci	30	0	0	30	35	0	0	35	65
30	Şamaxı Dövlət Regional Kolleci	182	0	0	182	240	0	0	240	422
31	Mingəçevir Tibb Kolleci	120	0	0	120	180	0	0	180	300
32	Mingəçevir Turizm Kolleci	100	0	0	100	195	0	0	195	295
33	Şəki Tibb Kolleci	50	0	0	50	100	0	0	100	150
34	Şəki Dövlət Regional Kolleci	151	0	0	151	203	0	0	203	354
35	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	22	0	0	22	18	0	0	18	40
36	Şuşa Humanitar Kolleci	41	0	0	41	56	0	0	56	97
37	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	125	0	0	125	185	0	0	185	310
38	Ağdam Musiqi Kolleci	25	0	0	25	44	0	0	44	69
39	Ağdaş Dövlət Humanitar Kolleci	95	0	0	95	175	0	0	175	270
40	Ağcabədi Pedaqoji Kolleci	80	0	0	80	115	0	0	115	195
41	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	171	0	0	171	281	0	0	281	452
42	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	95	0	0	95	130	0	0	130	225
43	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	79	0	0	79	121	0	0	121	200
44	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	95	0	0	95	145	0	0	145	240
45	Lənkəran Tibb Kolleci	90	0	0	90	130	0	0	130	220
46	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	226	0	0	226	217	0	0	217	443
47	Astara Pedaqoji Kolleci	103	0	0	103	147	0	0	147	250
48	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	97	0	0	97	163	0	0	163	260
49	Saatlı Tibb Kolleci	30	0	0	30	30	0	0	30	60
50	Cəlilabad Tibb Kolleci	30	0	0	30	50	0	0	50	80
51	Masallı Dövlət Regional Kolleci	114	0	0	114	128	0	0	128	242
52	Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində Gəncə Dövlət Aqrar Kolleci	195	0	0	195	105	0	0	105	300
53	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Azərbaycan İlahiyyat İnstitutunun yanında Bakı İlahiyyat Kolleci	15	0	0	15	0	0	0	0	15
54	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	645	85	0	730	730
55	Odlar Yurdu Kolleci	0	0	0	0	395	15	0	410	410
56	Bakı Avrasiya Kolleci	0	0	0	0	525	0	0	525	525
57	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	0	0	0	0	130	60	0	190	190
	Cəmi	**4928**	**163**	**274**	**5365**	**9722**	**427**	**360**	**10509**	**15874**

Cari ildə orta ixtisas təhsili müəssisələrinə qəbul üçün 114759 ərizə daxil olub. Məlum olduğu kimi, tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu ali təhsil müəssisələrinə ərizə qəbulunun 1-ci mərhələsi ilə eyni tarixdə aparılıb. Elektron ərizədə abituriyentlər ali təhsil müəssisələrinə qəbul ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinə də qəbul olmaq üçün istəklərini bildiriblər. Orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi isə ali təhsil müəssisələrinə əsas yerləşdirmə aparıldıqdan sonra, yəni ali təhsil müəssisələrinin boş qalan plan yerləri ilə birgə aparılıb və ixtisas seçimində 21492 abituriyent iştirak edib. Ötən illə müqayisədə cari ildə ixtisas seçimi mərhələsində iştirak edənlərin sayı 5.38% artıb (1098 nəfər).

Sənəd verənlərin 47.32%-ni (54300 nəfər) oğlanlar, 52.68%-ni (60459 nəfər) qızlar, ixtisas seçimi mərhələsində iştirak edənlərin isə 31.08%-ni (6679 nəfər) oğlanlar, 68.92%-ni (14813 nəfər) qızlar təşkil edib. İxtisas seçimi mərhələsində daxil olmuş ərizələrin 95.38%-i Azərbaycan, 4.62%-i rus bölməsinə aid olub.


Dövlət orta ixtisas təhsili müəssisələrinin qəbul planı və abituriyent ərizələrinin sayının illər üzrə dinamikası 4.1.1 saylı diaqramda təqdim edilir. Diaqramdan göründüyü kimi, 1993 və 1994-cü illərdə

abituriyent ərizələrinin sayı plan yerlərinin sayından xeyli çox olub. Əslində, bu həmin illərdə abituriyentlərin orta ixtisas təhsili müəssisələrinə istəklərinin artmasının nəticəsi deyil, həmin təhsil müəssisələrinə qəbul imtahanlarının ali təhsil müəssisələri ilə birgə aparılmasının nəticəsi idi. O illərdə abituriyentlərə ali təhsil müəssisələri ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin də ixtisaslarını göstərmək imkanı verildiyindən, onlar əksər hallarda ərizələrində ilk yerlərdə ali təhsil müəssisələrinin, sonrakı yerlərdə isə orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını göstərirdilər. Nəticədə, onların böyük əksəriyyəti ali təhsil müəssisələrinə qəbul olduğundan orta ixtisas təhsili müəssisələrinin planı dolmurdu. Buna görə də bu təhsil pilləsi üzrə qəbul planının dolma faizi 1993-cü ildə cəmi 34.96%, 1994-cü ildə isə 52.79% təşkil etmişdi. Qeyd etmək lazımdır ki, orta ixtisas təhsili müəssisələrinə qəbulun ali təhsil müəssisələri ilə birgə aparıldığı illərdə yalnız orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını 1992-ci ildə 5466, 1993-cü ildə 848, 1994-cü ildə isə cəmi 454 nəfər abituriyent seçmişdi.

1995–1997-ci illərdə abituriyent ərizələrinin sayı qəbul planından az olmuş və planın yalnız 72–77%-ni təşkil etmişdi. 1998-ci və 1999-cu illərdə bu fərq azalmış, 2000–2004-cü illərdə ərizələrin sayı qəbul planından bir qədər artıq olmuşdu. Bununla belə, ixtisaslar üzrə abituriyentlərin istəkləri qeyri-bərabər paylandığından bəzi ixtisaslarda yüksək müsabiqə vəziyyəti yaranmış, digərlərinə isə planın yarısı qədər də ərizə verilməmişdi. 2005, 2006, 2007, 2008, 2009 və 2010-cu illərdə, nəhayət, ərizələrin sayı plan yerlərinin sayını əhəmiyyətli dərəcədə (göstərilən illərə uyğun olaraq 2.3, 2.9, 3.9, 5.2, 4.5 və 3.5 dəfə) üstələmişdi. Lakin 2011-ci ildə müsabiqədə iştirak etmək üçün ümumi bala qoyulan tələb 50-dən 100-ə qaldırıldığı üçün abituriyentlərin ərizələrinin sayı əvvəlki ilə nəzərən azalmışdı. Son on bir ildə abituriyent ərizələrinin sayında artım müşahidə olunub. Bu orta ixtisas təhsili müəssisələrinə qəbulun buraxılış imtahanlarının nəticəsi əsasında aparılması (əvvəlki illərin məzunları müsabiqədə buraxılış imtahanı modelinə uyğun verdikləri imtahanın nəticəsi, cari ilin məzunları isə buraxılış imtahanlarında əldə etdikləri nəticə əsasında iştirak etmişlər) və cari ilin məzunları üçün müsabiqənin pulsuz olması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, son on bir ildə qəbul planı üzrə də artım həyata keçirilib. Xüsusilə 2018-ci ildə plan yerlərinin sayı 2017-ci illə müqayisədə birdən-birə 20.74% artmışdır. 2025-ci ildə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə plan yerləri 30.98% artmışdır.

QƏBUL PLANI VƏ ƏRİZƏLƏRİN* SAYI
(DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL ÜZRƏ)




Şəkil 4.1.1

*2008-ci ildən etibarən ixtisas seçimi mərhələsində yalnız müsabiqə şərtlərini yerinə yetirən abituriyentlər iştirak edib.

Dövlət orta ixtisas təhsili müəssisələrinə ödənişli və ödənişsiz təhsil üzrə 1992–2024-cü illərin qəbul planlarının dinamikası 4.1.2 saylı diaqramda təqdim edilib. Bu təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul 1995-ci ildən aparıldığından diaqramda ondan əvvəlki illər üçün yalnız ödənişsiz təhsilin qəbul planı göstərilib.

Diaqramdan göründüyü kimi, 1995–2001-ci illər ərzində ödənişsiz təhsil üçün ayrılan plan yerləri sayca böyük üstünlüyə malik olub. Lakin 2002-ci ildən ödənişli və ödənişsiz təhsil üzrə qəbul planları, demək olar ki, bərabərləşdirilib. 2011-ci ildən isə ödənişli təhsil üzrə qəbul planı üstünlüyə malik olub.



Şəkil 4.1.2

2025-ci ildə orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ayrılmış plan yerləri və ərizə vermiş abituriyentlərin sayı, təhsil bölmələri və ixtisaslar üzrə paylanma spektri uyğun olaraq 4.1.2, 4.1.3 və 4.1.4 saylı cədvəllərdə göstərilib.

Təqdim olunan ərizələrin paylanmasının təhlili göstərir ki, abituriyentlərin 90.23%-i texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisasları, 1.72%-i xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisaslarını, 38.12%-i tibb ixtisaslarını, 7.56%-i kimya-texnoloji ixtisasları, 18.91%-i baytarlıq və aqronomluq ixtisaslarını, 34.65%-i humanitar ixtisasları, 2.89%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarını seçib. Plan yerlərinin 65.78%-i texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslara, 1.13%-i xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisaslarına, 18.42%-i tibb ixtisaslarına, 0.76%-i kimya-texnoloji ixtisaslara, 4.22%-i baytarlıq və aqronomluq ixtisaslarına, 4.86%-i humanitar ixtisaslara, 4.83%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarına aiddir.

4.1.4 saylı cədvəldən göründüyü kimi, abituriyentlərin 23.58%-i (5068 nəfər) ərizələrində yalnız texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisasları, 6.24%-i (1342 nəfər) isə yalnız tibb ixtisaslarını qeyd edib.

Müsabiqə vəziyyəti 4.1.5 saylı cədvəldə təqdim edilib. Ən yüksək müsabiqə humanitar və kimya-texnoloji ixtisaslar üzrə olub. Bu ixtisaslar üzrə bir yerə 2-3 abituriyent sənəd verib.

Ümumilikdə, bütün ixtisaslar üzrə müsabiqə vəziyyəti 1.354-ə bərabər olub. Ötən illə müqayisədə müsabiqə vəziyyəti aşağı olub. Plan yerlərinin dolma faizi isə 96.06%-dən 95.78%-ə qədər azalıb.

Cədvəl 4.1.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	İstiqamətlər	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Ümumi	Azərb. bölməsi	Rus Bölməsi	Ümumi
1	Texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslar	10002	440	0	10442	18469	924	19393
2	Xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisasları	180	0	0	180	370	0	370
3	Tibb ixtisasları	2384	75	465	2924	7804	388	8192
4	Kimya-texnoloji ixtisaslar	120	0	0	120	1625	0	1625
5	Baytarlıq və aqronomluq	670	0	0	670	4064	0	4064
6	Humanitar ixtisaslar	717	55	0	772	6999	447	7446
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	577	20	169	766	570	52	622
	C Ə M İ	**14650**	**590**	**634**	**15874**	**20498**	**994**	**21492**

Cədvəl 4.1.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İstiqamətlər	Azərb. bölməsi		Rus Bölməsi		Ümumi	
		ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi
1	Texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslar	18469	90.10	924	92.96	19393	90.23
2	Xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisasları	370	1.81	0	0.00	370	1.72
3	Tibb ixtisasları	7804	38.07	388	39.03	8192	38.12
4	Kimya-texnoloji ixtisaslar	1625	7.93	0	0.00	1625	7.56
5	Baytarlıq və aqronomluq	4064	19.83	0	0.00	4064	18.91
6	Humanitar ixtisaslar	6999	34.14	447	44.97	7446	34.65
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	570	2.78	52	5.23	622	2.89
	C Ə M İ	**20498**	**100.00**	**994**	**100.00**	**21492**	**100.00**

Cədvəl 4.1.4

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ƏRİZƏLƏRİN İXTİSASLAR ÜZRƏ PAYLANMASI

№	ABİTURİYENT ƏRİZƏLƏRİNİN BÖLGÜSÜ	ƏRİZƏLƏRİN	
		mütləq sayı	nisbi sayı, %
1	Yalnız texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisasların qeyd edildiyi ərizələr	5068	23.58
2	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisaslarının qeyd edildiyi ərizələr	159	0.74
3	Yalnız tibb ixtisaslarının qeyd edildiyi ərizələr	1342	6.24
4	Yalnız kimya-texnoloji ixtisaslarının qeyd edildiyi ərizələr	1	0.00
5	Yalnız baytarlıq və aqronomluq ixtisaslarının qeyd edildiyi ərizələr	28	0.13
6	Yalnız humanitar ixtisasların qeyd edildiyi ərizələr	10	0.05
7	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarının qeyd edildiyi ərizələr	445	2.07
8	Müxtəlif ixtisaslarının qeyd edildiyi ərizələr	14439	67.18
	Cəmi	**21492**	**100.00**

Cədvəl 4.1.5

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İstiqamətlər	Azərb. bölməsi	Rus Bölməsi	Birgə	Ümumi
1	Texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslar	1.330	1.692		1.345
2	Xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisasları	1.888			1.888
3	Tibb ixtisasları	2.496	1.723	4.061	2.339
4	Kimya-texnoloji ixtisaslar	2.867			2.867
5	Baytarlıq və aqronomluq	1.372			1.372
6	Humanitar ixtisaslar	2.517	2.273		2.500
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	0.793	1.778	0.887	0.792
	C Ə M İ	**1.349**	**1.529**	**3.214**	**1.354**

Orta ixtisas təhsili müəssisələrinin əyani şöbələrinin ixtisasları arasında ən yüksək müsabiqə texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslar istiqaməti üzrə Azərbaycan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin "Kompüter sistemlərində proqram təminatı" (bir yerə 23.22 ərizə), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin "Kompüter sistemlərində proqram təminatı" (rus bölməsi, bir yerə 23.11 ərizə), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin "Mühasibat uçotu" (bir yerə 16.20 ərizə), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kollecinin "Mühasibat uçotu" (bir yerə 16.12 ərizə), xüsusi qabiliyyət tələb edən idman ixtisasları istiqaməti üzrə Gəncə Dövlət Universitetinin nəzdində Regional Kolleci, Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci, Şamaxı Dövlət Regional Kollecinin "Fiziki tərbiyə müəllimliyi" (bir yerə müvafiq olaraq 14.86, 12.79 və 9.27 ərizə), tibb ixtisasları istiqaməti üzrə Naxçıvan Tibb Kollecinin "Ortopedik stomatologiya" (bir yerə 15.91 ərizə), Gəncə Tibb Kollecinin "Əczaçılıq" (bir yerə 13.67 ərizə), Mingəçevir Tibb Kollecinin "Əczaçılıq" (bir yerə 13.46 ərizə), kimya-texnoloji ixtisaslar istiqaməti üzrə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kollecinin "Neft emalı və neft kimyası"(bir yerə 10.19 ərizə), baytarlıq və aqronomluq istiqaməti üzrə Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində Gəncə Dövlət Aqrar Kollecinin "Baytarlıq" (bir yerə 8.46 ərizə), Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində Gəncə Dövlət Aqrar Kollecinin "Aqronomluq" (bir yerə 8.18 ərizə), humanitar ixtisaslar istiqaməti üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecinin "Kinooperator sənəti" (bir yerə 14.51 ərizə), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecinin "Mədəni kütləvi tədbirlərin təşkilatçısı" (bir yerə 12.08 ərizə), Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollecinin "Məktəbəqədər təhsil" (bir

yerə 12.00 ərizə), xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları istiqaməti üzrə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin "Dizayn (qrafik dizayn)" (bir yerə 19.56 ərizə), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollecinin "Dizayn (geyim dizaynı)" (bir yerə 18.38 ərizə) ixtisaslarında olub.

Qəbul planı 20-dən az olmayan orta ixtisas təhsili müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisasları üzrə ən yüksək müsabiqə vəziyyəti Cəlilabad Tibb Kolleci (bir yerə 6.06 ərizə), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci (bir yerə 6.04 ərizə), Şəki Tibb Kollecində (bir yerə 5.64 ərizə) yaranıb. Təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə isə ən yüksək müsabiqə Saatlı Tibb Kolleci (bir yerə 7.09 ərizə) və Cəlilabad Tibb Kollecində (bir yerə 5.44 ərizə) olub.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara 946 plan yeri ayrılmışdı. 992 abituriyent ixtisas seçimində bu ixtisasları öz ərizəsində göstərib. Qeyd edək ki, ötən il xüsusi qabiliyyət tələb edən ixtisasları öz ərizəsində 668 abituriyent göstərmişdi.

Xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və həmin ixtisaslar üzrə ərizə vermiş abituriyentlərin sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 4.1.6


XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN SAYI

İXTİSAS	Qəbul planı	İxtisas seçimində ərizə vermiş abituriyentlərin sayı
Xüsusi qabiliyyət tələb edən bədən tərbiyəsi ixtisasları	180	370
Xüsusi qabiliyyət tələb edən musiqi və incəsənət ixtisasları	766	622

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulunun nəticələri haqqında məlumat sentyabrın 3-də DİM-in internet saytında yerləşdirilib və "Abituriyent" jurnalının 10-cu sayında dərc olunub. Qəbul olanların qeydiyyatından sonra boş qalan yerlərə əlavə yerləşdirmə aparılıb və nəticələr sentyabrın 29-da elan olunub. Müsabiqədə iştirak edənlərin 15204 nəfəri tələbə adını qazanıb. Bunlardan 5213 nəfəri dövlət təhsil müəssisələrinə ödənişsiz, 8173 nəfəri isə dövlət təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub. 1818 nəfər özəl orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Qəbul olanların 28.71%-i oğlan (4365 nəfər), 71.29%-i isə (10839 nəfər) qızdır.


Qəbul imtahanında iştirak edən və qəbul olan abituriyentlərin ballarının paylanma diaqramı 4.1.3 və 4.1.4 saylı şəkillərdə təqdim edilib. Xatırladaq ki, qəbul imtahanında toplanıla biləcək maksimal bal 300 idi.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.3

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.4

Qəbul imtahanında iştirak edən abituriyentlərin 13.66%-i 50-dən az, 16.24%-i isə 200-dən çox bal toplayıb.

Qəbul olan abituriyentlərin əksəriyyətinin (62.59%) imtahan nəticəsi 100-150 bal diapazonunda yerləşir. 50-100 bal intervalında nəticə göstərənlər qəbul olanların 22.84%-ni təşkil edib. İmtahan nəticələri ən yuxarı (200-285) bal diapazonunda nəticə göstərən abituriyentlərin nisbi sayı 0.93 faizdir. Qəbul olan abituriyentlərin yalnız 0.14%-i 39-50 bal diapazonunda nəticə göstərib.

İxtisas seçimində iştirak edənlərin 15558 nəfəri (72.39%) cari ilin məzunlarıdır. Onların 11871 nəfəri tələbə olmaq arzusunu reallaşdıra bilib. Beləliklə, cari il məzunlarının qəbulolma göstəricisi 76.30%, bütövlükdə orta ixtisas təhsili müəssisələrinə sənəd verənlərin qəbulolma göstəricisi isə 70.74% olub.

Texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisasları üzrə plan yerlərinin 10002-si Azərbaycan bölməsinin, 440-ı rus bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 18469, rus bölməsində 924 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 9672, rus bölməsində 423 nəfəri qəbul olub. Qəbul planı 96.68% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 98.61%, ödənişli əsaslarla olan ixtisaslarında isə 95.33% olub. Özəl təhsil müəssisələrinə qəbul planı 97.50% yerinə yetirilib.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən bədən tərbiyəsi ixtisasları üzrə plan yerlərinin hamısı (180 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 370 abituriyent göstərmişdi. Dövlət təhsil müəssisələrinin həm ödənişsiz, həm də ödənişli ixtisaslarında qəbul planı 100% olub.

Tibb ixtisasları üzrə plan yerlərinin 2384-ü Azərbaycan bölməsinin abituriyentləri üçün, 465-i hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün, 75-i isə rus bölməsinin abituriyentəri üçün ayrılmışdı. Ərizələrində bu ixtisasları Azərbaycan bölməsində 7804, rus bölməsində isə 388 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 2820, rus bölməsində 93 nəfəri qəbul olub. Qəbul planı 99.62% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 99.41%, ödənişli əsaslarla olan ixtisaslarında isə 99.77% olub.

Kimya-texnoloji ixtisaslar üzrə plan yerlərinin hamısı (120 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 1625 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin 119 nəfəri qəbul olub. Qəbul planı 99.17% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 100%, ödənişli ixtisaslarında isə 98.68% olub.

Baytarlıq və aqronomluq ixtisasları üzrə plan yerlərinin hamısı (670 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 4064 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 611 nəfəri qəbul olub. Qəbul planı 91.19% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 96.42%, ödənişli ixtisaslarında isə 86.78% olub.

Humanitar ixtisaslar üzrə plan yerlərinin 717-si Azərbaycan, 55-i rus bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 6999, rus bölməsində isə 447 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 678, rus bölməsində 55 nəfəri qəbul olub. Qəbul planı 94.95% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 97.05%, ödənişli əsaslarla olan ixtisaslarında isə 94.44% olub. Özəl təhsil müəssisələrində qəbul planı 91.43% yerinə yetirilib.

Xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları üzrə plan yerlərinin 577-si Azərbaycan, 169-u isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün, 20-si isə rus bölməsinin abituriyentəri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 570, rus bölməsində isə 52 abituriyent göstərmişdir. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 517, rus bölməsində 36 nəfəri qəbul olub. Qəbul planı 72.19% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 78.03%, ödənişli əsaslarla olan ixtisaslarında isə 64.90% olub. Özəl təhsil müəssisələrində qəbul planı 100% yerinə yetirilib.

Ötən illə müqayisədə plan yerlərinin yerinə yetirilmə faizi bütövlükdə 96.06%-dən 95.78%-ə qədər azalıb, qəbul olanların mütləq sayı isə 11899 nəfərdən 15204 nəfərədək (3305 nəfər) artıb. Müsabiqə və yerləşdirmənin nəticələri 4.1.7 – 4.1.9 saylı cədvəllərdə verilib.

Cədvəl 4.1.7

TAM ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Ümumi	
1	Texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslar	10442	9672	423	10095	96.68
2	Xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisasları	180	180	0	180	100.00
3	Tibb ixtisasları	2924	2820	93	2913	99.62
4	Kimya-texnoloji ixtisaslar	120	119	0	119	99.17
5	Baytarlıq və aqronomluq	670	611	0	611	91.19
6	Humanitar ixtisaslar	772	678	55	733	94.95
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	766	517	36	553	72.19
	C Ə M İ	**15874**	**14597**	**607**	**15204**	**95.78**

Cədvəl 4.1.8

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞSİZ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Ümumi	
1	Texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslar	3156	3008	104	3112	98.61
2	Xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisasları	75	75	0	75	100.00
3	Tibb ixtisasları	1192	1152	33	1185	99.41
4	Kimya-texnoloji ixtisaslar	44	44	0	44	100.00
5	Baytarlıq və aqronomluq	307	296	0	296	96.42
6	Humanitar ixtisaslar	271	240	23	263	97.05
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	305	224	14	238	78.03
	C Ə M İ	**5350**	**5039**	**174**	**5213**	**97.44**

Cədvəl 4.1.9

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞLİ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Ümumi	
1	Texniki, kənd təsərrüfatı, iqtisadiyyat, pedaqoji ixtisaslar	5566	5139	167	5306	95.33
2	Xüsusi qabiliyyət imtahanı tələb edən bədən tərbiyəsi ixtisasları	105	105	0	105	100.00
3	Tibb ixtisasları	1732	1668	60	1728	99.77
4	Kimya-texnoloji ixtisaslar	76	75	0	75	98.68
5	Baytarlıq və aqronomluq	363	315	0	315	86.78
6	Humanitar ixtisaslar	396	342	32	374	94.44
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	416	248	22	270	64.90
	C Ə M İ	**8654**	**7892**	**281**	**8173**	**94.44**

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanmış, onların əsasında balların paylanma histoqramları təyin edilmişdir. Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların paylanma histoqramı, demək olar ki, sağtərəfli asimmetriyaya malikdir. Rus bölməsində isə histoqram, demək olar ki, simmetrikdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 124.47, rus bölməsini təmsil edən isə 136.97 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 113.77-dən, rus bölməsində isə 133.02-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 300.0, rus bölməsində isə 294.2 olub.

Ərizə verən ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 55.17, riyaziyyatdan 29.26, ingilis dilindən 41.09, rus dilindən 32.43%-nə, rus bölməsində rus dilindən tapşırıqların 51.69, riyaziyyatdan 29.93, ingilis dilindən 55.39%-nə düzgün cavab verib. Qəbul olan ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 58.94, riyaziyyatdan 24.00, ingilis dilindən 37.70, rus dilindən 38.70%-nə, rus bölməsində rus dilindən tapşırıqların 52.60, riyaziyyatdan 24.63, ingilis dilindən 52.39%-nə düzgün cavab verib.

Yuxarıda da qeyd edildiyi kimi, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində cari ilin məzunları buraxılış imtahanının, digərləri isə buraxılış imtahanının modelinə uyğun keçirilən qəbul imtahanının nəticələri əsasında iştirak ediblər. Müsabiqədə iştirak etmək üçün qoyulan tələblərə əsasən imtahanda iştirak edən 113746 abituriyentin 26.50%-i (30143 nəfər) Azərbaycan (rus) dili və riyaziyyat fənlərindən biri üzrə nisbi balı 10 baldan aşağı, daha 2.78%-nin (3165 nəfər) isə ümumi balı 50-dən az olduğu üçün ixtisas seçiminə buraxılmamışdır. Digər abituriyentlər isə minimal tələbi ödədiklərinə görə ixtisas seçimində iştirak etmək hüququ qazanıb və onlar imtahanda iştirak edənlərin 70.72%-ni təşkil edib.

Təhlilin nəticələri göstərir ki, ixtisas seçimində iştirak edənlərin çox az hissəsi (7.61%) həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə 40 bal və daha yüksək nəticə göstərib. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin isə 10.06%-i hər iki fənn üzrə 40 bal və daha yüksək nəticə göstərib. Göründüyü kimi, həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə ən azı 40 bal toplayanların qəbul olanlar arasındakı nisbi çəkisi ixtisas seçimində iştirak edənlər arasındakı nisbi çəkisinə nəzərən 1.32 dəfə çox olub.

İxtisas seçimində iştirak edən abituriyentlərin 2.23%-i xarici dil fənni üzrə 10-dan az bal toplayıb. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin arasında isə xarici dil fənni üzrə 10-dan az bal toplayanların nisbi çəkisi cəmi 1.17%-ə bərabər olub. Müsabiqədə iştirak etmək üçün xarici dil fənnindən toplanılan ballara heç bir məhdudiyyət qoyulmamışdır.

4.1.10 saylı cədvəldə orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri haqqında məlumat təqdim edilir. Cədvəldən göründüyü kimi, bu təhsil müəssisələrinin doqquzunda plan yerləri 100% dolub. 40 orta ixtisas təhsili müəssisəsində boş qalan yerlər 10 faizədək, səkkizində isə 10%-dən yuxarıdır. Ağdam Musiqi Kollecində tələbə qəbulunda plan yerlərinin 84.06%-i, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində 60.00%-i, Naxçıvan Musiqi Kollecində isə 41.67%-i boş qalıb.

Cari ildə tibb kollecləri arasında Naxçıvan Tibb Kolleci, 2 nömrəli Bakı Baza Tibb Kolleci, Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci və 1 nömrəli Bakı Tibb Kollecindən başqa, digər tibb kolleclərində plan yerlərinin hamısı dolub. Naxçıvan Tibb Kollecində plan yerlərinin dolma faizi 98.50%, digər üç kollec üzrə isə plan yerlərinin dolma faizi 99%-dən yuxarı olub.

4.1.10 saylı cədvəldə orta ixtisas təhsili müəssisələrinə qəbul olan ortastatistik abituriyentlərin topladıqları ballar haqqında məlumat da təqdim edilib. Cədvəldən göründüyü kimi, ən yüksək nəticə 1 nömrəli Bakı Tibb Kolleci (165.484), 2 nömrəli Bakı Baza Tibb Kolleci (164.365), Quba Tibb Kolleci (158.580) və Gəncə Tibb Kollecinə (157.947), ən zəif nəticə isə Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci (59.175) və Ağdam Musiqi Kollecinə (53.118) məxsusdur.

Cədvəl 4.1.10

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ QƏBUL OLUNANLARIN ORTA BALI VƏ BOŞ QALAN PLAN YERLƏRİ

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Orta bal	Boş yerlərin	
				sayı	faizi
1	Ağdam Musiqi Kolleci	69	53.118	58	84.06
2	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	40	59.175	24	60.00
3	Naxçıvan Musiqi Kolleci	12	81.129	5	41.67
4	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	24	91.926	5	20.83
5	Şuşa Humanitar Kolleci	97	110.102	14	14.43

Cədvəl 4.1.10 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Orta bal	Boş yerlərin	
				sayı	faizi
6	Şamaxı Dövlət Regional Kolleci	422	98.358	52	12.32
7	Şəki Dövlət Regional Kolleci	354	102.475	39	11.02
8	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	97	91.871	10	10.31
9	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	190	104.848	18	9.47
10	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	209	110.541	19	9.09
11	Masallı Dövlət Regional Kolleci	242	97.851	21	8.68
12	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	260	99.077	21	8.08
13	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	240	95.100	19	7.92
14	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	443	105.132	34	7.67
15	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	40	93.314	3	7.50
16	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	354	94.641	23	6.50
17	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	452	102.875	26	5.75
18	Astara Pedaqoji Kolleci	250	97.106	14	5.60
19	Naxçıvan Dövlət Texniki Kolleci	54	135.063	3	5.56
20	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	310	96.254	17	5.48
21	Mingəçevir Turizm Kolleci	295	108.628	16	5.42
22	Ağdaş Dövlət Humanitar Kolleci	270	97.441	14	5.19
23	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	290	102.680	15	5.17
24	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	225	91.936	11	4.89
25	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	525	115.218	24	4.57
26	Quba Dövlət Sosial-İqtisadi Kolleci	161	114.092	7	4.35
27	Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində Gəncə Dövlət Aqrar Kolleci	300	103.475	13	4.33
28	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	200	98.429	6	3.00
29	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	481	131.198	14	2.91
30	Bakı Biznes və Kooperasiya Kolleci	730	110.412	20	2.74
31	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	595	119.942	16	2.69
32	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	360	137.666	9	2.50
33	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	330	123.211	8	2.42
34	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	420	147.620	10	2.38
35	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	483	123.971	11	2.28
36	Odlar Yurdu Kolleci	410	113.028	7	1.71
37	Naxçıvan Tibb Kolleci	200	150.288	3	1.50
38	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	410	116.304	6	1.46
39	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	214	128.777	3	1.40
40	Bakı Avrasiya Kolleci	525	113.149	7	1.33
41	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	396	124.537	5	1.26
42	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	513	130.607	6	1.17
43	Ağcabədi Pedaqoji Kolleci	195	107.324	2	1.03
44	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	100	143.075	1	1.00
45	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	355	114.223	3	0.85
46	2 nömrəli Bakı Baza Tibb Kolleci	660	164.365	4	0.61
47	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	354	149.697	2	0.56
48	1 nömrəli Bakı Tibb Kolleci	510	165.484	2	0.39
49	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Azərbaycan İlahiyyat İnstitutunun yanında Bakı İlahiyyat Kolleci	15	84.460	0	0.00
50	Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	8	69.475	0	0.00
51	Cəlilabad Tibb Kolleci	80	142.798	0	0.00
52	Gəncə Tibb Kolleci	310	157.947	0	0.00
53	Lənkəran Tibb Kolleci	220	147.832	0	0.00
54	Mingəçevir Tibb Kolleci	300	145.414	0	0.00
55	Quba Tibb Kolleci	65	158.580	0	0.00
56	Saatlı Tibb Kolleci	60	142.393	0	0.00
57	Şəki Tibb Kolleci	150	144.258	0	0.00
	Cəmi	**15874**	**120.979**	**670**	**4.22**

4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu

Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulunu 1995–1998-ci illərdə mərkəzləşdirilmiş qaydada Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, 1999–2004-cü illərdə isə orta ixtisas təhsili müəssisələrinin özləri aparıb. 2005-ci ildən etibarən bu təhsil pilləsinə qəbul imtahanlarının keçirilməsi yenidən TQDK-ya (indiki DİM) həvalə olunub.

2025-ci ildə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu fevralın 20-dən martın 5-dək internet vasitəsilə aparılıb. Qəbul qaydaları və qəbul haqqında elan DİM-in internet saytında yerləşdirilib, qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat isə "Abituriyent" jurnalının 3-cü sayında dərc olunub. Abituriyentlər *ekabinet.dim.gov.az* internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (*eservices.dim.gov.az/erizetex/erize*) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurub və təsdiq ediblər (etdiriblər).

Müsabiqədə iştirak ödənişli olub. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 fevral 2017-ci il tarixli 2694 nömrəli Sərəncamına əsasən orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Bundan əlavə, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 fevral 2017-ci il tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının da (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına təmin edilib:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Qəbul imtahanının nəticəsi 2 il qüvvədə olduğuna görə 2024-cü ildə qəbul imtahanında iştirak edən, lakin qəbul olmayan abituriyentlərin həmin ildə topladıqları bal ilə cari ildəki müsabiqədə (topladıqları balları cari ilin müsabiqə şərtlərini ödədikləri halda) iştirak etmək imkanları olub. Lakin həmin abituriyentlər cari ildə keçirilən imtahanda iştirak etmək istəyiblərsə, bu halda elektron ərizənin müvafiq bölməsində bu istəklərini qeyd edib və tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə ediblər. Bu zaman abituriyentlər müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəklərini ixtisas seçimi zamanı özləri müəyyən ediblər.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3. 2013-cü və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2 və 1.3 -cü yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər isə elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq SQK-larda təsdiq etdiriblər.

Ümumi orta (9 illik) təhsil səviyyəsini cari ildə bitirən abituriyentlər qəbul imtahanı verməmiş, müsabiqədə tədris (Azərbaycan, rus) dili, riyaziyyat və xarici dil fənlərindən buraxılış imtahanında (9-cu siniflər üzrə) əldə etdikləri nəticələr əsasında iştirak etmişdir. Bu təhsil səviyyəsini əvvəlki illərdə bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün tədris (Azərbaycan, rus) dili, riyaziyyat və xarici dil fənlərindən bir mərhələdən ibarət qəbul imtahanı vermişdir. İmtahanda abituriyentlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 26 və riyaziyyat fənnindən 25 olmaqla ümumilikdə 81 tapşırıq təqdim olunmuş, abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 bal olmuşdur. Cari ildə qəbul imtahanında test tapşırıqları hazırlanarkən qapalı, cavablarının kodlaşdırılması və həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlardan istifadə olunmuşdur. Bununla yanaşı, xarici dil fənnindən yeni imtahan modeli tətbiq olunmuşdur. Belə ki, yazılı və ətraflı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqların əvəzinə abituriyentlərə şəkillər əsasında hekayə qurulması tələb olunan bir tapşırıq təqdim olunmuşdur. Bu tapşırıqda abituriyentlər sual kitabçasında verilmiş şəkillərə əsasən kiçikhəcmli (35 sözdən ibarət) hekayə yazıblar. Hekayə qurmaq tələb olunan tapşırıqların yoxlanılması esse tipli tapşırıqların yoxlanılması ilə eyni qaydada aparılmışdır. Belə ki, abituriyentlərin şəkillərə əsasən qurub yazdıqları hekayələr (mətnlər) markerlər tərəfindən 5 ballıq şkalada 4 meyar əsasında (məzmun, ardıcıllıq/məntiqi rabitə, qrammatika və söz ehtiyatı) qiymətləndirilmişdir. Bundan əlavə, imtahanda abituriyentlərə xarici dil fənni üzrə dinləmə mətninə aid verilmiş fikrin doğru və ya yanlış olmasını müəyyənləşdirməyi tələb edən bir test tapşırığı da təqdim olunub. Bu tip test tapşırığında ümumilikdə 4 mülahizə olub. Abituriyentin mülahizələrə dair verdiyi bütün cavablar doğru olduğu halda bu, 1 (tam) balla, 3 mülahizəyə dair verdiyi cavab doğru olduqda 0.5 (yarım) balla, iki və ya daha az mülahizəni doğru cavablandırdıqda isə 0 (sıfır) balla qiymətləndirilib. Həmçinin abituriyentlərə xarici dil fənnindən kodlaşdırılması tələb olunan açıq tipli seçim formalı 2 tapşırıq da təqdim edilmişdir. Test tapşırıqlarının strukturu haqqında daha ətraflı məlumat cədvəl 5.1-də 9-cu siniflər üzrə buraxılış imtahanı bölməsində (bax: cədvəl 5.1-5.2, səh. 447) təqdim olunub. Qəbul imtahanı mayın 11-də Bakı, Sumqayıt, Gəncə, Şəki, Mingəçevir, Şirvan, Lənkəran şəhərlərində, Bərdə, Sabirabad, Abşeron, Şəmkir, Göyçay, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan MR-də keçirilib.

Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (9-cu siniflər üzrə) topladıqları ballar əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq yuxarıda göstərilən tarixlərdə bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

– Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.

– Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən, müsabiqəsində iştirak etmək istədikləri ixtisasların tədris dilinə uyğun olaraq ərizənin "Test imtahanı verəcəyi dil (Bölmə)" bölməsində Azərbaycan və ya rus dilini seçiblər.

– Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər.

İxtisas seçimi iyulun 31-dən avqustun 7-dək internet vasitəsilə həyata keçirilib. İxtisas seçiminə qəbul (buraxılış) imtahanında ümumi balı 50-dən, tədris (Azərbaycan, rus) dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıb (xarici dil fənni üzrə nisbi bal məhdudiyyəti tətbiq

edilməyib). Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət büdcəsinin vəsaiti hesabına və ödənişli olan 12-yə qədər ixtisas kodunu seçib. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirib. Qəbul qaydalarına əsasən müsabiqə zamanı həmin ardıcıllıq hüquqi əsas kimi nəzərə alınıb və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili (dövlət dili) fənnindən (ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün) imtahan veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə 27-si qapalı tipli və 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli olmaqla 30 test tapşırığı təqdim edilib. Tapşırıqların yerinə yetirilməsinə 1 saat 30 dəqiqə vaxt ayrılıb. Qapalı tipli tapşırıqlar üzrə hər düzgün cavab 1 balla qiymətləndirilib. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar isə markerlər tərəfindən meyarlar əsasında $0, \frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ və ya 1 balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumtəhsil müəssisələrini (ümumi orta təhsil səviyyəsi üzrə) cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri Azərbaycan dili (dövlət dili) fənni imtahanından nisbi balı ən azı 50 olduğu halda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunub. Həmin imtahan üzrə nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunub və qəbul imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili) fənnindən yenidən imtahan veriblər.

Azərbaycan dili (dövlət dili) fənni üzrə imtahanın nəticəsi iki il qüvvədə olduğundan, 2024-cü ildə həmin imtahandan "məqbul" alan abituriyentlərin cari ildə bu imtahanda iştirak etmələrinə ehtiyac qalmayıb.

Azərbaycan dili (dövlət dili) fənni imtahanından "məqbul" ala bilməyən abituriyentlər müsabiqəyə buraxılmayıb.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən abituriyentlər imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödədiyi halda, imtahanların nəticəsi elan olunduqdan sonra, mayın 20-dən 30-dək *eservices.dim.gov.az/qabiliyyet* internet səhifəsinə daxil olaraq seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər.

Qabiliyyət imtahanlarında iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə (yalnız bir ixtisas üzrə) qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olub. Bundan əlavə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları, şəhid ailəsinin üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, məcburi köçkün statusu olan şəxslər, I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların da qeydiyyatdan keçdikləri bütün komissiyalar üzrə qabiliyyət imtahanlarında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Qabiliyyət imtahanının nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti qoyulmayıb) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılıb. "Xoreoqrafiya sənəti (sahələr üzrə)" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər iştirak edib. Qəbul qaydalarına əsasən abituriyentlərə xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilib.

Qəbul planı (8144 yer) ötən illə müqayisədə 25.49% (2786 yer) azalıb (azalmanın səbəbi orta ixtisas təhsili müəssisələri üzrə ayrılan plan yerlərinin ümumi orta təhsil bazasından tam orta təhsil bazasına keçirilməsi ilə bağlıdır). Plan yerlərinin 3266-sı (40.10%) ödənişsiz, 4878-i (59.90%) isə ödənişli təhsil üzrə olub. Qəbul planının 90.56%-i Azərbaycan, 2.89%-i rus, 6.56%-i isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılıb. Qəbul planının 17.79%-i (1449 yer) xüsusi qabiliyyət tələb edən ixtisasların payına düşürdü.

41 orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Sayca ən çox plan yeri Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə (395 yer), ən az isə Bakı İlahiyyat Kollecinə (15 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.2.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (ÜMUMİ ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	70	0	0	70	65	0	0	65	135
2	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	50	24	0	74	87	36	0	123	197
3	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	45	12	0	57	65	13	0	78	135
4	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	51	0	0	51	99	0	0	99	150
5	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	139	24	0	163	162	36	0	198	361
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	135	5	0	140	245	10	0	255	395
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	101	5	0	106	174	10	0	184	290
8	Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	0	0	47	47	0	0	25	25	72
9	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	81	20	0	101	115	20	0	135	236
10	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	32	32	0	0	45	45	77
11	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	170	170	0	0	100	100	270
12	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	110	0	0	110	270	0	0	270	380
13	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	130	0	0	130	260	0	0	260	390
14	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	93	0	0	93	212	0	0	212	305
15	Naxçıvan Dövlət Texniki Kolleci	65	0	0	65	104	0	0	104	169
16	Naxçıvan Musiqi Kolleci	88	0	0	88	60	0	0	60	148
17	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	105	0	0	105	190	0	0	190	295
18	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	70	0	0	70	140	0	0	140	210
19	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	50	0	0	50	100	0	0	100	150
20	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	77	0	0	77	117	0	0	117	194
21	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	0	0	89	89	0	0	26	26	115
22	Quba Dövlət Sosial-İqtisadi Kolleci	62	0	0	62	78	0	0	78	140
23	Şamaxı Dövlət Regional Kolleci	148	0	0	148	177	0	0	177	325
24	Mingəçevir Turizm Kolleci	72	0	0	72	108	0	0	108	180
25	Şəki Dövlət Regional Kolleci	95	0	0	95	140	0	0	140	235
26	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	39	0	0	39	36	0	0	36	75

Cədvəl 4.2.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
27	Şuşa Humanitar Kolleci	44	0	0	44	59	0	0	59	103
28	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	118	0	0	118	137	0	0	137	255
29	Ağdam Musiqi Kolleci	50	0	0	50	52	0	0	52	102
30	Ağdaş Dövlət Humanitar Kolleci	60	0	0	60	125	0	0	125	185
31	Ağcabədi Pedaqoji Kolleci	47	0	0	47	88	0	0	88	135
32	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	97	0	0	97	128	0	0	128	225
33	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	67	0	0	67	118	0	0	118	185
34	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	60	0	0	60	90	0	0	90	150
35	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	115	0	0	115	110	0	0	110	225
36	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	86	0	0	86	84	0	0	84	170
37	Astara Pedaqoji Kolleci	77	0	0	77	78	0	0	78	155
38	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	67	0	0	67	98	0	0	98	165
39	Masallı Dövlət Regional Kolleci	59	0	0	59	66	0	0	66	125
40	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı İlahiyyat İnstitutunun yanında Bakı İlahiyyat Kolleci	15	0	0	15	0	0	0	0	15
41	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	300	20	0	320	320
	Cəmi	**2838**	**90**	**338**	**3266**	**4537**	**145**	**196**	**4878**	**8144**

1995–1998-ci illərdə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün abituriyent ərizələrinin sayı plan yerlərindən 30-40% az olub. Qəbul imtahanlarının yenidən mərkəzləşdirilmiş qaydada keçirildiyi 2005–2006-cı illərdə bu təhsil müəssisələrində, zəif də olsa, müsabiqə vəziyyəti mövcud olub. Bu illərdə orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunu həmin məktəblərdə yaradılmış Sənəd Qəbulu Komissiyaları həyata keçirirdi. Sənəd qəbulu prosesində abituriyentlərin və onların valideynlərinin rahatlığını təmin etmək məqsədi ilə 2007–2012-ci illərdə respublikanın bütün regionlarının təhsil şöbələrində Sənəd Qəbulu Komissiyaları yaradılmışdı. Artıq on üç ildir ki, barələrində DİM-in informasiya bazasında yetərli məlumatlar olan abituriyentlərə ərizələrini Sənəd Qəbulu Komissiyalarına müraciət etmədən internet vasitəsi ilə bilavasitə özlərinin təsdiq etməsinə imkan yaradılıb.

Cari ildə müsabiqənin nəticələri avqustun 8-də DİM-in internet saytında və "Abituriyent" jurnalının xüsusi buraxılışında yerləşdirilərək ictimaiyyətə təqdim olunub. Bundan sonra, avqustun 29-dan sentyabrın 3-dək orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunub. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində orta ixtisas təhsili müəssisələrinin 12-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstəriblər. Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri sentyabrın 4-də elan olunub.

Qəbul (buraxılış) imtahanlarında 32415 abituriyent iştirak edib. Onların 15570-i oğlan (48.03%), 16845-i isə qız (51.97%) olub. Ötən illə müqayisə etdikdə, cari ildə qəbul (buraxılış) imtahanlarında iştirak edənlərin sayı 4242 nəfər (11.57%) azalıb. Qeyd edək ki, orta ixtisas təhsili müəssisələrinə qəbul olub oranı bitirən şəxslərə "subbakalavr" peşə-ixtisas dərəcəsi verilir. Bu dərəcəyə malik olan şəxslər əmək bazarına ixtisaslı kadr kimi daxil olurlar. Bundan başqa, subbakalavrlar ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinin ixtisaslarının müsabiqəsində də iştirak etmək imkanı əldə edirlər. Fikrimizcə, bu sadalanan hallar abituriyentlərin orta ixtisas təhsili müəssisələrində təhsil almaq maraqlarını artırır.

İmtahan verən abituriyentlərin 11764-ü (36.29%) ixtisas seçimində iştirak etmək üçün ərizə verib. Dövlət hesabına və ödənişli təhsil üzrə qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyəti 4.2.2 və 4.2.3 saylı cədvəllərdə təqdim olunur.

İxtisas seçimində iştirak etmək üçün ərizələrin 96.00%-i (11293-ü) Azərbaycan, 4.00%-i (471-i) isə rus bölməsinə verilmişdi. Abituriyentlərin 42.90%-ni oğlanlar, 57.10%-ni isə qızlar təşkil edib.

Cədvəl 4.2.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	TƏHSİL	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI*		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Ümumi	Azərb. bölməsi	Rus bölməsi	Ümumi
1	**Dövlət müəssisələrinə ödənişsiz təhsil üzrə**	**2823**	**90**	**338**	**3251**	**8462**	**449**	**8911**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	2427	85	0	2512	7578	373	7951
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	396	5	338	739	1024	98	1122
2	**Dövlət müəssisələrinə ödənişli təhsil üzrə**	**4237**	**125**	**196**	**4558**	**9755**	**393**	**10148**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3748	115	0	3863	9002	332	9334
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	489	10	196	695	964	81	1045
3	**Özəl təhsil müəssisələri üzrə**	**315**	**20**	**0**	**335**	**2218**	**200**	**2418**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	300	20	0	320	2195	200	2395
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	15	0	0	15	24	0	24
Ümumi		**7375**	**235**	**534**	**8144**	**11293**	**471**	**11764**
- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar		6475	220	0	6695	10478	394	10872
- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar		900	15	534	1449	1089	103	1192

Cədvəl 4.2.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ


№	TƏHSİL	Plan yerləri üzrə müsabiqə vəziyyəti			
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Bütövlükdə
1	**Dövlət (ödənişsiz)**	**2.401**	**3.702**	**1.393**	**2.301**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	2.538	3.732	---	2.579
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1.635	3.986	1.393	1.410
2	**Dövlət (ödənişli)**	**1.339**	**1.126**	**0.945**	**1.305**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.424	1.172	---	1.417
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0.767	0.898	0.945	0.748
3	**Özəl**	**2.067**	**1.537**	---	**2.034**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	2.091	1.537	---	2.056
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1.600	---	---	1.600
Bütövlükdə		**1.491**	**1.671**	**0.918**	**1.444**
- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar		1.588	1.716	---	1.593
- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar		0.856	1.357	0.918	0.813

*İxtisas seçimində iştirak edənlər

Müsabiqədə iştirak edən 11764 abituriyentdən 7467-si qəbul olub. Onlardan 3119-u dövlət təhsil müəssisələrinə ödənişsiz, 4027-si ödənişli, 321-i isə özəl təhsil müəssisəsinə ödənişli təhsil üzrə qəbul olub. Qəbul planı 91.69% yerinə yetirilib. Dövlət təhsil müəssisələrinə ödənişsiz təhsil üzrə qəbul planının dolma göstəricisi 95.94%, ödənişli təhsil üzrə 88.35%, özəl təhsil müəssisələri üzrə isə 95.82% olub. Qəbul olan abituriyentlərin 3049-u (40.83%) oğlan, 4418-i isə (59.17%) qızdır.


Qəbulda iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda təsvir edilib. Hər bir fənn üzrə 100 bal olmaqla, maksimum toplanıla bilən bal 300 olub.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.1

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.2

Diaqramların müqayisəli təhlili göstərir ki, qəbul (buraxılış) imtahanında iştirak edənlər seçməsində imtahan nəticəsi 50–100 bal intervalında yerləşən abituriyentlər sayca üstünlük təşkil edirsə, qəbul olanlar seçməsində sayca üstünlük imtahan nəticəsi 100–150 bal intervalında yerləşənlərin tərəfindədir. Yerləşdirmə aparıldıqdan sonra 100–150 bal intervalına daxil olanların nisbi çəkisi 27.88%-dən (şəkil 4.2.1) 58.11%-ə (şəkil 4.2.2) qədər yüksəlib. İmtahanda toplanılan maksimal bal 297.1 olub.

Dövlət (ödənişsiz və ödənişli) və özəl təhsil müəssisələrinə aparılan müsabiqə və yerləşdirmənin nəticələri 4.2.4 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.4

ÜMUMİ ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI

№	TƏHSİL	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	**Dövlət müəssisələrinə ödənişsiz təhsil üzrə**	**3251**	**2974**	**145**	**3119**	**95.94**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	2512	2384	84	2468	98.25
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	739	590	61	651	88.09

Cədvəl 4.2.4 (ardı)

№	TƏHSİL	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
2	**Dövlət müəssisələrinə ödənişli təhsil üzrə**	**4558**	**3886**	**141**	**4027**	**88.35**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3863	3558	114	3672	95.06
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	695	328	27	355	51.08
3	**Özəl təhsil müəssisələri üzrə**	**335**	**301**	**20**	**321**	**95.82**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	320	286	20	306	95.63
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	15	15	0	15	100.00
Ümumi		**8144**	**7161**	**306**	**7467**	**91.69**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	6695	6228	218	6446	96.28
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1449	933	88	1021	70.46

Orta ixtisas təhsili müəssisələri arasında daha yüksək müsabiqə vəziyyəti Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci, Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kolleci və Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecində yaranıb. Bu təhsil müəssisələrinin orta hesabla bir plan yerinə təqdim edilən ərizələrin sayı müvafiq olaraq 4.4, 4.2 və 4.1 olub.

Orta ixtisas təhsili müəssisələri arasında ən aşağı müsabiqə vəziyyəti Naxçıvan Musiqi Kolleci, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci, Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci və Ağdam Musiqi Kollecində yaranıb. Bu təhsil müəssisələrində orta hesabla 1 plan yerinə 1-dən az ərizə verilib.

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanaraq, onların əsasında balların paylanma histoqramları təyin edilib. Azərbaycan bölməsində histoqram qismən asimmetrikdir. Asimmetriya müsbət, yaxud sağtərəflidir. Rus bölməsində isə histoqram, demək olar ki, simmetrikdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 93.28, rus bölməsini təmsil edən isə 121.91 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 86.59-dən, rus bölməsində isə 117.64-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 295.1, rus bölməsində isə 297.1 olub.

Azərbaycan bölməsində ortastatistik abituriyent Azərbaycan dili fənnindən 44.68, riyaziyyatdan 21.83, xarici dildən 26.77, rus bölməsində isə rus dilindən 57.42, riyaziyyatdan 23.70, xarici dildən 40.79 bal toplayıb.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul 9-cu sinif üzrə buraxılış imtahanı standartları əsasında aparılıb. İmtahanda iştirak edən 32415 abituriyentin 64.04%-i ən azı bir fənn üzrə 20 baldan, 94.28%-i 40 baldan aşağı nəticə göstərib. Abituriyentlərin əksəriyyəti (82.04%-i) xarici dil fənni üzrə 40 baldan aşağı nəticə göstərib. 380 abituriyent fənlərin hər biri üzrə ən azı 60 bal, 95 abituriyent isə ən azı 80 bal toplayıb. Qəbul olan 7467 abituriyentin 35.17%-i ən azı bir fənn üzrə 20 baldan, 90.72%-i 40 baldan aşağı nəticə göstərib. Qəbul olan abituriyentlərin 69-u fənlərin hər biri üzrə ən azı 60 bal, 8-i isə ən azı 80 bal toplayıb.

Yuxarıda qeyd olunduğu kimi, bu il ümumi orta təhsil bazasında 41 orta ixtisas təhsili müəssisəsinə qəbul aparılıb. Cədvəldən göründüyü kimi, bu təhsil müəssisələrinin ikisində plan yerləri 100% dolub. 27 orta ixtisas təhsili müəssisəsində boş qalan plan yerləri 10%-dək, qalan 12 orta ixtisas təhsili müəssisəsində isə 10%-dən yuxarıdır.

Orta ixtisas təhsili müəssisələri arasında qəbul planının ən az dolma göstəricisi Ağdam Musiqi Kollecindədir. Cədvəldən göründüyü kimi, bu orta ixtisas təhsili müəssisəsinin plan yerlərinin 68.63%-i boş qalıb.

Orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri və ortastatistik qəbul olan abituriyentlərin topladıqları ballar haqqında məlumat 4.2.5 saylı cədvəldə təqdim olunur.

Cədvəldən göründüyü kimi, ən yüksək nəticə Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci (180.108), Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci (165.793) və Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollecinə (161.842), ən zəif nəticə isə Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci (98.973), İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci (96.402) və Ağdam Musiqi Kollecinə (76.159) məxsusdur.

Cədvəl 4.2.5

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ QƏBUL OLANLARIN ORTA BALI VƏ BOŞ QALAN PLAN YERLƏRİ

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Orta bal	Boş yerlər	
				sayı	faizi
1	Ağdam Musiqi Kolleci	102	76.159	70	68.63
2	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	115	98.973	51	44.35
3	Şuşa Humanitar Kolleci	103	107.336	37	35.92
4	Şəki Dövlət Regional Kolleci	235	105.053	57	24.26
5	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	270	122.738	64	23.70
6	Naxçıvan Musiqi Kolleci	148	107.307	35	23.65
7	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	295	123.368	54	18.31
8	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	236	125.073	40	16.95
9	Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	72	120.111	10	13.89
10	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	170	125.410	23	13.53
11	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	165	96.402	20	12.12
12	Şamaxı Dövlət Regional Kolleci	325	103.084	38	11.69
13	Astara Pedaqoji Kolleci	155	108.537	13	8.39
14	Masallı Dövlət Regional Kolleci	125	106.591	9	7.20
15	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	185	102.639	12	6.49
16	Ağdaş Dövlət Humanitar Kolleci	185	107.218	9	4.86
17	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	210	107.470	10	4.76
18	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	150	161.842	7	4.67
19	Bakı Biznes və Kooperasiya Kolleci	320	115.568	14	4.38
20	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	150	110.914	6	4.00
21	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	150	108.140	6	4.00
22	Mingəçevir Turizm Kolleci	180	116.937	7	3.89
23	Ağcabədi Pedaqoji Kolleci	135	107.065	5	3.70
24	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	135	180.108	5	3.70
25	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	225	123.338	8	3.56
26	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	225	108.583	7	3.11
27	Quba Dövlət Sosial-İqtisadi Kolleci	140	134.258	4	2.86
28	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	77	165.793	2	2.60
29	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	197	153.743	5	2.54
30	Naxçıvan Dövlət Texniki Kolleci	169	142.936	4	2.37
31	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	135	133.648	3	2.22
32	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	290	141.198	6	2.07
33	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	305	123.423	6	1.97
34	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	255	107.455	5	1.96
35	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	380	133.613	7	1.84
36	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	395	131.330	7	1.77
37	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	390	124.754	6	1.54
38	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	194	142.203	2	1.03
39	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	361	154.615	3	0.83
40	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı İlahiyyat İnstitutunun yanında Bakı İlahiyyat Kolleci	15	142.700	0	0.00
41	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	75	119.651	0	0.00
	C Ə M İ	**8144**	**124.197**	**677**	**8.31**

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ

"Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları"na əsasən 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanına tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənləri daxil edilmişdir. Tədris dili Azərbaycan, rus və ya gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri yalnız riyaziyyat və xarici dil fənlərindən imtahan vermişdir. 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanında üzrsüz səbəbdən iştirak etməyən şagirdlərə attestat verilməmişdir.

Cari ildə 9-cu siniflər üzrə buraxılış imtahanlarında şagirdlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 26 və riyaziyyat fənnindən 25 olmaqla ümumilikdə 81 tapşırıq, 11-ci siniflər üzrə buraxılış imtahanlarında isə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla ümumilikdə 85 tapşırıq təqdim edilmiş, şagirdlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 bal olmuşdur. Test tapşırıqlarının strukturu haqqında daha ətraflı məlumat cədvəl 5.1-də verilir.

Həm 9-cu, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında tədris dili Azərbaycan dilindən fəqli olan şagirdlər yuxarıda qeyd olunan fənlərdən əlavə dövlət dili kimi Azərbaycan dili fənnindən də imtahan veriblər.

İmtahanlar bölgələr üzrə aşağıdakı tarixlərdə keçirilmişdir:

- **Ümumi təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 13.04.2025-ci il tarixdə: Xətai, Nəsimi, Nərimanov, Qaradağ, Suraxanı, Səbail, Gəncə (I hissə), Samux, Yevlax, Qazax, Ağstafa, Şəki, Lənkəran (I hissə), Astara, Yardımlı, Ağdam, Ağcabədi, Şuşa, Xankəndi, Xocalı, Ağsu, Zərdab, İsmayıllı, İmişli, Şirvan, Biləsuvar, Qusar, Siyəzən, Xızı, Şabran;
  - 20.04.2025-ci il tarixdə: Sabunçu (I hissə), Xəzər (I hissə), Yasamal, Binəqədi, Sumqayıt (I hissə), Abşeron (I hissə), Gəncə (II hissə), Mingəçevir, Daşkəsən, Şəmkir (I hissə), Gədəbəy, Qəbələ, Oğuz, Lənkəran (II hissə), Cəlilabad (I hissə), Masallı (I hissə), Göyçay, Ucar, Şamaxı, Qobustan, Sabirabad, Neftçala, Hacıqabul, Xaçmaz (I hissə), Quba (I hissə), Füzuli, Beyləqan, Füzuli (M.Uluqbəy adına 1 nömrəli tam orta məktəb), Zəngilan (Ağalı kənd tam orta məktəbi), Cəbrayıl (M.Mehdizadə adına tam orta məktəb);
  - 27.04.2025-ci il tarixdə: Sabunçu (II hissə), Nizami, Xəzər (II hissə), Pirallahı, Sumqayıt (II hissə), Abşeron (II hissə), Naxçıvan, Göygöl, Goranboy, Naftalan, Şəmkir (II hissə), Tovuz, Qax, Balakən, Zaqatala, Cəlilabad (II hissə), Masallı (II hissə), Lerik, Saatlı, Salyan, Kürdəmir, Ağdaş, Xaçmaz (II hissə), Quba (II hissə), Bərdə, Tərtər, Ağdərə (Talış kənd tam orta məktəbi), Laçın (Şəhər 2 nömrəli tam orta məktəb, Zabux kənd tam orta məktəbi, Sus kənd tam orta məktəbi), Bakı şəhəri üzrə xüsusi məktəblər (internat məktəbləri, cəzaçəkmə müəssisələrində yerləşən məktəblər), tədrisi ingilis, gürcü dilində olan məktəblər.
- **Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 02.03.2025-ci il tarixdə: Nərimanov, Sabunçu, Xəzər, Səbail, Nəsimi, Nizami, Abşeron (I hissə), Sumqayıt (I hissə), Gəncə (I hissə), Goranboy, Yevlax, Naftalan, Şəmkir, Gədəbəy, Şirvan, Hacıqabul, Neftçala, Salyan, Göyçay, Ağdaş, Şamaxı, Qobustan, Kürdəmir, Lənkəran, Cəlilabad, Yardımlı, Bərdə, Tərtər, Ağdam, Şəki, Oğuz, Qəbələ, Xaçmaz, Siyəzən, Şabran, Ağdərə (Talış kənd tam orta məktəbi), Xocalı, Xankəndi, Şuşa, Laçın (Şəhər 2 nömrəli tam orta məktəb, Zabux və Sus kənd tam orta məktəbləri), tədrisi ingilis dilində olan məktəblər, Sumqayıt və Abşeronda yerləşən peşə liseylərinin;
  - 09.03.2025-ci il tarixdə: Qaradağ, Binəqədi, Xətai, Suraxanı, Pirallahı, Yasamal, Abşeron (II hissə), Sumqayıt (II hissə), Naxçıvan MR, Gəncə (II hissə), Mingəçevir, Samux, 9 mart Göygöl, Daşkəsən, Ağstafa, Qazax, Tovuz, Sabirabad, Saatlı, İmişli, Biləsuvar, Ucar, İsmayıllı, Ağsu, Zərdab, Masallı, Astara, Lerik, Ağcabədi, Beyləqan, Füzuli, Qax, Balakən, Zaqatala, Quba, Xızı, Qusar, Füzuli (M.Uluqbəy adına 1 nömrəli tam orta məktəb), Zəngilan (Ağalı kənd tam orta məktəbi), Cəbrayıl (M.Mehdizadə adına məktəb), Bakı şəhəri üzrə xüsusi məktəblər (internat məktəbləri, cəzaçəkmə müəssisələrində yerləşən məktəblər), tədrisi gürcü dilində olan məktəblər, H.Əliyev və C.Naxçıvanski adına Hərbi lisey, peşə liseyləri.

Qeyd 1: İşğaldan azad olunmuş rayonlardan olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

Qeyd 2: Bəzi şəhər və rayonlar üzrə şagirdlərin hərəkət intensivliyinin azaldılması məqsədi ilə onlar 2 hissəyə ayrılmış və müxtəlif günlərdə imtahan vermişdir. Yuxarıdakı siyahıda bu hal müvafiq olaraq hissələrlə adlandırılıb.

İmtahanda şagirdlərə təqdim olunan tapşırıqların strukturu Cədvəl 5.1

Fənlər	9-cu siniflər üzrə buraxılış imtahanı	11-ci siniflər üzrə buraxılış imtahanı
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	Dinləyib-anlamaya dair 1 mətn (publisistik üslubda – monoloq və ya dialoq formalı) və mətnə aid **4** tapşırıq: bunlardan doğru və ya yanlış cavabın seçilməsi tələb olunan **1** tapşırıq və qapalı tipli **3** tapşırıq; Oxuyub-anlamaya mətninə dair **8** tapşırıq: bunlardan cavablarının kodlaşdırılması tələb olunan açıq tipli **1** və qapalı tipli **7** tapşırıq; Qrammatika və leksikaya dair **13** tapşırıq: bunlardan cavablarının kodlaşdırılması tələb olunan açıq tipli **1** və qapalı tipli **12** tapşırıq; Şəkillər əsasında hekayə qurmaq tələb edən **1** yazılı tapşırıq. Cəmi: 26 tapşırıq	Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq; Qapalı tipli 16 tapşırıq; Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 və qapalı tipli 4 tapşırıq. Cəmi: 30 tapşırıq
Tədris dili (Azərbaycan, rus və ya gürcü dili)	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq (cəmi 20 tapşırıq). Cəmi: 30 tapşırıq	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq (cəmi 20 tapşırıq). Cəmi: 30 tapşırıq
Riyaziyyat	Qapalı tipli 15 tapşırıq; Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 6 tapşırıq; Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq. Cəmi: 25 tapşırıq	Qapalı tipli 13 tapşırıq; Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq; Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq. Cəmi: 25 tapşırıq
Cəmi	81 tapşırıq (63 qapalı tipli, cavablarının kodlaşdırılması tələb olunan açıq tipli 8, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 8,doğru və ya yanlış cavabın seçilməsi tələb olunan 1 və şəkillər əsasında hekayə qurmaq tələb olunan 1 yazılı tapşırıq)	85 tapşırıq (56 qapalı tipli, cavablarının kodlaşdırılması tələb olunan açıq tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 24 tapşırıq)

Balların hesablanması qaydaları aşağıdakı cədvəllərdə təqdim olunub:

9-cu siniflərin buraxılış imtahanı üzrə balların hesablanma qaydası Cədvəl 5.2

Fənn	Maksimal bal	Test tapşırıqlarının sayı	Bal
Tədris dili (Azərbaycan, rus və ya gürcü dili)	**100**	**30 tapşırıq** (qapalı tipli 26 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{34}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$
Riyaziyyat	**100**	**25 tapşırıq** (qapalı tipli 15, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 6 və həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{29}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+$ $+n_{d(qapalı)})$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	**100**	**26 tapşırıq** (qapalı tipli 22, doğru və ya yanlış cavabın seçilməsi tələb olunan 1, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 2 və şəkillər əsasında hekayə qurmaq tələb olunan 1 yazılı tapşırıq)	$\frac{100}{30}\cdot(n_{d(açıq,\ kod)}+n_{d(qapalı)}+$ $+n_h+n_{d/y})$

Cədvəl 5.3

11-ci siniflərin buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənnin adı	Maksimal bal	Tapşırıqların sayı	Bal
Tədris dili (Azərbaycan, rus və ya gürcü dili)	100	**30 tapşırıq** (qapalı tipli 20 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 10 tapşırıq)	$\frac{5}{2}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$
Riyaziyyat	100	**25 tapşırıq** (qapalı tipli 13 tapşırıq, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 və həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq)	$\frac{25}{8}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+n_{d(qapalı)})$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	100	**30 tapşırıq** (qapalı tipli 23 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 7 tapşırıq)	$\frac{100}{37}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$

Qeyd 1: $n_{d(açıq,\ kod)}$ – cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ – qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ – yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.
n_h – hekayə qurmaq tələb edən yazılı tapşırığa verilən bal;
$n_{d/y}$ – doğru və yanlış cavabın seçilməsi tələb olunan tapşırıq üzrə bal

Qeyd 2: Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.

Qeyd 3: Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqları markerlər meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirə bilər.

Qeyd 4: Hekayə qurulması tələb olunan tapşırıq markerlər meyarlar əsasında 0, 1, 1.5, 2, 2.5, 3, 3.5, 4, 4.5 və ya 5 balla qiymətləndirə bilər.

Ötən ildə olduğu kimi, bu il də həm 9-cu, həm də 11-ci siniflər üzrə buraxılış imtahanında dinləmə mətnlərinə aid test tapşırıqlarından istifadə olunub. Həmin mətnlər DİM-in səsyazma studiyasında səsləndirilib və arxivləşdirilib.

İmtahanda şagirdlərə hər bir xarici dil fənni üzrə 1 dinləmə mətni təqdim olunub. Audioqurğuya yazılmış həmin mətn bütün imtahan zallarına hərəsində bir audioqurğu olmaqla paylanıb. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılıb və işə salınıb. Dinləmə mətni üzrə təqdim olunan tapşırıqlarla tanış olmaları üçün 9-cu sinif şagirdlərinə 3 dəqiqə, 11-ci sinif şagirdlərinə isə 2 dəqiqə vaxt ayrılıb. Sonra dinləmə mətni 9-cu sinif şagirdləri üçün 3 dəqiqəlik, 11-ci sinif şagirdləri üçün isə 2 dəqiqəlik fasilə ilə 2 dəfə səsləndirilib.

Şagirdlərin yazılı və ətraflı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə işlərini markerlər kompüterlərdə yoxlayıb. Yoxlama prosesi DİM-in əməkdaşlarının hazırladığı "Onlayn Marker Sistemi" proqram təminatından istifadə olunmaqla həm onlayn şəkildə, həm də Mərkəzin xüsusi təchiz olunmuş kompüter otaqlarında həyata keçirilmişdir. Yoxlama prosesinin bütün mümkün mərhələləri avtomatlaşdırılmış və zəruri təhlükəsizlik tədbirləri görülmüşdür. Belə ki, hər bir şagirdin cavab vərəqi proqram vasitəsi ilə ayrı-ayrı tapşırıqlara bölünərək hər bir tapşırıq fərqli markerlərə göndərilmiş və markerin qarşısında oturduğu kompüterin ekranında şagird haqqında heç bir məlumat olmamış, yəni tapşırığı kimin cavablandırdığı tam məxfi saxlanılmışdır. Bundan başqa, tapşırıq üzrə eyni bir iş ən azı iki marker tərəfindən yoxlanılmış, bu markerlərin qiymətləri üst-üstə düşmədiyi halda növbəti markerə müraciət olunmuş, proses ən azı 2 markerin eyni işə verdikləri qiymətlər üst-üstə düşənə qədər davam etdirilmişdir.

Qeyd edək ki, cari ildə 9-cu siniflərin buraxılış imtahanlarında xarici dil fənnindən yeni imtahan modeli tətbiq olunmuşdur. Belə ki, yazılı və ətraflı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqların əvəzinə şagirdlərə şəkillər əsasında hekayə qurulması tələb olunan bir tapşırıq təqdim olunmuşdur. Bu tapşırıqda şagirdlər sual kitabçasında verilmiş şəkillərə əsasən kiçikhəcmli (35 sözdən ibarət) hekayə yazıblar. Hekayə qurmaq tələb olunan tapşırıqların yoxlanılması esse tipli tapşırıqların yoxlanılması ilə eyni qaydada aparılmışdır. Belə ki, şagirdlərin şəkillərə əsasən qurub yazdıqları hekayələr (mətnlər) markerlər tərəfindən 5 ballıq şkalada 4 meyar əsasında (məzmun, ardıcıllıq/məntiqi rabitə, qrammatika və söz ehtiyatı) qiymətləndirilmişdir.

Bundan əlavə, imtahanda 9-cu sinif şagirdlərinə xarici dil fənni üzrə dinləmə mətninə aid verilmiş fikrin doğru və ya yanlış olmasını müəyyənləşdirməyi tələb edən bir test tapşırığı da təqdim olunub. Bu tip test tapşırığında ümumilikdə 4 mülahizə olub. Şagirdin mülahizələrə dair verdiyi bütün cavablar doğru olduğu halda bu, 1 (tam) balla, 3 mülahizəyə dair verdiyi cavab doğru olduqda 0.5 (yarım) balla, iki və ya daha az mülahizəni doğru cavablandırdıqda isə 0 (sıfır) balla qiymətləndirilib. Həmçinin şagirdlərə xarici dil fənnindən kodlaşdırılması tələb olunan açıq tipli (seçim) 2 tapşırıq da təqdim edilmişdir.

Hər imtahanın nəticələri elan edilərkən şəffaflıq məqsədi ilə şagirdlərin elektron səhifəsində onun yazı işinin skan versiyası, qiymətləndirmə meyarları və hər tapşırıq üzrə aldığı qiymətlər yerləşdirilmişdir. Nəticələrin elanından sonra fənn mütəxəssislərinin də daxıl olduğu Apellyasiya Komissiyaları təşkil olunmuş, müraciətlər araşdırılmış, haqlı iradlar nəzərə alınmış, əsassız iradlar üzrə isə şagirdlərə yazı işində səhvləri göstərilməklə müvafiq izah verilmişdir. Qeyd edək ki, Apellyasiya Komissiyalarına ərizə qəbulu, apellyasiya prosesi və müraciətlərin cavablandırılması onlayn rejimdə həyata keçirilmişdir.

Aşağıda təqdim olunan 5.4 və 5.5 saylı cədvəllərdə həm 9-cu, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında açıq tipli test tapşırıqlarının yoxlanılması prosesi haqqında statistik məlumat verilir:

Cədvəl 5.4

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat
(9-cu siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri					Ümumi
	Azərbaycan dili	**Rus dili**	**Gürcü dili**	**Riyaziyyat**	**Xarici dil**	
Tapşırıqların ümumi sayı	596460	56664	492	656576	164146	1474338
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	193402 (32.42)	7929 (13.99)	279 (56.71)	401596 (61.17)	84001 (51.17)	687207 (46.61)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	403058	48735	213	254980	80145	787131
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda başqa marker(lər) tərəfindən də yoxlanılır)*	877541	110321	556	528992	192922	1710332
Orta hesabla bir tapşırığın yoxlanma sayı	2.18	2.26	2.61	2.07	2.41	2.17
Yoxlama prosesində iştirak edən markerlərin sayı	299	47	6	149	312	759
Orta hesabla bir markerə düşən yoxlama sayı	2934.92	2347.26	92.67	3550.28	618.34	2253.40

Cədvəl 5.5

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (11-ci siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri					Ümumi
	Azərbaycan dili	Rus dili	Gürcü dili	Riyaziyyat	Xarici dil	
Tapşırıqların ümumi sayı	1330210	124860	850	1021475	1048125	3525520
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	335334 (25.21)	20961 (16.79)	397 (46.71)	653169 (63.94)	489334 (46.69)	1499195 (42.52)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	994876	103899	453	368306	558791	2026325
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda başqa marker(lər) tərəfindən də yoxlanılır)*	2178678	230732	1057	762690	1173849	4347006
Orta hesabla bir tapşırığın yoxlanma sayı	2.19	2.22	2.33	2.07	2.10	2.15
Yoxlama prosesində iştirak edən markerlərin sayı	371	48	5	169	383	911
Orta hesabla bir markerə düşən yoxlama sayı	5872.45	4806.92	211.40	4512.96	3064.88	4771.69

İmtahanın ümumi müddəti həm 9-cu, həm də 11-ci siniflər üzrə 3 saat (tədris dili Azərbaycan, rus və gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri üçün imtahanın müddəti 2 saat) müəyyən edilmişdir.

Buraxılış imtahanlarından əvvəl şagirdlərə kömək məqsədi ilə tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən tapşırıq nümunələri hazırlanmış, yazı işinin qiymətləndirilməsi üçün meyarlar müəyyənləşdirilmiş və DİM-in internet saytında yerləşdirilmişdir.

İmtahanlar şagirdlərin rahatlığının təmin olunması üçün yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir. Cari ildə 9-cu və 11-ci siniflərin buraxılış imtahanları 1149 imtahan mərkəzində təşkil olunmuşdur. İmtahanların təhlükəsizliyinin təmin olunması məqsədi ilə binalara buraxılış rejimini təşkil etmək üçün Daxili İşlər Nazirliyinin xətti ilə, həmçinin müsahibədən keçərək fərdi qaydada seçilmiş 3617 nəfər, imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanıb möhürlənməsinə isə 417 nəfər cəlb olunmuşdur.

İmtahanın idarə olunması üçün hər bir rayonda yerli məktəblərin müəllimlərindən ibarət nəzarətçilər seçilmiş, DİM-in əməkdaşları imtahandan əvvəl onlar üçün yerlərdə təlimlər keçmişdir. Ümumiyyətlə, imtahan prosesində respublikanın ümumi təhsil müəssisələrinin müəllimləri arasından 24655 nəfər nəzarətçi, ayrı-ayrı dövlət strukturlarının mütəxəssisləri arasından 3783 nəfər imtahan rəhbəri qismində iştirak etmişdir.

Hər buraxılış imtahanından sonra DİM-də və onun regional bölmələrində vətəndaşların buraxılış imtahanları ilə bağlı müraciətlərinə baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Buraxılış imtahanlarında cari ilin 268008 məzunu iştirak etmişdir. Onların 156231-i (3 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) 9-cu, 111777-si (3 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) isə 11-ci sinif şagirdləri olub. Qeyd edək ki, 2025-ci ildə respublika üzrə 9-cu və 11-ci sinif şagirdlərinin ümumi sayı müvafiq olaraq 157789 və 112252 nəfər olub. Göründüyü kimi, buraxılış imtahanlarında bu və ya digər səbəblərdən 2033 nəfər (9-cu və 11-ci siniflər üzrə müvafiq olaraq 1558 və 475 nəfər) iştirak etməmişdir.


9-cu siniflər üzrə buraxılış imtahanlarında iştirak edən cari ilin məzunlarından 141499-u (90.57%-i) Azərbaycan, 13894-ü (8.89%-i) rus, 715-i ingilis (0.46%-i) və 123-ü (0.08%-i) isə gürcü bölməsinin şagirdləri olub. 11-ci siniflər üzrə buraxılış imtahanlarında iştirak edən cari ilin məzunları üçün bu göstəricilər müvafiq olaraq, 100289 (89.72%), 10747 (9.61%), 656 (0.59%) və 85 (0.08%) nəfər olmuşdur.

Təəssüf ki, şagirdlər arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunmuşdur. Beləliklə 9-cu sinif şagirdləri arasında 6 nəfər olub. Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən bu faktın, əslində, daha çox olduğunu ehtimal etmək olar. Rayonlar üzrə oxumağı və yazmağı bacarmayan 9-cu sinif şagirdlərinin sayı belədir: Gəncə şəhəri, Balakən, Beyləqan, Ağsu, Zərdab və Suraxanı rayonlarının hərəsində 1 nəfər.

9-cu sinif üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. Buraxılış imtahanında iştirak edən ortastatistik şagird bütövlükdə tədris dili fənni üzrə 51.89, riyaziyyat fənni üzrə 31.33, xarici dil fənni üzrə 38.88 bal toplayıb və ümumi balı 121.95-ə bərabər olub. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə balı (faizlə) tədris dili fənnindən 46.10, riyaziyyat fənnindən 10.06, xarici dil fənnindən (şəkillər əsasında hekayə qurmaq tələb olunan yazılı tapşırıq üzrə) 21.48-dir. Qapalı tipli test tapşırıqları üzrə isə bu göstərici tədris dili fənnindən 53.68-ə, riyaziyyat fənnindən 46.19-a və xarici dil fənnindən 43.04-ə bərabər olub. Riyaziyyat fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) 22.58, xarici dil fənnindən isə 37.41-dir. Qeyd edək ki, xarici dil fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) hesablanarkən iki seçim açıq tipli tapşırıq ilə yanaşı, verilmiş fikir üzrə doğru və ya yanlış cavabın seçilməsi tələb olunan tapşırıq da nəzərə alınıb.

Aşağıdakı diaqramda hər bir fənn üzrə şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilir.

Diaqramda təqdim olunan nəticələr xarici dil fənni üzrə yüksək bal toplayan şagirdlərin nisbi payında ötən illə müqayisədə artım olduğunu göstərir. Cari ildə şagirdlərin 10.91%-i 60–80 bal, 12.79%-i isə 80–100 bal intervalında nəticə əldə etmişdir. Ötən ildə bu göstəricilər müvafiq olaraq 8.39% və 6.39% təşkil etmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, cari ildə xarici dil fənnindən yeni imtahan modeli tətbiq olunmuşdur. Belə ki, əvvəlki illərdə xarici dil fənnindən yazılı və ətraflı cavablandırılması tələb olunan 4 açıq tipli tapşırıq (markerlər tərəfindən yoxlanılan) tətbiq olunduğu halda, cari ildə onların əvəzinə şəkillər əsasında hekayə qurmaq tələb olunan 1 yazılı tapşırıqdan istifadə edilmişdir. Məlumdur ki, xarici dil fənni üzrə bilik və bacarıqlar qiymətləndirilərkən elə növ test tapşırıqlarından istifadə edilməldir ki, bu tapşırıqlar şagidlərin qrammatika bilikləri ilə yanaşı, imtahan verdikləri xarici dildə öz fikirlərini daha sərbəst şəkildə ifadə etmək, mətn qurmaq və əsaslandırmaq bacarıqlarını da yoxlasın. Şəkillərə əsaslanaraq hadisəni təsvir edib hekayə qurmaq tələbi şagirdlərdən yalnız qrammatika biliklərini deyil, həm də kifayət qədər söz ehtiyatına malik olmağı və öz fikirlərini yazılı şəkildə aydın və ardıcıl ifadə etmək bacarığını tələb edir. Təbii olaraq, bu bacarıqlara müəyyən səviyyədə malik olan şagirdlər tapşırığın tələblərini daha rahat qarşılayaraq, fikirlərini sərbəst şəkildə ifadə etməyə çalışırlar. Bu tendensiya şagirdlərin şəkillər əsasında hekayə qurmaq tələb olunan yazılı tapşırıq üzrə nəticələrində də aydın şəkildə müşahidə olunur. Belə ki, ötən il xarici dil fənnindən yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə şagirdlərin orta balı (faizlə) 12.52 olmuşdursa, cari ildə şəkillər əsasında hekayə qurmaq tələb olunan tapşırıq üzrə orta balı 21.48% olmuşdur.




Şəkil 5.1

Aşağıdakı cədvəldə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədris dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə imtahan nəticələri təqdim olunur:

Cədvəl 5.6

Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	137627	1175	44609	37860	18254	16288	19441
	(100.00)	0.85	32.41	27.51	13.26	11.83	14.13
Fransız	2287	31	1305	664	181	77	29
	(100.00)	1.36	57.06	29.03	7.91	3.37	1.27
Alman	1127	9	440	349	172	105	52
	(100.00)	0.80	39.04	30.97	15.26	9.32	4.61
Ərəb	6	0	5	1	0	0	0
	(100.00)	0.00	83.33	16.67	0.00	0.00	0.00
Rus	15054	249	8398	4142	1263	555	447
	(100.00)	1.65	55.79	27.51	8.39	3.69	2.97
Azərbaycan dili (dövlət dili)	14722	8	1105	2530	3535	4580	2964
	(100.00)	0.05	7.51	17.19	24.01	31.11	20.13

11-ci sinif üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. İmtahanda iştirak edən ortastatistik şagird tədris dili fənni üzrə 55.93, riyaziyyat fənni üzrə 33.05, xarici dil fənni üzrə 43.63 bal toplayıb və ümumi balı 132.37-yə bərabər olub. Aşağıdakı diaqramda hər bir fənn üzrə şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib. Göründüyü kimi, şagirdlərin imtahanda əldə etdikləri nəticələr qənaətbəxş deyil. 9-cu sinfin buraxılış imtahanında olduğu kimi, 11-ci siniflər üzrə buraxılış imtahanında da şagirdlərin bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə xidmət edən tapşırıqları yerinə yetirməkdə çətinlik çəkdikləri görünür. Fənlər üzrə qapalı və açıq tipli tapşırıqların nəticələrini müqayisə etdikdə müəyyən olur ki, bu göstəricilər arasında böyük fərq var. Xüsusilə, riyaziyyat fənni üzrə bu fərq daha böyükdür. Belə ki, ortastatistik şagirdin yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə balı (faizlə) tədris dili fənnindən 56.93, riyaziyyat fənnindən 18.98, xarici dil fənnindən 25.04-dür. Qapalı tipli test tapşırıqları üzrə isə bu göstərici tədris dili fənnindən 54.93-ə, riyaziyyat fənnindən 51.09-a və xarici dil fənnindən 54.96-ya bərabər olub. Riyaziyyat fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) 25.47-dir. Bütün bu təhlillərdən belə qənaətə gəlmək olar ki, ümumtəhsil məktəblərində kurikulumun tətbiqi çox zəifdir və şagirdlərə aşılanan bacarıq və vərdişlər lazımi səviyyədə deyil.



Şəkil 5.2

Aşağıdakı cədvəldə tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədris dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə imtahan nəticələri təqdim edilir:

Cədvəl 5.7


Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	98371	455	25301	20447	19279	15883	17006
	(100.00)	0.46	25.72	20.79	19.60	16.15	17.29
Fransız	1597	67	829	342	261	76	22
	(100.00)	4.20	51.91	21.42	16.34	4.76	1.38
Alman	835	13	353	188	153	83	45
	(100.00)	1.56	42.28	22.51	18.32	9.94	5.39
Ərəb	13	0	4	1	1	4	3
	(100.00)	0.00	30.77	7.69	7.69	30.77	23.08
Rus	10932	394	5948	2213	1273	537	567
	(100.00)	3.60	54.41	20.24	11.64	4.91	5.19
Azərbaycan dili (dövlət dili)	11458	4	467	983	1842	4451	3711
	(100.00)	0.03	4.08	8.58	16.08	38.85	32.39

Buraxılış imtahanlarında istifadə edilən tapşırıqların etibarlılığı klassik test nəzəriyyəsi əsasında təhlil olunmuşdur. 9-cu siniflər üzrə buraxılış imtahanında fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.90-0.96 (Küder-Riçardson (KR-20)), 11-ci siniflər üzrə buraxılış imtahanında isə 0.92-0.97 (KR-20) hüdudlarında yerləşir. Göründüyü kimi, bu il buraxılış imtahanlarında fənlər üzrə istifadə edilən testlər kifayət qədər etibarlı olmuşdur. Bundan başqa, hər bir imtahan zonasında istifadə edilən buraxılış imtahanı testlərinin Split-Half metodu və Mosye (Mosier) düsturu əsasında bütövlükdə etibarlılıq əmsalları da hesablanmışdır. İmtahan zonaları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, buraxılış imtahanı testlərinin etibarlılıq əmsalları 9-cu siniflər üzrə 0.89-0.97, 11-ci siniflər üzrə 0.92-0.98 intervallarında yerləşir. Təqdim edilən rəqəmlər sübut edir ki, 2025-ci ildə buraxılış imtahanlarında hər bir imtahan zonası üzrə tərtib edilmiş testlər çox yüksək etibarlılıq xassəsinə malikdir.

DİM buraxılış imtahanlarında şagirdlərə təqdim olunan testlərin məzmununu elə layihələşdirmişdi ki, aşağı və orta qabiliyyətlərin ölçülməsində maksimal dəqiqlik təmin edilsin. 5.1 saylı qrafikdə şagirdlərin Azərbaycan dili fənni üzrə bilik və bacarıq səviyyələrinə görə paylanması və hər bir test tapşırığına düşən informasiya əyrisi təqdim edilib. Həmin informasiya əyrisini və histoqramı müqayisə etdikdə, test tapşırıqlarının qabiliyyət səviyyələrinə görə daha çox şagirdin cəmləşdiyi hissədə bizə geniş informasiya verdiyini görürük. Bu isə imtahan verən şagirdlərin çoxunun qabiliyyətinin maksimum dəqiqliklə ölçülməsinə imkan verir. Qeyd olunan xüsusiyyətlər riyaziyyat fənni üzrə testlərdə müşahidə edilmir. 5.3 saylı qrafikdən də göründüyü kimi, kurikulumun tələbləri səviyyəsində tərtib edilmiş bu testlər 0.85 loqitdə yerləşən şagirdlərin bilik və bacarıqları haqqında maksimal informasiya əldə etməyə imkan verir. Qrafikdəki histoqrama nəzər saldıqda isə, demək olar ki, şagirdlərin yarısının qabiliyyət səviyyələrinin -1.15 loqitdən aşağıda yerləşdiyinin şahidi oluruq. Bunun başlıca səbəbi ümumtəhsil məktəblərində kurikulum üzrə dərslərin hələ də qənaətbəxş şəkildə tədris olunmamasıdır.


5.2 saylı qrafikdə Azərbaycan dili fənni, 5.4 saylı qrafikdə riyaziyyat fənni və 5.5 saylı qrafikdə ingilis dili fənni üzrə şagirdlərin buraxılış imtahanında müxtəlif tipli test tapşırıqları üzrə əldə etdikləri nəticələr arasındakı əlaqə göstərilib. Qrafiklərdən də göründüyü kimi, riyaziyyat fənnindən qapalı tipli və cavabları kodlaşdırılan açıq tipli test tapşırıqları üzrə orta nəticə göstərən şagirdlər belə, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə çox zəif nəticə göstəriblər. Azərbaycan dili və ingilis dili fənləri üzrə buna bənzər mənzərənin şahidi olsaq da, bu fənlər üzrə vəziyyət nisbətən yaxşıdır.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI
(11-ci siniflər üzrə buraxılış imtahanı)




Qrafik 5.1

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ
(11-ci siniflər üzrə buraxılış imtahanı)




Qrafik 5.2

RİYAZİYYAT FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.3


RİYAZİYYAT FƏNNİNDƏN ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ (11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.4

İNGİLİS DİLİ FƏNNİNDƏN ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.5

Buraxılış və qəbul imtahanlarının nəticələri əsasında eyni bir məzunun həm buraxılış, həm də qəbul imtahanlarındakı nəticələri arasında stoxastik əlaqənin xarakteri də araşdırılmışdır (5.8 saylı cədvəl).

Cədvəl 5.8

BURAXILIŞ VƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI


İXTİSAS QRUPU	Ana dili	Riyaziyyat
I	---	0.873
II	---	0.877
III	0.793	---

Cədvəldən göründüyü kimi, buraxılış və qəbul imtahanının nəticələri arasında əhəmiyyətli sayıla bilən statistik əlaqə mövcuddur. Korrelyasiya əmsalının bu göstəricilərini əsas götürdükdə, ortaya belə bir sual çıxır: yalnız eyni bir testin nəticələrindən həm yekun attestasiyanın, həm də ali təhsil müəssisələrinə tələbə qəbulunun aparılmasında istifadə etmək olarmı? Fikrimizcə, bu cür istifadə heç bir halda düzgün deyil. Belə ki, qəbul imtahanı testləri aşağı qabiliyyət intervalında qiymətləndirmədə yüksək dəqiqliyi təmin etmir. Buraxılış imtahanı testləri isə orta və yüksək qabiliyyət intervalında qiymətləndirmədə kifayət qədər effektiv deyil. Başqa sözlə, əgər biz qəbul imtahanı testlərini buraxılış imtahanında iştirak edən məzunlara təqdim etsək, o zaman məzunların çoxu müsbət qiymət ala bilməz və qiymətləndirmənin də keyfiyyəti aşağı olar. Buraxılış imtahanı testlərinin ali təhsil müəssisələrinə qəbul imtahanlarında istifadəsi isə orta və yüksək qabiliyyət səviyyəsinə malik olan abituriyentlərin diferensiasiyasının (bir-birindən fərqləndirilməsinin) keyfiyyətli aparılmasına mənfi təsir göstərər. Nəzərə alınmalıdır ki, keyfiyyətli aparılan qəbul imtahanı sistemi təhsilin keyfiyyətinin yüksəlməsinə təsir göstərən ən mühüm stimullaşdırıcı faktorlardan biridir.

5.6 saylı qrafikdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticəsi əsasında müsabiqədə iştirak edən abituriyentlərin buraxılış imtahanı testləri üzrə düzgün cavablarının paylanması (histoqramı) təqdim edilmişdir. Qrafikdən göründüyü kimi, ana dili və xarici dil fənləri üzrə balların paylanma histoqramları soltərəfli asimmetriyaya malikdir. Riyaziyyat fənni üzrə isə şagirdlərin kurikuluma əsaslanan tapşırıqların yerinə yetirilməsindəki çətinlikləri onların nəticələrinə də öz təsirini göstərib. Bu fənn üzrə şagirdlərin ballarının paylanma histoqramı normal paylanmaya yaxındır. Məlum olduğu kimi, yüksək hazırlıqlı abituriyentləri fərqləndirmək üçün paylanma sağtərəfli asimmetriyaya malik olmalıdır, yəni düzgün cavablandırılan test tapşırıqlarının sayı artdıqca yüksək bal toplayan abituriyentlərin sayı azalmalıdır. Bu da bir daha göstərir ki, buraxılış imtahanında yüksək hazırlıqlı abituriyentlərin diferensiasiyası zəifdir və bu

abituriyentlərin bilik və bacarıqları haqqında daha dəqiq məlumat almaq üçün qəbul imtahanının keçirilməsi labüddür.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ƏSASINDA MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN BURAXILIŞ İMTAHANI TESTLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ PAYLANMASI



Qrafik 5.6

5.9 və 5.10 saylı cədvəllərdə 9-cu və 11-ci sinif şagirdlərinin buraxılış imtahanlarındakı nəticələri təhsil sektorları üzrə təqdim edilmişdir. Göründüyü kimi, buraxılış imtahanlarında həm 9-cu, həm də 11-ci sinif şagirdləri arasında ən yüksək nəticələri Elm və Təhsil Nazirliyi (ETN) tabeli liseylərin və özəl liseylərin şagirdləri əldə etmişdir. 9-cu və 11-ci siniflərin buraxılış imtahanlarında ETN tabeli liseylərin və özəl liseylərin şagirdlərinin bütün fənlər üzrə topladıqları orta bal müvafiq olaraq 213.34-ə və 207.53-ə bərabər olub. Xatırladaq ki, maksimal toplanıla biləcək bal həm 9-cu, həm də 11-ci siniflər üzrə 300-ə bərabərdir.

9-cu siniflər üzrə buraxılış imtahanında bölgələr arasında ən yüksək nəticəni Sumqayıt, Naxçıvan və Bakı şəhərlərinin, Şahbuz, Oğuz rayonlarının, Mingəçevir şəhərinin, Qubadlı və Abşeron rayonlarının şagirdləri göstərmişlər. Bu bölgələrin ortastatistik şagirdlərinin göstəriciləri müvafiq olaraq 149.34, 143.08, 139.69, 139.33, 133.60, 133.43, 131.29 və 131.21 bala bərabər olmuşdur. Ən aşağı göstəricilər isə Ağcabədi, Daşkəsən, Sabirabad, Saatlı və Cəlilabad rayonlarının şagirdlərinə (müvafiq olaraq, 89.71, 89.30, 89.26, 88.40 və 85.43 bal) məxsus olub.

11-ci siniflər üzrə buraxılış imtahanında ən yüksək nəticəni Naxçıvan şəhərinin, Qubadlı rayonunun, Sumqayıt şəhərinin, Bakı şəhərinin, Ordubad rayonunun şagirdləri əldə etmişlər (müvafiq olaraq 158.37, 156.58, 154.31, 149.12 və 147.05 bal). Ən aşağı göstəricilər isə Ağsu, Cəlilabad, Xocalı, Tərtər və Daşkəsən rayonlarının şagirdlərinə (müvafiq olaraq, 97.76, 96.79, 96.65, 94.72 və 87.83 bal) məxsusdur.

9-cu və 11-ci sinif şagirdlərinin ayrı-ayrı fənlər üzrə nəticələrinə nəzər salsaq görərik ki, ən yaxşı nəticələri ETN tabeli liseylərin və özəl liseylərin şagirdləri göstərmişdir. ETN tabeli liseylərin və özəl liseylərin 9-cu sinif şagirdlərinin tədris dili fənni üzrə orta balı 76.84%-ə, riyaziyyat fənni üzrə 58.62%-ə, xarici dil fənni üzrə 73.11%-ə bərabər olmuşdur. 11-ci sinif şagirdlərinin isə tədris dili fənni üzrə düzgün cavablarının faizi 72.28, riyaziyyat fənni üzrə 57.61, xarici dil fənni üzrə 74.61 təşkil etmişdir.

Regionlar üzrə 9-cu sinif şagirdləri arasında tədris dili fənnindən ən yaxşı nəticələr Sumqayıt şəhərinin (59.68), Oğuz (58.86), Bakı şəhərinin (58.50), Şahbuz rayonunun (56.93) və Mingəçevir şəhərinin (56.13), riyaziyyat fənnindən Sumqayıt şəhərinin (39.27), Naxçıvan şəhərinin (38.79), Naftalan şəhərinin (37.56), Culfa rayonunun (37.01), Şahbuz rayonunun (36.66), xarici dil fənnindən isə Sumqayıt (50.39), Naxçıvan (48.67), Bakı (46.76) şəhərlərinin, Şahbuz (45.74) və Abşeron (44.11) rayonlarının şagirdlərinə məxsusdur. Tədris dili fənni üzrə ən aşağı nəticələri Kürdəmir (40.00), Cəlilabad (39.54), Saatlı (38.83) rayonlarının, riyaziyyat fənni üzrə Saatlı (22.62), Ağcabədi (22.46), Cəlilabad (22.34) və Daşkəsən (22.24) rayonlarının, xarici dil fənni üzrə isə Yardımlı (24.84), Sabirabad (24.68), Ağsu (24.34) və Cəlilabad (23.55) rayonlarının şagirdləri göstərmişdir.

11-ci sinif şagirdləri arasında tədris dili fənni üzrə ən yaxşı göstəricilər Qubadlı (65.79), Ordubad (65.25) rayonlarının, Naxçıvan (64.74) şəhərinin, İsmayıllı (63.25) rayonunun, Sumqayıt (63.04) şəhərinin, riyaziyyat fənni üzrə Naxçıvan (40.39), Sumqayıt (39.49) şəhərlərinin, Culfa (38.88) rayonunun, Naftalan (38.52) şəhərinin və Qubadlı (38.47) rayonunun, xarici dil fənni üzrə Naxçıvan (53.24) şəhərinin, Qubadlı (52.32) rayonunun, Bakı (52.24) və Sumqayıt (51.78) şəhərlərinin şagirdlərinə məxsusdur. Tədris dili fənni üzrə ən aşağı göstərici Yevlax (44.78), Kürdəmir (44.61), Gədəbəy (44.24), Tərtər (41.64) və Daşkəsən (40.36) rayonlarının, riyaziyyat fənni üzrə Ağcabədi (23.86), Tərtər (22.65), Daşkəsən (22.38) və Xocalı (18.87) rayonlarının, xarici dil fənni üzrə Yardımlı (27.43), Ağsu (26.43), Cəlilabad (25.96) və Daşkəsən (25.09) rayonlarının şagirdlərinə aiddir.

Cədvəl 5.9

9-CU SİNİF ŞAGİRDLƏRİNİN BURAXILIŞ İMTAHANINDAKI GÖSTƏRİCİLƏRİ

№	Təhsil sektoru	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)			
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi
1	Liseylər (ETN tabeli və özəl)	4589 (3874)*	213.34	3874	76.80	76.96	76.84	4589	73.50	50.92	36.48	58.62	4589	75.03	71.96	65.35	73.11
2	Sumqayıt şəhəri	6115	149.34	6115	62.02	52.06	59.68	6115	52.84	34.91	17.11	39.27	6115	54.44	47.34	34.40	50.39
3	Naxçıvan şəhəri	1384	143.08	1384	58.68	45.69	55.63	1384	53.67	32.30	15.76	38.79	1384	52.58	47.71	32.03	48.67
4	Bakı şəhəri	45586 (45567)	139.69	45584	59.47	55.34	58.50	45584	50.19	24.83	12.02	34.41	45567	50.41	45.62	31.38	46.76
5	Şahbuz rayonu	166	139.33	166	60.59	45.03	56.93	166	53.65	29.42	10.24	36.66	166	50.08	51.20	23.37	45.74
6	Oğuz rayonu	555	133.60	555	60.54	53.41	58.86	555	46.47	29.34	13.26	33.76	555	45.90	37.96	21.12	40.98
7	Mingəçevir şəhəri	1576	133.43	1576	58.29	49.13	56.13	1576	46.89	28.47	12.70	33.64	1576	48.42	40.33	24.70	43.66
8	Qubadlı rayonu	1151	131.29	1151	55.49	44.23	52.84	1151	49.82	26.86	11.76	34.56	1151	47.90	42.37	27.17	43.89
9	Abşeron rayonu	7308 (7307)	131.21	7307	57.33	46.84	54.86	7307	45.76	26.59	11.14	32.23	7307	48.41	41.42	26.84	44.11
10	Naftalan şəhəri	144	128.74	144	55.56	38.83	51.62	144	54.07	32.41	10.47	37.56	144	45.01	41.32	14.51	39.56
11	Gəncə şəhəri	4469	126.89	4469	55.30	49.17	53.86	4469	45.97	22.06	8.98	30.81	4469	46.09	41.30	25.73	42.22
12	Culfa rayonu	481	125.98	481	54.90	38.50	51.04	481	52.57	31.57	11.94	37.01	481	42.54	38.77	17.11	37.93
13	Qax rayonu	700	124.89	700	53.22	39.16	49.91	700	50.32	29.21	12.04	35.39	700	44.29	38.43	19.63	39.59
14	Qəbələ rayonu	1616	121.69	1616	54.72	44.87	52.40	1616	44.96	27.10	13.00	32.44	1616	41.70	34.94	16.64	36.85
15	İsmayıllı rayonu	1143 (1137)	121.55	1143	55.13	58.15	55.84	1143	48.60	19.83	9.28	31.79	1137	37.61	34.17	16.06	33.68
16	Cəbrayıl rayonu	948	119.32	948	52.63	49.31	51.85	948	46.04	22.52	9.72	31.15	948	40.51	36.25	17.95	36.32
17	Zəngilan rayonu	567	118.65	567	51.14	42.82	49.18	567	45.64	21.78	9.36	30.69	567	42.95	38.36	20.63	38.77
18	Şəki rayonu	2342	118.47	2342	54.11	55.71	54.49	2342	48.74	16.94	9.10	31.22	2342	36.83	33.23	14.61	32.77
19	Laçın rayonu	1452	118.07	1452	52.41	44.99	50.66	1452	45.33	20.08	9.13	30.11	1452	41.51	36.56	19.25	37.3
20	Neftçala rayonu	936	117.69	936	54.21	44.42	51.91	936	43.05	23.95	8.65	29.60	936	41.17	34.28	15.41	36.19
21	Zaqatala rayonu	1633 (1631)	116.56	1633	50.08	37.82	47.19	1633	44.37	21.64	9.55	30.05	1631	43.42	37.68	22.58	39.37
22	Siyəzən rayonu	664	115.52	664	51.45	50.07	51.13	664	52.05	22.34	10.39	34.40	664	34.21	31.12	10.71	29.99
23	Balakən rayonu	1082	113.32	1082	48.39	35.62	45.38	1082	45.56	23.84	9.15	31.02	1082	41.56	35.81	17.13	36.92
24	Ordubad rayonu	457	112.99	457	51.58	37.58	48.29	457	47.91	25.35	9.04	32.51	457	36.43	34.28	12.28	32.19
25	Lerik rayonu	536 (505)	111.25	536	51.03	38.18	48.00	536	46.60	24.94	10.26	32.09	505	35.37	31.29	10.65	30.84
26	Qazax rayonu	1231	110.79	1231	49.42	46.64	48.76	1231	48.51	17.61	7.37	30.76	1231	35.44	30.65	13.27	31.26
27	Şirvan şəhəri	1263	110.48	1263	52.16	51.62	52.03	1263	44.00	12.95	5.72	27.00	1263	35.11	33.54	14.08	31.45
28	Kəlbəcər rayonu	1678 (1675)	110.30	1678	49.17	41.24	47.30	1678	42.71	17.56	7.31	27.73	1675	39.82	33.07	16.52	35.26
29	Kəngərli rayonu	355	110.26	355	49.52	33.67	45.79	355	48.38	24.74	8.43	32.46	355	37.06	35.54	7.69	32.01

* Mötərizədə hər üç fənn üzrə imtahanda iştirak edən məzunların sayı göstərilib

Cədvəl 5.9 (ardı)

№	Təhsil sektoru	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)			
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi
30	Şərur rayonu	872	109.96	872	48.21	32.14	44.43	872	47.17	22.95	7.30	31.15	872	39.15	36.26	12.24	34.37
31	Qusar rayonu	1412 (1400)	109.83	1412	50.04	45.23	48.90	1412	44.81	13.53	6.92	27.87	1400	36.52	30.83	18.21	32.9
32	Lənkəran rayonu	3074	109.33	3074	50.26	45.81	49.21	3074	41.60	17.73	7.38	27.21	3074	37.19	30.67	15.41	32.91
33	Qobustan rayonu	441	108.81	441	52.50	42.30	50.10	441	41.59	24.75	9.01	29.11	441	34.37	27.78	9.71	29.6
- yaşı 22-45 arasında olan;
- məhkumluğu olmayan və fiziki cəhətdən sağlam olan şəxslər.

Bunun üçün namizəd elektron qeydiyyatdan keçir, sənədlərin tələblərə uyğunluğu elektron qaydada DİM tərəfindən yoxlanılır, müsahibəyə dəvət olunur, ümumi intellekt səviyyəsi və situasiya mühakimə bacarıqları yoxlanılır, iki günlük ***imtahan prosesinin psixoloji xüsusiyyətləri və imtahanların texnologiyaları*** adlı təlimlərə cəlb edilir və imtahanların texnologiyası ilə bağlı yekun imtahandan keçir. Mərhələləri uğurla başa vuran namizədlər A və ya B kateqoriya sertifikat əldə edərərək zal nəzarətçiləri bazasına daxil edilir.

Nəzarətçilərlə praktik işin yekun mərhələsi imtahanlar mərhələsidir. Hər bir imtahandan

öncə:

- nəzarətçilər bazasından əvvəlki imtahanda fəaliyyəti "qeyri-kafi" qiymətləndirilən, proqram tərəfindən və ya imtahan rəhbəri tərəfindən köçürməyə şərait yaratdığı müəyyənləşdirilən, imtahan sənədləri ilə iş və auditoriyanın idarə edilməsi ilə bağlı haqqında neqativ rəy olan, üzrsüz olaraq imtahana gəlməyən nəzarətçilər cari bazadan çıxarılır;
- sonra kompüter proqramı vasitəsi ilə təsadüfi seçim qaydasında nəzarətçilərin binalar və zallar üzrə təyinatı aparılır, vəsiqələri hazırlanır və əlaqələndiricilər vasitəsi ilə nəzarətçilərə paylanır;
- imtahana bir neçə gün qalmış hər bir rayon (şəhər) üzrə cəlb edilən nəzarətçilərlə müvafiq imtahanın idarə edilməsi və texnologiyasına dair təlimlər keçirilir;
- sağlamlıq imkanları məhdud iştirakçılara təhkim edilmiş nəzarətçilərə də ayrıca təlim keçirilir.

sonra:

- imtahanın gedişi haqqında protokol qeydləri zal nəzarətçisi bazası proqramına daxil edilir;
- imtahanın gedişi haqqında protokollar nəzərdən keçirilərək imtahana gəlməyənlərin, imtahandan xaric olunanların siyahısı hazırlanır, imtahan zamanı baş vermiş xüsusi hallar araşdırılaraq müvafiq formada protokollaşdırılır və bunlara imtahan nəticələrinin emalı zamanı etibarlı hüquqi sənəd kimi müraciət edilir.

Hər bir imtahandan sonra zal nəzarətçilərinin fəaliyyəti barədə rəy və qiymətlər bazaya daxil edilir. Bu qiymətləndirmə iki istiqamətdə aparılır:

1) İmtahan sənədləri (imtahan rəhbərinin protokolu, imtahanın gedişi haqqında protokol, aktlar və s.), imtahan rəhbərləri və DİM nümayəndələrinin rəyləri, abituriyentlərin, valideynlərin, ictimaiyyətin, müxtəlif hökumət və qeyri-hökumət təşkilatlarının müraciəti əsasında aparılan araşdırma və qiymətləndirmə. Bu istiqamətdə aparılan qiymətləndirmə nəticəsində

- imtahana üzrsüz səbəbdən gəlməyən;
- imtahan zamanı imtahan rəhbərinin nəzarətçinin fəaliyyətini qiymətləndirməsinə dair rəyinə əsasən:
  - imtahan texnologiyasını və prosedur qaydalarını qeyri-qənaətbəxş səviyyədə bilən,
  - auditoriyanı idarəetmə qabiliyyəti zəif olan,
  - imtahan sənədləri ilə iş aparması lazımi səviyyədə olmayan,
  - abituriyentlər və imtahan rəhbəri ilə ünsiyyətində təlimat qaydalarını pozan,
  - imtahanın gedişi haqqında protokolun doldurulmasında ciddi səhvlərə yol verən,
- zallarında köçürmə halı olan nəzarətçilər cari bazadan, araşdırma aparıldıqdan sonra isə növbəti imtahanlara cəlb olunacaq nəzarətçilər bazasından çıxarılır və ya xəbərdarlıq edilir.

İmtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"na uyğun hərəkət edir. Bu meyarlar imtahan rəhbərinin zal nəzarətçisini obyektiv şəkildə qiymətləndirməsinə imkan verir.

2) Birinci istiqamətdə aparılan araşdırma və qiymətləndirmədə müəyyən subyektiv yanaşmaların ortaya çıxması mümkün olduğundan ikinci istiqamətdə imtahan zalında baş verən və imtahan rəhbərlərinin diqqətindən yayınan faktiki köçürmələrin müəyyənləşdirilməsində kompüter proqramına müraciət olunur. Kontingentin tərkibi, köçürülən fənnin sayı, köçürmədə iştirak edən abituriyentlərin sayı ilə bağlı parametrlər də təhlilə daxil edilərək nəzarətçinin köçürməyə hansı dərəcədə yol verdiyi müəyyənləşdirilir. Nəzarətçilərin yol verdiyi qayda pozuntuları ağır, orta və zəif dərəcə olmaqla üç səviyyədə qiymətləndirilir.

İmtahanlar yekunlaşdırıldıqdan sonra hər iki istiqamətdə aparılan qiymətləndirmələr ümumiləşdirilir. Nəzarətçilərin növbəti imtahanlara cəlb olunmasında əsas rol oynayan yekun qiymətlər bazaya daxil edilir. Fəaliyyəti qeyri-kafi qiymətləndirilən nəzarətçilər isə müəyyən dövr üçün və ya həmişəlik olaraq bazadan çıxarılır.

Qiymətləndirmənin yekun mərhələsində yuxarıdakı parametrlərlə yanaşı, qəbul imtahanında 600-dən yuxarı bal toplayan abituriyentlərin sorğu-anketlərində nəzarətçinin fəaliyyətinə verilən qiymətlərə də baxılır.

İmtahanlar yekunlaşdıqdan sonra zal nəzarətçilərinin fəaliyyətlərinin qiymətləndirilməsi və keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi ilə bağlı xüsusi araşdırma aparılır və hesabat-arayış hazırlanır.


Bunların nəticəsində imtahana cəlb edilmiş nəzarətçilər aşağıdakı kateqoriyalara ayrılır:

- fəaliyyəti əla qiymətləndirilənlər, o cümlədən fəxri fərmanlarla təltif olunanlar;
- fəaliyyəti yaxşı qiymətləndirilənlər;
- fəaliyyəti kafi qiymətləndirilənlər;
- fəaliyyəti qeyri-kafi hesab olunanlar, ciddi təlimat pozuntularına və köçürmə hallarına yol verənlər.

İl ərzində keçirilən müxtəlif imtahanlara, ilk növbədə, sertifikatlı zal nəzarətçiləri və fəaliyyəti yüksək qiymətləndirilən nəzarətçilər cəlb olunurlar. Bu da digər nəzarətçilərin daha yaxşı fəaliyyət göstərməsini stimullaşdırır. Araşdırmanın nəticələri ilə bağlı müvafiq rayon (şəhər) təhsil sektorlarına, ümumtəhsil müəssisələrinə məktublar ünvanlanır.

İndi isə nəzarətçilərin fəaliyyəti haqqında statistik məlumatlara diqqət yetirək. 2025-ci ildə keçirilən imtahanlara cəlb edilməsi nəzərdə tutulan nəzarətçilər bazası 15476 nəfərdən ibarət olmuşdur. Nəzarətçilərin 82,2%-i ümumi təhsil müəssisələrinin, 4,4%-i ali və orta ixtisas təhsili müəssisələrinin, 3,9%-i dövlət müəssisələrinin, 3,4%-i özəl müəssisələrin, 2,1%-i AMEA və digər tədqiqat institutlarının, 1,3%-i publik hüquqi şəxslərin əməkdaşlarıdır. Nəzarətçilər bazasının 2,7%-i isə iş yeri olmayan, lakin pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsilli əməkdaşlardan ibarətdir. Zal nəzarətçiləri bazasında sertifikatlı nəzarətçilərin ümumi sayı cari ildə 4600 nəfər (ümumi bazanın 29,7%-i) olmuşdur.

Zal nəzarətçiləri bazasınını iş yerinə görə tərkibi



Şəkil 1.

2025-ci ildə hesabat dövrü ərzində keçirilən imtahanlara cəlb olunmuş nəzarətçilərin rayonlar üzrə sayı ilə bağlı statistik məlumat cədvəl 1-də verilir:

Cədvəl 1

İMTAHANLARA CƏLB OLUNMUŞ NƏZARƏTÇİLƏRİN RAYONLAR (ŞƏHƏRLƏR) ÜZRƏ FAİZİ

Rayon (şəhər) və təşkilat	İmtahanlara cəlb olunmuş nəzarətçilərin sayı (nəfərlə)	Bazada nəzarətçilərin ümumi sayı (nəfərlə)	Cəlb olunmuş nəzarətçilərin (təkrarsız) bazaya nisbəti (%-lə)
Abşeron	512	524	97,7
Ağcabədi	181	235	77,0
Ağdam	101	117	86,3
Ağdaş	109	137	79,6
Ağstafa	120	124	96,8
Ağsu	55	82	67,1
AMEA	208	215	96,7
Astara	111	137	81,0
Babək	126	143	88,1
Balakən	117	141	83,0
Beyləqan	119	136	87,5
Bərdə	301	307	98,0
Biləsuvar	96	132	72,7
Binəqədi	656	689	95,2
Cəlilabad	216	238	90,8
Culfa	66	79	83,5
Daşkəsən	36	40	90,0
DİM	9	56	16,1

Cədvəl 1 (ardı)

Rayon (şəhər) və təşkilat	İmtahanlara cəlb olunmuş nəzarətçilərin sayı (nəfərlə)	Bazada nəzarətçilərin ümumi sayı (nəfərlə)	Cəlb olunmuş nəzarətçilərin (təkrarsız) bazaya nisbəti (%-lə)
Füzuli	87	99	87,9
Gədəbəy	90	121	74,4
Gəncə	500	536	93,3
Goranboy	166	179	92,7
Göyçay	184	189	97,4
Göygöl	86	104	82,7
Hacıqabul	86	97	88,7
Xaçmaz	265	269	98,5
Xətai	654	689	94,9
Xəzər	239	264	90,5
Xızı	19	22	86,4
Xocalı	5	6	83,3
İmişli	143	167	85,6
İsmayıllı	99	117	84,6
Kəngərli	46	61	75,4
Kürdəmir	134	140	95,7
Qax	74	92	80,4
Qaradağ	158	180	87,8
Qazax	147	161	91,3
Qəbələ	166	184	90,2
Qobustan	37	47	78,7
Quba	201	242	83,1
Qubadlı	53	57	93,0
Qusar	106	109	97,2
Laçın	7	9	77,8
Lerik	54	63	85,7
Lənkəran	305	311	98,1
Masallı	204	210	97,1
Mingəçevir	197	203	97,0
Naxçıvan	254	269	94,4
Neftçala	71	95	74,7
Nərimanov	342	362	94,5
Nəsimi	344	362	95,0
Nizami	362	392	92,3
Oğuz	52	64	81,3
Ordubad	48	80	60,0
Saatlı	99	119	83,2
Sabirabad	183	189	96,8
Sabunçu	622	650	95,7
Salyan	160	166	96,4
Samux	96	111	86,5
Səbail	199	207	96,1
Sədərək	15	25	60,0
Siyəzən	58	63	92,1

Cədvəl 1 (ardı)

Rayon (şəhər) və təşkilat	İmtahanlara cəlb olunmuş nəzarətçilərin sayı (nəfərlə)	Bazada nəzarətçilərin ümumi sayı (nəfərlə)	Cəlb olunmuş nəzarətçilərin (təkrarsız) bazaya nisbəti (%-lə)
Sumqayıt	683	708	96,5
Suraxanı	410	422	97,2
Şabran	66	71	93,0
Şahbuz	22	33	66,7
Şamaxı	132	137	96,4
Şəki	335	342	98,0
Şəmkir	313	333	94,0
Şərur	104	148	70,3
Şirvan	199	211	94,3
Şuşa	4	4	100,0
Tərtər	102	127	80,3
Tovuz	223	263	84,8
Ucar	89	102	87,3
Yardımlı	40	56	71,4
Yasamal	454	476	95,4
Yevlax	137	154	89,0
Zaqatala	191	196	97,4
Zəngilan	14	15	93,3
Zərdab	46	64	71,9
CƏMİ	**14120**	**15476**	**91,2**

Yuxarıdakı statistikaya əsasən deyə bilərik ki, respublika üzrə bazaya cəlb edilmiş müəllimlərdən hər 10 nəfərdən təxminən 9-u imtahana cəlb edilmişdir: 2905 nəfər 1 dəfə, 3720 nəfər 2 dəfə, 1738 nəfər 3 dəfə, 1248 nəfər 4 dəfə, 935 nəfər 5 dəfə, 720 nəfər 6 dəfə, 584 nəfər 7 dəfə, 560 nəfər 8 dəfə, 552 nəfər 9 dəfə, 453 nəfər 10 dəfə, 327 nəfər 11 dəfə, 219 nəfər 12 dəfə, 72 nəfər 13 dəfə, 44 nəfər 14 dəfə, 13 nəfər 15 dəfə, 9 nəfər 16 dəfə, 6 nəfər 17 dəfə, 8 nəfər 18 dəfə, 4 nəfər 19 dəfə, 3 nəfər 20 dəfə

Qəbul və buraxılış imtahanlarına nəzarətçilərin 86,6%-i (13404 nəfər) cəlb edilmişdir. Ayrı-ayrılıqda götürüldükdə isə qəbul imtahanlarının ikinci mərhələsinə 55,6%-i (8597 nəfər), buraxılış imtahanlarına isə 69,4%-i (10734 nəfər) cəlb edilmişdir.

Cari bazada zal nəzarətçisi sertifikatı almış 4600 nəzarətçidən qəbul və buraxılış imtahanlarına 4437 nəfər (sertifikatlı zal nəzarətçiləri bazasının 96,5%-i) cəlb edilmişdir.

Ümumilikdə qəbul və buraxılış imtahanlarına 14120 nəzarətçi 56110 dəfə (onlardan 58,2%-i (32663 dəfə) sertifikatlıdır)cəlb edilmişdir. Yəni ortalama hər bir sertifikatlı nəzarətçi qəbul və buraxılış imtahanlarına təxminən 7,4 dəfə cəlb edilmişdir. Bu göstərici sertifikatı olmayan nəzarətçilərlə (9683 nəzarətçi 23447 dəfə, yəni ortalama 2,4 dəfə) müqayisədə 3,1 dəfə çoxdur.

Yalnız qəbul imtahanlarına 8597 nəzarətçi 16275 dəfə (onlardan 62,1%-i (10100 dəfə) sertifikatlıdır), yalnız buraxılış imtahanlarına isə 10734 nəzarətçi 29352 dəfə (onlardan 52,1%-i (15294 dəfə) sertifikatlıdır) cəlb edilmişdir.

2011-ci ildən bəri nəzarətçilərin imtahanlara cəlbedilmə faizi ortalama 65-70 arasında olmuşdur. Hər bir nəzarətçinin il ərzində heç olmasa bir dəfə imtahanlara cəlb edilməsi, imtahan iştirakçılarının tək-tək əyləşdirilməsi səbəbindən nəzarətçi sayının artması, buraxılış və qəbul imtahanlarında iştirakçı sayının əvvəlki illərə nəzərən qismən artması cari ildə də cəlbedilmə faizinin bir qədər yuxarı – 91,2% (2024-cü ildə 87,7%, 2023-cü il 83,3%, 2022-ci il 84,6%, 2021-ci il 80,3%) olması ilə nəticələnmişdir.

Cədvəl 2-də buraxılış və qəbul imtahanlarında nəzarətçilərin iştirakını əks edən göstəricilər təqdim edilir.

Cədvəl 2

NƏZARƏTÇİLƏRIN İMTAHANLARDA İŞTİRAKI

Rayon (şəhər) və təşkilat	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (nəfər, təkrarla)	İmtahanlarda iştirak etməyən nəzarətçilər		İmtahanlara üzrsüz olaraq gəlməyənlər	
		nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə	nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə
Abşeron	2299	98	4,3	94	4,1
Ağcabədi	396	14	3,5	13	3,3
Ağdam	201	6	3,0	6	3,0
Ağdaş	226	4	1,8	4	1,8
Ağstafa	245	5	2,0	5	2,0
Ağsu	104	1	1,0	1	1,0
AMEA	853	39	4,6	36	4,2
Astara	301	7	2,3	7	2,3
Babək	295	3	1,0	2	0,7
Balakən	227	3	1,3	3	1,3
Beyləqan	187	6	3,2	6	3,2
Bərdə	1323	22	1,7	22	1,7
Biləsuvar	220	7	3,2	7	3,2
Binəqədi	2353	130	5,5	121	5,1
Cəlilabad	667	13	1,9	12	1,8
Culfa	113	1	0,9	1	0,9
Daşkəsən	101	2	2,0	2	2,0
DIM	43	6	14,0	5	11,6
Füzuli	152	4	2,6	4	2,6
Gədəbəy	165	5	3,0	5	3,0
Gəncə	1759	31	1,8	29	1,6
Goranboy	302	6	2,0	6	2,0
Göyçay	730	18	2,5	14	1,9
Göygöl	234	8	3,4	6	2,6
Hacıqabul	226	7	3,1	6	2,7
Xaçmaz	1179	26	2,2	24	2,0
Xətai	2344	96	4,1	83	3,5
Xəzər	958	47	4,9	41	4,3
Xızı	31	0	0,0	0	0,0
Xocalı	5	0	0,0	0	0,0
İmişli	285	12	4,2	11	3,9
İsmayıllı	242	11	4,5	11	4,5
Kəngərli	80	2	2,5	2	2,5
Kürdəmir	434	11	2,5	8	1,8
Qax	158	2	1,3	2	1,3
Qaradağ	491	18	3,7	17	3,5
Qazax	435	6	1,4	5	1,1
Qəbələ	313	4	1,3	4	1,3
Qobustan	74	2	2,7	2	2,7
Quba	784	42	5,4	39	5,0

Cədvəl 2 (ardı)

Rayon (şəhər) və təşkilat	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (nəfər, təkrarla)	İmtahanlarda iştirak etməyən nəzarətçilər		İmtahanlara üzrsüz olaraq gəlməyənlər	
		nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə	nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə
Qubadlı	104	4	3,8	4	3,8
Qusar	220	7	3,2	7	3,2
Laçın	12	2	16,7	2	16,7
Lerik	201	5	2,5	5	2,5
Lənkəran	1161	16	1,4	16	1,4
Masallı	748	29	3,9	26	3,5
Mingəçevir	779	17	2,2	16	2,1
Naxçıvan	927	7	0,8	7	0,8
Neftçala	178	5	2,8	4	2,2
Nərimanov	1189	60	5,0	50	4,2
Nəsimi	1094	62	5,7	57	5,2
Nizami	965	42	4,4	39	4,0
Oğuz	98	1	1,0	1	1,0
Ordubad	77	0	0,0	0	0,0
Saatlı	329	4	1,2	4	1,2
Sabirabad	747	26	3,5	25	3,3
Sabunçu	2157	83	3,8	70	3,2
Salyan	719	20	2,8	19	2,6
Samux	277	5	1,8	5	1,8
Səbail	522	25	4,8	22	4,2
Sədərək	28	0	0,0	0	0,0
Siyəzən	86	0	0,0	0	0,0
Sumqayıt	2392	83	3,5	79	3,3
Suraxanı	1607	80	5,0	77	4,8
Şabran	112	1	0,9	1	0,9
Şahbuz	42	0	0,0	0	0,0
Şamaxı	384	5	1,3	4	1,0
Şəki	1027	24	2,3	21	2,0
Şəmkir	1009	31	3,1	26	2,6
Şərur	165	2	1,2	2	1,2
Şirvan	730	26	3,6	22	3,0
Şuşa	13	0	0,0	0	0,0
Tərtər	246	4	1,6	3	1,2
Tovuz	541	7	1,3	7	1,3
Ucar	256	1	0,4	1	0,4
Yardımlı	95	4	4,2	4	4,2
Yasamal	1909	119	6,2	107	5,6
Yevlax	292	6	2,1	4	1,4
Zaqatala	534	16	3,0	15	2,8
Zəngilan	34	0	0,0	0	0,0
Zərdab	86	0	0,0	0	0,0
Ümumi	**45627**	**1554**	**3,4**	**1418**	**3,1**

Cədvəldən göründüyü kimi, qəbul və buraxılış imtahanlarında 1554 nəfər (cəlb olunanların 3,4%-i) imtahanda iştirak etməmişdir. Onlardan 1418 nəfər (cəlb olunanların 3,1%-i) üzrsüz səbəbdən imtahanda iştirak etməyənlərdir. Yalnız qəbul imtahanlarının II mərhələsi üçün bu göstəricilər uyğun olaraq 4,1% (cəlb olunanların sayı 16275, iştirak etməyənlərin sayı 672) və 3,8% (üzrsüz iştirak etməyənlərin sayı 618) olub. Yalnız buraxılış imtahanları üçün isə uyğun olaraq 3,0% (cəlb olunanların sayı 29352, iştirak etməyənlərin sayı 882) və 2,7%-dir (üzrsüz iştirak etməyənlərin sayı 800).

Cari ildə qəbul və buraxılış imtahanlarında cəlb olunduğu halda iştirak etməyənlərin faizi Bakı şəhərinin əksər rayonları ilə yanaşı Abşeron, Quba və İsmayıllı rayonları üzrə daha yüksək olmuşdur. Belə ki, bu rayonlar üzrə imtahanda iştirak etməyənlərin faizi respublika üzrə orta göstəricidən (3,4%) təxminən 1,4-1,8 dəfə yüksəkdir (Laçın şəhəri üzrə cəlb edilən nəzarətçi sayı az olduğundan bu statistikaya daxil edilməmişdir).

İmtahan rəhbərləri zal nəzarətçilərinin imtahanın texnologiyasını mənimsəmə səviyyələrini (imtahan iştirakçılarının imtahan zalına buraxılması zamanı sənədlərin yoxlanılması, sıra və yerlərində oturmaları, cavab kartlarının və sual kitabçalarının paylanması qaydası, imtahan sənədləri ilə iş və s.) və imtahan zalında idarəetmə bacarığını (imtahan iştirakçılarının davranış qaydalarına əməl etmələrinə nəzarət edilməsi, köçürmə hallarına şərait yaratmaması, sakitliyin təmin olunması və s.) nəzərə alaraq onların fəaliyyətini qiymətləndirmişdir (cədvəl 3). İmtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"nı əsas götürürlər.

Cədvəl 3

İMTAHAN RƏHBƏRLƏRİNİN NƏZARƏTÇİLƏRİN İŞİNİ QİYMƏTLƏNDİRMƏSİNƏ DAİR MƏLUMAT

Rayon (şəhər) və təşkilat	Cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2; 2.5)		Kafi [2.5; 3.5)		Yaxşı [3.5; 4.5)		Əla [4.5; 5]		Qiymət yazılmayan
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər
Abşeron	2201	1	0,05	1	0,0	44	2,0	2105	95,6	50
Ağcabədi	382	0	0	5	1,3	26	6,8	331	86,6	20
Ağdam	195	0	0	3	1,5	14	7,2	176	90,3	2
Ağdaş	222	0	0	1	0,5	29	13,1	174	78,4	18
Ağstafa	240	0	0	2	0,8	24	10,0	208	86,7	6
Ağsu	103	0	0	1	1,0	13	12,6	88	85,4	1
AMEA	814	0	0	2	0,2	19	2,3	779	95,7	14
Astara	294	0	0	5	1,7	47	16,0	236	80,3	6
Babək	292	1	0,34	4	1,4	49	16,8	234	80,1	4
Balakən	224	0	0	4	1,8	17	7,6	198	88,4	5
Beyləqan	181	2	1,10	27	14,9	42	23,2	109	60,2	1
Bərdə	1301	1	0,08	7	0,5	100	7,7	1156	88,9	37
Biləsuvar	213	0	0	4	1,9	28	13,1	170	79,8	11
Binəqədi	2223	0	0	4	0,2	42	1,9	2110	94,9	67
Cəlilabad	654	2	0,31	13	2,0	102	15,6	530	81,0	7
Culfa	112	0	0	2	1,8	28	25,0	80	71,4	2
Daşkəsən	99	0	0	0	0,0	3	3,0	92	92,9	4
DIM	37	0	0	0	0,0	0	0,0	36	97,3	1
Füzuli	148	0	0	1	0,7	12	8,1	131	88,5	4
Gədəbəy	160	0	0	7	4,4	49	30,6	92	57,5	12
Gəncə	1728	1	0,06	1	0,1	70	4,1	1604	92,8	52
Goranboy	296	0	0	1	0,3	31	10,5	257	86,8	7
Göyçay	712	1	0,14	4	0,6	36	5,1	651	91,4	20
Göygöl	226	0	0	2	0,9	8	3,5	211	93,4	5
Hacıqabul	219	0	0	6	2,7	24	11,0	180	82,2	9
Xaçmaz	1153	2	0,17	2	0,2	44	3,8	1087	94,3	18
Xətai	2248	1	0,04	4	0,2	41	1,8	2122	94,4	80
Xəzər	911	0	0	1	0,1	21	2,3	862	94,6	27

Cədvəl 3 (ardı)


Rayon (şəhər) və təşkilat	Cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2; 2.5)		Kafi [2.5; 3.5)		Yaxşı [3.5; 4.5)		Əla [4.5; 5]		Qiymət yazılmayan
Xızı	31	0	0	0	0,0	3	9,7	27	87,1	1
Xocalı	5	0	0	0	0,0	0	0,0	5	100,0	0
İmişli	273	1	0,37	9	3,3	67	24,5	192	70,3	4
İsmayıllı	231	0	0	2	0,9	9	3,9	211	91,3	9
Kəngərli	78	0	0	0	0,0	8	10,3	69	88,5	1
Kürdəmir	423	2	0,47	2	0,5	30	7,1	374	88,4	15
Qax	156	0	0	0	0,0	15	9,6	138	88,5	3
Qaradağ	473	0	0	4	0,8	11	2,3	431	91,1	27
Qazax	429	0	0	6	1,4	52	12,1	362	84,4	9
Qəbələ	309	0	0	1	0,3	43	13,9	258	83,5	7
Qobustan	72	0	0	2	2,8	12	16,7	56	77,8	2
Quba	742	0	0	3	0,4	39	5,3	682	91,9	18
Qubadlı	100	0	0	0	0,0	2	2,0	96	96,0	2
Qusar	213	0	0	5	2,3	17	8,0	181	85,0	10
Laçın	10	0	0	0	0,0	0	0,0	10	100,0	0
Lerik	196	0	0	1	0,5	24	12,2	160	81,6	11
Lənkəran	1145	0	0	5	0,4	96	8,4	1033	90,2	11
Masallı	719	1	0,14	16	2,2	111	15,4	575	80,0	16
Mingəçevir	762	0	0	3	0,4	57	7,5	695	91,2	7
Naxçıvan	920	0	0	15	1,6	116	12,6	772	83,9	17
Neftçala	173	1	0,58	4	2,3	28	16,2	138	79,8	2
Nərimanov	1129	0	0	2	0,2	24	2,1	1082	95,8	21
Nəsimi	1032	0	0	1	0,1	21	2,0	985	95,4	25
Nizami	923	0	0	4	0,4	22	2,4	869	94,1	28
Oğuz	97	0	0	1	1,0	7	7,2	87	89,7	2
Ordubad	77	0	0	0	0,0	0	0,0	74	96,1	3
Saatlı	325	0	0	4	1,2	50	15,4	258	79,4	13
Sabirabad	721	1	0,14	9	1,2	98	13,6	600	83,2	13
Sabunçu	2074	0	0	4	0,2	45	2,2	1978	95,4	47
Salyan	699	0	0	15	2,1	94	13,4	576	82,4	14
Samux	272	0	0	0	0,0	17	6,3	247	90,8	8
Səbail	497	0	0	0	0,0	14	2,8	471	94,8	12
Sədərək	28	0	0	0	0,0	15	53,6	12	42,9	1
Siyəzən	86	0	0	1	1,2	20	23,3	61	70,9	4
Sumqayıt	2309	1	0,04	5	0,2	43	1,9	2200	95,3	60
Suraxanı	1527	1	0,07	1	0,1	32	2,1	1459	95,5	34
Şabran	111	0	0	0	0,0	7	6,3	101	91,0	3
Şahbuz	42	0	0	1	2,4	10	23,8	30	71,4	1
Şamaxı	379	0	0	3	0,8	39	10,3	332	87,6	5
Şəki	1003	0	0	0	0,0	32	3,2	957	95,4	14
Şəmkir	978	4	0,41	12	1,2	100	10,2	833	85,2	29
Şərur	163	0	0	3	1,8	58	35,6	100	61,3	2
Şirvan	704	0	0	3	0,4	33	4,7	655	93,0	13
Şuşa	13	0	0	0	0,0	0	0,0	13	100,0	0
Tərtər	242	4	1,65	5	2,1	22	9,1	201	83,1	10

Cədvəl 3 (ardı)

Rayon (şəhər) və təşkilat	Cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2; 2.5)		Kafi [2.5; 3.5)		Yaxşı [3.5; 4.5)		Əla [4.5; 5]		Qiymət yazılmayan
Tovuz	534	4	0,75	3	0,6	63	11,8	451	84,5	13
Ucar	255	0	0	1	0,4	16	6,3	221	86,7	17
Yardımlı	91	1	1,10	5	5,5	23	25,3	58	63,7	4
Yasamal	1790	0	0	8	0,4	40	2,2	1673	93,5	69
Yevlax	286	0	0	4	1,4	37	12,9	239	83,6	6
Zaqatala	518	0	0	3	0,6	43	8,3	455	87,8	17
Zəngilan	34	0	0	0	0,0	0	0,0	34	100,0	0
Zərdab	86	0	0	1	1,2	19	22,1	66	76,7	0
CƏMİ	**44073**	**33**	**0,07**	**291**	**0,7**	**2747**	**6,2**	**39852**	**90,4**	**1150**

* İmtahanlara cəlb edilən 45627 nəfərdən 1554-ü imtahana gəlməmişdir. İmtahanda iştirak edən 44073 nəfərdən 1150 nəfərə qiymət verilməmişdir. Bunlardan 965-i ehtiyat nəzarətçi olmuş, 185 nəfəri isə zalda olduqları halda fəaliyyətləri qiymətləndirilməmişdir.

2015–2025-ci illərdə buraxılış və qəbul imtahanlarında nəzarətçilərin qiymətləndirmə meyarları üzrə paylanması aşağıdakı diaqramda təqdim edilmişdir:




Şəkil 2

Diaqramdan göründüyü kimi, 2020-ci il istisna olmaqla, fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi ya sabit qalmış, ya da, əsasən, azalmışdır. 2020-ci ildə fəaliyyəti əla qiymətləndirilənlərin sayının azalmasının, "kafi" və "qeyri-kafi" qiymətləndirilənlərin sayının artmasının əsas səbəbi qəbul imtahanlarının yeni imtahan mərkəzlərində qəbul imtahanları təcrübəsi az olan müəllimlərlə keçirilməsidir. Digər illərdə fəaliyyəti "əla" qiymətləndirilən nəzarətçilərin sayının artmasını qəbul imtahanları üçün nəzarətçi bazasının ən yaxşılarının seçilməsinə imkan verəcək şəkildə geniş olması, nəzarətçilər və imtahan rəhbərləri ilə təlimlərin kiçik qruplar şəklində təşkil edilərək interaktiv üsullarla aparılması, zal nəzarətçi işinin yaxşılaşdırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi (mükafatlandırma, təltif, fəaliyyəti yüksək qiymətləndirilənlər barədə işlədikləri müəssisələrin məlumatlandırılması) və "zal nəzarətçisi sertifikatı" alan nəzarətçilərə imtahanlara təyinat zamanı üstünlük verilməsi kimi faktorlarla izah etmək olar.


Ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsində imtahanda iştirak edən nəzarətçilər bazasının fənlər üzrə ümumi tərkibi ilə (şəkil 3) qayda pozuntusuna yol verən nəzarətçilərin fənlər üzrə tərkibi (şəkil 4) müqayisə edilərək, cari ildəki qəbul imtahanlarında hansı ixtisas müəllimlərinin yol verilən qayda pozuntularında daha çox paya malik olması aşkarlanmışdır.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN NƏZARƏTÇİLƏRİN İXTİSAS FƏNLƏRİ ÜZRƏ PAYLANMASI (FAİZLƏ)



Şəkil 3

QƏBUL İMTAHANLARINDA NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSUNA YOLVERMƏ FAİZİ (İXTİSASLAR ÜZRƏ)



Şəkil 4

2022-ci ildən başlayaraq 10 və 11-ci cədvəllərdə əvvəlki illərdə aparılan təhlillərdən fərqli olaraq yalnız kompüter proqramı vasitəsi ilə müəyyənləşdirilən köçürmə halları deyil, digər ciddi təlimat pozuntuları da nəzərə alınmışdır. Bu cədvəllərdən də göründüyü kimi, cari ildə qəbul imtahanlarında əsasən fizika, kimya, tarix, ingilis dili, əmək və ibtidai sinif müəllimləri (2024-cü ildə kimya, biologiya, tarix, coğrafiya və idman, 2023-cü ildə əsasən tarix, ingilis dili, texnologiya və ibtidai sinif müəllimləri, 2022-ci ildə xarici dil və ibtidai sinif müəllimləri), buraxılış imtahanlarında isə fizika, kimya, tarix, coğrafiya, əmək və ibtidai sinif müəllimləri (2024-cü ildə coğrafiya və ibtidai sinif müəllimləri, 2023-cü ildə tarix və ibtidai sinif müəllimləri, 2022-ci ildə tarix, ingilis dili, idman və ibtidai sinif müəllimləri) daha çox qayda pozuntularına yol verirlər. İbtidai sinif müəllimləri həm cari ildə, həm də 2024-cü, 2023-cü və 2022-ci illərdə qəbul və buraxılış imtahanlarında daha çox qayda pozuntusuna şərait yaratmışlar.

2010–2019-cu illərdə qəbul imtahanlarında iştirak edən ana dili müəllimlərinin sayının nəzarətçilərin ümumi sayının kiçik bir hissəsini (2010-cu ildə 9,8%, 2011-ci ildə 12,2%, 2012-ci ildə 14,8%, 2013-cü ildə 17,4%, 2014-cü ildə 14,6%, 2015-ci ildə 16,3%, 2016-cı ildə 12,9%, 2017-ci ildə 10,7%, 2018-ci ildə 11,3%, 2019-cu ildə 8,5%) təşkil etməsinə baxmayaraq, yol verilən qayda pozuntularının böyük bir hissəsi (uyğun olaraq 2010-cu ildə 18,4%, 2011-ci ildə 24,2%, 2012-ci ildə 16,1%, 2013-cü ildə 33,6%, 2014-cü ildə 25,1%, 2015-ci ildə 27,7%, 2016-cı ildə 20,6%, 2017-ci ildə 17,7% , 2018-ci ildə 12,7%, 2019-cu ildə 9,8%) onların payına düşürdü. Aradakı fərqin ilbəil azalması bazaya yeni ana dili müəllimlərinini cəlb edilməməsi və fəaliyyəti qeyri-qənaətbəxş hesab edilənlərin bazadan çıxarılması ilə əlaqədar olmuşdur. Nəhayət, 2020-ci ildə ana dili müəllimləri ilə bağlı bu tendensiya sona çatdı. Belə ki, bu göstəricilər 2020-ci ildə uyğun olaraq 4,7% və 2,8% , 2021-ci ildə 6,4% və 3,8%, 2022-də 6,1% və 3,3%, 2023-cü ildə 5,4% və 5%, cari ildə isə 6,0% və 3,8% olmuşdur.

Cari ildə buraxılış və qəbul imtahanlarında nəzarətçilər tərəfindən qayda pozuntusu hallarının bölgələr üzrə paylanması cədvəl 4-də təqdim edilmişdir.

Cədvəl 4

QAYDA POZUNTUSU HALLARININ BÖLGƏLƏR ÜZRƏ PAYLANMASI

Rayonun (şəhərin, təşkilatın) adı	Qəbul imtahanlarında			Buraxılış imtahanlarında		
	(1)	(2)	(3)	(1)	(2)	(3)
Abşeron	850	12	1,4	1351	9	0,7
Ağcabədi	53	2	3,8	329	6	1,8
Ağdam	23	0	0,0	172	3	1,7
Ağdaş	25	0	0,0	197	1	0,5
Ağstafa	83	9	10,8	157	2	1,3
Ağsu	10	0	0,0	93	2	2,2
AMEA	331	5	1,5	483	3	0,6
Astara	55	1	1,8	239	4	1,7
Babək	88	3	3,4	204	5	2,5
Balakən	25	1	4,0	199	1	0,5
Beyləqan	5	0	0,0	176	39	22,2
Bərdə	614	14	2,3	687	6	0,9
Biləsuvar	17	0	0,0	196	7	3,6
Binəqədi	1053	12	1,1	1170	4	0,3
Cəlilabad	104	12	11,5	550	11	2,0
Culfa	12	0	0,0	100	1	1,0
Daşkəsən	41	1	2,4	58	0	0,0
DIM	10	0	0,0	27	0	0,0
Füzuli	--	--	--	148	4	2,7
Gədəbəy	1	0	0,0	159	4	2,5
Gəncə	703	16	2,3	1025	8	0,8
Goranboy	19	0	0,0	277	4	1,4
Göyçay	302	7	2,3	410	3	0,7
Göygöl	51	1	2,0	175	3	1,7
Hacıqabul	49	2	4,1	170	3	1,8
Xaçmaz	445	10	2,2	708	1	0,1
Xətai	780	13	1,7	1468	11	0,7
Xəzər	230	5	2,2	681	2	0,3
Xızı	4	0	0,0	27	0	0,0
Xocalı	--	--	--	5	0	0,0
İmişli	1	0	0,0	272	6	2,2
İsmayıllı	42	2	4,8	189	0	0,0
Kəngərli	15	0	0,0	63	2	3,2
Kürdəmir	163	12	7,4	260	1	0,4
Qax	19	1	5,3	137	0	0,0
Qaradağ	152	2	1,3	321	3	0,9
Qazax	166	8	4,8	263	3	1,1

Cədvəl 4 (ardı)

Rayonun (şəhərin, təşkilatın) adı	Qəbul imtahanlarında			Buraxılış imtahanlarında		
	(1)	(2)	(3)	(1)	(2)	(3)
Qəbələ	15	0	0,0	294	5	1,7
Qobustan	8	0	0,0	64	3	4,7
Quba	220	8	3,6	522	3	0,6
Qubadlı	43	1	2,3	57	0	0,0
Qusar	19	0	0,0	194	2	1,0
Laçın	6	0	0,0	4	0	0,0
Lerik	37	3	8,1	159	1	0,6
Lənkəran	402	7	1,7	743	3	0,4
Masallı	326	20	6,1	393	3	0,8
Mingəçevir	335	8	2,4	427	4	0,9
Naxçıvan	516	4	0,8	404	4	1,0
Neftçala	35	2	5,7	138	7	5,1
Nərimanov	515	7	1,4	614	5	0,8
Nəsimi	501	5	1,0	531	4	0,8
Nizami	368	10	2,7	555	2	0,4
Oğuz	4	0	0,0	93	1	1,1
Ordubad	1	0	0,0	76	0	0,0
Saatlı	45	0	0,0	280	1	0,4
Sabirabad	294	15	5,1	427	5	1,2
Sabunçu	605	14	2,3	1469	10	0,7
Salyan	330	17	5,2	369	1	0,3
Samux	77	1	1,3	195	2	1,0
Səbail	234	5	2,1	263	1	0,4
Sədərək	--	--	--	28	0	0,0
Siyəzən	3	0	0,0	83	1	1,2
Sumqayıt	839	15	1,8	1470	7	0,5
Suraxanı	531	10	1,9	996	5	0,5
Şabran	12	0	0,0	99	0	0,0
Şahbuz	6	0	0,0	36	0	0,0
Şamaxı	200	15	7,5	179	2	1,1
Şəki	530	9	1,7	473	0	0,0
Şəmkir	382	23	6,0	596	12	2,0
Şərur	2	0	0,0	161	8	5,0
Şirvan	321	7	2,2	383	3	0,8
Şuşa	6	0	0,0	7	0	0,0
Tərtər	47	3	6,4	195	7	3,6
Tovuz	104	6	5,8	430	10	2,3
Ucar	63	1	1,6	192	3	1,6
Yardımlı	7	0	0,0	84	4	4,8
Yasamal	821	17	2,1	969	3	0,3
Yevlax	30	0	0,0	256	5	2,0

Cədvəl 4 (ardı)

Rayonun (şəhərin, təşkilatın) adı	Qəbul imtahanlarında			Buraxılış imtahanlarında		
	(1)	(2)	(3)	(1)	(2)	(3)
Zaqatala	205	6	2,9	313	7	2,2
Zəngilan	14	0	0,0	20	0	0,0
Zərdab	3	0	0,0	83	0	0,0
CƏMİ	**15603**	**390**	**2,5**	**28470**	**306**	**1,1**

Qeyd: (1) - Rayon üzrə imtahanda iştirak edən nəzarətçilərin sayı, **(2)** - Rayon üzrə qayda pozuntusuna yol verənlərin sayı, **(3)** - Rayon üzrə qayda pozuntusuna yol verənlərin sayının rayon üzrə imtahanda iştirak edən nəzarətçilərin sayına nisbətinin faizlə ifadəsi.

Cədvəldən göründüyü kimi, ali təhsil müəssisələrinə qəbul imtahanlarında Şəmkir, Qazax, Ağstafa, Tovuz, Şamaxı, Balakən, Qax, Tərtər, Kürdəmir, İsmayıllı, Hacıqabul, Sabirabad, Neftçala, Salyan, Lerik, Cəlilabad, Masallı (2024-cü ildə Babək, Şəmkir, Qazax, Ağstafa, Tovuz, Goranboy, Yevlax, Bərdə, Ağcabədi, Tərtər, Ağsu, Sabirabad, Salyan, Saatlı, Cəlilabad, Masallı, 2023-cü ildə Babək, Şəmkir, Qazax, Ağstafa, Bərdə, Ağsu, Hacıqabul, Sabirabad, Salyan, Saatlı, Lerik, Yardımlı, Cəlilabad, Qusar, 2022-ci ildə Şəmkir, Qazax, Ağstafa, Zaqatala, Tərtər, İsmayıllı, Hacıqabul, Saatlı, Masallı) rayonlarından cəlb olunan zal nəzarətçiləri qayda pozuntusu hallarına daha çox şərait yaratmışdır. Belə ki, bu rayonlar üzrə qayda pozuntularına yol vermə faizi respublika ortalamasından ən az təxminən 2 dəfə çoxdur.

Buraxılış imtahanlarında isə Kəngərli, Babək, Şərur, Gədəbəy, Tovuz, Qobustan, Zaqatala, Tərtər, Ağsu, İmişli, Füzuli, Beyləqan, Biləsuvar, Neftçala, Yardımlı, Cəlilabad (2024-cü ildə Kəngərli, Culfa, Şərur, Gədəbəy, Qazax, Ağstafa, Xızı, Qobustan, Tərtər, Göyçay, Kürdəmir, Zərdab, İsmayıllı, Ağsu, Beyləqan, Hacıqabul, Biləsuvar, Neftçala, Salyan, Saatlı, Astara, Yardımlı, Şabran, Siyəzən, 2023-cü ildə Ordubad, Culfa, Şərur, Şahbuz, Samux, Qazax, Ağstafa, Xızı, Şamaxı, Balakən, Ağcabədi, Tərtər, İmişli, Biləsuvar və Şabran, 2022-ci ildə Sədərək, Şərur, Şəmkir, Biləsuvar, Lerik, Yardımlı, Siyəzən) rayonlarından cəlb olunan zal nəzarətçiləri qayda pozuntusu hallarına daha çox şərait yaratmışdır. Belə ki, bu rayonlar üzrə qayda pozuntularına yolvermə faizi respublika ortalamasından ən az təxminən 2 dəfə çoxdur.


Qəbul və buraxılış imtahanlarında kompüter proqramı vasitəsilə köçürməyə (ağır və orta dərəcədə) yol verdiyi müəyyənləşdirilən nəzarətçilərin ümumi sayı 319, imtahan rəhbərləri tərəfindən və imtahanda baş verən xüsusi halların araşdırılması zamanı digər təlimat pozuntularına yol verdiyi müəyyənləşdirilən nəzarətçilərin ümumi sayı isə 377 nəfərdir. Bunlardan ağır köçürməyə yol verən nəzarətçilərin sayı 94, digər ciddi təlimat pozuntularına yol verən nəzarətçilərin sayı 143 nəfərdir. Bu göstəricilər qəbul imtahanları üzrə 247, 143, 67 və 33, buraxılış imtahanları üzrə uyğun olaraq 72, 234, 27 və 110-dur.

Cari ildə keçirilən imtahanlarda iştirak etmiş nəzarətçilər arasından indiyə qədər iştirak etdiyi bütün imtahanlarda:

- **idarəetmə qabiliyyəti:** təyin olunduğu zallarda qayda pozuntusu halları aşkarlanmayan;
- **iştirak sayı:** indiyə qədər ən az 15 imtahanda iştirak edən;
- **davamiyyət:** bir qayda olaraq, cəlb olunduğu bütün imtahanlarda iştirak edən;
- **cari qiymət:** cari ildə imtahan rəhbərinin protokollarında 4 və 5 ilə qiymətləndirilən və heç bir təlimat pozuntusuna yol verməyən;
- **yekun qiymət:** qeyri-kafi qiymət almayan və yekun qiyməti 4-dən böyük olan və cari ildə yekun qiymətini daha da yaxşılaşdıran;
- **ictimai (abituriyent, valideyn) rəy:** ali təhsil müəssisələrinə qəbul imtahanlarında 600-dən yuxarı bal toplayan abituriyentlərin fəaliyyətinə verdiyi qiyməti 4 və 5 olan

nəzarətçilər müəyyənləşdirilmiş və fəaliyyətləri yüksək qiymətləndirilmişdir. **Belə nəzarətçilərin sayı 2399 nəfər olmuşdur.**

YEKUN STATİSTİKA



Şəkil 5

Diaqramdan göründüyü kimi, bu il buraxılış imtahanlarına və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsində iştirak etmiş nəzarətçilərin, köçürmələr və digər qayda pozuntuları da nəzərə alınmaqla, 89,2%-nin fəaliyyəti əla, 5,8%-nin yaxşı, 1,9%-nin kafi, 0,5%-nin isə qeyri-kafi qiymətləndirilir.

Fəaliyyəti kafi qiymətləndirilən müəllimlərin nəzarətçi kimi hazırlıq səviyyəsinin artırılması məqsədi ilə hər il olduğu kimi, bu il də təlimlərin ayrı-ayrı qruplarda təşkil olunması və onların növbəti ilin sınaq imtahanlarına cəlb olunması və fəaliyyətlərinin ayrıca izlənilməsi nəzərdə tutulur. Fəaliyyəti qeyri-kafi qiymətləndirilən müəllimlər isə cari ilin nəzarətçilər bazasından çıxarılmışdır.

DİM sertifikatlı nəzarətçilərlə yanaşı, nümunəvi işi ilə seçilən və fəaliyyəti əla qiymətləndirilən nəzarətçiləri ilboyu müxtəlif dövlət qurumlarına keçirilən işə qəbul imtahanlarına da dəvət edir, nəzarətçilər üçün keçirilən təlimlərdə onların təcrübələrindən istifadə edilir və onlar imtahan rəhbərliyinə namizədlər siyahısına daxil edilirlər.

Xatırladaq ki, cari il də daxil olmaqla (2399 nəfər) indiyə qədər DİM-in keçirdiyi imtahanlarda nümunəvi fəaliyyətinə görə fərqlənmiş 7681 nəfər nəzarətçiyə təşəkkür elan edilmiş, bunlardan 496 nəfər fəxri fərmanlarla təltif edilmişdir.

Nəzarətçilərin fəaliyyətlərinin təhlilinin nəticələri barədə, bir qayda olaraq, hər il Elm və Təhsil Nazirliyinə, müvafiq rayon (şəhər) təhsil şöbələrinə və ümumtəhsil müəssisələrinə məlumat verilir.

Nəticə

2025-ci ildə buraxılış və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb edilmiş nəzarətçilərin fəaliyyətinin təhlili ilə bağlı əldə olunan nəticələr aşağıdakı kimidir:

- Qəbul və buraxılış imtahanlarına nəzarətçilərin 86,6%-i (13404 nəfər), ayrılıqda götürdükdə qəbul imtahanlarının ikinci mərhələsində 55,6%-i (8597 nəfər), buraxılış imtahanlarında isə 69,4%-i (10734 nəfər) cəlb edilmişdir.
- Rayon üzrə nəzarətçi sayının yetərli olub-olmamasını müəyyən etmək üçün cari ildə ümumi orta təhsil bazasında keçirilən buraxılış imtahanlarının statistikasına nəzər yetirək. Cari ildə rayon üzrə cəlbedilmə faizinin ən yüksək olduğu rayonlar: Şabran 88,7%, Qəbələ 85,9%, Siyəzən 85,7%, Yevlax 85,1%, Goranboy 84,4%, Ağdam 83,8%, Zaqatala 83,7%, Sabirabad 83,6%, Ucar 83,3%, Füzuli 82,8%, İmişli 82% (Biləsuvarda keçirilən imtahana da nəzarətçi göndərir), İsmayıllı 81,2%, Lerik 81%, Cəlilabad 80,7%.

  Cəlilabad (80,7%), Masallı (68,6%), Xəzər (66,3%), Abşeron (66%), Lənkəran (56,9%), Quba (56,6%), Sumqayıt (55,8%), Şəmkir (55,3%) və Xaçmaz (52%) rayonlarında ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları nəzarətçi sayı az olduğundan iki gündə keçirilir. Seçim imkanlarının daha geniş olmasını və imtahanların bir gündə keçirilməsini təmin edə bilmək üçün adları qeyd olunan rayonlar üzrə nəzarətçi sayının artırılmasına ehtiyac var.

Cari bazada zal nəzarətçisi sertifikatı almış 4600 nəzarətçidən qəbul və buraxılış imtahanlarına 4374 nəfəri (95,1%-i) 25394 dəfə (qəbul və buraxılış imtahanlarına ümumi cəlb edilmənin 55,7%-i (13404 nəzarətçi 45627 dəfə), yalnız qəbul imtahanlarına 10100 dəfə (ümumi cəlb edilmənin 62,1%-i (8597 nəzarətçi 16275 dəfə)), yalnız buraxılış imtahanlarına 15294 dəfə (ümumi cəlb edilmənin 52,1% (10734 nəzarətçi 29352 dəfə)) cəlb edilmişdir.

Ortalama hər bir sertifikatlı nəzarətçi qəbul və buraxılış imtahanlarına təxminən 5,8 dəfə imtahana cəlb edilmişdir. Bu göstərici sertifikatı olmayan nəzarətçilərlə (9030 nəzarətçi 20233 dəfə, ortalama 2,2 dəfə) müqayisədə 2,6 dəfə çoxdur.

- Nəzarətçilərin imtahanlarda davamiyyəti ilə bağlı tendensiya (2-4%) stabil davam edir. Belə ki, buraxılış imtahanlarında və qəbul imtahanlarının II mərhələsində nəzarətçi vəsiqəsini götürdüyü halda imtahana gəlməyənlərin faizi 3,4% olmuşdur (qəbul imtahanlarının II mərhələsində 4,1%, buraxılış imtahanlarında 3,0%).
- 2020-ci il istisna olmaqla fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi ya sabit qalmış, ya da əsasən azalmışdır.
-

Qəbul və buraxılış imtahanlarında iştirak edən sertifikatlı nəzarətçilərin (24482 dəfə) 93,1%-i əla, ümumilikdə isə 96,2%-i yaxşı və əla (digər nəzarətçilərdə (19591 dəfə) bu faizlər uyğun olaraq 87,1% və 97,3%-dir) qiymətlər almışdır. Fəaliyyəti əla qiymətləndirilən nəzarətçilərin müqayisəsində sertifikatlı nəzarətçilər müsbət mənada fərqlənir.

- Nəzarətçi kontingentinin əsasən yaxşıların seçiminə imkan verəcək şəkildə geniş olması, təlimlərdə təlim metodlarının dəyişdirilməsi, stimullaşdırıcı tədbirlərin tətbiqi, sertifikatlı nəzarətçilərin cəlb edilməsi əla qiymətləndirilən nəzarətçilərin artmasına səbəb olur. Eyni zamanda təhlil onu göstərir ki, imtahan rəhbərlərinin nəzarətçiləri yaxşı və xüsusilə də əla qiymətlərlə qiymətləndirməyə meyilli olmaları da bu artıma təsir göstərmişdir. Odur ki imtahan rəhbərləri ilə təlimlərdə bu məsələyə diqqətin artırılması nəzərdə tutulur.
- Kafi və qeyri-kafi qiymət alan nəzarətçi sayının rayon üzrə imtahanda iştirak edən nəzarətçilərin sayına nisbətinin yüksək olduğu rayonlar: Beyləqan (16%), Yardımlı (6,6%), Gədəbəy (4,4%), Tərtər (3,7%), İmişli (3,7%), Neftçala (2,9%).

Bu siyahıda 2024-cü ildə Kəngərli (17,1%), Şərur (12,7%), Sədərək (11,1%), Culfa (4,3%), İmişli (4,1%), Masallı (3,8%), Xızı (3,8%), Babək (3%), Qobustan (3%); 2023-cü ildə isə Sədərək (13,6%), Xızı (10,3%), Şərur (10%), Culfa (5,3%), Şamaxı (5,2%), Siyəzən (5,1%); 2022-ci ildə Sədərək (23,8%), Culfa (10,1%), Şərur (6,4%), Siyəzən (4,0%) rayonları yer almışdı.

- Cari ilin araşdırmalarında yalnız kompüter proqramı ilə müəyyənləşdirilən köçürmə halları deyil, digər ciddi təlimat pozuntuları (imtahan rəhbərləri tərəfindən və xüsusi araşdırma zamanı müəyyələşdirilən mobil telefondan istifadəyə göz yummaq, sual kitabçalarının dəyişdirilməsi və s.) da nəzərə alınmışdır. İmtahan rəhbərləri və nəzarətçilərlə ilboyu aparılan təlimat işinin nəticəsi kimi qayda pozuntusu hallarının azalması tendensiyası davam edir. Cari ildə qəbul imtahanlarının II mərhələsində nəzarətçilərin 2,5%-i, buraxılış imtahanlarında 1,1%-i, ümumilikdə 1,6%-i qayda pozuntularına yol vermişdir. Qayda pozuntusu hallarının azalmasında çoxvariantlılığın tətbiqi və iştirakçıların imtahan zalında tək-tək əyləşdirilməsi faktorlarının da böyük təsiri var.
- Cari ildə qəbul imtahanlarında, əsasən, fizika, kimya, tarix, ingilis dili, əmək və ibtidai sinif müəllimləri (2024-cü ildə kimya, biologiya, tarix, coğrafiya və idman, 2023-cü ildə əsasən tarix, ingilis dili, texnologiya və ibtidai sinif müəllimləri, 2022-ci ildə xarici dil və ibtidai sinif müəllimləri), buraxılış imtahanlarında isə fizika, kimya, tarix, coğrafiya, əmək və ibtidai sinif müəllimləri (2024-cü ildə coğrafiya və ibtidai sinif müəllimləri, 2023-cü ildə tarix və ibtidai sinif müəllimləri, 2022-ci ildə tarix, ingilis dili, idman və ibtidai sinif müəllimləri) daha çox qayda pozuntularına yol veriblər. İbtidai sinif müəllimləri həm cari ildə, həm də 2024, 2023 və 2022-ci illərdə qəbul və buraxılış imtahanlarında daha çox qayda pozuntusuna şərait yaratmışlar.
- Ali təhsil müəssisələrinə qəbul imtahanlarında Şəmkir, Qazax, Ağstafa, Tovuz, Şamaxı, Balakən, Qax, Tərtər, Kürdəmir, İsmayıllı, Hacıqabul, Sabirabad, Neftçala, Salyan, Lerik, Cəlilabad, Masallı (2024-cü ildə Babək, Şəmkir, Qazax, Ağstafa, Tovuz, Goranboy, Yevlax, Bərdə, Ağcabədi, Tərtər, Ağsu, Sabirabad, Salyan, Saatlı, Cəlilabad, Masallı, 2023-cü ildə Babək, Şəmkir, Qazax, Ağstafa, Bərdə, Ağsu, Hacıqabul, Sabirabad, Salyan, Saatlı, Lerik, Yardımlı, Cəlilabad, Qusar, 2022-ci ildə Şəmkir, Qazax, Ağstafa, Zaqatala, Tərtər, İsmayıllı, Hacıqabul, Saatlı, Masallı) rayonlarından cəlb olunan zal nəzarətçiləri qayda pozuntusu hallarına daha çox şərait yaratmışdır. Belə ki, bu rayonlar üzrə qayda pozuntularına yolvermə faizi respublika ortalamasından ən az təxminən 2 dəfə çoxdur.
- Buraxılış imtahanlarında isə Kəngərli, Babək, Şərur, Gədəbəy, Tovuz, Qobustan, Zaqatala, Tərtər, Ağsu, İmişli, Füzuli, Beyləqan, Biləsuvar, Neftçala, Yardımlı, Cəlilabad (2024-cü ildə Kəngərli, Culfa, Şərur, Gədəbəy, Qazax, Ağstafa, Xızı, Qobustan, Tərtər, Göyçay, Kürdəmir, Zərdab, İsmayıllı, Ağsu, Beyləqan, Hacıqabul, Biləsuvar, Neftçala, Salyan, Saatlı, Astara, Yardımlı, Şabran, Siyəzən, 2023-cü ildə Ordubad, Culfa, Şərur, Şahbuz, Samux, Qazax, Ağstafa, Xızı, Şamaxı, Balakən, Ağcabədi, Tərtər, İmişli, Biləsuvar və Şabran, 2022-ci ildə Sədərək, Şərur, Şəmkir, Biləsuvar, Lerik, Yardımlı, Siyəzən) rayonlarından cəlb olunan zal nəzarətçiləri qayda pozuntusu hallarına daha çox şərait yaratmışdır. Belə ki, bu rayonlar üzrə qayda pozuntularına yolvermə faizi respublika ortalamasından ən az təxminən 2 dəfə çoxdur.
- İştirakçı kontingentin yaş tərkibinə görə qayda pozuntusu hallarının araşdırılması cari ildə qəbul imtahanlarında əvvəlki illərin məzunlarının yerləşdiyi zallarda, buraxılış imtahanlarında (əvvəlki illərin məzunları üçün ali təhsil müəssisələrinə qəbul imtahanının I mərhələsi) isə cari ilin məzunlarının yerləşdiyi zallarda köçürmə hallarına və digər qayda pozuntularına daha çox yol verildiyi görünür.
- Araşdırma zal nəzarətçilərinin imtahan təcrübəsi artdıqca daha az qayda pozuntusuna yol verdiklərini göstərir.

Dövlət qulluğu üzrə müsahibə sənədlərinin yoxlanılmasının və sertifikatların emalının rəqəmsallaşdırılması: 2025-ci ilin yekun göstəriciləri, analizi və inkişaf istiqamətləri

M.M.Abbaszadə, B.B.Xəlilov, V.O.Əkbərov, X.R.Məmmədov

2025-ci il ərzində dövlət qulluğuna qəbul üzrə test imtahanında müvəffəqiyyət qazanmış şəxslərin sertifikat əldə etmək məqsədilə qeydiyyatdan keçdikdən sonra sənədlərinin qanunvericiliyə uyğun olaraq yoxlanılması təmin edilmişdir. Namizədlərin dövlət qulluğuna qəbulunun mümkünlüyü ilə bağlı məlumatlar müvafiq orqanlara verilmiş sorğularla əldə olunaraq "Namizəd-yoxlama" informasiya sisteminin məlumat bazasına daxil edilmiş, sertifikatların qeydiyyatı aparılmış və çap edilərək vətəndaşlara təqdim olunmuşdur. Eyni zamanda müsahibə mərhələsində iştirak üçün müraciət edən şəxslərin sənədlərinin tamlığı, düzgünlüyü və iddia etdikləri inzibati vəzifənin qanunvericiliklə müəyyən edilmiş tələblərinə uyğunluğu araşdırılmışdır. Sadalanan işlər Mərkəzin "Namizəd-yoxlama", "Dövlət qulluqçularının Reyestri", "Ehtiyat kadrlar", "Tələbə-məzun" və digər informasiya sistemlərinin köməyi ilə həyata keçirilmiş, məlumat bazaları əsasında müxtəlif statistik və analitik təhlillər aparılmışdır.

2025-ci ildə Mərkəz tərəfindən A növü - inzibati rəhbər vəzifələr üzrə 10 dəfə, B növü - inzibati icraçı vəzifələr üzrə 13 dəfə olmaqla, dövlət qulluğu üzrə 23 test imtahanı keçirilmişdir. Qeydiyyatdan keçmiş 16921 namizəddən 15939-u imtahanda iştirak etmiş, onlardan 4986 nəfər (31.2%) müvəffəqiyyət qazanaraq sertifikat əldə etmək hüququ qazanmışdır.

2025-ci ildə dövlət qulluğuna qəbul sertifikatı almaq üçün uğurlu nəticə göstərmiş namizədlər barədə məlumatlar Cədvəl 1-də təqdim edilir.

Cədvəl 1

İl	İmtahanda uğurlu nəticə əldə etmişdir	Sertifikat əldə etmək üçün müraciət etmişdir	Sənədləri yoxlanıldıqdan sonra razılıq verilmişdir	İmtina verilmişdir
2025	4433	4229	4229	0

Mərkəzin İdarə Heyətinin sədrinin müvafiq əmri ilə sertifikatlar qüvvəyə mindikdən sonra çap edilir və "Namizəd-yoxlama" sistemi üzərindən hər bir namizədə sertifikatı haradan və necə əldə edə bilməsi haqqında e-mail vasitəsilə məlumat göndərilir. 2025-ci ildə dövlət qulluğuna qəbul sertifikatlarının namizədlərə təqdim edilməsi barədə statistik məlumatlar Cədvəl 2-də verilir:

Cədvəl 2

İl	Sertifikat təqdim edilib	Sertifikat təqdim edilməyib	
		Namizəd qeydiyyatdan keçməyib	Namizəd sertifikatı götürməyib
2025	1353	204	2876

Namizədlərin əldə etdikləri dövlət qulluğuna qəbul sertifikatlarının növlər üzrə paylanması barədə statistik məlumatlar Cədvəl 3-də təqdim edilir:

Cədvəl 3

İl	Sertifikat növləri															
	AB1	AB2	AB3	AB4	AC1	AC2	AC3	AC4	BA1	BA2	BA3	BA4	BB1	BB2	BB3	BB4
2025	2	4	6	9	73	135	270	395	36	55	121	162	323	509	909	1220

4433 sertifikat almaq hüququ əldə etmiş 3477 şəxsin dövlət qulluğuna qəbul edilməsinin mümkün olub-olmamasının qabaqcadan yoxlanılması məqsədilə Daxili İşlər Nazirliyinə, Səhiyyə Nazirliyinə, Dini

Qurumlarla İş üzrə Dövlət Komitəsinə və Qafqaz Müsəlmanları İdarəsinə 17732 sorğu göndərilmişdir. Həmin sorğuların cavabları, o cümlədən 10 nəfərin əvvəlki illərdə müxtəlif diaqnozlarla qeydiyyata alınması barədə Səhiyyə Nazirliyinin, 17 nəfərin əvvəlki illərdə məsuliyyətə cəlb olunması barədə Daxili İşlər Nazirliyinin müvafiq məlumatları "Namizəd-yoxlama" sisteminə daxil edilmişdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirmək istəyən şəxs sertifikatın qüvvədə olma müddətinin son ilində, lakin həmin sertifikatın qüvvədə olma müddətinin bitmə tarixindən gec olmayaraq, növbəti sertifikat almaq üçün imtahanlarda iştirak edərək fəaliyyətin davam etdirilməsi sertifikatı (FDES) almalıdır.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə 31 may 2021-ci il tarixli, 340-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən 10 avqust 2016-cı ildən əvvəl dövlət qulluğuna qəbul olmuş və inzibati vəzifələrdə qulluq stajı 10 ildən az olan dövlət qulluqçuları yuxarı vəzifəyə iddia etdikdə cari vəzifəsinə uyğun FDES almalıdır.

Qeyd edilən müddəaların icrasını təmin etmək məqsədilə Dövlət İmtahan Mərkəzinin 2025-ci il ərzində keçirdiyi FDES imtahanlarında sertifikat əldə etmiş dövlət qulluqçuları barədə məlumat Cədvəl 4-də verilir.

Cədvəl 4

FDES	Tutduğu vəzifəyə uyğun sertifikat	Aşağı vəzifəyə uyğun sertifikat	Təqdim edilib	Namizəd sertifikatını götürməyib	Sertifikatların ümumi sayı
Dövlət qulluğunda cari vəzifədə fəaliyyətin davam etdirilməsi	462	61	18	505	**523**
Yuxarı vəzifəyə iddia	21	9	3	27	**30**

Cədvəl 5-də dövlət qulluqçularının aldığı FDES növləri barədə məlumat təqdim edilir.

Cədvəl 5

İl	FDES növləri															
	AB1	AB2	AB3	AB4	AC1	AC2	AC3	AC4	BA1	BA2	BA3	BA4	BB1	BB2	BB3	BB4
2025	1	0	3	1	8	6	4	4	10	24	54	43	126	121	83	65

Yuxarıda qeyd edildiyi kimi, dövlət qulluğu vəzifəsini tutmaq üçün müsahibələrdə iştirak etmək istəyən namizədlər barədə məlumatların yoxlanılması müvafiq informasiya sistemləri vasitəsilə həyata keçirilir. 2025-ci ildə müsahibələrdə iştirak etmək üçün elektron qeydiyyatdan keçmiş namizədlər barədə zəruri sənədlərin yoxlanılmasının "Namizəd-yoxlama" sistemi üzrə nəticələri Cədvəl 6-da verilir.

Cədvəl 6

Müsahibə növü	Mərkəz müraciətə razılıq verməyib										Namizəd imtina edib	Razılıq verilib
	Vəzifəyə uyğun sertifikatı yoxdur	İxtisas tələbi uyğun deyil	İntizam tənbeh tədbiri var	Ödənilməmiş məhkumluğu var	Təhsil məlumatları uyğun deyil*	Zəruri sənədlər tam təqdim edilməyib	Qulluq stajı uyğun deyil	Qanunvericilik tələbləri pozulub	Müsahibədə iştirak hüququ yoxdur	Cəmi		
Müsabiqə üzrə müsahibə	17	12	6	0	2	48	392	0	11	**488**	77	**10651**
Ümumi müsahibə	43	18	12	0	7	93	831	0	42	**1046**	166	**2364**
Daxili müsahibə	21	8	2	0	2	38	313	0	6	**390**	28	**1571**
Cəmi:	**81**	**38**	**20**	**0**	**11**	**179**	**1536**	**0**	**59**	**1924**	**271**	**14586**

* "Tələbə-məzun" dövlət elektron məlumat sistemi (TMMS) və namizədin daxil etdiyi təhsil məlumatları arasında fərq var, TMMS-də məlumat yoxdur, diplom həqiqi deyil və s.

Mövcud qanunvericiliyə görə qeydiyyatdan keçmiş və Mərkəz tərəfindən sənədləri yoxlanıldıqdan sonra müraciətinə razılıq verilmiş namizədlər müsahibələrə buraxılırlar. 2025-ci ildə müsahibələrdə iştirak etmiş və uğur qazanmış namizədlər barədə məlumatlar Cədvəl 7-də verilir.

Cədvəl 7

Müsa-hibələr	Müsahibədə iştirak barədə							Müsahibədən uğurla keçənlər barədə					
	Uyğun-dur	Uyğun deyil	İştirak etmə-yib	Etibarsız sayılıb	Başqa vaxta keçi-rilib	Ləğv edilib	Cəmi	Vəzi-fəyə təyin edilib	Ehti-yata daxil edilib	Ehti-yatdan imtina edib	Vəzi-fədən imtina edib	Qərar qəbul edil-məlidir	Cəmi
Müsabiqə üzrə müsahibə	1350	3297	589	20	35	231	**5522**	730	566	22	1	31	**1350**
Ümumi müsahibə	423	806	128	5	41	26	**1429**	310	107	6	0	0	**423**
Daxili müsahibə	756	373	79	9	21	26	**1264**	604	134	2	0	16	**756**
YEKUN:	**2529**	**4476**	**796**	**34**	**97**	**283**	**8215**	**1644**	**807**	**30**	**1**	**47**	**2529**

Cədvəl 7-dən göründüyü kimi, 2025-ci il ərzində müsahibədə iştirak etmiş 7419 namizəddən 2529-u (34.09%) iddia etdikləri vəzifəyə uyğun hesab edilmiş, onlardan 1644 nəfər dövlət orqanlarında inzibati vəzifələrə təyin edilmişdir ki, bu da müsahibədə iştirak edənlərin 22.16 faizini, müsahibədən uğurla keçənlərin isə 65.01 faizini təşkil edir. Qeyd etmək lazımdır ki, elana çıxarılmış inzibati vəzifələr üzrə 7275 müraciət əsasında müsahibəyə razılıq verilsə də namizədlər müsahibədə iştirakdan imtina etmişdir ki, bu da Mərkəzin vaxt və resurs itkisinə səbəb olur.

Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi qanunvericiliyə uyğun olaraq doktorontura üzrə Azərbaycan dili və xarici dil, aqrar sığorta fəaliyyəti, peşəkar mühasib, taksi fəaliyyəti və qiymətləndirmə üzrə imtahanlar keçirir. Bu imtahanlarda müvəffəqiyyət qazanmış namizədlərə müvafiq sertifikat və şəhadətnamələr verilir. Mərkəz imtahan nəticələri, sertifikat və şəhadətnamələrə dair məlumat bazasını formalaşdıraraq "Namizəd-yoxlama" elektron informasiya sisteminə daxil edir.

2025-ci ildə həmin imtahanlarda uğur qazanmış namizədlərin əldə etdiyi sertifikat və şəhadətnamələr barədə statistik məlumatlar Cədvəl 8-də təqdim edilir.

Cədvəl 8

Sertifikat və ya şəhadətnamə növü	Əldə edilib	Təqdim edilib	Namizəd götürməyib
Peşəkar mühasib sertifikatı	1965	596	1369
Aqrar sığorta fəaliyyəti üzrə ekspert sertifikatı	29	15	14
Xarici dil üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair şəhadətnamə	230	139	91
Əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair şəhadətnamə	3	2	1
Taksi fəaliyyəti üzrə şəhadətnamələr	24614	11079	13535
Qiymətləndirmə fəaliyyəti üzrə ixtisas şəhadətnamələri	299	299	0

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 14 iyul 2023-cü il tarixli 973-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən sürücülərin və məsul şəxslərin xüsusi hazırlığın nəticələrinə dair Dövlət İmtahan Mərkəzi tərəfindən qiymətləndirmə aparılır və uğurlu nəticə göstərmiş şəxslərə 7 (yeddi) il müddətində etibarlı olan şəhadətnamələr təqdim edilir. 2025-ci il ərzində qiymətləndirmədə iştirak edərək uğur qazanmış şəxslərin əldə etdiyi şəhadətnamələrin növləri barədə məlumatlar Cədvəl 9-da təqdim edilir.

Cədvəl 9

Sertifikat növü	Sertifikatların ümumi sayı	Təqdim edilib	Namizəd sertifikatını götürməyib
Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin) peşəkarlıq səriştəsinə dair hazırlıq və yenidən hazırlıq	97	64	33
Taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq	24408	12905	11503
Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlıq və yenidən hazırlıq	109	95	14

Müasir dövrdə elektron hökumətin formalaşdırılması istiqamətində elektron xidmətlərin tətbiqi və inkişaf etdirilməsi zəruridir. Bununla əlaqədar Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq vətəndaşlara yeni elektron xidmətlər təqdim edir. Belə ki, internet səhifəsində vərtəndaşların əldə etdikləri sertifikatların həqiqiliyinin yoxlanılmasını təmin edən elektron xidmət hazırlanaraq istifadəyə verilmişdir. Qanunvericiliyə əsasən qiymətləndirmə fəaliyyəti üzrə 9 növ ixtisas şəhadətnaməsi elektron qaydada təqdim edilir. 2025-ci il ərzində ixtisas imtahanlarında iştirak edərək uğur qazanmış 299 nəfər şəxsə elektron formada müvafiq ixtisas şəhadətnamələri təqdim edilmişdir.

Digər sertifikat və şəhadətnamlərin də kağız daşıyıcılardan imtina edilərək yalnız elektron formada təqdim edilməsi üçün Mərkəz tərəfindən aidiyyəti dövlət orqanlarına qanunvericiliyə müvafiq dəyişiklik edilməsi barədə layihə təqdim edilmişdir.

27	GƏDƏBƏY RAYONU	4	6	10	14	1	15	25
28	GƏNCƏ ŞƏHƏRİ	94	7	101	208	5	213	314
29	GORANBOY RAYONU	2	1	3	0	1	1	4
30	GÖYÇAY RAYONU	12	1	13	35	0	35	48
31	GÖYGÖL RAYONU	0	1	1	0	0	0	1
32	HACIQABUL RAYONU	16	1	17	62	2	64	81
33	İMİŞLİ RAYONU	29	1	30	33	0	33	63
34	İSMAYILLI RAYONU	6	0	6	24	0	24	30
35	KƏLBƏCƏR RAYONU	11	8	19	31	6	37	56
36	KÜRDƏMİR RAYONU	14	2	16	39	0	39	55
37	LAÇIN RAYONU	17	0	17	24	1	25	42
38	LƏNKƏRAN ŞƏHƏRİ	25	5	30	60	4	64	94
39	LERİK RAYONU	12	0	12	36	0	36	48
40	MASALLI RAYONU	30	18	48	67	23	90	138
41	MİNGƏÇEVİR ŞƏHƏRİ	12	0	12	36	0	36	48
42	NAXÇIVAN MR BABƏK RAYONU	1	0	1	1	0	1	2
43	NEFTÇALA RAYONU	29	0	29	96	0	96	125
44	OĞUZ RAYONU	3	0	3	35	2	37	40
45	QAX RAYONU	1	0	1	19	0	19	20
46	QAZAX RAYONU	8	1	9	20	1	21	30
47	QƏBƏLƏ RAYONU	4	2	6	62	0	62	68
48	QOBUSTAN RAYONU	5	0	5	13	1	14	19
49	QUBA RAYONU	28	0	28	122	2	124	152
50	QUBADLI RAYONU	6	5	11	20	1	21	32
51	QUSAR RAYONU	7	1	8	41	1	42	50
52	SAATLI RAYONU	16	0	16	51	0	51	67
53	SABİRABAD RAYONU	49	3	52	53	4	57	109
54	ŞABRAN RAYONU	16	0	16	61	0	61	77
55	SALYAN RAYONU	38	8	46	83	0	83	129
56	ŞAMAXI RAYONU	33	2	35	91	1	92	127
57	SAMUX RAYONU	1	2	3	0	1	1	4
58	ŞƏKİ ŞƏHƏRİ	10	1	11	96	4	100	111
59	ŞƏMKİR RAYONU	45	3	48	77	0	77	125
60	ŞİRVAN ŞƏHƏRİ	14	0	14	40	0	40	54
61	SİYƏZƏN RAYONU	6	0	6	21	0	21	27
62	SUMQAYIT ŞƏHƏRİ	58	2	60	193	2	195	255
63	ŞUŞA RAYONU	0	0	0	3	0	3	3
64	TƏRTƏR RAYONU	9	0	9	28	2	30	39
65	TOVUZ RAYONU	13	1	14	50	3	53	67
66	UCAR RAYONU	14	1	15	35	1	36	51
67	XAÇMAZ RAYONU	31	1	32	98	0	98	130
68	XANKƏNDİ ŞƏHƏRİ	0	0	0	1	0	1	1
69	XOCALI RAYONU	1	0	1	7	0	7	8
70	XOCAVƏND RAYONU	1	0	1	7	0	7	8

Cədvəl 8 (ardı)

№	Rayon adı	IX sinif			XI sinif			Cəmi
		Eksternat	Əvvəlki illərin məzunu	Cəmi	Eksternat	Əvvəlki illərin məzunu	Cəmi	
71	YARDIMLI RAYONU	3	2	5	12	4	16	21
72	YEVLAX ŞƏHƏRİ	14	1	15	39	3	42	57
73	ZAQATALA RAYONU	13	4	17	60	5	65	82
74	ZƏNGİLAN RAYONU	2	3	5	10	0	10	15
75	ZƏRDAB RAYONU	5	0	5	15	0	15	20
	Yekun:	**1284**	**161**	**1445**	**3632**	**127**	**3759**	**5204**

Dövlət İmtahan Mərkəzi vətəndaşlar üçün məlumatların əlçatanlığı və vaxt itkisinin qarşısının alınması məqsədilə mütəmadi olaraq elektron xidmətlər hazırlayaraq, ictimaiyyətə təqdim edir. "Elektron hökumət portalı" üzərindən (EHİS) istifadə edilən belə xidmətlərdən biri də "Ümumi təhsil müəssisələrində təhsilalanların "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması" xidmətidir. Bu servisin köməyi ilə təhsil müəssisələrinin şagirdləri və keçmiş məzunları soyad, ad, ata adı və iş nömrəsi, yaxud sadəcə şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsi (FİN kod) əsasında "Şagird-məzun" sistemindəki fərdi və təhsilə aid məlumatlarına, o cümlədən imtahan nəticələrinə baxa, həmçinin məlumatları çap edə bilirlər. 2025-ci ildə bu elektron xidmət üzrə məlumatlardan istifadələrin sayı haqqında statistik göstəricilər Cədvəl 9-da təqdim edilir.

Cədvəl 9

Ay	Xidmətdən istifadələrin sayı
Yanvar	1971
Fevral	87049
Mart	103740
Aprel	155841
May	23554
İyun	9357
İyul	7681
Avqust	4375
Sentyabr	2386
Oktyabr	1314
Noyabr	1807
Dekabr	1980
CƏMİ:	**401055**

Cədvəl 9-dan göründüyü kimi, məzunlar imtahan kontingentinin formalaşdırıldığı və buraxılış imtahanlarının keçirildiyi fevral, mart və aprel aylarında elektron xidmətdən daha çox istifadə etmişdir. İstifadə zamanı şagirdlərin elektron qaydada göndərdiyi 180 sorğunu Mərkəz cavablandırmışdır. Bu məlumatlar "Şagird-məzun" sisteminə daxil edilmişdir.

2024/2025-ci tədris ili ərzində məzunlar təhsillərini davam etdirmək məqsədilə xarici ölkələrin təhsil müəssisələrinə təqdim edilməsi, iş yerinə təqdim edilməsi və bu kimi digər məqsədlər üçün Mərkəzin müvafiq elektron xidmətindən istifadə etməklə real vaxt rejimində imtahan nəticələri barədə 2776 arayış çap etmişdir. Çap edilmiş arayışlar barədə statistik məlumat Cədvəl 10-da təqdim edilir.

Cədvəl 10

Ay	Elektron xidmətdən istifadə etməklə çap edilmiş imtahan nəticələri barədə arayışların sayı
Yanvar	124
Fevral	213
Mart	95
Aprel	219
May	144
İyun	623
İyul	620
Avqust	288
Sentyabr	135
Oktyabr	116
Noyabr	102
Dekabr	97
CƏMİ:	**2776**

Musiqi ixtisasları üzrə bakalavriat səviyyəsinə qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanında iştirak etməsi üçün onların musiqi təhsili barədə məlumatlarının incəsənət muəssisələri tərəfindən "İncəsənət məktəbi-məzun" informasiya sisteminə daxil edilməsi zəruridir. Bununla əlaqədar 40 ixtisas üzrə incəsənət məktəblərini bitirmiş 9360 məzun barədə məlumat 2024/2025-ci tədris ilində "İncəsənət məktəbi-məzun" informasiya sisteminə daxil edilmişdir. Həmin məzunların incəsənət ixtisasları üzrə sayı Cədvəl 11-də təqdim edilir.

Cədvəl 11

№	Musiqi ixtisasının adı	"İncəsənət məktəbi-məzun" sistemində qeydiyyatdan keçib
1	akkordeon	1
2	arfa	3
3	balaban	44
4	bəstəkarlıq	1
5	faqot	2
6	fleyta	29
7	fortepiano	4312
8	fortepiano-caz musiqi təmayüll	5
9	gitara	5
10	kamança	411
11	klarnet	107
12	klassikvokal	2
13	kontrabas	2
14	millivokal	2
15	nağara	393
16	nəzəriyyə	39
17	orqan	1
18	qanun	67
19	qarmon	1104
20	qoboy	6
21	rəssamlıq	138
22	saksofon	12
23	saz	285
24	sintezator	5
25	tar	1138
26	trombon	6
27	truba	36
28	tuba	1
29	valtorna	5
30	viola (alt simli)	3
31	violin (skripka)	423
32	violonçel	8
33	vokal	84
34	x.ç. alətləri ork. dirijorluğu	2
35	xanəndəlik	384
36	xanəndəlik (muğam)	61
37	xor	10
38	Xor dirijorluğu	15
39	xoreoqrafiya	197
40	zərb alətləri	11
	Yekun:	**9360**

Göründüyü kimi, “Şagird-məzun” və “İncəsənət məktəbi-məzun” sistemləri müxtəlif tip hesabatların, analitik və statistik təhlillərin aparılmasını təmin edir. 2025-ci ildə Dövlət İmtahan Mərkəzi həmin informasiya sistemlərinin və müvafiq proqram təminatının təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində fəaliyyətini davam etdirmişdir.

Ümumtəhsil müəssisələrində yekun attestasiyanın, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında, o cümlədən qabiliyyət imtahanlarında iştirak üçün qeydiyyatın aparılması, bir sıra imtahanların keçirilməsi zamanı müvafiq kontingentin formalaşdırılması, Mərkəzin məlumat bazalarının zənginləşdirilməsi və bu kimi çoxsaylı funksiyaların yerinə yetirilməsində “Şagird-məzun” və “İncəsənət məktəbi-məzun” informasiya sistemləri mühüm əhəmiyyətə malikdir. Bu xüsusiyyətlərinə görə “Şagird-məzun” dövlət elektron məlumat sistemi və “İncəsənt məktəbi-məzun” elektron məlumat sistemi 2025-ci ildə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Təhlükəsizlik Xidməti tərəfindən Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Qeydiyyatına alınmışdır (Şəkil 1 və Şəkil 2).



AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
ELEKTRON TƏHLÜKƏSİZLİK XİDMƏTİ

FƏRDİ MƏLUMATLARIN İNFORMASİYA SİSTEMLƏRİNİN DÖVLƏT QEYDİYYATINA ALINMASI BARƏDƏ DÖVLƏT REYESTRİNDƏN

ÇIXARIŞ

№ İS590005003

“ŞAGİRD-MƏZUN” DÖVLƏT ELEKTRON MƏLUMAT SİSTEMİ (ŞMDEMS)
(informasiya sisteminin tam adı)

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ
(müraciətedənin tam adı)

03 noyabr 2025-ci il tarixində qeyd olunan İnformasiya Sistemi İS590005003 nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

Çıxarış İnformasiya Sisteminin dövlət qeydiyyatı ləğv edildikdən sonra 3 gün müddətində geri qaytarılmalıdır.

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti

M.Y. (imza)

Elektron Təhlükəsizlik Xidmətinin rəisi Fərid Zeynalov
(vəzifəsi, adı, soyadı)

03.11.2025-ci il

Şəkil 1.



AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
ELEKTRON TƏHLÜKƏSİZLİK XİDMƏTİ

FƏRDİ MƏLUMATLARIN İNFORMASİYA SİSTEMLƏRİNİN DÖVLƏT QEYDİYYATINA ALINMASI BARƏDƏ DÖVLƏT REYESTRİNDƏN

ÇIXARIŞ

№ İS590005002

“İNCƏSƏNƏT-MƏZUN” ELEKTRON MƏLUMAT SİSTEMİ (İMEMS)
(informasiya sisteminin tam adı)

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ
(müraciətedənin tam adı)

03 noyabr 2025-ci il tarixində qeyd olunan İnformasiya Sistemi İS590005002 nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

Çıxarış İnformasiya Sisteminin dövlət qeydiyyatı ləğv edildikdən sonra 3 gün müddətində geri qaytarılmalıdır.

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti

M.Y. (imza)

Elektron Təhlükəsizlik Xidmətinin rəisi Fərid Zeynalov
(vəzifəsi, adı, soyadı)

03.11.2025-ci il

Şəkil 2.

“Tələbə-məzun” dövlət elektron məlumat sistemində yeniliklər, 2025-ci ilin yekunalrı və analitik təhlil

M.M.Abbaszadə, V.O.Əkbərov, S.S.Mərdanov, R.H.Mahmudov

YENİLİKLƏR

2025/2026-cı tədris ilində Dövlət İmtahan Mərkəzi ölkənin ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri barədə məlumatların toplanması, zənginləşdirilməsi və emalını davam etdirmişdir. Tədris ilində Dövlət İmtahan Mərkəzi ali və orta ixtisas təhsili müəssisələrinə mərkəzləşdirilmiş qəbul barədə məlumatları, təhsil müəssisələrinin məsul şəxsləri isə tələbələr haqqında müvafiq məlumatları “Tələbə-məzun” dövlət elektron məlumat sisteminə daxil etmişdir. “Tələbə-məzun” sisteminin yeni funksional imkanlar hesabına təkmilləşdirilməsi davam etdirilmişdir.

Dövlət İmtahan Mərkəzinin fəaliyyət sahəsi üzrə müxtəlif istiqamətlərdə “Tələbə-məzun” sisteminin məlumat bazasından geniş istifadə edilir. Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, dövlət qulluğu üzrə test imtahanları və müsahibələr, müxtəlif növ sertifikatların alınması, doktorontura üzrə xarici dil və bu kimi müxtəlif növ imtahanlarda iştirak etmək üçün elektron qeydiyyatdan keçən vətəndaşların təhsil məlumatları “Tələbə-məzun” sisteminin vasitəsilə real vaxt rejimində onların elektron ərizəsinə ötürülür.

Mərkəzin hazırladığı “Dövlət Qulluqçularının Reyestri” informasiya sisteminin “Tələbə-məzun” sisteminə inteqrasiya edilməsi nəticəsində dövlət orqanları dövlət qulluqçularının təhsil məlumatları barədə dəqiq məlumat almaq və Reyestrə daxil etmək imkanı əldə etmişdir.

“Tələbə-məzun” sistemindən dövlət qulluğu üzrə müsahibələrədə iştirak etmək istəyən namizədlərin sənədlərinin yoxlanılması prosesində istifadə edilir. Bu məqsədlə Mərkəzin “Namizəd-yoxlama” sistemi və “Tələbə-məzun” sistemi arasında təhsil məlumatlarının ötürülməsi mexanizmi yaradılmışdır.

Peşəkar mühasib sertifikatı almaq istəyən namizədlərin təhsil sənədlərinin yoxlanılması “Tələbə-məzun” sisteminin köməyi ilə həyata keçirilir. Qeyd etmək lazımdır ki, dövlət qulluğu və peşəkar mühasib sertifikatı imtahanlarının keçirilməsi 1992-ci ildən əvvəl təhsilini başa vurmuş şəxslər barədə müvafiq məlumatların “Tələbə-məzun” sisteminə daxil edilməsini sürətləndirmişdir. 2025-ci ilin sonunadək bu kateqoriyadan olan 13000-dən çox şəxsin təhsil haqqında məlumatı təhsil müəssisələri tərəfindən sistemə daxil edilmişdir.

Yuxarıda qeyd olunan xüsusiyyətlərinə görə “Tələbə-məzun” dövlət elektron məlumat sistemi 03 noyabr 2025-ci ildə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Elektron Təhlükəsizlik Xidməti tərəfindən Fərdi Məlumatların Dövlət Qeydiyyatına alınmışdır (Şəkil 1).



AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
ELEKTRON TƏHLÜKƏSİZLİK XİDMƏTİ

FƏRDİ MƏLUMATLARIN İNFORMASİYA SİSTEMLƏRİNİN DÖVLƏT QEYDİYYATINA ALINMASI BARƏDƏ DÖVLƏT REYESTRİNDƏN

ÇIXARIŞ

№ İS590005001

“TƏLƏBƏ-MƏZUN” DÖVLƏT ELEKTRON MƏLUMAT SİSTEMİ (TMDEMS)
(informasiya sisteminin tam adı)

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ
(müraciətedənin tam adı)

03 noyabr 2025-ci il tarixində qeyd olunan İnformasiya Sistemi İS590005001 nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

Çıxarış İnformasiya Sisteminin dövlət qeydiyyatı ləğv edildikdən sonra 3 gün müddətində geri qaytarılmalıdır.

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti

M.Y. *(imza)*

Elektron Təhlükəsizlik Xidmətinin rəisi Fərid Zeynalov
(vəzifəsi, adı, soyadı)

03.11.2025-ci il

Şəkil 1.

“Hökumət buludu”nun (G-cloud) yaradılması və “bulud” xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2019-cu il tarixli 718 nömrəli Fərmanı ilə yeni texnologiyalara əsaslanan hökumət bludu yaradılmış və dövlət informasiya sistemlərinin və ehtiyatlarının “Hökumət buludu”na keçirilməsi planına uyğun olaraq “Tələbə-məzun” sistemi və Mərkəzin sahib və administratoru olduğu digər informasiya sistemlərinin buluda keçirilməsi 2025-ci ildə təmin edilmişdir. Bulud platformasına keçid əlavə server avadanlıqlarının alınması və onlara xidmət göstərilməsi xərclərini azaldır, məlumatlar bazasının yüksək səviyyəli mühafizə sistemləri ilə qorunmasını təmin edir, kiber hücumlara qarşı daha dayanıqlı olur və zəruri hallarda resursların (yaddaş, sürət) həcminin artırılmasına şərait yaradır.

İLİN YEKUNLARI VƏ ANALİTİK TƏHLİL

2025-ci ilin sonuna olan vəziyyətə görə “Tələbə-məzun” sisteminə 1700000-dən çox tələbə haqqında məlumatlar daxil edilmişdir. Onlardan 91%-nin fərdi identifikasiya nömrəsi (FİN) sistemdə mövcuddur. FİN kodunun mövcud olmadığı məlumatlar, əsasən, əvvəlki illərə aid olan dövrü əhatə edir. Mərkəzin xüsusi proqram sisteminin köməyi ilə 2025-ci ildə 7000-dək tələbənin FİN kodu sistemə daxil edilmişdir. Hazırda sistemə daxil edilməmiş FİN-lərin müəyyən olunması və sistemə daxil edilməsi prosesi davam etdirilir.

2025-ci ildə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi arasında “Təhsil sahəsinin rəqəmsallaşdırılması üzrə Yol Xəritəsi” (bundan sonra – Yol Xəritəsi) razılaşdırılmışdır. Həmin Yol Xəritəsinə əsasən hər üç qurumun mütəxəssislərindən ibarət işçi qrup yaradılmış və mütəmadi müzakirələr aparılmışdır. Bu müddət ərzində təhsil məlumatlarının ilkin mənbəyi müəyyən edilmiş, təhsil müəssisələrinin, ali təhsil müəssisələrində ixtisasların və şifrələrin adlarının və digər məlumatların unikal kodlaşdırılmasını təmin edən vahid soraqçalar yaradılmış, Elm və Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin məlumat bazalarında saxlanılan son 15 ilə aid (50000-dək) diplom məlumatları dürüstləşdirilməyə təqdim edilmişdir. Nəticədə, təhsil müəssisələri Mərkəzin təqdim etdiyi 15000-dən çox ali və orta ixtisas təhsili üzrə diplom məlumatlarını “Tələbə-məzun” sisteminə daxil etmişdir. Hazırda proses davam edir.

Ali və orta ixtisas təhsili müəssisələrinə, rezidenturaya, doktoranturaya (xarici dil üzrə) və dövlət qulluğuna, o cümlədən xüsusi növ dövlət qulluğuna qəbul imtahanlarında, həmçinin dövlət qulluğunda inzibati vəzifələrin tutulması üçün keçirilən müsahibələrdə iştirak edən şəxslərin təhsil sənədlərinin dövlət nümunəli olub-olmamasını Mərkəz mütəmadi olaraq araşdırır. 2025-ci ildə ümumilikdə 156 şəxs olmaqla 108 bakalavr və 48 orta ixtisas diplomunun həqiqiliyinin yoxlanılması üçün Elm və Təhsil Nazirliyinə müvafiq sorğular göndərilmişdir. Sorğulara cavab olaraq 58 nəfərə aid 22 bakalavr və 36 orta ixtisas diplomu barədə məlumatın aşkarlanmadığı, dövlət nümunəli olmadığı və ya hüquqi əsasının olmadığı bildirilmişdir. Mərkəz həmin diplomlarla bağlı araşdırmanın aparılması və hüquqi qiymətin verilməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət etmişdir. Müraciətə cavab olaraq diplomların saxtalaşdırılması və digər qanunsuz hərəkətlərə yol verilməsi ilə bağlı müvafiq tədbirlərin görüldüyü bildirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 793 nömərli 03 sentyabr 2001-ci il tarixli Sərəncamı ilə 2001/2002-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi qərara alınmış və müvafiq təqaüdlər müxtəlif ixtisas qrupuna qəbul olmuş tələbələrə verilmişdir. 2025-ci ildə Prezident təqaüdünə layiq görülmüş 102 tələbə, ümumilikdə isə 2001-ci ildən etibarən 2305 tələbə barədə müvafiq məlumat “Tələbə-məzun” sisteminə daxil edilmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2025-ci ildə də “Yüksəliş” layihəsində iştirak etmək istəyən vətəndaşların qeydiyyatı zamanı təhsil məlumatlarının “Tələbə-məzun” sistemi üzərindən veb servis vasitəsilə ötürülməsi təmin edilmiş və bununla bağlı müvafiq texniki dəstək göstərilmişdir.

“Tələbə-məzun” sistemində əlavə təhsil almaq üçün təhsil müəssisələrinə müraciət etmiş şəxslərin baza təhsilinin mövcudluğu yoxlanılır, təsdiq edildiyi halda əlavə təhsil məlumatlarının daxil edilməsinə imkan yaradılır. 2025-ci ildə həmin kateqoriyadan olan şəxslərdən 3148 nəfər barədə məlumat təhsil müəssisələri tərəfindən sistemə daxil edilmişdir.

2025-ci ildə 69760 tələbənin diplom məlumatları "Tələbə-məzun" sisteminə daxil edilmişdir. İlin sonuna olan vəziyyətə görə "Tələbə-məzun" sistemində 1067884 məzuna aid diplom məlumatları mövcud olmuşdur.

2025/2026-cı tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə, həmçinin rezidenturaya qəbul barədə statistik məlumatlar və əvvəlki illə müqayisəli təhlil Cədvəl 1-də təqdim edilir:

Cədvəl 1

İmtahan növü	2024/2025-ci tədris ili		2025/2026-cı tədris ili		İllər üzrə müqayisə	
	Ərizə verib (ərizələrin sayı)	Qəbul olub	Ərizə verib (ərizələrin sayı)	Qəbul olub	Ərizə verənlərin fərqi	Qəbul olanların fərqi
Bakalavriat (imtahanla)	177490	46117	195780	47956	18290	1839
Bakalavriat (V qrup, imtahanla)	102545	3935	117574	4191	15029	256
Bakalavriat (V qrup, medal)	82	80	83	83	1	3
Bakalavriat (olimpiada qalibi)	49	43	90	73	41	30
Bakalavriat (IB)	23	22	35	33	12	11
Bakalavriat (SAT)	113	113	691	681	578	568
Bakalavriat (subbakalavrdan)	31535	5689	30547	5134	-988	-555
Magistratura	39516	13261	42530	13456	3014	195
Rezidentura	3541	598	3639	576	98	-22
Subbakalavriat (9 illik üzrə)	37417	10219	33205	7467	-4212	-2752
Subbakalavriat (11 illik üzrə)	102545	12722	117544	15234	14999	2512
Cəmi:	**392311**	**92799**	**424174**	**94884**	**31863**	**2085**
Artım (%)					**7.5%**	**2.2%**

Cədvəl 1-dən göründüyü kimi, 2024-ci illə müqayisədə 2025-ci ildə ərizə verənlərin sayı 7.5 %, qəbul olanların sayı 2.2% artmışdır.

1992–2025-ci illər ərzində qəbul imtahanları nəticəsində tələbə statusu qazanmış şəxslər barədə statistik məlumatlar isə Cədvəl 2-də verilir.

Cədvəl 2

Təhsil səviyyəsi	Say
Bakalavriat	1109933
Magistratura	143329
Tam orta təhsil bazasından orta ixtisas təhsili	284386
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	209252
Cəmi:	**1746900**

2025-ci ilin sonunadək təhsil müəssisələrinin qanunvericilikdə müəyyən edilmiş qaydada daxili əmrlə qəbul etdiyi və "Tələbə-məzun" sisteminə daxil etdiyi şəxslər barədə məlumatlar Cədvəl 3-də təqdim edilir:

Cədvəl 3

Qəbul forması	Bakalavr	Magistr	Tam orta təhsil bazasından orta ixtisas təhsili	Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	Say
Təhsil müəssisəsi tərəfindən həyata keçirilimiş qəbul	13770	2335	433	6646	**23184**
Xarici təhsil müəssisələrindən köçürmələr	15211	23	52	35	**15321**
Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin qəbulu	12535	1105	88	77	**13805**
Əlavə təhsil almaqi stəyən şəxslərin qəbulu	19369	0	5536	120	**25025**
Cəmi:	**60885**	**3463**	**6109**	**6878**	**77335**

Təhsil müəssisələri tələbələrin təhsil aldığı dövrdə baş vermiş xaricolunma, bərpa, ixtisasdəyişmə, təhsilalma formasının dəyişməsi, ödəniş formasının dəyişməsi, fərdi məlumatlardakı dəyişikliklər və digər məlumatları "Tələbə-məzun" sisteminə daxil edir. Həmin məlumatların 2025-ci il üzrə statistikası Cədvəl 4-də təqdim edilir.

Cədvəl 4

Əməliyyatın adı	Təhsil səviyyələri üzrə saylar				
	Bakalavriat	Magistratura	Tam orta ixtisas bazası	Ümumi orta ixtisas bazası	Cəmi
Əcnəbi vəvətəndaşlığı olmayan tələbələrin qəbulu	1343	85	8	18	1454
Əlavə təhsil almaq istəyən şəxslərin qəbulu	2565	0	1300	14	3879
Təhsil müəssisəsi tərəfindən həyata keçirilimiş qəbul	2541	328	63	244	3176
Xarici təhsil müəssisələrindən köçürmələr	372	1	2	0	375
Ölkədaxili köçürmələr	634	15	196	95	940
İxtisas dəyişmələri	427	8	89	146	670
İxtisas dəyişməklə ölkədaxili köçürmələr	381	3	44	36	464
Təhsilalma forması dəyişmələri	217	1	24	73	315
Təhsilalma forması dəyişməklə ölkədaxili köçürmələr	53	0	8	5	66
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ixtisas dəyişmələri	0	0	5	2	7
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ölkədaxili köçürmələr	1	0	7	9	17
Akademik borca görə xaricedilmələr	684	36	73	145	938
Digər təhsil müəssisəsinə köçürülmə ilə əlaqədar xaricedilmələr	725	12	105	84	926

Cədvəl 4 (ardı)

Əməliyyatın adı	Təhsil səviyyələri üzrə saylar				
	Bakalavriat	**Magistratura**	**Tam orta ixtisas bazası**	**Ümumi orta ixtisas bazası**	**Cəmi**
Təhsil haqqının ödənilməməsinə, dərs buraxmaya görə və ya öz xahişi ilə xaricedilmələr	6122	1897	2624	2326	12969
Təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması ilə əlaqədar xaricedilmələr	79	0	7	29	115
Təkrar kursda saxlanılmalar	44	0	3	67	114
Akademik məzuniyyətin alınması (xaricdə təhsil almaq məqsədilə)	165	85	0	0	250
Akademik məzuniyyətin alınması (xəstəlik və digər səbəblərdən)	1016	230	166	108	1520
Akademik məzuniyyətin alınması (həqiqi hərbi xidmətə çağırışla əlaqədar)	743	265	2010	238	3256
Akademik məzuniyyətin alınması (təhsil haqqını ödəmək imkanının olmamasına görə)	23	0	4	2	29
Bərpalar	2122	479	1787	473	4861
İxtisas dəyişməklə tələbələr sırasına bərpalar	11	0	0	0	11
Təhsilalma forması dəyişməklə tələbələr sırasına bərpalar	1	0	0	0	1
Dövlət sifarişi əsasında təhsildən ödənişli əsaslarla təhsilə keçməklə tələbələr sırasına bərpalar	124	68	132	105	429
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə tələbələr sırasına bərpalar	69	4	91	23	187
Şəxsi məlumatların dəyişməsi	240	95	0	0	335
Ölüm halları	33	5	67	95	200
Diplom alma	2319	395	477	240	3431
Cəmi:	**23054**	**4012**	**9292**	**4577**	**40935**

"Tələbə-məzun" sistemində istifadəçilərin müxtəlif parametrlərə üzrə apardlğı bütün növ axtarışların sayı yadda saxlanılır. 2025-ci il ərzində icra edlmiş axtarışların statistikası Cədvəl 5-də verilir.

Cədvəl 5

Axtarışın növü	Ali təhsil müəssisələri	Orta ixtisas təhsili müəssisələri	Dövlət orqanları		Cəmi
			DİM	**Digər orqanlar**	
İdentifikasiya kodu və FİN-ə görə axtarış	46222	3764	19957	13333	**83276**
Şəxsi məlumata görə axtarış	327795	154146	2069	11582	**495592**
Diplom məlumatına görə axtarış	2467	365	248	3639	**6719**
İxtisasa görə axtarış	11	2489	2	215	**2717**
Təhsildə fasiləyə görə axtarış	16	42	16	10	**84**
Bərpaya görə axtarış	14	8	11	0	**33**
Cəmi:	**376525**	**160814**	**22303**	**28779**	**588421**

Növbəti cədvəldə (Cədvəl 6) dövlət orqanları üzrə istifadəçilərin 2025-cü il ərzində veb-servis üzərindən FİN əsasında "Tələbə-məzun" sisteminə müraciətləri barədə statistik məlumat təqdim edilir.

Cədvəl 6

İstifadəçilər	Müraciət sayı
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	14752535
Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi	54276
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi	3359286
Elektron Hökumət Portalı	4376383
Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti	909252
Cəmi:	**23451732**

İl ərzində "Tələbə-məzun" sisteminin məsul şəxsləri sistem üzərindən bu və ya digər məsələ ilə bağlı Mərkəzə 41244 müraciət ünvanlamışdır. Mərkəz isə sistem istifadəçilərinə 89931 məktub göndərmişdir.

2025-ci ildə subbakalavriat, bakalavriat və magistratura səviyyələrini bitirmiş şəxslər barədə məlumatlar Cədvəl 7-də təqdim edilmişdir. Bu cədvəldəki rəqəmlər təhsil müəssisələrinin informasiya sisteminə daxil etdiyi məlumatlara əsaslanır.

Cədvəl 7

Təhsil pilləsi və səviyyələri	Təhsilini başa vurmalı olan tələbələrin sayı					Məzunların sayı				Təhsilini davam etdirən tələbələrin sayı	Xaric olunan, fasilə verən, başqa tədris illərinə bərpa olunan tələbələrin sayı
	Qəbul forması					Məzun əmri verilib		O cümlədən diplom rekvizitiləri daxil edilib			
	DİM qəbulu	Xaricdən köçürülmə	Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin qəbulu	Əlavə təhsilə qəbul	Cəmi	Say	%	Say	%		
Bakalavriat	39213	124	1018	1168	41523	36970	93.75	32831	88.8	2465	2088
Magistratura	13533	2	48	0	13583	11136	91.23	8109	72.82	1070	1377
Tam orta təhsil bazasından orta ixtisas təhsili	12855	4	14	557	13430	9747	88.24	8574	87.97	1299	2384
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	10158	1	4	4	10167	7974	89.86	6467	81.1	900	1293
Cəmi:	**75759**	**131**	**1084**	**1729**	**78703**	**65827**	**83.64**	**55981**	**85.04**	**5734**	**7142**

İnsan resurslarının idarə edilməsi üzrə elektron sistemlərin tətbiqi

V.O.Əkbərov, M.E.Mustafayev

Müasir dövrdə insan resurslarının səmərəli idarə edilməsi, bu sahədə şəffaflığın və operativliyin təmin edilməsi təşkilatın fəaliyyətinin keyfiyyətini birbaşa şərtləndirən amillərdəndir. İş vaxtının düzgün uçotu, əməkdaşların davamiyyətinə nəzarət, kadr məlumatlarının dəqiqliyi, operativlik kimi məsələlərdə əl ilə aparılan işlərin və kağız daşıyıcıların elektron metodlarla əvəz edilməsi həm vaxt itkisinin azalmasına, həm də məlumatların etibarlılığının artmasına səbəb olur.

Dövlət İmtahan Mərkəzində idarəetmə proseslərinin optimallaşdırılması və insan resurslarının fəaliyyətinin müasir standartlara uyğunlaşdırılması məqsədilə 2025-ci ildə müvafiq struktur dəyişiklikləri həyata keçirilmişdir. Bu dəyişikliklər çərçivəsində Hüquqi təminat, dövlət qulluğu və insan resursları departamentinin tərkibində fəaliyyət göstərən İnsan resursları sektoru bazasında İnsan resurslarının idarə edilməsi şöbəsi yaradılmışdır. Eyni zamanda Mərkəz Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 96-cı maddəsində nəzərdə tutulmuş cəmlənmiş uçot qaydasına keçid etmişdir.

Yeni qaydanın tətbiq edilməsi zamanı hər bir əməkdaşın şəxsi iş məlumatlarının toplanması, iş qrafikinin tərtib edilməsi, giriş-çıxış vaxtlarının izlənilməsi, işlənmiş saatların hesablanması, icazələrin qeydiyyatı kimi proseslərin avtomatlaşdırılması, proqram sistemlərinin köməyi ilə iş prosesinin şəffaflığının və operativliyinin təmin edilməsi zərurəti yaranmışdır. Bununla əlaqədar .NET və .NET Core 10 MVC arxitekturası əsasında C++ və C# proqramlaşdırma dillərində çoxfunksiyalı "İnsan Resursları Portalı" (İRP) və əməkdaşların şəxsi iş məlumatlarına çıxış imkanının təmin edilməsi, insan resurslarını idarəetmə proseslərinin daha da təkmilləşdirilməsi məqsədilə "DİM Kadr" elektron informasiya sistemləri hazırlanmış və istifadəyə verilmişdir.

"İnsan Resursları Portalı"nın (İRP) funksionallığı və idarəetmə mexanizmləri

İnsan Resursları Portalına (İRP) giriş Mərkəzin əməkdaşlarının domen autentifikasiyası üzərindən həyata keçirilir. Portala girişin aşağıdakı növləri mövcuddur:

- İnsan resurslarının idarə edilməsi şöbəsinin əməkdaşı kimi giriş bütün əməkdaşların iş vaxtına, giriş-çıxış saatlarına, icazə və qrafik məlumatlarına baxılmasına imkan verir;
- Digər struktur bölmələrin əməkdaşı kimi giriş hər bir əməkdaşın özünə aid giriş-çıxış saatları, iş qrafiki, icazə balansı, hesabatlar və s. məlumatlara baxmaq imkanını təmin edir.


Eyni zamanda rəhbərlik bütün əməkdaşların, struktur bölmə rəhbərləri isə həmin strukturda olan əməkdaşların müvafiq məlumatlarına çıxış əldə edir. Belə çoxsəviyyəli yanaşma məlumat təhlükəsizliyini təmin etməklə bərabər hər bir istifadəçi üçün rol əsaslı funksionallıq yaradır (Şəkil 1).



Şəkil 1


Portalın əsas imkanları aşağıdakı modullarda öz əksini tapmışdır:

- **İş vaxtının uçotu və davamiyyətin izlənməsi:** Əməkdaşların binaya giriş-çıxış vaxtları quraşdırılmış turniket cihazları vasitəsilə avtomatik qeydə alınır və İRP-yə inteqrasiya edilir, habelə əməkdaşlar binada olma müddətlərini real vaxt rejimində izləyə bilirlər. Sistem avtomatik olaraq gecikmələri, binadan tez çıxmaları, kartdan istifadə edilmədiyi günləri və iş qrafikinin pozulması hallarını qeydə alır. İnsan resurslarının idarə edilməsi şöbəsinin əməkdaşı bütün işçilərin, struktur bölmə rəhbərləri isə həmin struktur bölmədə çalışan işçilərin məlumatlarına baxmaq və analiz etmək imkanına malikdir. Bu modul iş vaxtının idarə edilməsində şəffaflığı təmin edir, həmçinin Mərkəzdəki nizam-intizam qaydalarına əməl edilməsinə xidmət edir (Şəkil 2).



Şəkil 2.


- **İstehsalat təqvimi:** İnsan resursları əməkdaşları üçün yaradılmış xüsusi bölmədə müvafiq ilin istehsalat təqvimi, hər ay üzrə aylıq iş vaxtı norması, qeyri-iş günləri (bayram günləri, ümumxalq hüzn günü, səsvermə günləri, qısaldılmış iş günləri, bayramın istirahət günləri, iş və istirahət günləri) bu interfeysdən rahatlıqla izlənilir və avtomatik tənzimlənir. Zəruri hallarda, məsələn, Nazirlər Kabinetinin müvafiq qərarı əsasında təqvimə İnsan resurslarının idarə edilməsi şöbəsinin əməkdaşı tərəfindən dəyişiklik edilməsi mümkündür. İş qrafiklərinin tərtib edilməsi, tabelin hesablanması və iş saatlarının müəyyən edilməsi bu təqvim əsasında baş verir (Şəkil 3).



Şəkil 3.


- **Əvəzetmə modulu:** Bu modul **s**truktur bölmə rəhbərinin bu və ya digər səbəbdən portal üzrə bəzi səlahiyyətlərinin (iş qrafiklərinin yoxlanılması, icazələrin təsdiqi və s.) tabeliyində olan işçiyə həvalə edilməsi məqsədilə idarəetmənin fasiləsizliyinin təmin edilməsi üçün yaradılmışdır.
- **İş qrafiklərinin elektronlaşdırılması:** Cəmlənmiş iş vaxtı uçotu sisteminə keçidlə əlaqədar hər bir əməkdaş üçün fərdi iş qrafikinin tərtib edilməsi zəruridir. Əvvəllər bu proses kağız daşıyıcıda aparılırdı ki, bu da vaxt və resurs itkisinə səbəb olurdu. Portalda yaradılmış "İş qrafikləri" (Şəkil 4) bölməsində aşağıdakı işlər yerinə yetirilir:
  - ✓ hər bir işçi növbəti ay üzrə fərdi iş qrafikini cari ayın sonunadək portal üzərindən sistemə daxil edir;
  - ✓ təqdim olunan qrafikləri struktur bölmə rəhbəri növbəti ayın sonunadək yoxlayır və təsdiqləyir;
  - ✓ təsdiqlənmiş qrafikdə sonradan dəyişiklik zərurəti yarandıqda, müvafiq struktur bölmə rəhbəri bu barədə İnsan resurslarının idarə edilməsi şöbəsinə elektron qaydada bildirir;
  - ✓ işçilərin ay ərzində hərəkəti (məzuniyyət, ezamiyyət, xəstəlik vərəqələri və s.) üzrə məlumatları İnsan resurslarının idarə edilməsi şöbəsi müvafiq sistemə daxil edir və həmin məlumatlar portala inteqrasiya edilir;

✓ təsdiqlənməyən iş qrafikləri sistemdə qüvvəyə minmir, lakin işçinin turniket cihazı üzrə qeydə alınmış faktiki giriş-çıxış vaxtları hüquqi əsas kimi saxlanılır.




Şəkil 4.

- **Tabelin avtomatlaşdırılması:** Bu modul aylıq əmək haqqının hesablanması üçün tabelin formalaşdırılması məqsədilə hazırlanmışdır. Burada hər bir struktur bölmənin rəhbəri bölmə əməkdaşlarının iş saatlarını təsdiqləyir. Prosesin avtomatlaşdırılması nəticəsində tabellər barədə məlumatların real vaxt rejimində kağız daşıyıcı olmadan Maliyyə departamentinə çatdırılması təmin edilir (Şəkil 5).



Şəkil 5.

- **İcazələr:** Portalda işçilərin şəxsi məsələlər və yaxud xidməti zərurətlə bağlı iş yerini müvəqqəti tərk etməsi hallarının uçota alınması üçün "İcazələr" modulu yaradılmışdır. Əməkdaşlar icazələri səbəbi göstərilməklə sistemə daxil edir və onları struktur bölmə rəhbəri təsdiq edir (Şəkil 6). Bu modula aşağıdakı proseslər daxildir:
  - ✓ iş yerini tərk etməli olduqda əməkdaş səbəbi göstərilməklə icazəni sistemə daxil edir;
  - ✓ struktur bölmə rəhbəri razıdırsa, icazəni təsdiqləyir;
  - ✓ alınmış icazə saatları cəmlənmiş iş uçotu dövründə əvəzlənir (xidməti zərurətlə əlaqədar və əvəz olunması tələb edilməyən icazələr istisna olmaqla);
  - ✓ xidməti zərurətlə əlaqədar iş yerini tərk etmə halları da eyni qaydada sistemdə qeydiyyata alınır, lakin bu halda əvəzləmə tələb olunmur;
  - ✓ sistemdə icazə ilə bağlı təsdiq edilmiş sorğuların dəyişdirilməsi və ya ləğvi yalnız işçinin özü tərəfindən icazə müddətinin başladığı vaxtadək mümkündür.



Şəkil 6.

İRP və analitik hesabatlılıq

İRP-nin tətbiqi idarəetmə qərarlarının qəbulu üçün dəqiq statistik məlumatların əldə olunmasına şərait yaratmışdır. Portal üzərindən aşağıdakı hesabatları almaq mümkündür:

- ❖ **Normadan çox (az) iş saatları, qalıq əvəzgünlər və illik əvəzsiz icazə qalıqlarına dair hesabat.**
  Bu hesabat vasitəsilə hər bir işçi qeydiyyat dövrü üzrə müvafiq ilin istehsalat təqviminə nisbətdə iş saatlarının miqdarı, əvəzgünün sayı, habelə illik əvəzsiz icazə qalığına dair məlumat əldə edir.
- ❖ **Gecikmə, tez çıxma, kartsız giriş-çıxış və davamiyyət faizi ilə bağlı hesabat.**
  Bu hesabat hər bir işçinin təyin etdiyi iş qrafiki üzrə gecikmə sayını, vaxtından əvvəl çıxma sayını, kartdan istifadə etmədən giriş-çıxış etdiyi günlərin sayını və davamiyyət faizini əks etdirir.

- **İşçilərin davamiyyət paylanması haqqında hesabat:** Bu hesabat vasitəsilə struktur bölmə rəhbərləri cari gün (və ya seçilmiş tarix) üzrə işçilərin bülletendə, bunkerdə, məzuniyyətdə, ezamiyyətdə, əvəzgündə, iş qrafiki üzrə istirahətdə və ya iş qrafiki üzrə işdə olmasını asanlıqla izləyə bilir.
- **Həftəsonu, bayram, bayramın istirahət günü və qeyri-iş günləri işləyənlərə dair hesabat:** Bu hesabat şənbə-bazar və müvafiq ilin istehsalat təqvimi üzrə qeyri-iş günlərində hansı işçilərin işə cəlb olunmasını əks etdirir.


Portal üzərindən verilən və alınan bütün icazələr, davamiyyət göstəriciləri, gecikmələr və ümumilikdə sistemdə icra olunan bütün əməliyyatlar avtomatik şəkildə qeydə alınır və dövri hesabatlar formasında rəhbərliyə təqdim olunur.

Struktur bölmələri və həmin bölmələrdə çalışan əməkdaşlar barədə müvafiq məlumatlar İnsan resurslarının idarə edilməsi şöbəsində istifadə edilən "Kadr və insan resursları" informasiya sisteminin məlumat bazasından real vaxt rejimində inteqrasiya yolu ilə Portala ötürülür.

"DİM Kadr" informasiya sistemi – məlumat əlçatanlığının təmin edilməsi


2025-ci ildə İRP ilə paralel olaraq "DİM Kadr" adlı digər veb-tətbiq hazırlanaraq istifadəyə verilmişdir. Bu sistemin yaradılması zərurəti ondan ibarətdir ki, Mərkəzin əməkdaşları "İnsan resursları" informasiya sistemində özləri barədə toplanmış məlumatların dəqiqliyini yoxlamaq və zəruri hallarda düzəliş etmək, yaxud dəyişikliklər barədə insan resurslarına real vaxt rejimində bildirmək imkanına malik olsunlar.

Yeni sistem istifadəyə verildikdən sonra əməkdaşların öz məlumatlarına dair İnsan resurslarının idarə edilməsi şöbəsinə ünvanladığı daxili sorğuların sayı minimuma enmiş, əlavə vaxt və resurs itkisinin qarşısı alınmışdır. Hər bir əməkdaş sistemə istifadəçi domeni üzərindən daxil olmaqla özünə aid məlumatlara real vaxt rejimində baxa, dəqiqliyini yoxlaya, bəzi məlumatları (telefon nömrələri, ailə tərkibi və s.) dəyişdirə, zəruri hallarda müvafiq düzəlişlər üçün İnsan resurslarının idarə edilməsi şöbəsinə müraciət edə bilər (Şəkil 7). "DİM Kadr" sistemi aşağıdakı modullardan ibarətdir:



Şəkil 7.

- **Əsas məlumatlar:** Bu modulda Mərkəzin əməkdaşı hansı struktur bölmədə, hansı tarixdən, hansı vəzifədə və hansı əmək haqqı ilə çalışdığı, iş stajı, təhsil məlumatları, dil bilikləri, ixtisas dərəcəsi və kompüter bilikləri, dövlət təltifləri, fəxri adlar, əlaqə telefonları və digər məlumatlarla tanış olmaq imkanına malikdir (Şəkil 8).



Şəkil 8.

- **Qohumlar haqqında məlumatlar:** Burada Mərkəzin əməkdaşının İnsan resurslarının idarə edilməsi şöbəsi tərəfindən onun qohumları barədə sistemə daxil edilmiş məlumatlara baxması, düzgünlüyünü yoxlaması, zəruri hallarda dəyişdirməsi mümkündür (Şəkil 9).




Şəkil 9.

- **Hərbi qeydiyyat:** Bu modulda işçinin hərbi rütbəsi, hərbi heyəti, hərbi qeydiyyat ixtisası, hərbi xidmətə yararlılığı, ümumi və xüsusi hərbi uçotu, hərbi kateqoriyanın götürülməsi barədə məlumatlar əks olunur. Hərbi qeydiyyatda olan işçilər üçün bu məlumatların dəqiqliyi xüsusi əhəmiyyət daşıyır (Şəkil 10).




Şəkil 10.

- **Əmək fəaliyyəti:** Burada işçinin əmək kitabçasında qeyd edilmiş əmək fəaliyyəti barədə məlumatlar təqdim edilir (Şəkil 11).



Şəkil 11.

- **İxtisas dərəcəsi və ixtisasartırma:** Dövlət qulluğunda ixtisas dərəcəsi, habelə ixtisasartırma kursları barədə məlumatlar bu modulda yerləşdirilir. İşçi həmin məlumatları sistemdən əldə edir (Şəkil 12).



Şəkil 12.

- **Məzuniyyət:** Bu modul əməkdaşların məzuniyyətlə bağlı məlumatlarını əks etdirir. İşçilər məzuniyyət tarixçəsi, məzuniyyətin başlama və bitmə tarixi, məzuniyyət günləri, məzuniyyət qalığı, sosial müavinət və digər məlumatlara baxmaq imkanına malikdir (Şəkil 13).




Şəkil 13.

- **Sənədlərin surətləri:** Bu bölmədə işçiyə özünə aid sənədlərin (şəxsiyyət vəsiqəsi, diplom, əmək kitabçası və s.) elektron surətlərinə baxmaq və zəruri hallarda yenisini yükləmək imkanı təqdim edilir (Şəkil 14).



Şəkil 14.

- **Qeydlər və məlumatların təsdiqi:** Bu modul işçiyə müvafiq sahələrdə məlumatlara əlavə və dəyişiklik etmək üçün İnsan resurslarının idarə edilməsi şöbəsinə müraciət etmək imkanı verir, həmçinin işçi öz məlumatlarını təsdiq edir. Təsdiq tarixi "Kadr və insan resursları" sistemində yadda saxlanılır (Şəkil 15).



Şəkil 15.

Sistemlərin tətbiqi ilə əldə olunan nəticə və perspektivlər

Beləliklə, "İnsan Resursları Portalı" və "DİM Kadr" elektron məlumat sistemlərinin tətbiqi nəticəsində Mərkəzdə insan resurslarının idarə edilməsi sahəsində aşağıdakı nəticələr əldə edilmişdir:

- ✓ iş vaxtının uçotu prosesi tam avtomatlaşdırılmış, kağız daşıyıcılardan asılılıq aradan qaldırılmışdır;
- ✓ əməkdaşların giriş-çıxış vaxtları, işə davamiyyətləri və iş qrafikləri barədə məlumatlar asanlıqla əldə edilir;
- ✓ icazələrin qeydiyyatı aparılır;
- ✓ aylıq tabelin hazırlanması sürətlə yerinə yetirilir;
- ✓ işçilərin özləri barədə kadr məlumatlarına sərbəst çıxış imkanı yaradılmışdır;
- ✓ sistemlər müxtəlif tip statistik və analitik hesabatların formalaşdırılmasını təmin edir.

Növbəti mərhələdə təqdim edilən sistemlərin daha da təkmilləşdirilməsi nəzərdə tutulur. İşçilərin səriştə əsaslı göstəricilərinin qiymətləndirilməsi modulunun əlavə edilməsi, analitik və statistik hesabatların sayının artırılması, mobil tətbiqin yaradılması, müvafiq məlumatların maliyyə strukturkarına real vaxt rejimdə ötürülməsi nəzərdə tutulmuşdur. Bu istiqamətdə aparılan işlər Mərkəzin insan resurslarının rəqəmsal tenologiyalar əsasında idarə edilməsi prosesinin davamlı inkişafına xidmət edir.

Buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı metodik materialların hazırlanması, dərslik komplektlərinin elmi-metodik monitorinqi (qiymətləndirilməsi), hazırlıq kursları və "YAŞAT" fondu ilə iş haqqında

A. Batıyeva

2025-ci ildə də ötən illərdə olduğu kimi Metodika və dərsliklərin monitorinqi şöbəsinin əsasnaməsinə uyğun olaraq dərs ilinin əvvəlindən ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları və ali təhsil müəssisələrinə, Dövlət Sərhəd Xidmətinin Xüsusi məktəbinə qəbul imtahanları üçün tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün — Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün — rus dili), riyaziyyat, informatika, xarici dil, ədəbiyyat (Azərbaycan və rus bölmələri üçün), tarix, coğrafiya, fizika, kimya və biologiya fənlərindən müvafiq fənn kurikulumunun təlim nəticələri, imtahanlarda yoxlanılması və qiymətləndirilməsi mümkün olan altstandartların tələbləri nəzərə alınmaqla, ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklər əsasında proqramlar hazırlanmışdır. İmtahan modelinin strukturu müəyyənləşdirilmiş və ona uyğun test tapşırığı nümunələri tərtib edilmişdir. Buraxılış imtahanları üçün hazırlanmış materiallar **(28 proqram (Azərbaycan və rus dillərində) və onlara uyğun tapşırıq nümunələri)** "Abituriyent" jurnalının xüsusi buraxılışlarında, qəbul imtahanları üçün materiallar **(18 proqram + 2 proqram DSX və onlara uyğun tapşırıq nümunələri)** isə "Abituriyent" jurnalının birinci nömrəsində dərc edilmiş və Dövlət İmtahan Mərkəzinin (DİM) internet saytında yerləşdirilmişdir.

İmtahan modelləri hazırlanarkən məktəb kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınmışdır. İmtahan modellərinə abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması məqsədi ilə müxtəlif çətinlik dərəcəsinə malik, nəzəri biliklərin tətbiqi tələb olunan, məntiqi düşüncəyə əsaslanan, səbəb-nəticə əlaqələri üzərində qurulan tapşırıqlar daxil edilmişdir. Həmin tapşırıqlar qapalı (cavab bəndlərindən bir doğru cavabın seçilməsi), cavabı kodlaşdırılan açıq tipli (hesablama, seçim, uyğunluğu müəyyən etmək) və cavabı yazı ilə ifadə edilən açıq tipli tapşırıqlardan ibarət olmuşdur. Cavabı yazı ilə ifadə edilən tapşırıqlar riyaziyyat, fizika, kimya, coğrafiya və biologiya fənlərindən situasiya, tədris dili (Azərbaycan dili, rus dili) və ədəbiyyat (Azərbaycan və rus bölmələri üçün) fənlərindən mətn, tarix fənnindən isə mənbə əsasında hazırlanmışdır. Test bloklarına relevantlıq kateqoriyalarına görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, öncəgörmə və təklif olunan fəaliyyət xarakterli, mürəkkəblik dərəcəsinə görə sadə, orta çətinlikli və çətin tapşırıqlar daxil edilmişdir. Həmçinin Eyler-Venn diaqramı və klaster formalı tapşırıqlardan da istifadə olunmuşdur.

Materialların hazırlanmasında və müzakirəsində ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər, AMEA-nın mütəxəssisləri iştirak etmişdir. Müzakirələr nəticəsində ümumtəhsil məktəblərinin 5 – 11-ci sinifləri üçün müvafiq fənn üzrə təhsil proqramlarının (kurikulumlarının) təlim nəticələri əsas götürülməklə, imtahanlarda yoxlanılması və qiymətləndirilməsi mümkün olan altstandartlar seçilmiş, dərsliklərdə həmin altstandartların tələblərinin reallaşdırılmasına imkan verən mövzular müəyyənləşdirilmişdir. Bütün bunlar imtahan proqramlarının və modellərinin hazırlanmasında nəzərə alınmışdır. Qeyd etmək lazımdır ki, bu materiallar da proqramlarla birlikdə "Abituriyent" jurnalının birinci nömrəsində dərc edilmişdir.

Abituriyentlərə metodik kömək baxımından imtahanlardan sonra ayrı-ayrı fənlər üzrə ekspertlər tərəfindən imtahanlarda istifadə olunmuş tapşırıqların hər biri imtahan nəticələrinin statistik göstəriciləri əsasında məzmun, relevantlıq kateqoriyaları, mürəkkəblik dərəcəsi baxımından təhlil edilmiş və abituriyentlərin zəif cavablandırdıqları tapşırıqlar müəyyənləşdirilmişdir. Həmin tapşırıqların izahlarına dair metodik tövsiyələr hazırlanmış və "Abituriyent" jurnalının ikinci nömrəsində dərc olunmuşdur.

Bütün imtahan fənləri üzrə təcrübəli ekspertlər tərəfindən qəbul proqramlarının mövzularına dair hazırlanmış 154 videomühazirə təkmilləşdirilmiş və ***YouTube*** kanalında yerləşdirilmişdir. Videomühazirələrdə nəzəri materialla yanaşı, mövzulara dair tapşırıqların izahları da verilmişdir. Beləliklə, hələ dərs ilinin əvvəlindən şagird və abituriyentlərə buraxılış və qəbul imtahanlarının proqramları və imtahanlarda hansı tip və formalı test tapşırıqlarının təklif ediləcəyi barədə məlumat verilmişdir. Həmin test modelləri sınaq imtahanlarında yoxlamadan da keçirilmişdir.

4 – 11-ci sinif dərslikləri əsasında hazırlanmış tədris vahidləri (**8800 tapşırıq**) və mövzular **(53480 tapşırıq)** üzrə (Azərbaycan və rus dillərində) sınaq variantlarının hər biri cari ildə istifadədə olan dərsliklərə uyğunlaşdırılmış və təkmilləşdirilmişdir. İmtahanlara hazırlaşarkən və tədris prosesində bilik və bacarıqların qiymətləndirilməsində bu sınaq variantlarından istifadə etmək olar.

Buraxılış və qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 8 – 11-ci siniflər üzrə 24 (hər biri 1 variant olmaqla) sınaq variantı (Azərbaycan və rus dillərində), həmçinin Azərbaycan dilindən fərqli dildə təhsil alanlar üçün Azərbaycan dili (dövlət dili) və riyaziyyat (ingilis dilində) fənlərindən də sınaq variantları hazırlanmışdır. **(Cəmi: 24 variant, 4659 tapşırıq)**

Abituriyentlərin qəbul imtahanlarına müstəqil şəkildə (repetitor xidmətindən istifadə etmədən) hazırlaşmasına kömək məqsədilə bütün imtahan fənləri üzrə müvafiq fənn kurikulumlarının təlim nəticələri nəzərə alınmaqla 1 – 11-ci sinif dərslikləri əsasında hazırlanmış **130 adda** "Qiymətləndirmə tapşırıqları" kitabları (Azərbaycan və rus dillərində) və **29 adda** dərs vəsaiti – "Kimya", "Biologiya", "Riyaziyyat", "Fizika", "Coğrafiya", "Tarix", "Ədəbiyyat", "Azərbaycan dili", "Rus dili", "Literatura", "İngilis dili", "Fransız dili", "Alman dili", "Rus dili (xarici dil kimi)", "Azərbaycan dili (dövlət dili)", "İnformatika" vəsaitləri, "İngilis dili lüğəti", "Azərbaycan dilinin orfoqrafiya lüğəti", "Fransızca-Azərbaycanca lüğət" və "Coğrafiya" lüğəti" **istifadədə olan dərsliklərə uyğun olaraq yenidən işlənmiş və təkmilləşdirilmişdir**.

"Qiymətləndirmə tapşırıqları" kitablarında verilmiş materiallardan şagirdlər tapşırıqlarla işləmək bacarıqlarına yiyələnmək, müstəqil olaraq tədris prosesində mövzuları necə mənimsədiklərini yoxlamaq, müəllimlər məktəbdaxili (diaqnostik, formativ və summativ) qiymətləndirmə aparmaq üçün istifadə edə, valideynlər isə övladlarının fənn üzrə hazırlıq səviyyələrini yoxlaya bilərlər. Bu kitablar həmçinin buraxılış və qəbul imtahanlarına hazırlaşmaq üçün də faydalı vəsaitlərdir.

Ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış və ali təhsil müəssisələrinə və Dövlət Sərhəd Xidmətinin Xüsusi məktəbinə qəbul imtahanlarına hazırlaşanlara kömək məqsədilə tədris dili (Azərbaycan dili, rus dili), riyaziyyat, informatika, xarici dil, ədəbiyyat (Azərbaycan və rus bölmələri üçün), tarix, coğrafiya, fizika, kimya, biologiya, Azərbaycan dili (dövlət dili) və rus dili (xarici dil) fənlərindən onlayn sınaq variantları hazırlanmış və "20 variant sınaq imtahanı" kitabları çap edilmişdir.

Buraxılış imtahanları:

Ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə

№	Fənnin adı	Variant sayı (Azərbaycan bölməsi)		Tapşırıq sayı (Azərbaycan bölməsi)		Variant sayı (rus bölməsi)		Tapşırıq sayı (rus bölməsi)	
		Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə
1	Tədris dili	10	10	300	300	10	10	300	300
2	Riyaziyyat	10	10	250	250	10	10	250	250
3	Xarici dil (İngilis dili)	10	10	260	260				
4	Rus dili (xarici dil)	10	10	260	260				
5	Azərbaycan dili (dövlət dili)					10	10	300	300

Cəmi: 140 variant, 3840 tapşırıq

Tam orta (11 illik) təhsil səviyyəsi üzrə

№	Fənnin adı	Variant sayı (Azərbaycan bölməsi)		Tapşırıq sayı (Azərbaycan bölməsi)		Variant sayı (rus bölməsi)		Tapşırıq sayı (rus bölməsi)	
		Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə
1	Tədris dili	10	10	300	300	10	10	300	300
2	Riyaziyyat	10	10	250	250	10	10	250	250
3	Xarici dil (İngilis dili)	10	10	300	300				
4	Rus dili (xarici dil)	10	10	260	260				
5	Azərbaycan dili (dövlət dili)					10	10	300	300

Cəmi: 140 variant, 3920 tapşırıq

Qəbul imtahanları:

I ixtisas qrupu üzrə

№	Fənnin adı	Variant sayı (Azərbaycan bölməsi)		Tapşırıq sayı (Azərbaycan bölməsi)		Variant sayı (rus bölməsi)		Tapşırıq sayı (rus bölməsi)	
		Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə
1	Riyaziyyat	10	10	300	300	10	10	300	300
2	Fizika	10	10	300	300	10	10	300	300
3	Kimya	10	10	300	300	10	10	300	300
4	İnformatika	10	10	300	300	10	10	300	300

Cəmi: 160 variant, 4800 tapşırıq

II ixtisas qrupu üzrə

№	Fənnin adı	Variant sayı (Azərbaycan bölməsi)		Tapşırıq sayı (Azərbaycan bölməsi)		Variant sayı (rus bölməsi)		Tapşırıq sayı (rus bölməsi)	
		Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə
1	Riyaziyyat	10	10	300	300	10	10	300	300
2	Coğrafiya	10	10	300	300	10	10	300	300
3	Tarix	10	10	300	300	10	10	300	300

Cəmi: 120 variant, 3600 tapşırıq

III ixtisas qrupu üzrə

№	Fənnin adı	Variant sayı (Azərbaycan bölməsi)		Tapşırıq sayı (Azərbaycan bölməsi)		Variant sayı (rus bölməsi)		Tapşırıq sayı (rus bölməsi)	
		Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə
1	Azərbaycan dili	10	10	300	300				
2	Ədəbiyyat	10	10	300	300				
3	Rus dili					10	10	300	300
4	Ədəbiyyat (rus bölməsi)					10	10	300	300
5	Tarix	10	10	300	300	10	10	300	300
6	Coğrafiya	10	10	300	300	10	10	300	300

Cəmi: 160 variant, 4800 tapşırıq

IV ixtisas qrupu üzrə

№	Fənnin adı	Variant sayı (Azərbaycan bölməsi)		Tapşırıq sayı (Azərbaycan bölməsi)		Variant sayı (rus bölməsi)		Tapşırıq sayı (rus bölməsi)	
		Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə	Mövzu üzrə	Ümumi proqram üzrə
1	Biologiya	10	10	300	300	10	10	300	300
2	Kimya	10	10	300	300	10	10	300	300
3	Fizika	10	10	300	300	10	10	300	300

Cəmi: 120 variant, 3600 tapşırıq

Buraxılış və qəbul imtahanları üzrə tam yekun cəm: 840 variant, 24560 tapşırıq.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin sifarişi əsasında ümumtəhsil məktəblərin II, III, V, VI, VII, VIII və X sinifləri üçün 2025/2026-cı dərs ilində istifadəyə verilmiş **35 dərslik komplektinin (dərslik və müəllim üçün metodik vəsait)** nəşrəqədərki layihələrinin **(Azərbaycan və rus bölmələri üzrə birlikdə)** "Dərsliklərin qiymətləndirilməsi meyarları"na uyğun olaraq elmi-metodik monitorinqi aparılmışdır. Hər bir dərslik komplektinin layihəsi məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, tapşırıqların məzmuna uyğunluğu, müəllim üçün metodik vəsaitin məzmunu baxımından təhlil edilmiş və nəticədə, hazırlanmış yekun rəylər **(70 rəy)** Nazirliyə təqdim edilmişdir.

Həmçinin Mərkəz tərəfindən respublikanın ümumtəhsil müəssisələrində 2025/2026-cı dərs ilində tədris edilən 5 – 11-ci sinif dərsliklərinin elmi-metodik monitorinqi nəticəsində fənlər üzrə test bankının təkmilləşdirilməsi, buraxılış və qəbul imtahanları üçün sual kitabçalarının formalaşdırılmasında xidməti istifadə məqsədilə bütün fənlər üzrə metodik tövsiyələr **(19 tövsiyə)** hazırlanmışdır.

6120	Məşqçilik (Alpinizm) (AİA)	0	0	20	57	43
6121	Məşqçilik (Badminton) (AİA)	0	0	14	6	24
6122	Məşqçilik (Qışidmannövləri)(AİA)	0	0	2	5	2
6123	Məşqçilik (Kamandan oxatma) (AİA)	0	0	3	0	4
6124	Məşqçilik (Kanoeväavarçəkmə) (AİA)	0	0	7	0	11
6125	Məşqçilik (Tennis) (AİA)	0	0	7	4	18
6126	Məşqçilik (Triatlon) (AİA)	0	0	0	0	0
6127	Məşqçilik (Yunan-Roma güləşi) (AİA, GDU)	38	33	0	11	44

61-ci komissiya üzrə məqbul nəticələrinin 10 ballıq şkalada statistikası

Komissiya kodu	İxtisasın adı	Qeydiyyatdan keçən	6 bal	7 bal	8 bal	9 bal	10 bal
6101	Məşqçilik (Atıcılıq)(AİA)	78	6	4	8	4	5
6102	Məşqçilik (Üzgüçülük)(AİA)	258	23	15	3	2	0
6103	Məşqçilik (Velosiped)(AİA)	192	11	14	19	9	21
6104	Məşqçilik (Ağırlıqqaldırma) (AİA)	373	8	6	6	10	17
6105	Məşqçilik (Atletika)(AİA, NDU, GDU)	1762	135	108	68	9	14
6106	Məşqçilik (Basketbol)(AİA)	349	19	30	11	12	7
6107	Məşqçilik (Boks)(AİA, GDU)	759	35	28	56	56	56
6108	Məşqçilik (Futbol)(AİA, GDU)	1557	70	145	97	271	119

Komissiya kodu	İxtisasın adı	Qeydiyyatdan keçən	6 bal	7 bal	8 bal	9 bal	10 bal
6109	Məşqçilik (Gimnastika)(AİA)	37	1	0	5	2	5
6110	Məşqçilik (Cüdo)(AİA)	325	15	17	26	23	32
6111	Məşqçilik (Karate)(AİA)	242	17	19	17	16	14
6112	Məşqçilik (Sambo)(AİA)	76	8	6	13	4	13
6113	Məşqçilik (Sərbəstgüləş)(AİA,NDU, GDU)	372	15	19	36	24	65
6114	Məşqçilik (Həndbol)(AİA)	425	21	27	61	26	4
6115	Məşqçilik (Qılıncoynatma)(AİA)	25	3	1	3	4	6
6116	Məşqçilik (Stolüstü tennis)(AİA)	75	2	10	2	6	7
6117	Məşqçilik (Şahmat)(AİA)	155	5	6	4	8	5
6118	Məşqçilik (Taekvando)(AİA)	142	7	3	17	28	27
6119	Məşqçilik (Voleybol)(AİA,NDU)	429	28	42	38	30	28
6120	Məşqçilik (Alpinizm)(AİA)	120	7	1	0	9	26
6121	Məşqçilik (Badminton)(AİA)	44	6	0	4	13	1
6122	Məşqçilik (Qışidmannövləri)(AİA)	9	0	1	0	0	1
6123	Məşqçilik (Kamandanoxatma)(AİA)	7	0	0	1	2	1
6124	Məşqçilik (Kanoevəavarçəkmə)(AİA)	18	0	0	0	0	11
6125	Məşqçilik (Tennis)(AİA)	29	8	7	1	2	0
6126	Məşqçilik (Triatlon)(AİA)	18	0	0	0	2	1
6127	Məşqçilik (Yunan-Roma güləşi)(AİA, GDU)	126	0	4	5	8	27

62 və 63-cü komissiyalar üzrə keçirilmiş qabiliyyət imtahanlarının statistikası

Komissiya kodu	İxtisasın adı	Qeydiyyatdan keçən	Gəlməyib	Qeyri-məqbul alıb	Məqbul alıb
6201	Ümumi fiziki hazırlıq	5312	1135	2923	2389
6202	Adaptiv bədən tərbiyəsi			1940	3372
6203	Kütləvi-sağlamlaşdırıcı idman			1653	3659
63	Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi	4450	1442	1247	1761

Ali təhsil müəssisələrinin magistratura səviyyəsi üzrə XQTİ-lərə tələbə qəbulu

Ali təhsilin magistratura səviyyəsinə təsviri sənət, musiqi, teatr, kino və xoreoqrafiya sənətləri istiqamətləri üzrə qabiliyyət imtahanları keçirilib. Bakalavrlar 28 Qabiliyyət İmtahanı Komissiyası üzrə imtahanlarda iştirak ediblər. İmtahanlar Bakı şəhərində 3 binada təşkil olunub. Ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul üçün 68, 69 və 70 №-li proqramlar üzrə keçirilmiş qabiliyyət imtahanlarına 209 bakalavr qeydiyyatdan keçmişdi. Magistratura ixtisaslaşmaları üzrə qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilir.

Orta ixtisas təhsili müəssisələrinin XQTİ-lərinə tələbə qəbulu

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul imtahanları Bakıdan əlavə respublikanın 8 bölgəsində təşkil olunub. İmtahanlar xüsusi qabiliyyət tələb edən ixtisasların xüsusiyyətlərinə uyğun olaraq 4 istiqamət üzrə keçirilib. Dini mənəvi xidmət ixtisasına qəbul olmaq üçün dini-psixoloji komissiyalar tərəfindən müsahibələr keçirilib:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Teatr, kino və xoreoqrafiya sənəti
4. İdman
5. Dini mənəvi xidmət

Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin XQTİ-lərinə qəbul üçün 3017 nəfər qeydiyyatdan keçmişdi.

Ümumi orta təhsil bazasında istiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	1127	484
Musiqi	743	564
Teatr, kino və xoreoqrafiya	241	83
İdman	874	185
Dini mənəvi xidmət	32	24

Tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin XQTİ-lərinə qəbul üçün 4684 nəfər qeydiyyatdan keçmişdi.

Tam orta təhsil bazasında istiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	1887	633
Musiqi	266	134
Teatr, kino və xoreoqrafiya	160	34
İdman	2288	612
Dini mənəvi xidmət	83	26

İmtahan günü tapşırıqların qiymətləndirilməsi həyata keçirilmiş və imtahan nəticələri operativ olaraq hər bir abituriyentin öz internet səhifəsində əksini tapmışdır. Qiymətləndirmədən sonra dərhal apellyasiya komissiyaları təşkil edilmiş və imtahan nəticələrinə dair müraciətlərə baxılmışdır.

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ, İNNOVASİYALAR VƏ STRATEJİ İNKİŞAF LAYİHƏLƏRİ UZRƏ FƏALİYYƏT

1. Təhsilin qiymətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələri

- 15 yanvar 2025-ci ildə Mərkəzdə Niderlandın İmtahan və Sertifikatlaşdırma üzrə Tədqiqat Mərkəzi (RCEC) tərəfindən aparılmış təkrar auditin nəticələrinə həsr olunmuş tədbir keçirilmişdir. Audit nəticələrinə əsasən Mərkəzə 3 il etibarlılıq müddəti olan uyğunluq sertifikatı təqdim edilmişdir. Audit çərçivəsində Mərkəzin Keyfiyyət İdarəetmə Sisteminin beynəlxalq standartlara uyğunluğu və fəaliyyətinin effektivliyi yüksək qiymətləndirilmişdir.
- 12 mart 2025-ci ildə Mərkəzdə İstanbulda fəaliyyət göstərən Özbək Qadın Haqları Fondunun nümayəndələri arasında görüş keçirilmişdir. Görüş zamanı İdarə Heyətinin sədri Məleykə Abbaszadə ölkədə milli qiymətləndirmə sisteminin inkişafı, ölçmə və qiymətləndirmədə elmi yanaşmaların tətbiqi, imtahanlarda şəffaflığın təmin olunması və nəticələrin təhlili barədə məlumat vermişdir. Fondun prezidenti Fondun fəaliyyəti haqqında məlumat verərək, Mərkəzin ölçmə və qiymətləndirmə sahəsində tətbiq etdiyi müasir yanaşmaları, imtahanların rəqəmsallaşdırılmasını və beynəlxalq standartlara uyğun fəaliyyətini yüksək qiymətləndirmişdir. Fondun İdarə Heyətinin qərarı ilə təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə sədr İdarə Heyətinin sədri M.Abbaszadəyə Özbək Qadın Haqları Fondunun təsis etdiyi "Vətənin Şərəfi" ordeni təqdim edilmişdir.
- 24–27 aprel 2025-ci il tarixlərində Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin nümayəndə heyəti Mərkəzin fəaliyyəti ilə tanış olmaq və qurumlar arasında təcrübə mübadiləsi aparmaq məqsədilə ölkəmizdə səfərdə olmuşdur. Səfər çərçivəsində yeni əməkdaşlıq istiqamətlərini əhatə edən memorandum imzalanmışdır.
- 30 aprel – 1 may 2025-ci il tarixlərində London şəhərində Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın yeddinci iclası keçirilmişdir. Mərkəzin nümayəndəsi Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvlərindən biri kimi iclasda iştirak etmişdir. İclasda Azərbaycanın 30-a yaxın dövlət qurumunun iştirakı ilə 20-dən çox sahə üzrə görülmüş işlər, mövcud problemlər və inkişaf perspektivləri müzakirə olunmuşdur.
- 2–6 iyun 2025-ci il tarixlərində Mərkəzin nümayəndələri Gürcüstan Respublikasının Tbilisi şəhərində yerləşən Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzində imtahan materiallarının ekspertizasında iştirak etmişdir. Əməkdaşlıq çərçivəsində Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin mütəxəssisləri tərəfindən Mərkəzin gürcü dili fənni üzrə test bankının nəzərdən keçirilməsi və təkmilləşdirilməsi işləri aparılmışdır.
- 9–11 iyun 2025-ci il tarixlərində Birləşmiş Krallığın London şəhərində "Qiymətləndirmənin gələcəyini formalaşdırmaq: rəqəmsal dünyada innovasiya, inklüzivlik və dürüstlük" mövzusunda beynəlxalq elektron qiymətləndirmə konfransı keçirilmişdir. Tədbirdə müxtəlif ölkələrdən mütəxəssislər, pedaqoqlar, siyasətçilər və texnologiya sahəsinin nümayəndələri iştirak etmişdir. Mərkəzin konfransda iştirak edən nümayəndəsi Azərbaycanda imtahanların keyfiyyətinin artırılması və obyektiv qiymətləndirmə sistemlərinin inkişafı istiqamətində həyata keçirilmiş fəaliyyətlər barədə təqdimatla çıxış etmişdir. Çıxış zamanı sərişdə əsaslı və beynəlxalq standartlara uyğun qiymətləndirmə modellərinin tətbiqinin əhəmiyyəti vurğulanmış, Mərkəzin bu sahədə uzunmüddətli təcrübəsi və innovativ yanaşmalarından bəhs olunmuşdur. Konfrans çərçivəsində keçirilmiş dəyirmi masa və süni intellektə həsr olunmuş sessiyalarda süni intellektin qiymətləndirmədə tətbiqi, imtahan təhlükəsizliyinin artırılması və texnologiyaların təhsildə əlçatanlığının genişləndirilməsi məsələləri müzakirə edilmişdir.

- 13 iyun 2025-ci ildə Mərkəzin nümayəndəsi Birləşmiş Krallığın Kembric Universitetinin Nəşriyyat və Qiymətləndirmə Mərkəzinə işgüzar səfər etmişdir. Səfərin məqsədi xarici dillər üzrə imtahanların keyfiyyətinin yüksəldilməsi, ekspertlərin təlimi, qiymətləndirmə meyarlarının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğun qiymətləndirmə modellərinin tətbiqi olmuşdur. Görüşlərdə dil bacarıqlarının qiymətləndirilməsi sahəsində beynəlxalq təcrübə, situativ mühakimə tipli testlərin tətbiqi, onlayn adaptiv imtahan texnologiyaları, imtahan təhlükəsizliyi və rəqəmsal texnologiyaların tətbiqi mövzuları müzakirə edilmişdir.
- 18 iyun 2025-ci ildə İdarə Heyətinin sədri və onun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstana işgüzar səfər çərçivəsində Qazaxıstanın Milli Test Mərkəzində olmuş, iki qurumun rəhbər vəzifəli şəxsləri arasında görüş keçirilmişdir. Görüş zamanı tərəflərin fəaliyyət istiqamətləri, təşkil edilən imtahanlar, kompüter əsaslı imtahanların təşkili mexanizmi və regionlar üzrə imtahan statistikasına dair təqdimatlar edilmişdir. Qiymətləndirmə sahəsində mövcud yeniliklər, rəqəmsal imtahan sistemlərinin tətbiqi, imtahan təhlükəsizliyinin təmin edilməsi, nəticələrin süni intellekt vasitəsilə emalı və statistik təhlili üzrə təcrübə mübadiləsi aparılmışdır.
- 16–18 sentyabr 2025-ci il tarixlərində Birləşmiş Krallığın Edinburq şəhərində "MoodleMoot Global 2025" beynəlxalq konfransı keçirilmişdir. Mərkəzin nümayəndə heyətinin də iştirak etdiyi tədbirdə rəqəmsal təhsilin inkişafı, mövcud vəziyyət və gələcək prioritet istiqamətlər müzakirə edilmişdir. Sessiyalarda Moodle platformasının inkişaf strategiyası, süni intellektin testlərdə və qiymətləndirmə sistemlərində tətbiqi, həmçinin elektron imtahanlarla bağlı yeni texnologiyalar təqdim edilmişdir.
- 21–26 sentyabr 2025-ci il tarixlərində Zambiyanın Livinqston şəhərində Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 50-ci illik konfransı keçirilmişdir. 40-dan çox ölkənin iştirak etdiyi tədbir "Qiymətləndirmədə çeviklik: Təhsildə sürətli transformasiyalara uyğunlaşma" mövzusuna həsr edilmişdir. Tədbirdə kurikulum islahatları, çevik qiymətləndirmə, İKT-nin rolu, rəqəmsal qiymətləndirmə, süni intellektin tətbiqi və səriştə əsaslı qiymətləndirmə kimi mövzular geniş müzakirə edilmişdir. Mərkəzin nümayəndələri Azərbaycan üzrə rəqəmsal qiymətləndirmə platformasının pilot layihəsi, abituriyentlərin seçim tendensiyaları və imtahan materiallarının elektron idarə olunmasında tətbiq edilən təhlükəsizlik sistemləri barədə çıxışlar etmişdir.
- 14 oktyabr 2025-ci ildə Mərkəzin nümayəndəsi Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən Bilik və Səriştələrin Qiymətləndirilməsi Agentliyinin 30 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransda iştirak etmişdir. "Bilik və bacarıqların qiymətləndirilməsində nəzəri və praktik yanaşmalar" mövzusunda keçirilmiş konfransda qiymətləndirmə sistemlərinin inkişafı, beynəlxalq təcrübənin tətbiqi və şagird-tələbələrin biliklərinin ədalətli və şəffaf qiymətləndirilməsi üzrə təcrübə mübadiləsi aparılmışdır.
- 16 oktyabr 2025-ci ildə Türkiyənin Ölçmə, Seçmə və Yerləşdirmə Mərkəzinin nümayəndə heyəti Azərbaycana işgüzar səfəri çərçivəsində Mərkəzdə olmuşdur. İdarə Heyətinin sədri M.Abbaszadə, sədrin müavini Namiq Babayev və müvafiq struktur bölmə rəhbərləri ilə ÖSYM nümayəndələri arasında keçiriləngörüşdə beynəlxalq səviyyədə akkreditasiya olunan standartlaşdırılmış imtahanların keçirilməsi, qurumlar arasında təcrübə mübadiləsi, qarşılıqlı səfərlərin təşkili və digər məsələlər müzakirə edilmişdir.
- 22 oktyabr 2025-ci ildə Qazaxıstanın Astana şəhərində "Təhsilin qiymətləndirilməsində aktual məsələlər: Müasir metodlar və ağıllı həllər" adlı beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Konfransda Mərkəzin nümayəndə heyəti iştirak edərək Azərbaycanda yüksək riskli imtahanların təşkili, imtahanların şəffaflığı və etibarlılığı, elektron imtahanlar, Onlayn Marker Sistemi, test bankının idarə olunması və avtomatlaşdırılmış çap sistemləri barədə təqdimatlar etmişdir. 23 oktyabrda 2025-ci ildə Mərkəzin nümayəndə heyəti Milli Test Mərkəzini ziyarət etmiş, elektron imtahanlara nəzarət üçün yaradılan situasiya mərkəzində olmuş və aidiyyəti mütəxəssislərlə fikir mübadiləsi aparmışdır.
- 5–6 noyabr 2025-ci il tarixlərində Mərkəzin nümayəndəsi Koreya Respublikasının İnçon şəhərində İnformasiya və Kommunikasiya Texnologiyalarının İnkişafı üzrə Asiya-Sakit Okean Təlim Mərkəzinin təşkil etdiyi "İllik Rəqəmsal Liderlər Proqramı"nda iştirak etmişdir. Tədbir çərçivəsində rəqəmsal idarəetmə, etibarlı süni intellekt, məlumat təhlükəsizliyi və vətəndaş iştirakının təşviqi mövzularında təqdimatlar və təlim sessiyaları keçirilmişdir. Mərkəzin nümayəndəsi çıxışında Mərkəzin süni intellekt və rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin effektivliyinin artırılması, şəffaflığın təmin olunması və vətəndaşyönlü idarəetmə sahəsində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat vermişdir.

- 5–8 noyabr 2025-ci il tarixlərində Niderland Krallığında müxtəlif ölkələrdən mütəxəssislərin iştirak etdiyi Təhsilin Qiymətləndirilməsi üzrə Avropa Assosiasiyasının 26-cı illik konfransı keçirilmişdir. Konfrans çərçivəsində müxtəlif vörkşoplar və elmi məqalələrin təqdimatı keçirilmiş, təhsilin qiymətləndirilməsi sahəsində beynəlxalq təcrübə, yeni yanaşmalar və qlobal tərəfdaşlıqlar, rəqəmsal texnologiyalar, süni intellektin qiymətləndirməyə inteqrasiyası və innovativ qiymətləndirmə modelləri müzakirə edilmişdir. Mərkəzin nümayəndə heyəti konfrans zamanı elmi məqalələr təqdim etmiş, kütləvi imtahanlarda açıq tipli tapşırıqların effektivliyi, buraxılış imtahanlarında müxtəlif tapşırıq növlərinin nəticələrə təsiri mövzularında təcrübələrini bölüşmüşdür.
- 14 noyabr 2025-ci ildə İdarə Heyəti sədrinin müavini N.Babayev Türkiyədən gələn I Beynəlxalq "Maliyyə, mühasibat, audit və rəqəmsallaşma" simpoziumu iştirakçıları ilə görüş keçirmişdir. Görüşdə simpozium çərçivəsində müzakirə edilən mövzuların davamlı əməkdaşlıq imkanları və təcrübə mübadiləsi müzakirə edilmişdir. Görüşdə Mərkəzin həyata keçirdiyi layihələr, sertifikasiya imtahanları, rəqəmsallaşma prosesləri və beynəlxalq əməkdaşlıq perspektivləri barədə məlumat verilmişdir. Tərəflər gələcəkdə birgə elmi tədbirlərin təşkili və rəqəmsal audit və mühasibatlıq standartlarının tətbiqi sahəsində əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəlmişdir.

2. "Gənc Psixometrik" təcrübə proqramı

- 2025-ci ildə Mərkəz yeni layihəyə - "Gənc Psixometrik" təcrübə proqramına start vermişdir. Proqram çərçivəsində təhsilin qiymətləndirilməsi sahəsində nəzəri və praktiki biliklərin mənimsədilməsi, statistik təhlil metodlarının öyrədilməsi və bu istiqamətdə gənc mütəxəssislər bazasının formalaşdırılması məqsədi ilə bir sıra tədbirlər görülmüşdür. Proqrama qəbul müsabiqə yolu ilə həyata keçirilmişdir: elektron qeydiyyat zamanı 669 nəfər müraciət etmiş, həmin şəxslər test imtahanı mərhələsinə dəvət edilmiş və test imtahanının nəticələrinə əsasən ən yüksək nəticə göstərən 30-dan çox namizəd müsahibə mərhələsinə dəvət olunmuşdur. Müsahibədən uğurla keçən 15 nəfər təcrübə proqramına qəbul edilmişdir. Təcrübə proqramı 3 aylıq müddəti əhatə etmişdir. Proqram çərçivəsində qiymətləndirmə və statistika üzrə təlimlər keçirilmiş, real datalar üzərində praktiki tapşırıqlar yerinə yetirilmiş, təqdim edilmiş məlumatlar əsasında layihələr hazırlanmış və nəticələr təqdim olunmuşdur. Təcrübə proqramının sonunda iştirakçılar sertifikatla təltif edilmişdir. Təcrübə proqramını uğurla başa vuran 2 iştirakçı hazırda Mərkəzin müvafiq struktur bölmələrində əmək fəaliyyətinə başlamışdır.

3. Ümumi Qiymətləndirmə Çərçivəsi (CAF) layihəsi

- Ümumi Qiymətləndirmə Çərçivəsi layihəsi dövlət sektoru üçün nəzərdə tutulmuş, ümumi keyfiyyət idarəetməsi (TQM) prinsiplərinə əsaslanan və təşkilatlarda özünüqiymətləndirmə yolu ilə fəaliyyətin təkmilləşdirilməsini hədəfləyən müasir idarəetmə modelidir və dövlət qurumlarında effektiv idarəçilik, şəffaflıq və xidmət keyfiyyətinin artırılmasına xidmət edir. Bu çərçivə üzrə 10–11 dekabr 2025-ci il tarixlərində Dövlət İmtahan Mərkəzində (DİM) GIZ, SIGMA və Avropa CAF Resurs Mərkəzinin təşəbbüsü ilə iki günlük təlim proqramı keçirilmişdir. Təlim iştirakçılara CAF konsepsiyasını, özünüqiymətləndirmə prosesinin təşkili və idarəetmə fəaliyyətlərinin qiymətləndirilməsi metodlarını mənimsətmək məqsədi daşımışdır. Təlim interaktiv formatda təşkil olunaraq nəzəri biliklərin möhkəmləndirilməsi ilə yanaşı, praktiki bacarıqların inkişafına şərait yaratmışdır.
- Layihə çərçivəsində DİM-də 15 nəfərdən ibarət özünüqiymətləndirmə qrupu yaradılmış və qrupun üzvləri CAF e-aləti (CAF e-tool) vasitəsilə fərdi qiymətləndirmə prosesində fəal iştirak etmişdir. Bu ilin sonunda başlanmış layihənin 2026-cı ildə Mərkəzin struktur bölmə rəhbərləri tərəfindən əldə olunan nəticələrin qiymətləndirilməsi, müzakirəsi və müvafiq vörkşopların keçirilməsi yolu ilə davam etdiriləcəkdir.

4. DİM-in rəqəmsallaşma səviyyəsinin diaqnostikası

- Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli, 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın Tədbirlər Planının 1.1.1-ci tədbiri ("Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının rəqəmsallaşma səviyyəsinin diaqnostikası") çərçivəsində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə əməkdaşlıq əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin rəqəmsallaşma səviyyəsinin diaqnostikası həyata keçirilmişdir. Diaqnostika zamanı dörd əsas istiqamət – Strategiya, Xidmətlər, Texniki-Texnoloji İnfrastruktur və Əməliyyat Modelləri üzrə görüşlər keçirilmiş, tələb olunan sənədlər və hesabatlar İRİA-ya təqdim edilmişdir. Əldə olunan məlumatlar əsasında aparılmış təhlillərin nəticəsində DİM-in güclü və zəif tərəfləri, habelə inkişaf imkanları müəyyən edilmiş və diaqnostikanın nəticələri təqdim edilmişdir.

- DİM-in rəqəmsallaşma səviyyəsi dörd əsas istiqamət və onlara daxil olan 12 meyar üzrə – rəqəmsal strategiya və əlaqələndirmə, rəqəmsal xidmətlər, əlçatanlıq və istifadəçi təcrübəsi, xidmətlərin təşkili və təkmilləşdirilməsi, informasiya infrastrukturu, süni intellekt həllərinə hazırlıq və analitika, məlumatların idarə edilməsi, əməkdaşlıq və inteqrasiya, daxili idarəetmə proseslərinin optimallaşdırılması və digər sahələr üzrə qiymətləndirilmişdir.
- Diaqnostikanın nəticələrinə əsasən DİM-in rəqəmsal inkişafı üzrə 2026–2028-ci illəri əhatə edən Yol Xəritəsi hazırlanıb və hazırda razılaşdırılma mərhələsindədir. Yol Xəritəsində mərhələlər üzrə əsas təşəbbüslər, fəaliyyət istiqamətləri və prioritetlər müəyyən edilmişdir. Sözügedən təşəbbüslər DİM-in rəqəmsal strategiyasının formalaşdırılması, məlumatlara əsaslanan qərar qəbuletmənin təşviqi, xidmət imkanlarının genişləndirilməsi, texnologiyaların yenilənməsi, əməkdaşların rəqəmsal savadlılığının artırılması və struktur bölmələrarası inteqrasiyanın təkmilləşdirilməsini əhatə edir.

5. Beynəlxalq imtahanlar üzrə fəaliyyətlər və görülmüş tədbirlər

- 26 may 2025-ci ildə DİM-in danışıq bloku üzrə mütəxəssisləri Kembric Universitetinin Nəşriyyat və Qiymətləndirmə qurumu ilə əməkdaşlıq çərçivəsində Kembric imtahanlarının danışıq bloku üzrə təlimdə iştirak etmişlər. Təlim proqramı nəzəri bilikləri, praktiki tapşırıqları, hər səviyyəyə uyğun meyarların təhlilini və qrup tapşırıqlarını əhatə etmişdir.
- 22 avqust 2025-ci ildə DİM-in nümayəndəsi Kembricin rəsmi hazırlıq mərkəzlərindən biri olan KNN Academy-də keçirilmiş məlumat sessiyasında iştirak etmişdir. Sessiya Kembric imtahanları barədə ictimaiyyətin məlumatlılığını artırmaq məqsədilə təşkil edilmişdir.
- 15 sentyabr 2025-ci ildə DİM-in nümayəndələri ilə ETS Global şirkətinin nümayəndəsi arasında onlayn görüş keçirilib. Görüş DİM-in rəsmi TOEFL və GRE test mərkəzi kimi fəaliyyətini gücləndirmək və imtahanlara dair ictimai məlumatlılığı artırmaq məqsədilə təşkil edilmişdir.
- 9 oktyabr 2025-ci ildə DİM-in nümayəndəsi "Sabina Academy" tədris mərkəzində təşkil edilmiş məlumat sessiyasında iştirak etmişdir. Sessiyanın əsas məqsədi Kembric imtahanları barədə ictimai məlumatlılığı artırmaq olmuşdur.
- 26 noyabr 2025-ci ildə DİM-in nümayəndəsi Hədəf liseyində keçirilmiş məlumat sessiyasında iştirak etmişdir. Sessiyada Kembric imtahanları barədə ictimai məlumatlılığın artırılması təmin edilmişdir.
- 10 dekabr 2025-ci ildə DİM-in nümayəndəsi İdrak liseyində təşkil edilmiş məlumat sessiyasında iştirak etmişdir. Sessiyanın əsas məqsədi Kembric imtahanları barədə ictimai məlumatlılığı artırmaq olmuşdur.

6. DÖVLƏT QULLUĞU SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ STRATEJİ İNKİŞAF LAYİHƏLƏRİ


- Mərkəzin İdarə Heyəti sədrinin müavini Bəhrəm Xəlilovun məqaləsi 2025-ci ildə "Springer Nature" nəşriyyatına daxil olan Palgrave Macmillan tərəfindən çap edilən "Public Administration in the New Reality" ("Yeni reallıqda dövlət idarəçiliyi") adlı kitabda dərc olunmuşdur. Kitab dövlət idarəçiliyi sahəsində dəyişən qlobal reallıqlara uyğun olaraq formalaşan yeni yanaşmaları əhatə edir. Nəşrdə B.Xəlilovun müəllifi olduğu məqalə "Post COVID-19, Public Administration and Civil Service Development: Select Country Cases from Caucasus and Central Asia" (Post-COVID-19 dövründə dövlət idarəçiliyi və dövlət qulluğunun inkişafı: Qafqaz və Mərkəzi Asiyadan seçilmiş ölkə nümunələri) bölməsi altında Azərbaycan təcrübəsinə həsr olunub və müasir dövlət qulluğunda innovativ yanaşmaları, həmçinin region ölkələrinin qabaqcıl təcrübələrini əhatə edir.
- 17 fevral 2025-ci ildə Mərkəzin İdarə Heyəti sədrinin müavini B.Xəlilov və onun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Prezidentinin Administrasiyasının İnsan Resursları Ofisi tərəfindən İstanbul şəhərində təşkil olunan "İstedad əsaslı inkişaf" adlı III İstanbul İnsan Resursları Forumunda iştirak etmişdir. 18 fevral 2025-ci ildə Mərkəzin nümayəndə heyəti Türk Dövlətləri Təşkilatı və Türkiyə Respublikası Prezidentinin Administrasiyasının İnsan Resursları Ofisinin birgə təşkilatçılığı ilə keçirilən TDT-nin "2025-ci il Seminar Proqramı"nda iştirak etmişdir. Seminar çərçivəsində sədrin müavini tədbirin regional əməkdaşlığın gücləndirilməsində rolunu vurğulamış, Azərbaycan Respublikasında dövlət qulluğunda həyata keçirilən islahatlar və tətbiq olunan yeni idarəetmə yanaşmaları barədə iştirakçılara məlumat təqdim etmişdir.

- 20 iyun 2025-ci ildə Mərkəzin İdarə Heyətinin sədri M.Abbaszadənin rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstanın Dövlət Qulluğu Məsələləri üzrə Agentliyinin təşkilatçılığı ilə Astana şəhərində keçirilən "Yeni sistemlər, müasir xidmətlər və innovativ həllər" mövzusunda beynəlxalq İnsan Resursları Forumunda iştirak etmişdir. Forum çərçivəsində sədr "Süni intellektin dövlət qulluğu xidmətlərinə inteqrasiyası" mövzusunda keçirilən interaktiv paneldə çıxış edərək Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində həyata keçirilən institusional islahatlar, rəqəmsallaşma prosesləri və süni intellekt texnologiyalarının tətbiqi üzrə son illərdə atılan addımlar barədə məlumat vermişdir. Tədbir çərçivəsində Dövlət Qulluğu üzrə Astana Regional Xabın təşkilatçılığı ilə sədrin müavini B.Xəlilovun həmmüəllifi olduğu "Yeni reallıqda dövlət idarəçiliyi" adlı kitabın təqdimatı da keçirilmişdir.
- 23–25 iyun 2025-ci il tarixlərində M.Abbaszadənin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanın Səmərqənd şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının İctimai Xidmət üzrə Forumunda iştirak etmişdir. Forum Özbəkistan Hökuməti və BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti (UN DESA) tərəfindən birgə təşkil olunmuşdur. Forum çərçivəsində sədr "Gələcək üçün ictimai xidmətlərin təqdimatının transformasiyası: innovasiya, inklüzivlik və tərəfdaşlıq" mövzusunda keçirilən sessiyada çıxış edərək ölkədə tətbiq olunan qiymətləndirmə modelləri, rəqəmsallaşma prosesində əldə edilən nailiyyətlər və ictimai xidmətlərin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən əsas tədbirlər barədə iştirakçıları məlumatlandırmışdır. Forum çərçivəsində sədrin müavini B.Xəlilov "Rəqəmsal transformasiyanın ictimai xidmətə təsiri: Dövlət qulluqçularını necə motivasiya etmək olar?" mövzusunda keçirilən sessiyada "Dövlət qulluqçularının motivasiyası: rəqəmsal dövrdə çağırışlar" adlı təqdimatla çıxış etmişdir.
- 7–8 iyul 2025-ci il tarixlərində Mərkəzin nümayəndələri üçün Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının birgə təşəbbüsü olan SIGMA proqramı çərçivəsində "Texniki səriştələrin inkişafı və qiymətləndirilməsi" mövzusunda növbəti seminar keçirilmişdir.
- 18 iyul 2025-ci ildə Qırğız Respublikasının İssık-Kul bölgəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin insan resursları sahəsində səlahiyyətli qurum rəhbərlərinin IV iclası keçirilmişdir. Tədbirə Qırğız Respublikasının Nazirlər Kabineti yanında Dövlət Qulluğu və Yerli Özünüidarəetmə Məsələləri üzrə Dövlət Agentliyi ev sahibliyi etmişdir. Tədbirdə Mərkəzi sədr müavini B.Xəlilov təmsil etmiş və "Dövlət qulluğu sahəsində təlim: liderlik və dayanıqlı inkişaf" mövzusunda çıxış etmişdir.
- 22 avqust 2025-ci ildə sədrin müavini B.Xəlilov Almatı şəhərində Qazaxıstanın Dövlət Qulluğu Məsələləri üzrə Agentliyi və İnsan Resursları Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən "İnsan Resursları" beynəlxalq forumunda iştirak etmişdir. Forum çərçivəsində keçirilən "GovTalks" interaktiv panelində sədr müavini Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində həyata keçirilən institusional islahatlar, insan resurslarının idarə edilməsinin təkmilləşdirilməsi istiqamətində tətbiq olunan yeniliklər və dövlət qulluğunda səriştə (kompetensiya) modelinin tətbiqi barədə məlumat təqdim etmişdir.
- 6–17 oktyabr 2025-ci il tarixlərində Mərkəzin nümayəndəsi Polşanın paytaxtı Varşava şəhərində keçirilən beynəlxalq təlim proqramında iştirak etmişdir. Təlim Şərq Tərəfdaşlığı Dövlət İdarəçilik Akademiyasının tərkibində fəaliyyət göstərən Lex Kaçinski adına Milli Dövlət İdarəçilik Məktəbi tərəfindən təşkil olunmuşdur və əsas məqsədi dövlət qulluğunda insan resurslarının idarə edilməsi siyasəti və bu sahədə tətbiq olunan qabaqcıl təcrübələrlə yaxından tanış olmaq idi. Proqram çərçivəsində beynəlxalq auditoriyaya ölkəmizdə dövlət qulluğu sahəsində aparılan islahatlar, insan resurslarının idarə edilməsinə dair müasir yanaşmalar, eləcə də bu sahədə həyata keçirilən innovativ təşəbbüslər və layihələr barədə ətraflı məlumat verilmişdir.
- 3–7 noyabr 2025-ci il tarixlərində Dövlət İdarəçilik Akademiyası və Mərkəzin dövlət qulluqçularına təlim keçən nümayəndələri üçün Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən (GIZ) Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində "Təlimçilər üçün təlim" mövzusunda beş günlük təlim təşkil olunmuşdur.

Beynəlxalq imtahanlar


2025-ci ildə keçirilmiş beynəlxalq imtahanlarda 3236 nəfər (1152 nəfər Kembric, 1487 nəfər SAT, 378 nəfər TOEFL iBT, 164 nəfər Pearson VUE, 55 nəfər isə GRE imtahanlarında) iştirak etmişdir.

2025-ci ildə keçirilmiş beynəlxalq imtahanlarda iştirak edən namizədlərin ümumi sayı



KEMBRIC imtahanları


2025-ci ildə keçirilmiş Kembric imtahanlarında 1152 nəfər (828 nəfər ingilis dili müəllimlərinin xarici dil bacarıqlarını beynəlxalq səviyyədə təsdiq edən "TKT" imtahanında, 186 nəfər "Azyaşlı öyrənənlər" imtahanında, 138 nəfər isə kompüter əsaslı imtahanda) iştirak etmişdir.



SAT imtahanları


2025-ci ildə təşkil olunmuş SAT imtahanlarında 1 487 nəfər (8 martda 227 nəfər, 3 mayda 197 nəfər, 7 iyunda 231 nəfər, 23 avqustda 145 nəfər, 13 sentyabrda 85 nəfər, 4 oktyabrda 131 nəfər, 8 noyabrda 186 nəfər, 6 dekabrda isə 285 nəfər) iştirak etmişdir.

SAT imtahanında iştirak edən namizədlərin aylar üzrə statistikası



Pearson VUE ixtisaslaşma imtahanlarının növlər üzrə bölgüsü

Pearson VUE ixtisaslaşma imtahanlarında ümumi 164 nəfər iştirak etmişdir.



HƏDƏF ƏHALİ QRUPLARININ PSİXOLOJİ MAARİFLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN FƏALİYYƏT

Dövlət İmtahan Mərkəzi 2017-ci ildən etibarən hədəf əhali qruplarının, o cümlədən abituriyent və valideynlərin maarifləndirilməsi istiqamətində də fəaliyyət göstərir. İlkin mərhələdə, əsasən, sosial media platformaları vasitəsilə aparılan fəaliyyət 2021-ci ildən etibarən daha sistemli xarakter alıb. Hazırda əhali arasında müvafiq xidmətləri olan tələbatın qarşılanması məqsədilə bir neçə istiqamətdə işlər aparılır.

Dövlət İmtahan Mərkəzinin nəzdində fəaliyyət göstərən e-psixoloq.az platformasında şagirdlər, tələbələr, valideynlər və pedaqoji heyət üçün faydalı məqalələr, videomateriallar, diaqnostik testlər, peşə təsvirləri paylaşılır və müxtəlif mövzularda vebinarlar keçirilir.

2025-ci il ərzində psixoloji maarifləndirmə və dəstək platforması olan e-psixoloq.az internet səhifəsi üzrə 55 882 baxış sayı qeydə alınmış, platformanın xidmətlərindən isə 45 721 nəfər istifadəçi yararlanmışdır.

Keçən il başladılmış müxtəlif layihə və tədqiqatlar cari ildə də davam etdirilmişdir.

Yeniyetmələrin "Peşə seçiminə dəstək" layihəsi

2025-ci ildə Peşə seçimi aləti ali təhsil müəssisələrinin sərgisi çərçivəsində təqdim edilmişdir və sərgi iştirakçıları bu alətdən yararlanmışdır.

2025-ci ildə Dövlət İmtahan Mərkəzi və YAŞAT Fondunun birgə təşkilatçılığı ilə Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş şəxslərin məktəbli övladlarının iştirakı ilə görüş keçirilmişdir. Bu tədbirdə peşə seçimi aləti istifadəyə təqdim olunmuşdur.

Peşə seçimi alətinin rəy bölməsinin yeni interaktiv formatı tərtib edilmiş və bunun üçün müvafiq hesablama alqoritmi yaradılmışdır. Bu rəy bölməsində 4 respondent qrupu ayrılmış və hər qrupun maraq xüsusiyyətlərinə uyğun çoxistiqamətli inkişafyönlü rəy verilmişdir. Alət artıq əhalinin istifadəsi üçün təqdim olunmuşdur.

Böyüklər üçün "Təfəkkür növləri" testi

Böyüklər üçün "Təfəkkür növləri" alətinin tərtibatı davam etdirilmiş, bu il xüsusilə fəza təfəkkürü və tənqidi təfəkkür testlərinin hazırlanmasına diqqət yetirilmişdir. Bu alət həm müstəqil, həm də "Yetkin yaşlı şəxslər üçün karyera seçimi" alətinin bir hissəsi kimi istifadə olunacaqdır. Bundan əlavə yaradıcı təfəkkürün qiymətləndirilməsi istiqamətində tərtib işləri davam edir, alətin bir hissəsi hazırdır, aprobasiya mərhələsinə təqdim ediləcəkdir.

Yetkin yaşlı şəxslərin "Karyera maraqları" testi

Böyüklər üçün "Karyera maraqları" alətinin tərtibat prosesi davam etdirilib. Peşə sahələri üzrə ixtisas kombinasiyalarının müəyyən edilməsi üçün mövcud təsnifatlar təhlil edilmiş, uyğun peşə qrupları formalaşdırılmış və onların tətbiq oluna biləcək modelləri müəyyənləşdirilmişdir. Hazırlanan kombinasiyalar məzmun və funksional uyğunluq baxımından müzakirə olunaraq optimallaşdırılmışdır. Daha sonra karyera maraqlarını ölçmək üçün fəaliyyət yönlü suallar hazırlanmışdır. Yekun alət "Fəaliyyət" və "Maraq" bloklarından ibarətdir. Bu blok suallarının peşə qrupları ilə əlaqələndirilməsi və nəticələrin hesablanması üçün alqoritm tərtib edilmişdir. Alqoritm ilkin mərhələdə sınaqdan keçirilmiş, məntiqi ardıcıllıq və diaqnostik dəqiqlik baxımından dəqiqləşdirilmişdir. Paralel olaraq peşələr təfəkkür növlərinə görə qruplaşdırılmış və müxtəlif təsnifat sistemlərindən uyğun peşələr inteqrasiya edilərək vahid struktur yaradılmışdır. 175 peşə üçün blokların tərkibi hazırlanıb və aprobasiya mərhələsinə təqdim ediləcəkdir. Bu alət həm müstəqil, həm də "Yetkin yaşlı şəxslər üçün peşə seçimi" alətinin bir hissəsi kimi istifadə olunacaqdır.

"Dəyərlər" testi

2025-ci il ərzində müəyyən araşdırmaların nəticəsində müxtəlif peşələrə aid olan dəyərlər siyahısının ilkin versiyası tərtib olunmuşdur. Bu siyahı yeni dəyərlər alətinin əsasını təşkil edir. Yekun alət 16 dəyər şkalasından ibarətdir. Alətin iki hesablanma və keçirilmə formatı nəzərdə tutulmuşdur: ekspres və ətraflı format. Bu alət həm müstəqil, həm də "Yetkin yaşlı şəxslər üçün peşə seçimi" alətinin bir hissəsi kimi istifadə olunacaqdır.

Peşəkar dəyərlər aləti ilə yanaşı şəxsi dəyərlər aləti də hazırlanmış, ekspertiza edilmiş, aprobasiya üçün hazırdır.

"Peşə seçiminə şüurlu yanaşma" testi

Layihə çərçivəsində aparılan nəzəri icmal və analitik işlər nəticəsində peşəni mənimsəməyə hazırlığı ölçən konseptual model formalaşdırılmış və dörd əsas faktor müəyyən edilmişdir. Hər bir faktor üzrə sosial istəkliliyi minimuma endirən, məzmun baxımından dəqiq və psixometrik tələblərə uyğun Laykert tipli ifadələr hazırlanmışdır. Alət artıq daxili ekspertizaya və pilot aprobasiya mərhələsinə təqdim olunacaq səviyyədə yekunlaşdırılmış və növbəti psixometrik qiymətləndirmə mərhələsinə tam hazırdır.

Könüllülük layihəsi

2024-2025-ci qeydiyyat ili üçün 2700-dən çox könüllüyə psixoloji qiymətləndirilmə mərhələsi haqqında məlumat göndərilmiş və könüllülər üçün təlim mövzuları seçilmişdir. Keçən il keçirilmiş testlərin nəticələri statistik təhlil edilmiş və buna əsasən könüllü kateqoriyaları yaradılmışdır. Bu kateqoriyalara daxil könüllülərin mərhələli şəkildə işə cəlb edilməsi təşkil edilmişdir. Həmçinin seçilmiş könüllülərə təlimlər keçirilmiş, işin səmərəliliyini artırmaq üçün müsahibə mərhələsi vasitəsilə supervayzerlər seçilmiş və təyin edilmişdir. Könüllülərlə Könüllülər Gününə həsr olunmuş interaktiv kino-görüş təşkil edilmişdir.

2025-2026-cı qeydiyyat ili üçün 2000-dən çox könüllüyə psixoloji qiymətləndirilmə mərhələsi haqqında məlumat göndərilmişdir. Bu mərhələdə iştirakçıların stresədözümlülük, çeviklik, dürüstlük və dəyərlər kimi psixoloji konstruktlarının ölçülməsi üçün alətlər hazırlanmış və tətbiq edilmişdir.

Gələn il üçün könüllülərlə aparılacaq tədqiqat işinin elmi və metodoloji bazası formalaşdırılmışdır.

İmtahan nəzarətçiləri üçün psixoloji təlimlər

İlkin mərhələdə nəzarətçilərin seçimini aparacaq yeni psixoloqlar müəyyən edilmiş və onların işə qəbul prosesi həyata keçirilmişdir. Bu məqsədlə müsahibədə istifadəsi üçün strukturlaşdırılmış müsahibə sualları hazırlanaraq psixoloqlara təqdim edilmişdir.

Növbəti mərhələdə psixoloqların gələcəkdə nəzarətçilərə keçəcəkləri təlimlərin keyfiyyətini təmin etmək üçün onlar üçün xüsusi təlim təşkil olunmuş, alınan məlumatlar əsasında psixoloqların təlimkeçmə bacarığı qiymətləndirilmiş və seçimlər aparılmış, fəaliyyətləri ilə bağlı rəy təqdim edilmişdir.

Psixoloqların ilk real təlimlərində də iştirak edilmiş, müşahidə aparılmış və inkişaf üçün əlavə əks-əlaqələr rəy təqdim olunmuşdur.

Yüksəliş

Yüksəliş müsabiqəsi çərçivəsində səriştə əsaslı qiymətləndirmə ilə yanaşı emosional zəka qiymətləndirməsi də həyata keçirilmişdir. Bu qiymətləndirmə çərçivəsində iştirakçıların 3 komponent üzrə emosional zəkası ölçülmüş, digərlərinin emosiyalarını anlama, öz emosiyalarını anlama və effektiv davranış komponentləri 62 sual çərçivəsində qiymətləndirilmişdir. Qiymətləndirmədə mətn, audio, foto və qısa video formatları istifadə edilmişdir. Ümumi nəticələr əsasında iştirakçılar ballarına görə sıralanmış, yekun bal və müvafiq rəylər təşkilatçılara göndərilmişdir.

"Emosional zəka" psixometrik aləti

Yüksəliş layihəsi çərçivəsində tərtibatına başlanılmış alətin növbəti mərhələsi olaraq, mövcud alət əsasında sadalanan şkalaların məzmunun genişləndirilməsi, sual sayının artırılması, vahid nəzəri bazanın tərtibatı işləri aparılmışdır. Həmçinin eksperimental şkalaların tərtibatına başlanılmış, aprobasiya üçün hazırlıq işləri aparılmışdır.

Maarifləndirmə işləri

Maarifləndirmə məqsədilə 2025-ci illərdə Dövlət İmtahan Mərkəzində keçirilən ali təhsil müəssisələrinin sərgisində aktiv iştirak edilmiş. Sərgidə istifadə edilən müxtəlif peşəyönlü broşurlar, çeklistlər və viktorinalar hazırlanmışdır. Nəticə etibarilə iştirakçılara 3 gün ərzində peşə seçimi ilə bağlı təqdimatlar keçirilmiş, müxtəlif materiallar təqdim edilmiş və psixoloji xidmətlər barədə məlumat verilmişdir. Həmçinin sərgi zamanı 200-ə yaxın yeniyetməyə "Peşə seçimi" testindən ödənişsiz keçmə imkanı yaradılmış və əks əlaqələr təqdim edilmişdir. Viktorinada iştirak edən iştirakçılara hədiyyələr paylanılmışdır.

Həmçinin il ərzində müxtəlif mövzularda maarifləndirici podkastlar çəkilmiş, videoçarxlar hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır. Yeniyetmələr üçün "Peşə seçimi" metodiki vəsaitinin tərtibinə başlanılmışdır.

Dövlət qulluqçuları üçün təlimlər

Avqust–dekabr aylarında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli, 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 3.1.9-cu fəaliyyət istiqaməti (dövlət qulluğunda və iqtisadi idarəetmədə effektivliyin artırılması) çərçivəsində regionlarda dövlət qulluqçuları üçün 2025-ci il ərzində "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi: qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzusunda təlimlər keçirilmişdir.

Bundan əlavə, Bakı şəhərində il ərzində müxtəlif qurumlar üçün fərqli mövzularda 20-dən artıq təlim təşkil olunmuşdur.













Dövlət qulluğunda səriştə modelinin tətbiqi ilə bağlı görülən işlər

"Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 5.4-cü bəndinə əsasən dövlət qulluqçularının peşəkarlığını və işinin səmərəliliyini artırmaq məqsədilə dövlət qulluğunda beynəlxalq təcrübəyə əsaslanan səriştə (kompetensiya) modelinin tətbiq edilməsi istiqamətində 2025-ci il ərzində aşağıda qeyd edilən işlər həyata keçirilmişdir:

- Dövlət qulluğunda səriştə (kompetensiya) modelinə mərhələli keçid çərçivəsində icraçı və aşağı rəhbər vəzifələri üzrə ümumi səriştələrin qiymətləndirilməsi məqsədilə 989 ədəd situasiya mühakimə testi (SMT) tapşırığı hazırlanaraq test bankına təhvil verilmişdir. Hazırlanmış tapşırıqlar dövlət qulluğunda zəruri olan ümumi səriştələrin sistemli qiymətləndirilməsinə xidmət edir. SMT tapşırıqlarının hazırlanması prosesi şöbə əməkdaşlarının bilavasitə iştirakı ilə yanaşı, xidməti müqavilə əsasında cəlb edilmiş test tərtibatçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilmişdir. Tərtibatçıların peşəkar bacarıqlarının formalaşdırılması və vahid metodoloji yanaşmanın təmin edilməsi məqsədilə şöbə əməkdaşları tərəfindən mütəmadi təlimlər təşkil edilmiş, metodiki dəstək göstərilmişdir. Bu yanaşma nəticəsində təşkilatdan kənar peşəkar test tərtibatçılarından ibarət kadr bazasının formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.
- Dövlət qulluqçularının işə qəbulu prosesinin səriştələr əsasında aparılması məqsədilə səriştə əsaslı qəbul modelinə dair yekun təklif paketi hazırlanaraq təqdim edilmişdir. Təklif olunan modeldə:
  - qəbul prosesinin mərhələləri;
  - hər mərhələnin məqsədi və məzmunu;
  - mərhələlər arası keçid qaydaları və bal hədləri;
  - müsahibələrin aparılması üçün istifadə ediləcək səriştə meyarları;
  - strukturlaşdırılmış sual blokları və qiymətləndirmə şkalaları ətraflı şəkildə müəyyənləşdirilərək vahid təklif sənədində sistemləşdirilmişdir.

Bu sənəd dövlət qulluğuna qəbul prosesinin davranış və səriştə əsaslı qiymətləndirmə prinsiplərinə uyğunlaşdırılması üçün metodoloji əsas rolunu oynayır.

- Dövlət təşkilatlarında 180 dərəcə qiymətləndirmə sisteminin qurulması istiqamətində işlər aparılmışdır. Bu çərçivədə 6 dövlət orqanı (Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi Agenti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi) pilot qurum kimi seçilmiş, qiymətləndirmə prosesi Dövlət İmtahan Mərkəzinin təqdim etdiyi müvafiq elektron platforma üzərindən təşkil edilmişdir. Prosesin icrası seçilmiş pilot qurumların insan resurslarının idarə edilməsinə məsul bölmələri ilə sıx əməkdaşlıq şəraitində aparılmış, qiymətləndirmə mərhələləri, iştirakçı qrupları və vaxt çərçivələri müvafiq bölmələrlə razılaşdırılaraq planlaşdırılmışdır. Seçilmiş pilot qurumların məsul bölmələrinə 180 dərəcə qiymətləndirmənin məqsədi, istifadə olunan platformanın funksionallığı və səriştə modelinin tətbiq qaydalarını əhatə edən müvafiq məlumatlar təqdim edilmişdir. Qiymətləndirmə səriştə modelinə daxil olan on iki səriştə üzrə aparılmaqla əməkdaşların davranış və peşəkar keyfiyyətlərinin sistemli şəkildə izlənilməsi üçün metodoloji baza formalaşdırılmışdır.
- Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində səriştə modelinin tətbiqi ilə bağlı ümumi səriştələrin qiymətləndirilməsi üzrə alətlərin (SMT-lərin) keyfiyyət parametrlərinə uyğunluğunu və effektivliyini yoxlamaq məqsədilə 2024-cü ildə həyata keçirilən genişmiqyaslı tədqiqat 2025-ci ildə davam etdirilmişdir. Bu mərhələdə əvvəlki dövrlərdə SMT vasitəsilə qiymətləndirilmiş struktur bölmə rəhbərləri – 22 nəfər sektor müdiri rol oyunlarına cəlb edilmişdir. Rol oyunu nəticələri SMT nəticələri ilə müqayisə edilmiş, bu müqayisələr müxtəlif səriştə qrupları üzrə nəticələrin uyğunluq və tutarlılıq səviyyəsini, eləcə də qiymətləndirmə vasitələri arasında korelyasiyanı müəyyən etməyə imkan vermişdir. Beləliklə, SMT nəticələrinin alternativ qiymətləndirmə alətləri ilə müqayisəli təhlili aparılaraq alətlərin psixometrik və praktik etibarlılığına dair əlavə sübutlar əldə olunmuşdur.
- Dövlət qulluğunda funksional səriştələrin müəyyənləşdirilməsi istiqamətində işlər SIGMA layihəsi çərçivəsində mərhələli şəkildə davam etdirilmişdir. Hesabat dövründə:
  - dövlət qulluğunda ilkin fəaliyyət kateqoriyalarının təsnifatı aparılmış;
  - vəzifə ailələrinin (job families) formalaşdırılması üzrə struktur çərçivə müəyyən edilmiş;
  - vəzifələrin sistemli qruplaşdırılması üçün konseptual əsas yaradılmışdır.

Bu çərçivədə funksional müxtəlifliyi əhatə edən pilot qurumlar müəyyən edilmiş, seçilmiş qurumlar üzrə vəzifələrin qulluq funksiyaları təhlil olunmuşdur. Vəzifə ailələri üzrə aşağıdakı fərqləndirici meyarların sistemləşdirilməsi istiqamətində hazırlıq işləri aparılmışdır:

– müstəqillik səviyyəsi,
– tapşırıqların mürəkkəbliyi,
– təşkilata təsir səviyyəsi,
– funksional məsuliyyətlər,
– tələb olunan səriştələr və məsuliyyət pillələri.

Aparılmış hazırlıq tədbirləri nəticəsində vəzifə ailələri üzrə vahid standartların formalaşdırılması və gələcək mərhələlərdə ümumiləşdirilməsi üçün zəruri metodoloji baza təmin edilmişdir. Bu işlər funksional səriştə modelinin dövlət qulluğu sistemi ilə inteqrasiyası üçün əsas çərçivəni formalaşdırır.

Dövlət qulluğuna qəbul üzrə test imtahanının məzmununun təkmilləşdirilməsi ilə bağlı görülən işlər

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun 28-ci maddəsinə uyğun olaraq, dövlət qulluğuna qəbul müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Mərkəz inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq inzibati dövlət qulluğu vəzifələri üzrə dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir.

Dövlət qulluğuna qəbul imtahanların daha obyektiv və şəffaf keçirilməsi məqsədilə imtahanın məzmununun təkmilləşdirilməsi üçün mütəmadi olaraq zəruri tədbirlər həyata keçirilir. Elmi və elmi-texnoloji sahələrdə, həmçinin qanunvericilik sistemində baş verən dəyişikliklər nəzərə alınaraq dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanlarının proqramlarında zəruri dəyişikliklər edilir, test bankları mütəmadi olaraq yenilənir, banka yeni model tapşırıqlar daxil edilir.

Cari ildə də dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə sertifikat verilməsi üçün imtahanların strukturu və məzmununa müvafiq olaraq imtahan iştirakçılarının qanunvericilik üzrə bilikləri və onları tətbiqetmə bacarıqlarının, Azərbaycan dili üzrə biliklərinin və mətn təhliletmə bacarıqlarının, informasiya texnologiyaları üzrə bilik və bacarıqlarının, məntiqi təfəkkürünün, dünyagörüşünün müəyyən edilməsi üçün müvafiq proqramlara uyğun test tapşırıqları banklarının təkmilləşdirilməsi sahəsində işlər davam etdirilmişdir. 2025-ci il ərzində ekspertiza edilmiş tapşırıq sayı aşağıdakı kimidir:

- Ümumilikdə 1100-ə yaxın test tapşırığının ekspertizası təşkil edilib, onlardan aşağıdakı sayda test tapşırıqları qəbul edilərək müvafiq test banklarına təhvil verilmişdir:
  - qanunvericilik üzrə – 378 tapşırıq,
  - məntiqi təfəkkürün yoxlanılması üzrə – 168 tapşırıq,
  - Azərbaycan dili üzrə – 327 tapşırıq,
  - informasiya texnologiyaları üzrə – 146 tapşırıq.

Eyni zamanda səriştə modelinə keçid məqsədilə bankda situasiya (kazus) tipli tapşırıqların sayı artırılmış (müvafiq test banklarına 207 belə tapşırıq daxil edilib), il ərzində keçirilən test imtahanlarında bu tip tapşırıqlardan istifadə olunmuşdur. Bankdakı təxminən 600 test tapşırığı isə təkrar ekspertiza (təftiş) olunub, müvafiq düzəlişlər və təkmilləşmələr aparılıb.

2025-ci il ərzində hər ay (İnzibati rəhbər vəzifələrə (A növü üzrə) iki ayda bir, inzibati icraçı vəzifələrə (B növü üzrə) ayda bir gün, hər gün iki növbə olmaqla) imtahanlar keçirilmişdir.

İmtahanlardan sonra dövlət qulluğu üzrə təxminən 200, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə 20 apellyasiya müraciəti cavablandırılmışdır.

“YÜKSƏLİŞ” müsabiqəsi çərçivəsində təşkil olunan tədbirlər və koordinasiya olunan fəaliyyət

“Yüksəliş” müsabiqəsinin fəaliyətinə
DİM-in verdiyi dəstək aşağıdakı istiqamətləri əhatə edir:

- Onlayn imtahanının məzmunun hazırlanması;
- Əyani mərhələnin təşkili;
  - Analitik təhlil imtahanının təşkili (məzmun) - Elektron İmtahanlar Korpusu;
  - “İdarəetmə bacarıqları” mərhələsi (məzmun) - Elektron İmtahanlar Korpusu;
- Mentorluq proqramı.

Onlayn imtahan mərhələsi

2025-ci il aprelin 27-də beşinci “Yüksəliş” müsabiqəsinin onlayn imtahan mərhələsi çərçivəsində Ümumi biliklər üzrə əsas imtahan keçirilib. İmtahanda 10 729 nəfər iştirak edib. Namizədlərə imtahanda Azərbaycan bloku, dünya bloku, idarəetmənin əsasları və müasir trendlər üzrə hər bölmədə 25 olmaqla ümumilikdə 100 tapşırıq təqdim olunub. Tapşırıqlar Dövlət İmtahan Mərkəzinin Yoxlama-ölçmə materiallarının işlənməsi departamenti tərəfindən hazırlanıb.

Əyani mərhələ

Analitik təhlil imtahanı. 2025-ci il 17 və 18 may tarixlərində beşinci “Yüksəliş” müsabiqəsinin əyani mərhələsinin ilk imtahanı - Analitik təhlil imtahanı keçirilib. İmtahana qatılan 5813 namizəddən 1478 iştirakçı müsabiqənin növbəti mərhələsində iştirak hüququ qazanıb. İmtahanlar Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusunda, Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Bakı şəhərində 153, 158, 161, 229 və 238 nömrəli, Sumqayıt şəhərində 1 nömrəli tam orta məktəbdə təşkil olunmuş imtahan mərkəzlərində keçirilib. İmtahanda DİM tərəfindən hazırlanan tapşırıqlardan istifadə olunub. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib və imtahan zalları müntəzəm olaraq həm nəzarətçilər, həm də videomüşahidə vasitəsilə nəzarətdə saxlanılıb. Bütün zallarda imtahan təlimata uyğun şəkildə keçirilib, namizədlərə öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahan üçün hər gün Mərkəzin 10 zalı ayrılıb və idarəetmə prosesinə 1 ümumi imtahan rəhbəri, 14 zal administratoru, 20 buraxılış rejimi əməkdaşı cəlb olunub.





“İdarəetmə bacarıqları” imərhələsi. 2025-ci il 4-6 iyun tarixlərində Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusunda “Yüksəliş” müsabiqəsinin “İdarəetmə bacarıqları” imtahanı keçirilib. Tapşırıqlar Dövlət İmtahan Mərkəzinin Sərištələrin və peşəkar potensialın qiymətləndirilməsi şöbəsi tərəfindən

hazırlanıb. İmtahan iki növbədə təşkil olunub; səhər saat 10:00-da, günortadan sonra saat 16:00-da başlayıb. İmtahanlarda 1478 namizəd iştirak edib. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib və imtahan zalları müntəzəm olaraq həm nəzarətçilər, həm də videomüşahidə vasitəsilə nəzarətdə saxlanılıb. Bütün zallarda imtahan təlimata uyğun şəkildə keçirilib, namizədlərə öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanın məzmunu DİM tərəfindən hazırlanıb.





4 iyul 2025-ci il tarixdə DİM-in İdarə Heyətinin sədri Məleykə Abbaszadə beşinci "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsində təqdimatla çıxış edib. Təqdimat zamanı sədr innovasiyaların və dəyişikliklərin tətbiqi bacarığının inkişafı ilə bağlı əhəmiyyətli məqamlara toxunub. DİM-in keçdiyi inkişaf yolundan bəhs edən sədr yarımfinalçıların suallarını da cavablandırıb.





Mentorluq proqramı. DİM-in İdarə Heyətinin sədri Məleykə Abbaszadə 2025-ci ildə 4-cü "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı çərçivəsində müsabiqə qalibi Seymur Hüseynov ilə mütəmadi görüşlər keçirmişdir.





DİM-in İdarə Heyətinin sədri Məleykə Abbaszadə "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin iclaslarında mütəmadi iştirak etmiş, hesabatlarla tanış olub, müzakirələrdə çıxış etmişdir.

DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər





“Abituriyent” jurnalı özünün bütün sayları, xüsusi buraxılış və nəşrləri ilə ictimaiyyətin, xüsusilə də abituriyentlərin və təhsil işçilərinin maarifləndirilməsinə xidmət göstərir, qəbul kampaniyasının bütün gedişi, mərhələləri, istiqamətləri barədə dolğun, dəqiq və etibarlı informasiya mənbəyi rolunu oynayır.

Rəsmi, elmi-metodiki, informativ nəşrlərin təsnifatı belədir:

Rəsmi materiallar

- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydaları;
- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydalarının təfsilatını açıqlayan qəbul elanları;
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul qaydaları, müsabiqə şərtləri və bunların təfsilatını açıqlayan normativ sənədlər;
- tələbə qəbulu prosesinin ayrı-ayrı istiqamət və mərhələləri üzrə ictimaiyyətə ünvanlanan elanlar;
- ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları proqramları;
- ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları modellərinə uyğun tapşırıq nümunələri;
- ali təhsil müəssisələrinə və hərbi liseylərə qəbul imtahanları proqramları;
- ali təhsil müəssisələrinə və hərbi liseylərə qəbul imtahanı modellərinə uyğun tapşırıq nümunələri;
- ali təhsil müəssisələrinə qəbul imtahanlarında zəif cavablandırılan tapşırıqların izahlarına dair metodik tövsiyələr;
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar və plan yerləri:
- ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu;
- ali təhsil müəssisələrinə, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı:
- təhsilin müxtəlif pillə və səviyyələrinə tələbə qəbulunun və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili.



İmtahanlara hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsaitlər

Bu vəsaitlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin ümumtəhsil müəssisələri üçün qüvvədə olan fənlər üzrə tədris proqramları və dərsliklər əsasında DİM-in hazırladığı qəbul proqramlarına tam uyğundur.

Vəsaitlərdə hər bir bölməyə aid mövzuların sonunda həmin mövzu üzrə və hər bölmənin sonunda ümumiləşdirici tapşırıqlar təqdim edilib. Həmçinin bölmənin sonunda yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və mənbə əsasında hazırlanan 3 tapşırıq da verilir. Bu struktur qəbul imtahanına müstəqil hazırlaşanlara tam orta ümumtəhsil müəssisələrində öyrəndikləri bilik və bacarıqları təkrar etməyə, tapşırıqları yerinə yetirmə bacarıqlarını inkişaf etdirməyə şərait yaradır.

Vəsaitlərdəki tapşırıqların düşündürücü və məntiqi olmasına, mühakimə-yürütmə, tətbiqetmə, təhliletmə və s. bacarıqların inkişafına şərait yaratmasına xüsusi diqqət yetirilib. Cavabı yazı ilə ifadə olunan tapşırıqların təqdim edilməsində məqsəd, ilk növbədə, bilik və bacarıqların qiymətləndirilməsini beynəlxalq standartlara uyğunlaşdırmaqdır. Bu tip tapşırıqlar müstəqil düşünmək, qərar vermək və əldə edilən nəticələri təqdim etmək bacarıqlarını daha yaxşı yoxlamağa imkan verir.

Qeyd etmək lazımdır ki, 2021-2023-cü illərdə bu vəsaitlər DİM və LANDAU School-un birgə layihəsi əsasında nəşr olunmuşdur.



Fənlər və siniflər üzrə “Qiymətləndirmə tapşırıqları” kitabları

Yeni təhsil proqramlarına (kurikulumlara) uyğun hazırlanmış bu vəsaitlərdən istifadə etməklə məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi həyata keçirilir. Vəsaitdən həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmədə istifadə olunur.

Bu kitablarda müvafiq fənn və sinif üzrə tədris materialları əsasında hazırlanmış yeni (situasiya, mətn və mənbə üzərində iş, Eyler-Venn diaqramı, BİBÖ, klaster üsulu və s.) qiymətləndirmə tapşırıqları, qapalı (çoxseçimli) və açıq tipli test tapşırıqları təqdim olunur.



İbtidai siniflər üçün “Qiymətləndirmə tapşırıqları” kitabları

Bu kitablar respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 1-4-cü sinif dərsliklərinin hər bir mövzusu üzrə hazırlanmışdır.

Kitabçaya daxil edilən tapşırıqların hər biri şagirdlərin idrak-yömümlü, məntiqi, nəzəri bilik və bacarıqlarını yoxlamağa imkan verir. Bu tapşırıqlarla tədris prosesində diaqnostik, formativ, summativ qiymətləndirmə aparmaq mümkündür.

Kitabdan ümumi təhsil müəssisələrində qiymətləndirmə vasitəsi kimi, həmçinin pedaqoji yönümlü ali təhsil müəssisələrində və müəllimlər üçün təlim kurslarında metodiki material kimi istifadə oluna bilər.



“Xüsusi qabiliyyət imtahanları” buraxılışları

Dövlət İmtahan Mərkəzi xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyənlər üçün “Abituriyent” jurnalının xüsusi buraxılışı olan vəsaitləri çap etmişdir. Vəsaitlərdə xüsusi qabiliyyət tələb edən ixtisasların yığcam xarakteristikası, onların hansı ali təhsil müəssisələrində olması haqqında məlumatlar, qabiliyyət imtahanı proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyələr, tapşırıq nümunələri, reproduksiyalar, normativlər, bir sözlə, xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin imtahana səmərəli hazırlaşmaları üçün vacib materiallar əksini tapmışdır.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara dair materiallar istiqamətlərinə uyğun olaraq 5 kitabçada təqdim edilmişdir.



Test topluları

Bu toplulara DİM (əvvəlki TQDK) tərəfindən müxtəlif illərdə və müxtəlif təyinatlı imtahanlarda, habelə "Abituriyent" jurnalının ayrı-ayrı saylarında dərc edilmiş test modelləri daxildir. Bununla yanaşı, hər topludakı test tapşırıqlarının 25 faizini heç bir imtahanda istifadə olunmamış tapşırıqlar təşkil edir. Onlar test bankındakı tapşırıqların əsas modellərini əhatə edir və gələcəkdə imtahanlara düşməsi istisna olunmur.

Test topluları şagirdlər, abituriyentlər, müəllimlər, test tərtibi ilə məşğul olan mütəxəssislər və ümumiyyətlə, testologiyaya maraq göstərənlər üçün dəyərli örnəkdir. Eyni zamanda, təlim-tədris prosesində biliyin qiymətləndirilməsində istifadə üçün faydalı vəsaitdir.



Magistraturaya və rezidenturaya qəbula aid xüsusi buraxılışlar

Bu məcmuələrdə qəbul qaydaları və elanları, qəbul aparılan ixtisaslar, plan yerləri, imtahanların təşkili və keçirilməsinə aid yeniliklər, qəbul olanların siyahısı, ixtisaslar üzrə keçid balları, DİM-in digər qərar, məlumat və elanları, eyni zamanda metodiki materiallar təqdim olunmuşdur.
































Rezidenturaya qəbul imtahanlarına hazırlaşanlar üçün vəsaitlər

Vəsaitlər Azərbaycan Tibb Universitetinin tədris proqramı və rezidenturaya qəbul imtahanı proqramı əsasında hazırlanmışdır. Vəsaitlər tərtib olunarkən elmin müasir nailiyyətlərindən istifadə edilmiş, tədris prosesində qarşıya çıxan konkret problemlərə daha çox diqqət yetirilmişdir. Vəsaitlərdən Azərbaycan Tibb Universitetinin, eləcə də tibb təhsili verən digər tədris müəssisələrinin tələbələri və müvafiq fənləri tədris edən müəllimlər istifadə edə bilərlər.



Dövlət qulluğuna qəbul olmaq istəyənlər üçün “Dövlət qulluğu” xüsusi buraxılışları





Dövlətimiz tərəfindən dövlət qulluğu və digər kadr siyasəti məsələlərində daha mükəmməl və şəffaf modelə nail olmaq mədsədilə müntəzəm olaraq müvafiq tədbirlər həyata keçirilir, qanunvericilik bazasında zəruri dəyişikliklər edilir, yeni normativ hüquqi aktlar qəbul olunur. Dövlət İmtahan Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri də bu sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək, dövlət qulluğuna qəbulu mərkəzləşdirilmiş qaydada, müsabiqə əsasında şəffaf şəraitdə aparmaqdan ibarətdir.

DİM ictimaiyyəti bu sahə ilə bağlı maarifləndirməyi və zəruri məlumatlarla təmin etməyi də əsas vəzifələrindən biri hesab edir. “Abituriyent” jurnalının xüsusi buraxılışı olan “Dövlət qulluğu” jurnalının nəşrlərində bilik sahələri üzrə hazırlanmış proqramlar, qanunvericilik bazasında baş verən dəyişikliklər, test tapşırığı nümunələri, müsabiqəyə təqdim olunmuş vakant vəzifələrin siyahısı və digər zəruri məlumatlar təqdim olunmuşdur.

“20 variant sınaq imtahanı” kitabları

Dövlət İmtahan Mərkəzinin nəşr etdirdiyi – “20 variant sınaq imtahanı” kitabları fənn ekspertlərinin gördüyü böyük həcmdə işlərin nəticəsidir. Bu nəşrlərdə ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış və ixtisas qruplarına uyğun olaraq qəbul imtahanları fənləri üzrə hazırlanıb. Hər bir kitabda müvafiq olaraq buraxılış və ali təhsil müəssisələrinə qəbul imtahanlarının proqramları üzrə 20 sınaq imtahanı variantı (proqramın ayrı-ayrı mövzuları üzrə 10, bütöv proqram üzrə ümumiləşdirici 10 variant) təqdim edilib.





Elmi-statistik araşdırmaların nəticələrinə dair vəsaitlər

Tələbə qəbulu sistemində müasir informasiya texnologiyalarından istifadə olunması həm də ölkədə təhsilin vəziyyətinə dair geniş məlumat bazasına yiyələnməyə imkan verir. Bu məlumatların təhlili, əldə olan materialların pedaqoji ictimaiyyətə çatdırılması, qabaqcıl təcrübənin yayılması, çatışmazlıqların aidiyyəti təşkilatların diqqətinə çatdırılması təhsilin inkişafı ilə bağlı strateji qərarların qəbul olunması üçün mühüm əhəmiyyət kəsb edir. Odur ki, hər il qəbul imtahanlarının nəticələrinə əsasən ölkədə məktəb təhsilinin vəziyyətinin elmi-statistik təhlili aparılır və araşdırmanın nəticələri çap edilib təhsil ictimaiyyətinə çatdırılır. Aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Qəbul və buraxılış imtahanlarının gender aspektləri", "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar hazirlanır. Bunlarla bərabər, ölkənin hər bir rayonunun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar da çap edilib müvafiq təhsil orqanlarına göndərilir. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.







Əvvəlki illərdə olduğu kimi, bu il də DİM ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulunun nəticələrinə əsasən təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgə və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali məktəblərin reytinqi, magistraturaya və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlərə dair əhatəli araşdırmalar aparılıb.

DİM 2025-ci ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası

Redaksiyamız bu ənənəvi rubrikada Dövlət İmtahan Mərkəzinin cari ildəki fəaliyyətinin xronologiyasını təqdim edir. Burada Mərkəzin 2025-ci ildə gördüyü əsas işlər, həyata keçirdiyi tədbirlər, əldə etdiyi mühüm nailiyyətlər xronoloji ardıcıllıqla əks etdirilib.

- 7 yanvarda ilk dəfə Azərbaycan dilinə tərcümə olunmuş "Dillərin öyrənilməsi, tədrisi və qiymətləndirilməsi üzrə tövsiyə çərçivə sənədi" (CEFR) oxuculara təqdim edilib.
- 7 yanvarda dövlət orqanlarında vakant inzibati vəzifələrin tutulması məqsədilə daxili müsahibə elan edilib.
- 9 – 10 yanvar tarixlərində DİM-in Dövlət strategiyası ilə iş və insan kapitalı inkişafı şöbəsinin aparıcı məsləhətçisi Gündüz Əhmədli tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Layihələrin idarə olunması" mövzusunda təlim təşkil olunub.
- 9 – 14 yanvar tarixlərində "A2 Key/A2 Key for schools" və "B1 Preliminary/ B1 Preliminary for schools" imtahanlarına qeydiyyat aparılıb.
- 10 yanvarda 2025-ci ildə keçiriləcək bəzi imtahanların qrafiki və qeydiyyat tarixləri elan olunub.
- 11 yanvarda Dövlət İmtahan Mərkəzində TOEFL iBT imtahanı keçirilib.
- 11 yanvarda ümumi səriştələrin qiymətləndirilməsi üçün yeni alət – situasiya mühakimə testləri üzrə tapşırıqların keyfiyyət parametrlərinə uyğunluğunu araşdırmaq üçün Naxçıvan şəhərində sınaq imtahanı təşkil olunub.
- 11 – 12 yanvar tarixlərində Bərdə şəhəri Elgiz Kərimov adına 4 saylı və Şəki şəhəri Nizami Gəncəvi adına 7 saylı tam orta məktəblərdə regionun ümumi təhsil müəssisələrinin xarici dil fənnini tədris edən müəllimləri ilə görüşlər keçirilib.
- 13 yanvarda 33 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun 82 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 13 – 31 yanvar tarixlərində Dövlət İmtahan Mərkəzinin məsul əməkdaşları tərəfindən 3915 imtahan nəzarətçisi üçün təlimlər keçirilib.
- 14 yanvarda Bakı Biznes Universitetində Dövlət İmtahan Mərkəzi və ali təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə peşəkar mühasib sertifikatı imtahanları üçün nəzərdə tutulan işçi qrupun ilk iclası keçirilib.
- 14 – 15 yanvar tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 15 yanvarda Niderlandın İmtahan və Sertifikatlaşdırma üzrə Tədqiqat Mərkəzi (RCEC) tərəfindən aparılan auditin nəticələrinə və buna əsasən DİM-ə fəaliyyəti ilə bağlı uyğunluq sertifikatının təqdim olunmasına həsr olunmuş tədbir keçirilib.
- 16 – 17 yanvar tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 17 yanvarda cari il üçün zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılma prosesi başa çatıb.
- 17 – 31 yanvar tarixlərində dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və BB vəzifə qrupu üzrə müsabiqənin test imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.
- 18 yanvarda TOEFL iBT imtahanı keçirilib.
- 19 yanvarda ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmaq istəyənlər üçün elektron formada sınaq imtahanı keçirilib.
- 20 yanvarda Dövlət İmtahan Mərkəzinin kollektivi Şəhidlər xiyabanını ziyarət edib.

- 21 – 22 yanvar tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 22 yanvar – 17 fevral tarixlərində aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən şəxslər üçün keçirilən test imtahanına qeydiyyat aparılıb.
- 23 yanvarda 92 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun 512 vakant vəzifənin tutulması üçün ümumi müsahibə elanı verilib.
- 23 yanvarda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün 2024-cü il dekabrın 21-də keçirilən imtahanın II mərhələsinin nəticələri elan olunub.
- 23 yanvarda doktorantura və magistratura imtahanları (alman dili) üzrə mətn və test tapşırıqlarının yazılması və ekspertizasının effektliliyinin artırılması məqsədilə təlim təşkil olunub.
- 23 yanvarda Naxçıvan şəhərlərində dövlət qulluğu vəzifələrinin A və B növünə aid vəzifə qrupları üzrə test imtahanları keçirilib.
- 23 – 24 yanvar tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 24 yanvardan 10 fevraladək "Gənc psixometrik" təcrübə proqramına qeydiyyat aparılıb.
- 24 yanvarda taksi sürücüləri və beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin hazırlığının qiymətləndirilməsi üçün DİM-in elektron imtahanlar korpusunda növbəti test imtahanı keçirilib.
- 25 yanvarda TOEFL iBT imtahanı keçirilib.
- 25 yanvarda Naxçıvanda regionun ümumi təhsil müəssisələrinin xarici dil fənnini tədris edən 260 nəfərə yaxın müəllimi ilə görüş keçirilib.
- 27 yanvarda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin Ümumi səriştələrin qiymətləndirilməsi sektorunun aparıcı məsləhətçisi Nazlı Abduləlimova və həmin sektorun məsləhətçisi Cavid Əliyev tərəfindən "Səriştəyönlü təşkilati mədəniyyətin formalaşması" mövzusunda təlim keçirilib.
- 28 yanvarda Dövlət İmtahan Mərkəzi ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı, ali təhsil müəssisələrinə qəbul imtahanının birinci mərhələsi və tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün "Abituriyent" jurnalının xüsusi buraxılışlarını nəşr edib.
- 28 və 30 yanvar tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 30 yanvarda qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün ixtisas imtahanı keçirilib.
- 30 yanvarda müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə xarici dövlətlərdə ali təhsil almış şəxslər üçün peşə tanınması üzrə imtahan keçirilib.
- 31 yanvarda 19 yanvarda keçirilmiş magistratura səviyyəsinə qəbul imtahanı modelinə uyğun sınaq imtahanının yekun nəticələri elan edilib.
- 31 yanvarda Dövlət İmtahan Mərkəzinin Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin aparıcı məsləhətçisi Gündüz Əhmədli tərəfindən "Dövlət qulluqçularının etik davranış qaydaları və korrupsiyaya qarşı mübarizə" mövzusunda İqtisadiyyat Nazirliyinin əməkdaşları üçün onlayn təlim keçirilib.
- Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 31 yanvar 2025-ci il tarixli Sərəncamına əsasən Dövlət İmtahan Mərkəzinin əməkdaşı Əzimov Rüstəm Bakir oğlu Gənclər üçün Prezident mükafatına layiq görülən şəxslər arasında yer alıb.
- 31 yanvar və 3 fevral tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 4 və 7 fevral tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub
- 4, 5, 11 və 12 fevral tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.

- 5 fevralda Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda fəaliyyəti yüksək qiymətləndirilən imtahan rəhbərləri və zal nəzarətçilərinin mükafatlandırılmasına həsr olunan tədbir keçirilib.
- 5 – 25 fevral tarixlərində dövlət qulluğunda inzibati rəhbər (A növü) və inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat aparılıb.
- 5 fevralda 135 dövlət orqanında 701 vakant inzibati vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.
- 6 – 7 fevral tarixlərində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin Ümumi səriştələrin qiymətləndirilməsi sektorunun aparıcı məsləhətçisi Zinyət Əmirova və həmin sektorun məsləhətçisi Cavid Əliyev tərəfindən nəzəri və praktik hissələrdən ibarət "Dövlət qulluğunda səriştə modelinin tətbiqi" mövzusunda təlim keçirilib.
- 6 fevral – 27 mart tarixlərində Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin V sinfinə şagirdlərin qəbulu aparılıb.
- 7 – 26 fevral tarixlərində ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsi üzrə sınaq imtahanına qeydiyyat aparılıb.
- 8 fevralda TOEFL iBT imtahanı keçirilib.
- 9 fevralda hakimliyə namizədlərlə yazılı imtahan keçirilib.
- 10 fevralda "Rezidentura" xüsusi buraxılışının 1-ci nömrəsi təqdim edilib.
- 5 – 6 və 10 –13 fevral tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 7 – 18 fevral tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 13 fevralda 9 dövlət orqanında inzibati vəzifələrin 3 – 4-cü təsnifatlarına uyğun 24 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 13 fevralda sürücülər və beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsləri üçün növbəti test imtahanı keçirilib.
- 13 fevralda Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Dövlət informasiya resursları departamentinin müdiri Vüqar Əkbərov və həmin departamentin sektor müdiri Xətayi Məmmədovun "Müxtəlif təyinatlı sertifikatların təhlili və işlənməsi" adlı məqaləsi "2024 International Conference Automatics and Informatics (ICAI)" jurnalında (səhifə 373 – 376) çap olunub.
- 14 fevralda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin Ümumi səriştələrin qiymətləndirilməsi sektorunun müdiri Anar Cəfərov və həmin sektorun məsləhətçisi Aynurə Abdalova tərəfindən "Səriştə əsaslı uğurlu liderlik" mövzusunda təlim keçirilib.
- 15 fevralda TOEFL iBT imtahanı keçirilib.
- 16 fevralda Bakı və Naxçıvan şəhərlərində doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər üzrə fəlsəfə doktoru imtahanı keçirilib.
- 16 fevralda inzibati rəhbər vəzifələrə aid AB, AC və inzibati icraçı vəzifələrə aid BA, BB vəzifə qrupları üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi imtahanı (dövlət qulluğunda inzibati vəzifələrin B növünə aid BB qrupu) üzrə imtahanı keçirilib.
- 16 fevralda ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı (1-ci cəhd) keçirilib.
- 17 fevralda Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədr müavini Bəhrəm Xəlilov və Mərkəzin əməkdaşı Mirzağa Yaqubzadə Türkiyə Respublikası Prezidentinin Administrasiyasının İnsan Resursları Ofisi tərəfindən İstanbul şəhərində keçirilən "İstedad əsaslı inkişaf" adlı III İstanbul İnsan Resursları Forumunda iştirak ediblər.
- 18 və 19 fevral tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 18 – 19 fevral tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.

- 19 fevralda 16 fevralda keçirilmiş magistraturaya qəbul imtahanının qapalı və kodlaşdırıla bilən açıq tipli tapşırıqlar üzrə nəticələri elan olunub.
- 19 fevralda doktoranturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dil fənni üzrə fəlsəfə doktoru imtahanının danışıq bloku mərhələsi keçirilib.
- Fevralın 20-dən martın 5-dək ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulu aparılıb.
- Fevralın 20-dən martın 5-dək ümumi (9 illik) orta təhsil bazasında kolleclərə tələbə qəbulu aparılıb.
- 20 fevralda DİM-də "A2 Key/A2 Key for schools" və "B1 Preliminary/ B1 Preliminary for schools" imtahanları keçirilib.
- 20 – 21 fevral tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 20 – 21 fevral tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 21 fevralda 46 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun 121 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 21 fevral – 2 mart tarixlərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həqiqi hərbi xidmətə və mülki işə qəbul olmaq istəyən vətəndaşlar üçün müsabiqənin test imtahanına qeydiyyat aparılıb.
- 22 fevralda TOEFL iBT imtahanı keçirilib.
- 24 fevral – 31 mart tarixlərində aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən şəxslər üçün keçirilən test imtahanına qeydiyyat aparılıb.
- 25 fevral – 17 mart tarixlərində BB vəzifə qrupu üzrə dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə imtahanlarda iştirak etmək üçün qeydiyyat aparılıb.
- 25 – 26 fevral tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 26 fevralda Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib.
- 26 – 27 fevral tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 27 – 28 fevral və 4 – 5 mart tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- Martın 1-də TOEFL iBT imtahanı keçirilib.
- 2 martda qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün ixtisas imtahanı keçirilib.
- 1 martda tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.
- 3 martda "Abituriyent" jurnalının 1-ci nömrəsi nəşr edilib.
- 3 martda Dövlət İmtahan Mərkəzi və "YAŞAT" Fondu arasında yeni əməkdaşlıq memorandumu imzalanıb.
- 4 martda doktoranturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər, habelə əcnəbilərin Azərbaycan dili imtahanının nəticələri elan olunub.
- 7 martda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində həqiqi hərbi xidmətə və mülki işə qəbulla bağlı test imtahanı keçirilib.
- 6 – 7 mart tarixlərində DİM-in Dövlət strategiyası ilə iş və insan kapitalı inkişafı şöbəsinin aparıcı məsləhətçisi Gündüz Əhmədli tərəfindən yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Layihələrin idarə olunması" mövzusunda təlim təşkil olunub.
- 6, 7 və 11 mart tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim keçirilib.

- 8 martda SAT imtahanı təşkil olunub.
- 9 martda tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.
- Martın 9-da Bakı və Naxçıvan şəhərlərində dövlət qulluğu vəzifələrinin A və B növünə aid vəzifə qrupları üzrə test imtahanları keçirilib.
- 10 – 30 mart tarixlərində taksi sürücüləri, avtomobil ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsləri və beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin hazırlığının qiymətləndirilməsi imtahanına qeydiyyat aparılıb.
- 10 martda DİM-in Hüquqi təminat, dövlət qulluğu məsələləri və dövlət strategiyaları ilə iş departamentinin Vəzifələrin idarə edilməsi və ehtiyat kadrlarla iş sektorunun müdiri Akif Bayramov və həmin sektorun böyük məsləhətçisi Röyal Şərifov tərəfindən "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" və "Dövlət qulluğunda ehtiyat kadrların idarə edilməsi" mövzularında təqdimatlar edilib. Həmçinin "Dövlət qulluğu - Vəzifələrin İdarə Edilməsi Sistemi" və "Dövlət qulluğu - Ehtiyat Kadrların İdarə Edilməsi Sistemi"ndən istifadə ilə bağlı iştirakçılara təlim keçirilib.
- 11 – 12 mart tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 12 martda Dövlət İmtahan Mərkəzinin rəhbər şəxsləri və İstanbulda fəaliyyət göstərən Özbək Qadın Haqları Fondunun nümayəndələri arasında görüş keçirilib.
- 12 martda "Gənc psixometrik" təcrübə proqramının seçim prosesinin imtahan mərhələsi baş tutub.
- 12, 13 və 14 mart tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim keçirilib.
- 13 martda DİM-in İdarə Heyəti sədrinin müavini Bəhrəm Xəlilov vətəndaş qəbulu həyata keçirib.
- 13 martda 5 dövlət orqanında inzibati vəzifələrin 2 – 4-cü təsnifatlarına uyğun 8 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 13 və 14 mart tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 14 martda magistraturaya qəbul imtahanının yekun nəticələri elan olunub.
- 14 martda ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanının şəhər və rayonlar üzrə keçirilmə qrafiki müəyyən olunub.
- 14 martda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin İstedadın psixometrik diaqnostikası və maarifləndirmə sektorunun müdiri Sevinc Məmmədova tərəfindən nəzəri və praktik hissələrdən ibarət "Effektiv nəticələrin əldə edilməsi və çeviklik" mövzusunda təlim keçirilib.
- 14 mart – 14 aprel tarixlərində taksi minik avtomobili sürücüləri üçün aprelin 30-da keçiriləcək növbəti imtahana qeydiyyat aparılıb.
- 16 martda Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq imtahanı keçirib.
- 17 martda 23 yanvarda elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib.
- 17 martda 5 fevralda elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib.
- 17 martda Azərbaycan Dili üzrə Sertifikasiya İmtahanının sınaq versiyasının onlayn platformasının təqdimatına həsr olunan tədbir keçirilib.
- 18 martda Dövlət İmtahan Mərkəzinin Müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova və həmin şöbənin aparıcı məsləhətçisi Kamran Səfərov, o cümlədən Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin böyük məsləhətçisi Miranə Rüstəmli tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim keçirilib.
- 18 martda "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı çərçivəsində Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə dördüncü "Yüksəliş" müsabiqəsinin qaliblərindən biri olan Seymur Hüseynovla görüşüb.
- 19 martda Dövlət İmtahan Mərkəzində TOEFL iBT imtahanı keçirilib.

- 18 – 19 mart tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim keçirilib.
- 18 və 19 mart tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 29 martda TOEFL iBT imtahanı keçirilib.
- 1 – 14 aprel tarixlərində magistraturaya qəbul imtahanının ikinci cəhdində iştirak etmək üçün bakalavrların ərizə qəbulu aparılıb.
- 3 apreldə "Rezidentura" xüsusi buraxılışının 2-ci nömrəsi nəşr edilib.
- 6 apreldə əvvəlki illərin məzunları üçün ali təhsil müəssisələrinə qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı, mart ayında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin XI sinif şagirdləri üçün buraxılış imtahanı, eksternat qaydasında XI sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı, buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş əvvəlki illərin XI sinif məzunları üçün buraxılış imtahanları keçirilib.
- 6 apreldə inzibati vəzifələrin B növünə aid BB altqrupu üzrə dövlət qulluğuna qəbul imtahanı, həmçinin inzibati rəhbər vəzifələrə aid AB, AC və inzibati icraçı vəzifələrə aid BA, BB vəzifə qrupları üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi imtahanı keçirib.
- 7 apreldə aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyənlər üçün Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda test imtahanı keçirilib.
- 7 apreldə 13 mart 2025-ci il tarixində elan edilmiş daxili müsahibələrin keçirilmə qrafiki müəyyən edilib.
- 7 – 11 aprel tarixlərində Salyan, Neftçala, Biləsuvar və Cəlilabad rayonlarında qulluq keçən dövlət qulluqçuları üçün "Vaxtın idarə edilməsi və effektiv planlama", "Dövlət qulluğunda inzibati vəzifələrin tutulması qaydaları" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi: qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında təlimlər keçirilib.
- 8 apreldə Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusuna "İmtahanlarda istifadə olunan yazılı cavab tələb edən tapşırıqların qiymətləndirilməsi texnologiyası" ilə tanış olmaq üçün mediatur təşkil olunub.
- 10 apreldə tam orta (11 illik) təhsil səviyyəsi üzrə martın 2-də keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub.
- 10 apreldə qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və yoxlanılmasına dair hazırlıq (marker) kursları fəaliyyətə başlayıb.
- 10 apreldə peşəkar mühasib sertifikatı imtahanlarının elektron formasının təqdimatı keçirilib.
- 11 apreldə coğrafiya və ingilis dili fənləri üzrə hazırlıq kurslarının ilk məşğələləri keçirilib.
- 11 – 18 aprel tarixlərində rezidenturaya ərizə qəbulu elan edilib.
- 11 aprel – 1 may tarixlərində dövlət qulluğunda inzibati rəhbər (A növü) və inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat aparılıb.
- 12 apreldə TOEFL iBT imtahanı keçirilib.
- 13 apreldə Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin V sinfinə qəbul imtahanı keçirilib.
- 13 apreldə Bakı şəhərinin Xətai, Nəsimi, Nərimanov, Qaradağ, Suraxanı və Səbail rayonlarında, Gəncə şəhərində (I hissə), Samux, Yevlax, Qazax, Ağstafa, Şəki, Lənkəran (I hissə), Astara, Yardımlı, Ağdam, Ağcabədi, Şuşa, Xankəndi, Xocalı, Ağsu, Zərdab, İsmayıllı, İmişli, Şirvan, Biləsuvar, Qusar, Siyəzən, Xızı və Şabran rayonlarında Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.
- 14 apreldə DİM-in İdarə Heyəti sədrinin müavini Bəhrəm Xəlilov vətəndaş qəbulu həyata keçirib.
- 14 apreldə Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V sinfinə qəbul olmaq üçün keçirilən imtahanın nəticələri elan edilib.

- 14 apreldə informatika və Azərbaycan dili fənləri üzrə hazırlıq kurslarının ilk məşğələləri keçirilib.
- 14 – 21 aprel tarixlərində peşəkar mühasib sertifikatı üzrə elektron sınaq imtahanında iştirak üçün qeydiyyat aparılıb.
- 15 apreldə Dövlət İmtahan Mərkəzinin Müsahibələrin təşkili şöbəsinin müdiri Xədicə Əzimova və həmin şöbənin aparıcı məsləhətçisi Kamran Səfərov, o cümlədən Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin böyük məsləhətçisi Miranə Rüstəmli tərəfindən İqtisadiyyat Nazirliyinin əməkdaşları üçün "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib.
- 16 apreldə ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə martın 16-da keçirilən sınaq imtahanının nəticələri elan edilib.
- 16 – 30 aprel tarixlərində onlayn platforma vasitəsilə Azərbaycan Dili üzrə Sertifikasiya İmtahanının sınaq versiyası keçirilib.
- Aprelin 17-dən mayın 1-dək ali təhsil müəssisələrinə və kolleclərə qəbul olmaq istəyən, lakin fevralın 20-dən martın 5-dək qeydiyyatdan keçməyən cari ilin məzunlarının I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etməsi üçün qeydiyyat aparılıb.
- 17 apreldə tam orta (11 illik) təhsil səviyyəsi üzrə martın 9-da keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub.
- 17 apreldə taksi sürücüləri, avtomobil ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsləri və beynəlxalq yük daşımalarını həyata keçirən sürücülər üçün növbəti test imtahanı keçirilib.
- 18 apreldə Dövlət İmtahan Mərkəzinin Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin böyük məsləhətçisi Miranə Rüstəmli tərəfindən "Qurumda təlim ehtiyaclarının müəyyən edilməsi və zəruri təlimlərin təşkili" mövzusunda təqdimat edilib.
- 20 apreldə Bakı şəhərinin Sabunçu (I hissə), Xəzər (I hissə), Yasamal və Binəqədi rayonlarında, Sumqayıt (I hissə), Abşeron (I hissə), Gəncə (II hissə), Mingəçevir, Daşkəsən, Şəmkir (I hissə), Gədəbəy, Qəbələ, Oğuz, Lənkəran (II hissə), Cəlilabad (I hissə), Masallı (I hissə), Göyçay, Ucar, Şamaxı, Qobustan, Sabirabad, Neftçala, Hacıqabul, Xaçmaz (I hissə), Quba (I hissə), Füzuli, Beyləqan, Zəngilan və Cəbrayılda Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.
- 21 aprel – 10 oktyabr tarixlərində buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə materiallarının işlənməsi, ekspertizası və yoxlanılması ilə bağlı müəllif, ekspert və marker hazırlığı kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.
- 21 apreldə DİM-in İdarə Heyəti sədrinin müavini Bəhrəm Xəlilov vətəndaş qəbulu həyata keçirib.
- 21 – 25 aprel tarixlərində Astara, Lerik, Masallı, Yardımlı rayonlarında və Lənkəran şəhərində qulluq keçən dövlət qulluqçuları üçün "Vaxtın idarə edilməsi və effektiv planlama", Dövlət qulluğunda inzibati vəzifələrin tutulması qaydaları" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi:qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında təlimlər keçirilib.
- 22 apreldə 6 dövlət orqanında inzibati vəzifələrin 2 – 4-cü təsnifatlarına uyğun olan 9 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 23 apreldə "Abituriyent" jurnalının 2-ci nömrəsi çap edilib.
- 23 apreldə TOEFL iBT imtahanı keçirilib.
- 23 aprel – 7 may tarixlərində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə vakant vəzifələrə sənəd qəbulu aparılmış namizədlərin test imtahınına qeydiyyatı aparılıb.
- 23 aprel – 13 may tarixlərində "Young Learners" (Azyaşlı öyrənənlər) kvalifikasiya imtahanlarına qeydiyyat aparılıb.
- 23, 24 və 25 aprel tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 24 apreldə Dövlət İmtahan Mərkəzi ilə Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzi arasında Anlaşma Memorandumu imzalanıb.

- 24 apreldə xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün DİM-in elektron imtahanlar korpusunda test imtahanı keçirilib.
- 26 apreldə TOEFL iBT imtahanı keçirilib.
- 27 apreldə peşəkar mühasib sertifikatı imtahanının I və II mərhələsi üzrə sınaq imtahanı keçirilib.
- 27 apreldə Bakı şəhərinin Sabunçu (II hissə), Nizami, Xəzər (II hissə), Pirallahı rayonlarında, Sumqayıt (II hissə), Abşeron (II hissə), Naxçıvan, Göygöl, Goranboy, Naftalan, Şəmkir (II hissə), Tovuz, Qax, Balakən, Zaqatala, Cəlilabad (II hissə), Masallı (II hissə), Lerik, Saatlı, Salyan, Kürdəmir, Ağdaş, Xaçmaz (II hissə), Quba (II hissə), Bərdə, Tərtər, Ağdərə və Laçında Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.
- 29 və 30 aprel tarixlərində təlimçi Anar Həsənov tərəfindən yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 30 apreldə xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün növbəti test imtahanı keçirilib.
- 30 aprel – 1 may tarixlərində Londonda keçirilən Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın yeddinci iclasında DİM-in Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Elmir Şirinov ölkəmizin nümayəndə heyətinin tərkibində yer alıb.
- 2 mayda DİM-in İdarə Heyətinin sədr müavini Bəhrəm Xəlilov vətəndaş qəbulu həyata keçirib.
- 2 mayda Dövlət İmtahan Mərkəzinin əməkdaşları ADA Universitetində keçirilən "Məşğulluq həftəsi" layihəsinin bağlanış mərasimində iştirak edib və layihəyə verdiyi töhfəyə görə DİM mükafatla təltif olunub.
- 3 mayda SAT imtahanı təşkil olunub.
- 4 mayda Azərbaycan dilindən fərqli dillərdə tədris aparılan ümumi təhsil müəssisələrinin 9-cu və 11-ci sinif şagirdləri üçün buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı keçirilib.
- 4 mayda rezidenturaya qəbul imtahanının birinci mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) birinci cəhdi keçirilib.
- 5 mayda rezidenturaya qəbul olmaq üçün mayın 4-də keçirilən imtahanın nəticələri elan edilib.
- 6 mayda 56 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun 146 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 7 mayda TOEFL iBT imtahanı keçirilib.
- 8 mayda Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib.
- 11 mayda qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün ixtisas imtahanı keçirib.
- 11 mayda Dövlət İmtahan Mərkəzi ümumi orta (9 illik) təhsil bazasında növbəti imtahanlar keçirib.
- 11 mayda Naxçıvan MR-nın ədliyyə orqanlarına qəbul imtahanı keçirilib.
- 11 mayda ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı (2-ci cəhd) keçirilib.
- 12 mayda təhsilin qiymətləndirilməsi sahəsində gənc mütəxəssislər bazasının formalaşdırılması məqsədilə həyata keçirilən "Gənc Psixometrik" təcrübə proqramının ilkin mərhələsinə – təlimlərə start verilib.
- 13 mayda 5 dövlət orqanında inzibati vəzifələrin 3 – 4-cü təsnifatlarına uyğun 6 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 13 mayda magistraturaya qəbul imtahanının qapalı və kodlaşdırıla bilən açıq tipli tapşırıqlar üzrə nəticələri elan olunub.
- 13 mayda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) və Dünya Bankının əməkdaşlığı çərçivəsində həyata keçirilən "Dövlət qurumlarında texnologiyaların tətbiqi və məlumat əsaslı qərarvermə üzrə texniki dəstək" layihəsinin pilot mərhələsi olaraq "Məlumat əsaslı qərarvermə" adlı təlim keçirilib.
- 13 və 14 may tarixlərində təlimçi Anar Həsənov tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 13, 20 və 27 aprel tarixlərində ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanlarından sonra iştirakçılar arasında məmnuniyyət sorğusu keçirilib.

- 15 may – 10 iyul tarixlərində subbakalavrın elektron ərizə qəbulu aparılıb.
- 15 mayda Dövlət İmtahan Mərkəzinin Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin müdiri Elnur Abbasov tərəfindən "Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının praktiki tətbiqi məsələləri" mövzusunda təlim təşkil edilib.
- 15 mayda Bakı və Naxçıvan şəhərlərində dövlət qulluğu vəzifələrinin A və B növünə aid vəzifə qrupları üzrə test imtahanı keçirilib.
- 15 və 16 may tarixlərində təlimçi Anar Həsənov tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 15, 19 və 21 may tarixlərində musiqi sənəti və teatr, kino və xoreoqrafiya sənəti istiqamətləri üzrə qabiliyyət imtahanlarına cəlb ediləcək zal nəzarətçiləri üçün təlimlər keçirilib.
- 16 mayda Dövlət İmtahan Mərkəzinin Bacarıqların, vərdişlərin qiymətləndirilməsi və markerlərlə iş şöbəsinin müdiri Aydın Qasımov və Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin müdiri Elnur Abbasov 1 saylı Bakı "ASAN xidmət" mərkəzində ASAN könüllüləri ilə görüş keçirib.
- 16 mayda Azərbaycan dili (dövlət dili) fənni üzrə mayın 4-də keçirilən test imtahanının nəticələri elan olunub.
- 17 mayda Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib.
- 18 və 20 may tarixlərində Dövlət İmtahan Mərkəzində peşəkar mühasib sertifikatı imtahanı materiallarının işlənilməsi ilə bağlı növbəti təlimlər keçirilib.
- 19 mayda xarici dillər üzrə doktorantura və dissertantura səviyyəsində keçirilən imtahanlara hazırlaşanlar üçün "Doktorantura" adlı metodik vəsait dərc edilib.
- 19 mayda Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinə işə qəbul olunmaq istəyən namizədlər üçün keçirilən test imtahanının nəticələri elan olunub.
- 19 – 20 may tarixlərində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün "Əmək qanunvericiliyinin tətbiqi: şəxsi işin aparılması, əmək məzuniyyəti, zəruri sənədləşmə, elektron bildiriş" mövzusunda təlim keçirilib.
- 19 – 23 may tarixlərində Babək, Şahbuz, Sədərək, Kəngərli, Şərur, Ordubad, Culfa rayonlarında və Naxçıvan şəhərində qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət qulluğuna qəbul: nəzəri və praktiki məsələlər", "Dövlət qulluğunda vəzifələrin və ehtiyat kadrların idarə edilməsi" və "Vaxtın idarə edilməsi və effektiv planlama" mövzularında təlimlər keçirilib.
- Mayın 20-dən 30-dək ali təhsil müəssisələrinin (V ixtisas qrupu) və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyənlərin qeydiyyatı aparılıb.
- 20 və 21 may tarixlərində təlimçi Anar Həsənov tərəfindən Dövlət Gömrük Komitəsində qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 21 – 30 may tarixlərində Bakı İlahiyyat Kollecinin dini-mənəvi xidmət ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.
- 21 may – 12 iyun tarixlərində BB vəzifə qrupu üzrə dövlət qulluğuna qəbul imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.
- 21, 22 və 23 may tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim keçirilib.
- 22 may – 9 iyun tarixlərində taksi minik avtomobili sürücüləri üçün iyunun 19-da keçiriləcək imtahana qeydiyyat aparılıb.
- 22 maydan 10 iyunadək ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən, lakin mayın 4-də keçirilən Azərbaycan dili imtahanında iştirak etməyən və ya qeyri-məqbul alan abituriyentlərin növbəti imtahana qeydiyyatı aparılıb.
- 22 mayda Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin Səriştələrin və peşəkar potensialın qiymətləndirilməsi şöbəsinin, İstedadın psixometrik diaqnostikası və maarifləndirmə sektorunun müdiri Sevinc Məmmədova tərəfindən nəzəri və praktik hissələrdən ibarət "Münaqişələrin idarə edilməsi" mövzusunda təlim keçirilib.

- 22 mayda əmlak sığortası sahəsi üzrə müstəqil ekspert sertifikatının verilməsi məqsədilə keçiriləcək imtahanın proqram layihəsini müzakirə etmək üçün sahə üzrə mütəxəssislərin iştirakı ilə seminar təşkil olunub.
- 22 – 23 may tarixlərində təlimçi Anar Həsənov tərəfindən Dövlət Gömrük Komitəsində qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 23 mayda Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarının başlanması ilə əlaqədar mətbuat konfransı keçirib.
- 23 mayda ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə aprelin 13-də keçirilən buraxılış imtahanının nəticələri elan olunub.
- 24 mayda SAT imtahanı keçirilib.
- 24 mayda II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib.
- 26 mayda DİM-in Kembric Universiteti Nəşriyyat və Qiymətləndirmə qurumu ilə əməkdaşlığı çərçivəsində Kembric imtahanlarının danışıq bloku üzrə qiymətləndirmə aparan ekspertlərinə təlim keçirilib.
- 26 mayda ali təhsil müəssisələrinin, tam orta (11 illik) və ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyənlər üçün nəşr edilən "Abituriyent" jurnalının xüsusi buraxılışları çap edilib.
- Mayın 26-dan iyunun 8-dək I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 2-ci cəhdində iştirak etmək üçün qeydiyyat aparılıb.
- 27 mayda "ASAN Könüllülərinin Diskussiya Platforması" çərçivəsində ASAN könüllüləri ilə görüş keçirilib.
- 26, 27 və 29 may tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim keçirilib.
- 29 mayda xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün növbəti test imtahanı keçirilib.
- 30 mayda Dövlət İmtahan Mərkəzi 2024-cü ilə aid tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinə dair elmi-statistik materialları "Abituriyent" jurnalının 12-ci nömrəsində nəşr edib.
- 30 mayda Energetika Nazirliyinin əməkdaşları üçün "Dövlət qulluğuna dair qanunvericiliyin təcrübədə tətbiqi məsələləri" mövzusunda təlim keçirilib.
- 30 mayda DİM-in Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin aparıcı məsləhətçisi Gündüz Əhmədli tərəfindən Ədliyyə Nazirliyinin əməkdaşları üçün "Dövlət qulluqçuları üçün etik davranış qaydaları və korrupsiyaya qarşı mübarizə" mövzusunda onlayn təlim təşkil olunub.
- 30 mayda magistraturaya qəbul imtahanının yekun nəticələri elan olunub.
- 30 mayda Dövlət İmtahan Mərkəzində avtomobil nəqliyyatının sığortası üzrə müstəqil ekspert sertifikatının verilməsi məqsədilə keçiriləcək imtahanın proqram layihəsini müzakirə etmək üçün sahə üzrə mütəxəssislərin iştirakı ilə seminar təşkil olunub.
- 30 mayda ADA Universitetinin Qazax Mərkəzində "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019 – 2025-ci illər üzrə Strategiya"nın 2023 – 2025-ci illərdə icrası üzrə Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının təmin edilməsi, dövlət qulluğunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə gənclərin maarifləndirməsi və onların dövlət qulluğuna marağının artırılması məqsədilə tələbə və gənclərin iştirakı ilə "Gənclərin dövlət qulluğu sahəsində biliklərinin artırılması" mövzusunda maarifləndirmə tədbiri keçirilib.
- 30 mayda ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə aprelin 20-də keçirilən buraxılış imtahanının nəticələri elan olunub.
- 1 iyunda Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə 6 – 10 yaş arasında olan şəhid övladlarına "Abituriyent" jurnalı redaksiyasının müvafiq yaş qrupları üçün qiymətləndirmə kitabçaları hədiyyə edilib. Bayram günü münasibətilə 108 şagirdə 12 adda 324 kitab təqdim olunub.
- 1 iyunda I və IV ixtisas qrupları (o cümlədən III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə qəbul imtahanı keçirilib.

- 2 – 4 iyun tarixlərində Oğuz, Qəbələ və Ağdaş rayonlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət qulluğunda inzibati vəzifələrin tutulması qaydaları" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi:qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında təlimlər keçirilib.
- 2 – 6 iyun tarixlərində DİM-in Metodika və dərsliklərin monitorinqi şöbəsinin əməkdaşları Tbilisidə Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzində imtahan materiallarının ekspertizasında iştirak ediblər.
- 2 – 20 iyun tarixlərində taksi sürücüləri və beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin hazırlığının qiymətləndirilməsi imtahanına qeydiyyatı aparılıb.
- 3 iyunda 13 mayda elan edilmiş daxili müsahibələrin keçirilmə qrafiki müəyyən edilib.
- 3 iyun – 3 iyul tarixlərində qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün 17 iyulda keçiriləcək ixtisas imtahanına qeydiyyat aparılıb.
- 4 iyunda DİM-in İdarə Heyətinin sədr müavini Bəhrəm Xəlilov vətəndaş qəbulu həyata keçirib.
- 4 iyunda peşəkar mühasib sertifikatı üzrə elektron sınaq imtahanının nəticələri elan olunub.
- 4 iyunda Dövlət İmtahan Mərkəzində fəaliyyətini başa çatdıran bir qrup könüllüyə sertifikat təqdim olunub.
- 4 – 30 iyun tarixlərində beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin sənəd qəbulu aparılıb.
- İyunun 5-dən 10-dək doktoranturaya qəbul olmaq istəyən namizədlər və doktoranturada oxuyan iddiaçıların xarici dillər üzrə imtahana, həmçinin əcnəbilər üçün Azərbaycan dili imtahanına qeydiyyatı aparılıb.
- İyunun 5-dən 13-dək 9 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.
- 5 iyunda "Gənc psixometrik" təcrübə proqramı çərçivəsində iştirakçılarla növbəti görüş baş tutub.
- 5 iyunda "SOCAR" əməkdaşlarının 7 və 8-ci siniflərdə təhsil alan övladlarının müsabiqə əsasında Almaniyada yay düşərgəsi proqramında iştirakı üzrə test imtahanı keçirilib.
- 5 iyunda ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə aprelin 27-də keçirilən buraxılış imtahanının nəticələri elan olunub.
- 5 və 10 iyun tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 7 iyunda SAT imtahanı təşkil olunub.
- 9 – 11 iyun tarixlərində Böyük Britaniyanın paytaxtı London şəhərində "Qiymətləndirmənin gələcəyini formalaşdırmaq: rəqəmsal dünyada innovasiya, inklüzivlik və dürüstlük" mövzusunda keçirilən beynəlxalq elektron qiymətləndirmə konfransında DİM-in əməkdaşı iştirak edib.
- 10 – 19 iyun tarixlərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində həqiqi hərbi xidmətə və mülki işə qəbul ilə bağlı qeydiyyatdan keçən şəxslərin elektron qeydiyyatı aparılıb.
- 10 iyunda ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə 11 mayda keçirilən imtahanların nəticələri elan olunub.
- 11 iyunda II və III ixtisas qrupları üzrə mayın 25-də keçirilən qəbul imtahanının nəticəsi elan edilib.
- 11 – 12 iyun tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 12 iyunda Dövlət İmtan Mərkəzi "Magistr" jurnalının 3-cü nömrəsinin elektron versiyasını təqdim edib.
- 12 iyun – 3 iyul tarixlərində Ədliyyə orqanlarına qəbul imtahanında iştirak etmək üçün sənədləri qəbul edilmiş namizədlərin qeydiyyatı aparılıb.
- 12 iyunda 95 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun 481 vakant vəzifənin tutulması üçün ümumi müsahibə elanı verilib.
- 13 iyunda DİM-in İdarə Heyətinin sədr müavini Bəhrəm Xəlilov vətəndaş qəbulu həyata keçirib.
- 13 – 17 iyun tarixlərində magistratura səviyyəsinin Musiqi sənəti, Təsviri sənət, Teatr, kino və xoreoqrafiya sənəti istiqamətləri üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən bakalavrların qeydiyyatı aparılıb.

- 13 iyunda Azərbaycan Respublikasının Energetika Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin İstedadın psixometrik diaqnostikası və maarifləndirmə sektorunun müdiri Sevinc Məmmədova tərəfindən nəzəri və praktik hissələrdən ibarət "Peşəkar kommunikasiya və emosional zəka: komanda daxili birliyin artırılması" mövzusunda təlim keçirilib.
- 13 iyunda Dövlət İmtahan Mərkəzinin Dövlət dili və xarici dillər üzrə şöbəsinin müdiri Könül Hacıyeva Böyük Britaniyada Kembric Universitetinin Nəşriyyat və Qiymətləndirmə Mərkəzinə (Cambridge University Press & Assessment) işgüzar səfər edib.
- 14 iyunda TOEFL iBT imtahanı keçirilib.
- 14 iyunda "A2 Key/A2 Key for schools" və "B1 Preliminary/ B1 Preliminary for schools" imtahanı keçirilib.
- 17 iyunda 6 dövlət orqanında inzibati vəzifələrin 3–4-cü təsnifatlarına uyğun 15 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 17 – 18 və 21 iyun tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim keçirilib.
- İyunun 17-dən 22-dək ali təhsil müəssisələrinin magistraturalarının jurnalistika üzrə ixtisaslaşmalarına qəbul üçün keçirilən qabiliyyət imtahanında iştirak etmək istəyən namizədlərin qeydiyyatı aparılıb.
- 18 iyunda TOEFL iBT imtahanı keçirilib.
- İyunun 18-də I və IV ixtisas qrupları (o cümlədən III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə 1 iyunda keçirilmiş qəbul imtahanının nəticəsi elan edilib.
- 18 iyunda DİM-in İdarə Heyətinin sədri Məleykə Abbaszadə ilə Qazaxıstanın Milli Test Mərkəzinin direktoru Bolatbek Abdrasilov arasında görüş keçirilib.
- 19 iyunda xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün növbəti test imtahanı keçirilib.
- 19 – 20 iyun tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təqdimat bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- İyunun 20-dən etibarən ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qabiliyyət imtahanlarının keçirilməsinə başlanılıb.
- 20 iyunda DİM-in İdarə Heyətinin sədri Məleykə Abbaszadənin rəhbərlik etdiyi nümayəndə heyəti Astana şəhərində Qazaxıstanın Dövlət Qulluğu üzrə Agentliyinin təşkilatçılığı ilə keçirilən "Yeni sistemlər, müasir xidmətlər və innovativ həllər" mövzusunda beynəlxalq İnsan Resursları Forumunda iştirak edib.
- 21 iyunda DİM-in saytına fiziki məhdudiyyətli şəxslərin internet informasiya resursundan istifadəsini genişləndirmək məqsədilə statik "Müyəssərlik menyusu" əlavə edilib.
- 21 iyun – 8 iyul tarixlərində peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi üzrə iyulun 20-də keçiriləcək imtahana qeydiyyat aparılıb.
- 21 iyunda TKT (Teaching Knowledge Test) imtahanı keçirilib.
- 22 iyunda doktorantura və dissertantura səviyyəsində xarici dil üzrə qəbul imtahanı və fəlsəfə doktoru imtahanı keçirilib.
- 22 iyunda inzibati vəzifələrin B növünə aid BB vəzifə qrupu üzrə dövlət qulluğuna qəbul imtahanı keçirilib.
- 23 iyunda müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə xarici dövlətlərdə ali təhsil almış şəxslər üçün peşə tanınması üzrə imtahan keçirilib.
- 23 iyunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində həqiqi hərbi xidmətə və mülki işə qəbulla bağlı test imtahanı keçirilib.
- 23 iyunda "A2 Key/A2 Key for schools" və "B1 Preliminary/ B1 Preliminary for schools" imtahanı keçirilib.
- 23 iyunda Azərbaycan Respublikasının Energetika Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin İstedadın psixometrik diaqnostikası və maarifləndirmə sektorunun müdiri Sevinc Məmmədova tərəfindən nəzəri və praktik hissələrdən ibarət "Çevik və inkişafyönlü idarəetmə" mövzusunda təlim keçirilib.

- 23 iyunda Teatr, kino və xoreoqrafiya sənəti istiqaməti üzrə qabiliyyət imtahanlarının keçirilməsinə başlanılıb.
- 23 – 24 və 25 iyun tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 23 – 25 iyun tarixlərində DİM əməkdaşları Özbəkistanın Səmərqənd şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının İctimai Xidmət üzrə Forumunda iştirak ediblər.
- 24 iyunda qabiliyyət imtahanlarını müşahidə etmək məqsədilə KİV nümayəndələri üçün mediatur təşkil edilib.
- 24 iyunda 40 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun 148 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 24 – 30 iyun tarixlərində taksi minik avtomobili sürücüləri üçün iyulun 8-də keçiriləcək imtahana qeydiyyat aparılıb.
- 24 iyun – 10 iyul tarixlərində dövlət qulluğunda inzibati rəhbər (A növü) və inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat aparılıb.
- 25 iyun – 2 iyul tarixlərində "Young Learners" (Azyaşlı öyrənənlər) kvalifikasiya imtahanlarına qeydiyyat elan olunub.
- 25 iyun – 9 iyul tarixlərində TKT (Teaching Knowledge Test) imtahanına qeydiyyat aparılıb.
- 28 iyunda TOEFL iBT imtahanı keçirilib.
- İyunun 29-da mayın 4-də keçirilən birinci Azərbaycan dili imtahanında iştirak etməyən şagirdlər və ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən, lakin ilk imtahanda iştirak etməyən və ya iştirak edib "qeyri-məqbul" qiymət alan abituriyentlər üçün Azərbaycan dili (dövlət dili) fənni üzrə test imtahanı (ikinci cəhd) keçirilib.
- 29 iyunda rezidenturaya qəbul imtahanının birinci mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) ikinci cəhdi keçirilib.
- 29 iyunda Naxçıvanda inzibati vəzifələrin B növünə aid BB vəzifə qrupu üzrə dövlət qulluğuna qəbul imtahanı keçirilib.
- 30 iyunda taksi sürücüləri və beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin hazırlığının qiymətləndirilməsi üçün növbəti test imtahanı keçirilib.
- 1 iyulda rezidenturaya qəbul imtahanının birinci mərhələsinin (ikinci cəhd) nəticələri açıqlanıb.
- 1 iyulda Bülbül adına Orta İxtisas Məktəbində Musiqi sənəti istiqaməti üzrə qabiliyyət imtahanlarının keçirilməsinə başlanılıb.
- 1 – 5 iyul tarixlərində doktorantura və dissertantura səviyyəsində xarici dil üzrə qəbul və fəlsəfə doktoru imtahanlarının, habelə əcnəbi vətandaşların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının danışıq bloku imtahanı keçirilib.
- 3 iyulda Dövlət İmtahan Mərkəzinin Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin müdiri Elnur Abbasov tərəfindən "Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının praktiki tətbiqi məsələləri" mövzusunda təlim təşkil edilib. Təlimdə Dövlət Turizm Agentliyinin əməkdaşları iştirak ediblər.
- 3 – 24 iyul tarixlərində BB vəzifə qrupu üzrə dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə imtahanlarda iştirak etmək üçün qeydiyyat aparılıb.
- 3 iyulda Azərbaycan dili (dövlət dili) fənni üzrə iyunun 29-da keçirilən test imtahanının nəticələri elan olunub.
- 4 iyulda "Magistr" jurnalının 4-cü nömrəsi nəşr edilib.
- 6 iyulda II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib.
- 6 iyulda Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib.
- 7 – 13 iyul tarixlərində magistraturaya qəbul olmaq istəyən bakalavrların ixtisaslaşma seçimi həyata keçirilib.

- 7 – 8 iyul tarixlərində Dövlət İmtahan Mərkəzinin Səriştələrin və peşəkar potensialın qiymətləndirilməsi şöbəsi və Hüquqi təminat, dövlət qulluğu məsələləri və dövlət strategiyaları ilə iş departamentinin əməkdaşları üçün Avropa İttifaqı (Aİ) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə təşəbbüsü ilə yaradılan Rəhbərlik və İdarəetmədə Təkmilləşməyə Dəstək (SIGMA) proqramı çərçivəsində "Texniki səriştələrin inkişafı və qiymətləndirilməsi" mövzusunda növbəti seminar təşkil olunub.
- 7 və 10 iyul tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 8 iyulda xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün növbəti test imtahanı keçirilib.
- 8 iyulda Dövlət İmtahan Mərkəzinin Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin böyük məsləhətçisi Miranə Rüstəmli və Müsahibələrin təşkili şöbəsinin aparıcı məsləhətçisi Kamran Səfərov tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim keçirilib.
- İyulun 9-dan 25-dək beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin sənəd qəbulu aparılıb.
- 9 iyulda TOEFL iBT imtahanı keçirilib.
- 11 iyulda GRE General Test imtahanı keçirilib.
- 13 iyulda I və IV ixtisas qrupları (o cümlədən III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə qəbul imtahanı keçirilib.
- 13 iyulda ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirilib.
- 14 – 21 iyul tarixlərində peşəkar mühasib sertifikatı üzrə elektron sınaq imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.
- 14 iyulda 12 iyunda elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib.
- 14 – 30 iyul tarixlərində peşəkar mühasib sertifikatı imtahanının II mərhələsi üzrə avqustun 10-da keçiriləcək imtahana qeydiyyat aparılıb.
- 14 iyulda 157 dövlət orqanında 790 vakant inzibati vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.
- 14 – 16 iyul tarixlərində Dövlət İmtahan Mərkəzində 2024/2025-ci tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlilinin ictimai müzakirələri keçirilib.
- 16 – 28 iyul tarixlərində taksi sürücüləri, avtomobil ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsləri və beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin hazırlığının qiymətləndirilməsi imtahanına qeydiyyat aparılıb.
- 17 iyulda qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün ixtisas imtahanı keçirilib.
- 17 iyulda II və III ixtisas qrupları üzrə iyulun 6-da keçirilən qəbul imtahanının nəticəsi elan edilib.
- 18 iyulda Qırğız Respublikasının İssık-Kul bölgəsində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin insan resursları sahəsində səlahiyyətli qurum rəhbərlərinin IV iclasında DİM-in İdarə Heyətinin sədr müavini Bəhrəm Xəlilov "Dövlət qulluğu sahəsində təlim: liderlik və dayanıqlı inkişaf" mövzusunda çıxış edib.
- 18 – 22 iyul tarixlərində memarlıq ixtisasına qəbul olmaq istəyən abituriyentlərin (subbakalavrların) qeydiyyatı aparılıb.
- 18 – 23 iyul tarixlərində jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.
- 20 iyulda peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi (mühasibat uçotu üzrə) keçirilib.
- 20 iyulda Bakı və Naxçıvan şəhərlərində dövlət qulluğu vəzifələrinin A və B növünə aid vəzifə qrupları üzrə test imtahanı keçirilib.
- 21 iyulda "Rezidentura" xüsusi buraxılışının 3-cü nömrəsi nəşr edilib.
- 21 – 23 iyul və 11 avqust tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təlimçilər üçün təlim" mövzusunda təlim təşkil olunub.
- 21 – 25 iyul tarixlərində islamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

- 21 – 25 iyul tarixlərində Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət qulluğuna qəbul: nəzəri və praktiki məsələlər", "Dövlət qulluğunda vəzifələrin və ehtiyat kadrların idarə edilməsi" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi: qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında dövlət qulluqçuları üçün təlimlər keçirilib.
- 22 iyulda xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün növbəti test imtahanı keçirilib.
- 22 iyulda ali təhsilin magistratura səviyyəsinə qəbul olunmaq üçün keçirilən müsabiqənin nəticələri elan olunub.
- 22 – 30 iyul tarixlərində rezidenturaya qəbul imtahanının II mərhələsində iştirak etmək üçün qeydiyyat aparılıb.
- 23 iyulda TOEFL iBT imtahanı keçirilib.
- 24 iyulda "Magistr" jurnalının 5-ci nömrəsi nəşr edilib.
- 24 iyulda doktorantura və dissertantura səviyyəsində xarici dil fənni üzrə qəbul və fəlsəfə doktoru imtahanlarının nəticələri elan olunub.
- 24 iyulda I və IV ixtisas qrupları (o cümlədən III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə 13 iyulda keçirilmiş qəbul imtahanının nəticəsi elan edilib.
- 25 iyulda Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə dördüncü "Yüksəliş" müsabiqəsinin qaliblərindən biri Seymur Hüseynovla növbəti görüşünü keçirib.
- 27 iyulda ali təhsil müəssisələrinin qabiliyyət tələb edən musiqi sənəti istiqaməti üzrə ixtisasların harmoniya və solfecio, musiqi nəzəriyyəsi və solfecio fənləri üzrə test imtahanı keçirilib.
- 28 iyulda "Gənc Psixometrik" təcrübə proqramının ilk çağırışının rəsmi bağlanış mərasimi keçirilib.
- 28 və 29 iyul tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim təşkil olunub.
- 29 iyulda Azərbaycan Respublikası Energetika Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzinin Ümumi səriştələrin qiymətləndirilməsi sektorunun böyük məsləhətçisi Xavər Dadaşova və həmin sektorun aparıcı məsləhətçisi Nazlı Abdulәlimova tərəfindən "Səriştəyönümlü təşkilati mədəniyyətin formalaşması"mövzusunda təlim keçirilib.
- 29 iyulda musiqi sənəti istiqamətinə aid Harmoniya və solfecio, Musiqi nəzəriyyəsi və solfecio fənləri üzrə imtahanın nəticəsi elan olunub.
- 30 iyulda "Abituriyent" jurnalının 3-cü nömrəsi nəşr edilib.
- 30 iyul – 1 avqust tarixlərində Dövlət İmtahan Mərkəzində ali təhsil müəssisələrinin sərgisi keçirilib.
- İyulun 31-dən avqustun 7-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi aparılıb.
- 31 iyulda Azərbaycan Respublikasının Energetika Nazirliyinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsinə ümumi baxış" mövzusunda təlim keçirilib.
- 3 avqustda dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanları keçirilib.
- 3 avqustda Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusu və Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə 18, 20, 24, 27, 29, 30, 73 və 75-ci komissiyalara aid musiqi ədəbiyyatı fənni üzrə elektron formada test imtahanı keçirilib.
- 4 avqustda ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirilib.
- 5 – 8 avqust tarixlərində Quba, Qusar, Xaçmaz və Şabran rayonlarında qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət qulluğunda inzibati vəzifələrin tutulması qaydası" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi: qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında təlimlər keçirilib.
- 8 avqustda jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün keçirilmiş qabiliyyət imtahanının nəticələri açıqlanıb.

- 8 avqustda ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün keçirilən müsabiqənin nəticələri elan olunub.
- 8 avqustda sürücülər və beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsləri üçün növbəti test imtahanı keçirilib.
- 8 avqustda Dövlət İmtahan Mərkəzinin əməkdaşları ixtisas seçiminin başlanması ilə əlaqədar "Abituriyent Məsləhət Mərkəzləri"nin işçiləri üçün növbəti təlim keçirib.
- 8 avqustda "Abituriyent" jurnalının 4-cü nömrəsi, "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli" adlı kitabçalar, "Subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər üçün "Abituriyent" jurnalının xüsusi buraxılışları nəşr olunub.
- 8 avqustda Azərbaycan Respublikasının Energetika Nazirliyinin əməkdaşları üçün "Liderlik və idarəetmənin əsasları" mövzusunda təlim keçirilib.
- 9 avqustda "A2 Key/A2 Key for schools" və "B1 Preliminary/ B1 Preliminary for schools" imtahanları keçirilib.
- 10 avqustda baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının ikinci mərhələsi (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi) keçirilib.
- 10 avqustda peşəkar mühasib sertifikatı imtahanının ikinci mərhələsi (qanunvericilik üzrə) keçirilib.
- 11 avqustda 19 avqustadək ali təhsil müəssisələrinə qəbul olmaq istəyənlərin ixtisas seçimi aparılıb.
- 11 avqustda rezidenturaya qəbul imtahanının II mərhələsinin nəticələri elan olunub.
- 12 avqustda "Magistr" jurnalının 6-cı nömrəsi nəşr edilib.
- 12 avqustdan 3 sentyabradək 18 oktyabrda keçiriləcək "Young Learners" (Azyaşlı öyrənənlər) kvalifikasiya imtahanlarına qeydiyyat aparılıb.
- 12, 13 və 18 avqust tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təlimçilər üçün təlim" mövzusunda təlim keçirilib.
- Avqustun 13-dən 18-dək ali təhsil müəssisələrinin magistraturalarının boş qalan plan yerlərinə qəbul aparılıb.
- 13 avqustda 9 dövlət orqanında inzibati vəzifələrin 3 – 4-cü təsnifatlarına uyğun 18 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- Avqustun 13-dən 17-dək rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi aparılıb.
- 13 avqustdan 13 oktyabradək "B2 First" Kembric kvalifikasiyası imtahanı üçün qeydiyyat aparılıb.
- 14 avqustdan 7 oktyabradək "A2 Key/A2 Key for schools" və "B1 Preliminary/ B1 Preliminary for schools" imtahanlarına qeydiyyat aparılıb.
- 18 avqustda əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub.
- 19 avqustda "Rezidentura" xüsusi buraxılışının 4-cü nömrəsi nəşr edilib.
- 19 avqustda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün iyulun 20-də keçirilən imtahanın nəticələri elan olunub.
- 19 avqustda ali təhsil müəssisələrinin magistraturalarının boş qalan plan yerləri ilə bağlı müsabiqənin nəticələri elan olunub.
- 19 – 22 avqust tarixlərində Zaqatala, Balakən, Qax rayonlarında və Şəki şəhərində qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət qulluğuna qəbul: nəzəri və praktiki məsələlər", Dövlət qulluğunda vəzifələrin və ehtiyat kadrların idarəedilməsi" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi: qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında təlimlər keçirilib.
- 20 avqustda Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə "Yüksəliş" müsabiqəsinin bir qrup finalçısı ilə görüş keçirib.
- 20 avqustda "Magistr" jurnalının 7-ci nömrəsi təqdim edilib.
- 21 – 22 avqust tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Ünsiyyət bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.

- 22 avqustda Azərbaycan Respublikasının Energetika Nazirliyinin əməkdaşları üçün "Dövlət qulluğunda gender bərabərliyi" mövzusunda təlim keçirilib.
- 19 – 20 və 25 avqust tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təlimçilər üçün təlim" mövzusunda təlim keçirilib.
- 22 avqustda ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri açıqlanıb.
- 25 avqustda "Abituriyent" jurnalının 5-ci və 6-cı nömrəsi nəşr edilib.
- 25 avqust – 11 sentyabr tarixlərində taksi minik avtomobili sürücüsü olmaq istəyənlər üçün imtahana qeydiyyat aparılıb.
- 22 avqustda DİM-in İdarə Heyətinin sədr müavini Bəhrəm Xəlilov Almatı şəhərində Qazaxıstanın Dövlət Qulluğu üzrə Agentliyi və İnsan Resursları Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən "İnsan Resursları" beynəlxalq forumunda iştirak edib.
- 26 – 27 avqust tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Ünsiyyət bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 27 avqustda "Abituriyent" jurnalının 7-ci nömrəsi nəşr edilib.
- 27 avqust – 16 sentyabr tarixlərində taksi minik avtomobili sürücüsü olmaq istəyənlər üçün imtahana qeydiyyat aparılıb.
- 28 avqustdan 2 sentyabradək ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam orta (11 illik) təhsil bazasında kolleclərə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimi aparılıb.
- 29 avqustda ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri barədə məlumatların verildiyi "Abituriyent" jurnalının xüsusi buraxılışı nəşr edilib.
- Avqustun 29-dan sentyabrın 3-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul aparılıb.
- 29 avqustda GRE General Test imtahanı keçirilib.
- 28 – 29 avqust tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Ünsiyyət bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 30 avqustda TOEFL iBT imtahanı keçirilib.
- 30 avqustda DİM-in Gəncə Regional Bölməsində ilk dəfə olaraq TKT (Teaching Knowledge Test) imtahanı təşkil edilib.
- 30 avqustda "B2 First" imtahanı keçirilib.
- 1 – 2 sentyabr tarixlərində rezidenturaya qəbul üçün müsabiqə şərtini ödəmiş, lakin əsas yerləşdirmə zamanı hər hansı ixtisasa qəbul ola bilməyən namizədlərin ixtisas seçimi aparılıb.
- 1 – 2 və 5 sentyabr tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təlimçilər üçün təlim" mövzusunda təlim keçirilib.
- 2 – 20 sentyabr tarixlərində aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən şəxslər üçün keçirilən test imtahanına qeydiyyat aparılıb.
- 2 – 20 sentyabr tarixlərində peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi üzrə oktyabrın 5-də keçiriləcək imtahana qeydiyyatı aparılıb.
- 3 sentyabrda TOEFL iBT imtahanı keçirilib.
- 3 sentyabrda 41 dövlət orqanında inzibati vəzifələrin 4 – 7-ci təsnifatına uyğun 126 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.
- 3 sentyabrda ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri elan olunub.
- 3 – 4 sentyabr tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Ünsiyyət bacarıqlarının inkişafı" mövzusunda təlim keçirilib.
- 4 sentyabrda "Abituriyent" jurnalının 8-ci və 9-cu nömrələri nəşr edilib.
- 4 sentyabrda ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub.

- 4 sentyabrda rezidenturaya boş qalan plan yerlərinə qəbulun nəticələri elan edilib.
- 4 sentyabrda 13 avqustda elan edilmiş daxili müsahibələrin keçirilmə qrafiki müəyyən edilib.
- 5 sentyabrda "Abituriyent" jurnalının 10-cu nömrəsi nəşr edilib.
- 7 sentyabrda cari ilin buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyənlər üçün əlavə imtahan keçirilib.
- 8 sentyabrda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün avqustun 10-da keçirilən imtahanın II mərhələsinin nəticələri elan olunub.
- 8 – 11 sentyabr tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Ünsiyyət bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 9 – 12 sentyabr tarixlərində Samux, Daşkəsən, Göygöl rayonlarında və Gəncə şəhərində qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət qulluğuna qəbul: nəzəri və praktiki məsələlər", Dövlət qulluğunda vəzifələrin və ehtiyat kadrların idarə edilməsi" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi: qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında təlimlər keçirilib.
- 12 sentyabrda GRE General Test imtahanı keçirilib.
- 12 sentyabrda Gənclər və İdman Nazirliyinin əməkdaşları üçün DİM-in Ümumi sərištələrin qiymətləndirilməsi sektorunun böyük məsləhətçisi Xavər Dadaşova və həmin sektorun məsləhətçisi Aynurə Abdalova tərəfindən "Sərištə əsaslı uğurlu liderlik" mövzusunda təlim keçirilib.
- 12 sentyabrda sentyabrın 7-də keçirilən buraxılış və Azərbaycan dili (dövlət dili kimi) imtahanının nəticələri elan olunub.
- 15 sentyabr – 6 oktyabr tarixlərində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda zal nəzarətçisi qismində iştirak etmək istəyən şəxslərin qeydiyyatı aparılıb.
- 15 sentyabr – 15 oktyabr tarixlərində qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər üçün ixtisas imtahanına qeydiyyat aparılıb.
- 16 sentyabrda Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri M.Abbaszadə "Xalq" qəzetinə geniş müsahibə verib.
- 16 – 17 və 24 sentyabr tarixlərində təlimçi Anar Həsənov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Təlimçilər üçün təlim" mövzusunda təlim təşkil olunub.
- 16 – 18 sentyabr tarixlərində Böyük Britaniyanın Edinburq şəhərində "MoodleMoot Global 2025" adlı beynəlxalq konfrans keçirilib. Konfransda DİM-i E-İmtahanlar və müsahibələrin təşkili departamentinin müdiri Vüsal Həmidov, İmtahanların təşkilinə texnologiya və innovasiyaların tətbiqi sektorunun müdiri İlqar Cəfərov və Test bankı şöbəsinin böyük məsləhətçisi Ülkər Uluxanova Rüstəmova təmsil ediblər.
- 17 sentyabrdan 2 oktyabradək BB vəzifə qrupu üzrə dövlət qulluğuna qəbul imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.
- 17 sentyabrda DİM-in İdarə Heyətinin sədr müavini Bəhrəm Xəlilov vətəndaş qəbulu həyata keçirib.
- 17 sentyabrda Dövlət İmtahan Mərkəzinin İstedadın psixometrik diaqnostikası və maarifləndirmə sektorunun müdiri Sevinc Məmmədova tərəfindən Dövlət Turizm Agentliyinin əməkdaşları üçün nəzəri və praktik hissələrdən ibarət olmaqla "Peşəkar kommunikasiya və emosional zəka: komanda daxili birliyin artırılması" mövzusunda təlim keçirilib.
- 18 – 19 sentyabr tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları üçün "Ünsiyyət bacarıqlarının inkişafı" mövzusunda təlim təşkil olunub.
- 19 sentyabrda Dövlət İmtahan Mərkəzinin Dövlət strategiyası ilə iş və insan kapitalının inkişafı şöbəsinin müdiri Elnur Abbasov tərəfindən "Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının praktiki tətbiqi məsələləri" mövzusunda təlim təşkil edilib. Təlimdə Gənclər və İdman Nazirliyinin əməkdaşları iştirak ediblər.
- 19 sentyabr – 8 oktyabr tarixlərində TKT (Teaching Knowledge Test) imtahanına qeydiyyat aparılıb.
- 21 sentyabrda hakim vəzifəsinə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib.
- 21 – 26 sentyabr tarixlərində Zambiyanın Livinqston şəhərində "Qiymətləndirmədə çeviklik: Təhsildə sürətli transformasiyalara uyğunlaşma (Assessment Agility: Navigating Rapid Educational Transformations)" mövzusunda Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA) 50-ci illik konfransı keçirilib. Konfransda DİM-in əməkdaşları da iştirak ediblər.

- 22 və 23 sentyabr tarixlərində təlimçi Tural İsgəndərov tərəfindən Azərbaycan Respublikası Hesablama Palatasının əməkdaşları üçün "Dövlət satınalmaları ilə bağlı yeniliklər" mövzusunda təlim keçirilib.
- 23 sentyabrda "Abituriyent" jurnalının 11-ci nömrəsi nəşr edilib.
- 23 sentyabrda xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün növbəti test imtahanı keçirilib.
- 23 sentyabrda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün "İnsan resurslarının idarə edilməsinə ümumi baxış" mövzusunda təlim keçirilib.
- 23 – 26 sentyabr tarixlərində Goranboy rayonu və Mingəçevir, Yevlax, Naftalan şəhərlərində qulluq keçən dövlət qulluqçuları üçün "Dövlət qulluğuna qəbul: nəzəri və praktiki məsələlər", Dövlət qulluğunda vəzifələrin və ehtiyat kadrların idarə edilməsi" və "Dövlət müəssisələrində səmərəli ünsiyyət və komanda işi: qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün psixoloji vasitələr" mövzularında təlimlər keçirilib.
- 24 sentyabrda Dövlət İmtahan Mərkəzinin İstedadın psixometrik diaqnostikası və maarifləndirmə sektorunun müdiri Sevinc Məmmədova tərəfindən Dövlət Turizm Agentliyinin əməkdaşları üçün "Rəhbər vəzifəli şəxslər üçün insan resurslarının idarəedilməsi və liderlik" mövzusunda təlim keçirilib.
- 24 – 28 sentyabr tarixlərində tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul aparılıb.
- 25 sentyabrda Bakı və Naxçıvan şəhərlərində dövlət qulluğu vəzifələrinin A və B növünə aid vəzifə qrupları üzrə test imtahanı keçirilib.
- 26 sentyabrda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları üçün "İşçilər arasında qarşılıqlı münasibətlər sistemi" mövzusunda distant formada təlim keçirilib.
- 26 sentyabrda dövlət qulluğu üzrə 3 sentyabrda elan edilmiş daxili müsahibələrin keçirilmə qrafiki müəyyən edilib.
- 26 sentyabrda Dövlət İmtahan Mərkəzində torpaqlarımızın bütövlüyü uğrunda aparılmış 44 günlük müharibədə şəhid olmuş şəxslərin məktəbli övladlarının iştirakı ilə görüş keçirilib.
- 28 sentyabrda taksi minik avtomobili sürücüləri üçün Bakı və Gəncə şəhərlərində növbəti test imtahanı keçirilib.
- 29 sentyabrda müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə xarici dövlətlərdə ali təhsil almış şəxslər üçün peşə tanınması üzrə imtahan keçirilib.
- 29 sentyabrda aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyənlər üçün Bakı və Naxçıvan şəhərlərində test imtahanı keçirilib.
- 29 sentyabrda tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbulun nəticələri elan olunub.
